ƏZİZ OXUCULAR!

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi"i 1961-ci ildən nəşr edilir. Əvvəllər 3 aydan bir - ildə 4 dəfə nəşr edilən təqvim, 1970-ci ilin oktyabr ayından etibarən "Kitabxana işçisinə kömək", 2005-ci ildən isə yenidən "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə nəşr olunur.

Bütün bu illər ərzində təqvim "ənənə və yeniliklər" şüarına sadiq qalaraq daha da təkmilləşdirilmiş, həcmi genişləndirilərək mövzu üzrə bölmələrin sayı artırılmış, geniş məlumat mənbəyi kimi formalaşdırılmışdır.

Mədəniyyət işçiləri, müəllimlər, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin hər buraxılışının müqəddiməsində nəşrin məzmunu, forması geniş şəkildə açılır. Təqvimi nəşr etməkdə əsas məqsəd geniş oxucu kütləsinə və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən mühüm əlamətdar hadisələri və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır.

Təqvimin bu dəfəki sayı Azərbaycanın peşəkar musiqi sənətinin və milli operasının banisi, dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəylinin 130 illik yubileyinə həsr olunmuşdur.

Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyəti tarixində yeni istiqamətin və milli bəstəkarlıq məktəbinin əsasını qoymuşdur. Azərbaycan musiqisi tarixində ilk opera, ilk musiqili komediya və bir sıra digər janrlarda ilk nümunələrin yaradıcısı kimi tanınmış Azərbaycan musiqisinin dərinliklərini və istiqamətlərini araşdırıb üzə çıxarmış və əsaslandırmış ilk azərbaycanlı folklorçu-bəstəkar və musiqişünas-alimdir. O, Azərbaycan SSR-nin və müstəqil Azərbaycan Respublikası himnlərinin müəllifidir.

Üzeyir Hacıbəylinin əsərləri dünya musiqi incilərindən hesab edilir.

Təqvimdə Üzeyir Hacıbəylinin həyat və fəaliyyətinə dair zəngin məlumatlar öz əksini tapmışdır.

2015

KBT Я25
UOT (059)

Baş redaktor: **K.M.Tahirov**
professor,
Əməkdar mədəniyyət işçisi

Məsul katib: **N.Alışova**

Redaksiya heyəti:

A.Abdullayeva
N.Alışova
S.Quliyeva
A.Qocayeva

Redaktor: **M.Cəfərova**

Əlamətdar və tarixi günlər təqvimi - 2015 /baş red. K.Tahirov; red. M.Cəfərova; məsul katib N.Alışova; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2014.- 383 s.

© Azərbaycan Milli Kitabxanası, 2014

ISBN 978 9952 460 48 3

Təqvim-2015

Təqvimdə 2015-ci ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlər haqqında məlumatlar və əlamətdar hadisələr aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq; Musiqi. Opera. Balet; Teatr. Kino; Milli Qəhrəmanlar; Siyasət. Hərbi iş; Tarix; Fəlsəfə. İqtisadiyyat. Hüquq; Mədəniyyət. Elm. Maarif; İdman; Coğrafiya. Geologiya; Riyaziyyat. Fizika. Astronomiya; Kimya. Biologiya. Tibb; Texnika; Kitabxanaşünaslıq. Biblioqrafiya; Tarixdə bu gün.

Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, eləcə də tarixi hadisələr haqqında məlumatlar daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin baş vermə tarixi göstərilmişdir.

2015-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, sonda isə ***köməkçi əlifba göstəricisi*** tərtib edilmişdir.

Təqvim materialları üçün ədəbiyyat seçilərkən yeni və məzmunca ən uyğun kitablara, jurnal və qəzet məqalələrinə, ən çox müraciət olunan internet resurslarına və Milli Kitabxananın nəşrlərinə üstünlük verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, fikir və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
E-mail: metodik@anl.az

Keçi (qoyun) ili



Yaponiyada və digər Şərq ölkələrində qəbul edilmiş təqvimə əsasən 12 illik sikl daxilində hər bir il müəyyən heyvan işarəsi altında keçir. Şərqdə çox məşhur olan bu təqvimə əsasən 2015-ci il Keçi (qoyun) ilidir. Astroloqların fikrincə, bu il bütün bəlalar minimuma enəcək və il çox bərəkətli olacaqdır.

Təbiət vurğunu olan zərif, incə keçi taleyindən həmişə narazıdır, şıltaqlığı ilə ətrafdakıları bezdirir. Qəsbkardır. İntizamsızlıq, müntəzəm surətdə gecikmələr onun üçün adi haldır. Öz xeyrinə olduqda xoşa gəlməyi, başqalarından istifadə etməyi, onların hesabına yaşamağı bacarır. Buna baxmayaraq müstəqil deyil və minimum təhlükəsizliyi təmin edildikdə hər hansı həyat tərzinə asanlıqla alışır.

Cəsarətsiz keçi gileylənməyi xoşlayır. İstiqamət seçməyi heç vaxt bacarmır, həmişə başqalarına bel bağlayır. Təbiətən sakit, dinc olsa da bədbindir.

Hərəkətləri müdrikdir, lakin xasiyyətcə şıltaqdır. Çox vaxt dinə meyilli olur. Eyni zamanda fantastik və fövqəltəbii nə varsa hamısına, ulduz fallarına uyur. Keçi xeyirxah və qəşəng görünür. Həqiqətən o, xeyriyyəçiliyə meyl edir, lakin bədbəxtlikdən başqalarına əl tutarkən verdiyi şeylər həmişə özününkü olmur. Keçidə mülkiyyətçilik hissi yoxdur. Keçinin həyatı özündən asılı deyil, başqalarından və buyuruqdan asılıdır. Nə hadisə baş verirsə, versin, heç bir zaman onun təqsiri üzündən baş vermir.

Keçinin vicdansızlığı qarma-qarışıqlığa gətirib çıxara bilər. Onda məsuliyyət hissi, təşəbbüskarlıq, iradə qətiyyən yoxdur.

Zərif, bəzən nərmə-nazik olan keçi ağıllıdır. Zövqü və istedadı vardır, yaxşı mütəxəssis ola, hətta müəyyən bir incəsənət növündə parlaya bilər. Amma heç bir zaman birinci deyil. Bu, onun üçün daha yaxşıdır.

Rəhbərlik etməyi bacarmır, çünki itaət üçün yaranmışdır. Fantaziyalarla dolu varlığı möhkəm iradəyə möhtacdır.

Yaxşı təsir altında, maddi çətinliklərə rast gəlmədikdə, ağıllı məsləhətçiləri olduqda keçi müvəffəqiyyət qazana bilər.

Ə d ə b i y y a t

Keçi (qoyun) ili //Ulduzlar və talelər.- Bakı, 2010.- S.144-145.

Ulduz falları: Druidlərin falı. Qərb zodiak falı. Şərq Yapon falı. Şərq Çin falı /tərc. ed. İ. İsgəndərov, M. İsgəndərova; red. T.Məmmədov.- Bakı, 2006.-S.74-75.

1 yanvar
Gün çıxır 08:03
Gün batır 17:24
31 yanvar
Gün çıxır
07:51
Gün batır
17:56

YANVAR



22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamıdır. Metalı dəmir, uğurlu rəngi tünd-yaşıl, qara, göy, uğursuz rəngi ağdır. Uğurlu daşı rubin, oniks, enerji verən çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

C.A.	1
C.	2
Ş.	3
B.	4
B.E.	**5**
Ç.A.	6
Ç.	7
C.A.	8
C.	9
Ş.	10
B.	11
B.E.	**12**
Ç.A.	13
Ç.	14
C.A.	15
C.	16
Ş.	17
B.	18
B.E.	**19**
Ç.A.	20
Ç.	**21**
C.A.	22
C.	23
Ş.	24
B.	25
B.E.	26
Ç.A.	27
Ç.	28
C.A.	29
C.	30
Ş.	31

- *Yeni il (01.01)*
- ***Ümumxalq Hüzn Günü (20.01.1990)***
- *Bakıda "20 Yanvar" abidə-kompleksinin açılışı olmuşdur (20.01.2010)*
- *Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin (23.01.1945) 70 illiyi*
- *Gömrük İşçiləri Günü (30.01.1992)*

130 il Üzeyir Hacıbəyli 1885-1948



Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir.

Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir. Bunların içərisində ən görkəmli yer tutan, dünyada məşhurlaşmış, dünyanın hər yerinə yayılmış musiqi əsərlərini yaradan və Azərbaycanın çoxəsrlik musiqisini sistemləşdirən, formalaşdıran və dünyaya təqdim edən Üzeyir Hacıbəyov olmuşdur.

Üzeyir Hacıbəyov ömrünün son gününə qədər həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına, insanların təhsillənməsinə, maariflənməsinə həsr etmişdir. O, həm yazıçı, publisist, həm də alim, maarifçi, filosof, ictimai-siyasi xadim olmuş, dövlət işlərində fəal iştirak etmişdir.

Heydər Əliyev,
ümummilli lider

YANVAR

2015



Milli ədəbiyyat

Əməkdar mədəniyyət işçisi, yazıçı Hüseynov Tahir İsmayıl oğlunun (01.01.1930-08.05.1993) anadan olmasının 85 illiyi

Xalq şairi Yaqubov Zəlimxan Yusif oğlunun (Zəlimxan Yaqub) (21.01.1950) anadan olmasının 65 illiyi 8

Şair, dramaturq Babayev Adil Qafar oğlunun (28.01.1925-19.08.1977) anadan olmasının 90 illiyi 9



Dünya ədəbiyyatı

Alman yazıçısı Qrimm Yakobun (Qrimm qardaşları) (04.01.1785-20.09.1863) anadan olmasının 230 illiyi

Özbək Xalq yazıçısı Musa Daşməhəmmədovun (Aybək) (10.01.1905-01.07.1968) anadan olmasının 110 illiyi

Rumın şairi Eminesku Mixayın (15.01.1850-15.06.1889) anadan olmasının 165 illiyi

Rus yazıçısı, diplomat Qriboyedov Aleksandr Sergeyeviçin (15.01.1795-11.02.1829) anadan olmasının 220 illiyi

Rus yazıçısı Çexov Anton Pavloviçin (29.01.1860-2 (15).07.1904) anadan olmasının 155 illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, klarnet ifaçısı Qədimov Vəli Nurbala oğlunun (12.01.1940-15.04.2009) anadan olmasının 75 illiyi



Teatr. Kino

Aktyor Rzayev Səməndər Mənsim oğlunun (02.01.1945-27.03.1986) anadan olmasının 70 illiyi

Xalq artisti Bədirbəyli Leyla Ağalar qızının (08.01.1920-23.11.1999) anadan olmasının 95 illiyi 10

Əməkdar incəsənət xadimi, televiziya rejissoru Bədirzadə Məhərrəm Əlisəftər oğlunun (13.01.1945) anadan olmasının 70 illiyi 11

Xalq artisti Səlimova Cənnət Əlibəy qızının (15.01.1940) anadan olmasının 75 illiyi

Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, kinoşünas Kazımov Aydın Ələsgər oğlunun (Aydın Kazımzadə) (15.01.1940) anadan olmasının 75 illiyi

Xalq artisti Şirye Vera Karlovnanın (31.01.1915-2003) anadan olmasının 100 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru Tağıyeva Röya Seyfəddin qızının (01.01.1945) anadan olmasının 70 illiyi

Milli Qəhrəmanlar



Azərbaycanın Milli Qəhrəmanı Abbasov Mehdi Yusif oğlunun (01.01.1960-13.01.1992) anadan olmasının 55 illiyi 12
Azərbaycanın Milli Qəhrəmanı Yusifov Naiq Nəsir oğlunun (05.01.1970-24.03.1992) anadan olmasının 45 illiyi 13
Azərbaycanın Milli Qəhrəmanı Çobanov Şamoy Məhyəddin oğlunun (19.01.1965-19.08.1990) anadan olmasının 50 illiyi 14
Azərbaycanın Milli Qəhrəmanı Şahbazov Fəxrəddin İbrahim oğlunun (22.01.1950-20.11.1991) anadan olmasının 65 illiyi 15

Siyasət. Hərbi iş



İki dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank qoşunları qvardiya general-mayoru Aslanov Həzi Əhəd oğlunun (22.01.1910-24.01.1945) anadan olmasının 105 illiyi 16-17

Tarix



Maarif xadimi, tarixçi alim Qasımov Qasım Səfər oğlunun (18.01.1925-02.11.1991) anadan olmasının 90 illiyi

Mədəniyyət. Maarif. Elm



Maarif xadimi, şərqşünas-tərcüməçi Əfəndizadə Muxtar İsmayıl oğlunun (01.01.1880-17.10.1975) anadan olmasının 135 illiyi 18
Əməkdar mədəniyyət işçisi, ədəbiyyatşünas Sultanov Məmmədağa Sultan oğlunun (05.01.1910-19.01.1991) anadan olmasının 105 illiyi 19
Filologiya elmləri doktoru Şərifov Kamandar Kazım oğlunun (20.01.1940) anadan olmasının 75 illiyi

Coğrafiya.Geologiya



Akademik Yusifzadə Xoşbəxt Bağı oğlunun (14.01.1930) anadan olmasının 85 illiyi 20-21
Əməkdar ixtiraçı Rza Mirkərim oğlu Seyidin (12.01.1925) anadan olmasının 90 illiyi

İdman




İdman xadimi, Futbol üzrə Ümumittifaq və Beynəlxalq dərəcəli hakim Bəhramov Tofiq Bəhram oğlunun (29.01.1925-12.10.1993) anadan

olmasının 90 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Akademik Abdinov Cavad Şahvələd oğlunun (05.01.1940) anadan olmasının 75 illiyi 22
AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Məmmədov Yusif Əbülfət oğlunun (24.01.1950) anadan olmasının 65 illiyi 23



Kimya. Biologiya. Tibb

Akademik Məhərrəmov Abel Məmmədəli oğlunun (05.01.1950) anadan olmasının 65 illiyi 24
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Tağıyev Dilqəm Bəbir oğlunun (06.01.1950) anadan olmasının 65 illiyi
Kimyaçı-alim, tədqiqatçı, publisist Xəlilov Əjdər Nəcəfqulu oğlunun (Əjdər Xəlili) (10.01.1935) anadan olmasının 80 illiyi
Akademik Qarayev Abdulla İsmayıl oğlunun (14.01.1910-1968) anadan olmasının 105 illiyi 25
Əməkdar elm xadimi, professor Qasımov Nemət Abbaseli oğlunun (27.01.1940) anadan olmasının 75 illiyi 26
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Zülfüqarlı Cümşüd İsmayıl oğlunun (30.01.1905-1982) anadan olmasının 110 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının (01.01.1965) yaranmasının 50 illiyi 27



Tarixdə bu gün

Yeni il (01.01) 28
Samuel Morze teleqrafı kəşf etmişdir (06.01.1810)
Azərbaycan Demokratik Respublikasıın müstəqilliyi Versal Sülh konfransının Ali Şurasında tanınmışdır (11.01.1920)
SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən DQMV və başqa rayonlarda fövqəladə vəziyyət rejimi elan edilmişdir (15.01.1990)
Ümumxalq Hüzn Günü (20.01.1990) 29
Bakıda “20 Yanvar” abidə-kompleksinin açılışı olmuşdur (20.01.2010)
20 Yanvar şəhidləri keçmiş Dağüstü parkda – indiki Şəhidlər Xiyabanında dəfn edilmişdir (22.01.1990)
Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin (23.01.1945) 70 illiyi 30
Gömrük İşçiləri Günü (30.01.1992) 31

65 illiyi

Zəlimxan Yaqub
1950

Şair



Ə d ə b i y y a t

Əsərləri: on üç cilddə /Z.Yaqub; tərt. ed. və red. M.Nəbioğlu.- Bakı: Şərq-Qərb, 2011-2013.
Biz niyə sevməyək bir-birimizi /Zəlimxan Yaqub.-Bakı: [s. n.], 2011.- 255 s.
Mən öz dastanımı yazıb gəlmişəm /Zəlimxan Yaqub.- Təbriz: Razi, 2010 (1389 h.).- 263 s.
Mövlana poemalar /Zəlimxan Yaqub.- Bakı: [Vətən], 2012.- 194 s.
Özün basdırdığın ağaca söykən: iki cilddə /Zəlimxan Yaqub.- Bakı: Şərq-Qərb, 2010.- C.I.- 281 s.; C.II.- 293 s.
Peyğəmbər: [poema] /Z.Yaqub; red.: M.Seyidzadə, A.Turan.- Bakı: Pedaqogika, 2009.- 319 s.
Cəfərov, N. Zəlimxan Yaqub: [məqalələr] /Nizami Cəfərov.- Bakı: AzAtaM.- 2014.- 61 s.
Zəlimxan Yaqub - 60 /tərt. M.Nəbioğlu; [Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi].-Bakı, [2010.].-27 s.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org

Zəlimxan Yusif oğlu Yaqubov (Zəlimxan Yaqub) 1950-ci il yanvar ayının 21-də Gürcüstanda, Bolnisi rayonunun Bolus-Kəpənəkçi kəndində anadan olmuşdur. 1967-ci ildə həmin kənddə orta təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kitabxanaçılıq fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1967-ci ildə fəhlə kimi başlamış, 1973-1984-cü illərdə "Azərkitab" Kitab-Ticarət Birliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1984-cü ildə "Yazıçı" nəşriyyatının müdiri vəzifəsində işləmişdir.

Ədəbi fəaliyyətə 1966-cı ildə "Qələbə bayrağı" rayon qəzetində dərc etdirdiyi "Şota Rustaveliyə" adlı şeirlə başlamışdır.

1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1987-ci ildə Ağdam Dövlət Dram Teatrında "Aşıq Ələsgər" adlı mənzum pyesi müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Görkəmli şair 1992-1995-ci illərdə sərbəst bədii yaradıcılıqla məşğul olmuşdur. "Könlümün səsi", "Yolum eldən başlanıb", "Od aldığım ocaqlar", "Biz bir eşqin butasıyıq", "Ziyarətin qəbul olsun", "Şair harayı", "Bir əlim torpaqda, bir əlim haqda", "Bu yaşıl ağacın altı bizimdir", "Zəlimxan Yaqub" (foto-albom), gürcü dilində "Söz camı", fransız dilində "Şairin taleyi" kitabları böyük tirajla nəşr edilmişdir.

Zəlimxan Yaqub ictimai fəaliyyətlə də məşğul olmuş, 1995-2005-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir.

1994-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvüdür.

Dövlət nümayəndə heyətinin tərkibində ABŞ-da, Almaniyada, Çin Xalq Respublikasında, Səudiyyə Ərəbistanında, İraqda, Türkiyədə, Qırğızıstanda rəsmi səfərlərdə olmuşdur.

2008-ci il avqust ayının 29-da Azərbaycan aşıqlarının V qurultayında Azərbaycan Aşıqlar Birliyinin sədri seçilmişdir.

2000-ci ildə Azərbaycanın "Şöhrət" və Gürcüstanın "Şərəf" ordenləri ilə təltif olunmuş, 2005-ci ildə "Azərbaycanın Xalq şairi" fəxri adına layiq görülmüşdür. Hacı Zeynalabdin Tağıyev adına və Məmməd Araz adına mükafatlarla təltif edilmişdir. 2009-cu il iyun ayının 6-da Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Türk dünyasına hizmət" mükafatına layiq görülərək həmin akademiyanın fəxri doktoru seçilmişdir.

2012-ci il oktyabr ayının 5-də Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Azərbaycan Nyu-York Assosiasiyası Xalq şairini Fəxri diplom və medalla təltif etmişdir.

90 illiyi

Adil Babayev 1925-1977

Şair



Ədəbiyyat

Ata sorağında /Adil Babayev; [tərt.ed. E.Babayev].- Bakı: Gənclik, 1985.-117 s.

Pyeslər /Adil Babayev; tərt. ed. E.Babayev.- Bakı: Yazıçı, 1984.-252 s.

Behbudova, A. Adil Babayevin həyatı və yaradıcılığı: filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.01 /A.Behbudova; Naxçıvan Döv. Un-ti.- Naxçıvan, 2006.- 146 s.

Xəyal, S. Adil Babayev yaradıcılığı əsasında: [Kitab Adil Babayevin yubileyinə ithaf olunur] /Sona Xəyal; red. Ş.Kamil; ön sözün müəl. A.Babayev.- Bakı: [MBM], 2011.-143 s.

Orucoğlu, X. Qısa ömrün böyük əks-sədası /X.Orucoğlu //Ədalət.- 2012.- 11 fevral.- S.17.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

www.kitabxana.net

Adil Qafar oğlu Babayev 1925-ci il yanvar ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur.

1931-ci ildə orada 1 saylı orta məktəbdə təhsil almağa başlamış, 1938-ci ildə Tiflis şəhərində M.F.Axundov adına orta məktəbdə təhsilini davam etdirmişdir.

1943-cü ildə Tiflisdə A.S.Puşkin adına ikiillik Müəllimlər İnstitutunun ədəbiyyat fakültəsinə daxil olmuşdur. Eyni zamanda "Sovet Gürcüstanı" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir.

Ədəbi yaradıcılığa 1939-cu ildən başlamışdır. İlk şeirləri Tiflisdə "Gənc nəsil" məcmuəsində və "Sovet Gürcüstanı" qəzetində dərc edilmişdir.

1945-1947-ci illərdə "Kommunist" qəzetində ədəbi işçi və tərcüməçi, 1947-1949-cu illərdə "İnqilab və mədəniyyət" jurnalında Poeziya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1950-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Teatrşünaslıq fakültəsini bitirmiş, sonra bir müddət Azərbaycan Dövlət Nəşriyyatında Bədii ədəbiyyat şöbəsinin redaktoru işləmişdir.

Teatrşünas kimi teatr sənəti ilə sıx bağlı olmuş, 1959-cu ildə "M.Əzizbəyov adına teatr", 1974-cü ildə "Şərəfli yol" monoqrafiyalarını, çoxsaylı məqalələrini qələmə almaqla milli teatrın inkişafına kömək etmişdir.

1956-1964-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının ədəbi hissə müdiri işləmişdir.

Daha sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında Tənqid şöbəsinin müdiri, məsul katib və baş redaktorun müavini vəzifələrində çalışmışdır.

1971-ci ilin avqust ayından etibarən Azərbaycan Yazıçılar İttifaqında bədii tərcümə üzrə məsləhətçi işləmişdir. "Dağlar qızı", "Yarımçıq portret", "Mənim məhəbbətim", "Qız görüşə tələsir" pyesləri tamaşaya qoyulmuş, əsərləri xarici dillərə tərcümə olunmuşdur. "Lütfəli Abdullayev" (1966), "Leyla Bədirbəyli" (1970), "Ağahüseyn Cavadov" (1976) və başqa teatr xadimlərinə həsr olunmuş nəşrlərin müəllifidir.

A.Babayevin yaradıcılığında tərcümə fəaliyyəti xüsusi yer tutur. Tərcümə etdiyi V.Vinnikov və Y.Osnosun "Ağ şana güllə" (1959), Sao Yuyyanın "Tufan" (1959), Ş.Miloravanın "Tbilisi haqqında mahnı" (1961), N.Dumbadzenin "Darıxma ana" (1972), M.Petrieskunun "Ölümü görmüş insan" (1973) pyesləri səhnələşdirilmişdir.

Görkəmli şair-dramaturq, teatrşünas Adil Babayev 1977-ci il avqust ayının 19-da Bakıda vəfat etmişdir.

Xatirəsini əbədiləşdirmək üçün Naxçıvan Mərkəzi Uşaq Kitabxanasına və Bakı küçələrindən birinə onun adı verilmişdir.

70 illiyi

Səməndər Rzayev 1945-1986

Aktyor



Səməndər Mənsim oğlu Rzayev 1945-ci il yanvar ayının 2-də Ağsu rayonunda anadan olmuşdur. Aktyorluqla hələ məktəbdə oxuduğu müddətdə rayondakı dram dərnəyində məşğul olmağa başlamışdır.

1964-1968-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) aktyorluq fakültəsində təhsil almışdır. Onun ilk sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Ədil İsgəndərov və başqaları olmuşdur.

Hələ tələbəykən televiziyadakı çıxışları ilə qiraət ustası kimi sevilmiş, ömrünün sonunadək radionun "Bulaq" folklor toplusunun "Bulaq Dədəsi" kimi fəaliyyət göstərmişdir.

1967-ci ildən çalışdığı Milli Dram Teatrının səhnəsində çoxsaylı maraqlı və təkrarsız obrazlar yaratmışdır. Onun istedadı Milli Dram Teatrında Şekspirin "Hamlet" faciəsini tamaşaya qoymağa hazırlaşan baş rejissor Tofiq Kazımovun diqqətindən yayınmamış, rejissor onu Horatsio roluna dəvət etmişdir.

1973-cü ildə artıq teatr tamaşalarından, televiziyadan tamaşaçıların tanıyıb sevdiyi Səməndər Rzayev kinoda ilk böyük rolunu - "Nəsimi" filmində Şirvanşah İbrahimi oynamışdır.

Milli və dünya klassiklərindən Hüseyn Cavidin "Xəyyam" (Xacə Nazim), "Knyaz" (Knyaz), "İblis" (İbn Yəmin), M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (Hatəmxan ağa), S.Vurğunun "Vaqif" (Vaqif), "İnsan" (Valentin), C.Məmmədquluzadənin "Dəli yığıncağı" (Fazil Küleyni), C.Cabbarlının "Aydın" (Balaxan) pyeslərinin tamaşalarında müxtəlif xarakterli rollarda çıxış etmişdir.

"Babamızın babasının babası" (1981), "Bağ mövsümü" (1985), "Bəyin oğurlanması" (1986) filmlərində də maraqlı obrazlar yaratmışdır.

Səməndər Rzayevin qəhrəmanları, həqiqətən səmimi, qayğıkeş insanlardır. Yaradıcılığını əks etdirən personajların hər biri düşündürücü detallarla hafizələrə hopmuşdur. O, səhnədə baş verə biləcək hər hansı gözlənilməz hadisə anında yüksək peşəkarlıqla improvizə etməyi bacarır, xırda bir detaldan, adi bir deyim tərzindən yüksək, koloritli xarakter yaratmaq səviyyəsində bəhrələnirdi.

Televiziya tamaşasında yaratdığı Şakir Şəkəroviç ("Evləri köndələn yar") obrazı, dillər əzbəri olan "Ayə, niyə oynamırsınız?", "Nə deyir ə, bu", "Burdan eşit, burdan da oyna da" məşhur ifadələri bu gün də yaddaşlardadır.

Səməndər Rzayev 1974-cü ildə "Əməkdar artist" fəxri adına, 1980-ci ildə isə Dövlət mükafatına layiq görülmüşdür.

Xalqımızın görkəmli və sevimli aktyoru Səməndər Rzayev 1986-cı il mart ayının 27-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Fərəcov, S. Səməndər sənətinin gerçəkliyi /S.Fərəcov //Mədəniyyət.- 2012.-30 mart.- S.14.

Rəhimli, İ. Səməndər Rzayev (2.01.1945-27.03.1986) //Rəhimli İ. Azərbaycan teatr tarixi: dərslik.- Bakı, 2005.- S.194.

Sənani, O. "Səməndər Rzayev dedi ki, vallah, mən dəli oldum". Ofeliya Sənani: "Qayınatam Möhsün Sənani mənə kinoya çəkilməyə icazə vermədi" /Ofeliya Sənani; müsahibəni apardı Ayxan //Ekspress.-2013.-2-4 noyabr.-S.12.

Zümrüd. Səməndər Rzayev - 65: 41 yaşlı aktyorun sənət taleyi /Zümrüd //Səs.- 2010.- 31 mart.- S.12.

İnternetdə

www.anl.az

adam.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

www.medeniyyet.az

95 illiyi

Leyla Bədirbəyli 1920-1999

Aktrisa



Leyla Ağalar qızı Bədirbəyli 1920-ci il yanvar ayının 8-də Bakı şəhərində anadan olmuşdur. Bakıda 3 saylı Beynəlmiləl məktəbdə təhsil almışdır. Təhsil aldığı illərdə bir sıra dram dərnəklərinin iştirakçısı olmuş, əsasən Əli Bayramov adına klubda çıxış etmişdir.

O, 1937-1942-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti olmuş, 1952-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunu bitirmiş, 1942-1975-ci illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrında fəaliyyət göstərmişdir. Bu müddət ərzində aktrisa bir sıra maraqlı obrazlar yaratmışdır: V.Şekspirin "Otello" dramında Dezdemona, C.Cabbarlının dramlarında Sara ("Solğun çiçəklər"), Almaz ("Almaz"), Firəngiz ("Oqtay Eloğlu"), Solmaz ("Od gəlini"), İ.Səfərlinin "Göz həkimi"ndə Nərminə, S.Rəhmanın "Yalan" əsərində Şəlalə, L.Tolstoyun "Canlı meyit"ində Liza, İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramında Fəxrəndə və s.

Aktrisa kino sahəsində də özünü sınayaraq bir neçə filmə çəkilmişdir. 1945-ci ildə "Arşın mal alan" filmi çəkilməyə başlayanda Leyla Bədirbəyli Üzeyir Hacıbəylinin dəvəti və təşəbbüsü ilə filmə çəkilmişdir. Onun "Fətəli xan", "Koroğlu", "Səbuhi", "Görüş", "Dərviş Parisi partladır", "Dəli Kür", "Sevil" və s. filmlərdə yaratdığı maraqlı obrazlar həmişəlik tamaşaçıların yaddaşına həkk olunmuşdur.

1975-ci ildə aktrisa C.Cabbarlı adına "Azərbaycanfilm"in nəzdində yaradılan "Kino Aktyorları Teatrı"nın bədii rəhbəri kimi fəaliyyət göstərmişdir. Burada Qarsiya Lorkanın "Qanlı toy", M.Muradın "Təkan" dramları və s. pyeslər tamaşaya hazırlanmışdır.

Leyla xanım 1994-cü il mart ayının 3-də yenidən Dram teatrına gəlmiş və Vidadi Babanlının "Ana intiqamı"nda Qumru müəllimə rolunu oynamışdır. 1998-ci ildən öz ərizəsi ilə təqaüdə çıxmış, Prezident təqaüdçüsü olmuşdur.

L.Bədirbəyli 1946-cı ildə "Arşın mal alan" filmindəki Gülçöhrə roluna görə Stalin (sonralar Dövlət mükafatı) mükafatı, 1972-ci ildə isə "Mahnı dağlarda qaldı" tamaşasında oynadığı Fəxrəndə xanım obrazına görə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif olunmuşdur. İncəsənət sahəsindəki xidmətlərinə görə ona 1949-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1959-cu ildə "Xalq artisti" fəxri adları verilmişdir. "Şərəf nişanı" ordeni və medallarla da təltif edilmişdir.

Görkəmli aktrisa Leyla Bədirbəyli 1999-cu il noyabr ayının 23-də vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Ömrümün nağılları / Leyla Bədirbəyli.- Bakı: Gənclik, 1998.- 72 s.

Adil, B. Leyla Bədirbəyli /B.Adil.- Bakı: Azərnəşr, 1970.- 84 s.

Leyla Bədirbəyli [İzomaterial] /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: [İşıq], 1974.

Leyla Bədirbəyli anıldı //Ekspress.- 2010.- 10-12 aprel.- S.12.

Rəhimli, İ. Leyla Bədirbəyli (8.01.1920-3.11.1999) //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.345-347.

Tahirqızı, Ü. Leyla Bədirbəylinin xoşbəxt həyatının kədərli sonluğu: Ofeliya Bədirbəyli maraqlı hadisələri xatırlayır /Ü.Tahirqızı //Xalq cəbhəsi.- 2013.- 14 dekabr.- S.13.

İnternetdə

www.anl.az

adam.az

www.az.wikipedia.org

55 illiyi

Mehdi Abbasov 1960-1992

Milli Qəhrəman



Mehdi Yusif oğlu Abbasov 1960-cı il yanvar ayının 1-də Qərbi Azərbaycanın Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur.

1966-cı ildə Yeniyol kənd orta məktəbində təhsil almağa başlamış, 1976-cı ildə həmin məktəbi bitirmişdir.

1977-ci ildə Mehdinin ailəsi erməni təzyiqinə məruz qalaraq məcburən Qazaxıstan Respublikasının Tülkübas rayonunun Kulan kəndinə köçmüşlər.

Mehdi 1980-ci ildə Çimkənd Pedaqoji İnstitutunun hazırlıq şöbəsinə, daha sonra Karaqanda Pedaqoji İnstitutuna daxil olmuşdur.

1989-cu ildə Qazaxıstan KP Tülkübas Rayon Komitəsinin qərarı ilə Daxili İşlər orqanlarında işləməyə göndərilmişdir. Bir müddət burada müxtəlif vəzifələrdə işlədikdən sonra 1991-ci il iyun ayının 28-də Azərbaycan Respublikasının DİN-nin sərəncamına göndərilmiş, burada baş leytenant rütbəsində rota komandiri kimi DİN-in XTMD-ndə xidmətə başlamışdır. Xidmətlərinə görə dəfələrlə DİN-in mükafatlarına layiq görülmüşdür.

1992-ci il yanvar ayının 13-də Məlikcan postu ətrafında gedən döyüşdə, snayper gülləsi Mehdini başından ağır yaralamış və həmin gün o qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə baş leytenant Abbasov Mehdi Yusif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakının Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İsmayıllı rayonunun keçmiş Ruşan kəndi Mehdi Abbasovun adını daşıyır. Rayonun mərkəzi küçələrindən birinə onun adı verilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Abbasov Mehdi Yusif oğlu – XTMD rota komandiri, milis baş leytenantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Abbasov Mehdi Yusif oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed.. H.Həmidova.- Bakı, 2008.- S.17.

Əsgərov, V. Abbasov Mehdi Yusif oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.12-13.

Seyidzadə, M. Abbasov Mehdi Yusif oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

Milli Qəhrəmanlar

45 illiyi

Naiq Yusifov 1970-1992

Milli Qəhrəman



Naiq Nəsir oğlu Yusifov 1970-ci il yanvar ayının 5-də Tovuz rayonunun Ağdam kəndində anadan olmuşdur.

1987-ci ildə doğma kəndlərində orta məktəbi bitirərək, 1988-ci ildə Sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. Naiq hərbi xidmətini Gürcüstanın Texakaya şəhərində yerləşən rabitə batalyonunda başa çatdırmış və 1990-cı ildə Vətənə qayıtmışdır. Bir müddət sonra yerli özünümüdafiə dəstəsinə üzv yazılmışdır.

1992-ci il mart ayının 24-də Tovuz rayonunun Koxa-Nəbi kəndinə işğalçı erməni yaraqlılarının hücumu zamanı Naiq cəsur, fədakar, vətənpərvər bir əsgər kimi döyüş meydanında xüsusi qəhrəmanlıq nümayiş etdirmişdir. O, son dərəcə gərgin, qeyri-bərabər döyüş zamanı mühasirəyə düşən yoldaşlarını təhlükəli zonadan xilas etməyə bütün gücü, bacarığı ilə səy göstərmişdir. Amma son anda yağı düşmənin əlinə keçməmək üçün əlindəki qumbaranı sinəsinə sıxaraq qəhrəmancasına həlak olmuşdur.

Onun Vətən uğrunda göstərdiyi bu şücaət ölkə başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 nömrəli Fərmanı ilə Yusifov Naiq Nəsir oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Tovuz rayonunun Ağdam kəndində dəfn olunmuşdur. Vaxtilə təhsil aldığı orta məktəb də qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Yusifov Naiq Nəsir oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Yusifov Naiq Nəsir oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.277.

İsaqoğlu, V. Ağdamın qəhrəmanları: Naiq Nəsir oğlu Yusifov: (1970-1992) /V. İsaqoğlu //Tovuz şəhidləri.- Bakı, 1995.- S.15-20.

Seyidzadə, M. Yusifov Naiq Nəsir oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.220.

Yusifov Naiq Nəsir oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.202-203.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



50 illiyi

Şamoy Çobanov
1965-1990

Milli Qəhrəman



Şamoy Məhyəddin oğlu Çobanov 1965-ci il yanvar ayının 19-da Qazax rayonunun Ağköynək kəndində anadan olmuşdur. 1982-ci ildə 1 saylı Qazax şəhər orta məktəbini bitirdikdən sonra avtonəqliyyat müəssisəsində əmək fəaliyyətinə başlamışdır.

Şamoy Çobanov 1983-cü ildə Sovet Ordusu sıralarına hərbi xidmətə çağırılmış və 1985-ci ildə ordudan tərxis olunaraq doğma yurdu Qazax şəhərinə qayıtmışdır. Əvvəllər işlədiyi müəssisədə çilingər kimi fəaliyyətini davam etdirmişdir. 1989-cu ildə Qazax Rayon Polis Şöbəsinə işə qəbul olunmuşdur.

Erməni yaraqlılarının Xeyrimli, Yuxarı Əskipara, Bağanis Ayrım kəndlərinə hücumları ara vermirdi. Şamoy bu kəndlərdə əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə öz polis yoldaşları ilə birgə postlar qurmuşdu. Cəsur polis işçisi tez-tez erməni yaraqlıları ilə üzbəüz gəlirdi. O, erməni quldurlarına öz çirkin əməllərini həyata keçirməyə imkan vermirdi.

1990-cı il avqustun 19-unda Yuxarı Əskipara kəndinə gedən avtobus kəndin yaxınlığındakı "Qanlı dərə" deyilən yerdə erməni silahlıları tərəfindən gözlənilmədən hücuma məruz qalır. Avtobusu müşayiət edən Şamoy cəld yerə atılır və qanlı döyüş başlayır. Düşmən geri oturdulsa da, sərnişinlərdən yaralananlar və ölənlər var idi. Həmin döyüşdə kənd camaatının böyük hörmətini qazanmış vətənpərvər polis əməkdaşı Şamoy Çobanov da həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Çobanov Şamoy Məhyəddin oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Doğulduğu Ağköynək kəndində dəfn edilmişdir. Ağköynək kənd məktəbi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Şamoy Məhyəddin oğlu Çobanova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Polis nəfəri – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 10 oktyabr.- S.1.- (Ölümündən sonra).

Çobanov Şamoy Məhyəddin oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.-S.47-48.

Əsgərov, V. Çobanov Şamoy Məhyəddin oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.61.

Seyidzadə, M. Çobanov Şamoy Məhyəddin oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.-

İnternetdə

www.anl.az

www.az.wikipedia.org


www.milliqahraman.az



65 illiyi

Fəxrəddin Şahbazov
1950-1991

Milli Qəhrəman



Fəxrəddin İbrahim oğlu Şahbazov 1950-ci il yanvar ayının 22-də Bakı şəhərində anadan olmuşdur. 1967-ci ildə 20 saylı orta məktəbi bitirərək, Bakı Neft Texnikumuna daxil olmuşdu. 1969-cu ildə hərbi xidmətə çağırılmışdır. Ordu sıralarından tərxis olunduqdan sonra yarımçıq qalan təhsilini başa çatdıraraq, Azərbaycan Teleradio Şirkətində əmək fəaliyyətinə başlamışdır. Operator kimi tez-tez jurnalistlərlə birlikdə sərhəd bölgələrinə gedən Fəxrəddin oradan ən önəmli, ən vacib və aktual xəbərləri lentə alaraq tamaşaçılara çatdırırdı. O, şirkətdə çalışdığı müddətdə öz əməksevərliyi, bacarığı, mehribanlığı ilə rəhbərliyin və iş yoldaşlarının böyük rəğbətini, məhəbbətini qazanmışdı.

1991-cı il noyabr ayının 20-də Qarakənd kəndi yaxınlığında işğalçı erməni ordusunun əsgərləri tərəfindən atəşə tutulan Mİ-8 vertolyotunun içərisində olan Azərbaycanın bir çox tanınmış ziyalıları ilə birlikdə Fəxrəddin Şahbazov da faciəli surətdə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 nömrəli Fərmanı ilə Şahbazov Fəxrəddin İbrahim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Fəxrəddin İbrahim oğlu Şahbazova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Azərbaycan Respublikası "Dövlətteleradio" şirkətinin kinooperatoru –Qarabağın Dağlıq hissəsində baş verən hadisələrin respublika və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 dekabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- №24.-S.48; Xalq qəzeti.-1993.-5 dekabr.- (Ölümündən sonra).

Əsgərov, V. Sahbazov Fəxrəddin İbrahim oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.265.

Seyidzadə, M. Sahbazov Fəxrəddin İbrahim oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.- S.209.

Şahbazov Fəxrəddin İbrahim oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.193-194.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



105 illiyi

Həzi Aslanov 1910-1945

General mayor



Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvar ayının 22-də Lənkəran şəhərində anadan olmuşdur. İbtidai təhsilini 1 saylı şəhər orta məktəbində almışdır.

13 yaşında atasını itirən Həzi kərpic zavodunda fəhlə kimi işləməyə başlamışdır. Sonra komsomol ezamiyyəti ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilmiş, 1929-cu ildə oranı bitirdikdən sonra Leninqrad süvari məktəbinə daxil olmuşdur.

İki illik təhsildən sonra o, Kotovsk adına III Bessarabiya süvari diviziyasında tağım komandiri kimi fəaliyyətə başlamış, döyüş texnikası ilə yaxından maraqlanmış, həm öyrənmiş, həm də öyrətmişdir.

İkinci dünya müharibəsi başlananda, Həzi Ukraynada xidmət edirdi. 1941-ci il iyun ayının 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə, o, özünü bacarıqlı sərkərdə kimi göstərmişdi. Öz döyüşçüləri ilə Donbass ətrafında düşmənin şiddətli hücümlarını beş ay dəf etmiş, onu ağır tələfata uğratmışdı. 1941-ci ilin dekabr ayında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə "Qırmızı Ulduz" ordeninə layiq görülmüşdü. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə Həzinin başçılığı ilə 55-ci tank briqadasının tankçıları düşmənə ağır zərbələr endirmişlər. Aslanovun tankçıları vuruşa-vuruşa 40 km-dən artıq yol gedib Stalinqrad - Salsk dəmir yolunu tutub, almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum etmişdilər. Tanklar düşmənin xeyli qüvvəsini və texnikasını sıradan çıxarmışdı.

Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığında gedən döyüşlərdə böyük şücaət göstərmişdilər. Düşmənin 30 əks-hücumu dəf edilmiş, bir batalyon piyada qoşunu, 30 tankı, 50 avtomobili sıradan çıxarılmışdı. Bu döyüşdə göstərdiyi şücaətə görə podpolkovnik H.Aslanov 1942-ci il dekabr ayının 22-də "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüşdür.

O, daim öz hərbi biliyini artırmağa səy göstərirdi. 1943-cü il dekabr ayının 17-dən 1944-cü il aprel ayının 6-na kimi o, Zirehli tank qoşunları Akademiyasının birillik təhsil proqramını 3 aya mənimsəmiş, sonra yenidən doğma 35-ci qvardiya tank briqadasına qayıtmışdı.

1944-cü il mart ayının 13-də ona tank qoşunları general mayoru rütbəsi verilmişdir.

1944-cü il iyun ayının axırlarında Belorusiya və I Pribaltika cəbhəsinin qoşunları hücuma keçmişdilər. Belorusiyanın iri şəhər və dəmiryollarını azad etdikdən sonra Aslanovun tankları Vilnüsə hücumları davam etdirmişlər. General mayorun briqadası iyunun 24-dən iyulun 13-nədək düşmənə ağır zərbələr endirmişdi. Bu döyüşdəki qələbəyə görə 35-ci qvardiya tank briqadası "Qırmızı bayraq" ordeninə, general özü isə ikinci dərəcəli "Suvorov

ordeni”nə layiq görülmüşdü.

1944-cü il avqust ayının 1-də Aslanovun briqadası başqa ordu hissələri ilə birlikdə Yelqava şəhərini düşməndən təmizləmişlər. O, Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı sərkərdə, fitri istedad sahibi kimi göstərmişdir. Təkcə 1944-cü ilin hücum döyüşləri dövründə 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür almışdır. İki dəfə “Qırmızı Ulduz”, üç dəfə “Qırmızı Bayraq”, “Aleksandr Nevski”, İkinci dərəcəli “Suvorov Ordeni”, I dərəcəli “Vətən Müharibəsi Ordeni” və saysız medallarla təltif edilmişdir.

Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 1945-ci il 24 yanvar tarixində Latviyanın Liepay rayonunda alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur. Ölümündən 47 il sonra ona ikinci “Sovet İttifaqı Qəhrəmanı” adı verilmişdir.

Həzi Aslanovun məzarı Bakıda Şəhidlər Xiyabanındadır. Burada qəhrəmanın abidəsi ucaldılmışdır. 1969-cu ildə Həzinin vətəni Lənkəranda onun ev-muzeyi açılmış, 1983-cü il may ayının 8-də Lənkəran şəhərinin mərkəzində onun boyük heykəli ucaldılmışdır. Bakıdakı küçələrdən və metrostansiyalardan biri Həzi Aslanovun adını daşıyır.

Haqqında “General Həzi Aslanov” (1945), “General Aslanov” (1970), “Estafet” (1982), “Sizi dünyalar qədər sevirdim” (1985), “Dəmir atlı cəngavər” (2003) adlı filmlər çəkilmişdir.

Ə d ə b i y y a t

Abbaszadə, H. General: roman /H.Abbaszadə.- Bakı:Gənclik, 1981.- 353 s.

Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov: biblioqrafik göstərici /tərt. ed. Q.Məmmədov; [red. E.Məmmədyarova, S.Sultanova].- Bakı: Azərnəşr, 1985.- 85 s.

Aslanov Həzi Əhəd oğlu //Azərbaycan generalları: Kataloq /elmi red. N.Vəlixanlı; tərt.: Z.Dulayeva və b.; AMEA Azərbaycan Tarix Muzeyi.-Bakı, 2005.- S.117-127.

Həzi Əhəd oğlu Aslanov //Azərbaycanın qızıl ulduzları /AzSSR EA Tarix İn-tu ; tərt. ed. Q.Mədətov (red), M.Abbasov, R Zeynalov, L.Borodetski.-Bakı, 1975.-S.5-12.

Məhərrəmov, Ə. General H.Ə.Aslanov /Əli Məhərrəmov; red. F.Ələkbərova.- Bakı: Təhsil,2008.- 76 s.

Nəzirli, Ş. Azərbaycan oğulları Stalinqrad döyüşlərində /Şəmistan Nəzirli //Ədalət.- 2012.- 3 may.- S.7.

Məmmədov, N. Həzi Aslanovun qəhrəmanlıq bioqrafiyası /N.Məmmədov //Respublika.- 2010.- 23 yanvar.- S.5.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az


www.az.wikipedia.org

www.warheroes.ru

135 illiyi

Muxtar Əfəndizadə 1880-1975

Maarif xadimi



Muxtar İsmayıl oğlu Əfəndizadə (Muxtar Əfəndi) 1880-ci il yanvar ayının 1-də Ağdaş rayonunun Şəmsabad kəndində, ziyalı ailəsində anadan olmuşdur.

Uzun müddət (1886-1904) Azərbaycanın müxtəlif mədrəsələrində (Ağdaş, Şamaxı, Quba, Bakı) təhsil alan Muxtar Əfəndizadə hələ 8 yaşında ikən hafiz adını almışdır. 1904-1905-ci illərdə Qubada "Üsuli-cədid" məktəbi açmış, 1906-cı ilin axırlarında maarifçilik fəaliyyətini davam etdirmək üçün öz vətəni Ağdaşa qayıtmışdır.

Muxtar Əfəndinin Azərbaycan mədəniyyəti və maarifçiliyinin inkişafında misilsiz xidmətləri olmuşdur.

O, XX əsrin əvvəllərində qiraətxana yaratmış, Misirdən, Hindistan və İrandan, İstanbuldan, Krımdan, Bolqarıstandan, Orenburqdan, Kazandan və Astraxandan, Rusiyadan gələn qəzet və məcmuələr qiraətxananı zənginləşdirmişdi. 1923-cü ildə kitabların sayına görə Ağdaş qiraətxanası Bakıdan sonra ikinci yeri tuturdu.

M.Əfəndizadə 1906-1907-ci illərdə oğlan uşaqları üçün "Darülirfan" məktəbləri açmış, "Yaşlılar üçün kurs" təşkil etmişdi. 1908-1909-cu illərdə səfalətdən əziyyət çəkən uşaqlar üçün bir neçə bölgədə "Kimsəsiz uşaqlar evi" açmağa nail olmuşdur.

1909-cu ildə o, "Səadət" qız məktəbini açmış, məktəbin fəaliyyəti 1920-ci ilədək davam etmişdir.

1907-ci ildə Ağdaşda ilk teatr da M.Əfəndizadə tərəfindən yaradılmışdır. 1908-ci ildə teatrda R.Əfəndiyevin "Qan ocağı" əsəri tamaşaya qoyulmuşdur.

Cümhuriyyət dövründə parlamentdə fəaliyyət göstərsə də, 1920-ci ildə siyasətdən uzaqlaşmış, maarifçilik fəaliyyətini davam etdirmişdir. Cəmi 3 ay 19 günlük siyasi fəaliyyəti onun bir neçə il sürgün həyatı keçirməsinə səbəb olmuşdur.

1930-cu ildə Gürcüstana göndərilmiş, iki il orada pedaqoji fəaliyyətlə məşğul olmuş, "Yeni kənd" qəzetinin redaktoru, "Dan ulduzu" məcmuəsinin korrektoru vəzifəsində çalışmışdır. Lakin səhhəti ilə əlaqədar Bakıya qayıtmış, baş mətbuat müdirliyində və Tarix institutunda tərcüməçilik etmişdir.

İsgəndər Münşinin, Mirxondun, İbn Əl-Əsirin əsərlərini, Sədinin məşhur "Gülüstan" əsərinin sətri tərcüməsini etmişdir.

1944-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutun dil ədəbiyyat fakültəsini bitirmiş, həmin ildən Azərbaycan Dövlət Universitetində dərs deməyə başlamışdır.

Muxtar Əfəndizadə 1975-ci il oktyabr ayının 19-da, 95 yaşında vəfat etmişdir. Şəmsabad kənd orta məktəbinə və Ağdaş şəhərində yaşadığı küçəyə onun adı verilmişdir. Hal-hazırda doğulduğu və dəfn olunduğu kənddə ev-muzeyi fəaliyyət göstərir.

Ədəbiyyat

Ağdaşdan başlanan maarifçılık yolu... : Muxtar Əfəndizadə Azərbaycan istiqlalına və elminə böyük töhfələr vermiş şəxsiyyətdir /İsmayıl İsmayıl //Şərq 2014.- 14 avqust.- S.7.

Həsənzadə, K. Muxtar Əfəndizadənin maarifçilik fəaliyyəti /K.Həsənzadə //Təhsil 2014.- №2.- S.76-79.

Qədirov, M. Vətənpərvər maarifçi alim: Muxtar Əfəndizadə /M.Qədirov //525-ci qəzet.- 2010.- 28 yanvar.- S.8.

İnternetdə

www.az.wikipedia.org

www.muallim.edu.az

www.tehsilproblemleri.com

www.azadliq.info

105 illiyi Məmmədağa Sultanov 1910-1991

Ədəbiyyatşünas



Məmmədağa Sultan oğlu Sultanov 1910-cu il yanvar ayının 5-də Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Kiçik yaşlarında ailəsi ilə birgə Bakıya köçmüş, ibtidai təhsilini tamamladıqdan sonra fərdi təhsil almışdır.

1932-1933-cü illərdə "Hücum" jurnalının məsul katibi olmuşdur. 1933-1935-ci illərdə Kürdəmir Rayon MTS siyasi şöbəsinin orqanı "Bolşevik" qəzetinin redaktoru, 1935-1936-cı illərdə Masallı rayon qəzetinin redaktoru, 1936-1937-ci illərdə "Gənc işçi" qəzetinin redaktoru, 1937-1938-ci illərdə "Kommunist" qəzeti redaksiyasında elm və mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1939-cu ildə Mühəndis və Təsərrüfatçıların ixtisasını artıran İnstitutun Dil və Ədəbiyyat kafedrasının müdiri, 1939-1941-ci illərdə ADU-nun aspirantı olmuş və universitetdə müəllim işləmişdir. İkinci Dünya müharibəsi dövründə Zaqafqaziya cəbhəsi siyasi idarəsinin tərcüməçisi və siyasi təlimatçısı kimi Sovet ordusu tərkibində 1941-1942-ci illərdə Təbrizdə, 1942-1945-ci illərdə isə Qafqazda olmuşdur. M.Sultanov 1945-1950-ci illərdə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutu Əlyazmalar şöbəsinin müdiri işləmişdir. 1948-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. 1950-1972-ci illərdə Azərbaycan EA Əlyazmalar fondunun direktoru, 1972-1976-cı illərdə şöbə müdiri, 1976-1981-ci illərdə AEA Yaxın və Orta Şərq Xalqları İnstitutunun Şərq ölkələri ilə ədəbi əlaqələr şöbəsinin müdiri, 1982-ci ildə AEA Respublika Əlyazmalar İnstitutunda baş elmi işçi kimi çalışmışdır.

Ədəbi fəaliyyətə 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Sənət məktəbi" adlı ilk şeiri ilə başlamışdır. 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Klassik ədəbiyyatdan etdiyi poetik tərcümələr onun yaradıcılığında başlıca yer tutmuşdur. 1980-ci ildə "Kəlilə və Dimnə" kitabındakı şeirləri, Füzulinin, Nəsiminin və digər klassiklərin fars dilində yazdığı şeirləri poetik tərcümə etmişdir. Həmçinin, külli miqdarda kitabları bir mətnşünas kimi tərcümə və tərtib etmiş, elmi məqalələr yazmışdır. Rudəki, Cami, Əbu Əli Sina, Sədrəddin Ayni kimi sənətkarların yubileyində məruzələrlə çıxış etmişdir. O, 1954-cü ildə Daşkənddə ümumittifaq Şərqşünaslar konfransında, 1960-cı ildə isə Moskvada Beynəlxalq Şərqşünaslar Konqresində Azərbaycanı təmsil etmişdir.

Görkəmli alim fəal ictimai iş aparmışdır: işlədiyi elmi tədqiqat institutlarında yerli həmkarlar ittifaqının sədri, ilk partiya təşkilatının katibi olmuşdur. 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, müharibə və əmək veteranı olmuş, xidmətlərinə görə yeddi medalla təltif edilmişdir.

Ədəbiyyatşünas alim Məmmədağa Sultanov 1991-ci il yanvar ayının 19-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan əlyazmaşünaslığı məsələləri /M.Sultanov; AEA. M.Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Elm 2000.-96 s.

Yazılı abidələrin tədqiqi:məqalələr toplusu /M.Sultanov; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Nurlan, 2010.- 168 s.

Məmmədağa Sultanov (1910-1991): biblioqrafiya /AMEA M. Füzuli ad. Əlyazmalar İn-tu; tərt. ed. A.Xəlilov, L.Əliyeva; red. M.Adilov.-Bakı Nurlan, 2005.-84 s.

Əhmədov, T. Məmmədağa Sultanov /T.Əhmədov //XX əsr Azərbaycan yazıçıları.- Bakı, 2004.- S.575.

İnternetdə

www.anl.az

az.wikipedia.org

www.medeniyyet.az

85 illiyi

Xoşbəxt Yusifzadə 1930

Akademik



Xoşbəxt Bağı oğlu Yusifzadə 1930-cu il yanvar ayının 14-də Bakının Pirşağı kəndində anadan olmuşdur. 1947-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1952-ci ildə oranı Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı üzrə bitirərək dağ mühəndisi-geoloq ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə elə həmin il SSRİ Neft Sənayesi Nazirliyinin Bakıdakı Dövlətxüsusineftlayihə kontorunda başlamış, lakin az sonra yeni təşkil edilmiş Dənizneft Birliyində işə qəbul olmuş, burada böyük mühəndis və bölmə rəisi vəzifələrində çalışmışdır.

1954-cü ilin mart ayında Gürganneft trestinin (indiki "Neft Daşları" NQÇİ) birinci mədəninin böyük geoloqu vəzifəsinə təyin edilmiş və o vaxtdan da dəniz neft yataqlarının kəşfiyyatı və işlənilməsinin məşhur iştirakçılarından və rəhbərlərindən biri kimi tanınmışdır. X.B.Yusifzadə 1958-1959-cu illərdə "Neft Daşları" Mərkəzi elmi-tədqiqat və istehsalat işləri sexinin baş geoloqu, 1959-1960-cı illərdə həmin sexin rəisi vəzifələrində işləmişdir.

1960-cı ilin sentyabrında o, Sov.İKP-nın XXII qurultayı adına neft mədənləri idarəsi (keçmiş Gurganneft) rəisinin müavini - baş geoloq vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1963-cü ilin oktyabr ayınadək çalışmışdır. 1963-cü ildən 1970-ci ilədək Başdənizneft idarəsində baş geoloqun müavini – şöbə rəisi, Dənizneft İstehsalat Birliyinin geoloji-kəşfiyyat şöbəsinin rəisi – baş geoloqun müavini olmuşdur.

1970-1992-ci illərdə Xəzərdənizneft Birliyinin, Xəzərdənizneft İstehsalat Birliyinin, Ümumittifaq Xəzərdənizneftqazsənaye Birliyinin, Xəzərdənizneftqaz İstehsalat Birliyinin və Xəzərdənizneft İstehsalat Birliyinin baş direktorunun müavini - baş geoloq vəzifələrində işləmişdir.

1992-1994-cü illərdə Azərineft Dövlət Konserninin birinci vitse-prezidenti, ARDNŞ prezidentinin müşaviri, 1994-2004-cü illərdə ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifələrində çalışmışdır. 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentidir.

1960-cı ildə geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsi, 1987-ci ildə geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır. 2005-ci ildə ona professor elmi adı verilmişdir.

2007-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 188 elmi əsərin, o cümlədən 12 monoqrafiyanın və 8 ixtiranın müəllifidir.

Onun rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan

Ədəbiyyat

Akademik Xoşbəxt Yusifzadə: İrəlidə hələ o qədər iş var ki! /X.Yusifzadə //Respublika.- 2010.- 4 avqust.- S.3.

Akademik Xoşbəxt Bağı oğlu Yusifzadə: biblioqrafiya.- Bakı, 2012.- 244 s.;Mətn Azərb., rus və ingilis dillərində

Akademik Xoşbəxt Yusifzadə "Türk Dünyasının Fəxri Alimi" Beynəlxalq mükafatına layiq görülmüşdür //Azərbaycan.- 2012.- 10 yanvar.- S.3.

Годы и вехи моей жизни /Х.Юсифзаде; пер. с азерб. С.Мамедзаде; ред. А.Аббасов; худож. З.Алиев.- Баку: OSKAR, 2010.- 284 с., [69] с.

Самедова, Ф. Нефти Азербайджана: свойства и состав /Ф.Самедова; науч. ред. М.Рустамов, Х.Юсифзаде.- Баку: Элм, 2011.-410 с.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www.science.gov.az

www.socar.az

və Rusiya sektorlarında 20-dən artıq neft və qaz yatağı, o cümlədən dünyada məşhur olan ”Azəri”, “Çıraq” və “Günəşli” yataqları kəşf edilmiş və istismara daxil edilmişdir. 1988-ci ildən başlayaraq xarici şirkətlərlə birgə aparılmış bütün işlərdə, o cümlədən “Azəri-Çıraq-Günəşli” (dənizin dərin hissəsi) yataqlarının işlənməsində, “Əşrəfi” (1998-ci il), “Qarabağ” (1998-ci il), nəhəng “Şahdəniz” (1999-cu il), iri “Abşeron” (2011-ci il) kimi yataqların, eləcə də 2010-cu ildə ARDNŞ-nin öz gücü ilə açdığı “Ümid” yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur.

X.B.Yusifzadə AMEA-nın Neft Ekspedisiyasında, Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunda da fəaliyyət göstərmiş, dəniz neft və qaz yataqları ehtiyatlarının hesablanmasına, onların işlənilmə layihələrinin tərtib edilib həyata keçirilməsinə rəhbərlik etmiş, yataqların işlənilməsi ilə əlaqədar bir sıra elmi-metodiki və nəzəri məsələlərin həllində bilavasitə iştirak etmişdir.

2004-cü ildə “Ömrümün illəri və izləri” kitabı, 2007-ci ildə isə haqqında “Akademik Xoşbəxt Yusifzadə” biblioqrafiyası çapdan çıxmışdır. 2009-cu ildə “Akademik Xoşbəxt Yusifzadə” biblioqrafiyası Türkiyədə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən 4 dildə (Azərbaycan, türk, ingilis, rus) nəşr edilmişdir.

X.B.Yusifzadə Rusiya Beynəlxalq Mühəndislər Akademiyasının fəxri akademiki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin üzvü, “Azərbaycan Neft Təsərrüfatı” və “Azərbaycanın geofizika yenilikləri” jurnalları, Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətlərinin üzvü, Azərbaycan Geofizikləri Milli Komitəsinin, Azərbaycan Neftçi-Geoloqları Cəmiyyətinin, Amerika Neftçi-Geoloqları Assosiasiyasının, Avropa Alim-Geoloqları və Mühəndisləri Assosiasiyasının, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının üzvüdür.

Azərbaycanda və Xəzər dənizində neft və qazçıxarmanın inkişafına verdiyi böyük töhfələrə görə X.B.Yusifzadə bir sıra yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüşdür. O, keçmiş SSRİ-nin iki “Qırmızı Əmək Bayrağı” ordeni (1963-cü və 1976-cı illərdə), “Şərəf Nişanı” ordeni (1971-ci ildə) bir sıra medallar və fəxri fərmanlarla təltif edilmiş, “SSRİ-nin Fəxri neftçisi” (1971-ci ildə), “Yer təkinin Fəxri kəşfiyyatçısı” (1985-ci ildə), “Azərbaycan SSR-nin Əməkdar mühəndisi” (1964-cü ildə) adını almış, iki dəfə Azərbaycan SSR-nin Dövlət mükafatına (1982-ci və 1991-ci illərdə) layiq görülmüşdür.

2000-ci ildə o, Müstəqil Azərbaycanın “İstiqlal” ordeni, 2004-cü ildə “Əsrin müqaviləsi”nin 10 illiyi münasibətilə “Şöhrət” ordeni, 2005-ci ildə “Azərbaycanın Əməkdar mühəndisi” fəxri adı, 2010-cu ildə “Şərəf” ordeni ilə təltif olunmuşdur.

Neft hasilatında nanotexnologiyaların inkişaf etdirilməsi və tətbiqi sahəsində görkəmli xidmətlərinə görə 2010-cu ildə akademik X.B.Yusifzadə ARDNŞ-nin bir qrup mütəxəssisi ilə birlikdə YUNESKO-nun xüsusi medalı ilə təltif olunmuş, adı bu beynəlxalq təşkilatın ensiklopediyasına daxil edilmişdir.

Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının qərarı ilə türk dünyasının elmi, təhsili və iqtisadiyyatı sahəsində böyük xidmətlərinə görə X.B.Yusifzadə 2008-ci ildə bu akademiyanın beynəlxalq “Qızıl Ulduz Medalı” ilə təltif edilmiş, “İlin alimi” elan olunmuş, 2011-ci ildə isə “Türk Dünyasının Fəxri Alimi” adına, 2013-cü ildə Birləşmiş Millətlərin İctimai Təltiflər Şurasının Beynəlxalq Mükafat Komitəsi tərəfindən böyük elmi xidmətlərinə görə “Şərəf” və “Vicdan” ordeninə layiq görülmüşdür.

75 illiyi

Cavad Abdinov 1940

Akademik



Cavad Şahvələd oğlu Abdinov 1940-cı il yanvar ayının 5-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Behrud kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika-riyaziyyat fakültəsini bitirərək Azərbaycan EA Fizika İnstitutunda yarımkeçiricilər fizikası üzrə aspiranturaya daxil olmuşdur. Burada görkəmli alim akademik H.Abdullayevin elmi rəhbərliyi altında texnikada geniş tətbiq olunan selen yarımkeçiricisinin fiziki xassələrinin tədqiqi üzrə elmi-tədqiqat işləri aparmış və 1966-cı ildə namizədlik, 1976-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Cavad Abdinov 1984-cü ildə professor adını almışdır.

Professor respublikamızda və keçmiş ittifaqda ilk dəfə olaraq xüsusi təyinatlı yeni yarımkeçirici çeviricilər istiqamətini - yerüstü və uçan qurğularda yerləşdirilən informasiyanın qəbulu və verilməsi optik sistemlərində geniş tətbiq olunan elektron soyuducu, spektrin görünən, yaxın və uzaq infraqırmızı sahəsində həssas çeviricilər istiqamətini yaratmışdır.

C.Abdinov 1973-cü ildə Bakıda təşkil olunan və keçmiş SSRİ Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan Elmi-Tədqiqat Fotoelektronika İnstitutuna keçmiş, orada xüsusi təyinatlı yeni elektron texnikası cihazlarının yaradılması və istehsalı ilə məşğul olan "Bərk cisim elektronikası" elmi-istehsalat şöbəsini təşkil etmişdir. O, 1993-2002-ci illərdə AMEA Fotoelektronika İnstitutunun elmi işlər üzrə direktor müavini, 1998-2002-ci illərdə həmin institutun direktoru olmuşdur. 2009-cu ildən indiyədək isə Fizika İnstitutunun elmi işlər üzrə direktor müavinidir. O, "Физика селена" və "Развитие физики селена" adlı dünyada bu sahədə ilk monoqrafiyaların müəllifidir. Bundan başqa 283 elmi məqalə və 29 ixtiranın müəllifidir. Bu elmi məqalələrin 117-si SCİ siyahısına daxil olan jurnallarda nəşr olunmuşdur.

Cavad Abdinov keçmiş SSRİ EA və AMEA-nın Problem Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın fizika elmləri üzrə Ekspert Şurasının üzvü və sədri olmuşdur. Hazırda Dissertasiya Şurası, AMEA-nın iki Problem Şurasının, Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının Elektron Texnikası funksional materialları üzrə Problem Şurasının üzvü və AMEA-nın "Fizika" və "Xəbərlər" (fizika və astronomiya seriyası) elmi jurnallarının redaksiya heyətlərinin üzvüdür.

Kadr hazırlığı ilə də məşğul olmuş, 23 fəlsəfə doktoru, 3 elmlər doktoru hazırlamışdır.

1982-ci ildə isə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür. O, bir orden və iki medalla təltif olunmuşdur.

Cavad Abdinov 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Ədəbiyyat

Qacar, Ç. Görkəmli alim, gözəl insan: Cavad Abdinov-70 /Ç.Qacar //Elm.- 2010.- 28 yanvar.- S.8.

Физика селена: [монография] /Дж.Абдинов.- Баку: Элм, 1975.- 408 с.

Неорганические материалы /Дж.Абдинов //Российская АН, 1997.- №4.- С.27-38.

Фотоэмиссионный гальваномагнитный эффект /Дж.Абдинов //Журнал технической физики.-1996.- №11.- С.203-206.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.science.gov.az

www.muallim.edu.az

65 illiyi

Yusif Məmmədov 1950

Alim



Yusif Əbülfət oğlu Məmmədov 1950-ci il yanvar ayının 24-də Qərbi Azərbaycanın Sisiyan rayonunun Dəstəgird qəsəbəsində anadan olmuşdur.

1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Mexanika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1974-cü ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, 1971-1993-ci illərdə Azərbaycan Dövlət Universitetinin Riyazi fizika tənlikləri kafedrasının əvvəlcə assistenti, baş müəllimi, dosenti, professoru, 1993-cü ildən Azərbaycan Dövlət Universitetinin Riyazi fizika tənlikləri kafedrasının müdiri, 2000-2004-cü illərdə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, 2004-2006-cı illərdə BDU-nun elmi işlər üzrə prorektoru, 2006-cı il aprelin 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsinə təyin edilmişdir.

Professor Yusif Məmmədovun elmi tədqiqatlarının əhatə dairəsi çoxşaxəli olub, riyaziyyatın maraqlı, mürəkkəb və az tədqiq olunan sahələrini əhatə edir. O, diferensial tənliklər, riyazi fizika tənlikləri, qarışıq və sərhəd məsələlərinin həlli üçün çıxıqlar üsulu, riyazi fizikada asimptotik və ədədi üsullar və s. fənləri tədris edir. 100-dən artıq elmi əsərin müəllifidir. Əsərlərinin xeyli hissəsi xarici ölkələrin nüfuzlu jurnallarında çap olunmuşdur. 14 elmlər namizədi, 1 elmlər doktoru yetişdirmişdir.

YUNESKO-nun "Elmi biliklərin və texnologiyaların etikası" Azərbaycan Komitəsinin üzvüdür. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının riyaziyyat və mexanika ixtisasları üzrə ekspert şurasının üzvüdür.

"ADPU-nun xəbərləri" elmi məcmuəsinin baş redaktoru, "AMEA-nın xəbərləri", "BDU-nun xəbərləri", "Riyaziyyat və Mexanika İnstitutunun əsərləri", "Sumqayıt Dövlət Universitetinin xəbərləri", "Kurikulum" jurnallarının redaksiya heyətinin üzvüdür. O, hazırda ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi, təlim və tərbiyənin nəzəriyyəsi və metodikası ixtisası üzrə dissertasiya şurasının sədridir.

Görkəmli alimin elmi, pedaqoji, təşkilatçılıq fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, ona 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin Sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Yusif Məmmədov 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Dövlət Pedaqoji Universiteti-90.- Bakı, 2012.-430 s.

Azərbaycan təhsilinin inkişafının Heydər Əliyev mərhələsi /Məmmədov Y. //ADPU-nun xəbərlərinin xüsusi buraxılışı.-2008.- S.7-14.

Diferensial /Məmmədov Y.Ə., Xankişiyev Z.F.- Bakı: Pubiishinq house of ASPU, 2013.-189 s.

Diferensial tənliklər: dərs vəsaiti /Y.Məmmədov.- Bakı, 2009.- 155 s.

Karışıq problemlərin düzgünlüğü //Mat. VII cümn.po duf. ur.TMMTMK-Ustambul, 1993.-S.18-22.

Математический анализ критических задач электродинамики: монография /Ю.Мамедов.-Баку: Элм, 2010.- 181 с.

Rüstəmov, F. İstedadlı alim, görkəmli elm və təhsil təşkilatçısı /F.Rüstəmov, R.Rzayev //Azərbaycan müəllimi.- 2010.- 22 yanvar.- S.5.

www.anl.az

www.az.wikipedia.org

65 illiyi

Abel Məhərrəmov 1950

Akademik



Abel Məmmədəli oğlu Məhərrəmov 1950-ci il yanvar ayının 5-də Ağdam şəhərində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi qızıl medalla bitirdikdən sonra, elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kimya fakültəsinə qəbul olmuş və oranı 1971-ci ildə əla qiymətlərlə başa vurmuşdur.

1971-ci ildən Ümumittifaq Olefinlər Elmi Tədqiqat İnstitutunda operator, sonra isə mühəndis vəzifəsində çalışmışdır.

O, 1976-cı ildə namizədlik dissertasiyasını, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş və professor adına layiq görülmüşdür.

1976-cı ildən Azərbaycan Dövlət Universitetində baş elmi işçi, baş müəllim, tədris hissəsinin müdiri, dekan müavini vəzifələrində çalışmışdır.

A.Məhərrəmov 1984-1993-cü illərdə Kimya fakültəsinin dekan müavini, 1993-1999-cu illərdə dekan, 1999-cu ilin yanvar ayının 11-dən isə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Bakı Dövlət Universitetinin rektoru təyin edilmişdir. Universitetinin Böyük Elmi Şurasının sədridir.

1999-cu ildən Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2008-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

2002-2004-cü illərdə Qara dəniz universitetlər şəbəkəsinin prezidenti olmuşdur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin Elm və təhsil məsələləri daimi komitəsinin üzvüdür.

Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan - ABŞ, Azərbaycan - İspaniya, Azərbaycan - Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Əməkdar elm xadimi və Yusif Məmmədəliyev mükafatı laureatıdır. Rumıniya Respublikasının ali dərəcəli "Komandor" ordeni, İqtisadi Əməkdaşlıq Təşkilatının qızıl medalı ilə təltif edilmişdir. Rumıniya Respublikasının Ovidius Universitetinin və Türkiyənin Kırıkkale Universitetinin fəxri doktorudur.

50-dək monoqrafiyanın, dərsliyin və dərs vəsaitinin, 700-dək elmi məqalənin müəllifidir. 37 ixtirası vardır.

Kimyanın əsas sahələrindən hesab edilən neft kimyası, üzvi kimya sahəsində geniş və dərin tədqiqatlar aparan, onu yeni biliklərlə zənginləşdirən, elmi məktəb yaradan tanınmış alim 30-dək kimya elmləri namizədi və doktoru hazırlamışdır.

Akademik Abel Məhərrəmov bir çox nüfuzlu kimya jurnallarının redaksiya heyətinin üzvü kimi də fəaliyyət göstərir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 5 cilddə: [məqalələr toplusu] /A.Məhərrəmov; elmi red. V.Fərzəliyev; burax. məs.: M.Qurbanova, N.Şıxəliyev.- Bakı: Bakı Dövlət Universiteti 2010.- C.I: Olefinlərə elektrofil birləşmə reaksiyalarında yeni sintetik istiqamətlər və on iki üzvlü tsikllərin konformasiya analizi.- 303 s.; C.II: Funksional əvəzli heterotsikllərin yeni sintetik istiqamətləri.- 375 s.; C.III: Funksional əvəzli heterotsikllərin yeni sintetik istiqamətləri və fəza səciyyəli kimyəvi terminləri.-367 s.; C.IV: Alkenilfenollar sahəsində yeni sintetik istiqamətlər.- 287 s.

Abel Məmmədəli oğlu Məhərrəmov: biblioqrafiya /AMEA, Mərkəzi Elmi Kitabxana; tərt.-müəl.: P.İbrahimova, A.Əmirova; red. F.Şiriyev; elmi red.: M.Allahverdiyev, P.Məmmədov.- Bakı: Çaşıoğlu, 2010.- 511 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.science.gov.az

105 illiyi

Abdulla Qarayev 1910-1968

Akademik



Abdulla İsmayıl oğlu Qarayev 1910-cu il yanvar ayının 14-də Bakıda anadan olmuşdur.

1927-ci ildə Bakı Xalq Maarifi Şöbəsinin pedaqoji texnikumunu, 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Pedaqoji fakültəsinin təbiət bölməsini bitirmişdir. 1932-1936-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil almışdır.

O, 1937-ci ildə iki mövzu üzrə: birinci dissertasiya işinə görə tibb elmləri namizədi, ikinci dissertasiyaya görə isə biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1937-1938-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Təbiət fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1940-cı ildə doktorluq işini müdafiə etmişdir.

1941-1942-ci illərdə ADU-nun biologiya fakültəsinin dekanı olmuşdur. Fiziologiya sahəsində ilk azərbaycanlı professor olan Abdulla Qarayev 1942-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Tibb İnstitutunun Normal fiziologiya kafedrasında, Azərbaycan Dövlət Universitetində isə İnsan və heyvan fiziologiyası kafedrasında müdir vəzifəsində çalışmışdır. 1942-1944-cü illərdə Azərbaycan Dövlət Universitetinin elmi hissə üzrə prorektoru, 1944-cü ilin sentyabrından 1950-ci ilin oktyabrına qədər isə rektoru vəzifələrində işləmişdir.

1952-ci ilin mayından 1956-cı ilin iyuluna qədər AEA Biologiya və kənd təsərrüfatı elmləri şöbəsinin akademik-katibi vəzifəsində çalışmışdır. 1965-ci ildə Ali Attestasiya Komissiyası Abdulla Qarayevə insan və heyvan fiziologiyası (indeks 102) üzrə namizədlik və doktorluq dissertasiyalarını müdafiəyə qəbul etmək ixtiyarı vermişdir.

1953-cü ildə onun səyi nəticəsində Azərbaycan EA-nın Zoologiya İnstitutunun nəzdində Fiziologiya şöbəsi, 3 ildən sonra müstəqil Fiziologiya bölməsi yaradılmış və rəhbərlik Abdulla Qarayevə həvalə olunmuşdur.

O, Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri olmuş, 1961-1963-cü illərdə komitə sədri kimi ali məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni fakültə və ixtisasların açılmasına xüsusi diqqət yetirmişdir.

1968-ci il fevral ayının 2-də Azərbaycan SSR Elmlər Akademiyasının Fiziologiya İnstitutu yaradılmış və akademik Abdulla Qarayev institutun direktoru təyin olunmuşdur.

Hazırda bu institut, eləcə də N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Normal fiziologiya kafedrası və Bakı şəhərində bir küçə onun adını daşıyır.

A.Qarayev 7 monoqrafiya və 300-dən artıq məqalənin müəllifidir.

1943-cü ildə fiziologiya elminin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1949-cu ildə AEA-nın həqiqi üzvü seçilmiş, Lenin ordeni, 3 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, "Qırmızı Ulduz" ordeni və medallarla təltif edilmişdir.

Abdulla Qarayev 1968-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Abdulla İsmayıl oğlu Qarayev-100 /AMEA; tərt. ed. və red. V.Adıgözəlova, A.Qaziyev, G.Qurbanova.- Bakı: Elm, 2010.- 303 s.

Abdulla İsmayıl oğlu Qarayev: biblioqrafiya /AMEA Mərkəzi Elmi Kitabxanası; tərt. A.Əliyeva-Kəngərli; red. T.Ağayev.- Bakı: Elm, 2009.-290 s.

Abdulla Qarayev //Əli Hüseynov, Məcnun Babayev. Məşhur biologiya alimləri.- Bakı: Maarif, 2002.- S.144.

Abdulla İsmayıl oğlu Qarayev: Azərbaycanın təhsil nazirləri //Azərbaycan müəllimi.- 2012.- 27 yanvar.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.muallim.edu.az

www.press.bsu.edu.az

www.science.gov.az

75 illiyi

Nemət Qasımov 1940

Alim



Nemət Abbasəli oğlu Qasımov 1940-cı il yanvar ayının 27-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Didivar kəndində anadan olmuşdur.

1963-cü ildə ADU-nun biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

N.A.Qasımov 1963-1966-cı illərdə ADU-nun "Bitki fiziologiyası" kafedrasının aspirantı olmuş, 1967-ci ildə namizədlik, 1975-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1980-ci ildə professor adı almışdır.

N.A.Qasımov xlor ionunun bitkiyə daxil olmasının kinetik qanunauyğunluqları və bitkilərin duzla intoksikasiyasının "Enerji aclığı" konsepsiyasının müəllifidir və bu barədə 1975-ci ildə Leninqradda (indiki Sankt-Peterburqda) keçirilən XII Beynəlxalq Botanika konqresində məruzə ilə keçmiş SSRİ-ni təmsil etmişdir.

O, Azərbaycan EA-nın Botanika İnstitutunda elmi işçi, BDU-nun Biologiya fakültəsinin dekanı (1978-1988-ci illər) vəzifəsində çalışmışdır. Hal-hazırda BDU-nun "Bitki fiziologiyası" kafedrasının müdiridir.

N.A.Qasımov 1991-ci ildə ABŞ-ın Şimali İllinoys Universitetinə dəvət olunmuşdur. Həmin universitetdə professor N.A.Qasımov 40 gün müddətində elmi-pedaqoji ezamiyyətdə olmuş, professor-müəllim və tələbələrlə görüşlər keçirmiş, universitetin elmi seminarlarında "Duz tənəffüsü" mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Onun Türkiyə, Rusiya, Bolqarıstan, Qazaxıstan, Ukrayna, Özbəkistan və digər ölkələrdə 100-dən çox elmi əsəri, dərslik və monoqrafiyaları çap edilmişdir.

N.A.Qasımov 7 dissertasiya işinə elmi rəhbərlik etmiş, onlarla dissertasiya işinin rəsmi opponenti olmuşdur. Hazırda onun rəhbərliyi ilə bir neçə tələbə (bunlardan 3 nəfəri İran İslam Respublikasındandır) dissertasiya mövzuları üzərində tədqiqatlarını davam etdirirlər.

N.A.Qasımov BDU-nun və biologiya fakültəsinin Elmi Şuralarının, "Bakı Universitetinin Xəbərləri" elmi jurnalının redaksiya heyətinin üzvüdür.

Professor 1986-cı ildə ABŞ-ın İllinoys EA-nın həqiqi üzvü seçilmişdir. O, İngiltərə-Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinin Direktorunun Avropa üzrə nümayəndəsi (1998), ABŞ-ın Bioqrafiya İnstitutunun səlahiyyətli nümayəndəsidir (1998).

Professor N.A.Qasımov "Qızıl heykəl" (ABŞ Bioqrafiya İnstitutu-1998), "Qızıl ulduz" (İngiltərə-Kembric BBM-1998), "XX əsrin 2000 görkəmli adamı" diplomu və gümüş medalı (1997), Kembric BBM Baş Direktorunun Avropa üzrə səlahiyyətli nümayəndəsinin diplomu və gümüş medalı (1998) ilə təltif edilmişdir.

Professor N.A.Qasımov 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Bitki fiziologiyası: dərslik /N.Qasımov.- İkinci nəşr.- Bakı: BDU-nun nəşri, 2008.- 484 s.

Bitki fiziologiyasından praktikum /N.Qasımov.- Bakı: BDU-nun nəşri, 2006.- 181 s.

Fotosintez: iki hissədə /N.Qasımov.- Bakı: BDU-nun nəşri, 1982.- Hissə I.-86 s.; Hissə II.- 110 s.

Bitki fiziologiyasından kiçik praktikum: dərs vəsaiti /N.Qasımov, Q.Rzayev; elmi red. Q.Əhmədov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S.M.Kirov ad. Azərb. Döv. Un-ti.- Bakı: ADU, 1981.- 84 s.

İnternetdə

www.anl.az

www. elibrary.azlib.net

www.muallim.edu.az

www.kitabxana.net

50 illiyi Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası 1965



F.Köçərli adına Dövlət Uşaq Kitabxanası 1965-ci il yanvar ayının 1-də Mədəniyyət Nazirliyinin (indiki Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi) qərarı ilə M.Qorki adına kitabxananın fondu əsasında yaradılmışdır.

2010-cu ildən kitabxana yeni ünvanda (Bakı şəhəri, S.Vurğun küçəsi 88) fəaliyyət göstərir. Kitabxanada nağıl otaqları, incəsənət otağı, böyük və kiçik oxu zalları, elektron resurslar bölməsi, multimedia, internet-resurs mərkəzləri yaradılmışdır.

Kitabxananın 250 minə yaxın kitab fondu, 17028 nəfər oxucusu var.

Respublika əhəmiyyətli kitabxana kimi Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan uşaq kitabxanalarına metodik mərkəz funksiyasını həyata keçirir. Kitabxananın 9 şöbəsi (Komplektləşdirmə və kitabişləmə şöbəsi, Kitabsaxlayıcı şöbə, Xidmət şöbəsi, Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi, Məlumat-biblioqrafiya şöbəsi, Elmi-metodika şöbəsi, Kütləvi işlər şöbəsi, İncəsənət şöbəsi, Avtomatlaşdırma şöbəsi), 5 bölməsi, 2 oxu zalı var. 4 filialı isə Bakının müxtəlif rayonlarında fəaliyyət göstərir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Kitabxana respublikanın mədəni həyatında fəal iştirak edir. Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə hər il keçirilən ənənəvi kitab bayramlarının təşkilatçısıdır. Uşaqların informasiya tələbatının ödənilməsi ilə bağlı, onları son illərdə çap olunan müasir uşaq ədəbiyyatı, uşaq yazıçıları və nəşriyyatları ilə tanış etmək, mütaliəyə həvəsləndirmək məqsədilə 2 aprel - Beynəlxalq Uşaq Kitabı günü hər il Milli Uşaq Kitabı sərgisi, həmçinin regionlarda "Kitab karvanı" adlı səyyar sərgilər təşkil edir. 3 il ərzində (2011-2013) keçirilən layihə üzrə 16 rayona Kitab Karvanı yola düşmüş, 14270 nüsxə uşaq kitabı hədiyyə edilmişdir.

Məqsəd respublikanın şəhər və rayon MKS-lərinin mərkəzi kitabxanalarında və filiallarında uşaq ədəbiyyatının azlığını nəzərə alaraq, səyyar sərgilərlə uşaq ədəbiyyatına olan marağı yüksəltmək, uşaqları mütaliəyə cəlb etməkdir.

Kitabxana 2006-cı ilin mart ayından "Göy qurşağı" (goyqurshagi@box.az) adlı jurnal təsis edir. Rəngli şəkillərlə 32 səhifədən ibarət nəfis tərtib olunan bu jurnal MKS-lər vasitəsilə ən ucqar dağ kəndlərinə belə yayılır.

F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildə 76 dövlətin üzv olduğu Beynəlxalq Uşaq Kitabı Şurasına (İBBY) üzv olmuşdur.

Kitabxanada vaxtaşırı kitab festivalları, viktorinalar, müsabiqələr, teatr tamaşaları, yeni kitabların təqdimatı və müzakirəsi təşkil olunur.

Sayt: www.clb.az

E-mail: childlibbaku@yahoo.com

Tarixdə bu gün

Yeni il



Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olmuşdur. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd etmiş, digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanmışdır. Başqa bir mənbə isə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə cəhd etmişdir.

Sonuncu mənbəyə görə bayramın yaranmasının azı 25 əsrlik tarixi var. Tarixçi alimlərin fikrincə, martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış və məhz həmin dövrdə insanlar yeni ilin gəlişini qeyd edərmişlər. Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Dünyanın hər yerində bütün insanlar Yeni ili yeni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Bu günü bayram etməklə insanlar hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

Təzə ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə də bağlıdır. Rəvayətə görə, xristian dininin yaradıcısı, dekabr ayının 24-də anadan olmuş İsa peyğəmbərin şərəfinə xristianlar bu günü Milad bayramı kimi qeyd edirlər. Milad bayramının əsasında isə hər il qış günəş duruşu zamanı (21-25 dekabr) "xilaskar allahın doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi dayanmışdır. Bu bayram 431-ci ildə qanuniləşdirilmiş və hazırda bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvimə əsaslanır. Bu təqvimə əsasən yeni il yanvar ayının 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri də Şaxta babadır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Məsələn, ABŞ-da və Avstraliyada o, Santa Klaus, Rusiyada-Ded Moroz, Türkiyədə - Noel baba, Avstriyada-Silvestr, Britaniyada - Milad baba, Yunanıstanda Müqəddəs Vasili adlanır.

Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmirlər. Torbalarındakı müxtəlif hədiyyələrlə uşaqları sevindirirlər.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşır, həmişəlik vidalaşdıqları ilin son anlarında musiqini dayandıraraq sükut içərisində saat 12.00 gözləyirlər. İlin başa çatdığını göstərən saat zənginin təntənəli sədaları altında sağlıqlar söyləyir, sonra isə şampan şərabı ilə dolu qədəhləri toqquşduraraq yeni ildə bir-birinə xoş günlər və sağlamlıq arzulayırlar.

Ədəbiyyat

Axundov, T. Yeni il xalqımıza firavanlıq, xoşbəxtlik gətirsin /T.Axundov //Respublika.- 2013.- 1 yanvar.- S.6.

Valehoğlu, İ.Yeni il və onun təzadlı tarixi : Ayrı-ayrı xalqların bayram adətləri və bu adətlərdəki türk izləri /İ.Valehoğlu //Ədalət.-2010.- 10 dekabr.- S. 5.

Yeni il bayramı //Əkbər Qocayev. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.36.

İnternetdə

www..anl.az

az.wikipedia.org

www. ebooks.preslib.az

www. qadin.net

25 ili

Ümumxalq Hüzn Günü 1990



1990-cı il yanvar ayının 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri kimi daxil olmuşdur. Düz 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxarmışdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələnmişdi. Nəticədə 170 nəfər həlak olmuş, 400-ə yaxın insan yaralanmışdı. Bunların içində asudə insanlar: gənclər, uşaqlar, qocalar və qadınlar da var idi, hətta hərbi qulluqçular da.

Buna baxmayaraq, Azərbaycanın o vaxtkı sərişdəsiz, kölə psixologiyalı rəhbərlərinin əksinə olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etmişdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırmışdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırılmışdı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edilmişdi.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır.

Hər il yanvar ayının 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edirlər. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

Ədəbiyyat

Əbdülsəlimzadə, Q. 20 yaşlı 20 yanvar /Q.Əbdülsəlimzadə.- Bakı: Şirvannəşr, 2010.- 391 s.

Şıxlar, N. Dünyamızın 20 yanvar faciəsi /N.Şıxlar; red. R.Əsgər.- Bakı: Müəllim, 2010.- 92 s.

Məhərrəmov, V. Qanlı gecə, qanlı tarix /V.Məhərrəmov.- Bakı: Hərbi Nəşriyyat, 2011.- 95 s.

Şəhidlər: biblioqrafiya M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; tərt. ed. M.Məmmədova, A.Əliyeva; ixtisas red. və burax. məsul. K.Tahirov.- Bakı, 2010.- 397 s.

Abbasov, İ. 20 Yanvar-Qəhrəmanlıq salnaməsi /İ.Abbasov //İki sahil.- 2014.- 15 yanvar.- S.15.

20 Yanvar - əsarətin son gecəsi //Şərq.- 2014.- 18 yanvar.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

YANVAR
23

Tarixdə bu gün

70 illiyi
Azərbaycan Milli Elmlər Akademiyası 1945



Ə d ə b i y y a t

Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin keçirilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 mart 2014-cü il //Azərbaycan 2014.- 15 mart.- S.1.

Azərbaycan Milli Elmlər Akademiyasının infrastrukturu müasir dünya standartları səviyyəsində yenidən qurulur: Dövlət rəhbərliyinin tapşırığına əsasən son illər Akademiyada aparılan təmir və bərpa işləri, eləcə də maddi-texniki bazanın möhkəmləndirilməsi bunları deməyə əsas verir //Elm.- 2011.- 25 aprel.- S.4-5.

Zümrüd. Azərbaycan Milli Elmlər Akademiyası 65 illik yubileyini qeyd edir: Akademiyanın təsis edilməsi xalqın ictimai fikir tarixində mühüm bir hadisəyə çevrilib /Zümrüd //Səs.- 2010.- 13 yanvar.- S.12.

İ n t e r n e t d ə

www.anl.az

www.science.gov.az

1923-cü ildə elmi-tədqiqat işləri aparmaq üçün Ə.B.Haqverdiyevin sədrliyi ilə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı və respublikanın baş elmi müəssisəsinə çevrildi. İlk dövrdə Cəmiyyətin tərkibinə Tarix-Etnoqrafiya, İqtisadiyyat və Təbiətşünaslıq bölmələri daxil edilmişdi. Respublikanın Şamaxı, Gəncə, Lənkəran, Zaqatala və digər qəzalarında, o cümlədən Naxçıvan MSSR və DQMV-də Cəmiyyətin bölmələri yaradıldı.

1925-ci ildə cəmiyyət Azərbaycan hökumətinin sərəncamına verildi.

1929-cu ildə Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (DETİ) adlandırıldı.

1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi. Şöbəyə R.Axundov rəhbərlik edirdi. Şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər - F.Y.Levinson-Lessinq, İ.M.Qubkin, A.A.Qrossheym, N.Y.Marr, İ.İ.Meşşanov, A.N.Derjavin, İ.Q.Yesman, ilk Azərbaycan alimlərindən B.Çobanzadə, V.Xuluflu, M.Əfəndiyev, A.Tağızadə, S.Mümtaz, A.S.Məmmədov və başqaları burada elmi-tədqiqat işləri aparırdılar. 1935-ci ilin oktyabrında şöbə SSRİ EA-nın Azərbaycan Filialına çevrildi. Filialın yanında mövcud bölmələr əsasında Kimya, Botanika, Zoologiya və Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat Elmi-Tədqiqat institutları, habelə Energetika, Fizika, Geologiya, Torpaqşünaslıq sektorları yaradıldı. Filialın Rəyasət Heyətinin sədri əvvəl akademik İ.M.Qubkin, sonralar isə akademik S.S.Namyotkin oldu.

SSRİ Xalq Komissarları Sovetinin 1945 il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan EA-na çevrildi. Bu vaxt akademiyanın 4 bölməsi, 16 elmi-tədqiqat institutu, elmi-tədqiqat şöbəsi, 3 muzeyi, mərkəzi elmi kitabxanası, Naxçıvan, Gəncə, Xankəndi və Qubada elmi bazaları var idi. Həmin il Azərbaycan EA-na 15 həqiqi üzv seçildi. Onun ilk heyətində Ü.Hacıbəyli, S.Vurğun, M.İbrahimov, Y.Məmmədəliyev, M.Qaşqay, A.A.Qrossheym, S.Dadaşov, İ.Q.Yesman, M.Mirqasımov, Ş.Əzizbəyov, Ə.Əlizadə, M.Topçubaşov, M.Hüseynov, H.Hüseynov və İ.İ.Şiroqorov kimi şəxsiyyətlər var idi.

1945-ci il martın 31-də akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclasında M.Mirqasımov prezident seçildi. Sonrakı illərdə Y.Məmmədəliyev (1947-1950, 1958-1961), M.Əliyev (1950-1958), Z.Xəlilov (1961-1967), R.İsmayılov (1967-1970), H.M.Abdullayev (1970-1983), E.Y.Salayev (1983-1997), F.Q.Maqsudov (1997-2000), M.Kərimov (2001-2013) akademiyanın prezidenti olmuşlar. 2013-cü ildən akademik Akif Əlizadə AMEA-nın prezidentidir.

AMEA-nın 5 bölməsi var: fizika, texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər.

1972-ci ildə AMEA Naxçıvan filialının elmi mərkəzi yaradılmışdır. Hazırda Akademiyanın İnformasiya resurs mərkəzi və əsaslı kitabxanası fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyev elm sahəsinə daim böyük diqqət və qayğı göstərmişdir. O, özünün 15 may 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adını verməklə Akademiyanın statusunu yüksəltmişdir.

Hazırda AMEA-nın 64 həqiqi üzvü, 146 müxbir üzvü var.

Gömrük İşçiləri Günü
1992

Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Gömrük sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır.

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur.

Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqust ayının 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən, qaçaqmalçılıqla mübarizə, ölkə ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmış və burada 992 gömrük işçisi keşik çəkmişdi.

Aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi. SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən az sonra - 1992-ci il yanvar ayının 29-da müstəqil gömrük sisteminin əsası qoyulmuş və yanvar ayının 30-da Dövlət Gömrük Komitəsi (DGK) yaradılmışdır.

Komitə ötən müddət ərzində sürətli inkişaf yolu keçmiş, ölkədə dünya standartlarına uyğun gömrük xidməti formalaşmışdır. Lakin Azərbaycan gömrüyü, iqtisadiyyatın digər sahələri kimi, yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yenidən qurularaq həyata keçirilən irimiqyaslı tədbirlər və geniş kadr islahatları nəticəsində təşəkkül tapmağa başlamışdır. Qısa zaman kəsiyində respublikanın iqtisadi suverenliyi və təhlükəsizliyinin etibarlı təminatçısı kimi formalaşan Azərbaycan Gömrük Xidməti bu gün ölkə prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində dünya standartlarına cavab verən modern dövlət təsisatına çevrilmişdir.

Bu günün gömrük işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi də məhz cənab Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ulu Öndərin 1997-ci il yanvar ayının 10-da imzaladığı müvafiq Sərəncama əsasən, yanvarın 30-u Gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

Ədəbiyyat

Abdullayev Ə.Gömrük işçiləri peşə bayramını qeyd edir: Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin "Həftə içi"nə müsahibəsi /Ə.Abdullayev; müsahibəni apardı S.Osmanova //Həftə içi.- 2013.- 30 yanvar.- S.3.

Heydərov K.Gömrük işinin əsasları: [4 cilddə]: Gömrük işinin idarə edilməsi və inkişafı /K.Heydərov; elmi red. C.Həsənov; ixtisas red. A.Əliyev.- Bakı: Azərnəşr, 2000.

Gömrük işçilərinin tədbirləri: [fotoşəkillər].-Bakı, 2011.-1 elektron. opt. disk (CD-ROM)

Gömrük İşçiləri Günü //Qocayev Ə.Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.33.

İnternetdə

www.anl.az

www.president.az

www.customs.gov.az

1 fevral
Gün çıxır 07:50
Gün batır
17:59
28 fevral
Gün çıxır 07:16
Gün batır 18:31
Gün batır
18:32

FEVRAL



21 yanvar-
18 fevral

Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional, təbiətcə həssas olurlar.

Ş.	
B.	1
B.E.	2
Ç.A.	**3**
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	8
B.E.	9
Ç.A.	**10**
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	**17**
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	**24**
Ç.	25
C.A.	**26**
C.	27
Ş.	28

- *Gənclər Günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- ***Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992)***
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- ***Xocalı Soyqırımı günü (26.02.1992)***

130 il Üzeyir Hacıbəyli *1885-1948*



Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabr ayının 18-də Şuşa qəzasının Ağcabədi kəndində anadan olmuşdur. İlk təhsilini Şuşadakı ikisinifli rus-türk məktəbində almışdır.

Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olmuşdur. O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. Onun dünyagörüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür.

Üzeyir bəy 1905-1907-ci illər rus inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demişdir. Üzeyir Hacıbəyli Bakıda ədəbi-publisistik fəaliyyətə başlayaraq "Həyat" qəzetində tərcüməçi işləmişdir.

Bəstəkar 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il orada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Maddi ehtiyac üzündən Hacıbəyli musiqi təhsilini yarımçıq qoyub, Bakıya qayıtmağa məcbur olmuşdur.

Üzeyir Hacıbəyli 1948-ci il noyabr ayının 23-də Bakıda vəfat etmişdir.

FEVRAL

2015



Milli ədəbiyyat

Şair, publisist, sosioloq, iqtisad elmləri doktoru Məmmədov Əhməd Qəşəm oğlunun (15.02.1950) anadan olmasının 65 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Nəcəfov Fazil İmamverdi oğlunun (16.02.1935) anadan olmasının 80 illiyi

Rəssam, Azərbaycanda realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri Mustafayev Rüstəm Məmmədhənifə oğlunun (25.02.1910-19.07.1940) anadan olmasının 105 illiyi 37



Musiqi.Opera.Balet

Xalq artisti, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri, bəstəkar Məmmədov Polad Murtuza oğlunun (Polad Bülbüloğlu) (04.02.1945) anadan olmasının 70 illiyi 38

Xalq artisti, xanəndə Məmmədov Əlibaba Balaəhməd oğlunun (05.02.1930) anadan olmasının 85 illiyi 39

Xalq artisti, xanəndə Abdullayev Ağaxan Minəxan oğlunun (06.02.1950) anadan olmasının 65 illiyi 40

Əməkdar artist Həsənova Rəhilə Mirələsgər qızının (09.02.1925-28.02.2004) anadan olmasının 90 illiyi

Xalq artisti, dirijor Rzayev Nazim Əsədulla oğlunun (14.02.1925-02.05.2006) anadan olmasının 90 illiyi

Polyak bəstəkarı, pianoçu Şopen Friderik Frantsişekin (22.02.1810-17.10.1849) anadan olmasının 205 illiyi

AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, musiqişünas, professor Məmmədova-Sarabsakaya Rəna Azər qızının (27.02.1950) anadan olmasının 65 illiyi 41



Teatr. Kino

Azərbaycan Dövlət Televiziyasının ilk diktorlarından biri olan Gözəlova-Ağamirova Tamara Cəfər qızının (14.02.1940) anadan olmasının 75 illiyi

Xalq artisti, aktyor Möhləvi Səməd Məmməd oğlunun (20.02.1900–03.02.1962) anadan olmasının 115 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Seyidov Mirəsgər Mirabdulla oğlunun (06.02.1970-14.06.1992) anadan olmasının 45 illiyi 42

Azərbaycanın Milli Qəhrəmanı Babayev Nazim Abbas oğlunun (07.02.1975-15.03.1995) anadan olmasının 40 illiyi 43

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Nazim Qabil oğlunun (07.02.1965-09.03.1992) anadan olmasının 50 illiyi 44

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Xanoğlan Sadiq oğlunun (13.02.1975-15.03.1995) anadan olmasının 40 illiyi 45

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Elşad Ramiz oğlunun (14.02.1975-17.03.1995) anadan olmasının 40 illiyi 46

Azərbaycanın Milli Qəhrəmanı Rəfiyev Faiq Qəzənfər oğlunun (22.02.1955-10.01.1992) anadan olmasının 60 illiyi 47

Azərbaycanın Milli Qəhrəmanı Həsənov Tahir Tofiq oğlunun (22.02.1970-02.09.1992) anadan olmasının 45 illiyi 48



Siyasət.Hərbi iş

General-polkovnik Abbasov Namiq Rəşid oğlunun (22.02.1940) anadan olmasının 75 illiyi

İctimai-siyasi xadim, Azərbaycan Respublikasının Baş naziri Rasi-zadə Artur Tahir oğlunun (26.02.1935) anadan olmasının 80 illiyi

İctimai-siyasi və dövlət xadimi Tatlıyev Süleyman Bayram oğlunun (27.02.1925-09.03.2014) anadan olmasının 90 illiyi 49



Fəlsəfə

Dinşünas, publisist, xeyriyyəçi, inşaatçı-mühəndis Mirzəyev Fərhad Əhmədəli oğlunun (Hacı Fərhad Mirzə) (11.02.1950) anadan olmasının 65 illiyi 50

Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Nəcəfov Adil Məşədi Yusif oğlunun (12.02.1925-09.10.1989) anadan olmasının 90 illiyi



Mədəniyyət.Maarif.Elm

Publisist, ictimai xadim İbrahimov Nazim Sadiq oğlunun (01.02.1935) anadan olmasının 80 illiyi

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü Mirəhmədov Əziz Mirfeyzulla oğlunun (11.02.1920- 30.09.2002) anadan olmasının 95 illiyi 51

Filologiya elmləri doktoru, professor Ağazadə Nəzakət Həsən qızının (13.02.1910-10.04.1979) anadan olmasının 105 illiyi

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, Abdullayev Ələvsət Zakir oğlunun (17.02.1920-1993) anadan olmasının 95 illiyi

Şərqşünas, dilçi Şirəliyev Şulan İsmayıl oğlunun (20.02.1935) anadan

olmasının 80 illiyi



Coğrafiya.Geologiya

Akademik Məmmədov Ramiz Mahmud oğlunun (04.02.1950) anadan olmasının 65 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Akademik Qasımov Fuad Qasım oğlunun (05.02.1940-25.05.2009) anadan olmasının 75 illiyi



Kimya.Biologiya.Tibb

Akademik Əliyev Fuad Yusif oğlunun (01.02.1950) anadan olmasının 65 illiyi

Akademik Mustafayev İmam Daşdəmir oğlunun (25.02.1910-10.03.1997) anadan olmasının 105 illiyi 52



Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor Abdullayev Tərlan Səməd oğlunun (04.02.1945) anadan olmasının 70 illiyi



Tarixdə bu gün

Gənclər Günü (02.02.1997)

Ümumdünya Xərçənglə Mübarizə Günü (04.02)

Yevlax rayonunun yaranmasının (05.02.1935) 80 illiyi

Zərdab rayonunun yaranmasının (05.02.1935) 80 illiyi

Azərbaycan Xalq Komissarları Soveti Bakıda Dövlət Kitab Palatası təşkil etmək bərədə qərar verib (05.02.1925)

Ermənilər Bakıda azərbaycanlıların soyqırımını törətmişlər (06-09.02.1905)

Beynəlxalq İnternet Təhlükəsizliyi Günü (09.02.2004)

Vergilər Nazirliyinin yaradılmasının (11.02.2000) 15 illiyi 53

Neftçala rayonunun yaranmasının (11.02.1940) 75 illiyi

Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)

Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992) 54

Beynəlxalq Ana Dili Günü (21.02.1999) 55

Azərbaycanın təşəbbüsü ilə BMT martın 21-ni Beynəlxalq Novruz günü elan etmişdir (23.02.2010)

Xocalı soyqırımı günü (26.02.1992) 56-57

Nyu-Yorkda dünyada ilk dəfə olaraq metro işləməyə başlamışdı (26.02.1870)

QAN YADDAŞIMIZ!

Vətən torpaqları bizi gözləyir!

1988-ci ilin fevral ayından Ermənistanın Azərbaycana təcavüzünə, Azərbaycan torpaqlarının qəsbkar erməni silahlı qüvvələri tərəfindən işğalına başlanmışdır. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayon işğal edilmişdir.

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m²-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir.

İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4,4 000 km²

Xankəndinin işğal tarixi - 28 dekabr 1991-ci il (ərazisi - 1043 km², əhalisi-57000)
Xocalının işğal tarixi - 26 fevral 1992-ci il (ərazisi - 936 km², əhalisi-25332)
Şuşanın işğal tarixi - 8 may 1992-ci il (ərazisi - 289 km², əhalisi-31499)
Laçının işğal tarixi - 17 may 1992-ci il (ərazisi – 1835 km², əhalisi 72 228)
Xocavəndin işğal tarixi - 2 oktyabr 1992-ci il (ərazisi - 1458 km² , əhalisi-41 725)
Kəlbəcərin işğal tarixi - 2 aprel 1993-cü il (ərazisi - 3054 km², əhalisi-85 228)
Ağdərənin işğal tarixi - 7 iyul 1993-cü il (ərazisi - 1705 km², əhalisi-14000)
Ağdamın işğal tarixi - 23 iyul 1993-cü il (ərazisi - 1 154 km², əhalisi-175400)
Cəbrayılın işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1049 km², əhalisi-54430)
Füzulinin işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1386 km² , əhalisi-105000)
Qubadlının işğal tarixi - 31 avqust 1993-cü il (ərazisi - 802 km², əhalisi-37 400)
Zəngilanın işğal tarixi - 29 oktyabr 1993-cü il (ərazisi - 707 km², əhalisi-33900)

105 illiyi
Rüstəm Mustafayev 1910-1940
Rəssam



Rüstəm Məmmədhənifə oğlu Mustafayev 1910-cu il fevral ayının 25-də Bakıda doğulmuşdur. 1926-cı ildə Bakı Ali Rəssamlıq Məktəbini bitirmişdir.

1928-ci ildə Moskvada müəyyən təcrübə keçdikdən sonra Bakıya qayıtmış, bir müddət Bakı Azad Tənqid-Təbliğ Teatrında (sonrakı adı Türk İşçi Kəndli Teatrı) tamaşalara səhnə tərtibatı vermişdir. O, sadəcə illüstrasiya çəkməklə kifayətlənməmiş, bütün səhnələrin qurulmasında fəal iştirak etməklə rejissor və müəlliflərə kömək etmişdir.

Repressiyanın hökm sürdüyü ağır illərdə Rüstəm Mustafayev Azərbaycan Dövlət Dram Teatrında baş rəssam işləmişdir. Mirzə Cəlilin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Əbdürrəhim bəy Haqverdiyevin əsərlərinə verdiyi tərtibatlar Azərbaycan teatr-dekorasiya sənətinin orijinal, qiymətli nümunələri sayılmışdır. Rüstəmin tamaşalara verdiyi tərtibat o qədər diqqət çəkir ki, onu Azərbaycan Opera və Balet Teatrında da işləməyə dəvət edirlər. "Şah İsmayıl", "Leyli və Məcnun", "Aşıq Qərib", "Koroğlu" kimi operalara verdiyi tərtibat böyük bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən yüksək qiymətləndirilmişdir.

Rüstəm Mustafayevin yaradıcılığı çoxşaxəli idi. O, bir tərəfdən teatr tamaşalarına bədii tərtibat vermiş, digər tərəfdən də miniatür sənətimizi, milli memarlığımızı dərindən öyrənərək müxtəlif sərgilərin tərtibatı ilə məşğul olmuş, elmi tədqiqatlar aparmış, qrafika sahəsində bir sıra müvəffəqiyyətlər qazanmışdır. O, neçə-neçə plakat və kitabların da bədii tərtibatı üzərində işləmişdir. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza və başqa şairlərin o dövrdə çıxan kitablarının bədii tərtibatı Rüstəmin ilk qrafika işlərindən sayılırdı.

Moskvada keçirilən müxtəlif sərgilərdə Azərbaycana məxsus bölümün tərtibatçısı da məhz Rüstəm Mustafayev olmuşdur. Onun son işlərindən biri 1940-cı ildə Nizami muzeyinin qurulması ilə bağlı idi. O, bu muzeyin bədii tərtibatının müəlliflərindən biri olmuşdur.

1937-ci ildən ömrünün sonuna qədər Azərbaycan abidələrini mühafizə edən Mərkəzi Dövlət İdarəsinin direktoru vəzifəsində çalışmışdır. Nizami dövrü abidələrinin və Şəki Xan sarayının elmi bərpası sahəsində mühüm xidmətləri olmuşdur.

O, müxtəlif mükafatlara, fəxri fərmanlara, eləcə də "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

Rüstəm Mustafayev 1940-cı ildə Bakı şəhərində vəfat etmişdir. Ölümündən üç il sonra Azərbaycan Dövlət İncəsənət Muzeyinə bu unudulmaz rəssamın adı verilmişdir.

Ədəbiyyat

Rüstəm Mustafayev Məmmədhənifə oğlu //Azərbaycan incəsənəti. Təsviri sənət, dekorativ-tədbiqi sənət, memarlıq /tərt. Z.Əliyev, A.Xəlilov; Azərb. Resp. Gənclər və İdman Nazirliyi, "Bizim Nəsil Gənclərin Regional inkişaf Assosiasiyası İctimai Birliyi".- Bakı: Letterpress, 2011.- C.II.- S.72.

Rüstəm Mustafayev 1910-1940 /layih. rəhb. Ç.Fərzəliyev.- Bakı, 2013.-104 s.

Rüstəm Mustafayev //Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Teatrın 1873-2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi: 3 cilddə.- Bakı, 2013.- C.I.- S.517-519.

Təranə, V. İlk peşəkar teatr rəssamlarımız: Azərbaycan teatrı-140 /V.Təranə //Mədəniyyət.- 2013.- 27 fevral.- S.7.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www.nationalmuseum.az

70 illiyi

Polad Bülbüloğlu
1945

Bəstəkar



Ədəbiyyat

Polad Bülbülolu Skertso //Azərbaycan bəstəkarlarının əsərləri [Notlar]: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi.- Bakı, 2005.- S.50-58.

Azərbaycanın nailiyyətləri göz qabağındadır /P.Bülbüloğlu //Azərbaycan.- 2013.- 30 iyun.- S.7.

Əsl Azərbaycan ziyalısı: Nəsir İmanquliyev-100 /P.Bülbüloğlu //Bakı.- 2011.- 20-26 dekabr.- S.3.

Hacızadə, A. Polad Bülbüloğlu "2011-ci ilin səfiridir" /A.Hacızadə //Azərbaycan.- 2012.- 15 fevral.- S.5.

İnternetdə

www.anl.az

www.adam.az

www.en.wikipedia.org

www.music.day.az

www.timeturk.com

Polad Murtuza oğlu Məmmədov (Bülbüloğlu) 1945-ci il fevral ayının 4-də Bakıda anadan olmuşdur. Məşhur müğənni Bülbülün (Murtuza Məmmədov) ailəsində doğulan Poladın uşaqlıq dövrü Bakı ilə yanaşı, həm də "Qafqazın konservatoriyası" - Şuşada keçmişdir. İlk dəfə böyük səhnəyə 1960-cı ildə - 15 yaşında çıxmış, atasını müşayiət etmişdir. 1962-ci ildə 17 yaşlı Polad ilk mahnılarını bəstələmişdir.

1963-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, 1968-ci ildə Qara Qarayevin sinfini bitirmişdir.

1965-ci ildən həm bəstəkar, həm də müğənni kimi dünyada Azərbaycan musiqi mədəniyyətini təbliğ etmiş, keçmiş Sovet ittifaqında populyar olan müxtəlif estrada kollektivlərinə rəhbərlik etmişdir. 20-dən çox kinofilmə və bir sıra teatr tamaşalarına musiqi yazmışdır.

1969-cu ildə SSRİ Bəstəkarlar İttifaqına və Kinematoqrafçılar İttifaqına üzv seçilmişdir. 1987-ci ildə Bakı şəhər Sovetinin deputatı seçilmişdir. Azərbaycan Komsomolu mükafatı laureatı olmuşdur.

1973-cü ildə "Əməkdar incəsənət xadimi", 1982-ci ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1987-ci ildən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direkotoru işləmişdir. 1989-cu ildən Azərbaycan Respublikasının mədəniyyət naziri işləmişdir.

1995-2006-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

1994, 1997 və 2000-ci illərdə "TÜRKSOY" Beynəlxalq təşkilatının baş direktoru vəzifəsinə seçilmişdir.

1991-ci ildə Azərbaycan Respublikası Milli Yaradıcılıq Akademiyasının sənətşünaslıq doktoru, 1995-ci ildə Ə.Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəxri professoru, 1999-cu ildə "Avropa - Asiya" Beynəlxaq Humanitar Akademiyasının həqiqi üzvüdür.

2000-ci ildən musiqi sənəti ixtisası üzrə professordur.

2000-ci ilin fevral ayında Moskva şəhərindəki "Ulduzlar" meydanında Polad Bülbüloğlunun şərəfinə yeni ulduz həkk olunmuşdur. O, bu şərəfə layiq görülən ilk Azərbaycan bəstəkarıdır.

2006-cı ildən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri kimi fəaliyyət göstərir. O, Rusiyanın Regionlararası İctimai fondu tərəfindən Rusiya və Azərbaycan xalqları arasında sülhün, anlaşmanın qorunmasında və dostluq tellərinin möhkəmlənməsindəki xidmətlərinə görə "Müqəddəs knyaz Nevski" mükafatına layiq görülmüşdür.

2010-cu ildə Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu tərəfindən təsis edilən "İlin adamı" mükafatına layiq görülmüşdür.

85 illiyi

Əlibaba Məmmədov 1930

Xanəndə



Ədəbiyyat

Bəstəkar xanəndə //M.Çəmənli Sənət hekayələri-Çakı, 2014.- S.447-458.

Qəniyev, T. Əlibaba Məmmədovun mahnıları: dərs vəsaiti.- Bakı: Mütərcim, 2012.- 40 s.

Ələkbəroğlu, H. Muğam sənətnin ustadı: Respublika.-2013.-28 sentyabr. - № 213. - S.10.

Mirzəbəyli İ. Ustad xanəndə Əlibaba Məmmədov: "Əhmədxan müəllim tara, musiqiyə, muğama, bütövlükdə xalqa xidmət edirdi" /İ.Mirzəbəyli //525-ci qəzet.- 2012.- 21 noyabr.- S.4.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev-foundation.org

www.musigi-dunya.az

Əlibaba Balaəhməd oğlu Məmmədov 1930-cu il fevral ayının 5-də Bakının Maştağa kəndində anadan olmuşdur. Əlibaba Məmmədov musiqi təhsilini 1953-1958-ci illərdə Azərbaycan Dövlət Musiqi Məktəbində xanəndə Seyid Şuşinskinin sinfində almışdır.

1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının, 1978-1988-ci illərdə "Azkonsert" Birliyinin solisti olmuşdur.

1968-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində maestro Niyazinin təşəbbüsü ilə "Hümayun" xalq çalğı alətləri ansamblını yaratmış və bu günə kimi həmin ansambla rəhbərlik edir. Xanəndənin böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı Şiraz", "Rahab", "Dəşti" və başqa muğam-dəsgahlarının səsyazıları AzRT Fondunda saxlanılır. Əlibaba Məmmədov 100-dən artıq mahnı və təsnifin müəllifidir.

Onun Füzuli, Əliağa Vahid, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə kimi Azərbaycan şairlərinin sözlərinə yazılmış "Yaşa məhəbbətim, yaşa ürəyim", "Gəl bizə, yar", "Bir dənəsən" və s. mahnıları AzRT fondunda dövrümüzün şöhrətli müğənniləri - Zeynəb Xanlarova, Rübabə Muradova və digər tanınmış xanəndələrin lent yazısında qorunub saxlanılır.

Əlibaba Məmmədov 1963-cü ildən Bakı Musiqi Kollecində muğamdan dərs deyir, gənc xanəndələr nəslinin yetişməsində böyük əmək sərf edir. Əlibaba Məmmədov həm də dəfələrlə muğam müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur.

2008-ci ildə Heydər Əliyev Fondu Azərbaycanın Xalq artisti Əlibaba Məmmədovun həyat və fəaliyyətinə həsr olunmuş musiqi albomu hazırlamışdır. Alboma Azərbaycan və ingilis dillərində nəşr edilmiş kitab və xanəndənin ifasında xalq mahnıları, təsniflər və muğamlardan ibarət 4 ədəd CD daxildir.

Əlibaba Məmmədovun musiqi mədəniyyətimiz sahəsindəki xidmətləri dövlət tərəfindən qiymətləndirilmişdir. O, 1963-cü ildə "Əməkdar artist", 1989-cu ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, "SSRİ mədəniyyət əlaçısı" fəxri döş nişanı ilə təltif olunmuşdur. 1992-ci ildə Əliağa Vahidin əsərlərinə yazdığı mahnı və təsniflərə görə "Vahid" adına mükafata layiq görülmüşdür.

Ümummilli lider Heydər Əliyevin 4 fevral 2000-ci il tarixli Fərmanı ilə Əlibaba Məmmədov 70 illik yubileyində "Şöhrət" ordeni ilə təltif edilmişdir. Xanəndə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Oxuduğu hər bir muğama, xalq mahnısına öz möhrünü vuran Əlibaba Məmmədov milli musiqimizin təbliğində, inkişafında, öyrədilməsində böyük rol oynamışdır.

65 illiyi

Ağaxan Abdullayev 1950

Xanəndə



Ağaxan Minaxan oğlu Abdullayev 1950-ci il fevral ayının 6-da Bakı şəhərinin Əmircan kəndində anadan olmuşdur.

1958-1968-ci illərdə 84 saylı orta məkəbdə təhsil almış, 1969-1973-cü illərdə A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində təhsilini davam etdirmişdir.

1973-cü ildə İ.Əbilov adına Mədəniyyət evində muğam ixtisası üzrə müəllim vəzifəsinə dəvət olunmuşdur.

İfaçılıqla bərabər, pedaqoji fəaliyyətlə məşğul olan sənətkar uzun illər vaxtilə təhsil aldığı Asəf Zeynallı adına musiqi məktəbində gələcək xanəndələrin yetişməsində böyük əmək sərf etmişdir.

Hazırda Bülbül adına musiqi məktəbində, gimnaziyada, eləcə də Milli Konservatoriyada, Mədəniyyət və İncəsənət Universitetində muğamdan dərs deyir.

Xanəndə kimi 1975-ci ildə Filarmoniyanın səhnəsində fəaliyyətə başlamışdır. Rusiya, Qazaxıstan, Gürcüstan, Özbəkistan, ABŞ, Kanada, Almaniya, Hollandiya, İsveç, Belçika, Avstriya, Fransa, Avstraliya, Hindistan, İraq, Tunis, Türkiyə, İran və s. ölkələrdə konsert proqramları ilə çıxışlar etmişdir. Dəfələrlə muğam müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur.

1992-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1998-ci ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Prezident təqaüdçüsüdür.

2000-ci ildə pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikasının Təhsil Nazirliyi Kollegiyasının Fəxri fərmanı, 2001-ci ildə Azərbaycan Respublikası Simurq Milli mükafatı, 2002-ci ildə "Humay" Milli mükafatı, 2003-cü ildə "Yaşa Azərbaycan" mükafatı ilə təltif olunmuşdur.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan milli musiqisinin inkişafındakı xidmətlərinə görə Ağaxan Abdullayev "Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycan mədəniyyətinin inkişafına xüsusi diqqət və qayğı göstərən Heydər Əliyev Fondu Xalq artisti Ağaxan Abdullayevin anadan olmasının 60 illik yubileyi münasibətilə xanəndənin musiqi albomunu nəşr etmişdir.

Nəşrdəki üç kompakt diskdə cəmlənmiş musiqi nümunələri sənət hesabatı kimi xanəndənin yaradıcılıq yolunu əks etdirir. Burada xanəndənin ifasında "Rast" dəsgahı, "Bayatı-kürd", "Zabul segah", "Rahab", "Bayatı-Qacar" muğamı, "Humayun" təsnifi və xalq mahnıları toplanmışdır.

Xanəndənin həyat və yaradıcılığından bəhs edən kitabda isə ömrünün müxtəlif məqamlarını əks etdirən şəkillər də yer almışdır.

Ədəbiyyat

Xalqımızın xəmiri muğamla yoğrulub /A.Abdullayev //Üç nöqtə.-2012.- 7 iyul.- S.13.

Muğam genimizin kodudur /A.Abdullayev; müsahibə alan Ataşgah Nelli //Kaspi.-2012.- 12 oktyabr.- S.15.

Səs üstə köklənmiş ömür //M.Çəmənli Sənət hekayələri.-Bakı, 2014.- S.537-551.

Azərbaycan muğamı bütün dünyada sevilir //Ekran-efir.- 2014.- 7 fevral.- S.10.

Təranə. 60 yaşın zirvəsi /Təranə //Kaspi 2010. - 20-22 fevral.- S.15.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev-foundation.org

65 illiyi

Rəna Məmmədova 1950

Musiqişünas



Rəna Azər qızı Məmmədova 1950-ci il fevral ayının 27-də Bakı şəhərində anadan olmuşdur. 1968-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini, 1973-cü ildə isə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

1978-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda elmi işçi kimi işə başlayan Rəna xanım 1990-cı ildə "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsini təşkil etmiş və artıq iyirmi beş il ərzində ona rəhbərlik edir.

1981-ci ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

110-dan artıq elmi əsərin müəllifidir. O, "Üzeyir Hacıbəyovun yaradıcılığında sonata forması", "Azərbaycan muğamında funksionallıq problemi", "Azərbaycan muğamlarının musiqi-estetik xüsusiyyətləri", "Azərbaycan muğamı: təşəkkül və fəaliyyəti mənbələri" adlı kitabların müəllifidir.

Alimin tədqiqatlarının dairəsi əsasən türk dünyasının mədəniyyəti ilə bağlı olmuşdur. Rəna Məmmədovanın elmi yaradıcılığının ən vacib və mühüm mərhələsini musiqi türkologiyasının elmi əsaslarının yaradılması təşkil edir. Bu ad altında 2003-cü ildə Rəna Məmmədovanın monoqrafiyası işıq üzü görmüşdür ki, bu da sənətşünaslıq elminin yeni sahəsinin nəzəri-metodoloji müddəalarının əsasını qoymuşdur.

AMEA-nın müxbir üzvü Rəna Məmmədovanın elmi fəaliyyətinin əhəmiyyəti musiqişünaslığın hüdudlarından çox-çox kənara çıxmışdır. Onun bir sıra fundamental işləri və ilk növbədə, "Musiqi türkologiyası" monoqrafiyası musiqişünaslığın inkişafında layiqli yer tutur.

Alimin rəhbərliyi altında 20 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Rəna Məmmədova Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Bəstəkarlar İttifaqının İdarə heyətinin üzvü; Azərbaycan Rəssamlar İttifaqının üzvü; Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü; "Simurq" mədəniyyət cəmiyyətinin Rəyasət heyətinin üzvü; Azərbaycan Zadəganlar məclisinin üzvü; Bir çox respublika elmi jurnallarının redaksiya heyətinin üzvüdür.

Rəna Məmmədovanın çoxşaxəli yaradıcılıq fəaliyyəti Dövlət və ictimai qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir. O, AMEA-nın Rəyasət Heyətinin Fəxri fərmanları ilə mükafatlandırılmış; Azərbaycan kütləvi informasiya vasitələrinin Həmkarlar İttifaqının-"Xalqın nüfuzlu ziyalısı", "Qızıl qələm", "Azərbaycan bayrağı" mükafatları ilə təltif edilmiş; "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının diplomunu almış; "Simurq" Beynəlxalq medalına layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycan muğamı /R.Məmmədova; elmi red. E.Babayev.- Bakı: Elm, 2002.- 280 s.

Bakının teatr həyatından /R.Məmmədova.- Bakı: Elm, 2006.-58 s.

Musiqi türkologiyası /R.Məmmədova.- Bakı: Elm, 2002.- 84 s.

Oktay. Rəna Məmmədova Azərbaycan muğamının problemlərinin sistemli şəkildə tədqiqatını aparıb /Oktay //Xalq Cəbhəsi.- 2013.- 14 fevral.- S.13.

Из истории азербайджанского музыкального театра /Р.Мамедова.- Баку: Элм, 2006.-223 с.

Проблемы лада в исследованиях Р.Зохрабова. //Ramiz Zöhrabov: görkəmli musiqişünas-alim.- Bakı,2013.- S.203-207.

İnternetdə

www.anl.az

www.csl-az.com

45 illiyi

Mirəsgər Seyidov 1970-1992

Milli Qəhrəman



Mirəsgər Mirabdulla oğlu Seyidov 1970-ci il fevral ayının 6-da Babək rayonunun Qaraxanbəyli kəndində anadan olmuşdur.

1987-ci ildə Naxçıvan şəhər 39 saylı orta məktəbi bitirmişdir.

Mirəsgər 1988-ci ildə keçmiş Sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır.

1990-cı ildə hərbi xidmətini başa çatdıraraq Naxçıvana qayıtmışdır. İşğalçı erməni qoşunlarının Naxçıvana hücumu zamanı, o da, könüllü olaraq özünümüdafiə batalyonunun tərkibində vuruşmuşdur. Yağı düşmənə qarşı aparılan uğurlu döyüş əməliyyatlarında bir bacarıqlı əsgər kimi komandirləri tərəfindən verilən mühüm döyüş tapşırıqlarının dürüst yerinə yetirilməsində xüsusi fəallıq göstərmişdir. Mirəsgər öz mehribanlığı, qayğıkeşliyi, vətənpərvərliyi ilə döyüş yoldaşlarının, dostlarının dərin hörmət və məhəbbətini qazanmışdır.

M.Seyidov 1992-ci il iyun ayının 14-də gərgin döyüşlər zamanı yoldaşlarını xilas edərkən ağır yaralanmış və onun həyatını xilas etmək mümkün olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1992-ci il tarixli 367 nömrəli Fərmanı ilə Seyidov Mirəsgər Mirabdulla oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Naxçıvan şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Təhsil aldığı Naxçıvan şəhər 39 saylı orta məktəb qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Mirəsgər Mirabdulla oğlu Seyidova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Naxçıvan Muxtar Respublikası Babək rayonunun Yuxarı Buzqov kəndinin özünümüdafiə dəstəsinin döyüşçüsü – düşmən hissələrini qəhrəmancasına dəf etdiyinə, döyüş zamanı mərdlik nümunəsi göstərərək yoldaşlarının həyatını xilas etdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 18 dekabr

1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.-S.56.- (Ölümündən sonra).

Azərbaycanın Milli Qəhrəmanının 40 illik yubileyi qeyd olunub //525-ci qəzet.- 2011.-12 fevral.-S.2.

Əsgərov, V. Seyidov Mirəsgər Mirabdulla oğlu /Əsgərov V. //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.258.

Seyidov Mirəsgər Mirabdulla oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.-S.186.

Seyidzadə, M. Seyidov Mirəsgər Mirabdulla oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.204.

Yusifoğlu, İ. Yarımçıq ömrün son akkordu /Yusifoğlu İ. //Ölümü tanrıdan gələnlər.- Bakı, 1999.- S. 10-1

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az



40 illiyi

Nazim Babayev 1975-1995

Milli Qəhrəman



Nazim Abbas oğlu Babayev 1975-ci il fevral ayının 7-də Salyan rayonunda anadan olmuşdur.

1992-ci ildə kənd orta məktəbini bitirmiş, 1993-cü ildə Milli Ordu sıralarına hərbi xidmətə çağırılmışdır. O, torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak etmək üçün cəbhəyə yollanmış, Füzuli, Tərtər bölgəsində vuruşmuşdur.

1995-ci il mart hadisələri zamanı gənc Nazim dövlətçiliyimiz, suverenliyimiz uğrunda mübarizədə silahlı dəstələrin tərksilah edilməsində iştirak etmiş və 15 mart 1995-ci ildə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Babayev Nazim Abbas oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Salyan rayon Qaraçala kənd qəbiristanlığında dəfn edilmişdir. Salyan şəhərindəki mərkəzi parkda büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Babayev Nazim Abbas oğlu - Müdafiə Nazirliyi, çavuş – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Babayev Nazim Abbas oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.-S.37.

Ənsər, B. Azmış güllənin qurbanı /B.Ənsər //Ağrıdağlı qəhrəmanlar.- Bakı, 2004.-S.75-77.

Əsgərov, V. Babayev Nazim Abbas oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.48.

Seyidzadə, M. Babayev Nazim Abbas oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.35.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



50 illiyi

Nazim Quliyev
1965-1992

Milli Qəhrəman



Nazim Qabil oğlu Quliyev 1965-ci il fevral ayının 7-də Beyləqan rayonunun Örənqala kəndində anadan olmuşdur.

1982-ci ildə kənd orta məktəbini bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır.

Xidmətini başa vurduqdan sonra 2 saylı şərab zavoduna işə qəbul olunmuşdur. 1988-ci ildə Qarabağ münaqişəsi başlayanda Nazim silaha sarılaraq özünümüdafiə dəstələrinin birində döyüşə yollanmışdır.

1991-ci ilin aprel ayında Füzuli bölgəsində gedən döyüşdə fəal iştirak etmişdir. Cuvarlı, Tuğ, Məlikcan, Arış, Divanlar və digər kəndlər uğrunda döyüşdə rəşadətlə vuruşmuşdur.

1992-ci il Köşbək kəndi uğrunda gedən döyüşdə qəhrəmanlıq göstərərək, bir neçə yaralı yoldaşını xilas etmişdir. 27 yaşlı gənc əsgər qızğın döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Quliyev Nazim Qabil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Füzuli rayonu ərazisində dəfn edilmişdir.

Füzuli rayonunun Yuxarı Yağləvənd və doğulduğu Örənqala kənd orta məktəbləri onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Nazim Qabil oğlu – polis starşinası – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Quliyev Nazim Qabil oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.172.

Quliyev Nazim Qabil oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.-S.127.

Seyidzadə, M. Quliyev Nazim Qabil oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.- S.131.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az


www.milliqahraman.az

www.muallim.edu.az



40 illiyi

Xanoğlan Məmmədov
1975-1995 *Milli Qəhrəman*



Xanoğlan Sadıq oğlu Məmmədov 1975-ci il fevral ayının 13-də Neftçala rayonunun Qaraqaşlı kəndində anadan olmuşdur.

1983-cü ildə Salyan rayonundakı 104 saylı texniki peşə məktəbinə daxil olmuş, iki il dülgərlik sənətinin sirlərini öyrənmişdir.

1993-cü ildə hərbi xidmətə yollanaraq topçu kimi əvvəlcə Səngəçalda, sonra isə Çuxanlı, Pirəküşkül və Qaladakı hərbi hissələrdə xidmət keçmişdir. O, bir müddət təlim keçdikdən sonra Murovdağ cəbhəsinə göndərilmiş və bir neçə döyüşdə iştirak etmişdir.

Döyüşlərdə rəşadəti ilə fərqlənən Xanoğlan 1995-ci ilin mart ayında dövlət çevirilişinə cəhdin qarşısının alınmasında müstəsna xidmət göstərmiş və qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Məmmədov Xanoğlan Sadıq oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Neftçala rayonu Qaraqaşlı kəndində dəfn edilmişdir.

Neftçala rayon Mədəniyyət və İncəsənət sarayı qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Xanoğlan Sadıq oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Xanoğlan Sadıq oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.196.

Məmmədov Xanoğlan Sadiq oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.-S.140.

Seyidzadə, M. Məmmədov Xanoğlan Sadiq oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.-S.151.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az


www.muallim.edu.az



40 illiyi

Elşad Məmmədov 1975-1995

Milli Qəhrəman



Elşad Ramiz oğlu Məmmədov 1975-ci il fevral ayının 14-də Xanlar rayonunun Haçaqaya kəndində anadan olmuşdur.

1990-cı ildə Haçaqaya kənd natamam orta məktəbini bitirdikdən sonra Xanlar rayonu texniki-peşə məktəbində təhsilini davam etdirmişdir.

1993-cü ilin avqust ayında Hərbi Komissarlıq tərəfindən Milli Ordu sıralarına hərbi xidmətə çağırılaraq, 6 ay hərbi təlim keçmişdir. Oradan da Qarabağa - döyüş bölgəsinə yollanmışdır.

Tərtər bölgəsində döyüşə başlayan Elşad, daha sonra Ağdərə ərazisinin düşmənlərdən təmizlənməsi uğrunda gedən qanlı döyüşdə qəhrəmanlıq nümayiş etdirmişdir.

17 mart 1995-ci ildə dövlət çevirilişi cəhdinin qarşısının alınmasında rəşadət göstərən E.Məmmədov qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Məmmədov Elşad Ramiz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Xanlar rayonunun Qırıqlı kəndində dəfn edilmişdir.

Hacıqaya kənd natamam orta məktəbi onun adını daşıyır. Daşkəsən yolu üstündə büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Elşad Ramiz oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Elşad Ramiz oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.194.

Məmmədov Elşad Ramiz oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.138-139.

Seyidzadə, M. Məmmədov Elşad Ramiz oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.141.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



60 illiyi

Faiq Rəfiyev 1955-1992

Milli Qəhrəman



Faiq Qəzənfər oğlu Rəfiyev 1955-ci il fevral ayının 22-də Füzuli rayonunun Sarıcıq kəndində anadan olmuşdur.

1972-ci ildə Qarakollu kənd orta məktəbini bitirmişdir.

1973-1975-ci illərdə Arxangelsk vilayətində hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunaraq, Plistesk rayonunda milis vəzifəsində çalışmışdır.

Sankt-Peterburq şəhərində Ali Hərbi Milis Məktəbinin qiyabi şöbəsində oxumuş, 1984-cü ildə təhsilini başa vuraraq leytenant rütbəsi almış, sahə müvəkkili vəzifəsində işə başlamışdır.

1990-cı ildə 20 Yanvar faciəsindən sonra vətənə qayıdaraq, Xocavənd rayonunda sahə müvəkkili işləmişdir. Axullu, Tuğ, Qaradağlı kəndlərinin düşməndən qorunmasında qəhrəmanlıq göstərmişdir.

Cəsur döyüşçü 1992-ci il yanvar ayının 10-da Koçbəy kəndinin erməni quldurlarından təmizlənməsi zamanı qəfil atılan güllə ilə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Rəfiyev Faiq Qəzənfər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Doğulduğu Sarıcıq kəndində dəfn edilmişdir.

Lökbatan qəsəbəsindəki 166 saylı orta məktəb qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rəfiyev Faiq Qəzənfər oğlu – Xocavəndin sahə müvəkkili – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Rəfiyev Faiq Qəzənfər oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.240.

Nazim, N. Rəfiyev Faiq Qəzənfər oğlu: (1955-1992) /N.Nazim //İstiqlal ulduzları.- Bakı,1995.- S.143-145.

Rəfiyev Faiq Qəzənfər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.- S.172.

Seyidzadə, M. Rəfiyev Faiq Qəzənfər oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.-S.191.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



45 illiyi

Tahir Həsənov 1970-1992

Milli Qəhrəman



Tahir Tofiq oğlu Həsənov 1970-ci il fevral ayının 22-də Bakı şəhərində doğulmuşdur.

1987-ci ildə Nəsimi rayonundakı 23 saylı orta məktəbi bitirmiş, 1988-ci ildə isə hərbi xidmətə çağırılmışdır.

1990-cı ildə ordudan tərxis olunmuş, sənədlərini Bakı Dövlət Universitetinə vermiş və tarix fakültəsinə daxil olmuşdur. Ailənin yeganə övladı olmasına baxmayaraq o, universitetin ikinci kursundan könüllü olaraq vətənin müdafiəsinə qalxan igidlərin sırasına qoşulmuşdur. Cəsur komandir Tahir Həsənov Yuxarı Qarabağda, Ağdərə, Başkənd, Meşəli və Çıldıran əməliyyatlarında torpaqlarımızın müdafiəsində fəal iştirak etmişdir.

1992-ci il sentyabr ayının 2-də Çıldıran yüksəkliyindəki uğurlu əməliyyatlardan qayıdarkən düşmənlə üz-üzə gəlmiş və erməni quldurlarını məhv edərək, özü də qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə Həsənov Tahir Tofiq oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Təhsil aldığı 23 saylı orta məktəb qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov Tahir Tofiq oğlu – polis serjantı –Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №20.- S.18.- (Ölümündən sonra).

Əsgərov, V. Həsənov Tahir Tofiq oğlu //Əsgərov V.Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.117.

Həsənov Tahir Tofiq oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.- S.84.

Seyidzadə, M. Həsənov Tahir Tofiq oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.88.

Zeynalov, R. Həsənov Tahir Tofiq oğlu: (1970-1992) /Zeynalov R. //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S.63.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az



80 illiyi

Artur Rasi-zadə 1935

Siyasi xadim



Artur Tahir oğlu Rasi-zadə 1935-ci il fevral ayının 26-da Gəncə şəhərində anadan olmuşdur.

1952-ci ildə Lənkəran şəhər 4 saylı orta məktəbdə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

1957-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Azərbaycan Neft Maşınqayırması ETİ "AzİNMAŞ"-da mühəndis vəzifəsində başlamış, sonradan böyük mühəndis, layihənin baş mühəndisi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir.

1973-1975-ci illərdə "Azneftsənayemaş" birliyində baş mühəndis, 1975-1977-ci illərdə "İttifaqneftmaş" EİB rəisinin birinci müavini - baş mühəndis, 1977-1978-ci illərdə "AzİNMAŞ" Neft maşınqayırması ETİ-nin direktoru olmuşdur.

1978-1981-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi sədrinin müavini, 1981-1986-cı illərdə Azərbaycan KP MK-da maşınqayırma şöbəsinin müdiri, 1986-1992-ci illərdə Azərbaycan Respublikası Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində çalışmışdır.

1992-1994-cü illərdə İqtisadi İslahatlar Fondunun məsləhətçisi, 1994-cü ildə "DEKA-B" şirkətində məsləhətçi, 1994-1996-cı illərdə İqtisadi İslahatlar Fondunda məsləhətçi vəzifəsində işləmişdir.

1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi təyin edilmişdir.

1996-cı ilin may ayından Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, 1996-2003-cü illərdə Baş nazir, 2003-cü ilin avqust - noyabr aylarında Baş nazirin birinci müavini vəzifələrində çalışmışdır.

2003-cü ilin noyabr ayından yenidən Azərbaycan Respublikasının Baş naziridir.

SSRİ ordenləri ("Şərəf nişanı" ordeni) və medallarla təltif edilmişdir. 1971-ci ildən SSRİ Dövlət mükafatı laureatıdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına verdiyi böyük töhfələrə görə görkəmli ictimai-siyasi xadim Artur Tahir oğlu Rasi-zadə 2006-cı ildə "İstiqlal", 2010-cu ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Ədəbiyyat

A.T.Rasi-zadənin Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22 oktyabr 2013-cü il //Azərbaycan.- 2013.- 23 oktyabr.- S.1.

A.T.Rasi-zadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 fevral 2010-cu il //Azərbaycan.- 2010.- 26 fevral.- S.1.

Cəfərli, R. Parlament Artur Rasi-zadənin Baş nazir vəzifəsinə təyin edilməsinə razılıq verdi /R.Cəfərli //Azərbaycan.- 2013.- 23 oktyabr.- S.4.

Rasi-zadə Artur Tahir oğlu //Azərbaycanda kim kimdir: ensiklopedik məlumat kitabı.- Bakı, 2010.- S.79.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.cabmin.gov.az

65 illiyi

Hacı Fərhad Mirzə 1950

Dinşünas



Mirzəyev Fərhad Əhməd-Əli oğlu (Hacı Fərhad Mirzə) 1950-ci il fevral ayının 11-də Bakı şəhərində anadan olmuşdur. Sabunçu rayonunda 155 saylı məktəbdə orta təhsil almış, Bakı şəhəri Politexnik texnikumunun inşaat fakültəsini bitirmişdir.

1974-1989-cu illərdə Sabunçu Rayon Dövlət Xalq Nəzarəti Komitəsində şöbə müdiri vəzifəsində, 1989-1995-ci illərdə Kooperativ Birliyi sahəsində çalışmışdır. 1995-ci ildən indiyədək təsis etdiyi "Azərbiznes" Şirkətinin prezidentidir.

Ədəbi-fəlsəfi əsərlərinə görə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının qərarı ilə dinşünaslıq və fəlsəfə elmləri doktoru fəxri adı ilə təltif edilmiş, Beynəlxalq EA-nın, eləcə də Azərbaycan Tarix qurumunun akademiki seçilmişdir. Azərbaycan, Türkiyə, Rusiya Federasiyası YB-nın və Avrasiya Yazıçılar liqasının üzvüdür. "Azərbaycan bayrağı" mükafatına, "Hacı Zeynalabdin Tağıyev" fəxri diplomuna, "İnam" şərəf diplomuna, "İlin nüfuzlu ziyalısı" fəxri adına, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri diplomuna layiq görülmüşdür.

"Ziya", "Vətən" fəxri diplomu, "Qızıl Qələm" mükafatına layiq görülmüşdür. "Kəlamlar", "Haqq yolu, paklıq yolu", "40 kəlam, 40 qitə", "Könül möcüzələrində səməndər quşu" və digər əsərlərin müəllifidir. "Kəlamlar" kitabı Ankarada, Moskvada, Frankfurtda nəşr edilmişdir.

2008-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq EA-nın akademik üzvü və fəxri professoru seçilmiş, "Beynəlxalq Qızıl Ulduz" medalına layiq görülmüşdür.

2009-cu ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq EA Ali Təltiflər Şurasının qərarı ilə "Dünya mədəniyyətinə xidmət" beynəlxalq mükafatı, BMT yanında İctimai Təltiflər Şurası "Avropanın Şərəf Ordeni", Rusiya Ədəbiyyatşünaslıq Akademiyasının qərarına əsasən A.S.Puşkin adına "Maarif fədaisi" qızıl medalı ilə təltif edilmişdir.

2009-cu ildə Avropa Təbiyyat EA-nın akademiki, Qotfrid Leybnis adına qızıl medalı ilə təltif edilmişdir. KIBATEK Beynəlxalq təşkilatı onu "Türk mədəniyyətinə xidmət" Beynəlxalq mükafatına layiq görmüş, "Kəlamlar" kitabının Ankarada nəşr edilən variantı "İlin kitabı" beynəlxalq mükafatına layiq görülmüşdür.

2010-cu ildə İtaliyadakı Beynəlxalq Sosial və İqtisadi Tədqiqatlar Akademiyasının akademiki seçilmiş, "Şöhrət" ordeni ilə təltif edilmiş və türk dünyasında ilk dəfə olaraq məhz ona "Romanın fəxri alimi" adı verilmişdir.

2010-cu ildə İctimai Rəy Araşdırmalar Mərkəzinin "Mənəviyyat himayədarı" medalı, "Atatürk Beynəlxalq Mükafatı" və başqa mükafatlarla təltif edilmişdir.

2012-ci ildə "Avropanın Əməkdar elm və mədəniyyət xadimi" fəxri adını almışdır.

2013-cü ildə Avropa Təbiyyat Elmləri Akademiyası Beynəlxalq Ritsarlar İttifaqı ilə birlikdə təsis etdiyi "Senator" Ulduzu, "Taclı Böyük Ulduz" ordenlərinə layiq görülmüşdür.

Ədəbiyyat

Kəlamlar /F.H.Mirzə; red. E.İsgəndərzadə; ön söz. müəl. Ə.Sadıqov, M.Haciyev; Türk Dünyası Araşdırmaları, Beynəlxalq EA.- Bakı: Vektor Nəşrlər Evi, 2009.-311 s.

Azərbaycanın bəşəri dəyərlərə verdiyi önəm region və dünya üçün nümunədir /F.H.Mirzə //Xalq qəzeti.- 2012.- 29 noyabr.- S.6.

Qüdsi əbədiyyəti /tərt. ed. İ.Mirzəbəyli; elmi red. H.F.Mirzə; red. R.Əsgər.- Bakı: Mütərcim , 2011.- 359 s.

Dəmirli, D. Kəlam allah sözüdür /D.Dəmirli.- Bakı: [Açıq söz], 2007.- 56 s.

İsmayıllı, N.Dünyanı dolanan kitaba "Beynəlxalq uğur mükafatı" verildi /N.İsmayıllı //Xalq qəzeti.- 2013.- 24 yanvar.-S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.cs.bsu.edu.az

www.hacifarhadmirza.az

95 illiyi

Əziz Mirəhmədov 1920-2002

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Azərbaycan ədəbiyyatına dair tədqiqlər (IX-XX əsrlər) /Ə.Mirəhmədov.- Bakı: Maarif, 1983.- 362 s.

Azərbaycan Molla Nəsrəddini /Ə.Mirəhmədov.- Bakı: Yazıçı, 1980.- 429 s.

Ədəbiyyat: 10-cu sinif: ümumtəhsil məktəbləri üçün dərslik /Ə.Mirəhmədov, Z.Əsgərli; red: B.Ələkbərova.- Bakı: Maarif, 2003.-304 s.

Yazıçılar, talelər, əsərlər /Ə.Mirəhmədov.- Bakı: Azərnəşr, 1978.- 312 s.

Əhmədov, T. Əziz Mirəhmədov /T.Əhmədov //XX əsr Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı, 2004.- S.298.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www.anl.az

www.muallim.edu.az

www.azyb.net

Əziz Mirfeyzulla oğlu Mirəhmədov 1920-ci il fevral ayının 11-də Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) filologiya fakültəsində təhsil almışdır. İlk məqaləsi hələ tələbə ikən "Müəllim qəzeti"nin 13 may 1938-ci il nömrəsində çap olunmuşdur.

1941-ci ildə APİ-ni bitirdikdən sonra orta və ali məktəblərdə dərs demiş, 1942-ci ildə Mərdəkandakı 156 saylı məktəbdə müəllim işləmişdir. 1943-1948-ci illərdə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında baş müəllim vəzifəsini icra etmişdir. 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1976-cı ildə elmlər doktoru elmi dərəcəsini almış, 1980-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Bacarıqlı elm təşkilatçısı və yorulmaz tədqiqatçı bir müddət AK PMK Təbliğat şöbəsi müdirinin müavini, sonra Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru kimi məsul vəzifələrdə çalışmışdır.

O, "Molla Nəsrəddin" jurnalının 25 illik nömrələrinin transliterasiyası, 12 cilddə çapa hazırlanması və birinci cildin nəşr edilməsi işini də başa çatdırmışdır.

Ə.Mirəhmədovun ədəbiyyat tarixi və nəzəriyyəsi, mətbuat tarixi, mətnşünaslıq, biblioqrafiya və kitab mədəniyyəti, həmçinin müasir ədəbi prosesin əsas istiqamətləri və imzaları haqqında çoxsaylı tədqiqatları bir tədqiqatçı kimi fərdi təhlil üsulunun üstünlüklərini üzə çıxarmışdır.

O, 18 kitabın, 500-dən artıq elmi məqalənin müəllifidir. Hələ 40-cı illərdə ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944) hazırlanmasında yaxından iştirak etmiş, sonrakı illərdə üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1958-1960) əsas müəlliflərindən biri olmuşdur. O, nəşri planlaşdırılmış yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin də aparıcı müəlliflərindən biri idi.

Onun zəhməti hesabına müxtəlif illərdə Cəlil Məmmədquluzadənin əsərlərinin ikicildliyi (1951-1954), üçcildliyi (1966-1967) və altıcildliyi (1981-1985) nəşr edilmiş, onun tərəfindən hər nəşrə müqəddimə, izah və şərhlər yazılmışdır.

Dərslik yazmaq sahəsində ilk təcrübəsi "Ədəbi qiraət" dərsliyi ilə bağlıdır. XX əsrin 50-ci illərində məktəblərimizdə istifadə olunan bütün "Ədəbi qiraət" dərsliklərinin, həmçinin 8-ci, 9-cu, 10-cu siniflər üçün "Ədəbiyyat" dərsliklərinin redaktoru olmuşdur. Eyni zamanda 9-cu sinif üçün "Ədəbiyyat müntəxəbatı"nın (1948-1962-ci illər) müəllifidir.

Görkəmli alim 1982-ci ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Əziz Mirəhmədov 2002-ci ildə Bakıda vəfat etmişdir.

105 illiyi

İmam Mustafayev 1910-1997

Akademik



İmam Daşdəmir oğlu Mustafayev 1910-cu il fevral ayının 25-də Qax rayonunda anadan olmuşdur.

1922-1928-ci ildə Zaqatala Kənd Təsərrüfatı Texnikumunda təhsil almışdır.

O, 1929-cu ildə Bakı şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, sonra institut Gəncə şəhərinə köçürüldüyündən, o da buraya gəlmişdir.

1934-1938-ci illər ərzində AzKTİ istehsalat təcrübəsi bölməsinə rəhbərlik etmişdir. Zootexnika fakültəsinin dekanı, sonra isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tədris və elmi işlər üzrə direktor müavini kimi məsul vəzifələrə irəli çəkilmişdir.

1938-ci ildə kənd təsərrüfatı elmləri namizədi, 1964-cü ildə isə biologiya elmləri doktoru adını almışdır.

1938-1940-cı illərdə Kənd Təsərrüfatı İnstitutunda genetika, seleksiya və toxumçuluq kafedrasının rəhbəri, tədris və elmi işlər üzrə direktor müavini vəzifəsini icra etmişdir. O, ilk dəfə egilopsların çovdarla çarpazlaşdırılması nəticəsində cinslərarası fertil hibridlər, "Sevinc", "Cəfəri", "Zoğal-buğda", "Arzu" və s. sortlar yetişdirmişdir.

1947-1950-ci illərdə Azərbaycan SSR Kənd Təsərrüfatı naziri vəzifəsində çalışmışdır.

1949-cu il Azərbaycan K(b)P XVII qurultayının nümayəndəsi, 1950-ci il Azərbaycan K(b)P MK-nın üzvü, 1950-ci il Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1950-1952-ci illər Azərbaycan SSR Elmlər Akademiyasının katibi, 1951-1952-ci illər "Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri" jurnalının redaktoru, Bakı şəhər Zəhmətkeş Deputatları Sovetinin deputatı, Azərbaycan SSR Xaçmaz seçki dairəsindən SSRİ Ali Soveti III çağırış İttifaq Sovetinin deputatı, 1951-ci il Azərbaycan K(b)P XVIII qurultayının nümayəndəsi, Azərbaycan K(b)P MK üzvü, 1952-ci il Azərbaycan K(b)P MK katibi, 1954-1959-cu illərdə AKP MK 1-ci katibi olmuşdur.

İ.Mustafayev SSRİ-nin Dünya bitki ehtiyatlarını öyrənən Elmi şurasının üzvü, Azərbaycan SSR Elmlər Akademiyası elmi-tarixi Şurası kənd təsərrüfatı bölməsinin sədri olmuşdur.

O, göstərdiyi xidmətlərə görə dövlət tərəfindən 4 orden (Lenin, II dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri) və 9 medalla təltif edilmişdir. 1988-ci ildə respublikada elmin inkişafında və elmi kadrlar hazırlanması sahəsindəki xidmətlərinə görə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ona "Azərbaycan SSR Əməkdar elm xadimi" adı verilmiş, 1995-ci ildə isə anadan olmasının 85 illiyi münasibətilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

İmam Mustafayev 1997-ci il mart ayının 10-da vəfat etmişdir.

Ədəbiyyat

Fərəcov, Ç. "Fəaliyyətini Vətəninə, xalqına xidmətə həsr etmiş böyük vətəndaş" /ÇFərəcov //Xalq qəzeti.- 2010.- 25 fevral.- S.5.

İmam Mustafayev-100 //Elm.- 2010.- 12 noyabr.- S.2.

Əhmədov, S. İmam Mustafayev /Səbuhi Əhmədov //Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.- S.218-220.

İmam Daşdəmir oğlu Mustafayev: biblioqrafiya /tərt. Tərlan İmam qızı.- Bakı: Elm, 2000.-183 s.- (Azərbaycanın elm və mədəniyyət xadimləri).

Mirzəyev, O. İmam Mustafayev (siyasi portret) /Osman Mirzəyev //Ədəbiyyat qəzeti.- 2010.- 13 avqust.- S.1,2.

İmam Mustafayevlə Əziz Əliyevi birləşdirən Güney Azərbaycan missiyası //Təzadlar.- 2013.- 15 oktyabr.- S.7.

İnternetdə

www.anl.az

www.adau.edu.az

Tarixdə bu gün

15 illiyi

Vergilər Nazirliyinin yaradılması günü 2000

Bazar iqtisadiyyatına keçid şəraitində məqsədyönlü və ardıcıl iqtisadi siyasətin həyata keçirilməsində, ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında Vergi xidməti orqanlarının rolu durmadan artır. Bu xidmət ölkə iqtisadiyyatında bazar münasibətlərinə keçidlə əlaqədar, bu münasibətlərin tənzimlənməsində və dövlət büdcəsinin mədaxil hissəsinin formalaşmasında vergilərin rolunun artması ilə bağlı olaraq, yeni iqtisadi münasibətlər şəraitində prinsipial cəhətcə yeni vergi siyasətinin həyata keçirir.

Dövlət büdcəsinə çatası Vergilərin və digər icbari ödənişlərin tam və vaxtında səfərbər olunması, hüquqi və fiziki şəxslər tərəfindən Vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə 1990-cı ilin iyul ayında Respublika Maliyyə Nazirliyinin tərkibində yaradılmışdır.

Sonradan, 1991-ci ilin oktyabrında Vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədi ilə bu xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarılmış və müstəqil orqan, Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi kimi fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Vergilər Nazirliyi yaradılmışdır.

Ədəbiyyat

Azərbaycan Respublikası Vergilər Nazirliyi 10 il (2000-2010) /məsləhətçi. F. Məmmədov; red. Z. Səmadzadə.-Bakı [s.n] 2010.- 189, [2] s

Vergilər Nazirliyi əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində kompleks tədbirlərə başlayıb //Azərbaycan.- 2012.- 3 avqust.- S.3.

Bayramov, V. Heydər Əliyev və Azərbaycanda vergi siyasəti //Xalq qəzeti.-26 may.-2014.-S.2.

Kərimli, M. Vergilər Nazirliyi qlobal vergi əməkdaşlığının fəal iştirakçısıdır /M.Kərimli; müsahibə apardı S.Mustafayev //İqtisadiyyat.- 2013.- 20-26 dekabr.- S.7.


İnternetdə

www.anl.az

www.taxes.gov.az

www.vergiler.az

Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü 1992



Qaradağlı kəndinin işğalı Xocalı qətliamına qədər Azərbaycanın yaşadığı ən faciəli hadisə, erməni işğalçı dəstələrinin törətdiyi müdhiş bir qırğın idi. Ermənilər Xocalı soyqırımına son "hazırlığı", həmin qətliamın "baş məşqini" məhz Qaradağlı kəndində keçmişdilər.

1988-ci ildən mənfur qonşularımızın torpaq-ərazi iddiası başlayan dövrdən etibarən Qaradağlı kəndinin dinc sakinləri hər gün ermənilərin hücumuna məruz qalmışdır. Erməni təxribatçıları tərəfindən törədilmiş terror aktları nəticəsində 1991-ci ilin 28 iyun tarixində 3 nəfəri qadın olmaqla 6 nəfər diri-diri yandırılmış, 1991-ci ilin sentyabr ayında sərnişin avtobusunun güllələbaran edilməsi nəticəsində 8 nəfər öldürülmüş, çoxlu sayda insan yaralanmış, güllə yarası alanlardan 5 nəfəri sonradan dünyasını dəyişmişdir. 17 fevral 1992-ci il tarixində erməni hərbi birləşmələri tərəfindən keçmiş SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə Dağlıq Qarabağ bölgəsindəki mühüm yaşayış məntəqələrindən biri - Xocavənd (Martuni) rayonunun Qaradağlı kəndi işğal edilmişdir. 118 nəfər əsir götürülmüş, 33 nəfər ermənilər tərəfindən güllələnmiş, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzlərini torpaqlamışlar. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanılması, döyülərək öldürülməsi insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir.

Öldürülənlərdən 10 nəfəri qadın, 8 nəfəri məktəbli olmuşdur.

İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmışdır. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşmüşdür.

İşğal altında olan başqa torpaqlarımız kimi Qaradağlı kəndi də azad olunacağı günü gözləyir.

Ədəbiyyat

Zülfüqarlı, M. Qaradağlı faciəsi. 17 fevral 1992-ci il /M.Zülfüqarlı.-Bakı: Qanun 2010.-35 s.

Alıoğlu, S. Qaradağlı faciəsinin dəhşətləri /S.Alıoğlu //Respublika.- 2013.- 17 fevral.- S.7.

Qaraca, B. Qaradağlı - "İkinci Xocalı" /B.Qaraca //Azərbaycan 2014.- 16 fevral.- S.6.

Qurbanqızı, S. Xocalıdan əvvəl yaşanmış "İkinci Xocalı Soyqırımı": Qaradağlı faciəsi dünyanın diqqətindən kənarda qalan ikinci Xocalı faciəsidir /S.Qurbanqızı //Olaylar.- 2014.- 18 fevral.- S.13.

Rəhimli, F. Qaradağlı dağı /F.Rəhimli //Ədalət.- 2014.- 18 fevral.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.garadaghli.org

FEVRAL

21

Tarixdə bu gün

Beynəlxalq Ana Dili Günü 1999

YUNESKO (UNESCO) 1999-cu il fevral ayının 21-ni Beynəlxalq Ana Dili Günü elan etmişdir.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Ən sadə şəkildə desək, dil ünsiyyət vasitəsidir, bununla bahəm, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Bu qənaət tarixin bütün dövrlərində bəşər övladlarının qeyd-şərtsiz qəbul etdiyi, sübuta ehtiyac duyulmayan aksiomadır. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb.... Və bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə Ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub: Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. ...Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin Ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs Ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. 2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür. Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim də borcumuzdur.

Ə d ə b i y y a t

Atalı, İ. Ana dilini qorumaq- Milləti qorumaqdır : 21 fevral- Beynəlxalq Ana dili günüdür /İ. Atalı //Türküstan.- 2013.-17-23 fevral.- S.13.

İsmayıl, Z. Beynəlxalq Ana Dili Günü bizim qarşımızda nə vəzifələr qoyur? /Z.İsmayıl //Azad Azərbaycan .-2012.- 21 fevral.- S. 7.

FEVRAL

26

Tarixdə bu gün

Xocalı Soyqırımı günü 1992

- **Xocalı rayonu**
- **Ərazisi: 936 km²**
- **Əhalisi: 25332 nəfər**
- **İşğal tarixi: 26.02.1992**
- **İnternet saytı http://xocali-ih.gov.az**

Ötən əsrin 1992-ci ilinin fevralında tarixdə görünməmiş qətliam baş verdi. Türkləri özlərinin əbədi düşməni hesab edən ermənilər məskunlaşdıqları türk torpaqlarında insanlığa xas olmayan vəhşiliklər törətməklə, Xocalı adlı bir yurd yerini yer üzündən sildilər – insanlar amansızlıqla qətlə yetirildilər, əsir götürüldülər, şəhər isə oda qalandı. Bu, Qarabağ müharibəsinin ən qəddar səhifəsi idi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu, ən dəhşətli soyqırım törədildi. Buna qədər isə Xocalı erməni-daşnaklar tərəfindən tam mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, Xocalı taleyin ümidinə buraxılmışdı. Halbuki xocalılar ermənidaşnak hərbi qüvvələrinə mərdliklə müqavimət göstərir, şəhəri çətinliklə də olsa qoruyub saxlayırdılar. Düşmən elə buna görə də Xocalı sakinlərini vəhşiliklə, qəddarlıqla və kütləvi surətdə qətlə yetirdi.

Faciənin miqyası son dərəcə böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların cəsədləri ilə dolmuşdu. Yergöy qan ağlayırdı. Ermənilər qadınlara və uşaqlara, qocalara və xəstələrə rəhm etmədən hamını güllələyərək süngüdən keçirmişdilər. Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ümummilli lider Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "... biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir".

Bu faciə zamanı böyük bir yaşayış məntəqəsi yer üzündən silinib, azərbaycanlılara qarşı amansız soyqırımı törədilib: 613 nəfər qətlə yetirilib, 1275 nəfər əsir götürülüb. Qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürüblər. Habelə azğınlaşmış erməni hərbçiləri əsir və girov götürdükləri azərbaycanlıları xüsusi amansızlıqla, işgəncə verərək qətlə yetiriblər. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetiriliblər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon Daxili işlər şöbəsində işgəncə verilməklə öldürülüb. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilib, dözülməz işgəncələr verilib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb. Xocalıya hücum edən erməni dəstələri ölkə iqtisadiyyatına 170 milyon dollardan artıq ziyan vurub. Şəhərin toxuculuq fabriki, onlarla ictimai iaşə obyekti dağıdılıb. 200 nəfərdən çox insan müxtəlif dərəcəli əlilə çevrilib. Ermənilər buna görə cavab verməlidirlər. Əgər bunu edə bilməsək, gələcək nəsillər bizi heç vaxt bağışlamayacaqdır!

Azərbaycan Respublikasının Milli Məclisi 24 fevral 1994-cü ildə 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı soyqırımı günü" elan olunması barədə qərar vermiş və Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və "Xocalı soyqırımı günü"nün beynəlxalq miq-

yasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət etmişdir.

Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər. Heydər Əliyev Fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması istiqamətində böyük işlər görüb. Dünyanın, Avropanın onlarla ölkəsində Xocalı soyqırımının ildönümlərində tədbirlərin, sərgilərin keçirilməsi, filmlərin nümayiş olunması və sair bu qəbildəndir. Xocalı soyqırımına dair müxtəlif dillərdə Heydər Əliyev Fondu tərəfindən filmlər hazırlanıb, həmin filmlərin təqdimatı keçirilib. Həmçinin Xocalı soyqırımı ilə bağlı fotosərgilərin təqdimatı dünyanın onlarla ölkəsində düzənlənib. Xocalı soyqırımı ilə bağlı xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının qələmə aldıqları məqalələrin sərgisi keçirilib. Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi və sair böyük tədbirlər təşkil olunub. Bunlar hamısı Heydər Əliyev Fondunun və ələlxüsus ölkənin birinci xanımı, millət vəkili Mehriban xanım Əliyevanın Xocalı soyqırımının tanıdılması istiqamətində çox böyük xidmətləridir. Özü də nəinki Xocalı soyqırımının, ümumilikdə bütün Azərbaycan həqiqətlərinin təbliği istiqamətində bu xidmətlər ölçüyəgəlməzdir. Eyni zamanda Leyla xanım Əliyeva dünya ictimaiyyətinin diqqətini erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayətlər haqqında obyektiv məlumatlara cəlb etmək, sözügedən faciələrə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsində milli maraqlarının müdafiə olunması məqsədilə "Xocalıya ədalət – Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") devizi altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

"Xocalıya ədalət!" - dünyada bu kampaniyaya qoşulan insanların sayı günü-gündən çoxalmaqdadır. Bu kampaniya və təbii ki, bu istiqamətdə görülən işlər bundan sonra da davam edəcək. Amma söhbət ondan gedir ki, bizim hər birimiz bu kampaniyalara dəstək verməliyik. Harada yaşamağından asılı olmayaraq – Azərbaycanda da, Azərbaycandan kənarda da. Hərənin gücü nəyə çatırsa, Azərbaycan həqiqətlərinin, Xocalı həqiqətlərinin təbliğ edilməsi, bütövlükdə Qarabağ savaşında şəhid, əlil olmuş, yaralanmış qəhrəmanlarımızın, ümumən Azərbaycan xalqının başına gətirilən bütün müsibətlərin təbliğ edilməsi, erməni yalanlarının qarşısının alınması istiqamətində öz fəaliyyətini ortaya qoymalıdır.

Tarix heç nəyi unutmur!

Allah bütün şəhidlərə rəhmət eləsin!

Ə d ə b i y y a t

Xocalı soyqırımı-20: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundov ad. Azərb. Milli Kitabxanası tərt. M.Məmmədova; burax. məs. və ixt. red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2012.- 313 s.

Leyla Əliyeva: "Xocalıya Ədalət!": Beynəlxalq erməni terroruna qarşı yeni strateji model: üç cilddə /V.Səmədov, R.Vəlizadə; ön sözün müəl. R.Hüseynov; baş elmi məsl. A.Mustafayeva; elmi red. İ.Quliyev, C.Bəhramov; red. İ.Məmmədova, S.Sadıxqızı; Azərb. MEA, İnsan Hüquqları İn-tu; "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası; "Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyi.-Bakı: [s. n.], 2014.- C.1.- 341 s.; C.2.- 373 s.; C.3.-476 s.

Yaqublu, N. Xocalı soyqırımı /N.Yaqublu; red. Ş.Vəliyev.- Bakı: Elm və təhsil, 2012.- 185 s.

İdrisli, E. "Xocalıya ədalət"/E.İdrisli //Mədəniyyət.- 2014.- 26 fevral.- S.13.

İ n t e r n e t d ə

www.khojaly.org.az

www.azerigenocide.org

1 mart
Gün çıxır 07:16
Gün batır 18:31

31 mart
Gün çıxır 07:26
Gün batır 20:04

MART

19 fevral-
20 mart


Balıq bürcünün Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuisiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər.

B.	1
B.E.	2
Ç.A.	**3**
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	8
B.E.	9
Ç.A.	**10**
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	**17**
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	**24**
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	29
B.E.	30
Ç.A.	**31**

- *Beynəlxalq Qadınlar Günü (08.03.1910)*
- *Qızıl Aypara Günü (10.03.2008)*
- *Milli Teatr Günü (10.03.1873)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- *Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997)*
- ***Azərbaycanlıların Soyqırımı günü (31.03.1918)***

130 il Üzeyir Hacıbəyli 1885-1948


ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ.
ТЕАТРЪ Г. З. А. ТАГІЕВА.
Въ субботу, 12-го января 1908 года
ЛЕЙЛИ И МЕДЖНУНЪ
Начало ровно въ 8½ часовъ вечера.
Въ субботу, 12 января 1908 г.,
въ залахъ Бакинскаго Общественнаго Собранія
состоится



Ü.Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi də məşhurdur. Azərbaycan milli opera sənətinin tarixi Ü.Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə başlandı. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü – muğam operası meydana gəldi.

Böyük Üzeyirin "Leyli və Məcnun" operasının yubileyi ölkəmizlə yanaşı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın dəstəyi ilə YUNESKO-da da təntənəli şəkildə qeyd olunmuşdur.

Türksoy Türkiyədə keçirilən 11-ci Opera günlərini də "Leyli və Məcnun" operasının yüz illiyinə həsr etmişdi...

1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası Hacıbəyli yaradıcılığının zirvəsini təşkil edir. Xalq qəhrəmanlıq dastanının motivlərinə əsaslanan "Koroğlu" operası Azərbaycanda ilk klassik opera hesab olunur.

Müsəlman şərqində ilk operetta da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Bəstəkarın ilk musiqili komediyası üç pərdədən ibarət "Ər və arvad" əsəridir. Bu əsər Azərbaycanda musiqili komediyanın ilk nümunəsidir. Əsərin ilk tamaşası 1910-cu ildə olmuşdur. Sonralar "O olmasın, bu olsun" , "Arşın mal alan" operettalarını yazmışdır. Operetta 70-ə yaxın xarici dilə tərcümə edilmiş, 100-dən çox teatrın səhnəsində oynanılmışdır. "Arşın mal alan"dörd dəfə ekranlaşdırılmış, dəfələrlə qrammofon valına yazılmışdır.

Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belorus, gürcü və s. dillərə tərcümə edilmişdir.

MART 2015



Milli ədəbiyyat

Şair, ədəbiyyatşünas Cəfərpur İsmayıl Qəhrəman oğlunun (05.03.1925-18.02.1977) anadan olmasının 90 illiyi
Yazıçı şair, tərcüməçi Rzaquluzadə Mikayıl Manaf oğlunun (17.03.1905-10.11.1984) anadan olmasının 110 illiyi 63
Nasir Nəzərli Hacıbaba Hacı Ələsgər oğlunun (22.03.1895 - 28.01.1938) anadan olmasının 120 illiyi
Xalq yazıçısı, ictimai xadim Rəhimov Süleyman Hüseyn oğlunun (22.03.1900-11.10.1983) anadan olmasının 115 illiyi 64
Əməkdar incəsənət xadimi, dramaturq Mahmudov Sabit (Sabit Rəhman) Kərim oğlunun (26.03.1910-05.12.1970) anadan olmasının 105 illiyi 65



Folklor

Aşıq, şair Əhmədov Oruc Vəli oğlunun (19.03.1920 - 19.07.1976) anadan olmasının 95 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Xanlarov Kamil Əli Abbas oğlunun (09.03.1915-1996) anadan olmasının 100 illiyi



Musiqi.Opera.Balet

SSRİ Xalq artisti, balerina, baletmeyster Almaszadə Qəmər Hacağa qızının (10.03.1915-07.04.2006) anadan olmasının 100 illiyi 66
Xalq artisti, xanəndə Əkbərov Canəli Xanəli oğlunun (10.03.1940) anadan olmasının 75 illiyi 67
Əməkdar incəsənət xadimi, pianoçu, bəstəkar Mustafazadə Vaqif Əziz oğlunun (16.03.1940-16.12.1979) anadan olmasının 75 illiyi 68
Alman bəstəkarı Bax İohan Sebestyanın (21.03.1685 - 28.07.1750) anadan olmasının 330 illiyi
Xalq artisti, professor Abbasov Əşrəf Cəlal oğlunun (23.03.1920-1992) anadan olmasının 95 illiyi 69
Xalq artisti Abdullayev Əlibaba Abdulla oğlunun (23.03.1915-09.08.1980) anadan olmasının 100 illiyi 70



Teatr. Kino

Xalq artisti Səfərov (Səfəroğlu) Bəşir Səfər oğlunun (11.03.1925 - 24.03.1969) anadan olmasının 90 illiyi 71

Xalq artisti Həmzəyeva Zəroş Mirzəbağır qızının (22.03.1925-05.06.2004) anadan olmasının 90 illiyi 72

SSRİ Xalq artisti Ələkbərov Ələsgər Hacağa oğlunun (26.03.1910 - 31.01.1963) anadan olmasının 105 illiyi 73

Xalq artisti Məmmədova Şəfiqə Haşım qızının (30.03.1945) anadan olmasının 70 illiyi 74



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Rüstəmov Məzahir İzzət oğlunun (02.03.1960 - 08.08.1992) anadan olmasının 55 illiyi 75

Azərbaycanın Milli Qəhrəmanı Mənsurov Bəhruz Qəhrəman oğlunun (13.03.1975 - 16.03.1995) anadan olmasının 40 illiyi 76

Azərbaycanın Milli Qəhrəmanı Qasımov İxtiyar Qasım oğlunun (22.03.1970 - 14.07.1992) anadan olmasının 45 illiyi 77



Siyasət.Hərbi iş

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimi Hacınski Məhəmməd Həsən Cəfərqulu oğlunun (03.03.1875 - 09.02.1931) anadan olmasının 140 illiyi 78

General-mayor, şərqşünas alim, Azərbaycan Demokrartik Respublikasının Daxili işlər nazirinin müavini Məhəmməd Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadənin (05.03.1865 - 09.10.1944) anadan olmasının 150 illiyi



Fəlsəfə.İqtisadiyyat. Hüquq

Dövlət xadimi və iqtisadçı Vəkilov İlyas Sultan oğlunun (20.03.1905 - 02.06.1987) anadan olmasının 110 illiyi

Əməkdar inşaatçı, dövlət xadimi Hacıyev Zülfü Saleh oğlunun (22.03.1935 - 20.11.1991) anadan olmasının 80 illiyi

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Əlirzayev Əli Qənbərəli oğlunun (30.03.1945) anadan olmasının 70 illiyi



Tarix

Tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Babayev İlyas Atababa oğlunun (23.03.1935) anadan olmasının 80 illiyi 79

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Məmmədov İsaq Mustafa oğlunun (24.03.1925 - 08.11.2011) anadan olmasının 90 illiyi 80

Tarix elmləri doktoru, professor Fərzəliyev Şahin Fazil oğlunun (27.03.1940) anadan olmasının 75 illiyi



Mədəniyyət.Maarif.Elm

Filologiya elmləri doktoru, professor Ağayev Zeydulla Abdulla oğlunun (02.03.1945-17.02.2014) anadan olmasının 70 illiyi

Filologiya elmləri doktoru, ədəbiyyatşünas Seyidov Yəhya Qasım oğlunun (06.03.1920 - 04.12.1980) anadan olmasının 95 illiyi

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hacıyev Arif Allahyar oğlunun (13.03.1935-15.04.2000) anadan olmasının 80 illiyi

Filologiya elmləri doktoru, professor Ağayev Əkbər Məmməd oğlunun (21.03.1915 - 02.03.1989) anadan olmasının 100 illiyi

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hüseynzadə Muxtar Hüseyn oğlunun (21.03.1900 - 05.10.1985) anadan olmasının 115 illiyi 81

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Quliyev Əbülfəz Aman oğlunun (27.03.1950) anadan olmasının 65 illiyi

Filologiya elmləri doktoru, professor, folklorşünas Rüstəmzadə Rüstəm Bayraməli oğlunun (27.03.1930-20.03.2014) anadan olmasının 85 illiyi


Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Şərifzadə Əziz Qurbanəli oğlunun (Əziz Şərif) (28.03.1895 - 01.06.1989) anadan olmasının 120 illiyi 82



Riyaziyyat.Fizika.Astronomiya

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Hüseynov Rauf Rüstəm oğlunun (04.03.1940) anadan olmasının 75 illiyi

Akademik Maqsudov Fərəməz Qəzənfər oğlunun (20.03.1930 - 30.07.2000) anadan olmasının 85 illiyi



Kimya.Biologiya.Tibb

Akademik Məmmədova Siddiqə Rza qızının (08.03.1925) anadan olmasının 90 illiyi 83

Akademik Qəribov Adil Abdulxalıq oğlunun (28.03.1950) anadan olmasının 65 illiyi 84



Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor, Beynəlxalq və Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvü Cavadov Natiq Hacı oğlunun (08.03.1955) anadan olmasının 60 illiyi 85

Texnika elmləri doktoru, professor, neftçi alim Əmirov Əli Cabbar oğlunun (25.03.1915 - 12.02.1979) anadan olmasının 100 illiyi 86



Tarixdə bu gün

Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)

Respublikanın aparıcı informasiya agentliyi olan Azərbaycan Dövlət


Teleqraf Agentliyinin (AzərTAc) yaranmasının (01.03.1920) 95 illiyi 87
Bədən Tərbiyəsi və İdman Günü (05.03.2005)
Beynəlxalq Qadınlar Günü (08.03.1910)
Qızıl Aypara Günü (10.03.2008)
Milli Teatr Günü (10.03.1873)
Daxili Qoşunlar Günü (12.03.1995) 88
Ümumdünya İstehlakçılar Günü (15.03.1961)
Prezident fərmanı ilə ləğv edilən Xüsusi Təyinatlı Polis Dəstəsinin (OMON) dövlət çevrilişi cəhdi iflasa uğrayıb (17-18.03.1995)
Çanaqqala döyüşünün (Birinci Dünya müharibəsi əsnasında 1915-1916-ci illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən dəniz və quru döyüşü) (18.09.1915-09.01.1916) 100 illiyi 89-90
Novruz bayramı (20-22.03) 91
Beynəlxalq Novruz Günü (21.03.2010)
Beynəlxalq Poeziya Günü (21.03)
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Erməni hərbi hissələrinin Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücumu (24.03.1990)
Gömrük-sərhəd nəzarətinin ləğv olunması haqqında Şengen razılaşması qüvvəyə minmişdir (26.03.1995)
Beynəlxalq Teatr Günü (27.03.1948)
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997) 92
Azərbaycanlıların Soyqırımı günü (31.03.1918) 93-94

MART
17

110 illiyi

Mikayıl Rzaquluzadə 1905-1984

Nasir, tərcüməçi



Ə d ə b i y y a t

İlin yazı-Elin sazı: şeirlər, poemalar, rəvayətlər və nağıllar /M.Rzaquluzadə.-Bakı: Gənclik, 1981.- 250 s.

Ədəbiyyat: oxu kitabı: 4-cü sinif üçün /M.Rzaquluzadə, Ş.Mikayılov.- Bakı: Maarif, 1988.- 358 s.

Düma, A. Üç müşketyor [Elektron resurs] /A.Düma; red. heyəti: Ə.Quliyev [et al.]; tərc.: M.Rzaquluzadə, B.Musayev. -Bakı: Çaşıoğlu, 2004. - 1 el. opt. disk (CD-ROM).- ("Nizami" layihəsi). Dünya ədəbiyyatı.

Homer. İliada [Elektron resurs] /Homer; red. heyəti Ə.Quliyev [et al.]; tərc. M.Rzaquluzadə.- Bakı: Çaşıoğlu, 2006. - 1 el. opt. disk (CD-ROM).- ("Nizami" layihəsi).- Dünya ədəbiyyatı

London, C. Hekayələr /C.London; tərc. ed. M.Süleymanov, M.Rzaquluzadə.- Bakı: Qanun: Əli və Nino, 2011.-104 s.

İ n t e r n e t d ə

www.anl.az

Mikayıl Manaf oğlu Rzaquluzadə 1905-ci il mart ayının 17-də Bakı şəhərində anadan olmuşdur.

İbtidai təhsilini yeni üsullu "Mədrəseyi-nur" məktəbində və mollaxanada almış (1912-1913), sonralar 5 saylı "Rus-müsəlman" məktəbində oxumuş, Bakı ticarət məktəbinə daxil olmuşdur.

1926-1927-ci illərdə Ali Pedaqoji İnstitutun tarix və ədəbiyyat fakültəsində təhsil almışdır. 1927-1931-ci illərdə Gəncə Pedaqoji Texnikumunda, həm də fəhlə fakültəsində ədəbiyyat və pedaqogika-psixologiya müəllimi işləmişdir.

1931-1934-cü illərdə o, Moskva İkinci Dövlət Universitetinin aspiranturasını bitirib Bakıya qayıtmışdır.

Bakıda Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda uşaq ədəbiyyatı sahəsində elmi işçi, Azərnəşrdə tərcüməçi və redaktor olmuş, qısa fasilələrlə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında məsul katib, "Azərbaycanfilm" kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor, "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1923-cü ildə "Abdulla Şaiq" kitabçasında nəşr edilən "Müəllim" şeiri ilə başlamışdır.

İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Cocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını uşaq və gənclər üçün nəzərdə tutmuşdur.

Ədəbi təxəllüsü otuzuncu illərdə "Mim-Re", "M.R.", "R.Mikayıl", sonralar "M.Rzaquluzadə" olmuşdur.

Azərbaycan tərcüməçiləri arasında ən çox səmərəli, məqsədəuyğun fəaliyyət göstərənlərdən biri də Mikayıl Rzaquluzadə olmuşdur. Çoxillik ədəbi yaradıcılığını əsasən tərcümə işinə həsr etmiş bu istedadlı ədib dünyanın müxtəlif xalqlarının klassiklərinin əsərlərini dilimizə tərcümə edərək oxucularımızın böyük hörmət və rəğbətini qazanmışdır. Ümumiyyətlə, tərcümə kitablarının sayı 60-dan çox olan Mikayıl Rzaquluzadə "H.Heyne və faşizm", "Rabindranat Taqor", "Bayron və müasirlik" və s. kimi məqalələrin də müəllifidir. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın qabaqcıl maarif xadimi (1968), əmək veteranı (1976) olmuşdur.

Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyə-tinin Fəxri fərmanı ilə, Çuvaş MSSR Mədəniyyət Nazirliyinin və digər təşkilatların fəxri tərifnamələri ilə təltif edilmişdir.


1984-cü il noyabrın 10-da Bakıda vəfat etmişdir.

Bakı küçələrindən birinə onun adı verilmişdir.

MART
22

115 illiyi Süleyman Rəhimov 1900-1983

Yazıçı



Süleyman Hüseyn oğlu Rəhimov 1900-cü il mart ayının 22-də Zəngəzur mahalının Qubadlı rayonunun Əyin kəndində anadan olmuşdur.

S.Rəhimov kənd mollasından əlifbanı öyrənmiş, sonra Qubadlıda beşillik rus məktəbində oxumuşdur.

1921-ci ildə Şuşada açılmış pedaqoji kursa göndərilmiş və burada təhsilini başa vurduqdan sonra Qubadlı, Laçın, Zəngəzur rayonlarında bir müddət müəllimlik etmişdir. Müəllimliklə yanaşı o, çalışdığı kənd və rayonlarda həm də ictimai işlərdə fəal iştirak etmişdir.

S.Rəhimov 1928-1931-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxumuşdur, həm də fəhlə rayonlarında savadsızlığı ləğv edən kurslarda dərs demişdir. Universiteti bitirdikdən sonra Rayon partiya komitəsinin katibi, Bakı partiya komitəsində təbliğat işləri üzrə katib, Azərbaycan partiya komitəsində Təbliğat-təşviqat şöbəsinin müdir müavini vəzifələrində çalışmışdır.

S.Rəhimov ədəbiyyata romanla gəlmiş və roman bütün çoxillik yaradıcılıq fəaliyyəti dövründə onun nəsrinin əsas janrı olaraq qalmışdır.

Ədəbi fəaliyyətə 1930-cu ildən başlayan Süleyman Rəhimovun ilk əsəri "Şamo"dur. Bununla belə o, 50 il bu əsərin üzərində işləmiş və ona əlavələr etmişdir. "Şamo", "Saçlı", "Ata və oğul", "Mehman", "Ana və abidəsi", "Ağbulaq dağlarında", "Aynalı" və bir çox irihəcmli roman və povestlərin müəllifidir. Yazıçının "Mehman" povestinin motivləri əsasında "Qanun naminə" bədii filmi ekranlaşdırılmışdır.

O, 1941-1945-ci illər müharibəsi dövründə Sovet qoşun hissələri ilə Təbrizə gedir, Cənubi Azərbaycanın bir çox şəhər və kəndlərini gəzir. "Vətən yolu" qəzetində "Səngərli" imzası ilə çıxış edir. Təbriz uşaqlarının ağır həyatını təsvir edən "Nənənin ölümü" hekayəsini çap etdirir.

Süleyman Rəhimov 1939-1940, 1944-1946 və 1954-1958-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur.

Azərbaycan K(b)P Bakı şəhər komitəsində təbliğat üzrə katib (1940-1941), Azərbaycan K(b)P MK-da Təbliğat və təşviqat şöbəsinin müdir müavini (1941-1944), Azərbaycan Nazirlər Soveti yanında Mədəni-Maarif İşləri Komitəsinin sədri (1945-1958) vəzifələrində işləmişdir.

1961-ci ildə Milli Kitabxananın memarlıq baxımından tarixi abidə kimi qiymətləndirilən əzəmətli binaya köçməsində, binanın yerinin seçilməsində və tikilməsində də görkəmli yazıçı Süleyman Rəhimovun böyük xidməti olmuşdur.

Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına (1972) layiq görülmüşdür. Üç dəfə Lenin ordeni (1946, 1970, 1975), "Qırmızı Əmək Bayrağı" (1959), "Şərəf nişanı" (1942) ordenləri və medallarla təltif edilmişdir, 1960-cı ildə "Xalq yazıçısı", 1975-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarına layiq görülmüşdür.

1983-cü il oktyabr ayının 11-də vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə /S.Rəhimov; bur. məs. Ə.Güləliyev.- Təkrar nəşr.- Bakı: Şərq-Qərb, 2005.- C.I.- 288 s.; C.II.- 312 s.

Süleyman Rəhimov: [Fotoalbom] /tərt. Ç.Əlioğlu.- Bakı: Təhsil, 2005.- 112 s.

Dədə Süleyman dünyası: xatirələr /tərt. A.Şamo.- Bakı: Mars-Print, 2010.- 500 s.

Rüstəmova, N. Süleyman Rəhimovun yaradıcılığında milli ədəbi ənənələr: filol. e.n.al.dər.a.üçün təq. ol. dis-nın avtoreferatı: 10.01.03. /Nigar Rüstəmova; Naxçıvan Dövlət Universiteti.- Naxçıvan, 2002.-24 s.

İnternetdə

www.anl.az

www.lit.az

www.kitabxana.net

105 illiyi Sabit Rəhman 1910-1970

Dramaturq



Sabit Kərim oğlu Mahmudov (Sabit Rəhman) 1910-cu il mart ayının 26-da Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur.

İbtidai təhsilini Şəkidə almış, 1926-cı ildə isə Bakı Müəllimlər Seminariyasını bitirmişdir. O, üç il Şəki şəhərində müəllim işlədikdən sonra Bakı Ali Pedaqoji İnstitutunda təhsilini davam etdirmişdir.

1936-1937-ci illərdə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari kurslarında oxumuşdur. Bir müddət Azərbaycan dram teatrında ədəbi işçi, İncəsənət idarəsi sədrinin müavini vəzifəsində işləmişdi.

Ədəbi fəaliyyətə 1926-1927-ci illərdə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi felyetonlarla başlamışdır.

Sabit Rəhmanın yaradıcılığı çoxcəhətlidir. O bir çox hekayə, povest, roman, komediya, ssenari, libretto, bədii oçerk müəllifidir.

Onun şeirləri, satirik hekayə və felyetonları o zamankı qəzet və jurnallarda ("Gənc işçi"qəzetində, Şəkidə nəşr olunan "Qızıl qələm" jurnalında) dərc olunurdu.

İlk hekayələr məcmuəsi - "Pozğun" 1931-ci ildə dərc olunmuşdur.

S.Rəhman Azərbaycan Sovet komediyasının banilərindəndir. Azərbaycan ədəbiyyatında bu janrın estetik tələblərinə cavab verən ilk əsər olan "Toy" (1937) satirik komediyasında inkişafa, tərəqqiyə mane olan cəhətlər, bürokratizm, lovğalıq kimi eyiblər Kərəmov surətində ümumiləşdirilmişdir. Onun ssenariləri üzrə "Arşın mal alan", "Məşədi İbad", "Koroğlu", "Əhməd haradadır?" kinofilmləri çəkilmişdir. "Ulduz", "Hicran" musiqili komediyalarının və "Yeddi gözəl" baletinin librettolarını Sabit Rəhman yazmışdır.

Sabit Rəhman 1943-cü ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur.

Sabit Rəhman 1970-ci il dekabr ayının 5-də Bakıda vəfat etmişdir.

Şəki Dram Teatrı Sabit Rəhmanın adını daşıyır. Onun doğulub boya-başa çatdığı evdə, Şəki şəhərində ev-muzeyi təşkil edilmişdir.

Bakı və Şəki şəhərlərindəki küçələrdən biri dramaturqun adını daşıyır.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə /S.Rəhman.- Bakı: Avrasiya Press, 2005.- C.1. Pyeslər.- 310 s.; C.2. Pyeslər və hekayələr.- 327 s.- Müasir Azərbaycan ədəbiyyatı.

Əhmədov, B. Sabit Rəhman: həyatı, mühiti, yaradıcılığı [monoqrafiya] /B.Əhmədov.- Bakı: Elm və təhsil, 2010.- 292, [4] s.

Əhmədov, B. Sabit Rəhman satirası /B.Əhmədov.- Bakı: Yurd, 1998.- 115 s.

Gülüş gözəllikdir: [Sabit Rəhman haqqında məqalələr, xatirələr] /tərt. ed.: E.Sabitoğlu, A.Səfiyev, Dilsuz.- Bakı: Qapp-Poliqraf, 2002.- 144 s.

Sabit Rəhman – 100: biblioqrafiya /tərt. ed.: T.Həsənova, N.Aslanbəyova; bur. məsul və ixt. red. K.Tahirov; red. M.Vəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2010.- 113 s.

İnternetdə

www.anl.az

MART
10

100 illiyi

Qəmər Almaszadə 1915-2006

Balerina



Qəmər Hacağa qızı Almaszadə 1915-ci il mart ayının 10-da Bakı şəhərində anadan olmuşdur.

Mühafizəkar müsəlman atasından gizli olaraq Qəmər özəl balet studiosuna yazılmışdı (daha sonra studio Bakı Xoreoqrafiya Məktəbinə çevrildi). Atasını baletlə yox, idmanla məşqul olduğuna inandırmışdı. Lakin bir neçə ildən sonra sirrin üstü açılmışdı. Qəmərin atası əvvəllər qəzəblənsə də, sonralar teatra gizlicə gəlir və qızının çıxışlarında tamaşaçılar arasında tez-tez görünürdü.

1930-cu ildə Qəmər Almaszadə Xoreoqrafiya Məktəbini bitirib, Azərbaycan Dövlət Opera və Balet Teatrında işləməyə başlayır. Bu arada həmçinin Ali Pedaqoji məktəbinə də daxil olmuşdu.

1932-ci ildə Reynhold Qlierin "Şahsənəm" operasında ikinci dərəcəli rola seçilmişdi. 1933-cü ildə indiki Sankt-Peterburqda Leninqrad Xoreoqrafiya Məktəbinə daxil olmuş və orada məşhur balerina Qalina Ulanovanın anası Mariya Romanovanın sinfində oxumuşdur. 1936-cı ildə ali məktəbi bitirib Bakıya qayıtmışdır.

1937-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının əsasını qoymuşdur. Üzeyir Hacıbəylinin rəhbərliyi ilə Azərbaycan əyalətlərinə elmi səyahət təşkil edib ilk mənbədən xalq rəqsləri haqqında məlumat toplamışdır.

1939-cu ildə Bakı Xoreoqrafiya Məktəbində ilk rəqs dərsini demiş, sonralar həmin məktəbin direktoru olmuşdur. 1940-cı ildə Əfrasiyab Bədəlbəylinin "Qız Qalası" baletində ilk professional çıxışını etmişdir. Sonralar Fransada, Hindistanda, Nepalda da səhnəyə çıxmışdır.

1970-ci ildə İraq Xalq Rəqsləri ansamblını qurmaq üçün Bağdada dəvət olunmuşdur.

1950-ci illərdə baleti tərk etsə də 1990-cı illərin sonunadək Bakı Xoreoqrafiya Məktəbinin direktoru kimi çalışmışdır.

Görkəmli balet ustasının keçdiyi parlaq və şərəfli sənət yolu daim yüksək qiymətləndirilmişdir. O, 1940-cı ildə "Əməkdar artist", 1943-cü ildə "Azərbaycanın Xalq artisti", 1959-cu ildə "SSRİ-nin Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. SSRİ Dövlət mükafatı laureatı olmuş, bir sıra orden və medallarla, müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Dövlət başçısı cənab İlham Əliyevin Sərəncamı ilə Xalq artisti Qəmər Almaszadənin xatirəsi əbədiləşdirilmiş, onun yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur.

Qəmər Hacağa qızı Almaszadə 2006-cı il aprel ayının 7-də vəfat etmişdir.

Ədəbiyyat

Cəbiyeva, T. Qəmər Almaszadə //T.Cəbiyeva. Bakı kəndlərinə səyahətim.-Bakı, 2013.- S.75.

Qəmər Almaszadə //Qadınlar Azərbaycanın musiqi həyatında.- Bakı, 2004.- S.30-31. Rus və Azərb. dillərində.

Qəmər Almaszadə //Vəzir, Mehriban. Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti.- Bakı, 2008.- S.43-45.

Oktay. İlk azərbaycanlı balerina /Oktay //Xalq cəbhəsi.- 2012.- 31 may.- S.13.

Rəhimli, İ. Qəmər Almaszadə /İ.Rəhimli //Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.567.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org


www.musigi-dunya.az

www.bibliotekar.ru

75 illiyi

Canəli Əkbərov 1940

Xanəndə



Ə d ə b i y y a t

Canəli Əkbərov-70 [Elektron resurs] /Heydər Əliyev Fondu; [tərt. ed. B.Axundov; mətnin müəl. M.Çəmənli; red. G.Mehdiyeva; tərc. B.Hacıyev].- Bakı [Heydər Əliyev Fondu]: [Təhsil NPM], 2010.-4 CD; 12 sm., 8 sm. + Qoşma kitab (104 s., şəkilli; 26 x 24 sm.)

Çəmənli, M. Muğam onun həyatıdır //M.Çəmənli Sənət hekayələri.-Bakı, 2014.- S.513-527.

Tahir, R. Yarım əsr muğamın xidmətində: [Azərbaycan Dövlət Filarmoniyasında Xalq artisti Canəli Əkbərovun 70 illik yubileyinin keçirilməsi haqqında] //Xalq qəzeti.- 2010.- 20 mart.- S. 10.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev-foundation.org

www.kepeztv.az

www.mugamradio.az

Canəli Xanəli oğlu Əkbərov 1940-cı il mart ayının 10-da Lənkəran rayonunun Tükəvilə kəndində anadan olmuşdur. Atası Xanəli Əkbərov tanınmış xanəndə olub, çox nüfuzlu muğamatçı Kərbəlayi Ağaməhəmmədin oğludur. Canəli Əkbərov muğamın sirrlərini atasından öyrənmişdir.

O, musiqi təhsilini Bakıda Azərbaycan Dövlət Musiqi Məktəbində almışdır.

Müəllimləri Seyid Şuşinski və Xan Şuşinskidən muğam ifaçılığının sirlərini mənimsəmiş və öz ifaçılıq qabiliyyətini təkmilləşdirmişdir.

Canəli Əkbərov 1965-ci ildən 1975-ci ilədək Azərbaycan Dövlət Filarmoniyasının, 1976-cı ildən bu günə kimi Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir.

Xanəndə bu teatr səhnəsində muğam operalarında bir sıra yaddaqalan obrazlar yaratmışdır. "Leyli və Məcnun"da Məcnun, "Əsli və Kərəm"də Kərəm, "Aşıq Qərib"də Qərib, "Gəlin qayası"nda Camal, "Şah İsmayıl"da Şah İsmayıl, "Sevil"də Azançı, "Aldanmış kəvakib"də isə Axund ifaçının əsas rollarıdır.

Canəli Əkbərov xarici ölkələrdə - Almaniya, Mali, Avstriya və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olmuşdur.

Səmərqənddə keçirilən Şərq musiqi simpoziumunda və Kuybışevdə Şərq xalqlarının musiqi festivalında böyük nailiyyət əldə etmişdir.

Onun ifa etdiyi bütün muğamlar, dəsgahlar vallara və disklərə yazılmışdır.

Hal-hazırda Canəli Əkbərov muğam müəllimi kimi gənc xanəndələr nəslini yetişdirir. 1992-ci ildən Bakı Musiqi Kollecində muğam ifaçılığından dərs demişdir. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Elmi şurasının üzvü, Muğam sənəti kafedrasının müdiri vəzifəsində çalışır.

Yetişdirdiyi tələbələr bu gün yüksək nailiyyətlər qazanmışlar.

2010-cu ilin mart ayında Heydər Əliyev Fondu Xalq artisti, professor Canəli Əkbərovun 70 illik yubileyi münasibətilə xanəndənin həyat və yaradıcılığına həsr olunmuş musiqi albomunu nəşr edib. Musiqi albomu kitab, 3 CD və DVD-dən ibarətdir. Albomda ustad xanəndənin uşaqlıq və gənclik illərindən söhbət açılıb.

Dövlət xanəndənin yaradıcılığını yüksək qiymətləndirmiş, o, 1989-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1992-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan muğam sənətinin inkişafında və təbliğində xidmətlərinə görə muğam ustası Canəli Əkbərovu 2002-ci ildə "Şöhrət" ordeni ilə, 2010-cu ildə "Şərəf" ordeni ilə təltif etmişdir.

MART
16

75 illiyi

Vaqif Mustafazadə 1940-1979

Bəstəkar



Vaqif Əziz oğlu Mustafazadə 1940-cı il mart ayının 16-da Bakı şəhərində İçərişəhərdə anadan olmuşdur.

1963-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Kollecini bitirib, Bakı Musiqi Akademiyasına daxil olmuşdur. İlk məşhurluqda elə bu zaman gəlmişdir. Vaqif burada kiçik konsertlər verir, klublarda çıxış edirdi. O, əsasən klassik caz, bluz və oynaq mahnılar ifa etmişdir. V.Mustafazadə Fortepiano və simfonik orkestr üçün konsertin, "Muğam" simfoniyasının (tamamlanmamış), bir sıra caz kompozisiyalarının və pyeslərin müəllifidir.

Vaqif Mustafazadə Azərbaycan caz musiqisinin banisi və yeni caz fikrinin (devizinin) təsisçisidir. O, Azərbaycan musiqisinin, muğamın klassik Amerikan caz musiqisi ilə sintezini yaratmışdır. Onun yeni devizi Caz-Muğam adlanır. O, Azərbaycan Muğam Caz Hərəkatının memarıdır.

1965-ci ildə Gürcüstan Dövlət Filarmoniyasında "Qafqaz" adlı trionu, 1970-ci ildə "Leyli" vokal kvartetini yaradır.

1971-ci ildən 1977-ci ilə kimi "Sevil" vokal-instrumental qrupuna başçılıq edir.

1977-ci ildən 1979-cu ilə kimi "Muğam" instrumental qrupuna başçılıq edərək "Tallin-66" və "Tbilisi-78" caz festivallarının laureatı olmuşdur.

1978-ci ildə Monakoda keçirilən 8-ci Beynəlxalq Caz Festivalında "Əzizəni gözləyirəm" musiqisinə görə birincilik mükafatı almışdır.

1979-cu ildə ona "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

1982-ci ildə, ölümündən sonra Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür.

2012-ci ildə Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin birgə layihəsi çərçivəsində Azərbaycan musiqisinin görkəmli nümayəndəsi, caz və muğamı özünəməxsus şəkildə sintez edən, yeni və ecazkar bir musiqi janrı yaradan, improvizə ustadı Vaqif Mustafazadəyə həsr olunmuş musiqi albomu nəşr edilmişdir. Alboma kitab və CD daxildir. CD-də sənətkarın 17 əsəri toplanmışdır.

"Qaynaqlar", "Həyatı və yaradıcılığı", "Vaqif irsi" fəsillərindən ibarət olan kitabda Vaqif Mustafazadənin qısa, lakin çox mənalı həyatından, parlaq və təkrarolunmaz yaradıcılığından, onun əhatəsindən, müəllimlərindən, sənət dostlarından və doğmalarından ətraflı bəhs olunur. Nəşrdə həmçinin Azərbaycanda caz musiqisinin yaranması, təşəkkülü və inkişaf mərhələləri də öz əksini tapmışdır. Kitab sənətkarın həyatının müxtəlif anlarının əks olunduğu fotolarla zəngindir.

Vaqif Mustafazadə 1979-cu il dekabr ayının 16-da Daşkənddə qastrol zamanı ürək tutmasından vəfat etmişdir. Bakıda dəfn olunmuşdur.

Ədəbiyyat

Düşüncə [Notlar]: fortepiano üçün /V.Mustafazadə.- Bakı: [s.n.] , 197?.- 8 s.

Mustafazadə, Vaqif Əziz oğlu. Mart ayı [Notlar]: fortepiano üçün /V.Mustafazadə.- Bakı, 197?- 4 s.

Fərhadov, R. Vaqif Mustafazadə əfsanəsi, tarixi, həyatı, yaradıcılığı /R.Fərhadov; Heydər Əliyev Fondu.- Bakı, 2012.- 255 s.

Əfəndiyeva, İ. Vaqif Mustafazadənin musiqi dilinin novatorluğu /İmruz Əfəndiyeva //Musiqi dünyası.- №1-2.- 2010.- S.17-19.

Heydərova, Ü. Vaqif Mustafazadə - barmaqlarında muğam ətri /Ülviyyə Heydərova //Kaspi.- 2010.- 9 aprel.- S.13.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.vagif.musigi-dunya.az

www.music.day.az

www.youtube.com

95 illiyi

Əşrəf Abbasov 1920-1992

Bəstəkar



Ə d ə b i y y a t

Azərbaycanda ilk uşaq baletinin müəllifi:Üzeyir bəyin davamçısı Əşrəf Abbasov //Azadlıq.- 2013.- 9 aprel.- S.14.

Mahmudova, C. Əşrəf Abbasovun mahnılarının poetik mətnlərinin bəzi xüsusiyyətlərinə dair /C.Mahmudova //Musiqi dünyası.- №3-4.- 2010.- S.42-45.

Мамедова, Л. Отрывки из балета Ашрафа Аббасова "Чернушка" (для двух фортепиано) [Ноты]: учебное пособие /сост. Л.Мамедова; науч. ред. Г.Абдуллазаде; рец. Д.Аббасов [и др.]; М-во Образ. Азерб. Респ., Бакинская Муз. Акад. имени Уз.Гаджибейли.-Баку: [б.и.], 2012.- 74 с.

İ n t e r n e t d ə

www.anl.az

adam.az

www.az.wikipedia.org

www.musigi-dunya.az

shusha.az

Əşrəf Cəlal oğlu Abbasov 1920-ci il mart ayının 23-də Şuşada anadan olmuşdur.

O, ilk musiqi təhsilini tar ixtisası üzrə Şuşa musiqi məktəbində almışdır. Tar üçün kiçik həcmli pyeslərilə tanış olduqdan sonra Üzeyir Hacıbəyli onun istedadını hiss etmiş və 1936-cı ildə Bakıya oxumağa dəvət etmişdir. Azərbaycan Dövlət Konservatoriyasında oxuduğu illərdə dahi bəstəkarımız Ü.Hacıbəyli ilə ünsiyyətdə olması Əşrəf Abbasovun dünyagörüşünün, yaradıcılığının formalaşmasına böyük təsir göstərmişdir.

1948-ci ildə Azərbaycan Konservatoriyasını, 1952-ci ildə isə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirmişdir.

Əşrəf Abbasovun fəaliyyətinin bir sahəsi də musiqi elmi ilə bağlı olmuşdur. Azərbaycan musiqisinin nəzəri problemlərini araşdıran tədqiqatçı-alim Əşrəf Abbasov 1952-ci ildə Moskvada "Üzeyir Hacıbəyov və onun "Koroğlu" operası" mövzusunda dissertasiya işini müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. O, respublikamızın bəstəkarları arasında ilk sənətşünaslıq namizədi idi.

1947-1948-ci illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunun direktoru olmuş, sonra isə pedaqoji fəaliyyətini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirmişdir.

O, müəyyən dövrlərdə 1953-1957-ci illərdə konservatoriyanın rektoru, 1957-1972-ci illərdə Bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışmışdır.

1965-ci ildə Azərbaycanda ilk uşaq baleti olan "Qaraca qız" baletinin, fortepiano və orkestr üçün konsertin (1946), simfonik orkestr üçün "Konsertino"nun (1948), "Şuşa" (1945), "Gələcək gün" (1952), "Dramatik" (1953) simfonik poemalarının, "Səndən mənə yar olmaz" (1963), "Dağlar qoynunda" (1970) operettalarının, bir çox instrumental əsərin, xor, mahnı və romansın müəllifidir.

1968-ci ildə Ə.Abbasova professor elmi rütbəsi verilmişdir.

O, həmçinin fəal ictimai xadim kimi 1943-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü seçilmiş, bu təşkilatın I qurultayından başlayaraq ömrünün sonunadək İdarə Heyətinin üzvü olmuşdur. Bütün ömrünü, istedadını və yaradıcılığını musiqimizin inkişafına həsr etmiş Əşrəf Abbasovun adı musiqi tariximizdə əbədi həkk olunmuş, onun əsərləri xalqımızın qəlbində özünəməxsus yer tutmuşdur.

Musiqi sahəsindəki xidmətlərinə görə 1963-ci ildə bəstəkara "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

Əşrəf Abbasov 1992-ci ildə Bakıda vəfat etmişdir.

100 illiyi

Əlibaba Abdullayev 1915-1980

Baletmeyster



Əlibaba Abdulla oğlu Abdullayev 1915-ci il mart ayının 23-də Bakı şəhərində anadan olmuşdur.

O, ifaçılıq fəaliyyətinə 1930-cu illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti kimi başlamışdır.

Onun yaradıcılıq bioqrafiyası milli rəqs sənətinin təbliğinə və inkişafına həsr olunmuşdur.

Ə.Abdullayevin sənəti xalqa yaxın, quruluş verdiyi rəqslərin hamısı mənalı, rəngarəng olmuşdur: "Çobanlar", "Bənövşə", "Bulaq başı", "Bahar", "Ay gözəl", "Qazağı", "Məzəli rəqs", "Qaytağı", "Gəlin tərifi","Nağaraçılar"rəqsləri və s.

1940-cı illərin əvvəllərində Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs qrupuna rəhbərlik etmişdir. Eyni zamanda M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının baş baletmeyster kimi də fəaliyyət göstərmişdir.

Ü.Hacıbəylinin "Arşın mal alan" operettasında, Z.Hacıbəylinin "Aşıq Qərib", Z.Paliaşvilinin "Daisa" operalarında və bir sıra bədii filmlərdə onun quruluş verdiyi parlaq və koloritli folklor rəqsləri respublika ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Əlibaba müəllimin həm də gözəl səsi vardı. O, səhnədə həm rəqs edir, həm də oxuyurdu. Azərbaycan Televiziyasının radioya aid arxivində Ə.Abdullayevin lent yazıları durur. "Muleyli", "Bir dənəsən", "Dilbərim", "Sarı gəlin" mahnıları onun ifasında məlahətlə səslənir.

Bakının bir sıra institutlarında, o cümlədən M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) Ə.Abdullayev "Lalə" özfəaliyyət ansamblını yaratmışdır. Bu ansambl müsabiqələrdə diplom və fəxri fərmanlara layiq görülmüşdür. "Əhməd haradadır?" kinokomediyasında Ə.Abdullayevin quruluş verdiyi maraqlı "Üzüm yığımı" kompozisiyasını "Lalə" özfəaliyyət ansamblı ifa etmişdir. Ə.Abdullayevin "Vətən və cəbhə" xoreoqrafiya kompozisiyası, "Xalqlar dostluğu" məhsul süitaları, "Vağzalı", "Yallı", "Nəlbəki" rəqsləri və b. Azərbaycan xoreoqrafiya sənətinin qızıl fonduna daxil olmuş bir çox başqa rəqslər geniş şöhrət qazanmışdır.

Ə.Abdullayev Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olmuş, respublikada özfəaliyyət rəqs sənətinin inkişafına böyük qüvvə və əmək sərf etmişdir.

Azərbaycan rəqs sənətinin inkişafında böyük xidmətlərinə görə Ə.Abdullayev "Azərbaycan SSR-nin Xalq artisti" fəxri adına layiq görülmüşdür.

O, SSRİ medalları ilə, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanları ilə təltif edilmişdir.

Görkəmli sənətkar Əlibaba Abdullayev 1980-ci il avqust ayının 9-da vəfat etmişdir.

Ədəbiyyat

Abdullayeva, E. Əlibaba Abdullayev /E.Abdullayeva; red. M.Teymurov.- Bakı: Adiloğlu, 2005.- 120 s.

Çəmənli, M. İlk Azərbaycan rəqs ansamblı: Əlibaba Abdulla oğlu Abdullayev //Mustafa Çəmənli. Sənət hekayələri.- Bakı, 2014.- S.79-80.

Kazımzadə, A. Rəqsimizin korifeyi /A.Kazımzadə //Mədəniyyət.- 2010.- 5 fevral.- S.10.

Sənəti böyüdən sənətkar. Xalq artisti Əlibaba Abdullayev [Elektron resurs]: sənədli film /quruluşçu rejissor V. Mirzəyeva.- DVD.- Bakı [s.n.] 2009.- 1 elektron. opt. disk (DVD)

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.freemp3go.org

www.mct.gov.az

MART
11

90 illiyi

Bəşir Səfəroğlu 1925-1969

Aktyor



Bəşir Səfər oğlu Səfərov (Səfəroğlu) 1925-ci il mart ayının 11-də Bakıda anadan olmuşdur.

Yeddiillik təhsilini Bakıda almış, on dörd yaşından şoferlər klubunun dram dərnəyinə getmişdir.

İlk dəfə səhnəyə "Sevil" tamaşasında Gündüz obrazı ilə çıxmışdır. Bir il sonra Musiqili Komediya Teatrına gəlmiş və tamaşalarda sözsüz rollarda çıxış etmişdir.

1941-ci ilin axırlarında müharibəyə yollanan Bəşir bir il sonra kontuziya alaraq geri qayıdıb. Dili tutulub və qulaqları çox ağır eşidib. Bir müddət fəhlə, yük maşınının sürücüsü işləyib. Rejissor Niyaz Şərifov ona məsləhət görüb ki, müntəzəm olaraq teatrın tamaşalarına gəlsin. O, tamaşalara baxmağa başlayıb. Bir müddət sonra isə onu truppaya aktyor qəbul ediblər. Yaradıcılıq ehtirası ilə çırpınan Səfəroğlu həyəcanlanır, daxili iztirablar keçirirdi. Ömrünün bu gərgin çağlarında o, yuxuda bərk həyəcanlanıb və bununla da dili açılıb. Həmin vaxtdan Bəşir Səfəroğlunun zəngin aktyorluq tarixçəsi başlayıb. 1949-cu ildə Musiqili Komediya Teatrı bağlandıqdan sonra Bəşir Səfəroğlu bir müddət sürücü işləyib. Bir qədər sonra filarmoniyanın nəzdində estrada qrupuna daxil olub.

1956-cı ildə Musiqili Komediya Teatrı bərpa edilib və bədii rəhbər Şəmsi Bədəlbəylinin kollektivə ilk dəvət etdiyi aktyorlardan biri də Bəşir Səfəroğlu olub.

Bəşir Səfəroğlu Üzeyir və Zülfüqar Hacıbəylinin klassik operettalarında, əsasən isə çağdaş dramaturq və bəstəkarların musiqili komediyalarında müxtəlif xarakterli, satirik, yumoristik, məzhəkəli rollarda çıxış edib.

Bəşir Səfəroğlu cəmi 7 filmə çəkilib. "Aygün", (Əmirxanın dostu), "Qəribə əhvalat" (Cəmil), "Əhməd haradadır?" (Sərxoş), "Ulduz" (Gülümsərov), "Xoca Nəsrəddinin 12 qəbri" (Nəsrəddin), "Yun şal" (Kişi), "Yaşamaq gözəldir, qardaşım" (Səfər) bu yeddiliyi təşkil edir.

Altmışıncı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında "Gəlməli, görməli, gülməli" miniatür teatrı təşkil olunub. Onun üzvləri Xalq artisti Əliağa Ağayev, Əməkdar artist Müxlis Cənizadə, aktrisa Ofeliya Abbasova (Məmmədzadə) və Bəşir Səfəroğlu idilər. Bu kollektivdə Bəşir Səfəroğlu onlarla satirik obraz yaradıb.

Rejissor Rauf Kazımovski görkəmli gülüş ustası Bəşir Səfəroğlu haqqında eyniadlı bədii-sənədli televiziya filmi çəkib.

Aktyora sənət uğurlarına görə 1964-cü il iyun ayının 29-da "Azərbaycanın Əməkdar artisti", 1968-ci il iyun ayının 25-də "Xalq artisti" fəxri adları verilib.

Bəşir Səfəroğlu 1969-cu il mart ayının 23-də Bakı şəhərində vəfat edib. Məzarı Bakıda Fəxri Xiyabandadır.

Ədəbiyyat

Abdin, T. Bəşir Səfəroğlu: sənətdə keçən ömür /T.Abdin; [red. E.Həsənov].- Bakı: İşıq, 1986.- 58, [9] s.

Rəhimli, İ. Həzin ömrün nağılı: (Xalq artisti Bəşir Səfəroğlunun yaradıcılığı haqqında kövrək düşüncələr) /İ.Rəhimli.- Bakı: Çaşıoğlu, 2004.- 125 s.

Bəşir Səfəroğlu yanğısı /T.Abbaslı //Mədəniyyət.- 2014.- 12 mart.- S.11.

Əzablı ömür yaşayan sənətkar...: Bu gün xalq artisti Bəşir Səfəroğlunun doğum günüdür //Şərq.- 2011.- 12 mart.- S.14.

Zümrüd. Bəşir Səfəroğlu - 85: Bəşir Səfəroğlu istedadı ilə adını kino tariximizə qızıl hərflərlə həkk edib /Zümrüd //Səs.- 2010.- 13 mart.- S.12.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.youtube.com

MART
22

90 illiyi

Zəroş Həmzəyeva
1925-2004

Aktrisa



Zəroş Mirzəbağır qızı Həmzəyeva 1925-ci il mart ayının 22-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur.

Məşhur aktyor və rejissor İbrahim Həmzəyevlə ailə həyatı qurub.

Səhnəyə ilk dəfə 1941-ci ildə, on altı yaşında çıxıb. Onu peşəkar səhnəyə İbrahim Həmzəyev cəlb edib. İlk səhnə obrazı kimi Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" ("Yağışdan çıxdıq, yağmura düşdük") komediyasında Yetər rolunu oynamışdır.

Zəroş Həmzəyeva 1948-ci ildə həyat yoldaşı İbrahim Həmzəyevlə birlikdə Qaryagin rayonunun (indiki Füzuli) Dövlət Dram Teatrında aktrisa işləyib. Aktrisa bir sıra tamaşalarda, xüsusən "Vaqif" tamaşasında Xuraman rolunda Akademik teatrın görkəmli sənətkarları ilə tərəf müqabili olub.

Zəroş Həmzəyeva dramaturq Cəfər Cabbarlının qadın qəhrəmanlarının ən yaxşı ifaçılarından sayılır. O, müxtəlif illərdə və müxtəlif rejissorların quruluşlarında ədibin "Solğun çiçəklər" (Sara), "Nəsrəddin şah" (Sitarə), "Aydın" (Gültəkin), "Sevil" (Sevil), "Almaz" (Almaz və Yaxşı), "1905-ci ildə" (Sona), "Od gəlini" (Solmaz), "Oqtay Eloğlu" (Firəngiz), "Yaşar" (Yaqut) dramlarının tamaşalarında baş rolları ifa edib. Zəroş xanımın kiçik, lakin ürəyəyatımlı və şirin səsi olub. Buna görə də Ü.Hacıbəylinin "Leyli və Məcnun" (Leyli və Leylinin anası), "Əsli və Kərəm" (Əsli) operalarında, "Arşın mal alan" (Gülçöhrə, Telli və Asya), "Məşədi İbad" (Gülnaz), Z.Hacıbəyovun "Evliykən subay" (Pərizad), S.Rüstəm və S.Rüstəmovun "Durna" (Durna və Lalə), Məcid Şamxalovla Zakir Bağırovun "Qaynana" (Afət) operettalarında əsas partiyaları ifa edib.

Milli teatr sənətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1956-cı ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" və 1967-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Ümummilli lider Heydər Əliyev onu müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif etmişdir.

1995-ci ildə fəxri təqaüdə çıxıb. 1998-ci ildə Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Zəroş Həmzəyeva 2004-cü il iyun ayının 5-də Bakı şəhərində vəfat edib və II Fəxri Xiyabanda dəfn olunub.

Aktrisanın vaxtilə yaşadığı evdə xatirə lövhəsi asılmışdır. Xalq artisti Zəroş Həmzəyevanın həyat və yaradıcılığını əks etdirən "Yay gününün xəzan yarpaqlar"ı (film, 1986) və "Nehrəmli qız" (film, 2002) filmləri çəkilib.

Ədəbiyyat

Azərbaycan Xalq artisti Zəroş Həmzəyeva haqqında rəylər /tərt. ed. R.Məmmədova.- Bakı: Qorqud, 1998.- 72 s.

İsmayılova, A. Nehrəmli qız (Zəroş Həmzəyeva) /A.İsmayılova; red. E.Həsənov.- Bakı: İşıq, 1985.- 71 s.

Rəhimli, İ. Səhnədə ucalan əzəmət /İ.Rəhimli.- Bakı: Çaşıoğlu, 2010.- 416 s.

Əlioğlu, Y. İlham Rəhimli və əzəmətli İbrahim Həmzəyev /Y.Əlioğlu //Mədəniyyət.- 2010.- 8 oktyabr.- S.12.

Rəhimli, İ. Zəroş Həmzəyeva //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.461.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

www.youtube.com

www.teatrittifaqi.az

105 illiyi

Ələsgər Ələkbərov 1910-1963

Aktyor



Ə d ə b i y y a t

Allahverdiyev, M. Ələsgər Ələkbərovun həyat və yaradıcılığı /M.Allahverdiyev; red. M.Məmmədov; AzSSR EA, Memarlıq və İncəsənət İnstitutu.- Bakı: Elm, 1972.-233 s.

Abbaslı, T. Bir ömürdə minbir "ömür" /T.Abbaslı //Mədəniyyət.- 2012.- 30 mart.- S.11.

Dramatik obrazlar ifaçısı Ələsgər Ələkbərov: Vaqif obrazından başlanan səhnə uğuru //Azadlıq.- 2011.- 14 iyun.- S.14.

Rəhimli, İ. Ələsgər Ələkbərov //Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı. Teatrın 1873-2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi: 3 cilddə.- Bakı, 2013.- C.I.- S.523-528.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

Ələsgər Hacıağa oğlu Ələkbərov 1910-cu il mart ayının 26-da Bakıda anadan olmuşdur.

1924-cü ildə Əbilov adına klubun teatr dərnəyinə yazılmış, ilk dəfə bu səhnədə çıxış etmişdir.

1927-ci ildə Teatr məktəbində təhsil almışdır. Sonra Türk İşçi Teatrının səhnəsində çalışmış, burada Hacı Baxşəli ("Ölülər"), ikinci bələdiyyə ("Hücum") kimi yaddaqalan obrazlar yaratmışdır. Bakı Türk İşçi Teatrı ilə Azərbaycanın kənd və şəhərlərini qarış-qarış gəzmiş, tamaşalar göstərmiş, əhalinin teatr zövqünün formalaşmasına öz töhfələrini vermişdir.

1930-cu illərdə Tbilisidə Azərbaycan dram teatrında, Bakı və Gəncə teatrında çalışmışdır.

1938-ci ildən ömrünün sonuna kimi M.Əzizbəyov adına Azərbaycan Dram Teatrında fəaliyyət göstərmişdir. Səməd Vurğunun "Vaqif" pyesində Vaqif obrazı onun ən gözəl ifalarından biri idi. Ə.Ələkbərov bu obrazı 28 yaşından oynamağa başlamışdır. Aktyor bu rolu qüdrətli bir rəssam kimi tam dolğun, mənalı və səsli yaratdığına görə idi ki, indi də insanların xəyalında Vaqif məhz Ə.Ələkbərovun oynadığı kimi canlanır. Onun ifasındakı bu obraz teatr tariximizdə qazanılan ən böyük müvəffəqiyyətlərdən biri sayılır.

1948-ci ildə - "Vaqif"in səhnə həyatının 10 ili ərzində Ələsgər Ələkbərov bu rolda artıq 300-cü dəfə çıxış etmişdi.

Aktyor səhnəmizə yeni üslub, yeni yaradıcı manera gətirdi. Onun rollarında klassik aktyor sənəti məktəbinin gözəl ənənələri yaşayır. Bu ənənələr elə aktyorun ekran qəhrəmanlarında da özünü büruzə verir.

Onun üçün kino aləmi də teatr qədər sevimli idi. Yaratdığı müxtəlif xarakterli kino obrazları kinematoqrafiya tarixində silinməz izlər buraxıb. Hadisələri olmuş əhvalatlara əsaslanan "Vulkan üzərində ev" filmində Həsən rolunu ifa etmiş, filmin Dovjenko adına Kiyev kinostudiyasında çəkilən "Varislər" filmində don Aqilla rolunu uğurla canlandırmışdır (1960). Azərbaycan kinosunda Rüstəm kişi ("Böyük dayaq"), Fətəli xan ("Fətəli xan") "Qara daşlar", "Səhər", "Leyli və Məcnun", "Böyük dayaq" və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır.

1939-cu ildə Bakı şəhər Sovetinin, 1962-ci ildə SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

Teatr sənətindəki xidmətlərinə görə Ə.Ələkbərov orden və medallarla təltif olunmuşdur.

Ə.Ələkbərov 1959-cu ildə Moskvada dram teatrların festivalında "Cavanşir" pyesində yaratdığı baş qəhrəman surətinə görə laureat adına, 1961-ci ildə "SSRİ Xalq artisti" adına layiq görülmüşdür.

Ələsgər Ələkbərov 1963-cü il yanvar ayının 31-də Bakıda vəfat etmişdir.

MART
30

70 illiyi

Şəfiqə Məmmədova 1945

Aktrisa



Şəfiqə Haşım qızı Məmmədova 1945-ci il mart ayının 30-da Dağıstan Muxtar Respublikasının Dərbənd şəhərində anadan olub.

1968-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun Musiqili Komediya aktyorluğu fakültəsini bitirib, Azərbaycan Milli Dram Teatrının truppasına qəbul olunan aktrisa Uilyam Şekspirin "Hamlet" (Gertruda), Aleksandr Şirvanzadənin "Nakam qız" (Sona), Lev Tolstoyun "Canlı meyit" (Maşa), Çingiz Aytmatovun "Ana torpağı" (Cenşengülün arvadı), Hüseyn Cavidin "Xəyyam" (Sevda), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (Pırpız Sona), Fridrix Şillerin "Məkr və məhəbbət" (Ledi Milford), faciələrində, İlyas Əfəndiyevin "Bağlardan gələn səs" (Gülcan), "Mənim günahım" (Nurcahan), "Məhv olmuş gündəliklər" (Anjel), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (Nihal), İmran Qasımovun "Nağıl başlananda" (Tahirə) lirik-psixoloji dramlarında, Mirzə İbrahimovun "Bəşərin komediyası və ya Don Juan" (Teadora), Maksim Qorkinin "Meşşanlar" (Yelena Nikolayevna), Səməd Vurğunun "İnsan" (Nataşa), Raço Stoyanovun "Qısqanc ürəklər" (Milkana), Cəfər Cabbarlının "Aydın" (Gültəkin), Nikolay Poqodinin "Zamanın hökmü" (İrina) pyeslərində cazibədar səhnə obrazları yaradıb. 30 ilə yaxın Dram Teatrında işləyib.

Onun xüsusilə kinoda canlandırdığı bir neçə rol əbədi olaraq tamaşaçıların yaddaşına həkk olunub. Belə ki, "Ad günü" filmində Fəridə, "Bizim Cəbiş müəllim"də Cəbişin arvadı, "Dədə Qorqud"da Burla xatın, "İstintaq"da müstəntiq arvadı Gülya, "Qaraca qız"da Pəricahan xanım obrazları buna ən yaxşı misallardır.

Yaradıcılığının parlaq dövründə, 1980-ci ildə aktrisa ailə qayğıları ilə bağlı teatrdan uzaqlaşaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (keçmiş Teatr İnstitutu) pedaqoji fəaliyyətə başlayıb.

Şəfiqə Məmmədovanın yaradıcılığı dövlət tərəfindən qiymətləndirilmiş, o, Anarın "Şəhərin yay günləri" pyesinin tamaşasındakı Dilarə roluna görə Respublika Dövlət mükafatına (1980) və Rasim Ocaqovun çəkdiyi "İstintaq" filmindəki müstəntiqin arvadı obrazına görə isə SSRİ Dövlət mükafatına (1981) layiq görülmüşdür.

1974-cü il iyun ayının 1-də "Respublikanın Əməkdar artisti", 1982-ci il dekabr ayının 1-də "Xalq artisti" fəxri adları ilə, 2013-cü il iyun ayının 25-də isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur.

2012-ci ildən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədridir.

Ədəbiyyat

"Müvafiq nazirliklərlə birgə layihələr nəzərdə tutmuşuq": Şəfiqə Məmmədova: "Əsas məqsədlərimizdən biri də gənc kinematoqrafçılarla bağlıdır": [Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədova ilə müsahibə] //Paritet.- 2012.- 2-3 avqust.- S.4.

Şəfiqə Məmmədova yeni yaranan respublika Kinematoqrafçılar İttifaqının məqsədlərini açıqlayıb /Ş.Məmmədova //Xalq qəzeti.-2012.- 24 iyun.- S. 7.

Şəfiqə Məmmədova /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: İşıq, 1974.- [1] qat. v.

Nizamiqızı, H. Azərbaycan kinosu gözəl dövrünü təkrar yaşayacaq /H.Nizamiqızı //İki sahil.- 2012.- 2 avqust. - S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

www.youtube.com

55 illiyi

Məzahir Rüstəmov 1960-1992

Milli Qəhrəman



Məzahir İzzət oğlu Rüstəmov 1960-cı il mart ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

1977-ci ildə 32 saylı məktəbi "əla" qiymətlərlə bitirərək, 1978-ci ildə BDU-nun tarix fakültəsinə daxil olmuşdur. Təhsilini başa çatdırdıqdan sonra bir müddət məktəbə pioner baş dəstə rəhbəri göndərilmişdir.

1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun fəlsəfə kafedrasında baş laborant işləmişdir. 1991-ci il mart ayının 5-dən Dövlət Mətbuat Komitəsində İqtisadi əlaqələr şöbəsində aparıcı mütəxəssis kimi fəaliyyətə başlamışdır.

1992-ci il martın 23-də könüllü olaraq Milli Orduya yazılmış, Şınıxa getmişdir. Gədəbəyin Başkənd və Mutudərə kəndi istiqamətində gedən döyüşlərdə fəallıq göstərərək düşmənin bir neçə zirehli texnikasını ələ keçirmişdir.

M.Rüstəmov 1992-ci il avqust ayının 6-da qoşunlarımızın Başkənd və Mutudərə istiqamətində hücuma keçən erməni quldurlarının üzərində qələbə çaldığı döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 nömrəli Fərmanı ilə Rüstəmov Məzahir İzzət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Təhsil aldığı 32 saylı məktəb, Əhmədli qəsəbəsindəki küçələrdən biri qəhrəmanın adını daşıyır. Yaşadığı binaya xatirə lövhəsi vurulub. Gədəbəy rayonunda tuncdan abidəsi ucaldılıb. Haqqında "Alınmaz qalanın qəhrəmanları" (2013) adlı film çəkilib.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rüstəmov Məzahir İzzət oğlu –leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- №3.- S.11.- (Ölümündən sonra).

Əsgərov, V. Rüstəmov Məzahir İzzət oğlu //Vüqar Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı: Dərələyəz-M, 2010.- S.246.

Zeynalov, R. Rüstəmov Məzahir İzzət oğlu: (1960-1992) //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S.42.

Rüstəmov Məzahir İzzət oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.179.

Seyidzadə, M. Rüstəmov Məzahir İzzət oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.1

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az



MART
13

40 illiyi

Bəhruz Mənsurov 1975-1995

Milli Qəhrəman



Bəhruz Qəhrəman oğlu Mənsurov 1975-ci il mart ayının 13-də Yardımlı rayonunun Telavar kəndində anadan olmuşdur.

1993-cü ildə Bakı Ali Hərbi Komandirlər Məktəbinin sərhəd fakültəsinə daxil olmuşdur.

Bəhruz 1995-ci il Mart hadisələri baş verərkən ordu sıralarında xidmət edirdi. Ölkə vətəndaş müharibəsinin təhlükəsini yaşadığı bir vaxtda, 20 yaşlı Bəhruz da vətənpərvərlik borcunu yerinə yetirirdi. Bəhruza silahlı dəstəni zərərsizləşdirmək tapşırılmışdır. Bu vəzifəni yerinə yetirərkən namərd gülləsi onu ağır yaraladı. Aldığı yaradan çoxlu qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmadı.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 04 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Mənsurov Bəhruz Qəhrəman oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Yardımlı rayonunun Telavar kəndində dəfn edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Göytəpə Sərhəd Dəstəsinin 16-cı zastavası, oxuduğu orta məktəb, Sumqayıtın 16-cı mikrorayonunda yerləşən bulaq-abidə kompleksi qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

"Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında": [Mənsurov Bəhruz Qəhrəman oğlu – Müdafiə Nazirliyi, kursant – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Mustafayev, F. Bəhruz - vətənə sipər oğul /Mustafayev F., Aslanov S.- Bakı: Azərbaycan, 1997.- 79 s.

Əsgərov, V. Mənsurov Bəhruz Qəhrəman oğlu //Vüqar Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı: Dərələyəz-M, 2010.- S.182.

Mənsurov Bəhruz Qəhrəman oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.147.

Seyidzadə, M. Mənsurov Bəhruz Qəhrəman oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.152.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az


www.zengilan.com



45 illiyi

İxtiyar Qasımov 1970-1992

Milli Qəhrəman



İxtiyar Qasım oğlu Qasımov 1970-ci il mart ayının 22-də Ağdam rayonunun Salahlı kəndində anadan olmuşdur.

Orta təhsilini səkkizinci sinfədək kəndlərində almış və daha sonra təhsilini Bakıda kimya-biologiya təmayüllü məktəbdə davam etdirmişdir. Sonra Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsinə daxil olmuşdur.

İxtiyar 1992-ci ildə hərbi qulluq üçün komissarlığa müraciət etmiş və Ağdamın müxtəlif istiqamətlərində döyüşlərdə iştirak etmişdir. Gülablı kəndinə olunan silahlı basqının qarşısının alınmasında xüsusi qəhrəmanlıq göstərmişdir.

1992-ci il iyul ayının 14-də Canyataq kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Qasımov İxtiyar Qasım oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Salahlı kənd qəbiristanlığında dəfn edilmişdir. Vaxtilə təhsil aldığı Salahlı kənd orta məktəbi qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qasımov İxtiyar Qasım oğlu – dəstə komandiri – Azərbaycan Respublikasının suverenliyi və bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992- ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №24.- S.50.- (Ölümündən sonra).

Abbasov, B. Qeyrətli oğul //Abbasov B. Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S.235-245.

Əsgərov V. Qasımov İxtiyar Qasım oğlu //Vüqar Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı: Dərələyəz-M, 2010.- S.155.

Şamiloğlu, S. İxtiyar Qasım oğlu Qasımov //Şamiloğlu S. Şəhid şəhərin şəhid oğulları.- Bakı, 1994.- S.25-26.

İxtiyar Qasım oğlu Qasımov //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.117-118.

Seyidzadə, M. İxtiyar Qasım oğlu Qasımov /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.118.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



140 illiyi

Məhəmməd Həsən Hacınski 1875-1931

Dövlət xadimi



Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski 1875-ci il mart ayının 3-də Bakıda anadan olmuşdur. O, Bakı realnı məktəbini, 1902-ci ildə isə Peterburq Texnoloji İnstitutunu bitirmişdir. Moskvada maarifpərvər Azərbaycan varlılarından Şəmsi Əsədullayevin neftayırma zavodlarının tikintisində çalışmış, həmin ilin axırlarında isə doğma Bakıya qayıdaraq, şəhər upravasının (bələdiyyə) tikinti şöbəsinin rəisi təyin olunmuşdur.

M.H.Hacınski Bakının abadlaşmasına böyük diqqət yetirirdi. Onun rəhbərliyi altında 1911-ci ildə Dənizkənarı bulvarın tikintisi başa çatdırılmışdı. 1911-ci ildə yaradılmış gizli Müsəlman demokratik Müsavat partiyasına daxil olmuşdur. 1917-ci il Rusiya fevral burjua inqilabından sonra Müsavat partiyası açıq fəaliyyətə keçdi. M.H.Hacınski 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya komissarlığında ticarət və sənaye komissarının müavini, seymin üzvü, 1918-ci il aprelin 22-də yaranmış Zaqafqaziya Federativ Respublikası hökumətində ticarət və sənaye naziri vəzifələrini icra etmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olunmuş, Hacınski bitərəf Fətəli xan Xoyskinin təşkil etdiyi birinci hökumət kabinetində xarici işlər naziri vəzifəsini tutmuşdur.

23 dekabr 1919-cu ildə ikinci kabinetdə daxili işlər naziri təyin olunmuş, 1920-ci ilin fevralına qədər bu vəzifədə işləmişdir. 1920-ci il aprelin 1-də Azərbaycan Respublikasının yeni hökumət kabinəsini təşkil etmək M.H.Hacınskiyə tapşırıldı. Bu məqsədlə o, Azərbaycan parlamentinə daxil olan bütün partiya və fraksiyaların rəhbərləri ilə, həmçinin bolşeviklərlə də danışıqlar aparmışdır. O, bolşevikləri yeni hökumət kabinəsinin tərkibinə daxil etməklə, Samur körpüsünün şimal tərəfində dayanmış XI Qızıl Ordunun Bakı üzərinə yürüşünü ləngitmək və nizami Azərbaycan ordusunu təcili Bakıya çağırmaq istəyirdi. Həmin ilin martında Azərbaycan ordusu Dağlıq Qarabağı daşnaq işğalından azad etmək üçün göndərilmiş, hələ Bakıya qayıtmamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin taleyi üçün son dərəcə məsuliyyətli bir zamanda M.H.Hacınskinin lənglik göstərərək hökuməti təşkil edə bilməməsi, hakimiyyət böhranını daha da dərinləşdirmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra o, Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasında, Zaqafqaziya Dövlət Plan Komitəsində müxtəlif rəhbər vəzifələrdə çalışmış, Azərbaycan şəhərlərinin abadlaşdırılmasında iştirak etmişdir. Repressiyaya məruz qalmış, L.Beriyanın göstərişi ilə 1930-cu ildə Tiflisdə həbs edilmişdir. Ağır işgəncələrə məruz qalan M.H.Hacınski 9 fevral 1931-ci ildə ağır həbsxana həyatına dözməyərək ürək xəstəliyinə və vərəmə tutulmuş, istintaq sənədlərinə görə, "özünü asmaqla" intihar etmişdir.

Ədəbiyyat

Azərbaycan diplomatiyasının tarixindən /tərt. ed. F.S.Şükürov.- Bakı: Cümə, 2004.-34 s.

Dadaşov, A. Məhəmməd Həsən Hacınski /A.Dadaşov; elmi red. T.Vəliyev.- Bakı: BDU, 2004.- 183 s.

Faciəvi taleli insan: Məmməd Həsən Hacınski //Mədəniyyət.- 2011.- 2 mart.- S.13.

Qasımlı, M. Məhəmməd Həsən Hacınski //Azərbaycanın Xarici İşlər Nazirliyi /M.Qasımlı; E.Hüseynova; elmi red. N.Əlibəyli.- Bakı, 2003.- S.6-13.

Şüküroğlu, L. Ona bəraəti zaman verdi //Şüküroğlu L. Cümhuriyyət hökuməti repressiya məngənəsində: [2 cilddə].- Bakı, 2000.- C.I.-S.248-274.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.azerbaijan.az

www.news.lent.az

80 illiyi

İlyas Babayev 1935

Alim



İlyas Atababa oğlu Babayev 1935-ci il mart ayının 23-də Quba rayonunun Xanagah kəndində anadan olmuşdur.

1952-ci ildə orta məktəbi bitirmişdir. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1958-ci ildə ali təhsilini başa vuraraq Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda arxeologiya ixtisası üzrə elmi işçi vəzifəsinə işə götürülmüşdür.

1962-1964-cü illərdə SSRİ EA Arxeologiya İnstitutunun Leninqrad (indiki Sankt-Peterburq) Bölməsində professor M.İ.Maksimovanın rəhbərliyi altında aspiranturada oxumuşdur.

1965-ci ildə tarix elmləri namizədi, 1983-cü ildə Moskva şəhərində SSRİ EA Arxeologiya İnstitutunda doktorluq dissertasiyasını müdafiə edərək arxeologiya ixtisası üzrə tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

İ.A.Babayev 1958-ci ildən müxtəlif arxeoloji ekspedisiyaların qazıntılarında iştirak edir. Hazırda o, iki beynəlxalq ekspedisiyaya - Koreya arxeoloqları ilə birlikdə Qəbələ, Almaniya və Gürcüstan arxeoloqları ilə birlikdə Şəmkir-Qaracəmirli ekspedisiyalarına başçılıq edir.

30 ildən artıq arxeoloji qazıntılar aparmış, çoxsaylı arxeoloji tapıntılar və yazılı qaynaqlar əsasında Azərbaycanın qədim möhürlərini, sikkələrini, şəhər mədəniyyətini, sinifli cəmiyyət və dövlətin yaranması problemini, beynəlxalq əlaqələrini, siyasi tarixini tədqiq etmişdir. O, çoxsaylı beynəlxalq simpoziumlarda məruzələr oxumuş, arxeologiya və qədim tarix sahəsində elmi kadrlar hazırlamışdır. İ.A.Babayev çoxlu elmi kitabların redaktoru, ali və orta məktəb tarix dərsliklərinin müəllifi və rus dilinə tərcüməçisidir.

Onun rəhbərliyi altında namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmiş, çoxsaylı tədqiqat işlərinin müdafiələrinə opponentlik etmişdir.

O, bir sıra elmi jurnal və toplulların, Azərbaycan ensiklopediyasının redaksiya heyətinin üzvüdür.

İ.Babayev elmi fəaliyyətlə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuş, universitetlərin tarix fakültələrində mühazirələr oxumuşdur.

İ.Babayev hazırda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda Antik dövr arxeologiyası şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında tarix və siyasi elmlər üzrə Ekspert Şurasının sədridir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professordur.

Ədəbiyyat

Atropaten və Alban dövlətləri. Azərbaycan tatixi: ali məktəblər üçün dərslik /İ.Babayev.- Bakı, 1996.

Qəbələ: tarixi-arxeoloji oçerk /İ.Babayev, Q.Əhmədov; red. İ.Əliyev; AzSSR EA Arxeologiya və Etnoqrafiya sektoru.-Bakı: Elm, 1981.-67 s.

Azərbaycan xalqının milli kimlik kitabı /İ.Babayev //Xalq qəzeti.- 2010.- 15 may.- S.6.

"Beynəlxalq ekspedisiyanın bizim üçün üstünlüyü ondadır ki, onlar bizim həqiqətlərimizi xaricdə təbliğ edirlər" /İ.Babayev //Palitra.- 2010.- 28 may.- S.6.

Bədəlov, Ə. Vətənpərvər alim: İlyas Babayev-75 /Ə.Bədəlov //Elm.- 2010.- 12 noyabr.- S.8.

İnternetdə

www.science.gov.az

www.archaeology.org.az

www.anl.az

90 illiyi

İsaq Məmmədov 1925-2011

Alim



İsaq Mustafa oğlu Məmmədov 1925-ci il mart ayının 24-də Qubadlı rayonunun Qaracalı kəndində anadan olmuşdur.

Onun atası, bölgədə adlı-sanlı şəxsiyyət kimi tanınan Mustafa kişi repressiyanın qurbanı olmuş, balaca İsaq atasız yaşamış, anasının və yaxın qohumlarının himayəsində böyümüşdü.

1942-ci ildə kənd orta məktəbini və Şuşa pedaqoji kurslarını bitirərək doğma kəndindəki natamam orta məktəbdə müəllimlik etmiş, dərs hissə müdiri vəzifəsində çalışmış, kənd sovetinin katibi işləmişdi. 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olaraq, fərqlənmə diplomu ilə təhsilini başa vurmuş, 1949-cu ildə aspiranturaya qəbul olunmuşdu.

1952-ci ildə ADU-ya müəllim vəzifəsinə təyin edilmiş və beləliklə, istedadlı gəncin həyatında yeni dövr başlamışdı. Ömrünün 30 ilini bu təhsil müəssisəsinə həsr etmiş, burada assistentdən professora qədər ucalmışdı.

İsaq Məmmədov 1955-ci ildə namizədlik, 1974-cü ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1976-cı ildə professor adını almışdı.

1977-1978-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetində kafedra müdiri, 1978-1984-cü illərdə Naxçıvan Dövlət Pedaqoji Universitetinin rektoru, daha sonra 10 il ADNA-da Tarix kafedrasının müdiri, 2005-ci ildən ömrünün sonuna qədər kafedranın professoru vəzifəsində çalışmışdır.

O, 200-ə qədər elmi məqalənin, "Qəhrəmanlıq tarixindən səhifələr", "Unudulmaz rəşadət", "İnqilabi ənənələr və gənclik", "Ənənələr tərbiyə edir" kitablarının, "XX əsrdə ümumdünya tarixi proseslər", "Azərbaycan tarixi", "Yeni tarix", "Ümumdünya ictimai prosesləri", "Tələtümlü illər" və "Siyasi tarix" dərslikləri və dərs vəsaitlərinin müəllifidir.

Elm sahəsində böyük xidmətlərinə görə professor İsaq Məmmədov 1981-ci ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

O, çoxsaylı İttifaq və respublika miqyaslı elmi konfransların iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir.

Professor İsaq Məmmədov respublikamızın ictimai həyatında fəal iştirak etmiş, 1980-1985-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı seçilmiş, Naxçıvan şəhər rəhbər orqanlarının, müxtəlif müdafiə şuralarının üzvü kimi fəaliyyət göstərmişdir.

İsaq Mustafa oğlu Məmmədov 2011-ci il sentyabr ayının 8-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Siyasi tarix - XX əsr /İ.Məmmədov, Ç.Məmmədov; red. İ.Əliyev.- Bakı: Adiloğlu, 2004.- 358 s.

Siyasi tarix - XX əsr: Ümumdünya ictimai-siyasi proseslər /İ.Məmmədov, Ç.Məmmədov; red. H.Aslanov.- Bakı: Çıraq, 2003.- 330 s.

Siyasi tarix XX əsr: [dərslik] /İ.Məmmədov, Ç.Məmmədov; red. B.Abdullayev; rəyçi.: H.Aslanov, H.Hacıyev.- Bakı: Çıraq, 2006.- 346 s.

Azərbaycan tarixi: XX əsr - XXI əsrin əvvəlləri: mühazirələr kursu: dərs vəsaiti /İ.Məmmədov, Ç.Məmmədov.- Bakı: UniPrint, 2010.- 336 s.

İ n t e r n e t d ə

www.elibrary.azlib.net

www.az.wikipedia.org

www.anl.az

www.muallim.edu.az

100 illiyi

Əkbər Ağayev 1915-1989

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Əsrin tərənnümü /Ə.Ağayev; elmi red. A.Hüseynov.- Bakı: Yazıçı, 1980.- 232 s.

Azərbaycan tənqidinin görkəmli siması: Ədəbiyyatşünas alim Əkbər Ağayev... //Azadlıq.- 2012.- 11 dekabr.- S.14.

Mirzəzadə, Q. Tənqidçi dünyası: Əkbər Ağayevin ədəbi-tənqidi görüşləri /Qürbət Mirzəzadə; Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Azərnəşr, 2000.- 152 s.

Mirzəyev, Q. Əkbər Ağayevin ədəbi-tənqidi görüşləri: filol. e. n. a. dər. al. üçün taq. ol. dis.: 10.01.03. /Q.Mirzəyev; AEA, Nizami ad. Ədəbiyyat İnstitutu.- Bakı, 1998.- 172 s.

Xəlilzadə, F. Çoxcəhətli yaradıcılıq /F.Xəlilzadə //Mədəniyyət.- 2012.- 31 oktyabr.- S.13.

İ n t e r n e t d ə

www.anl.az

www.csl-az.com

Əkbər Məmməd oğlu Ağayev 1915-ci il mart ayının 21-də Şuşada anadan olmuşdur.

1937-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsini bitirmişdir.

Moskva Ali Diplomatiya Məktəbində oxumuş, bir müddət "İzvestiya" qəzeti və Sovet İttifaqı Teleqraf Agentliyi redaksiyalarında çalışmışdır.

Sonradan Bakıya qayıdan Əkbər Ağayev bir sıra mətbuat orqanlarında ədəbi işçi, məsul katib, şöbə müdiri və redaktor kimi fəaliyyət göstərmişdir. O, Azərbaycan Pedaqoji, Xarici Dillər institutlarında, BDU-da müəllim, kafedra müdiri və fakültə dekanı vəzifələrində işləmişdir. Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyətinə davam etmiş, burada da şöbə müdiri vəzifəsində çalışmışdır.

Ədəbi fəaliyyətə XX əsrin 30-cu illərində başlayan Əkbər Ağayev Azərbaycan ədəbiyyatının aktual məsələləri ilə bağlı araşdırmalar apararaq, qısa zamanda tələbkar tənqidçi kimi tanınmışdır.

Tərcümə sənəti ilə də yaxından məşğul olan müəllif dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini dilimizə tərcümə etmişdir. A.S.Puşkin, M.Y.Lermontov, A.A.Çexov, L.N. Tolstoy və başqa rus ədiblərindən tərcümələri vardır. Xarici ölkə yazıçılarından D.Defonun "Robinzon Kruzo", F.Lankerin "Uşaqlar və xəncər", O.Sekoranın "Qarışqalar təslim olmur", N.Kalmanın "Qara Salli", Jül Vernin "Arxipelaq alovlanır", Ç.Dikkensin "Oliver Tvistin macəraları", A.Qaydarın "Seçilmiş hekayələri", N.K.Karamzinin "Zavallı Liza", V.Korolenkonun "Qəribə qız", Bualonun "Poeziya sənəti", V.Belinskinin "Seçilmiş məqalələri" və s. kitab halında nəşr olunmuşdur.

O, bir ədəbiyyatşünas kimi ədəbiyyat tarixi, onun bilavasitə nəzəri məsələləri haqqında, eləcə də Nizami Gəncəvi, Məhəmməd Füzuli, Qasım bəy Zakir, Əbdürrəhim bəy Haqverdiyev və digər Azərbaycan klassiklərinin yaradıcılığına güzgü tutaraq sanballı əsərlər yaratmışdır.

Əkbər Ağayev eyni zamanda, başqa xalqların ədəbi nümunələrini tədqiq etmiş, bu sahədə də mükəmməl tədqiqatçı kimi tanınmışdır. Onun "Qədim yunan ədəbiyyatı tarixinin oçerkləri" (1938), "M.Y.Lermontov və Azərbaycan" (1941), "A.I.Gertsen" (1962) adlı kitabları dediklərimizə nümunədir.

Sağlığında 6 kitabı, 20-yə yaxın tərcümə nəşri işıq üzü görüb.

Azərbaycanın Əməkdar ali məktəb işçisi, filologiya elmləri doktoru, professor Əkbər Ağayev 1989-cu il mart ayının 2-də Bakıda vəfat etmişdir.

120 illiyi

Əziz Şərif 1895-1989

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Keçmiş günlərdən: xatirələr /Əziz Şərif; red. A.Zamanov; H.Məmmədzadə.- Bakı: Yazıçı , 1983.- 300 s.

"Molla Nəsrəddin" necə yarandı /Əziz Şərif; tərt. ed. və ön söz. müəl. İ.Həbibbəyli.- Naxçıvan: Əcəmi, 2009.- 382 s.

XX əsrin görkəmli ictimai-siyasi xadimi Nəriman Nərimanov: Klassik irsimizdən: Nəriman Nərimanov - 140 /Əziz Şərif //Respublika.- 2010.- 15 aprel.- S.7.

Mirzə Davud Rəsulzadə: Xatirə /Əziz Şərif //Gəncəbasar.- 2012.- 9-16 iyun.- №43.- S.4-5.

Məmmədova, L. Əziz Şərifin Mirzə Fətəli Axundzadə yaradıcılığına münasibəti /L.Məmmədova //Filologiya məsələləri.- 2012.- №5. - S.378-384.

Paşayev, A. Əziz Şərif: Bu dünyaya etibar yoxdur /A.Paşayev //El.- 2012.- mart (106).- S.5-15

İ n t e r n e t d ə

www.azadliq.info

www.kataloq.net

www.anl.az

Əziz Qurbanəli oğlu Şərifov (Şərifzadə) 1895-ci ildə mart ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur.

Əzizin atası Qurbanəli Şərifzadə dövrünün çox mükəmməl biliyə malik, savadlı, bir neçə dil bilən şəxsiyyəti olub. İbtidai təhsilini məşhur pedaqoq Sidqi Səfərovun məktəbində alan Əziz Şərif əvvəlcə Tiflis gimnaziyasında, sonra isə Moskva Kommersiya İnstitutunda təhsilini davam etdirdiyi dövrdə (1915-1917) rus ədəbi mühiti ilə tanış olmuşdur.

Uşaqlıq və ilk gənclik illəri Tiflisdə Cəlil Məmmədquluzadənin himayəsində keçmişdir. Ədəbi fəaliyyətə 1906-cı ildə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Naxçıvandan məktublar"la başlamışdır.

"Molla Nəsrəddin" jurnalı redaksiyasında işlədiyi ilk gənclik illəri Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid və Əliqulu Qəmküsarla yaxın dostluq əlaqələri onu ömürlük ədəbi fəaliyyətə bağlamışdır. 1920-1930-cu illərdə Tiflisdə mətbuat və nəşriyyat sahəsində çalışmış, 1925-1935-ci illərdə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi olmuşdur.

1943-cü ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun tənqid bölməsini bitirmişdir. Sonra Moskvaya köçmüş SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda və Dünya Ədəbiyyatı İnstitutunda baş elmi işçi olmuşdur (1950-1961).

1962-ci ildən ömrünün sonunadək M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsində SSRİ xalqları ədəbiyyatı kafedrasının professoru, kafedra müdiri vəzifəsində çalışmışdır. Çoxlu məqalələrin, elmi əsərlərin, tənqidi bioqrafik oçerk və monoqrafiyaların müəllifidir.

Əziz Şərif 1947-ci ilin fevralında namizədlik dissertasiyası, 1957-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

1962-ci ildə Ə.Şərifə professor elmi adı, 1963-cü ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Əziz Şərif həm də respublikamızda tərcümə işinin əsasını qoyanlardan biri sayılır. O, rus və Azərbaycan dillərində bədii tərcümə sahəsində səmərəli fəaliyyət göstərib. Onun tərcüməsində N.V.Qoqol, A.N.Ostrovski, M.Qorki, A.Fadeyev, K.M.Simonov, U.Şekspir, G.Mopassan və başqa məşhur ədiblərin əsərləri Azərbaycan oxucularına çatdırılmışdır. M.F.Axundovun, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, N.Vəzirovun, C.Cabbarlının, S.Rəhimovun, Mir Cəlalın, M.Hüseynin və başqalarının roman və hekayələrini rus dilinə tərcümə etmişdir.

Əziz Qurbanəli oğlu Şərifov 1988-ci ildə, 93 yaşında, Moskvada vəfat etmişdir. Naxçıvanda dəfn olunmuşdur.

90 illiyi Siddiqə Məmmədova 1925

Akademik



Siddiqə Rza qızı Məmmədova 1925-ci il mart ayının 8-də Naxçıvan MR, Şərur rayonunun Şəhriyar kəndində anadan olmuş və orda natamam orta məktəbi bitirmişdir.

1940-cı ildə Gəncə şəhərində Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, 1943-cü ildə texnikumu bitirmişdir.

1943-1947-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsində oxumuşdur.

1948-ci ildə AKTİ-də entomologiya ixtisası üzrə aspiranturaya daxil olmuşdur. Aspiranturanı bitirdikdən sonra 1952-ci ildə kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

1952-ci ildən 1963-cü ilə qədər AKTİ-də assistent, dosent vəzifələrində, o cümlədən fakültə partiya təşkilatının katibi işləmişdir. 1963-cü ildə Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizə İnstitutunun direktoru təyin edilmişdir. 1971-ci ildə biologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

1973-cü ildə professor elmi rütbəsini almış, 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci il iyun ayının 29-da Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Hal-hazırda AMEA-nın Biologiya bölməsi üzrə yaradılan Koordinasiya şurasının Bitkiçilik və Bitki mühafizə üzrə sədridir.

O, 210-dan artıq elmi əsərin, 5 tədris vəsaitinin, 2 soraq kitabının, 3 monoqrafiyanın, 7 ixtiranın, 2 pestisidlər kataloqunun müəllifidir.Yüksəkixtisaslı kadrların hazırlanması da alimin daim diqqət mərkəzindədir. Onun rəhbərliyi ilə institutda 5 elmlər doktoru və 70-dən çox elmlər namizədi hazırlanmışdır. İki elmlər doktoru, 15 elmlər namizədinin rəhbəri şəxsən özü olmuşdur. Hal-hazırda iki doktorantın elmi məsləhətçisidir.

Uzun müddət "Bilik" cəmiyyəti Gəncə şəhər şurasına sədrlik etmişdir. Ümumittifaq "Bilik" cəmiyyəti yaranmasının 30 illiyi və respublikamızda elmi biliklərin inkişafında xidmətlərinə görə 1977-ci ildə ümumittifaq "Bilik" cəmiyyətinin təşəkkürnaməsi və ordeni ilə, 1980-ci ildə isə "Fəal işə görə" döş nişanı ilə təltif edilmişdir.

Akademik Azərbaycanda kənd təsərrüfatı elminin inkişafında xidmət-lərinə görə 1967-ci ildə "Şərəf Nişanı", 1967-ci ildə "Əməkdə igidliyə görə", 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1982-ci ildə "Əmək Veteranı" medalları, 2 dəfə (1971,1978) "Qırmızı Əmək Bayrağı", 2000-ci ildə müstəqil dövlətimizin "Şöhrət", 2010-cu ildə "Şərəf" ordenləri ilə təltif olunmuşdur. 15 dekabr 2010-cu il tarixdə akademik S.R.Məmmədova Türkiyə Cümhuriyyətinin Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Akademiyanın üzvü diplomu və Beynəlxalq "Qızıl ulduz" medalı ilə təltif olunmuşdur.

Ədəbiyyat

Meyvə və subtropik bitkilərin zərərvericiləri /S.Məmmədova, B.Xəlilov.- Bakı: Azərnəşr, 1974.- 125, [2] s.

Torpağa məhəbbət və xeyirxahlıq toxumu səpən alim /S.Məmmədova //Elm.- 2013.- 30 may.- S.14-15.

Kənd təsərrüfatı entomologiyası: Kənd Təsərrüfatı İnstitutunun tələbələri üçün dərs vəsaiti /S.Məmmədova, B.Xəlilov.- Bakı: Maarif, 1986.- 370 s.

Nəsirli, G. Elmdə keçən ömür /G.Nəsirli.- Bakı: Şirvannəşr, 2002.- 32 s.

Nəsirli, G. Taleyin qisməti /G.Nəsirli.- Bakı: Şirvannəşr, 2005.- 32 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.science.gov.az

www.gencekitab.az

www.gender-az.org

65 illiyi

Adil Qəribov 1950

Akademik



Adil Abdulxalıq oğlu Qəribov 1950-ci il mart ayının 28-də Azərbaycan Respublikası Şəki rayonunun İbrahim kəndində anadan olmuşdur.

1966-cı ildə Kiçik Dəhnə kənd orta məktəbini, 1972-ci ildə isə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir.

1972-1976-cı illərdə AEA Radiasiya Tədqiqatları Sektorunun aspiranturasında fiziki-kimya ixtisası üzrə təhsil almış, 1979-cu ildə namizədlik, 1995-ci ildə isə doktorluq elmi dərəcəsinə yiyələnmiş, 1998-ci ildə radiasiya kimyası ixtisası üzrə professor elmi rütbəsini almışdır.

1995-2001-ci illərdə "Müxtəlif növlü sistemlərin radiasion kimyası" laboratoriyasının, Azərbaycan EA Radiasion Tədqiqatlar sektorunun rəhbəri olub. A.Qəribov 2002-ci ildən bu günə kimi AMEA Radiasiya Problemləri İnstitutunun direktoru vəzifəsində çalışır.

A.Qəribov respublikanın heterogen proseslərin və bərk cisimlərin radiasiya kimyası üzrə ilk elmlər doktoru, professor, "Radiasiya materialşünaslığı" elmi müdafiə şurasının həmsədri, elmi-texniki və müxtəlif elmi ekspert şuralarının üzvüdür.

O, 200-dən artıq elmi əsərin, 17 müəlliflik şəhadətnaməsinin, 10 patentin müəllifidir.

2012-ci ildə peşəkar fəaliyyətdə əldə etdiyi nailiyyətlərə görə Böyük Britaniya Krallığının Direktorlar İnstitutunda keçirilən Beynəlxalq Sokrat mərasimində "Elmdə ad" beynəlxalq mükafatı və titulu alıb və onun adı görkəmli alimlərin ümumdünya reyestrinə daxil edilib. Həmçinin A.Qəribovun rəhbərlik etdiyi kollektiv professional, elmi-tədqiqat və mədəni-maarifçilik fəaliyyətinə görə "Avropa keyfiyyəti" beynəlxalq mükafatına layiq görülüb.

Onun elmi fəaliyyəti atom enerjisinin çevrilməsi və ondan istifadə olunması, atom-hidrogen energetikası, nüvə-neftkimya komplekslərinin yaradılması, nüvə reaktorlarının təhlükəsizliyi, radiasiya materialşünaslığı, radiasiya katalizi və adsorbsiyası, respublikanın nüvə və radiasiya təhlükəsizliyi kimi aktual problemləri əhatə edir.

A.Qəribov uzun müddət Rusiya İ.V.Kurçatov adına Atom Enerjisi İnstitutu, sonralar "Kurçatov Elmi Mərkəzinin" Hidrogen Energetika və Plazma Texnologiya İnstitutu, Rusiya EA Fiziki-kimya İnstitutu, Lomonosov adına MDU-nun "Radiasiya kimyası" kafedrası ilə birlikdə elmi tədqiqatlar aparmışdır.

Onun rəhbərliyi altında RPİ-də ABŞ Energetika Nazirliyi, Çikaqo Universitetinin Arqon Milli laboratoriyası, Sandia Milli laboratoriyası, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, NATO, CRDF və UETM və sair qurumlarla layihələr əsasında elmi-texniki işlər icra olunur.

2005-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

2007-ci ildə Azərbaycan MEA-nın radiasion kimya ixtisası üzrə müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilib.

Ədəbiyyat

Əbədiyyət yolu /A.Qəribov //Respublika.- 2013.- 31 dekabr.- S.10.

Quruculuq və dinamik inkişaf strategiyası /A.Qəribov //Respublika.- 2012.- 15 iyun.

Tədqiqatların və beynəlxalq əlaqələrin əhatə dairəsi genişlənir /A.Qəribov //Azərbaycan.- 2011.- 25 may.- S. 11.

Aygün. Radiasiya Problemləri İnstitutunda... 2011-ci ildə 4 elmi istiqamət üzrə tədqiqatlar aparılıb /Aygün //Olaylar.- 2012.- 29 fevral.- S.12.

Ənsərli, G. Azərbaycan alimi "Elmdə ad" mükafatına layiq görülmüşdür /G.Ənsərli //Elm.- 2013.- 15 mart.- S.4.

Выход электронно-дырочных пар в бериллий силикатных системах под действием гамма квантов /Я.Д.Джафаров, А.А.Гарибов //Проблемы химии.- 2009.- №4.- С.614-617.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.science.gov.az

60 illiyi

Natiq Cavadov 1955

Alim



Natiq Hacı oğlu Cavadov 1955-ci il mart ayının 8-də Ağdam rayonunun Əliağalı kəndində anadan olmuşdur.

1971-ci ildə Bakı şəhərindəki 132 saylı orta məktəbi bitirmiş, həmin il Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuş və 1979-cu ildə oranı bitirmişdir.

Əmək fəaliyyətinə 1974-cü ildə Bakı Tunel Tikinti İdarəsində fəhlə kimi başlamışdır. 1975-1977-ci illərdə hərbi xidmətdə olmuşdur.

1978-2003-cü illərdə Azərbaycan Milli Aerokosmik Agentliyində texnik, böyük texnik, mühəndis, böyük mühəndis, aparıcı mühəndis, partiya komitəsinin katibi, daha sonra Ağdam Mexaniki və Bakı şəhərindəki Kosmik Cihazqayırma zavodlarının direktoru işləmişdir.

2003-cü ildən Azərbaycan Respublikası "Sənayeavtomatika" İstehsalat Birliyinin Baş direktorudur.

Natiq Cavadov 1997-ci ildə texnika elmləri namizədi, 2007-ci ildə texnika elmləri doktoru elmi dərəcələrini almışdır.

2003-cü ildən Beynəlxalq Mühəndislik Akademiyasının, 2006-cı ildən isə Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvüdür.

2008-ci ildən Azərbaycan Texniki Universitetinin professoru, həmçinin Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının akademikidir.

2009-cu ildən "Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" elmi-texniki jurnalının, 2011-ci ildən isə Moskvada nəşr edilən "Neft sənayesində avtomatlaşdırma, telemexanika və rabitə" elmi-texniki jurnalının redaksiya heyətinin üzvüdür.

2011-ci ildə Azərbaycan Mühəndislik Akademiyasının Nəzarət Təftiş Komissiyasının sədri seçilmişdir.

2011-ci ildə Beynəlxalq Mühəndislik Akademiyasının "Mühəndislik şöhrəti" medalı ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının texnika elmləri üzrə Ekspert Şurasının üzvüdür.

200-dən artıq elmi məqalənin, o cümlədən 5 monoqrafiya, 1 dərslik, 5 müəlliflik şəhadətnaməsinin müəllifidir. 90-dan çox elmi məqaləsi xarici ölkələrdə - İspaniya, Yunanıstan, İran, Türkiyə, Rumıniya, Rusiya, Belarus, Ukrayna, Avstriya və Latviyada çap edilmişdir.

18 oktyabr 2011-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat

Mayelərin nəqlində istifadə olunan sərfölçənlər /N.Cavadov, Ə.Mehtiyev, A.Mirzəyev; elmi red. Ə.Canəhmədov.- Bakı: Apostrof, 2013.- 288 s.

Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi üçün böyük potensialı var /N.Cavadov //Azərbaycan.- 2014.- 5 sentyabr.- S.6.

Türk Dünyasının böyük ağsaqqalı: [ümummilli lider Heydər Əliyev haqqında] /N.Cavadov //Həftə içi.- 2013.- 4-6 may.- S.7.

Yüksəlişin və inkişafın təminatçısı cənab İlham Əliyevin üçüncü müddətdə prezidentlik fəaliyyətinə başlamasının bir ili tamam olur /N.Cavadov //Azərbaycan.- 2014.- 19 oktyabr.- S.9.

İnternetdə

www.president.az

www.az.wikipedia.org

www.anl.az

www.elibrary.az

www.ama.com.az

100 illiyi

Əli Əmirov 1915-1979

Alim



Əli Cabbar oğlu Əmirov 1915-ci il mart ayının 25-də Naxçıvan şəhərində anadan olmuşdur.

Əli Əmirov Neft Maşınqayırma Texnikumunun axşam şöbəsini bitirmiş, sonra Sənaye İnstitutunda təhsil almışdır.

1939-1940-cı illərdə "Türkmənneft"də fəhlə, mühəndis neftçıxarma ustası vəzifəsində işləmişdir. Sonralar təcrübəli neftçi kimi Azərbaycana gələrək 1940-1942-ci illər "Suraxanıneft"də işləmişdir.

Burada neftçıxarma ustası vəzifəsindən trestin rəisi vəzifəsinə qədər yüksəlmişdir. 1955-1959-cu illərdə Azərbaycan neft sənayesi nazirinin müavini, 1959-1962-ci illərdə "Azərneft" İstehsalat Birliyinin baş direktoru vəzifəsinə irəli çəkilmişdir. Əllinci illərdə Azərbaycan neft-qaz hasilatı azalmağa başlandığı dövrdə Əli Əmirovun şəxsi iştirakı ilə "Qum adası" neft-qaz yatağının mənimsənilməsinə başlanılmışdı. Quyu yüksək qaz və qaz kondensatı ilə işləməklə "Qum adası" yatağının kəşfininin əsasını qoymuşdu. Məhz bu kəşflə Azərbaycan neft sənayesinin yenidən dirçəlişi başlandı. Sonralar "Bahar", "Səngəçal", "Duvanı-dəniz", "Bulla-dəniz" və s. neft-qaz yataqlarının istismara verilməsi Azərbaycan neft sənayesini yüksək zirvələrə qaldırdı ki, bu işdə də Əli Əmirovun xüsusi xidmətləri vardır.

1962-1971-ci illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi vəzifəsində işləmişdir.

1972-ci ildə texnika elmləri doktoru elmi dərəcəsini, 1977-ci ildə professor elmi rütbəsini almışdır.

1971-1977-ci illərdə yenidən "Azneft" Neft və Qazçıxarma İstehsalat Birliyində baş mühəndis və rəis vəzifəsində çalışmışdır. 1977-ci ildən ömrünün axırınadək "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiyasında işləyərək Azərbaycan Neft və Kimya institutun "Neft yataqlarının işlənməsi" kafedrasının professoru olmuşdur.

O, neft sənayesinin elm və texnikası sahəsində aktual məsələlərə həsr edilmiş 140-dan çox kitab, monoqrafiya və elmi məqalələr yazmışdır.

Əli Əmirovun istehsalat və elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1969-cu ildə Dövlət mükafatına, 1970-ci ildə "SSRİ-nin fəxri neftçisi" adlarına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı", 2 dəfə "Şərəf Nişanı" ordenləri və bir sıra medallarla təltif edilmişdir. Neft sənayesinin inkişafındakı xidmətlərinə görə ona akademik İ.M.Qubkin adına mükafat verilmişdir. SSRİ Neft və Qaz Sənayesi Elmi-texniki Cəmiyyətinin fəxri üzvü olmuşdur.

Əli Əmirov 1979-cu ildə Bakıda vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Neft və Qazçıxarma idarəsi (Qaradağ rayonu) və Bakı küçələrindən biri onun adını daşıyır.

Ədəbiyyat

Əmirov, Ə. Sənayenin tərəqqisi /Ə.Əmirov.-Bakı: Azərnəşr, 1970.-156, [4] s.

Əmirov Əli Cabbar oğlu //Naxçıvan ensiklopediyası.-Bakı, 2002.-S.150.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.socar.az

1 MART

95 illiyi

Azərbaycan Dövlət Teleqraf Agentliyi 1920

Azərbaycan Dövlət Teleqraf Agentliyi - AzərTAc respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV-lər üçün yeganə rəsmi dövlət informasiya mənbəyidir.

1920-ci il martayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış AzərTAc sonralar, Sovet hakimiyyəti illərində müxtəlif adlarla fəaliyyət göstərmisdir.

Azərbaycan yenidən dövlət müstəqilliyi bərpa etdikdən sonra agentlik özünün tarixi adını bərpa etmişdir. 1995-ci il mart ayının 3-dən Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyi, 2000-ci il yanvar ayının 17-dən Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılmışdır.

AzərTAc rəsmi dövlət xəbərləri ilə yanaşı, ictimai-siyasi, iqtisadi mövzularda, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. haqqında fasiləsiz olaraq bütün sutka ərzində Azərbaycan, ingilis, rus, fransız, alman və ərəb dillərində dəqiq və operativ informasiya verir.

AzərTAc İTAR-TASS (Rusiya), Anadolu agentliyi (Türkiyə), Sinxua (Çin), AGERPRES (Rumıniya), Ukrinform (Ukrayna), BTA (Bolqarıstan), ANSA (İtaliya), İRNA (İran), TANYUQ (Serbiya), BELTA (Belarus), Moldpres (Moldova), ATA (Albaniya), MTI (Macarıstan), MENA (Misir), PETRA (İordaniya), ANTARA (İndoneziya), MONTSAME (Monqolustan), Yonhap (Koreya Respublikası), LETA (Latviya), Kabar (Qırğızıstan), Kazinform (Qazaxıstan), KUNA (Küveyt), Xovar (Tacikistan), KYODO (Yaponiya), BuaNews (Cənubi Afrika Respublikası), AGİ (İtaliya), QNA (Qətər) informasiya agentlikləri ilə əməkdaşlıq haqqında sazişlər imzalamışdır.

2004-cü ildə Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA), 2008-ci ildə Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilmişdir.

AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (PANİA) təsisçilərindən biridir.

AzərTAc 2008-ci ildən "AsiaPulse" - Asiya xəbər agentlikləri konsorsiumunun üzvüdür.

AzərTAc-ın ABŞ, İngiltərə, Fransa, Almaniya, Avstriya, Latviya, Macarıstan, Rusiya, Ukrayna, Misir, Türkiyə, Gürcüstan, İran, Orta Asiya, Çin və Yaponiyada, respublikanın bölgələrində müxbir məntəqələri fəaliyyət göstərir.

AzərTAc foto və yazılı informasiyalarla yanaşı, ölkənin sosial, siyasi, iqtisadi, idman həyatından videoxəbərlər hazırlayır, onları internet resursunda və sosial şəbəkələrdə yayır. Agentliyin multimedia və videoxəbər xidməti "Gəzdim Azərbaycanı", "Abidələrimiz", "Dünya şəhərləri", "Sənət korifeylərimiz" və digər bir sıra layihələr həyata keçirir.

2013-cü ilin sentyabrından AzərTAc-ın Uşaq Bilik Portalı fəaliyyət göstərir.

Ədəbiyyat

Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) fəaliyyətinin təkmilləşdirilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22 aprel 2010-cu il //Azərbaycan.- 2010.- 23 aprel.- S.1.

Azərbaycan Dövlət Teleqraf Agentliyinin - AzərTAc-ın 90 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir //Azərbaycan.- 2010.- 2 mart.- S.4.

Azərbaycan Dövlət Teleqraf Agentliyində ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə yubiley tədbiri keçirilmişdir //Azərbaycan.- 2013.- 5 may.- S.3.

İnternetdə

www.anl.az

www.azertag.com

www.az.wikipedia.org

www.elibrary.az

MART

12

Daxili Qoşunlar Günü 1995



Daxili Qoşunlar 1991-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılmışdır.

Daxili Qoşunların funksiyaları, vəzifələri, fəaliyyətinin əsas prinsipləri "Daxili Qoşunların statusu haqqında Azərbaycan Respublikasının 1994-cü il tarixli Qanunu" ilə müəyyən olunmuşdur. Həmin Qanuna əsasən Daxili Qoşunlar aşağıdakı vəzifələri yerinə yetirir:

• digər daxili işlər orqanları ilə birlikdə şəhərlərdə və digər yaşayış məntəqələrində post-patrul xidməti vasitəsilə ictimai asayişin qorunmasında, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında iştirak edir;

• mühüm dövlət obyektlərini, kommunikasiya qurğularını, xüsusi yükləri mühafizə edir;

• mühafizə olunan əraziyə soxulmuş şəxslərin axtarılmasında və tutulmasında iştirak edir;

• Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Təchizat İdarəsinin anbarlarını və hərbi bazalarını mühafizə edir;

• mühafizə olunan obyektlərdə və qurğularda qəzaların, yanğınların, təbii fəlakətlərin və buna bənzər başqa halların nəticələrinin ləğvində iştirak edir;

• yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınmasında iştirak edir;

• qəzalar, bədbəxt hadisələr, yanğınlar, təbii fəlakətlər və başqa fövqəladə hallar zamanı, habelə fövqəladə vəziyyətin hüquqi rejimi təmin edilərkən adamların xilas edilməsi, sahibsiz qalmış əmlakın mühafizəsi, ictimai asayişin qorunması üçün təxirəsalınmaz tədbirlər görməklə daxili işlər orqanlarına kömək göstərir;

• cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşların qarşısını almağa kömək göstərir;

• mühafizədən qaçmış məhkumların və həbs edilmiş şəxslərin axtarılmasında və tutulmasında iştirak edir;

• zərurət olduqda Azərbaycan Respublikasının ərazisinin müdafiəsində iştirak edir.

Daxili Qoşunlara başqa vəzifələr ancaq qanunla həvalə edilə bilər.

Hərbi qanunvericilik, nizamnamələr, hərbi qulluqçuların xidmət keçməsi məsələləri üzrə Daxili Qoşunların fəaliyyəti Silahlı Qüvvələr üçün müəyyən edilmiş hərbi-normativ aktlarla nizamlanır.

Daxili Qoşunların Komandanı birbaşa Daxili İşlər nazirinə tabedir və onun müavinidir.

Azərbaycan Respublikası Prezidentinin 9 mart 1995-ci il tarixli Fərmanı ilə Qoşunların Azərbaycanın ərazi bütövlüyü uğrunda Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı gün - martın 12-si "Daxili Qoşunlar Günü" elan edilmişdir.

Ədəbiyyat

Daxili Qoşunlar //Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan.- Bakı, 2007.- S.369.

Daxili Qoşunlar daim Azərbaycan xalqına və dövlətçiliyinə sədaqətlə xidmət etmişdir //Azərbaycan.- 2011.- 13 mart.- S.3.

Həsənov, Z. Daxili Qoşunlar yüksəliş mərhələsini yaşayır /Z.Həsənov //Azərbaycan.- 2011.- 12 mart.- S.4.

Məzahiroğlu, C. Daxili qoşunlar: islahatlar və perspektivlər. Yaxın vaxtlarda bu qurumda mülki şəxslərin sayı iki dəfə artırılacaq /C.Məzahiroğlu //Ayna.-2012.- 17 mart.- S.10-16.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www. e-qanun.az

www. mia.gov.az

Tarixdə bu gün

100 illiyi

Çanaqqala döyüşü 1915-1916



Çanaqqala döyüşü - Birinci Dünya müharibəsi əsnasında 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən dəniz və quru döyüşüdür. İttifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiyayla etibarlı bir qida və hərbi ticarət yolu açmaq, alman müttəfiqlərindən birini zəiflətmək məqsədləri ilə ilk hədəf olaraq Çanaqqala boğazına girmişlər. Vaxtilə böyük ərazilərə sahib olan Osmanlı imperiyası artıq öz keçmiş qüdrətini itirmiş və indi ən çətin vəziyyətə düşmüşdü. Daxildə və xaricdə baş verən siyasi çəkişmələr dövləti çökdürür, taleyini zamanın ixtiyarına buraxırdı. Balkan yarımadasında ardıcıl məğlubiyyətlər Osmanlı dövlətini böyük torpaq itkiləri ilə üz-üzə qoymuşdu. Bu ələdüşməz fürsətdən imperialist dövlətlər öz mənafeləri üçün istifadə etmək və Osmanlının torpaqlarını öz aralarında bölüşdürüb bu dövlətin varlığına son qoymaq istəyirdilər.

Mart ayının 18-də ingilis-fransız gəmiləri şiddətli bir atəşə başladılar. Ancaq hücumları müvəffəqiyyətsiz olmuşdur və iki tərəfin də çox ağır itkilər verməsiylə İttifaq dövlətləri geri çəkilmişlər. Osmanlı ordusu ingilis və fransız donanmalarına qarşı Çanaqqala boğazında aylarla sürən silsilə dəniz və quru döyüşləri aparmışdır. Bu döyüş məhvolma vəziyyətində olan bir ölkənin möhtəşəm qələbəsi kimi olaraq əfsanələşib, hər vətəndaşın xatirəsində qalmışdır. Çanaqqala eyni zamanda Türk şəhidlərinin dünya tarixinə öz qanları ilə yazdığı bir qəhrəmanlıq salnaməsidir.

Müttəfiqlər üçün isə bu döyüş, əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılmışdır.

Beləliklə, düşmənin birləşmiş qüvvələri geri çəkilmək məcburiyyətində qalaraq döyüş məkanını tərk etmişdi və 1916-cı ilin baharında böyük ümidlərlə gəldiyi bu torpaqlardan həmin ilin qışında qaçmağa başlamışdılar.

Bu gün bəzi dövlətlərin Türkiyəyə qarşı olan qısqanclıq və xəbislik niyyətlərinin əsas səbəblərindən biri də, bəlkə də Çanaqqala vuruşmasıdır. Çünki bu vuruşmada tarix boyu Türk-İslam Dünyasına qənim kəsilmiş və öz işğalçılıq planlarını hər zaman yeritməyə çalışan Avropa dövlətlərinin məqsədləri alt-üst olmuş, nəticədə onlar gözləniləndən qat-qat artıq itki vermişlər.

Bu savaşda Osmanlı 251.309 nəfər itki vermişdi. Döyüşdə əsas canlı qüvvə və texnika ilə iştirak edən ingilislər 205.000, fransızlar isə 47000 itgi verdi. Ümumilikdə düşmən tərəf 300.000-ə yaxın canlı qüvvəsini itirmişdi və bundan əlavə çoxlu sayda hərbi-texniki qüvvələri məhv edilmişdi. Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərmiş olan bu döyüş Türk Qurtuluş Döyüşünə də təsir etmişdir. Dəniz və quru qoşunlarını əhatə edən və bütün çətinliklərə baxmayaraq Türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala savaşı Atatürk kimi bir dahini yetişdirmiş, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin olmuşdur. Qəhrəman türk milləti, böyük öndər Mustafa Kamal Paşanın

rəhbərliyi ilə qeyri-bərabər döyüşdə qələbə qazanmışdı.

Çanaqqala döyüşləri müharibələr tarixinə özünün misilsiz adını yazmışdır. Bu savaşlar nəticəsində türklər dünyaya öz döyüş əzmlərini sübut etmişlər. Min illik döyüş təcrübəsi olan böyük türk millətinin Birinci Cahan müharibəsindəki zəfəri bu ulusun bir daha yenilməz olduğunu təsdiqləmiş oldu. Bu qalibiyyət savaşın taleyində əhəmiyyətli dönüş yaratmış və onu daha bir neçə il uzatmışdır. Çanaqqala döyüşləri, əsrimizin ən böyük döyüşlərindən biridir.

Həqiqətən də, Çanaqqala savaşında babalarımızın göstərdiyi şücaət və igidliklər bu gün örnək olaraq anılmaqdadır və 100 il öncəyə nəzər salanda sanki nümunəvi qəhrəmanlıq portretinə tamaşa edirsən. Bu portretdə qadın nişançılardan, sağ əlini itirib, sol əli ilə vuruşandan tutmuş, 276 kq-lıq mərmini inanılmaz formada topa qoyub atəş açan və düşmən gəmisini pərən salan Seyid Çavuşa qədər hər kəs əks olunmuşdur. Fəxrlə demək olar ki, bu portretdəki simalar və şücaətlər Çanaqqala savaşını qeyd-şərtsiz olaraq böyük qəhrəmanlıq dastanına çevirmiş və bu dastan sonrakı nəsillərin və təbii ki, bizlərin milli ruhda, cəsurluq ruhunda tərbiyə almağımıza bir məktəb olmuş və olacaqdır.

Çanaqqalada Osmanlı əsgərlərinin göstərdikləri igidliklər düşmən generallarını, siyasi və dövlət xadimlərini belə heyrətə gətirmişdi. XX əsrin ən böyük siyasətçilərindən biri hesab edilən Çörçil: "Türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə: "Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu", – demişlər. General Tavshend isə türk əsgərinə belə qiymət vermişdi: "Avropada elə bir əsgər yoxdur ki, türklərlə müqayisə edilə bilsin. Misal üçün, Gelibolunu göstərmək istəyirəm. Orada bizim gəmilərdən açdığımız atəş nəticəsində səngərlər yerlə yeksan oldu. Türklər deyil, başqa millətdən olan əsgərlər olsaydılar, buna dözməyərək səngərləri tərk edərdilər. Amma türk əsgərləri sona kimi bu cəhənnəmdəki mövqelərini tərk etmədilər".

Şanaqqala döyüşlərdə Azərbaycandan da çoxsaylı insan döyüşmüş və həlak olmuşdur. Orada dəfn olunan soydaşlarımızın qəbir daşlarının üzərində onların Azərbaycanın hansı bölgəsindən olduğu yazılıb. Demək olar ki, Azərbaycanın bütün rayonlarından Çanaqqalada şəhid olanlar var.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün - 18 mart, ***Çanaqqala Şəhidlərini Anma Günü*** olaraq elan edilmişdir.

Üstündən yüz illik bir müddət keçməsinə baxmayaraq insanlar Çanaqqala adını eşidəndə qəhrəman Türk millətinin əzmkarlığına heyran olur və bu şərəfli mücadilə hər bir kəsi düşündürməklə yanaşı onlara əsl vətənpərvərlik irsini tərbiyə edir.

Biz bu hadisələrdən nəticə çıxartmaqla gənclərimizi Çanaqqala döyüşlərinin hissləri altında hərbi-vətənpərvərlik ruhunda böyütməliyik.

Azərbaycanda Çanaqqala hadisələri tam da olmasa lazımi səviyyədə tədqiq edilmişdir. Hətta bu döyüşlərə ithaf edilən əsərlər də yazılmışdır. Bunlardan biri görkəmli bəstəkarımız Vasif Adıgözəlovun "Çanaqqala 1915" oratoriyasıdır. Bu əsər öz ruhuna görə insana döyüş əzmi aşılayır.

Ə d ə b i y y a t

Kuğu'nun son ötüşü: Çanakkale destanı /proje ve metin. E.Göze; foto. S.Taşkın; ingilizceye çev. K.Çiftçi, A.Turgut.- İstanbul: Boğaziçi Yayınları, 2005.- 319 s.

Osmanlı Belgelerinde Çanakkale muharebeleri.- Ankara, 2005.-53 s.

Əbdülrəhmanlı, N. Çanaqqala: Keçmişlə gələcək arasında yaddaş körpüsü //Ekspress.- 2012.- 31 mart-2 aprel.- S.14

Əhədova, K. Bir ölkənin taleyini dəyişən insan /K.Əhədova //Hərbi and.- 2011.- 21 may. - №20.- S.7.

Qaliboğlu, E. Atatürkün sərkərdəlik qüdrətini sübut edən döyüş: Çanaqqala zəfərindən 95 il ötür /E.Qaliboğlu //Xalq cəbhəsi.- 2010.- 18 mart.- №49.- S.14 .

Uğur.Çanaqqala zəfərindən 99 il ötür. Mustafa Kamal Atatürk əsgərlərinə demişdi: "Mən sizə təcavüz əmrini vermirəm, ölməyi əmr edirəm" /Uğur //Xalq cəbhəsi.- 2014.- 18 mart.- S.14.

www.anl.az

www.az.wikipedia.org

www.ataturk.net

Novruz Bayramı



Novruz bayramı baharın gəlişi şərəfinə qeyd edilir və yeni ilin qarşılanmasını bildirir. Baharın ilk günü təqvimdə Günəşin illik dövr etməsinin başa çatdığını göstərir.

Novruz bayramının tarixi kökləri çox qədim dövrlərə - Zərdüşt peyğəmbərin zəmanəsinə aiddir. Bu isə təqribən 3700-5000 il deməkdir.

Ən qədim yazılı abidələrdə göstərilir ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildə qeyd edilmişdir.

Novruz ruhun təmizlənməsi rəmzidir. Novruzdan əvvəlki axır çərşənbə ərəfəsində tonqallar yandırılır və yaşından, cinsindən asılı olmayaraq, hər kəs bu bərəkətli odun üstündən yeddi dəfə tullanmalıdır. Eyni bir tonqalın üstündən yeddi dəfə və ya yeddi tonqalın hərəsinin üstündən bir dəfə tullanmaq lazımdır. Bu ritualı yerinə yetirərkən "Mənim sarılığım sənə, sənin qızartın mənə keçsin" demək lazımdır. Novruz tonqalının üstünə heç vaxt su tökmürlər. Tonqal özü sönəndən sonra oğlanlar və qızlar onun külünü yığıb evdən uzağa aparırlar. Bu o deməkdir ki, bütün pisliklər həmin külə qarışaraq gedir.

Su ilə təmizlənmə, suyun təmizləyici qüvvəyə malik olması barədə təsəvvürlərlə bağlıdır. Novruz günlərində arx üstündən tullanmaq ötən ildə edilmiş günahları yumaq deməkdir. Belə bir adət də var: ilin son gecəsində adamlar bir-birinin üstünə su çiləyirlər. Xalq inamına görə, axır çərşənbə gecəsi çaylar və arxlar dayanır, hamı və hər şey, hətta ağaclar da yerə əyilərək suya təzim edirlər. Yeni il axşamında kim bu sudan içərsə, o, xəstələnməz.

Qədimdən yaranmış ənənələrə görə, həmin vaxtda Novruzun şərəfinə toplardan və tüfənglərdən atəş açırlar. Novruz süfrəsində adları "S" hərfi ilə başlayan yeddi xörək, habelə sumax, sirkə, süd, səməni, səbzi və sair olmalıdır. Süfrəyə güzgü və şamlar, güzgünün qabağına boyanmış yumurtalar qoyulur. Bütün bunların hər birinin rəmzi mənası var: şam – insanları bədnəzərdən qoruyan od, işıq, güzgü isə aydınlıq deməkdir.

Ənənəyə görə, bayramın birinci günündə hər kəs öz evində olmalıdır. Xalq içində deyərlər: "Əgər Novruzun birinci günündə öz evində olmasan, yeddi il evinə həsrət qalacaqsan". Keçmişdə Novruz bayramı günündə evin bayır qapısı, bir qayda olaraq, bağlanmırdı. Novruzun birinci günü bütün gecə işıq yanır, çünki işığın sönməsi bədbəxtlik əlamətidir.

Ənənəyə görə, Novruzun birinci günü bahar, ikinci günü yay, üçüncü günü payız və dördüncü günü qış hesab edilir. Əgər birinci gün hava küləksiz və aydın olsa, deməli, il məhsuldar olacaqdır.

Novruz - Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə əks etdirən bayramıdır.

Ə d ə b i y y a t

Azərbaycanda Novruz.- Bakı: Çıraq, 2012.- 271 s.

Azərbaycanın xalq bayramı Novruz: bələdçi kitab /layih. rəhb. Ə.Qarayev; mətnin müəl. Ə.Vəliyev, V.Bəhmənli.- Bakı: Təhsil, 2011.-208 s.

Əhmədov, Ə. Novruz süfrəsi /Ə.Əhmədov.- Bakı: Azərnəşr, 2011.- 80 s.

Навруз как явление мировой культуры: [исследование] /ред.-сост. А.Раджабов, М.Карим-заде; отв. ред. А.Раджабов АН Респ. Таджикистан, Ин-т истории, археологии и этнографии им. Ахмада Дониша, Гос. учреждение "Нац. б-ка Таджикистана", Междунар. науч. центр муз. культуры народов Востока (Борбад) ; [предисл. М. Илолов].- Душанбе: [Контраст] 2012.- 335 с.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www. deyerler.org

Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü 1997



1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasında 1919-cu il martın 28-də müdafiə naziri Səməd bəy Mehmandarovun 157 saylı əmrinə əsasən kəşfiyyat və əks-kəşfiyyat xidməti təşkil olunmuşdu. Bu təşkilatın vəzifəsi terrorizmə, casusluğa, təxribatlara qarşı mübarizə aparmaq idi. Lakin cümhuriyyətinin süqutu və 1920-ci ildə sovet ordusu tərəfindən Azərbaycanın işğalı nəticəsində təşkilatın üzvləri repressiyalara məruz qalmış, M.Şeyxzamanlı başda olmaqla əksər rəhbər heyət güllələnmişdi.

Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanmış, bir müddət Daxili İşlər Xalq Komissarlığının ("NKVD") tərkibində fəaliyyət göstərmiş, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunmuşdur.

50-ci illərin sonlarından etibarən respublika təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli işlər görüldü. Bu proses bilavasitə ömrünün böyük bir hissəsini təhlükəsizlik orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1964-ci ildən sonrakı dövrdə orqana milli kadrların cəlb olunması, onların yetişdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. 1967-ci ilədək respublikanın təhlükəsizlik orqanlarına qeyri-azərbaycanlılar rəhbərlik ediblər. Həmin il general Heydər Əliyev Azərbaycan DTK-nın sədri təyin olunmuşdur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranıb. Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran vəzifələr Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdir.

"Azərbaycan Respublikası Milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il 23 mart tarixli Fərmanı ilə 28 mart - Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü elan olunmuşdur.

Ədəbiyyat

Azərbaycanın milli təhlükəsizlik orqanlarının şəxsi heyəti peşə bayramını qeyd etmişdir //Azərbaycan.- 2011.- 29 mart. - S. 2.

Milli Təhlükəsizlik orqanlarının qəhrəmanları /baş məsl. E.Mahmudov; məsl.F.Vahabov; red. A.Babayev; tərt.: X.Tağıyeva, N.Allahverdiyev.- Bakı: MTN-nin İctimai Əlaqələr Mərkəzi: İndiqo, 2008.- 324 s.

Milli təhlükəsizliyin keşiyində //Azərbaycan.- 2012.-28 mart.- S.5.

Zülfüqaroğlu, Ə.Milli təhlükəsizlik orqanlarının yaranmasından 93 il ötür. Bu münasibətlə bayram tədbiri keçirilib /Ə.Zülfüqaroğlu //Həftə içi.- 2012.- 29 mart.- S.2.

İnternetdə

www.anl.az

www.mns.gov.az

www. ebooks.preslib.az

MART

31

Tarixdə bu gün

Azərbaycanlıların Soyqırımı Günü 1918



Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuş, "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlanmışdı. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etmişdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, yerlə yeksan edilmiş, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi.

Birinci Dünya müharibəsi, eləcə də Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olmuşdular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdi. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etmişdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların depor-

tasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olmuşdular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başlamışdılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənmişdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilmişdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulmuşlar. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir.

1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşaqların öldürülməsi ilə nəticələnmişdir.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirmiş, müsəlman ziyarətgahlarını yandırmış, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmişdir. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binası yandırılmışdır.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti, təkcə Bakı şəhəri ilə məhdudlaşmamışdır. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetirmişlər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olmuşdur. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırmış, on minlərlə insanı vəhşicəsinə qətlə yetirmişlər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim etmiş, 1919-cu ildə Azərbaycan Parlamenti 31 mart tarixinin - azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılmış, kitablar dərc olunmuşdur. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır. Həmin gündən başlayaraq 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Ə d ə b i y y a t

Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi /[müəl. İ.Hüseynli və b.]; ideya rəhbəri R.Mehdiyev; red. Ə.Həsənov; burax. məs. B.Sadıqov.- Bakı: [s.n.], 2012.- C.I.- 444 s.; C.II- 422 s.

İsgəndərov, A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı: 1918-1920 /A.İsgəndərov; elmi red.: Y.Mahmudov, F.İbrahimli; xüsusi red. Ş.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 396 s.

Quliyev, E. Azərbaycan və Anadolu türklərinə qarşı soyqırım: tarixi həqiqətlər: [monoqrafiya] /E.Quliyev, A.Quliyeva, D.Quliyev.- Bakı: Təknur, 2012.- 575 s.

Məmmədov, S. Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım /S.Məmmədov; red. E.Şükürlü; Azərb. Resp. Təhsil Nazirliyi, BSU; Azərbaycanşünaslıq Tədris-Mədəniyyət Mərkəzi Məmmədov.- Bakı: Kitab aləmi, 2010.- 15 s.

www. azerbaycanli.org

1 aprel
Gün çıxır 07:24
Gün batır 20:05

30 aprel
Gün çıxır 06:41
Gün batır 20:35

APREL


21 mart-
20 aprel


Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

Ç.	1
C.A.	**2**
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	7
Ç.	8
C.A.	9
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	**14**
Ç.	15
C.A.	16
C.	17
Ş.	18
B.	19
B.E.	20
Ç.A.	**21**
Ç.	22
C.A.	23
C.	24
Ş.	25
B.	26
B.E.	27
Ç.A.	**28**
C.	29
C.	30

- *Ümumdünya Gülüş Günü (01.04.1564)*
- ***Kəlbəcər rayonunun işğalı günü (02.04.1993)***
- *Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)*
- *Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)*
- *Ümumdünya Hemofiliya Günü (17.04.1964)*
- *Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)*
- *Ümumdünya Yer Günü (22.04.1970)*
- *Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)*

130 il Üzeyir Hacıbəyli 1885-1948




Azərbaycan Respublikasının
Dövlət Himni
Musiqisi: Üzeyir Hacıbəyli
Sözləri: Əhməd Cavad

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadirik!
Üç rəngli bayrağınla məs'ud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət!
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır

Üzeyir Hacıbəylinin ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycan Respublikasının himnini yaratmasıdır.

1920-ci il yanvar ayının 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi.

1992-ci il may ayının 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Dövlət himni kimi təsdiq edildi.

Bu gün Azərbaycan bayrağı məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, səhərlərimiz, həmçinin bütün tədbirlərimiz bu himnin sədaları ilə başlayır.

APREL 2015



Milli ədəbiyyat

Əməkdar jurnalist, publisist, nasir Şərifov Azad Ağakərim oğlunun (07.04.1930-24.12.2009) anadan olmasının 85 illiyi

Şair, ədəbiyyatşünas, tərcüməçi İsmayılzadə Cəfər Balaəmi oğlunun (Cəfər Rəmzi) (09.04.1905-11.09.1996) anadan olmasının 110 illiyi

Əməkdar mədəniyyət işçisi, yazıçı Hasilova Xalidə Məmməd qızının (19.04.1920-05.12.1996) anadan olmasının 95 illiyi 99

Əməkdar incəsənət xadimi, yazıçı Əlibəyli Xanımana Sabir qızının (20.04.1920-07.05.2007) anadan olmasının 95 illiyi 100



Folklor

Folklorşünas, tənqidçi, publisist Quliyev Çərkəz Əli oğlunun (22.04.1940-03.06.1994) anadan olmasının 75 illiyi



Dünya ədəbiyyatı

Danimarka yazıçısı Andersen Hans Kristianın (02.04.1805-04.08.1875) anadan olmasının 210 illiyi 101



Musiqi.Opera.Balet

Xalq artisti Məmmədov Hacı Məmməd oğlunun (28.04.1920-02.08.1981) anadan olmasının 95 illiyi 102

Bəstəkar, dirijor və pedaqoq Məmmədov Məmməd Qəzənfər oğlunun (28.04.1920-28.01.1987) anadan olmasının 95 illiyi



Teatr.Kino

Xalq artisti Maniyev Muxtar Qəmbər oğlunun (04.04.1935) anadan olmasının 80 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Akademik Dadaşov Sadıq Ələkbər oğlunun (15.04.1905-24.12.1946) anadan olmasının 110 illiyi 103

Akademik, SSRİ Xalq memarı Hüseynov Mikayıl Ələsgər oğlunun (19.04.1905-07.10.1992) anadan olmasının 110 illiyi 104



Siyasət. Hərbi iş

İctimai xadim, dramaturq, nasir, publisist, Nərimanov Nəriman Kərbəlayı Nəcəf oğlunun (14.04.1870-09.03.1925) anadan olmasının 145 illiyi 105-106

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi xadimlərindən biri, general-mayor Vəzirov Firidun bəy Cəlal bəy oğlunun (19.04.1850-30.06.1925) anadan olmasının 165 illiyi

Rusiya imperator ordusunda artilleriya generalı, Azərbaycan Demokratik Respublikasının Hərbi nazirinin müavini, Sovet hərb xadimi Şıxlinski Əli ağa İsmayıl ağa oğlunun (23.04.1865-18.08.1943) anadan olmasının 150 illiyi 107



İqtisadiyyat

Eroziya və torpaqşünaslıq sahəsində alim, kənd təsərrüfatı elmləri doktoru, professor Mustafayev Xəlil Məmməd oğlunun (06.04.1930-1997) anadan olmasının 85 illiyi



Mədəniyyət.Maarif.Elm

Ədəbiyyatşünas, folklorçu, filologiya elmləri doktoru, professor Hacıyev Asif Abbas oğlunun (03.04.1960) anadan olmasının 55 illiyi

Filologiya elmləri doktoru, ədəbiyyatşünas Abdullazadə Arif Əbdürrəhman oğlunun (05.04.1940-31.05.2002) anadan olmasının 75 illiyi

Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Həsənov Kərim Hüseyn oğlunun (10.04.1935-26.04.1996) anadan olmasının 80 illiyi

Filologiya elmləri doktoru, professor Rəfili Mikayıl Həsən oğlunun (25.04.1905-25.04.1958) anadan olmasının 110 illiyi 108

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Abdullayev Bəhlul Ağabala oğlunun (Bəhlul Abdulla) (27.04.1940) anadan olmasının 75 illiyi 109



Texnika.Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Kərimov Sabit Qəhrəman oğlunun (10.04.1940) anadan olmasının 75 illiyi 110

Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Abdullayev İsa Mədəd oğlunun (12.04.1945-15.07.2008) anadan olmasının 70 illiyi 111



Riyaziyyat.Fizika.Astronomiya

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Mir-Qasımov Rüfət Mir-Əsədulla oğlunun (17.04.1940) anadan olmasının 75 illiyi



Kimya. Biologiya.Tibb

Tibb elmləri doktoru, professor İbrahimov Elman İbrahim oğlunun (04.04.1930-11.09.2003) anadan olmasının 85 illiyi
İctimai xadim, tibb elmləri doktoru, professor Əliyev Məmmədbağır Cavad oğlunun (08.04.1955) anadan olmasının 60 illiyi
Professor, oftalmoloq Adıgözəlova-Polçayeva Qəmər Əbdülrəhim qızının (12.04.1915-1992) anadan olmasının 100 illiyi 112
Əməkdar elm xadimi, professor, görkəmli həkim-pediatr Qarayev Əbülfəz Fərəc oğlunun (20.04.1885-24.10.1952) anadan olmasının 130 illiyi 113



Tarixdə bu gün

Ümumdünya Gülüş Günü (01.04.1564) 114
Kəlbəcər rayonunun işğalı günü (02.04. 1993) 115
Ümumdünya Sağlamlıq Günü (07.04.1950)
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)
Ümumdünya Hemofiliya Günü (17.04.1964)
Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983) 116
Ümumdünya Yer Günü (22.04.1970) 116
Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətinin Qapalı səhmdar cəmiyyətə cevrilməsinin 15 illiyi (23.04.2005)
Qobustan rayonunun yaranmasının (24.04.1990) 25 illiyi
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996) 117
Sovet Rusiyasının XI Qızıl Ordusu Azərbaycanı işğal edərək Milli Hökuməti devirmiş və Azərbaycanda Sovet Hakimiyyətini elan etmişdir (27-28.04.1920) 118
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.2003)
Beynəlxalq Rəqs Günü (29.04.1982)

95 illiyi

Xalidə Hasilova 1920-1996

Yazıçı



Ə d ə b i y y a t

Ana fəryadı /X.Hasilova.- Bakl: Yazıçı, 1989.- 280 s.

Xatirənin sorağında /X.Hasilova.- Bakı: Yazıçı, 1983.- 240 s.

Xoruzlu dəsmal: hekayələr /X.Hasilova.- Bakı: Azərbaycan, 1994.- 95 s.

Ləpəli sahilin xatirələri /X.Hasilova.- Bakı: Gənclik, 1983.- 300 s.

Məmmədbəyli, S. Sizi kimlərdən soruşum...: Xalidə Hasilovanın yaradıcılığı /S.Məmmədbəyli; elmi red. Q.Namazov.- Bakı: Azərnəşr, 2003.- 169 s.

Xəlilzadə, F. Unudulmaz yazıçı /F.Xəlilzadə //Azərbaycan.- 2010.- 17 aprel.- S.7.

İsmayılov, H. Xalidə Hasilova //İsmayılov H. Zaqatala.- Bakı, 2009.- Kitab XII, hissə I.- S.15.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.beyaz.az

www.gencekitab.az

www.elibrary.azlib.net

Xalidə Məmməd qızı Hasilova 1920-ci il aprel ayının 19-da Zaqatala rayonunda anadan olmuşdur.

Pedaqoji texnikumu bitirdikdən sonra Zaqatala rayonundakı Qımır kəndində müəllimlik etmişdir.

1939-1941-ci illərdə Xalidə Hasilova Leninqrad Universitetinin filologiya fakültəsində təhsil almış, Bakıya qayıtdıqdan sonra təhsilini ADU-nin filologiya fakultəsində davam etdirmişdir.

1943-1944-cü illərdə Zaqatala şəhər orta məktəbində müəllim, 1944-1945-ci illərdə Moskvada xarici dillər kursunda türk şöbəsinin dinləyicisi, 1948-1952-ci illərdə "Uşaqgəncnəşr"in redaktoru, 1952-1953-cü illərdə "Azərbaycan qadını" jurnalı redaksiyasında ədəbi işçi olmuş, 1966-1972-ci illərdə "Göyərçin" jurnalının baş redaktoru, 1972-ci ildən isə "Azərbaycan qadını" jurnalının baş redaktoru vəzifəsində işləmişdir.

1952-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

X.Hasilova uzun müddət bədii yaradıcılıqla məşğul olmuş, həm uşaqlar, həm də böyüklər üçün bir sıra gözəl əsərlər yazmışdır. Yazıçı, həmçinin, tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, türk və rus dillərindən V.Q.Korelenko, N.Tixonov, İ.P.Soto, Ə.Nesin və başqalarından tərcümələr etmişdir.

Sovet Qadınları Komitəsinin Rəyasət Heyətinin, Azərbaycan KP MK yanında Qadınlar Şurası Rəyasət Heyətinin, Azərbaycan Yazıçılar İttifaqı plenumunun üzvü olmuşdur. Bakı şəhər Sovetinin deputatı, Qadınların Əməyi və Analığı Mühafizə Komissiyasının sədri seçilmişdir.

Xarici ölkələrdə dostluq cəmiyyəti nümayəndə heyətinin tərkibində Macarıstan, AFR, İsveçrə, İran və Yaponiya ölkələrində səfərdə olmuşdur.

Yazıçının "Həsrət", "Həyat özü bir nəğmədir", "Bir sahilin adamları", "Hamı doğmadır mənə", "Nəğməli könül" pyesləri müxtəlif teatrların səhnəsində tamaşaya qoyulmuş, əsərləri rus və türk dillərinə tərcümə olunmuşdur.

Xalidə Hasilova bir sıra nəzəri məqalələrin də müəllifidir ki, onların əksəriyyəti uşaq ədəbiyyatı problemlərilə əlaqədardır. Bunlardan "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında" "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və s. göstərmək olar.

O, 1974-cü ildə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adını almış, "Şərəf nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenləri ilə və bir sıra medallarla təltif edilmişdir.

Görkəmli yazıçısı Xalidə Hasilova 1996-cı il dekabr ayının 5-də Bakıda vəfat etmişdir.

95 illiyi

Xanımana Əlibəyli 1920-2007

Şairə



Xanımana Sabir qızı Əlibəyli 1920-ci il aprel ayının 20-də Bakının Keşlə kəndində anadan olmuşdur.

O, hələ yeniyetmə vaxtlarından ədəbiyyata maraq göstərir, şeirlər yazır, Azərbaycan və rus dillərində uşaq ədəbiyyatı nümunələrini oxuyurdu.

Xanımana Əlibəyli Bakıda Tibb İnstitutuna daxil olmuş, 1942-ci ildə institutu bitirərək təyinatla Masallıya göndərilmiş, orada Qızılavar kənd tibb məntəqəsində fəaliyyətə başlamışdır. Müharibə illərində Xanımana Əlibəyli hərbi hospitalda çalışmış, professor Ginzburqun assistenti kimi Azərbaycanın müxtəlif bölgələrindən olan yaralı əsgərləri müalicə etmişdir. Müharibədən sonra Bibiheybətdəki 13 saylı məsləhətxanada uşaq həkimi kimi çalışmışdır.

O, ikinci ali təhsil almaq üçün ADU-nun filologiya fakültəsinə qəbul olunmuş və fakültəni müvəffəqiyyətlə bitirmişdir. O, uzun illər Bakının orta məktəblərində dərs demiş, məktəb direktoru, rayon xalq maarif şöbəsinin müdiri vəzifələrində çalışmış, bu sahədə səmərəli fəaliyyətinə görə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdü.

O, ixtisasca həkim olsa da, uşaqlara olan sevgisi onu şair etmişdi. X.Əlibəylinin ilk şeirləri 1938-ci ildən dövri mətbuatda dərc olunmağa başlamış, "Balaca həkim" adlı birinci kitabı isə 1955-ci ildə "Uşaqgəncnəşr" tərəfindən 30 min nüsxə tirajla çap olunmuşdur. 1953-cü ildə o, SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir. X.Əlibəyli bütövlükdə həyatını uşaq ədəbiyyatına həsr etmişdir. Onun indiyə qədər 30-dan çox kitabı, 10-a yaxın uşaq pyesi nəşr edilib. X.Əlibəyli müxtəlif illərdə "Gözəllər gözəli", "Nişanlı quş", "Aycan", "Dovşanın ad günü", "Cunquş", "Kənd həkimi", "Durnalar lələk salır", "Meyvələrin şahı" və s. dram əsərləri yazmış, onların bir çoxu ölkəmizin gənclər və kukla teatrlarında göstərilmiş, müəllifinə Azərbaycan uşaq dramaturgiyasının görkəmli nümayəndəsi şərəfini gətirmişdir. Onun "Cunquş" adlı əsəri vaxtilə respublikanın Dövlət mükafatına layiq görülmüşdü. Kukla Teatrı 1980-ci ildə Hindistanda qastrol səfərində olarkən, Dehli və Bombey şəhərlərində X.Əlibəylinin "Cunquş" pyesi əsasında hazırlanmış tamaşa böyük rəğbətlə qarşılanmışdı. O, uşaqlar üçün yüzlərlə şeirin, onlarla poema və səhnə əsərinin, 30-dan artıq kitabın müəllifidir.

X.Əlibəylinin sənəti həmişə diqqət mərkəzində olmuş, yüksək qiymətləndirilmişdir. "Aycan" pyesinin uğurlu tamaşası münasibətilə şairə tamaşanın yaradıcı heyəti ilə birlikdə Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülmüşdür. 1991-ci ildə ona "Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir. 1998-ci ildə o, "İlin qadını" adına layiq görülmüşdür. 1999-cu ildə ümummilli lider Heydər Əliyev X.Əlibəyliyə Prezident təqaüdü təyin etmiş, bu münasibətlə xatirə olaraq ona gözəl bir büllur şamdan da bağışlamışdı.

Şairənin anadan olmasının 90 illiyi ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən onun əsərlərinin ikicildliyi nəşr olunmuşdur.

Xanımana Əlibəyli 2007-ci il may ayının 7-də vəfat etmiş, Bakıda dəfn edilmişdir.

Ədəbiyyat

Əsərləri: 2 cilddə /X.Əlibəyli; tərt.ed. G.Abdullabəyli.- Bakı: Avrasiya Press, 2008.- C.I.- 240 s.; C.II.- 240 s.

Mərcanqulu əfsanəsi: [məktəb yaşına çatmamış uşaqlar üçün] /X.Əlibəyli; red. Məmməd Namaz; [rəssam. Z.Abbasov].- Bakı: Gənclik, 1990.- 40 s.

Axundova, Ş. Axıram ürəklərə [Not] /Ş.Axundova; söz. X.Əlibəyli. Bakı, 2006.- 7 s.

Mən öləndə deməyin uşaqlara (Şairə Xanımana Əlibəyli ilə söhbət //İsabəyli Q. Bu şəhər mənə göz dağı olub.- Bakı, 2011.- S.21-24.

Uşaq ədəbiyyatının unudulmaz imzası-Xanımana Əlibəyli: Hərbi hospitalın həkimi... //Azadlıq.- 2012.- 18 dekabr.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

210 illiyi

Andersen Hans Kristian 1805-1875

Yazıçı



Ə d ə b i y y a t

Düyməcik: nağıl /H.K.Andersen; rəssamı A.Ələkbərov.- Bakı: Çaşıoğlu, 2006.-16 s.

Sehrli nağıllar /H.K.Andersen.- [Bakı]: [Qanun]: [Əli və Nino], [2012].-48 s.

Nağıllar /H.K.Andersen; tərc. ed. M.Rzaquluzadə, C.Məcnunbəyov, S.Hüseynova, Ə.Haqverdiyev.-Bakı: Qanun, Əli və Nino.- 2013.- 295 s.

Rəfiq, G.Hans Xristian Andersen: Məşhur nağılbaz uşaqları heç sevmirdi /G.Rəfiq //Bizim yol.- 2010.- 9 noyabr.- S.13.

Ерхов, Б. Андерсен /Б.А.Ерхов; [ред. Е.В.Смирнова].-Москва: Молодая гвардия, 2013.- 255 с.

İ n t e r n e t d ə

www.anl.az

www.anl.az

www. az.wikipedia.org

Hans Kristian Andersen 1805-ci il aprel ayının 2-də Danimarkanın Fyun adasının Odense şəhərində anadan olmuşdur.

Kasıb bir ailədə doğulmuş Hans kiçik yaşlarından pyeslər yazmışdır. İlk şeirləri 1826-1827-ci illərdə nəşr olunmuşdur. Əsl ədəbi fəaliyyətə "Holmen kanalından Amager adasının Şərq burnuna qədər piyada səyahət" (1829) əsəri ilə başlamışdır. "İmprovizator" (1835), "Yalnız skripka çalan" (1837) romanlarında xalq içərisindən çıxmış istedadlı adamların acınacaqlı taleyi təsvir edilmişdir. "Mulat" (1840) pyesi irqi bərabərsizlik əleyhinə yönəldilmişdir. Lakin Andersen dünya ədəbiyyatında uşaqlar üçün yazdığı nağılları ilə şöhrət qazanmışdır.

XIX əsrin 30-cu illərin ikinci yarısından başlayaraq "Uşaq nağılları" (1835-1837), "Yeni nağıllar" (1845-1848), "Rəvayətlər" (1852-1853) kitablarını nəşr etdirmişdir.

Andersenin demokratik, humanist dünyagörüşü nağıllarında daha dolğun əks olunmuşdur. Onun "Uşaqlara söylənilmiş nağıllar" kitabını oxuyan dünyanın görkəmli fizik alimi H.K.Ersted heyranlıqla qəti sözünü beləcə ifadə etmişdi: "İmprovizator" sizi məşhurlaşdırdı, nağıllar isə adınızı əbədiləşdirəcəkdir!".

Andersen "Çirkin ördək balası"nda əsl istedadın bütün maneələri dəf edərək, özünə yol açacağı fikrini irəli sürmüş, "Bülbül" nağılında isə həqiqi sənəti süni gözəlliyə qarşı qoymuşdur. "Dəyanətli qalay əsgərcik", "Qar kraliça" və s. nağıllarda sadə, yoxsul adamların mənəvi zənginliyindən danışılır. "Noxud üzərində yatan şahzadə qız", "Donuzotaran" nağıllarında aristokratiya nümayəndələrinin xudpəsəndliyi, zövqsüzlüyü və şıltaqlığı təsvir olunur.

Dünyanın bir sıra ölkələrinə, o cümlədən Fransa, Almaniya, Çexiya, Polşa, İtaliya, İsveç, İsveçrə, Afrika, Serbiya, Rumıniya, Macarıstan, Avstriyaya olan səfərləri A.K.Andersenin dünyabaxışına, mənəvi zənginliyinə yeni dəyərlər gətirmişdi. Hans Kristian uşaq psixologiyasını dərindən duymuş və incəlikləri ilə əks etdirmişdir. Onun nağılları böyüklər üçün də ibrətamizdir.

Andersen folklordan yaradıcılıqla istifadə etmişdir. Dinamik süjet, danışıq dilinin sadəliyi və canlılığı, dərin emosionallıq, incə yumor nağılların xarakterik xüsusiyyətidir.

Yazıçının əsərləri bir çox dilə, o cümlədən Azərbaycan dilinə tərcümə olunmuşdur.

Danimarkanın nağıl şahzadəsi Hans Kristian Andersen 1875-ci il avqustun 4-də Kopenhagendə vəfat etmişdir.

1975-ci ildə Ümumdünya Sülh Şurasının qərarı ilə anadan olmasının 170 və vəfatının 100 illik yubileyi keçirilmişdir.

95 illiyi

Hacı Məmmədov 1920-1981

Tarzən



Hacı Məmməd oğlu Məmmədov 1920-ci il aprel ayının 28-də Şamaxı şəhərində anadan olmuşdur. 1927-ci ildə ibtidai təhsilə başlamış, 1928-ci ildən təhsilini Bakıda davam etdirmiş, eyni zamanda tar ifaçılığını öyrənmişdir. 1937-ci ildə orta məktəbi başa vurmuş, həmin ildən Dövlət Filarmoniyasında çıxış etməyə başlamışdır. 1938-ci ildə Moskvada keçirilən 1-ci ədəbiyyat və incəsənət ongünlüyündə iştirak etmişdir. 1943-cü ildə Tibb Universitetinə daxil olmuşdur.

1948-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirmiş, müxtəlif xəstəxanalarda həkim-cərrah, baş həkim müavini, baş həkim işləmişdir. Uzun müddət Naxçıvan şəhər xəstəxanasında, Sumqayıtda və Bakıda insanların sağlamlığının keşiyində dayanmışdır.

Hacı Məmmədov hələ on yaşında ikən onu Azərbaycan Dövlət Şərq Orkestrinə qəbul ediblər. Kollektivə hamıdan sonra gələn bu oğlan uşağının qeyri-adi istedad sahibi olması Üzeyir Hacıbəylinin də diqqətini çəkmiş, o, bu çəlimsiz uşağı yoldaşlarına göstərərək söyləmişdi: "Baxın, gördüyünüz sarıbəniz oğlan gec-tez sizləri tamam ötüb keçərək birinci pilləyə çıxacaq".

Tarda çalmağı müstəqil öyrənmişdi. 1930-1948-ci illərdə Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində işləmiş, 1949-cu ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur.

H.Məmmədov klassik rus və Qərb bəstəkarlarının əsərlərinin tarda ilk ifaçılarından idi.

Muğamların və bəstəkar əsərlərinin orijinal və mahir ifaçısı idi. Hacı Məmmədovun sənətkarlığının əsas xüsusiyyəti emosionallıq və virtuozluq kimi keyfiyyətlərin qovuşmasından ibarət idi. Onun ifasında "Orta Mahur", "Segah", "Çahargah", "Zabul", "Şur" muğamları, xalq musiqisi və bəstəkar əsərləri AzTR Fondunda qorunub saxlanılır.

Hacı Məmmədov Bülbül, Seyid Şuşinski, Zülfi Adıgözəlov kimi xanəndələri müşayiət etmiş, bir çox xarici ölkələrdə - Belçika, Polşa, Macarıstan, İran, Suriya, Əlcəzair və başqa ölkələrdə qastrol səfərlərində olmuşdur.

Hacı Məmmədov 1957-ci ildə "Əməkdar artist", 1963-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Şərəf" nişanı ordeni ilə təltif edilmişdir.

1981-ci ildə vəfat etmiş, Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Ədəbiyyat

Məmmədov Hacı Məmməd oğlu //Azərbaycan sovet ensiklopediyası:on cilddə.- Bakı, 1982.- C.VI.- S.504.

Nizamiqızı, H. Bir səsin min sehrində və ya ruha yatan musiqinin ahəngində sənət söhbəti /H.Nizamiqızı //Mədəniyyət.- 2012.- 25 may.- S.12.

"Oxu tar, səni kim unudar?..": Unudulmaz tarzən Hacı Məmmədov //Azadlıq.- 2013.- 18 aprel.- S.14.

Savalan, F. Xatirələr işığında: Hacı Məmmədov //Mədəniyyət.- 2012.- 27 aprel.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.youtube.com

www.mugamradio.az

110 illiyi

Sadıq Dadaşov 1905-1946

Akademik



Sadiq Ələkbər oğlu Dadaşov 1905-ci il aprel ayının 15-də Bakıda anadan olmuşdur.

1929-cu ildə Bakı Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir.

O, 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarlığı Soveti yanında Memarlıq İşləri İdarəsinin ilk rəisi olmuşdur.

Sadiq Dadaşov 1941-ci ildə SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, 1945-ci ildə yeni yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyası) akademiki seçilmişdir.

O, Azərbaycan memarlığı tarixinin öyrənilməsinin əsasını qoymuş, memarlıq abidələrinin bərpası işinin elmi əsaslarını yaratmış və ilk əməli nümunələrini həyata keçirmişdir. 1934-1940 və 1944-1946-cı illərdə Azərbaycanın bir sıra rayonlarına elmi səfərlər təşkil etmişdir.

Sadiq Dadaşov memarlıq və nəzəri əsərlərini görkəmli Azərbaycan memarı və memarlıq tarixçisi Mikayıl Hüseynovla birgə yaratmışdır. Həyatdan vaxtsız getmiş Sadıq Dadaşov eyni zamanda bacarıqlı təşkilatçı idi. Respublikada Memarlar İttifaqı bilavasitə onun təşəbbüsü ilə yaradılmışdı. Sadıq Dadaşovun layihəsi ilə Bakıda və respublikanın digər şəhərlərində tikilmiş çoxlu yaşayış, ictimai və mədəni-məişət binaları Azərbaycan memarlığının inkişafında böyük rol oynamışdır.

Sadıq Dadaşov 1929-1933-cü illərdə 23 tikilinin layihəsini vermişdir. Bunlara Bakıdakı fabrik mətbəx (Bayılda), Azərbaycan Sənaye İnstitutunun yeni binası (indiki Azərbaycan Dövlət Neft Akademiyası; hər ikisi 1932), İncəsənət işçiləri evi, bir sıra yaşayış binaları kompleksi, Qazaxdakı Pedaqoji Texnikomun binası (hamısı 1933) aiddir.

Onun əsas işləri: Azərbaycan Texniki Universitetinin binası (1931-1933), "Nizami" kinoteatrı (1937), Bakı Musiqi Akademiyasının binası (1938), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binası (1940), indiki Nazirlər Kabinetinin binası və başqalarıdır.

Sadıq Dadaşov Nizami Gəncəvinin 1946-cı ildə Gəncədə, 1949-cu ildə Bakıda qoyulmuş abidələrinin layihə müəllifidir.

Xidmətlərinə görə 1940-cı ildə ona "Azərbaycanın əməkdar incəsənət xadimi" fəxri adı verilmiş, 1941-ci ildə SSRİ Dövlət mükafati laureatı adına layiq görülmüş, "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif edilmişdir.

Professor Sadıq Dadaşov 1946-cı il dekabr ayının 24-də Moskvada vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Ədəbiyyat

Dadaşov Sadıq Ələkbər oğlu //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1979.- C.III.- S.312-314.

Dadaşov Sadıq Ələkbər oğlu //Fəxri Xiyaban; Heydər Əliyev Fondu.- Bakı, 2007.- S.40.

Dadaşov Sadıq Ələkbər oğlu //Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında: məlumat kitabı.- Bakı, 2005.- H.I.- S.123.

Əliyev, N. "Sadıq Dadaşov və Mikayıl Hüseynov".- Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2013.- 40 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.uaa.az

110 illiyi

Mikayıl Hüseynov 1905-1992

Akademik



Ə d ə b i y y a t

Əliyev, N. "Sadıq Dadaşov və Mikayıl Hüseynov".- Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2013.- 40 s.

İncəsənət və mədəniyyətin problemləri: Akademik M.Hüseynovun anadan olmasının 100 illiyinə həsr olunmuş məqalələr toplusu /red. hey. R.Əfəndiyev, Ş.Fətullayev, C.Qiyaslı, Ə.Salamzadə; AMEA, Memarlıq və İncəsənət İnstitutu.- Bakı: [Səda], 2005.- bur. XIV.- 148 s.

M.Ə.Hüseynov: biblioqrafiya /tərt. ed. N.Bağırbəyova; red. M.Həsənova, N.Teymurova; Azərb. SSR EA, Əsaslı kitabxana, Memarlıq və İncəsənət İn-tu.- Bakı: Elm, 1979.- 119 s.

Üseynov Mikayıl Ələsgər oğlu Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında: məlumat kitabı /AMEA; red. M.Kərimov; tərt. ed. A.Əsədova.- Bakı, 2005.- H.II.- S.217.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

www.uaa.az

www.memarliq.wordpress.com

www.uzeyirbook.musigi-dunya.az

Mikayıl Ələsgər oğlu Hüseynov 1905-ci il aprel ayının 19-da anadan olmuşdur. O, Azərbaycan Politexnik İnstitutunun inşaat mühəndisi fakültəsini bitirdikdən sonra həmin institutda işə başlamış, respublikada inşa edilən mədəni-məişət binalarının layihəsini çəkməklə məşğul olmuşdur.

Az vaxtda onun layihələri əsasında respublikamızın hər yerində - Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə... neçə-neçə mədəni-məişət binaları tikildi.

İlk memarlıq və nəzəri əsərlərini (1946-cı ilədək) Sadıq Dadaşovla birgə yaratmışdır.

M.Hüseynov doğma Azərbaycanı ürəkdən sevərdi. Memarlıq sənəti ruhuna, varlığına hopmuşdu. İşləmək onun üçün bütün ağrılarının məlhəmi idi. O, özünün düşündüyü kimi yaradıb yaşatmaq istəyirdi. Akademik Mikayıl Hüseynov XX əsrin müasir Azərbaycan memarına yol açdı.

Yaratdığı, lahiyələşdirdiyi möhtəşəm tikililər milli memarlıq üslubu ilə seçilirdi. Şərq və Qərb memarlıq məktəbinin sintezindan yararlanan Mikayıl Hüseynov əzəmətli yaşayış və ictimai binaların lahiyələrini hazırlayıb. Bakının yaraşığı olan "Alimlər evi", "Monolit", Bakı Musiqi Akademiyası, "Abşeron" və "Azərbaycan" mehmanxanaları Şərq memarlığından qidalanan təxəyyülünün məhsuludur. Onun memarlıq dühasının yadigarları olan və doğma Bakının gözəlliyinə xüsusi zinət verən, milli memarlıq inciləri sayılan neçə-neçə möhtəşəm binalar, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının binası Mikayıl Hüseynovun adını özündə yaşadır.

Ölkəmizdə ucaltdığı yüksəkmərtəbəli binalarla kifayətlənməyən memar Düşənbədə, Moskvada Şərq milli koloritli və ornametlərlə seçilən bənzərsiz işlər görüb. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Mikayıl Hüseynovun şah əsəri hesab edilir. "Nəriman Nərimanov", "Nizami", "Elmlər Akademiyası" metro stansiyalarının yaraşıqlı üslubları hal-hazırda öz əzəmətini saxlayır.

Görkəmli memar, alim, pedaqoq Mikayıl Hüseynovun Azərbaycan memarlığının inkişaf tapmasında böyük xidmətləri olub. O, memarlıq sahəsində elmlər doktoru və akademik səviyyəsinə ucalmış ən məşhur memarlarımızdan biri olub.

Azərbaycan EA təsis edildikdən sonra (1945) onun ilk həqiqi üzvlərindən olan M.Hüseynov yeni təşkil olunmuş Azərbaycan EA İncəsənət İnstitutunda direktor müavini işləmiş, 1948-ci ildən Memarlıq və İncəsənət İnstitutunun direktoru olmuşdur.

"Əməkdar incəsənət xadimi" (1940), Azərbaycan EA akademiki (1945), Memarlıq doktoru (1950), "SSRİ Xalq memarı" (1970), Azərbaycanın, keçmiş SSRİ-nin ən yüksək mükafatlarına, orden və medallarına, SSRİ (1941) və Azərbaycan (1967) Dövlət mükafatları laureatı adlarına layiq görülmüşdür. O, Böyük Britaniya, Asiya kral cəmiyyətinin həqiqi üzvü idi.

Mikayıl Hüseynov 1992-ci il oktyabr ayının 2-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Memarın şərəfinə Simurq cəmiyyəti tərəfindən Mikayıl Hüseynov mükafatı təsis olunmuşdur.

145 illiyi Nəriman Nərimanov 1870-1925

İctimai xadim



Nəriman Kərbalayı Nəcəf oğlu Nərimanov 1870-ci il aprel ayının 14-də Tiflis şəhərində anadan olmuşdur. Doğulduğu və gənclik illərini keçirdiyi Tiflis mühiti onun əqli və mənəvi inkişafında böyük rol oynamışdır. 1890-cı ildə Qori seminariyasını bitirmiş, elə həmin il Borçalı qəzasının Qızıl Hacılı kənd məktəbində pedaqoji fəaliyyətə başlamışdır. 1891-ci ildə Bakı şəhərinə köçmüşdür.

1894-cü ildə Azərbaycan ziyalılarının qabaqcıl dəstəsinin yaxından iştirakı ilə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoymuşdur.

1902-ci ildə Odessa Universitetinin tibb fakültəsinə daxil olmuş və burada inqilabı işlə məşğul olmuşdur. 1905-ci ildə inqilab günlərində Odessada ilk inqilabi sınaqdan keçmiş və həmin ildə "Hümmət" partiyasına üzv yazılmış, Rusiyanın sosial-demokrat partiyasının (RSDRP) proqramını türk dilinə çevirmişdir.

1908-ci ildə universiteti bitirərək Bakıya gəlmiş, şəhər xəstəxanasında işləməyə başlamışdır.

1909-cu ilin əvvəllərində geniş ictimai-siyasi və inqilabi fəaliyyətə başladığı üçün, elə həmin ilin fevralında çar hökuməti tərəfindən nəzarətə alınan N.Nərimanov Tiflisdə həbs olunmuş, 7 ay Metex qalasında saxlandıqdan sonra 2 il müddətinə Qafqazdan xaricə, Həştərxana sürgün edilmişdir.

Sürgün illərində qəzetlərdə çoxlu məqalələrlə çıxış etmiş, inqilabi və həkimlik fəaliyyətini davam etdirmişdir. 5 illik sürgün həyatını başa vurduqdan sonra, 1913-cü ildə Bakıya qayıtmış, dövri mətbuatda qiymətli məqalələr dərc etdirmişdi.

1917-ci ildə bolşevik "Hümmət" təşkilatının sədri, həmin təşkilatın eyniadlı qəzetinin redaktoru olmuş və bolşeviklərlə birlikdə Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda mübarizə aparmışdır.

1919-cu ildə Moskvaya çağırılmış, xalq komissarlığının xarici işlər bölməsində Yaxın Şərq məsələləri üzrə xalq komissarının müavini vəzifəsinə təyin edilmişdir.

1920-ci ildə Bakıya gələn Nərimanov əvvəlcə müvəqqəti Hərbi inqilab komitəsinin, sonra İnqilab Komitəsinin və Azərbaycan hökumətinin sədri olmuşdur.

Azərbaycanda yaradılan Sovet Respublikasının idarəetmə orqanlarına qiyabi olaraq seçilsə də, ona Bakıya qayıtmağa icazə verilmirdi. Yalnız repressiyaların birinci dalğası başa çatdıqdan sonra Bakıya gələn Nərimanov Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin bir çoxunun xaricə getməsinə imkan yaratmış və bununla da onları sovet repressiya maşınının ağzından xilas etmişdir. Lakin Lenin bütün səlahiyyətləri S.Kirov və S.Orconikidze kimi qatillərə vermişdi. Nərimanov "millətçilikdə" günahlandırılmış, ideyaları isə həqarətlə "nərimanovçuluq" adlandırılmışdır.

Rusiya ilə Türkiyə arasında dostluq əlaqələrinin qurulmasında onun müstəsna xidmətləri olmuşdur. Belə ki, Moskvadan İstanbula yollanan hər bir dövlət heyəti, səlahiyyətli şəxs Bakıda Nərimanov tərəfindən

təlimatlandırılırdı. Bakıda saxlanılan ingilis əsirlərinin Maltada saxlanılan türk əsirlərinə dəyişdirilməsi də onun səyləri nəticəsində baş tutmuşdur. Türkiyəyə və Atatürkə rəğbət bəsləyən Nərimanovun fəaliyyəti türk mətbuatında geniş işıqlandırılırdı. Türkiyə Böyük Millət Məclisinin qərarı ilə ona fəxri qılınc təqdim olunmuşdu.

1921-ci ildə Nərimanovun səyi ilə imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvana olan təzyiqlər aradan qaldırılmış və bunun qarantı kimi Türkiyə çıxış etmişdir.

1922-ci ildə SSRİ yarandıqdan sonra, Lenin və partiya qarşısında xidmətləri nəzərə alınaraq, Mərkəzi İcra Komitəsinin sədrlərindən biri təyin olunmuşdur.

1922-ci ildə o, sovet nümayəndə heyəti tərkibində Genuya konfransında iştirak etmiş, yenicə yaradılmış SSRİ dövlətini idarə edəcək qurumun – Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri seçilmişdir. Faktik olaraq milyonlarla insanların son ümid yeri o idi. Moskvada onun rəhbərliyi ilə "Yeni Şərq" jurnalı və Şərqşünaslıq Elmi Cəmiyyəti fəaliyyət göstərirdi. 1925-ci ildə məhz onun təklifi ilə Böyük Sovet Ensiklopediyasının yazılmasına başlanılmışdır. "Ucqarlarda inqi-labımızın tarixinə dair" iri məktub-məqaləsində Nərimanov sovet hakimiyyətinin törətdikləri vəhşilikləri cəsarətlə göstərmiş və yazmışdır: "Bu sənədin işıq üzü görməyə imkanı yoxdur, lakin vaxt gələcək ki, tarix müqəssirləri axtaracaqdır."

Azərbaycanın müsəlman şərqində nail olduğu bir çox ilklər, o cümlədən ilk konstitusiya onun adıyla bağlıdır. Nərimanov hakimiyyəti dövründə Azərbaycan xalqının adət və ənənələrinə dərin hörmət edilmiş, bütün dini və ənənəvi bayramlar rəsmi olaraq qeyri-iş günü hesab olunmuşdur. O, siyasətçidən əlavə bir maarifpərvər və dramaturq-yazıçı kimi Azərbaycan tarixində mühüm rol oynamış, ilk qiraətxananı açmışdır. Ədəbiyyatçı kimi milli romanımızın ("Bahadır və Sona") və ilk tarixi faciənin ("Nadir şah") banisidir.

N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmiş, (1899), Azərbaycan və rus dillərini öyrənənlər üçün dərsliklər hazırlamışdır.

Görkəmli ictimai-siyasi xadim Bakıda I Türkoloji qurultayın çağırılmasında da böyük rol oynamışdır.

N.Nərimanov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus orijinal fikirlərə malik bir sima idi. O, zəhmətsevər xalqın içərisindən çıxmış, zəhmətkeşlər adından çıxış etmiş, zəhmətkeşlərdən bəhs etmiş və ömrünün sonunadək onların azadlığı, xalq maarifi və mədəniyyətinin tərəqqisi naminə çalışmışdır.

1925-ci il mart ayının 19-da Moskva vaxtı ilə axşam saat 8-də SSRİ MİK-nin sədri N.Nərimanov müəmmalı şəkildə vəfat etdi və Qızıl meydanda, Kreml divarları yanında dəfn edildi. Onun tabutu üzərinə qoyulan əklildə "Şərq xalqlarının inqilabi rəhbərinə və imperializm zülmü altında olanların tam azadlığı uğrunda çarpışmış mübarizə" sözləri yazılmışdı.

N.Nərimanovun vəfatı ilə əlaqədar ölkənin bütün dövlət idarələrində iş dayandırıldı. Dəfn günü – martın 23-ü matəm elan edildi. Hökumət binalarında, xaricdəki diplomatik və ticarət nümayəndəliklərinin binalarında, hərbi və ticarət donanmasının gəmilərində dövlət bayraqları beş dəqiqəliyə endirildi.

Nəriman Nərimanovun xatirəsi əbədiləşdirilmiş, yaşadığı mənzildə 1977-ci il noyabr ayının 6-da, keçmiş Nikolayevski küç.17-də (indiki İstiqlaliyyət küç.35) yerləşən binanın 2-ci mərtəbəsində xatirə muzeyi açılmışdır. Azərbaycanda N.Nərimanovun adını daşıyan rayon, metro stansiyası, küçələr, abidələr, məktəblər vardır.

Ə d ə b i y y a t

Hacı Zeynalabdın Tağıyevin 50 illiyi: Məişətə və cəmaətə xidmətləri /N.Nərimanov; red. və ön sözün müəl. T.Əhmədov; AEA. Milli Münasibətlər İnstitutu.-Bakı: Önər, 1994.- 48 s.

Məktublar və Qarabağ məsələsinə dair sənədlər /N.Nərimanov; red. R.Mehdiyev; tərt. ed. T.Əhmədov.- Bakı: Nurlar, 2002.-104 s.

Seçilmiş əsərləri /N. Nərimanov; red. R.Mehdiyev; tərt. edən və ön sözün müəl. T.Əhmədov.- Bakı: Lider, 2004.- 496 s.

Seçilmiş əsərləri: dram əsərləri, roman, povest, hekayələr, məqalələr, fellyetonlar /N.Nərimanov; tərt. ed. T.Əhmədov.- Bakı: Azərnəşr, 1985.-386 s.

Əhmədov, T. Nəriman Nərimanovun yaradıcılıq yolu /T. Əhmədov; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu; elmi red. M. İbrahimov; rəyçi M. C. Cəfərov, F.Q.Köçərli.-Bakı: Nurlar, 2005.-384 s.

Teymuroğlu, Ə. Nəriman Nərimanov və türk xalqları /Ə.Teymuroğlu; AMEA Akad. Z.M.Bünyadov adına Şərşünaslıq İnstitutu.-Bakı: Nurlar, 2006.- 160 s.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

150 illiyi

Əli ağa Şıxlinski 1865-1943

Hərbi xadim



Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinski 1865-ci il aprel ayının 23-də Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasının Qazaxlı kəndində anadan olmuşdur. 1875-ci ildə Tiflisdəki ikiillik şəxsi gimnaziyada, 1876-cı ildə Tiflis hərbi gimnaziyasında, 1883-cü ildə Peterburqdakı Mixaylov Artilleriya Məktəbində təhsil almışdır. 1886-cı ildə Peterburq artilleriya məktəbini əla qiymətlərlə bitirmiş, Qafqazdakı 39-cu Topçu briqadasına hərbi xidmətə göndərilmişdi.

1905-ci ildə Port-Artur döyüşlərində göstərdiyi qəhrəmanlığa görə podpolkovnik rütbəsini almışdır. Müharibədən sonra topçu zabitlər hazırlayan məktəbdə yüksəkixtisaslı hərbçi kimi dərs deməyə başlayan Şıxlinski 1908-ci ildə polkovnik rütbəsi almışdı. Onun yazdığı, dərs vəsaiti kimi istifadə edilən "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri 1910-cu ildə çap olunmuşdu. Bundan əlavə, onun "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı hərbi-elmi ixtiraları topçu zabitlər üçün hazırlanmış dərsliklərə daxil edilmişdi. Bütün bu xidmətlərinə görə gənc hərbçiyə 1913-cü ildə general-mayor rütbəsi verilmişdi. Beləcə o, çar ordusunun aparıcı mütəxəssislərindən birinə çevrilmişdi.

1914-cü ildə başlanan I Dünya müharibəsi zamanı Petroqradın artilleriya müdafiəsi general Əliağa Şıxlinskiyə tapşırılmışdı. Sonralar Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrından isə 10-cu ordunun komandanı təyin olunmuşdu. Elə həmin il ona general-leytenant rütbəsi verilmişdir.

Öz xahişi ilə İmperiya ordusundan tərxis olunmuş, Vətənə qayıtmış, ADR-in hərb nazirinin müavini təyin edilmişdi. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin əmri ilə ona tam artilleriya generalı rütbəsi verilmişdi.

1920-ci ildə bolşeviklər Azərbaycanı işğal edəndə hər ikisi - S.Mehmandarov və Ə.Şıxlinski həbs olunsalar da, N.Nərimanovun təşəbbüsü ilə generallar güllələnmədən xilas olunmuşdular.

Bir müddət Əli ağa Şıxlinski Moskvada Hərbi İnqilab Sovetinin səhra Qərargahında çalışmışdır. 1921-ci ilin yayında isə o, Azərbaycan Sovet Qoşunları Qərargahına göndərilmişdi. Bir müddət Bakı Qarnizonu Hərbi Elmi Cəmiyyətinin sədr müavini işləyən general, 1924-cü ildə isə Birləşmiş Hərbi Komanda Heyəti Məktəbinə rəis müavini təyin edilmişdi.

1928-ci ildə "Rusca-Azərbaycanca qısa hərbi lüğət" çap etdirən Şıxlinski məhz buna görə SSRİ Hərbi İnqilab Şurasının Fəxri Fərmanı ilə təltif edilmişdi. 1929-cu ildə səhhətinə görə istefaya çıxan tam artileeriya generalı Əli ağa Şıxlinski bir çox orden və medallarla (I-IV dərəcə Anna, I-III dərəcə müqəddəs Stanislav, II-IV dərəcə Vladimir, IV dərəcə Müqəddəs Georgi ordenləri), o cümlədən Fransanın Fəxri legion ordeni ilə təltif olunmuşdur.

O, dərin zəkası ilə hərb elmində əldə etdiyi nailiyyətlərə görə "Artilleriyanın Allahı" adını qazanmışdı.

Əli ağa Şıxlinski 18 avqust 1943-cü ildə Bakıda vəfat etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il 20 noyabr tarixində general Əliağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

Ədəbiyyat

Xatirələrim /Ə.Şıxlinski; qeydlər və izahlar. Ş.Nəzirli.- Bakı: Azərnəşr, 1984.- 216 s.

Nəzirli, Ş. General Əli ağa Şixlinski və silahdaşları /Ş.Nəzirli.- Bakı, 2012.- 494 s.

Nəzirli, Ş. General Əliağa Şıxlinski ömrü /Ş.Nəzirli.- Bakı, 2005.-135 s.

Nəzirli, Ş. Rus artilleriyasının Allahı : general Əliağa Şıxlinski haqqında /Ş.Nəzirli //Savalan.- 2012.- 20-23 aprel.- S.3.

Uğur. Azərbaycan Xalq Cümhuriyyətinin generalları: Şəmistan Nəzirli: "Əliağa Şıxlinski Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmaqla Azərbaycan ordusunun təməl daşını qoyub" /Uğur //Xalq cəbhəsi.- 2013.- 15 mart.- S.11.

İnternetdə

www.az.wikipedia.org
www.anl.az
www.vetenim.umi.ru
www.regiment.ru
www.shixlinski.az
www.qazax.net

110 illiyi

Mikayıl Rəfili 1905-1958

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Mirzə Fətəli Axundov: həyatı, mühiti və yaradıcılığı /M.Rəfili; tərt. ed. N.Qəhrəmanov, S.İsmayılova; red. Ş.Salmanov; AzSSR EA, Nizami ad. Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 1990.- 252 s.

Balzak, O. de Seçilmiş əsərləri /O.de Balzak; tərc. ed. M.Rəfili.-Bakı: Şərq-Qərb, 2006.-408 s.

Hüqo, V. Paris Notr-Dam kilsəsi /V.Hüqo; tərc. M.Rəfili.- Bakı: Şərq-Qərb, 2007.- 488 s.

Ələkbərli, N. Mikayıl Rəfili: həyatı və yaradıcılığı /Nazif Ələkbərli; elmi red. və ön sözün müəl.: V.Arzumanlı; Azərbaycan EA Milli Münasibətlər İnstitutu.- Bakı: Qartal, 1998.- 100 s.

Ədəbiyyatda əbədi sözü və izi qalan alim: Görkəmli ədəbiyyatşünas Mikayıl Rəfili //Azadlıq.- 2013.- 29 aprel.- S.14.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

www.milliqehremanlar.az

Mikayıl Həsən oğlu Rəfili 1905-ci il aprel ayının 25-də Qasım İsmayılov rayonunun (indiki Goranboy) Borsunlu kəndində doğulmuşdur.

Yelizavetpol klassik gimnaziyasında təhsil almışdır. Bu dövrdə bədii yaradıcılığa başlamışdır. Onun "Mikayıl Rəfizadə" imzası ilə ilk qələm təcrübələri - "Mücadileyi-həyat" hekayəsi, "Elmə doğru" şeiri və "Qərb mədəniyyəti" məqaləsi "Əfkari-mütəəllimin" jurnalında (1919, 2,3 nömrələrində) dərc olunmuşdur.

Bakıda Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, həm də Azərbaycan Dövlət Universitetinin Şərq dilləri fakültəsində məşğələlərin dinləyicisi, 1924-cü ildə müdavim olmuşdur. "Maarif və mədəniyyət" jurnalı redaksiyasında işləmişdir.

1927-ci ildə Moskva Dövlət Universitetində təhsil almışdır. Bu dövrdə Kremldə qanunların Azərbaycan mətnlərinin redaktoru işləmişdir.

1929-cu ildə Moskvaya I Ümumittifaq proletar yazıçılarının qurultayına nümayəndə seçilmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rus ədəbiyyatı kafedrasında müəllim, sonra dosent (1930-1935) işləmiş, eyni zamanda "Bakinski raboçi" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdir müavini olmuşdur. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında elmi işçi işləmişdir (1934-1935). Sovet yazıçılarının I Ümumittifaq qurultayına nümayəndə seçilmişdir.

1935-1936-cı illərdə SSRİ EA-nın (Leninqrad) aspiranturasında təhsil almış, dissertasiya müdafiə etmişdir. Sonra "Puşkinin həyat və yaradıcılığı", "Puşkin və Azərbaycan", "M.F.Axundov" əsərlərini yazmışdır (1935-1937).

M.Rəfili beş şeir kitabının müəllifidir və bunları 1929-1936-cı illərdə nəşr etdirmişdir. "Pəncərə" adlı ilk şeirlər kitabı iyirmi dörd yaşında Azərnəşrdə işıq üzü görmüşdür. 1930-cu ildə "Lirik şeirlər", 1936-cı ildə isə rus şairi A.Tarkovskinin tərcüməsində şeir və poemalarından ibarət "Pesni o qorodax" kitabı Moskvada işıq üzü görmüşdür. Mikayıl Rəfilinin 150-yə yaxın məqaləsi və ondan artıq kitabı var.

1938-ci ildən Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində professor olmuş, Azərbaycan ədəbiyyatı tarixi kursunu aparmışdır. İkinci Dünya müharibəsi illərində radioda, Qızıl Ordu hissələrində, hərbi xəstəxanalarda çıxışlar etmiş, "Səbuhi" ssenarisini, "Şirvanşah İbrahim" pyesini yazmışdır. SSRİ Yazıçıları idarəsinin üzvü olmuşdur. 1944-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Xidmətlərinə görə "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

Mikayıl Rəfili 1958-ci il aprel ayının 25-də vəfat etmişdir.

75 illiyi

Bəhlul Abdulla 1940-2011

Folklorşünas



Ədəbiyyat

Azərbaycan bayatıları /tərt.ed.: B.Abdulla, Q.Babazadə, E.Məmmədli; red.: T.Fərzəliyev, İ.İ.Abbaslı.- Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004.- 304 s.

Koroğlu /tərt. ed.: B.Abdulla, İ.Abbaslı; red. İ.Abbaslı.-Bakı: Lider, 2005.-552 s.

Novruz bayramı ensiklopediyası: Xalq bayramı /tərt. ed.: B.Abdulla, T.Babayev; elmi red. M.Qasımlı; bur. məs. Ə.Güləliyev.- Bakı: Şərq-Qərb, 2008.- 208 s.

Salur Qazan: tarix, yoxsa mif... /B.Abdulla; AMEA, Nizami ad. Ədəbiyyat İnstitutu.- Bakı: Özan, 2005.- 224 s.

Bəhlul Abdulla: Sevgi dolu alim və pedaqoq /red. N.İsayeva.-Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2010.- 67 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Bəhlul Ağabala oğlu Abdullayev (Bəhlul Abdulla) 1940-cı il aprel ayının 27-də Lerik rayonu Lələhiran kəndində anadan olmuşdur. 1958-ci ildə Biləsuvar rayonunda orta məktəbi bitirmişdir.

1962-1967-ci illərdə ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir.

1967-1971-ci illərdə Biləsuvar şəhəri Nizami adına orta məktəbdə dil-ədəbiyyat müəllimi olmuşdur.

1971-ci ildə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1974-cü ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1993-cü ildən institutun Folklor şöbəsində baş elmi işçi vəzifəsində çalışmış, 1996-cı ildən 2011-ci ilədək Xəzər Universitetində və onun nəzdində fəaliyyət göstərən Dünya məktəbində müəllim işləmişdir.

1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. "Qaynar çeşmə" məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində (1 iyun 1969) çap ediləndən sonra dövri mətbuatda foklorun təbliği ilə ardıcıl məşğul olmuşdur. Onun çoxsaylı kitabları arasında Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi nadir sənət incisi olan "Kitabi-Dədə Qorqud" dastanlarına həsr edilmiş əsərləri xüsusi yer tutur. Alimin bu möhtəşəm mənəvi abidənin 1300 illik yubileyi ərəfəsində və ondan sonra qələmə aldığı "Kitabi-Dədə Qorqud" və İslam dini" (1997), "Kitabi-Dədə Qorqud"un poetikası" (1999), "Dəli Domrul "Kitabi-Dədə Qorqud"da və Qorqudşünaslıqda" (2002), "Kitabi-Dədə Qorqud"da rəng simvolikası" (2004), "Salur Qazan" (2005), "Kitabi-Dədə Qorqud"da nitq etiketlərinin etnomifik poetikası" (2007), "Kitabi-Dədə Qorqud"un etnik ənənə, mərasim sistemində mifoloji təsəffürlərin yeri" (2008), "Kitabi-Dədə Qorqud"da xanımlar" (2009) və b. əsərləri ana kitabımızdakı mövzu qatlarının rəngarəngliyini, çoxşaxəliyini nişan verməklə yanaşı folklorşünaslıq elmimizə sanballı töhfədir.

O, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı altıcildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabının I cildinin (2004, 760 s.) əsas müəlliflərindən biri və redaksiya heyətinin üzvüdür.

2000-ci ildə ədəbiyyatımız, mədəniyyətimiz qarşısında böyük xidmətlərinə görə professor Bəhlul Abdulla "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

O, 60-a yaxın kitabın, onlarla monoqrafiyanın müəllifi, "Dədə Qorqud" və "Novruz" ensiklopediyalarının tərtibçilərindən biri olub.

Azərbaycan mərasim folklorunun ilk geniş və poetik təhlili onun adı ilə bağlıdır. Dünya folklorşünaslığı tarixində türk folklorunda at mifoloji obrazını ilk dəfə o işləyib. Azərbaycan folklorunda sayların simvolikasını monoqrafik şəkildə ilk dəfə o tədqiq edib.

Bəhlul Abdulla 2011-ci il mart ayının 25-də vəfat etmişdir.

75 illiyi

Sabit Kərimov 1940-2013

Alim



Sabit Qəhrəman oğlu Kərimov 1940-cı il aprel ayının 10-da Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur.

1961-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini, 1967-ci ildə Moskva Energetika İnstitutunun aspiranturasını bitirmiş və 1968-ci ildən elmi-pedaqoji fəaliyyətini Azərbaycan Neft və Kimya İnstitutunda davam etdirmişdir.

S.Kərimov 1968-ci ildə texnika elmləri namizədi, 1987-ci ildə isə texnika elmləri doktoru elmi dərəcəsini almış, 1989-cu ildə ona professor elmi rütbəsi verilmişdi.

2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Alim 1989-cu ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Neft Akademiyasında Hesablama maşınları və proqramlaşdırma kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Elmi tədqiqatlarının əsas istiqaməti informasiya və ekspert sistemlərinin yaradılması və tətbiqi ilə bağlıdır.

1967-1989-cu illərdə kimya, neftkimyası və neftemalı sahələri üzrə avtomatlaşdırılmış informasiya və idarəetmə sistemlərinin yaradılması sahəsində işləmiş, 1990-cı ildən isə elmin və istehsalatın müxtəlif sahələri üzrə informasiya və ekspert sistemlərinin yaradılması və tətbiqi üzrə elmi-tədqiqat işləri aparmışdır.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə kimya və kimya texnologiyası sahələri üzrə informasiya-axtarış sistemləri (1967-1975), neftemalı və neftkimyası sənayesi üzrə ərazi avtomatlaşdırılmış idarəetmə sistemi (1975-1988), istehsal müəssisələri üçün avtomatlaşdırılmış informasiya və idarəetmə sistemləri (1988-1990), respublikada mütərəqqi texnologiyalar, bitkilərin mühafizəsi, Xəzər dənizinin ekologiyası, neft maşınqayırma sahələri üzrə informasiya sistemləri, tibbi diaqnostika üzrə ekspert sistemləri (1990-2009) yaradılmış və tətbiq edilmiş, informatika üzrə çoxdilli izahlı terminoloji lüğət hazırlanmışdır.

5 monoqrafiya, 5 dərslik, 5 dərs vəsaiti, 2 terminoloji lüğət, 20 tədris-metodik vəsait və 140 elmi məqalənin müəllifi olan S.Kərimov informasiya və ekspert sistemlərinin yaradılması və tətbiqi sahəsində elmi məktəb yaratmış, bu sahədə 15 elmlər namizədi hazırlamışdır.

Sabit Kərimov 2013-cü il iyun ayının 16-da vəfat etmişdir.

Ədəbiyyat

İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri: dərslik /S.Kərimov; red. N.Vəliyev.- Bakı: ADNA, 2010.- 426 s.

İnformasiya sistemləri /S.Kərimov; red. N.Vəliyev.- Bakı: Elm, 2008.- 676 s.

İnformatika: dərslik / S.Kərimov, S.Həbibullayev, T.İbrahimzadə; red. S.Kərimov.- Yenidən işlənmiş II nəşri.- Bakı: UniPrint, 2010.- 434 s.

Kompyuter elminin nəzəri əsasları: dərslik /S.Kərimov, Y.Sərdarov; red. S.Kərimov. - Bakı: ADNA, 2009.- 290 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

www.science.gov.az

70 illiyi

İsa Abdullayev 1945-2008

Alim



Abdullayev İsa Mədəd oğlu 1945-ci il aprel ayının 12-də Azərbaycan SSR-in Qazax rayonunun I Şıxlı kəndində anadan olmuşdur.

1963-1968-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsində oxumuşdur.

1973-cü ildə texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

1979-1980-ci illərdə ABŞ-ın Pensilvaniya Universitetində Fulrayt fondunun təsis etdiyi İREX (Beynəlxalq elmi tədqiqatlar mübadiləsi) proqramı üzrə, 1986-1987-ci illərdə isə ÇXR-in Xarbin Texniki Universitetində xarici həmkarları ilə elmi-tədqiqat işləri aparmışdır.

1992-ci ildə informasiya-ölçmə sistemləri ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə edərək 1993-cü ildə professor elmi rütbəsinə yiyələnmişdir.

1993-cü ildə istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinin elmi şurası tərəfindən fakültə dekanı seçilmişdir. Dekan vəzifəsində çalışdığı müddətdə kafedradakı fəaliyyətini professor və "Avtomatikanın lokal sistemləri" problem laboratoriyasının elmi rəhbəri olaraq davam etdirmişdir.

1998-ci ildən ömrünün sonuna qədər "Dənəvər materialların parametrlərinə nəzarət və idarəetmə" üzrə Beynəlxalq Federasiyanın (ÇXR) Rəyasət Heyətinin üzvü, müvafiq konfransların Beynəlxalq proqram komitəsinin üzvü olmuşdur.

1999-cu ildə LütfiZadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. AMEA-nın Kibernetika İnstitutu nəzdində fəaliyyət göstərən dissertasiya şurasının üzvü kimi namizədlik və doktorluq dissertasiyalarının müdafiələrində fəal iştirak etmişdir.

2003-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Neft Akademiyasının biotexniki və tibbi cihazlar kafedrasının müdiri vəzifəsində çalışmışdır.

İsa Abdullayevin elmi-pedaqoji fəaliyyətinin nəticələri 150-dən çox elmi əsər, 26 müəlliflik şəhadətnaməsi, 3 monoqrafiya və 5 dərs vəsaitində öz əksini tapmışdır. Onun rəhbərliyi altında 21 elmlər namizədi hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 2000-ci ilin dekabr ayında "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

O, kompyuter texnikasının informasiya-ölçmə vasitələrində geniş tətbiqi və bunun əsasında müasir ölçmə-hesablama sistemlərinin yaradılması sahəsində tədqiqat aparmış ilk alimlərdən olmuşdur.

Görkəmli alim 2008-ci il iyul ayının 15-də vəfat etmişdir.

Ədəbiyyat

Avtomatika və telemexanikanın mikroposessorlu qurğuları: arxitekturası və proqramlaşdırma: dərs vəsaiti /İ.Nəbiyev, İ.Abdullayev, C.Əlizadə [və b.]; red. A.Məmmədov; rəy.: X.İsmayılov, M.Mehdiyev; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, M.Əzizbəyov ad. Azərb. Neft və Kimya İn-tu.- Bakı: [Azərb. NKİ], 1985.-57 s.

İzzət Əhməd oğlu Nəbiyev: bibloqrafiya /tərt. ed.: İ.Abdullayev, S.Yusifov; red. R.Hümmətov; Azərbaycan Dövlət Neft Akademiyası.- Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999.- 88 s.

Əliyev, T. İnformatika və avtomatlaşdırma sahəsinin tanınmış alimi /T.Əliyev //Respublika.- 2010.- 15 iyul.- S. 7.

Xramçaylı, V. Böyük alim, gözəl insan /V.Xramçaylı //Şərq.- 2011.- 14 iyun.- S.12.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

100 illiyi

Qəmər Adıgözəlova-Polçayeva 1915-1992

Oftalmoloq



Qəmər Əbdülrəhim qızı Adıgözəlova-Polçayeva 1915-ci il aprel ayının 12-də Dağıstanın Axtı kəndində anadan olmuşdur.

O, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda 1960-cı ildən başlayaraq, 30 ildən artıq müddətdə elmi işlər üzrə direktor müavini vəzifəsini icra etmişdi.

Qəmər xanım 1957-1960-cı illərdə institutun terapevtik şöbəsinin müdiri vəzifəsində çalışmış, sonralar isə institutun iki elmi şöbəsinin - uşaqların görməsinin mühafizəsi və gözün virus patologiyası şöbələrinin elmi rəhbəri olmuşdur.

1972-ci ildə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini işləmişdir. Onun elmi araşdırmaları gözün fiziologiyasına həsr olunmuşdur.

O, görmə üzvünün optik qüsurlarının ametropiyaları, çəpgözlük, astiqmatizm, ambliopiyanın, anizometropiyanın haqqında anlayışlara bir çox elmi yeniliklər gətirmişdir.

Professor Ü.C.Musabəyli ilə birlikdə o, oftalmologiyada ilk dəfə olaraq uzağa akkomodasiyanın konsepsiyasını yaratmışdı. Bundan əlavə gözün müxtəlif mənşəli iltihabi xəstəliklərinin, gözün yeni törəmələrinin, uveal kataraktanın, traxomanın patogenezi problemlərinin işlənməsi də bir neçə onillik ərzində institutda onun rəhbərliyi altında aparılırdı.

Q.Ə.Adıgözəlova-Polçayeva oftalmologiyanın müxtəlif məsələlərinə dair 300-ə qədər elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Onun "Ametropiyalar zamanı gözün refraksiyasına akkomodasiya spazmının təsiri" və "Anizometropiya" adlı monoqrafiyaları görmə üzvünün fiziologiyasının öyrənilməsində əhəmiyyətli mənbələrdən hesab olunur.

1959-cu ildə tibb elmləri doktoru elmi dərəcəsini, 1961-ci ildə isə professor elmi rütbəsini almışdır.

O, nəinki istedadlı alim, həm də gözəl diaqnost və hərtərəfli oftalmocərrah olmuşdur. O, elmi və təcrübi oftalmoloq kadrlarının böyük bir dəstəsini hazırlamışdı, onun rəhbərliyi altında 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

Qəmər Adıgözəlova-Polçayeva 1992-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Traxoma və ona qarşı mübarizə /Q.Adıgözəlova-Polçayeva; Azərb. SSR Səhiyyə Nazirliyi Respublika Sanitariya Maarifi Evi; red. M.Məmmədəliyev.- Bakı:[s.n.], 1966.- 12 s.

Qəmər Əbdülrəhim qızı Adıgözəlova-Polçayeva //Oftalmologiya: Elmi-praktik jurnal.- 2010.- №4.- S.15.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.gender-az.org

www.eye.az

www.oftalmologiya.az

130 illiyi

Əbülfəz Qarayev 1885-1952

Həkim-pediatr



Əbülfəz Fərəc oğlu Qarayev 1885-ci il aprel ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

O, 1896-cı ildə Bakı gimnaziyasına daxil olmuş, 1907-ci ildə oranı bitirmişdir. Gimnaziyanı bitirdikdən sonra o, Odessa şəhərində Novorossiysk Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1912-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirən Əbülfəz Qarayev savadlı məzun kimi universitetdə saxlanılmışdır. Uşaq Xəstəlikləri Klinikasında iki il ordinator kimi çalışan Əbülfəz Qarayev 1915-ci ildə Vətənə - Bakıya qayıtmışdır.

İlk azərbaycanlı pediatr olan Əbülfəz Qarayev Azərbaycanda ana və uşaqların sağlamlığının mühafizə sisteminin yaradıcısıdır. O, Respublika Uşaq Xəstəxanasının təşkilatçılarından biridir. 1930-cu ildən Əbülfəz Qarayevin praktiki, elmi və pedaqoji fəaliyyəti N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu ilə bağlıdır. Həmin il Tibb institutunun Pediatriya kafedrasına assistent kimi qəbul olunan Əbülfəz Qarayev 1931-ci ildə dosent, 1939-cu ildə professor və kafedra müdiri seçilmişdir.

Əbülfəz Qarayev 1938-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Onun elmi araşdırmalarının əksəriyyəti bağırsaq infeksiyalarına həsr olunmuşdur. Həmçinin qan xəstəliklərinin etiologiyası, patogenezi və müalicə yollarını öyrənmişdir.

Əbülfəz Qarayev 1938-ci ildən ömrünün sonuna qədər Azərbaycan Uşaq Həkimləri Cəmiyyətinə rəhbərlik etmişdir. O, Azərbaycan Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının sədri və Uşaqlara Müalicə-Profilaktika Yardımı Şurasının üzvü olmuşdur.

Azərbaycanda pediatriya sahəsində kadrların hazırlanmasında Əbülfəz Qarayevin xidmətləri danılmazdır. Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsi onun təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılmışdır. Həmin vaxtdan Azərbaycan Dövlət Tibb İnstitutunda yetişdirilmiş bütün pediatrları professor Ə.Qarayevin tələbələri hesab etmək olar. Onun pedaqoji fəaliyyəti dövründə yetişmiş mütəxəssislərin çoxu bu gün Azərbaycan pediatriyasının qabaqcıl nümayəndələridir.

Əbülfəz Qarayevin tibb sahəsində xidmətləri xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Əməkdar həkim" və 1940-cı ildə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür. İki "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur.

Əbülfəz Fərəc oğlu Qarayev 1952-ci il oktyabr ayının 24-də qəflətən vəfat etmişdir.

Azərbaycan pediatriyasının banisi Əbülfəz Qarayev həyatını Azərbaycan uşaqlarının sağlamlığının qorunması kimi nəcib və şərəfli işə həsr etmişdir. İndi Bakının 2 saylı Uşaq Klinik Xəstəxanası onun adını daşıyır.

Ədəbiyyat

Bir ailənin tarixi //Konsilium.- 2005. - №2.- S.32-33.

Əbülfəz Fərəc oğlu Qarayev //Konsilium.- 2005.- №2.- S.31.

Şərif, A. Qara Qarayev epoxası //Şərif A. XX əsr Azərbaycanının yaradıcı nəsilləri.- Bakı, 2007.-S.34.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

Ümumdünya Gülüş Günü
1564



1 aprel beynəlxalq bayram kimi qeyd edilməsə də, bir çox ölkələrdə bu günü əylənmək, zarafat etmək və bir-birini aldatmaqla keçirirlər. Bəzi ölkələrdə 1 aprel "Gülüş günü", bəzilərində isə "Axmaqlar günü" adlanır. Amma bayramın necə yarandığını söyləmək çox çətindir. 1 apreldə bir-birini aldatmaq adətinin meydana gəlməsilə bağlı müxtəlif fərziyələr var.

Bəziləri bayramın yaranmasını Qədim Roma ilə əlaqələndirirlər. Lakin burada aprelin əvvəllərində deyil, fevralın ortasında "Axmaqlar bayramı" qeyd edilirdi.

Digərləri iddia edirlər ki, bu bayram Hindistanda yaranmış, amma burada da əsasən, 31 martı "gülüş günü" kimi qeyd etmişlər. Başqa fərziyəyə görə isə 1 aprelin kökləri orta əsrlər Avropa karvanlarında nümayiş etdirilən küçə tamaşalarına (balaqan) gedib çıxır.

Bir-birilə zarafat etmə adətini yeni illə əlaqələndirənlər də var. 16-cı əsrin ikinci yarısına qədər Avropada yeni il hazırlıqları martın sonunda başlamış, aprelin 1-də isə yeni il qarşılanmışdır. Daha sonra Fransa kralının fərmanı ilə Yeni il rəsmi olaraq 1 yanvarda qeyd edilməyə başlanmışdır. Amma çoxları ənənələrə sadiq qalaraq 1 apreli bayram kimi qeyd etməyə davam etmişdi. Köhnə adətləri yox etmək məqsədilə 1 apreldə bayram keçirənləri "1 aprel axmaqları" adlandırmağa və ələ salmağa başlamışlar.

Rusiyada isə bu gün tam başqa əlamətdar hadisə ilə əlaqədardır. Bir dəfə Peterburq əhalisi səhər tezdən yanğından xəbər verən həyəcan siqnalının səsinə yuxudan oyanmış, amma yanğın siqnalı yalandan verilmiş və həmin gün 1 aprelə təsadüf etmişdi. Bundan sonra Rusiyada 1 aprel günü zarafat günü kimi qəbul edilmişdir.

1 apreli gülüş günü kimi qeyd etmək Azərbaycana keçmiş SSRİ-dən xatirə qalmışdır. Hazırda dünya əhalisinin 70 faizi aprel ayının birinci gününü Gülüş Günü kimi qeyd edir, dost-tanışla zarafatlaşır.

Könlümüzü xoş tutmaq, əhval-ruhiyyəmizi yüksəltmək, mənfi enerjidən azad olmaq üçün gülüş ən yaxşı vasitədir. Gülüş günündə yeni zarafatlar fikirləşin və gülməli vəziyyətlər yaradın. Sizi aldadanda da qətiyyən inciməyin, eyni əhval-ruhiyyə ilə cavab verməyə hazır olun. Çünki gülüş insanın ömrünü uzadır...

Ədəbiyyat

Abdullayeva, A. Ümumdünya Gülüş Günü /A.Abdullayeva //Mədəni həyat.- 2013.- №4.- S.22-23.

Gülüş hədəfinə çevrilməyin: 1 aprel Beynəlxalq Gülüş Günüdür //Azərbaycan.- 2014.- 1 aprel.- S.8.

Manaflı, G. 1 aprelin tarixi: Bu gün Beynəlxalq Gülüş Günüdür /G.Manaflı //Yeni Müsavat 2014.- 1 aprel.- S.14.

Ümumdünya Gülüş Günü //Əkbər Qocayev. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.45.

İnternetdə

www.anl.az

www.ari-vizviz.blogspot.com

www.ebooks.preslib.az

www.milli.az

Tarixdə bu gün

Kəlbəcər rayonunun işğalı günü

Ərazisi: 3054 km²
Əhalisi: 85 228
İşğal tarixi: 02.04.1993
www. kelbecer-ih.gov.az

Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də Ermənistan təcavüzkar qüvvələri tərəfindən işğal olunmuşdur. Kəlbəcər rayonunun ərazisi 3054 km², əhalisinin sayı isə 85228 nəfərdir. Rayon sakinləri hazırda Azərbaycanın 59 bölgəsində məskunlaşmışlar.

Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və girov götürülmüşdür, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəymişdir. Ermənistan hərbi birləşmələrinin martın 27-də başlanan genişmiqyaslı hücumu Kəlbəcər rayonunun işğalı ilə başa çatmışdır. Kəlbəcər Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyüdür. İşğal nəticəsində rayon mərkəzi, 150-ə yaxın kənd, həmçinin onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və s. Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Kəlbəcər rayonunun işğalı o vaxt üçün Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Kəlbəcərin süqutu ermənilərin sonrakı işğalçılıq planlarının həyata keçməsinə - Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı digər rayonların - Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanın, ümumən 17 min kvadratkilometr ərazidə ən məhsuldar torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmasına şərait yaratmışdır. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi faktiki olaraq başa çatmışdı.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməmişdir. Sonradan BMT Təhlükəsizlik Şurasının Ağdam rayonunun azad edilməsi ilə bağlı 854-cü, Füzuli rayonunun azad edilməsi ilə bağlı 874-cü və digər işğal edilmiş rayonların azad edilməsi ilə bağlı 884-cü qətnamələri qəbul edilmiş, lakin həmin qətnamələr kağız üzərində qalmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır. Ermənistan beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq, bütün dünyanın gözü qarşısında Azərbaycanın bənzərsiz mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi zəminində yaranmışdır. Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu ərazіyə daxil olan yeddi rayon Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə etmiş və o vaxtdan bəri ATƏT-in Minsk qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır.

BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bugünə qədər yerinə yetirməmişdir.

Ermənistanın yürütdüyü bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdən bəri dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki, beynəlxalq hüququn normalarına və prinsiplərinə əsasən dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməli, ərazi bütövlüyünün, suverenliyin pozulmasına yol verilməməlidir.

APREL

18

Tarixi Abidələrin Mühafizəsi Günü 1983



Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Hər bir ölkənin tarixi qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu cəhətdən ölkəmizin bəxti gətirmişdir. Qobustan, İstisu qayaüstü təsvirləri, Əlincə, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Şah Abbas məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Şirvanşahlar, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir.

2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

Ədəbiyyat

İlyasov, Z. Tarixi abidələrin ensiklopediyası hazırlanır /Z.İlyasov //İqtisadiyyat.-2012.- 27 aprel-3 may.- S.8.

Nərimanoğlu, M. Minilliklərin yadigarları, yaxud da daşlaşmış mədəniyyət nümunələri: 18 aprel Abidələrin Beynəlxalq Mühafizə Günüdür /M.Nərimanoğlu //Azərbaycan.- 2012.- 18 aprel.- S.7.

22

Ümumdünya Yer Günü 1970



Əsası C.Sterlinq Mortan tərəfindən qoyulan Yer gününün bayram edilməsi XIX əsrin 40-cı illərindən başlayır. 1872-ci ildə C.Morton Nebraska ştatının il ərzində bir gününün ətraf ərazinin yaşıllaşmasına həsr edilməsi təklifi ilə çıxış edir və birinci ağac əkmə günü milyona yaxın ağac əkilir.


1882-ci il 22 aprel tarixindən başlayaraq "Ağac günü" Nebraska hökuməti tərəfindən ştatın rəsmi bayramı kimi qeyd olunur. 1970-ci ildən başlayaraq ətraf mühitin əhəmiyyətinin təbliği, onun ilkin formada qorunub saxlanılması, planetin təbii ehtiyatlarının tükənməsi və s. sahələri əhatə etməsi ilə əlaqədar olaraq bayram "Yer günü" adlandırılmışdır.

İnternetdə

www.voanews.com

www.mix.az

Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü 1996



Müəllif hüquqları anlayışı ilk dəfə Almaniyada aktuallaşmışdır. Əvvəllər yalnız ədəbiyyat sahəsinə aid edilən bu ifadə 1870-ci il iyun ayının 11-dən imperatorun verdiyi qanunla mülkiyyətin bütün formalarını özündə birləşdirmişdir. Yaxın xaric hesab edilən Rusiyada isə bu anlayış indinin özündə də daha çox ədəbiyyat sahəsinə ehtiva edilir. UNESCO-nun 1996-cı il tarixli qərarı ilə hər il bütün dünyada 23 aprel Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü kimi qeyd edilir.

UNESCO məhz bu günü dünya şöhrətli dramaturqlar Uilyam Şekspirin (1564-1616), Migel de Servantesin (1547-1616) və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın (1539-1616) şərəfinə müəyyənləşdirmişdir. Belə ki, hər üç yazıçını onların ölüm tarixi - 23 aprel 1616-cı il rəqəmi birləşdirir. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun 8 oktyabr 1996-cı il tarixindən qüvvədədir. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1996-cı il tarixli Sərəncamının böyük əhəmiyyəti olmuşdur. Azərbaycanın bugünkü müəllif hüququ müasir informasiya, ilk növbədə rəqəmli texnologiya və multimedia kompyuter sisteminə əsaslanır. İlk dəfə olaraq Azərbaycan müəlliflərinə könüllü olaraq öz əsərlərini əlyazmasından başlayaraq CD ROM-lara qədər hər hansı maddi daşıyıcıda qeydiyyatdan keçirmək, Dövlət reyestrinə daxil etmək, kompyuterdə saxlamaq və arxivləşdirmək imkanı yaradılmışdır. Əsərlərini qeydiyyatdan keçirən müəlliflərə "Qeydiyyat haqqında Şəhadətnamə" verilir. Agentliyin kompyuter-TV-video-akustik sistem-skaner şəklində komplektləşdirilmiş multimediya sistemi radio-televiziya efirinin monitorinqini həyata keçirməyə, intellektual mülkiyyətin statistikası və müəllif - hüquq pozuntularının diaqnostikasının müxtəlif məsələlərini həll etməyə imkan verir.

Son illər Azərbaycan rəhbərliyinin uzaqgörən daxili və xarici siyasəti nəticəsində müəllif-hüquqları sahəsində ölkəmizin beynəlxalq əlaqələri genişlənmiş, o, bir sıra Konvensiya və beynəlxalq təşkilatların üzvü olmuşdur. Azərbaycan 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvüdür. Ədəbi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyasına və Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasına daxil olmuşdur. Bir sıra digər ikitərəfli və çoxtərəfli müqavilələrin iştirakçısıdır.

Dünyada "Ümumdünya kitab və müəllif hüquqları günü" mövzusunda tədbirlər 1996-cı ildən, Azərbaycanda isə 2001-ci ilin 23 aprel tarixindən keçirilir.

Ədəbiyyat

Əliyeva, M. Kitaba hörmət müqəddəs borcdur: 23 aprel Dünya Kitab və Müəllif Hüquqları Günüdür /M.Əliyeva //Mədəniyyət.- 2014.- 23 aprel.- S.15.

Kitablar milli mədəniyyətin dirçəliş resursudur //Azərbaycan.- 2012.- 24 aprel.- S.11.

Mehparə. 23 aprel "Dünya kitab və müəllif hüquqları günü"dür /Mehparə //Mədəniyyət.- 2012.- 20 aprel.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

APREL
28

Tarixdə bu gün

95 ili

Azərbaycanın XI Qırmızı Ordu tərəfindən işğalı günü 1920



Ötən yüzildə cəmi 23 ay yaşamış ADR süqut etdikdən sonra yurdumuzda bolşevik Rusiyası 70 illik bir sovet rejimi qurdu. 1920-ci illərdə, xüsusən 30-cu illərdə bolşevizm kabusu yurdumuzun sayseçmə oğul-qızlarını ucdantutma məhv etdi. 1920-ci il aprel ayının 27-də müstəqil Azərbaycan dövləti bolşevik-rus ordusu tərəfindən işğal olunub. İşğal nəticəsində 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti devrilib, müstəqil dövlətin bütün atributları ləğv olunub və Azərbaycan ərazisi Sovet imperiyasına birləşdirilib.

Qeyd edək ki, 1920-ci ilin mart ayında ermənilər Azərbaycanın Qarabağ bölgəsində qiyam qaldırmış, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti məcburiyyət üzündən ordunu Qarabağa, soyqırıma məruz qalan vətəndaşlarını qorumağa göndərmişdi. Bu səbəbdən Bakı faktiki olaraq müdafiəsiz qalmışdı. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Xaçmaz-Yalama istiqamətindən Azərbaycana daxil olan XI Qırmızı Ordu hissələri Bakıya girmişdi. Azərbaycan parlamentinin aprelin 27-də keçirilən son iclasında bolşeviklərin hakimiyyəti təhvil vermək barədə ultimatumu müzakirəyə çıxarılmış, M.Ə.Rəsulzadə və digərləri işğalın əleyhinə çıxış etmişdi. Lakin tarixi şərait və qüvvələrin qeyri-bərabər olması səbəbindən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 6 maddəlik razılaşma imzalamaqla hakimiyyəti bolşeviklərə təhvil vermək məcburiyyətində qalmışdı. Razılaşmaya əsasən, siyasi partiyalar fəaliyyətini davam etdirməli, Azərbaycan Cümhuriyyətinin siyasi xadimlərinə toxunulmamalı idi. Lakin işğaldan sonra siyasi partiyalar qapadılmış, Müsavat Partiyasının fəaliyyəti qadağan olunmuş, üzvləri repressiyalara məruz qalmışdı. Eyni zamanda Gəncə qubernatoru Xudadat bəy Rəfibəyov güllələnmiş, baş nazirlər Nəsib bəy Yusifbəyli və Fətəli xan Xoyski müəmmalı şəkildə öldürülmüş, M.Ə.Rəsulzadə həbs edilmişdi.

İşğaldan sonra Azərbaycanda bolşeviklərə qarşı 150-yə yaxın üsyan baş vermişdir. Onlardan ən böyüyü 1920-ci il may ayının 26-da Gəncədə başlamışdı. İyunun 4-dək davam edən üsyan zamanı Azərbaycan Ordusunun döyüşçüləri və Gəncə sakinləri 8 min rus əsgərini öldürmüşdülər. Sonradan Gəncəyə göndərilən əlavə diviziyalar üsyanı qan içində boğaraq şəhəri yerlə yeksan etmiş, 10 min nəfərə yaxın Gəncə sakini qətlə yetirilmişdi.

Aprelin 28-də rəsmiləşən işğal Sovet imperiyasının mövcud olduğu 70 il ərzində rəsmi bayram kimi qeyd olunmuşdur. Yalnız 1991-ci ildə - Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra, 27 aprel həqiqəti xalqa açıqlanmış və tarixdə öz həqiqi yerini almışdır. O vaxtdan 27 aprel tarixi işğal günü kimi, 28 may isə İstiqlal (Respublika) günü kimi qeyd olunur.

28 Aprel fəlakəti ardınca repressiya fəlakətini gətirdi. Xalqımızın ruhu ardıcıl olaraq sarsıdıldı. Onun məhv edilməsi üçün bəşər tarixində misli görünməyən vəhşi üsullara əl atıldı.

1 may
Gün çıxır 06:40
Gün batır 20:36

31 may
Gün çıxır 06:13
Gün batır 21:04

MAY



21 aprel-
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

C.	1
Ş.	2
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	**8**
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	**17**
B.E.	**18**
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	24
B.E.	25
Ç.A.	26
Ç.	27
C.A.	28
C.	29
Ş.	30
B.	31

- **Şuşanın işğalı günü (08.05.1992)**
- *Faşizm üzərində Qələbə Günü (09.05.1945)*
- ***Rusiya ilə Qarabağ xanlığı arasında 11 maddədən ibarət Kürəkçay müqaviləsinin bağlanmasının 210 ili (14-21.05.1805)***
- *Beynəlxalq Ailə Günü (15.05.1994)*
- ***Laçın rayonunun işğalı günü (17-18.05.1992)***
- *Respublika Günü (28.05.1990)*

130 il Üzeyir Hacıbəyli 1885-1948



1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranan zaman və yarananda sonra Üzeyir Hacıbəyli o vaxt gedən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmuşdur. O, görkəmli bir şəxsiyyət kimi həmin proseslərin düzgün istiqamətdə getməsinə təsir etmiş və o ağır dövrdə, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəlməsi üçün çox səy göstərmişdir. Üzeyir bəy Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordanburdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

Hacıbəyli həm də böyük musiqişunas alim idi. O, müasir Azərbaycan elmi musiqişunaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır.

Üzeyir Hacıbəyli ilk müstəqil Azərbaycan dövlətinin mətbu orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuş və bu qəzetin fəaliyyətində həm öz məqalələri ilə, həm də rəhbərliyi ilə çox böyük xidmətlər göstərmişdir.

Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır.

MAY 2015



Milli ədəbiyyat

Şair, filologiya elmləri namizədi Əliyev Ağa Əliqəmə oğlunun (Ağa Laçınlı) (05.05.1940-25.11.2007) anadan olmasının 75 illiyi

Xalq yazıçısı İbrahimbəyov Maqsud Məmmədibrahim oğlunun (11.05.1935) anadan olmasının 80 illiyi

Əməkdar incəsənət xadimi, dramaturq, yazıçı Haqverdiyev Əbdürrəhimbəy Əsəd bəy oğlunun (17.05.1870-11.12.1933) anadan olmasının 145 illiyi 125

Xalq şairi Rzayev Rəsul İbrahim oğlunun (Rəsul Rza) (19.05.1910-01.04.1981) anadan olmasının 105 illiyi 126

Şair, tərcüməçi Quliyev Vaqif İttifaq oğlunun (Vaqif Bəhmənli) (23.05.1955) anadan olmasının 60 illiyi 127

Şair, publisist, xeyriyyəçi Heybətbəyov Haşım bəy Hacı bəy oğlunun (24.05.1870-1931) anadan olmasının 145 illiyi

Şair, publisist, ictimai xadim Nəcəfov Əliqulu Ələkbər oğlunun (Əliqulu Qəmküsar) (24.05.1880-14.03.1919) anadan olmasının 135 illiyi 128

Şair, publisist Mirzə Cabbar Əsgər oğlu Əsgərzadə Bağçabanın (Cabbar Əsgərzadə) (24.05.1885-1966) anadan olmasının 130 illiyi

Şair, tərcüməçi Məmmədov Əli (Əli Səngərli) (24.05.1930-23.04.2009) anadan olmasının 85 illiyi

Əməkdar mədəniyyət işçisi, şair, publisist Sadıqov Fikrət Abbas oğlunun (Fikrət Sadıq) (30.05.1930) anadan olmasının 85 illiyi



Folklor

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü İmanov Muxtar Kazım oğlunun (28.05.1955) anadan olmasının 60 illiyi



Dünya ədəbiyyatı

Rus yazıçısı Şoloxov Mixail Aleksandroviçin (24.05.1905-21.02.1984) anadan olmasının 110 illiyi 129



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Əzimzadə Əzim Aslan oğlunun (07.05.1880-15.06.1943) anadan olmasının 135 illiyi 130

Xalq rəssamı Əbdürrəhmanov Fuad Həsən oğlunun (11.05.1915-15.06.1971) anadan olmasının 100 illiyi 131

Musiqi.Opera.Balet



Xalq artisti Qacar Sürəyya Sədrəddin qızının (01.05.1910- 27.07.1992) anadan olmasının 105 illiyi 132
Xalq artisti Məmmədov Yaqub Məhəmməd oğlunun (05.05.1930-07.07.2002) anadan olmasının 85 illiyi 133
Rus bəstəkarı Çaykovski Pyotr İliçin (07.05.1840-06.11.1893) anadan olmasının 175 illiyi

Teatr.Kino



Xalq artisti, rejissor Abbasov Zülfüqar Qulu oğlunun (03.05.1940) anadan olmasının 75 illiyi 134
Xalq artisti İsgəndərov Adil Rza oğlunun (05.05.1910-18.09.1978) anadan olmasının 105 illiyi
Xalq artisti Novruzov Ramiz Qəvvam oğlunun (25.05.1955) anadan olmasının 60 illiyi 135

Milli Qəhrəmanlar



Azərbaycanın Milli Qəhrəmanı Mirabov Rəşad Akif oğlunun (03.05.1975-17.03.1995) anadan olmasının 40 illiyi 136
Azərbaycanın Milli Qəhrəmanı Rzayev Qasım Qara oğlunun (05.05.1970-14.05.1992) anadan olmasının 45 illiyi 137
Azərbaycanın Milli Qəhrəmanı Səmədov Pərviz Əbdüləhəd oğlunun (05.05.1970-15.05.1992) anadan olmasının 45 illiyi 138
Azərbaycanın Milli Qəhrəmanı Slesaryov Mixail Aleksandroviçin (08.05.1955-13.04.2014) anadan olmasının 60 illiyi 139
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Natiq Bəşir oğlunun (11.05.1975-04.10.1994) anadan olmasının 40 illiyi 140
Azərbaycanın Milli Qəhrəmanı İsgəndərov Famil İsgəndər oğlunun (15.05.1975-17.03.1995) anadan olmasının 40 illiyi 141
Azərbaycanın Milli Qəhrəmanı Mirzəyev Kərəm Ərşad oğlunun (20.05.1960-01.10.1992) anadan olmasının 55 illiyi 142
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Maşallah Babakişi oğlunun (27.05.1950) anadan olmasının 65 illiyi 143
Azərbaycanın Milli Qəhrəmanı Karlov Yevgeni Nikolayeviçin (31.05.1960-11.04.1992) anadan olmasının 55 illiyi 144

Siyasət.Hərbi iş



Sovet İttifaqı Qəhrəmanı Bağırov Müseyib Bağır oğlunun (09.05.1915-22.02.1944) anadan olmasının 100 illiyi



Fəlsəfə.İqtisadiyyat

Fəlsəfə elmləri doktoru, professor Cəlilov Maqsud Fərhad oğlunun (02.05.1935-05.10.2009) anadan olmasının 80 illiyi

Əməkdar iqtisadçı, professor Rəhimov Rəhim Kərəm oğlunun (20.05.1920-2009) anadan olmasının 95 illiyi



Mədəniyyət.Maarif.Elm

Filologiya elmlər doktoru, ədəbiyyatşünas, mətnşünas, şair, tərcüməçi Cəfərov Əkrəm Səftər oğlunun (Əkrəm Cəfər) (05.05.1905-18.08.1991) anadan olmasının 110 illiyi

Əməkdar elm xadimi, şərqşünas-filoloq, filologiya elmləri doktoru Cəmşidov Şamil Allahverdi oğlunun (05.05.1920-08.12.2008) anadan olmasının 95 illiyi 145

Filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas Hacıyev Cəfər Zeynal oğlunun (Cəfər Xəndan) (08.05.1910-10.08.1961) anadan olmasının 105 illiyi 146

Filologiya elmləri doktoru, professor Namazov Qara Mustafa oğlunun (08.05.1930) anadan olmasının 85 illiyi 148

Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, tədqiqatçı Abbasov Abdulla Əsgər oğlunun (Abbas Abdulla) (12.05.1940) anadan olmasının 75 illiyi

Filologiya elmləri doktoru, şərqşünas Əliyev Qəzənfər Yusif oğlunun (15.05.1930-1984) anadan olmasının 85 illiyi

Əməkdar mədəniyyət işçisi, dramaturq, ədəbiyyatşünas Məmmədov Altay Yusif oğlunun (Altay Yusifoğlu) (15.05.1930) anadan olmasının 85 illiyi

Tədqiqatçı alim, tərcüməçi Şabanov Əli Eyyub oğlunun (24.05.1885- 1949) anadan olmasının 130 illiyi

Filologiya elmləri doktoru, ədəbiyyatşünas, tənqidçi Osmanlı Vəli Musa oğlunun (24.05.1935) anadan olmasının 80 illiyi

Maarif xadimi, şair, publisist, tərcüməçi, folklorşünas, dramaturq Axundzadə Məhəmməd Mirzə Kərim oğlunun (24.05.1875-1923) anadan olmasının 140 illiyi

Publisist, maarif xadimi Qayıbzadə Mirzə Hüseyn Molla Yusif oğlunun (Mirzə Hüseyn Qayıbzadə) (24.05.1830-20.02.1917) anadan olmasının 185 illiyi

Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor Abbasov Akif Nurağa oğlunun (Akif Nurağaoğlu) (28.05.1950) anadan olmasının 65 illiyi



İdman

SSRİ-nin Əməkdar idman ustası, dördqat SSRİ çempionu futbolçu Məmmədov Ələkbər Əmir oğlunun (09.05.1930) anadan olmasının 85 illiyi



Coğrafiya.Geologiya

Əməkdar geoloq, geologiya-mineralogiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü Xəlilov Nüsrət Yusif oğlunun (09.05.1925) anadan olmasının 90 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Qəhrəmanov Nadir Fərrux oğlunun (24.05.1945) anadan olmasının 70 illiyi
Fizika-riyaziyyat elmləri doktoru, professor Abdinov Əhməd Şahvələd oğlunun (30.05.1945) anadan olmasının 70 illiyi



Kimya.Biologiya.Tibb

Kimya elmləri doktoru, professor, Parisdəki Beynəlxalq Elmi-Tarixi və Fəlsəfə Akademiyasının müxbir üzvü Musabəyov Yusif Süleyman bəy oğlunun (10.04.1910-08.05.1970) anadan olmasının 105 illiyi
Beynəlxalq Cərrahlar Cəmiyyətinin idarə heyətinin və Paris Cərrahlar Akademiyasının üzvü, "Varlıq" dərgisinin təsisçisi, cərrah, türkoloq Heyət Cavad Mirzəli oğlunun (24.05.1925-12.08.2014) anadan olmasının 90 illiyi 149
Akademik Hüseynova İradə Məmməd qızının (24.05.1965) anadan olmasının 50 illiyi
Kimya elmləri doktoru, professor Hüseynov Qasım Zülfəli oğlunun (25.05.1940) anadan olmasının 75 illiyi
Akademik Əliyev Seyfəddin Vəli oğlunun (30.05.1930) anadan olmasının 85 illiyi 150



Texnika.Mühəndis işi

Akademik Əliyev Telman Abbas oğlunun (02.05.1935) anadan olmasının 80 illiyi 151
Akademik Rüstəmov Musa İsmayıl oğlunun (08.05.1930) anadan olmasının 85 illiyi 152
Əməkdar mühəndis, dövlət xadimi, Maqomayev Cəmaləddin Müslüm oğlunun (28.05.1910-1977) anadan olmasının 105 illiyi



Kitabxanaşünaslıq.Biblioqrafiya

Tarix üzrə fəlsəfə doktoru, publisist, biblioqraf, pedaqoq Xəlilov Aydın Cəbrayıl oğlunun (01.05.1940) anadan olmasının 75 illiyi



Tarixdə bu gün

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993) 153
Əlillərin hüquqlarının müdafiəsi Günü (5.05.1992) 153
Bakı funikulyorunun (05.05.1960) istifadəyə verilməsinin 55 ili
İnsan Alverinə Qarşı Mübarizə Günü (06.05.2009)

Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü (08.05.1953)
Şuşa rayonunun işğalı günü (08.05.1992) 154
Faşizm üzərində Qələbə Günü (09.05.1945) 155
Rusiya ilə Qarabağ xanlığı arasında 11 maddədən ibarət Kürəkçay müqaviləsinin bağlanmasının 210 ili (14-21.05.1805) 156
Beynəlxalq Ailə Günü (15.05.1994)
Ümumdünya İnformasiya Cəmiyyəti Günü (17.05.2006)
Laçın rayonunun işğalı günü (17-18.05.1992) 157
Beynəlxalq Muzeylər Günü (18.05.1977)
Azərbaycanda Prezident vəzifəsinin təsis olunmasının 25 ili (19.05.1990)
Ümumdünya Metrologiya Günü (20.05.1875)
Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik" Günü (21.05.2001)
Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü (23.05.2007)
Respublika Günü (28.05.1990) 158
Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1987)


MAY

17

145 illiyi

Əbdürrəhim bəy Haqverdiyev 1870-1933

Yazıçı



Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 1870-ci il may ayının 17-də Suşa şəhəri yaxınlığında olan Ağbulaq kəndində doğulmuşdur. 1891-1899-cu illərdə Tiflis realnı məktəbini bitirdikdən sonra Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır. Həmin illərdə azad müdavim sifətilə Peterburq Universitetinin Şərq fakültəsinin dinləyicisi olmuşdur. Bu mühit onda ədəbiyyata dərin maraq və məhəbbət oyatmış və ilk dramlarını ("Yeyəsən qaz ətini, görəsən ləzzətini" (1892), "Dağılan tifaq" (1886)) yazmışdır. 1899-cu ildə təhsilini bitirib Şuşaya qayıtmışdır. 1901-ci ildə Bakı şəhərinə köçmüş, rejissorluq etmiş, Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasının dirijoru olmuşdur. 1902-1903-cü illərdə onun rəhbərliyi ilə Şərq konsertləri verilmişdir. "Ata və oğul", "Ayın şahidliyi" adlı ilk hekayələrini "İki hekayət" adı ilə çap etdirmişdir. 1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir. Orada dövlət kitabxanasında yeni əsərinə ("Ağa Məhəmməd şah Qacar") materiallar toplamış, 1907-ci ildə İrana-Mazandaran vilayətinə səfər etmişdir. "Nicat" cəmiyyətində işləmiş, bir çox dövlətlərə səyahət etmişdir. "Ceyranəli", "Xortdan", "Həkimi-nuni-səğir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" və s. imzalarla "Molla Nəsrəddin" jurnalında hekayə, felyeton çap etdirmişdir. 1910-cu ildə Həştərxanda yaşamışdır. 1911-1915-ci illərdə Ağdama köçmüş, 1916-1917-ci illərdə Tiflisdə "Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri" adlı aylıq məcmuənin müdiri olmuş, fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir. 1918-ci ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra dövlət teatrlarına müfəttiş təyin olunmuş, Azərbaycan Milli Teatrının yaranmasının 50 illiyi münasibətilə keçirilən yubileyə başçılıq etmişdir. ADU-da ədəbiyyatdan mühazirələr oxumuşdur. 1922-ci ildə burada yerli komitənin sədri, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin sədr müavini, 1923-1925-ci illərdə sədri olmuşdur. Bakıda 1924-cü ildə çağırılan I Azərbaycan ölkəşünaslıq qurultayının nümayəndəsi kimi fəal çalışmışdır. O, Rusiya EA-nın nəzdində olan ölkəşünaslıq bürosunun V elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir. 1922-1925-ci illərdə Şərq fakültəsinin katibi olmuşdur.

Rus və Qərbi Avropa ədəbiyyatından bir sıra qiymətli tərcümələr etmişdir. Onun əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Əbdürrəhim bəy Haqverdiyev 1933-cü il dekabr ayının 11-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 2 cilddə /Ə.Haqverdiyev.- Bakı: Lider, 2005.

"Molla Nəsrəddin" jurnalında səyahətnamələr /Ə.Haqverdiyev, S.Mümtaz, Q.Şərifov.- Bakı: Elm, 2007.- 72 s.

Məmmədova, M. Əbdürrəhimbəy Haqverdiyev arxivinin izahlı təsviri /M.Məmmədova.- Bakı: Elm və təhsil, 2012.- 118 s.

Xəlilzadə, F. Zamanın pərdəsi çəkildikcə /F.Xəlilzadə //Kaspi.- 2011.- 3-5 sentyabr.- S.19.

Məhərrəmova, T. Haqverdiyevin gördüyü həqiqətlər /T.Məhərrəmova //Kaspi.- 2011.- 17 may.- S.12.

Məmmədli, A. Azərbaycançılıq mollanəsrəddinçilərin fərdi yaradıcılıq kontekstində: Əbdürrəhim bəy Haqverdiyev /A.Məmmədli //525-ci qəzet.- 2013.- 16 may.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

az.wikipedia.org

www.mia.az/news

105 illiyi Rəsul Rza 1910-1981

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 5 cilddə /R.Rza.- Bakı: Öndər, 2005.

Anar. Mübarizə bu gün də var: (Rəsul Rzanın yaradıcılığı haqqında düşüncələr) /Anar.- Bakı: Nurlan, 2002.- 531 s.

Pənah, G. Sənətkar və poeziya /G.Pənah.- Bakı: Sabah, 2010.- 314 s.

Rəsul Rza. Ömrün birinci yüz ili /tərt. və red. B.Əlibəyli.- Bakı: Elm və təhsil, 2011.- 274 s.

Yusifli, V. Rəsul Rza və müasir Azərbaycan poeziyası /V.Yusifli.- Bakı: Letter-press, 2011.- 159 s.

Cavanşir, C. Rəsul Rzanın istedadlara qayğısı /C.Cavanşir //Ədalət.- 2013.- 4 oktyabr.- S.7.

Əhmədov, T. Rəsul Rza /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XX1 yüzillikdə).- Bakı, 2011.- S.784-785.

Təkləli, M. Rəsul Rza və milli dil /M.Təkləli //Kaspi.- 2013.- 27 fevral.- S. 12.

www.anl.az

www.az.wikipedia.org

Rəsul İbrahim oğlu Rzayev (Rəsul Rza) 1910-cu il may ayının 19-da Göyçay şəhərində anadan olmuşdur.

İbtidai təhsilini Göyçayda I dərəcəli məktəbdə almışdır. Kiçik yaşlarından şeir yazır, mahnı qoşurdu. O, Göyçayın ictimai həyatında fəal iştirak etmiş, dram dərnəyi yaratmış, şəhərdə, kəndlərdə tamaşalar vermişdir.

1924-cü ildə Göyçay şəhər kitabxanasında müdir, 1925-ci ildə həmkarlar klubunda gənclər bölməsinin müdiri işləmişdir.

1926-1927-ci illərdə Tbilisidə Zaqafqaziya Kommunist Universitetinin kooperasiya şöbəsində təhsil almışdır. Bu dövrdə ilk şeirini "Qığılcım" almanaxında çap etdirmişdir. "Dan ulduzu" jurnalında "Oğul qatili", "Arvadbaz", "Dilarə" hekayələri, "Yeni fikir" və "Zarya Vostoka" qəzetlərində bir neçə şeiri dərc olunmuşdur.

1930-cu ildə Bakı şəhərinə köçməsi onun yaradıcılığında dönüş yaratmış, "Gənc işçi" qəzeti redaksiyasında tərcüməçi kimi işə düzəlmiş, məqalə, oçerk və şeirlərini müntəzəm dərc etdirməyə başlamışdır. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasını tərcümə etmiş, 1983-cü ildə nəşr etdirmişdir.

1931-1933-cü illərdə Azərbaycan Elmi Tədqiqat İnstitutunun aspiranturasında, 1934-1937-ci illərdə Moskvada Kinematoqrafiya İnstitutunda təhsilini davam etdirmişdir.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

1937-1938-ci illərdə Bakı kinostudiyasında Ssenari şöbəsinin rəisi, Azərbaycan Dövlət Filarmoniyasının müdiri (1938), 1938-1939-cu illərdə Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri, 1942-1944-cü illərdə kinematoqrafiya idarəsində rəis, 1946-1949-cu illərdə Azərbaycan SSR kinematoqrafiya naziri, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyasının baş redaktoru, Ümumdünya Sülhü Müdafiə Komitəsi rəyasət heyətinin üzvü və respublika üzrə sədri, SSRİ Yazıçılar İttifaqı rəyasət heyətinin üzvü, "Novosti" Mətbuat Agentliyinin Azərbaycan şöbəsi idarəsinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin (VII çağırış) deputatı, Azərbaycan KP təftiş komissiyasının üzvü seçilmiş, Lenin və SSRİ Dövlət mükafatları komitəsinin üzvü olmuşdur.


Xidmələri yüksək qiymələndirilmiş, 1945-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 1980-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarına layiq görülmüş, 1951-ci ildə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1960-cı ildə "Azərbaycanın Xalq şairi" fəxri adına və mükafatlara layiq görülmüş, 3 dəfə Lenin ordeni və medallarla təltif edilmişdir.

Rəsul Rza 1981-ci il aprel ayının 1-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı küçələrinin biri onun adını daşıyır.

60 illiyi

Vaqif Bəhmənli
1955

Şair



Vaqif İttifaq oğlu Quliyev 1955-ci il may ayının 23-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. 1972-ci ildə orta məktəbi bitirmiş, bir il Bakı şin zavodunda fəhlə işləmiş, 1973-1978-ci illərdə ADU-nun (indiki BDU) jurnalistika fakültəsində təhsil almışdır. Tələbəlik dövründə ilk oçerk və şeirlərini dərc etdirmişdir. 1978-ci ildə "Sovet kəndi" qəzetində müxbir kimi fəaliyyətə başlamış, sonra 1988-ci ilədək Mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir. "Kommunist" qəzetində şöbə müdiri işləmiş, 1991-ci ildə "Vətən" Cəmiyyətinin "Odlar yurdu" qəzetinin baş redaktoru vəzifəsinə təyin edilmiş, 1992-1993-cü illərdə "Bərəkət", sonra isə "Həyat" qəzetinin baş redaktoru, 1993-1994-cü illərdə "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışmışdır. 1995-1997-ci illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyində şöbə müdiri, 1997-ci ildə "Ədalət" qəzetində baş redaktorun müavini, 1998-ci ildə "XXI-gənclik dərgisi"nə redaktor təyin edilmişdir. 2000-ci ildən "XXI Yeni Nəşrlər Evi"nin baş redaktoru, 2003-cü ildə "Mars" jurnalında baş redaktor müavini işləmişdir.

2003-cü ildə Beynəlxalq Avrasiya Mətbuat Fondunda departament rəhbəri vəzifəsində çalışmışdır. Hal-hazırda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin müdiridir.

V.Bəhmənli 1983-cü ildən Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

O, mətbuatda çoxsaylı publisistik yazılarla çıxış etmişdir. Şeir və məqalələrdən ibarət 35 kitabı işıq üzü görüb.

1970-ci illərin əvvəllərindən şairin - "Bahar-payız arası", "Dünya ayaq üstədir", "Bar ver, ümid ağacım", "Yolum üstə bitən gül", "Ömürdən uzun gecə", "Qırxıncı otaq", "Yaz naxışları", "Dörd divar", "Uzaqda bir işıq", "Sevgimə axşam düşür" kitabları çap olunmuşdur.

Şairin əsərləri dünya xalqları mətbuatında işıq üzü görmüşdür.

Son illər şairin uşaqlar üçün "Qızıl Qala" kitabı, "Sınıq güzgü" (2005), "Donbagözün hekayələri" (2005), "Poeziya" (3 cilddə 2006) kitabları, "Hamı" (2012) şeirlər kitabı işıq üzü görmüşdür.

1986-cı ildə Respublika Komsomolu mükafatına, 1989-cu ildə Azərbaycan Ali Sovetinin Fəxri fərmanına layiq görülmüşdür. Bir neçə dəfə jurnalist müsabiqələrinin laureatı olmuş, Rəsul Rza adına Beynəlxalq mükafatın, Şahmar Əkbərzadə və İsa İsmayılzadə adına peoziya mükafatlarının laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin "Yaddaş" ödülünü qazanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2005-ci il tarixli Sərəncamı ilə Vaqif Bəhmənli "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Seçilmiş şeirlər və poemalar /V.Bəhmənli; tərt. R.Gülgün; red. U.Rəhimoğlu.- Bakı: Avrasiya-Press, 2006.- C.I.-416 s.; C.II.- 424 s.; C.III.- 432 s.

Hamı: şeirlər /V.Bəhmənli; naşir B.Axundov; red. R.Gülgün.- Bakı: Çağdaş, 2012.- 398 s.

İlin beşinci fəsli. Kamran: [sənədli roman] /V.Bəhmənli; məsl. H.Hüseynova; red. Ə.Əsədzadə; tərt. və dizayn Xəyyam; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Renessans, 2013.-547 s.

Maqomayev planeti /V.Bəhmənli; red. N.Məmmədli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: Elm və təhsil, 2012.- 119 s.

Vətənin İlhamı: ömürdən reportaj /V.Bəhmənli; layihənin rəhbəri və ön sözün müəl. Ə.Qarayev; red. U.Rəhimoğlu.- Bakı: Çağdaş As, 2011.-310 s.

İnternetdə

www.anl.azwww.az.wikipedia.org

MAY
24

135 illiyi

Əliqulu Qəmküsar 1880-1919

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Qəmküsar.- Bakı: Şərq-Qərb, 2006.- 168 s.

Salamzadə, Q. Kiçik pəncərədən görünən dünya /Q.Salamzadə.- Bakı: Azərnəşr, 1990.- 160 s.

Aranlı, S. Qəmküsarlığa yeni töhfə /S.Aranlı //Ədəbiyyat qəzeti.- 2011.- 27 may.- S.4.

Dünyamin qızı, Q. Mirzənin məslək və amal yoldaşları Mollanəsrəddinçi Əliqulu Qəmküsar /Q.Dünyamin qızı //Kaspi.- 2013.- 13 avqust.- S.6.

"Qurtarmadımı bu ağlamağın axırı, ya rəbb?: böyük qələm sahibi Əliqulu Qəmküsar //Azadlıq.- 2012.- 25 oktyabr.- S.14.

Yunisli, F. Əliqulu Qəmküsar haqqında yeni tədqiqat əsəri /F.Yunisli //Mədəniyyət.- 2012.- 9 noyabr.- S.12.

Yunisli, F. Əliqulu Qəmküsarın yaradıcılığında Naxçıvan /F.Yunisli //Palitra.- 2013.- 26 iyul.- S.12.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Əliqulu Ələkbər oğlu Nəcəfov (Əliqulu Qəmküsar) 1880-ci il may ayının 24-də Naxçıvanda doğulmuşdur.

Qəmküsar səkkiz yaşından ərəb və fars dillərini öyrənmiş, 1894-cü ildə zamanının görkəmli müəllimlərindən M.M.Sidqinin üsuli-cədid məktəbinə daxil olmuşdur.

1896-cı ildə atasının xəstələnməsi səbəbilə onunla birlikdə Təbrizə getmiş, bu şəhər onun yaradıcılığında dönüş yaratmışdır. Lakin atası vəfat etmiş, 16 yaşlı Əliqulu onu yad şəhərdə dəfn edərək Naxçıvana qayıtmışdı. Burada atasının ticarət işlərini idarə etmiş, lakin daha çox özünü sənətə və ədəbiyyata bağlamışdı. Hələ məktəbdə ikən şeir yazmağa başlamış, 1892-ci ildə üçsinifli şəhər rus məktəbinə daxil olmuşdu.

1906-cı ilin aprel ayında "Molla Nəsrəddin" satirik jurnalının nəşrə başlaması onun həyatında yeni səhifə açır. "Molla Nəsrəddin" ideyalarının təsiri nəticəsində onun dünyagörüşündə ciddi dönüş yaranır. Bu dövrdə Qəmküsar "İrşad", "Tərəqqi", "Zənbur", "Şəhabi-saqib" və s. dövri mətbuatda çıxış etməyə başlayır.

Culfa ticarət komisyonunda işləyən Qəmküsar Cənubi Azərbaycanda Səttar xanın rəhbərliyi ilə başlamış milli azadlıq hərəkatına da yaxından kömək edir.

O, həvəskar aktyor kimi də fəaliyyət göstərmiş, bu işlə ardıcıl məşğul olmuşdur. Yaxın dostu Rza Təhmasiblə birlikdə Naxçıvan "müsəlman, incəsənət və dram" cəmiyyətini təşkil edib və tamaşalar hazırlayıb. O, "Ölülər" pyesində Şeyx Nəsrullah rolunu təkrarolunmaz şəkildə ifa edib.

Mürtəce qüvvələr tərəfindən saysız təqib və təhqirlər Ə.Qəmküsarı əzməsə də, ailə faciəsi ona ağır zərbə vurub. 1912-ci ildə əvvəlcə iki qızını, sonra isə həyat yoldaşını itirən şairin sonrakı həyatı sarsıntılar içində keçib. O, tez-tez xəstələnib.

1912-ci ilin sonlarında Mirzə Cəlil Qəmküsarı Tiflisə dəvət edib və "Molla Nəsrəddin" jurnalına redaktor olmasını təklif edir. Bu təklif Qəmküsar üçün böyük mənəvi dəstək olub. Bu hadisə rəğbətlə qarşılanıb, jurnalın bütün Yaxın Şərq ölkələrində yayılmasında teatr və aktyorluq sənətinin inkişafında, ictimai fikrin formalaşmasında Ə.Qəmküsarın əvəzsiz xidmətləri olub.

O, mətbuatda "Xadimi-millət", "Otaylı", "Simurğ", "Cüvəllağı", "Qəmbərqulu", "Sarsaqqulu bəy", "Ləndahur" və s. gizli imzalarla da çıxış edib.

Ə.Qəmküsar 1919-cu il mart ayının 4-də axşam evinə qayıdarkən xaincəsinə qətlə yetirilir. Onun menşeviklər tərəfindən öldürülməsi bəlli olsa da qətl səbəbi haqqında heç bir məlumat yoxdur. Cəmi 39 il ömür sürən nakam Qəmküsarın vaxtsız ölümünü geniş xalq kütləsi dərin kədərlə qarşılayıb. Şairin məzarı Tiflisdə yerləşir.

MAY

24

110 illiyi

Mixail Aleksandroviç Şoloxov 1905-1984

Rus yazıçısı



Mixail Aleksandroviç Şoloxov 1905-ci il may ayının 24-də Rusiyanın cənubunda, Rostov vilayətindəki Veşenskaya stanitsasının Krijilino adlı kazak xutorunda anadan olmuşdur.

Təhsilini Voronej gimnaziyasında almış, lakin cəmisi 4 sinif bitirə bilmişdi. Rusiyada vətəndaş müharibəsi başlayanda Qırmızı Ordu sıralarına daxil olmuşdu. Əvvəlcə arxa işlərində çalışmış, sonra isə pulemyotçu kimi Don üzərindəki qanlı döyüşlərdə iştirak etmişdi. Sovet rejimi də öz növbəsində Şoloxovun ədəbi-siyasi ierarxiyanın yüksək zirvələrinə qalxması üçün çox şey etmişdi. Vətəndaş müharibəsinin başa çatdığı və bolşevik hakimiyyətinin bərqərar olduğu 1922-ci ildə Şoloxov ali təhsil almaq və yazıçı peşəsinin sirlərinə yiyələnmək niyyəti ilə Moskvaya getmişdi. Burada müxtəlif qara işlərdə çalışaraq ədəbi dairələrlə təmas qursa da, fəhlə fakültəsində oxumaq niyyətini gerçəkləşdirə bilməmişdi. Vətəndaş müharibəsi mövzusundakı "Xal" adlı ilk hekayəsi 1924-cü ildə "Yunoşeskaya pravda" qəzetində dərc edilmişdi. Həmin il yazıçı doğma Veşenskaya stanitsasına qayıtmış və xarici səfərləri istisna olunmaqla ömrünün sonuna qədər burada yaşamışdı. 20 yaşında ikən onu yetkin yazıçı kimi tanıdan "Don hekayələri" kitabı çap olunmuşdu. Mixail Şoloxov yaradıcılığı kimi müstəqil ailə həyatına da çox erkən yaşlarında başlamışdı. 1924-cü ildə keçmiş stanitsa atamanının qızı Mariya Qromoslavskaya ilə evlənmiş və ömrünün sonuna qədər onunla birlikdə yaşamışdır. 1932-ci ildə Kommunist partiyası sıralarına daxil olan Mixail Şoloxov müxtəlif çağırışlarda SSRİ Ali Sovetinin deputatı seçilmiş, heç bir ali təhsil almadığı halda 34 yaşında SSRİ Elmlər Akademiyasının həqiqi üzvü olmuş (1939), 1940-cı ildə ədəbiyyat və incəsənət sahəsində I dərəcəli Stalin mükafatına, 1950-ci ildə Lenin mükafatına layiq görülmüşdü. Ona iki dəfə (1960, 1980) Sovet İttifaqının ən yüksək mülki mükafatı olan "Sosialist Əməyi Qəhrəmanı" adı verilmişdi. N.S.Xruşşovun xüsusi rəğbətlə yanaşdığı Şoloxov sovet rəhbərini bir sıra xarici səfərlərdə müşayiət etmişdi. 1961-ci ildən etibarən Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü idi.

Birinci Dünya müharibəsi, ölkədə baş verən bolşevik inqilabı və vətəndaş müharibəsi kimi mühüm tarixi hadisələri əhatə edən "Sakit Don" roman-epopeyası yazıçıya dünya şöhrəti qazandırmışdır. Əsər 1965-ci ildə Nobel mükafatına layiq görülmüşdür. Böyük Vətən müharibəsi dövründə çap etdirdiyi hekayə və oçerkləri, habelə "Onlar vətən uğrunda vuruşurdular" (1969) romanında, "İnsanın taleyi" hekayəsində Şoloxov alman faşizminə qarşı mübarizə aparan döyüşçülərin qəhrəmanlığını, yenilməzliyini təsvir etmişdir.

Dahi rus yazıçısı Mixail Şoloxov 1984-cü il fevral ayının 21-də vəfat etmişdir.

Ədəbiyyat

Povest və hekayələr /M.A.Şoloxov.- Bakı: Avrasiya-press, 2007.- 357 s.

Sakit Don: roman: 4 kitabda /M.A.Şoloxov.- Bakı: Avrasiya-press, 2006.

Alməmmədov, A. Mixail Aleksandroviç Şoloxov /A.Alməmmədov.- Bakı: Elm, 1975.- 28s.

Quliyev, M. Şoloxovla unudulmaz bir görüşün köhnəlməyən təəssüratları /M.Quliyev //525-ci qəzet.- 2009.- 27 oktyabr.- S. 6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY
7

135 illiyi

Əzim Əzimzadə
1880-1943

Rəssam



Ə d ə b i y y a t

Hacızadə, B. Azərbaycanın karikaturaçı rəssamları /B.Hacızadə.- Bakı: Çaşıoğlu, 2005.- 120 s.

Həbibova, S. "Əzim Əzimzadə" /S.Həbibova.- Bakı: Şərq-Qərb, 2013.- 104 s.

Nəcəfov, M. Əzim Əzimzadə /M.Nəcəfov.- Bakı: Azərnəşr, 1973.- 207 s.

Xəlilzadə, F. Milli kolorit və ifadə gözəlliyi: Xalq rəssamı Əzim Əzimzadənin xatirəsinə /F.Xəlilzadə //Mədəniyyət.- 2013.- 26 aprel.- S.13.

Rəssamın xatirəsinə həsr olunmuş sərgi //Azərbaycan.- 2013.- 17 aprel.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.az.wikipedia.ru

Əzim Aslan oğlu Əzimzadə 1880-ci il may ayının 7-də Novxanı kəndində anadan olmuşdur.

Ailənin yeganə övladı olan Əzim 1887-ci ildə molla məktəbinə daxil olub. 1895-1899-cu illərdə rus-tatar məktəbində təhsil almışdır.

Yaradıcılığı boyu əsrlərdən bəri formalaşan Təbriz Azərbaycan miniatür məktəbinin və rus rəssamlıq məktəbinin ənənələrindən bəhrələnmişdir.

Rəssamlığa məşhur "Molla Nəsrəddin" jurnalında öz əsərlərini dərc etdirməklə başlamışdır.

1906-cıildən"MollaNəsrəddin","Baraban", "Zənbur", "Tuti", "Kəlniyyət" və sair jurnalların səhifələrində satirik qrafik karikaturalarını nəşr etdirməklə Azərbaycan satirik qrafikasının əsasını qoymuşdur.

Əzimzadənin əsərlərinin əsas mövzusunu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi. Cəmiyyətin müxtəlif təbəqələrinin mənfi ünsürləri - xəsis tacirlər, fırıldaqçı din xadimləri, şarlatanlar onun satirik qələminin hədəfində olurdular.

O, öz əsərlərində mənfi surətləri gah kəsərli yumor, gah yumşaq kinayə ilə kəskin satira atəşinə tuturdu. Çəkdiyi "İt boğuşdurma", "Kişi arvadını döyür", "Varlı evində toy", "Su üstündə dava", "Köhnə bakılılar" kimi əsərlərində müxtəlif sosial təbəqələrə məxsus tiplərin iç üzünü açaraq qadın hüquqsuzluğuna, ədalətsizliyə qarşı çıxış edirdi. Bu mənada, o dövrdə cəmiyyətdəki sosial ədalətsizlikləri özündə daha qabarıq əks etdirən "Köhnə Bakı tipləri" və "100 tip" əsəri xüsusilə təqdirəlayiqdir.

Ə.Əzimzadə satirik şair M.Ə.Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası sənətinin də əsasını qoymuşdur.

Onun teatrlara çəkdiyi geyim eskizləri və dekorasiyalar Azərbaycan rəssamlığının bu sahədəki inkişafına xüsusi təkan vermişdir.

Əsərləri dünyanın bir sıra muzeylərində nümayiş etdirilən rəssamın ilk fərdi sərgisi 1940-cı ildə təşkil olunmuşdur.

Bakıda keçirilən birinci sərgidə tamaşaçılar rəssamın 1200-dən çox əsərinə tamaşa edə bilmişlər.

1920-1943-cü illərdə Ə.Əzimzadə Azərbaycan Rəssamlıq Texnikumunda müəllim, 1932-1937-ci illərdə isə direktor olmuşdur.

1927-ci ildə yaradıcılığının 20 illik yubileyi ilə əlaqədar "Xalq rəssamı", "Əmək qəhrəmanı" fəxri adlarına layiq görülüb.

Əzim Aslan oğlu Əzimzadə 1943-cü il may ayının 15-də Bakıda vəfat etmişdir.

Bakı Rəssamlıq Texnikumu, eləcə də Bakı küçələrindən biri onun adını daşıyır. Yaşadığı evdə rəssamın ev-muzeyi açılmış, evin yaxınlığındakı bağda büstü qoyulmuşdur.

MAY

11

100 illiyi

Fuad Əbdürrəhmanov 1915-1971

Heykəltəraş



Ə d ə b i y y a t

Fuad Əbdürrəhmanov /mətnin müəl. C.Novruzova; Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.- Bakı, 2006.- 40 s.

Fuad Əbdürrəhmanov /layih. rəhb. Ç.Fərzəliyev.-Bakı, 2013.- S.9-38.

Novruzova, C. Fuad Əbdürrəhmanov /C.Novruzova.- Bakı: Nurlan, 2004.- 86 s.

Quliyev, Ə. Azərbaycan heykəltəraşlığının görkəmli nümayəndəsi /Ə.Quliyev //525-ci qəzet.- 2011.- 16 noyabr.- S. 7.

Sadıqov, S. Fuad Əbdürrəhmanovun "Nizami Gəncəvi" abidəsi /S.Sadıqov //Paritet.- 2012.- 21-22 fevral.- S.14.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.karabakh.az

Fuad Həsən oğlu Əbdürrəhmanov 1915-ci il may ayının 11-də Nuxada (indiki Şəki) anadan olmuşdur. 1929-1932-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda və 1935-1939-cu illərdə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır. 1942-1948-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs demişdir.

F.Əbdürrəhmanov yaradıcılığa portret janrı ilə başlamış, 30-cu illərdə Azərbaycan mədəniyyət xadimlərinin büst-portretlərini (Ə.Haqverdiyev, M.F.Axundov, Ü.Hacıbəyli, A.Zeynallı və b.), həmçinin "Atıcı" (1934), "Gənc aşıq" (1939) və ilk monumental əsəri olan Füzulinin heykəlini (1939) yaratmışdır. Sovet İttifaqı Qəhrəmanları G.Əsədovun, İ.Məmmədovun, Q.Məmmədovun, Böyük Vətən müharibəsi qəhrəmanı H.Əliyevin portretləri, Cavanşir, Babək və Koroğlunun barelyeflərində obrazlar dərin psixologizmi və ifadəliliyi ilə seçilir.

O, həm də mahir portret ustası kimi tanınmışdır. "Səttar Bəhlulzadə" (1947), "R.Mustafayev" (1947), "Həzi Aslanov" (qəbirüstü abidə, 1949), "B.Bağırova" (1951), "Səməd Vurğun" (1957), kubalı Xesus (1962) və b. portretləri obrazların fərdi xüsusiyyəti, xarakterlərin dolğun həlli ilə səciyyələnir.

Onun yaradıcılığında monumental heykəltəraşlıq mühüm yer tutmuşdur. Nizaminin Gəncədə və Bakıdakı abidələri (hər ikisi tunc, qranit, 1946, 1949), Bakıda Səməd Vurğunun abidəsi (tunc, qranit, 1961) və s. əsərləri Azərbaycan monumental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. 1950-1960-cı illərdə yaratdığı "Çoban" (gips, 1950, Azərbaycan İncəsənət Muzeyi; tunc, 1951, Tretyakov qalereyası, Moskva), "Azərbaycanlı qadın" (gips, 1951), "Azadlıq" (tunc, 1957; hər ikisi Azərbaycan İncəsənət Muzeyi), "Azad qadın" (tunc, qranit, 1960) və s. əsərlərində milli xüsusiyyətlər zəngindir.

Monqolustanın görkəmli dövlət xadimləri Suxe-Bator və marşal X.Çoybalsanın büst-abidələri (hər ikisi mərmər, 1954, MXR, Ulan-Bator), S.Ayninin (tunc, 1964) portretləri, Düşənbədə Rudəkinin (tunc, qranit, 1964, memar M.Hüseynov; SSRİ Rəssamlıq Akademiyasının qızıl medalı), Buxarada İbn Sinanın (tunc, qranit, açılışı 1975-ci ildə olmuşdur; memar H.Muxtarov) abidələri və s. monumental əsərləri ona şöhrət qazandırmışdır. Ömrünün son illərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin monumental abidəsini (tunc, qranit, 1973) yaratmışdır.

F.Əbdürrəhmanov 1943-cü ildə "Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi", 1956-cı ildə isə "Azərbaycan SSR Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, iki dəfə "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 1949-cu ildə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü seçilmiş, 1947, 1951-ci illərdə Azərbaycan SSR-in Dövlət Mükafatı laureatı olmuşdur.

Fuad Əbdürrəhmanov 1971-ci il iyun ayının 15-də Bakıda vəfat etmişdir.

MAY

1

105 illiyi

Sürəyya Qacar 1910-1992

Müğənni



Sürəyya Sədrəddin qızı Qacar (messo-soprano) 1910-cu il may ayının 1-də Şuşa şəhərində anadan olmuşdur.

O, 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir.

1927-1939-cu illərdə Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. Onu teatra Hüseynqulu Sarabski dəvət etmişdi. Sürəyya Qacarın teatra gəlişi bir bayram əhvali-ruhiyyəsi yaratmışdı. Çünki o zaman teatrda Leylini, Əslini, Gülçöhrəni... oynaya biləcək aktrisalara böyük ehtiyac vardı. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Leyli və Məcnun"unda Leyli obrazı onun teatrda ilk rolu olmuşdur. Daha sonra o, "Əsli və Kərəm"də Əsli, "O olmasın, bu olsun"da Gülnaz, "Arşın mal alan"da Asya, Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında Sahsənəm partiyalarını ifa etmişdir.

1927-ci ildən 1932-ci ilədək Sürəyya Qacarın səhnəmizdəki müvəffəqiyyəti və onun yaratdığı Leyli, Əsli kimi lirik surətlər xatirələrdən silinməzdir. Sürəyya Qacar obrazın daxili həyəcanlarını ifadəli hərəkətlərlə oxuduğu muğamlarda dərin təsir qüvvəsi ilə göstərirdi.

Sürəyya xanım Qacar 1940-cı ildən Azərbaycan Dövlət Filarmoniyasında fasilələrlə solist olmuş, 1968-ci ildən vokal üzrə məsləhətçi-müəllim işləmişdir.

Onun repertuarında Azərbaycan xalq mahnıları, muğamlar, eləcə də keçmiş SSRİ xalqlarının mahnıları əsas yer tutmuşdur.

Sürəyya Qacarın ifaçılıq sənəti üçün sadəlik, səmimiyyət, incə zövq səciyyəvidir.

O, SSRİ-nin bir sıra şəhərlərində, eləcə də İranda qastrol səfərlərində olmuşdur.

Azərbaycanın görkəmli müğənnisi Sürəyya Qacar 1954-cü ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adına layiq görülmüşdür.

İki "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

Görkəmli müğənni Sürəyya xanım Qacar 1992-ci ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Çəmənli, M. Sürəyya Qacar //Çəmənli M. "Leyli və Məcnun" 100 il səhnədə.- Bakı, 2008.- S.114.

Qacar Sürəyya Sədrəddin qızı (1910-1992) //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.131.

Sürəyya Qacar //Qadınlar Azərbaycanın musiqi həyatında.- Bakı, 2004.- S.24-25.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

MAY

5

85 illiyi

Yaqub Məmmədov 1930-2002

Xanəndə



Yaqub Məhəmməd oğlu Məmmədov 1930-cu il may ayının 5-də Ağcabədi rayonunda anadan olmuşdur. Qarabağ xanəndəlik məktəbinin XX əsrin II yarısında yetişmiş orta nəslinin görkəmli nümayəndəsi idi.

1956-cı ildə rayonda Bakıda keçiriləcək Gənclərin Ümumrespublika Festivalına ifaçı toplanarkən birinci Yaqubun adı qeyd olunur. Beləliklə, o, Bakıya festivala gəlir. Münsiflər heyətində görkəmli sənətkarlar - Həqiqət Rzayeva, Xan Şuşinski, Əfrasiyab Bədəlbəyli və başqaları yer almışdı. Gənc Yaqubun səhnə görünüşü və ifası onları qane edir. İfa hamının xoşuna gəlir və Yaqub Məmmədov festivalın laureatı olur. İlk müvəffəqiyyət gənc ifaçıya uğurlar gətirir. Həmin festivaldan sonra ustad tarzən Əhməd Bakıxanov onu radioya gətirib öz ansamblı ilə bir neçə ifasını lentə yazdırır.

Qarabağ torpağında boya-başa çatmış Yaqub Məmmədov professional musiqi təhsilini Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi məktəbində Seyid Şuşinskidən almışdır. Cabbar, Seyid, Xan, Zülfü məktəbinin ənənələrinə sadiq qalan xanəndə öz oxu tərzi ilə klassik muğam ifaçılığı üslubunu qoruyub saxlayıb. Eyni zamanda Yaqub Məmmədovun özünün ifa məziyyətləri, dəst-xətti var idi. Klassik muğam ifaçılığı çərçivəsindən kənara çıxmayan xanəndə məlahətli səsi ilə muğama yeni xallar, zəngulələr gətirmişdi. Onun yadigar qalan lent yazıları muğam tariximizin qiymətli səs yaddaşıdır. Azərbaycan ifaçılıq sənətinin görkəmli simalarından olan Yaqub Məmmədov sələflərinin yolunu layiqincə davam etdirib. Görkəmli xanəndə Seyid Şuşinskidən muğam dəsgahları, xanəndəlik sənətinin sirlərini öyrənmiş, həmçinin musiqi və poeziya sahəsində dərin biliklər qazanmışdır. Yüksək ifaçılıq mədəniyyətinə malik xanəndə gözəl səsi, təkraredilməz oxuma tərzi ilə diqqəti cəlb etmişdir.

O, bütün muğam dəstgahlarının gözəl bilicisi olmaqla yanaşı, həm də Azərbaycan poeziyasını dərindən bilirdi. Yaqub Məmmədov uzun illər Azərbaycan Dövlət Filarmoniyasında solist olmuş, konsertlərdə çıxış etmişdir. Onun ifasında qrammafon vallarına yazılmış muğam dəstgahları bütün Yaxın və Orta Şərqdə yayılmışdır.

Ustad xanəndə kimi püxtələşmiş Yaqub Məmmədov sənətdə öz ənənələrini yaratmışdır. Öz dövrünün bir çox xanəndələri, eyni zamanda, yeni gələn nəsil onun yaradıcılığından bəhrələnmişlər.

Xanəndənin fəaliyyəti dövlət tərəfindən qiymətləndirilmiş, ona 1991-ci ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adı verilmişdir. Müxtəlif fəxri fərmanlarla təltif edilmiş, ulu öndər Heydər Əliyevin sərəncamı ilə Prezident təqaüdçüsü olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 dekabr 2001-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Yaqub Məmmədov 2002-ci il iyul ayının 7-də vəfat etmişdir.

Ədəbiyyat

Mehdi, D. El xanəndəsi Yaqub Məmmədov /D.Mehdi.- Bakı: Təbib, 1998.- 80 s.

Çəmənli, M. "Mənsuriyyə" harayı /M.Çəmənli //Çəmənli M. Sənət hekayələri.- Bakı, 2014.- S.315-325.

Qiymətli səs xəzinəsi: Yaqub Məmmədov muğam tariximizin şərəfli səhifəsini yazıb //Şərq.- 2011.- 5 may.- S. 22.

Məhərrəmova, T. İfası tarixləşən xanəndə /T.Məhərrəmova //Kaspi.- 2010.- 28 may.- S. 15.

Məmmədov, V. Ölməz sənətkar /V.Məmmədov //525-ci qəzet.- 2011.- 23 fevral.- S. 7.

Yusifli, V. Mənsuriyyə: Ustad Xanəndə Yaqub Məmmədovu xatırlayarkən... /V.Yusifli //525-ci qəzet.- 2013.- 9 noyabr.- S.16; 29.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY
5

105 illiyi

Adil İsgəndərov 1910-1978

Aktyor, rejissor



Ədəbiyyat

Azərbaycanın görkəmli teatr və kino xadimi Ədil İsgəndərov: biblioqrafiya /tərt.: G.Quliyeva, G.Misirova.- Bakı: M.F.Axundov adına Milli Kitabxana, 2010.- 76 s.

İsrafilov, İ. Adil İsgəndərovun teatrı /İ.İsrafilov.- Bakı: Mars-Print, 2001.- 208 s.

Adil İsgəndərov teatrı...: Azərbaycan Musiqili Komediya Teatrının qurucusu //Azadlıq.- 2011.- 19 iyun.- S. 14.

Xəlilzadə, F. Sənətin nəhəng fədaisi: Adil İsgəndərov -100 /F.Xəlilzadə //Azərbaycan.- 2010.- 5 may.- S.11.

Quliyeva, Z. Adil İsgəndərov məktəbi /Z.Quliyeva //Azərbaycan.- 2011.- 8 may.- S. 11.

www.anl.az

www.az.wikipedia.org

www.mct.gov.az

Adil (Ədil) Rza oğlu İsgəndərov 1910-cu il may ayının 5-də Gəncədə anadan olmuşdur. O, Teatr Texnikumunu bitirmiş, sonra isə A.V.Lunaçarski adına Moskva Dövlət Teatr Sənəti İnstitutunda təhsil almış, Moskvadakı Bədaye Teatrında rejissorluq təcrübəsi keçmişdi. Buna baxmayaraq, bütün yaradıcı ruhuna milli klassik teatr ənənələri hakim idi. 1936-cı ildə Akademik Dövlət Teatrına qədəm basan Adil İsgəndərov çox keçmədi ki, bu sənət məbədinə baş rejissor, sonra isə direktor seçildi və 25 ilə yaxın bir dövrdə bu teatrda öz məktəbini yaratdı. Heç təsadüfi deyildi ki, o vaxtlar bu sənət ocağını "Adil İsgəndərov teatrı" adlandırırdılar. Rejissor debütü olan "Polad qartal" (1936) tamaşası sənət adamlarında, tamaşaçılarda əsl heyrət doğurmuşdu. Aydın hiss olunurdu ki, teatra əsl sənətkar gəlib. Ona görə də, Adil İsgəndərov bir-birinin ardınca "Platon Kreçet", "Həyat", "Vaqif" tamaşalarına quruluş verdi. "Vaqif" milli teatr tariximizdə ən uğurlu tamaşalardan idi. Bu tamaşa bizim teatr tarixində əlamətdar hadisəyə çevrildi.

Adil İsgəndərovun tamaşaları öz orijinallığı, monumentallığı ilə fərqlənirdi. "Xanlar", "Fərhad və Şirin", "Aydın", "1905-ci ildə", "Dumanlı Təbriz", "Şərqin səhəri", "Otello" və s. əsərləri tamaşaya qoyan bu istedadlı rejissor səhnəyə yeni nəfəs, yeni ruh gətirirdi.

Adil İsgəndərovun rejissor kimi başlıca xüsusiyyətlərindən biri də tamaşalara aktyor seçmək məharəti idi. Aktyorların yaradıcılıq potensialına çox yaxşı bələd idi.

Bu böyük sənətkar həm də güclü təşkilatçı idi. İnsanlarla dil tapmağı bacarırdı. Teatrda direktor işlədiyi illərdə tamaşaların keyfiyyəti yüksəldi, repertuarı zənginləşdi. O dövrün aktyorları xatırlayırdılar ki, Adil İsgəndərovun direktor olduğu illərdə Akademik Dram Teatrı saat mexanizmi kimi işləyirdi.

Aktyor filmlərdə də rollar almış, 1958-ci ildə "Uzaq sahillərdə" (rej. Tofiq Tağızadə) filmində sahibkar Rosselininin rolunu böyük istedadla yaratmışdır. "Qara daşlar", "Məhəbbət dastanı" filmlərində də onun ifa etdiyi qəhrəmanlar öz milli koloriti ilə tamaşaçı diqqətindən yayınmır.

1966-1974-cü illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostuduyasına direktor təyin edilir. 1966-cı ildə Ə.İbrahimovun "26 Bakı komissarı" filmində çəkilir. Ancaq kinoda aktyor kimi onun ən uğurlu işi "Axırıncı aşırım" filmində yaratdığı Kərbalayı İsmayıl obrazı idi.

Sənət nailiyyətlərinə görə 1938-ci ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi", 1943-cü ildə "Xalq artisti", 1959-cu ildə isə "SSRİ Xalq artisti" fəxri adlarına və SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Adil İsgəndərov 1978-ci il sentyabr ayının 18-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

MAY

25

60 illiyi

Ramiz Novruzov 1955

Aktyor



Ramiz Qəvvam oğlu Novruzov 1955-ci il may ayının 25-də Biləsuvar rayonunun Səmədabad qəsəbəsində anadan olmuşdur.

Orta məktəbi qəsəbədə bitirərək Bakıya gəlmiş, müxtəlif mətbəə və tikintilərdə fəhlə işləmişdir.

1974-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Rejissor Adil İsgəndərovun rəhbərlik etdiyi kursda dörd il təhsil alaraq oranı 1978-ci ildə bitirmişdir.

Təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilmiş, gənc aktyor burada Mixail Lermontovun "Maskarad" (Knyaz Zvezdiq), Tofiq Kazımovun "Muradın kələkləri" (Məsxərəci) və Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" (General Şıxlinski) dramlarının tamaşalarında iştirak etmişdir.

Təyinat müddətini Sumqayıt teatrında başa vurduqdan sonra Ramiz Novruzov Bakıya qayıtmış, 16 may 1981-cı ildə Akademik Milli Dram Teatrının şöhrətli və müqtədir aktyor truppasına qatılmışdır. Elə ilk günlərdən kollektivdə hazırlanan tamaşalarda ona irihəcmli və mürəkkəb xarakterli rollar tapşırılmışdır.

Ramiz Novruzovun yaradıcılığının bir sahəsini də kino fəaliyyəti təşkil edir. İstedadlı aktyor "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Nizami" filmində Dərbənd elçisi, "Sizi dünyalar qədər sevirdim" kinolentində general Həzi Aslanov, "Alman klinikasına qeyri-rəsmi səfər" və "Sarı gəlin" əsərlərində Baba Əliyev və Rasim rollarına çəkilmişdir.

Hüseyn Cavidin "Topal Teymur" (Divanbəyi), Lev Tolstoyun "Kreyser sonatası" (Musiqi müəllimi), Jan Pol Sartrın "Dəfn edilməmiş ölülər" (Anri), Andre Moruanın "Bənövşələr" (Bertrand), Vilyam Şekspirin "Antoni və Kleopatra" (Antonio), Mövlud Süleymanlının "Fatehlərin divanı" (Atilla), Orxan Kamalın "Dodaqdan qəlbə" (Kənan bəy), "Yad qızı" (Nihad), Səməd Behrənginin "Balaca qara balıq" (Aparıcı) teletamaşalarında maraqlı rollar yaratmışdır.

"Novruz" onun yazıçı təxəllüsüdür.

Teatr sənətindəki xidmətlərinə görə Ramiz Qəvvam oğlu Novruzov 1993-cü il fevral ayının 7-də "Azərbaycan Respublikasının Əməkdar artisti", 1998-ci il may ayının 24-də "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 30 aprel 2014-cü il tarixli Sərəncamı ilə Ramiz Novruzov səhnə fəaliyyəti ilə bağlı Prezident mükafatına layiq görülüb.

Ədəbiyyat

Rəhimli, İ. Ramiz Novruz //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.385.

Yusifli, V. Bu, Ramiz Novruzdur... /V.Yusifli //Ədalət.- 2013.- 23 oktyabr.- S.7.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org


www.kinozal.az

www.mct.gov.az

40 illiyi

Rəşad Mirabov
1975-1995

Milli Qəhrəman



Rəşad Akif oğlu Mirabov 1975-ci il may ayının 3-də Mingəçevir şəhərində anadan olmuşdur.

1981-ci ildə 7 saylı orta məktəbdə orta təhsilə başlamış, həmin məktəbin 9-cu sinfini bitirdikdən sonra Mingəçevir şəhər axşam məktəbində orta təhsilini davam etdirməklə dərzilik sənətinə yiyələnmişdir.

Ordu sıralarına çağırılana qədər Mingəçevir Dövlət Dram Teatrında dərzi işləmişdir.

1993-cü ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Tərtər cəbhəsində xidmət etmişdir. Bir müddət Tərtərdə Ermənistan işğalçılarına qarşı döyüşmüş, sonra Füzuli cəbhəsinə göndərilmişdir. Sonrakı illərdə əvvəlki hərbi hissəsində xidmətini davam etdirmişdir.

1995-ci il Mart hadisələri zamanı həlak olmuşdur.

Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Mirabov Rəşad Akif oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Subay idi.

Mingəçevir şəhər 7 saylı orta məktəbin qarşısında və Şəhidlər muzeyində büstü qoyulub.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Mirabov Rəşad Akif oğlu-Müdafiə Nazirliyi, sıravi-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il.- S. 1.- (Ölümündən sonra).

Əsgərov, V. Mirabov Rəşad Akif oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı: Dərələyəz-M, 2010.- S.206.

Mirabov Rəşad Akif oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova .- Bakı, 2008.- S.145-146.

Seyidzadə, M. Mirabov Rəşad Akif oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.157.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



45 illiyi

Qasım Rzayev 1970-1992

Milli Qəhrəman



Qasım Qara oğlu Rzayev 1970-ci il may ayının 5-də Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşdur.

1987-ci ildə orta məktəbi bitirmiş, sonra sürücülük ixtisasına yiyələnmişdir.

1988-ci ildə Sovet ordusu sıralarına çağırılmışdır. Ukrayna Respublikasının Nikopol şəhərində hərbi hissədə artilleriya bölməsində xidmət etmişdir.

1990-cı ildə hərbi xidməti başa vuraraq vətənə qayıtmış, könüllü özünümüdafiə dəstəsinə yazılmışdır. Muncuqlu, Koxa-Nəbi, Əlibəyli, Hacallı kəndlərinin, eləcə də Tovuz rayonunun sərhədlərinin qorunmasında xüsusi qəhrəmanlıq nümayiş etdirmişdir. 1992-ci il mayın 14-də düşmən Tovuzun kəndlərinə hücuma keçərkən Qasım özünü döyüş nöqtəsinə yetirərək qeyri-bərabər döyüşdə mərdlik göstərmiş, gərgin gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Əlibəyli kənd qəbiristanlığında dəfn edilmişdir.

Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Rzayev Qasım Qara oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Hacallı kənd orta məktəbi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rzayev Qasım Qara oğlu-sıravi-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 3.- S. 11.- (Ölümündən sonra).

Əsgərov, V. Rzayev Qasım Qara oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.249.

Rzayev Qasım Qara oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.180.

Seyidzadə, M. Rzayev Qasım Qara oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.192.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



Milli Qəhrəmanlar

45 illiyi

Pərviz Səmədov
1970-1992

Milli Qəhrəman



Pərviz Əbdüləhəd oğlu Səmədov 1970-ci il may ayının 5-də Gəncə şəhərində anadan olmuşdur.

1985-ci ildə səkkizinci sinfi bitirərək təhsilini 15 saylı texniki peşə məktəbində davam etdirmiş və avtomobil çilingəri peşəsinə yiyələnmişdir.

1988-ci ildə ordu sıralarına çağırılaraq iki il Çita şəhərində xidmət etmiş və 1990-cı ildə doğma şəhəri Gəncəyə qayıtmışdır.

1992-ci ildə könüllü olaraq Ağdam bölgəsinə gəlmiş və kəşfiyyat bölüyünün komandiri kimi fəaliyyətə başlamışdır. P.Səmədov Şelli, Naxçıvanik, Aranzəmin Pircamal kəndləri uğrunda gedən döyüşlərdə misilsiz xidməti olmuşdur.

1992-ci il mayın 15-də Ağdamın Gülablı kəndində gedən qanlı döyüşlərdə qəhrəmanlıq nümayiş etdirərək, döyüş yoldaşlarına yardım etmiş və özü qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Səmədov Pərviz Əbdüləhəd oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Gəncə şəhərində dəfn edilmişdir. Gəncədəki küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Səmədov Pərviz Əbdüləhəd oğlu-sıravi-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S. 25.- (Ölümündən sonra).

Əsgərov, V. Səmədov Pərviz Əbdüləhəd oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.263.

Səmədov Pərviz Əbdüləhəd oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.189-190.

Seyidzadə, M. Səmədov Pərviz Əbdüləhəd oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.200.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



Milli Qəhrəmanlar

60 illiyi

Mixail Slesaryov
1955-2014

Milli Qəhrəman



Mixail Aleksandroviç Slesaryov 1955-ci il may ayının 8-də Rusiyanın Smolensk şəhərində doğulmuşdur.

1970-ci ildə 4 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra təhsilini 19 saylı texniki peşə məktəbində davam etdirmişdir.

1971-ci ildə Smolensk Kənd Təsərrüfatı Texnikası Birliyində traktorçu işləməyə başlamışdır.

1975-ci ildə hərbi xidmətə çağırılmış, 1977-ci ildə xidmətini başa vuraraq göndərişlə Tbilisi Gizirlər Məktəbinə daxil olmuşdur.

Məktəbi bitirdikdən sonra 1981-1986-cı illərdə Bakı şəhərində motoatıcı tağım komandiri, 1986-1999-cu illərdə mühafizə tağımının rəisi vəzifəsində işləmişdir.

7 yanvar 1999-cu il Qobustan həbsxanasında xidmətini yerinə yetirərkən həbsxanada baş verən hadisə zamanı qəhrəmanlıq nümayiş etdirmiş və kiçik leytenant rütbəsi almışdır. Ədliyyə Nazirliyinin "N" saylı hərbi hissəsində tağım komandiri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı Fərmanı ilə Slesaryov Mixail Aleksandroviç "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

2014-cü il aprel ayının 12-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Mixail Aleksandroviç Slesaryova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [kiçik leytenant –Qobustan həbsxanasında baş vermiş cinayətin qarşısının alınmasında, terrorçuların zərərsizləşdirilməsində, girov götürülmüş insanların həyatının xilas edilməsində, hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən göstərdiyi şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 12 yanvar 1999-ci il //Azərbaycan.- 1999.- 13 yanvar.

Əsgərov, V. Slesaryov Mixail Aleksandroviç //V.Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.264.

Slesaryov Mixail Aleksandroviç //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.190.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az


www.e-qanun.az



40 illiyi

Natiq Məmmədov 1975-1994

Milli Qəhrəman



Natiq Bəşir oğlu Məmmədov 1975-ci il may ayının 11-də Zaqatala rayonunun Əli Bayramlı kəndində anadan olmuşdur.

1990-cı ildə kənd orta məktəbinin səkkizinci sinfini bitirərək, təhsilini Qax rayonundakı 3 saylı texniki-peşə məktəbində davam etdirmiş, mexanizator ixtisasına yiyələnmişdir.

1993-cü il may ayının 13-də Zaqatala rayon hərbi komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. Seyfəlidə hərbi təlim keçən N.Məmmədov döyüş yolunu Ağdam, Füzuli, Tərtər bölgələrində davam etdirmişdir.

4 oktyabr 1994-cü ildə xüsusi təyinatlı dəstənin tərkibində Gəncə şəhərində qiyamı yatırmaq üçün hərbi hissənin əsgərləri döyüş hazırlığına gətirilmişdi. Natiq də bu əməliyyatda iştirak edirdi. Vəzifə borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-ci il tarixli 215 saylı Fərmanı ilə Məmmədov Natiq Bəşir oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Zaqatala rayonunun Əli Bayramlı kəndində dəfn edilmişdir.

Əli Bayramlı kəndindəki uşaq bağçası qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Natiq Bəşir oğlu – çavuş –Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi zamanı göstərdiyi şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 oktyabr 1994-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1994.- № 19.- S.10.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Natiq Bəşir oğlu //V.Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- (Yenidən işlənmiş II nəşr).- Bakı: "Dərələyəz-M", 2010.- S. 202.

Məmmədov Natiq Bəşir oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S. 140-141.

Seyidzadə, M. Məmmədov Natiq Bəşir oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.146.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



MAY

15

40 illiyi

Famil İsgəndərov 1975-1995

Milli Qəhrəman



Famil İsgəndər oğlu İsgəndərov 1975-ci il may ayının 15-də Bakı şəhərində doğulmuşdur.

1991-ci ildə 157 saylı orta məktəbi bitirmişdir.

1993-cü ildə Binəqədi rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmış, Ağdərə və Tərtər bölgələrində gedən qanlı döyüşlərdə iştirak etmişdir. Murovdağın geri qaytarılması zamanı ayağından yaralanmışdır.

1995-ci ilin martında dövlət çevirilişinəcəhdinqarşısınıalandəstənin tərkibində igidlik göstərmişdir.

1995-ci il martın 17-də döyüş yoldaşlarını xilas edərkən ağır yaralanmış və həyatını xilas etmək mümkün olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə İsgəndərov Famil İsgəndər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Subay idi.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Təhsil aldığı 157 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.

Dağıstan Muxtar Respublikası Qasımkənd rayonunun Uluqadağ kəndindəki orta məktəb onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [İsgəndərov Famil İsgəndər oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.-5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. İsgəndərov Famil İsgəndər oğlu //V.Əsgərov. Azərbaycanın Milli Qəhrəmanıları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.142.

İsgəndərov Famil İsgəndər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.105.

Seyidzadə, M. İsgəndərov Famil İsgəndər oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.108.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



55 illiyi

Kərəm Mirzəyev
1960-1992

Milli Qəhrəman



Kərəm Ərşad oğlu Mirzəyev 1960-cı il may ayının 20-də Qubadlı rayonunun Xanlıq kəndində doğulmuşdur.

Doğma kəndlərində orta məktəbi bitirdikdən sonra 1978-ci ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur.

1983-cü ildə təhsilini başa vuraraq, Qubadlıya qayıtmışdır.

1983-1985-ci illərdə Sovet Ordusu sıralarında Arxangelsk və Murmansk şəhərlərində tank qoşun hissələrində hərbi xidmətdə olmuşdur. 1990-cı ilə qədər tikinti idarəsində müxtəlif vəzifələrdə çalışmışdır.

1990-cı ildə Qubadlı rayon Polis Şöbəsində sahə müvəkkili kimi işə başlamışdır. DİN gənc polis zabitini Kalininqrad Ali Hüquq Akademiyasına göndərmişdir. Vətənin başını qara buludlar alanda Kərəm Mirzəyev də əlinə silah alaraq vətəninin müdafiəsinə qalxmışdır.

1991-ci ildə polis yoldaşları ilə birlikdə düşmənin Gorus rayonunun Şurnuxu kəndində yerləşən beş strateji postunu sıradan çıxarmışdır. "Lələzar" əməliyyatında da Kərəmin böyük xidmətləri olmuşdur.

1992-ci il oktyabrın 1-də Laçın rayonunun Mazutlu kəndində iki gün davam edən şiddətli döyüş nəticəsində Kərəm döyüş meydanında yoldaşlarını xilas edərkən özü qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı Fərmanı ilə Mirzəyev Kərəm Ərşad oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir

Ailəli idi. Bir oğlu yadigar qalıb.

Qubadlı rayon Xanlıq kəndində dəfn edilmişdir. Xanlıq kənd orta məktəbi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilməsi haqqında: [Mirzəyev Kərəm Ərşad oğlu – Qubadlı rayon polis şöbəsinin sahə müvəkkili, polis baş leytenantı –Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 may 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 9.- S.55.- (Ölümündən sonra).

Əsgərov, V. Mirzəyev Kərəm Ərşad oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.209.

Mirzəyev Kərəm Ərşad oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.146-147.

Seyidzadə, M. Mirzəyev Kərəm Ərşad oğlu oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.159.

Zeynalov R. Mirzəyev Kərəm Ərşad oğlu //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.-

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



MAY
27

65 illiyi

Maşallah Abdullayev
1950

Milli Qəhrəman



Abdullayev Maşallah Babakişi oğlu 1950-ci il may ayının 27-də Goranboy rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur.

Səkkizillik təhsilini doğma kəndlərində almış, sonra fəhlə gənclər məktəbində davam etdirmişdir.

1969-cu ildə hərbi xidmətə çağırılmışdır. 1971-ci ildə Kerç şəhərindən ordudan tərxis olunandan sonra Bakıya gələrək Neft Daşlarında işə başlamışdır.

1973-cü ildə Bakı Bədən Tərbiyəsi Texnikumuna qəbul olunmuş, oranı bitirdikdən sonra 1975-ci ildə təyinatla təhsil aldığı Kəpənəkçi kənd orta məktəbinə müəllim göndərilmişdir. Düşmənlərə qarşı mübarizə başlayanda Maşallah Abdullayev də erməni quldurlarına qarşı mübarizəyə qoşulan ilk könüllülərdən olmuşdur. Ağcakəndin ermənilərdən təmizlənməsində xüsusi xidmətlər göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Abdullayev Maşallah Babakişi oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1992-ci ildə Respublika Müdafiə Nazirliyi nəzdində briqada komandirinin müavini vəzifəsinə təyin edilmiş, Tərtər, Goranboy, Yevlax ərazilərinə nəzarət etmişdir. Mayor rütbəsinə qədər yüksələn Maşallah Abdullayev 1992-ci ildən 1993-cü ilə qədər Goranboy Rayon İcra Hakimiyətinin başçısı vəzifəsində işləmişdir.

İgidliyə görə general M.Əsədov adına mükafata layiq görülmüşür.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Abdullayev Maşallah Babakişi oğlu – leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 12.- S.35.

Abdullayev Maşallah Babakişi oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.18-19.

Əsgərov, V. Abdullayev Maşallah Babakişi oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.14-15.

Seyidzadə, M. Abdullayev Maşallah Babakişi oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.17.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

55 illiyi

Yevgeni Karlov 1960-1992

Milli Qəhrəman



Yevgeni Nikolayeviç Karlov 1960-cı il may ayının 31-də Tula vilayətinin Dubovka qəsəbəsində anadan olmuşdur. Orta təhsilini doğma yurdunda almış, 1977-ci il avqust ayının 1-də Uzlov rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. Y.Karlov ordudan tərxis edildikdən sonra Sızran Ali Hərbi Təyyarəçilər Məktəbinə daxil olmuşdur. 1984-cü ildə təhsilini başa vurub təlimatçı-təyyarəçi kimi çalışmağa başlamışdır. Öz peşəsinin vurğunu olan Yevgeni Azərbaycan Respublikası Silahlı Qüvvələri yarandığı vaxt burada xidmət etməyi qərara almışdır. O, əvvəlcə Səngəçalda, sonra isə Bakıdakı "N" saylı hərbi hissədə təlimatçı pilot işləmişdir.

Milliyyətcə rus olmasına baxmayaraq, ermənilərin Azərbaycana qarşı elan olunmamış müharibəsi onu da hiddətləndirdiyindən bu ağır günlərdə Azərbaycan xalqına bacardığı hər cür köməyi göstərməyə çalışmışdır. O, xidmət etdiyi hərbi hissənin tərkibində dəfələrlə Ağdam, Ağdərə, Füzuli bölgələrində gedən ağır döyüşlərdə iştirak etmiş, igidlik nümunələri göstərmişdir. 1992-ci il aprel ayının 11-i kapitan Yevgeni Karlovun həyatının ən faciəli və son günü oldu. O, Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Karlov Yevgeni Nikolayeviç "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Doğulduğu Dubovka qəsəbəsində dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Karlov Yevgeni Nikolayeviç – kapitan –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Karlov Yevgeni Nikolayeviç /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.147.

Karlov Yevgeni Nikolayeviç //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.109-110.

Seyidzadə, M. Karlov Yevgeni Nikolayeviç /M.Seyidzadə //Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.112.

Süleymanov, M. Yarımçıq qalmış səma ömürləri /M.Süleymanov //Milli Qəhrəmanlar.- Bakı, 1994.- S.168.

Zeynalov, R. Karlov Yevgeniy Nikolayeviç: (1960-1992) /R.Zeynalov //Azərbaycanın Milli Qəhrəmanları

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



110 illiyi

Əkrəm Cəfər 1905-1991

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Dilşünaslıq elementləri: orta məktəblərin 8-10-cu sinifləri üçün /Ə.Cəfər.- Bakı: Azərnəşr, 1940.- 52 s.

Əruzun nəzəri əsasları və Azərbaycan əruzu ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə /Ə.Cəfər.- Bakı: Elm, 1977.- 416 s.

Mirzə Ələkbər Sabir şeirinin qafiyə lüğəti /Ə.Cəfər.- Bakı: Qanun, 2006.- 128 s.

Müasir Azərbaycan dili oçerkləri: XX əsr /Ə.Cəfər.- Bakı: Azərbaycan SSR XMK nəşri, 1941.- 107 s.

Yandım avazeyi eşqinlə sənin /Ə.Cəfər.- Bakı: Çaşıoğlu, 2010.- 349 s.

Nərimanoğlu, M. Elmdə Əkrəm Cəfər zirvəsi:Ədəbiyyat pərvanəsi /M.Nərimanoğlu //Azərbaycan.- 2010.- 4 may.- S.7.

Zeynal, M. Şərq aləminin fəxri: Əkrəm Cəfər-105 /M.Zeynal //Kaspi.- 2011.- 30 aprel-2 may.- S. 20.

www.anl.az

www.az.wikipedia.org

Əkrəm Səftər oğlu Cəfərov (Əkrəm Cəfər) 1905-ci il may ayının 5-də İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada alan Ə.Cəfər sonra yeni üsullu məktəbdə oxumuşdur.

1920-ci ilin oktyabrında Bakıya gələrək "Darülmüəllimin"ə daxil olmuş, 1925-ci ildə oranı bitirmişdir. Bu illərdə bir ədəbiyyat həvəskarı kimi "Maarif və mədəniyyət", "Şərq qadını" jurnallarında şeirlərlə çıxış etmişdir.

Əkrəm Cəfər iki ilə yaxın Lənkəran şəhərində, sonra isə Qazax pedaqoji texnikumunda dərs demişdir. 1929-cu ildə o, ali təhsil almaq üçün Moskvaya göndərilmişdir. Moskvada ikinci Dövlət Universitetinin rus dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1932-ci ildə oranı bitirmişdir. Əla oxuduğuna görə həmin institutda müəllim saxlanmış və aspiranturaya qəbul edilmişdir.

Ə.Cəfər təhsil almaqla yanaşı 1929-1931-ci illərdə Moskva Proletar Yazıçılar cəmiyyəti Azərbaycan bölməsinin katibi olmuşdur. O, M.Qorki adına Ədəbiyyat İnstitutu, Moskva vilayəti axşam və qiyabi pedaqoji institutlarında da ümumi dilçilik fənnini tədris etmişdir.

1935-ci ildə aspiranturanı bitirərək Moskvada iki ilə yaxın elmi işçi vəzifəsində çalışmışdır. 1937-ci ildə Bakıya qayıdan Əkrəm Cəfər əvvəlcə Azərbaycan Pedaqoji İnstitutunda, sonra isə Azərbaycan Dövlət Universitetində kafedra müdiri olmuşdur.

Əkrəm Cəfər Azərbaycan ədəbi dilinin tədqiqi sahəsində səmərəli fəaliyyət göstərmişdir. O, 1941-ci ildə "XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələri" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə isə "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu ərəb, fars, türk, tacik və özbək əruzları ilə müqayisədə" adlı dissertasiyanı müvəffəqiyyətlə müdafiə edərək filoloji elmlər doktoru elmi dərəcəsini almışdır.

Professor Əkrəm Cəfər "Dilşünaslıq element-ləri", "Müasir Azərbaycan dili oçerk-ləri" kitablarının və bir çox elmi tədqiqat əsərlərinin və məqalələrin müəllifidir. "Azərbaycan dilinin izahlı lüğəti"nin çapa hazırlanmasında onun də böyük əməyi vardır. O, bir şərqşünas alim kimi bir sıra beynəlxalq simpozium və konfransların iştirakçısı olmuşdur.

Əkrəm Cəfər 1954-cü ildən Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda, sonra isə Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.

1991-ci il avqustun 18-də Bakıda vəfat etmişdir.

95 illiyi

Şamil Cəmşid 1920-2008

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Azərbaycan yazılı dastan abidələrinin tədqiqi /Ş.Cəmşidov.- Bakı: Nurlan, 2002.- 187 s.

Elimizin söz boğçası /topl. tərt. və işləyəni Ş.Cəmşidov.- Bakı: Azərnəşr, 1997.- 75 s.

"Kitabi Dədəm Qorqud" /Ş.Cəmşidov.- Bakı: Elm, 1999.- 678 s.

Türk əlyazmaları kataloqu /təsvir və tərt.: Ş.Cəmşidov, Ə.Məmmədbağıroğlu.- Bakı: Elm və təhsil, 2013.- C.1.- 285 s.

Əhmədov, T. Şamil Cəmşid /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XX1 yüzillikdə).- Bakı: Nurlar, 2011.- S.886-887.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Şamil Allahverdi oğlu Cəmşidov (Şamil Cəmşid) 1920-ci il may ayının 5-də Ağcabədi rayonunda anadan olmuşdur. Orta məktəbi Xəlfərəddin kəndində bitirdikdən sonra 1939-cu ildə hərbi xidmətə çağırılmış, İkinci Dünya müharibəsində iştirak etmiş, döyüşlərdə ağır yaralanmış, müalicədən sonra II dərəcəli əlil kimi ordudan tərxis edilmişdir. 1943-1944-cü illərdə radio verilişləri redaksiyasında müvəkkil işləmişdir. 1944-1949-cü illərdə Azərbaycan Dövlət Universitetində oxumuşdur. Sonra təyinatla Ağdam ikiillik müəllimlər institutuna göndərilmiş, burada baş müəllim kimi elmi-pedaqoji fəaliyyətə başlamışdır. 1953-cü ildə bu institut ləğv olunandan sonra Ağcabədi rayonunun Xəlfərəddin kənd orta məktəbində dil-ədəbiyyat müəllimi, "Ağcabədi pambıqçısı" qəzetinin məsul katibi olmuşdur. 1957-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmalar Fonduna (indiki institutuna) kiçik elmi işçi vəzifəsinə dəvət olunmuşdur. 1968-1986-cı illər böyük elmi işçi, 1986-1990-cı illər isə aparıcı elmi işçi işləmişdir. 1990-cı ildən ömrünün sonunadək Əlyazmalar İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. Onun elmi istiqaməti qədim yazılı abidələr, klassik irs və şifahi xalq ədəbiyyatının elmi-tənqidi mətnini tədqiq etmək olmuşdur. "Kitabi Dədə Qorqud" ədəbi abidəsini uzun illərdən bəri öz elmi-tədqiqat obyektinə çevirmişdir. Bu mövzuda 1965-ci ildə namizədlik, 1985-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Elmi araşdırmaları ABŞ, Türkiyə, İran mətbuatında dərc olunmuşdur. 200-dən artıq məqaləsi dövri mətbuatda çap olunmuşdur.

Bədii yaradıcılığa 15-16 yaşlarında başlasa da, 50-ci illərdən satirik şeirləri, Sabiranə bəhri-təvilləri "Ədəbiyyat qəzeti"ndə, "Kirpi" jurnalında, "Gənclik" almanaxında və s. müntəzəm çap edilmişdir. 1990-cı ildən Türkiyə Respublikası I Millətlərarası Böyük Azərbaycan Konqresinin iştirakçısıdır. Beynəlxalq konfrans və elmi simpoziumlarda (Paris, Drezden, Ankara) çıxış etmişdir. 1999-cu ildə Atatürk adına Dil qurumunun fəxri üzvü seçilmişdir.

1993-cü ildən Yazıçılar Birliyinin üzvü idi.

Görkəmli alim Vətən və xalq qarşısında xidmətlərinə 1999-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Bir çox orden, medal və Fəxri fərmanlarla təltif edilmişdir.

Şamil Cəmşidov 2008-ci il dekabr ayının 8-də vəfat etmişdir.

105 illiyi

Cəfər Xəndan 1910-1961

Ədəbiyyatşünas



Cəfər Zeynal oğlu Hacıyev (Cəfər Xəndan) 1910-cu il may ayının 8-də İrəvan şəhərində müəllim ailəsində doğulmuşdur. 1918-ci ildə ailəsi Gəncəyə köçmüş, ata-anasının burada vəfat etməsi səbəbindən kimsəsiz qalan kiçik qardaş və bacısı ilə 1925-ci ilədək Gəncədəki uşaq evində yaşamışdır.

Gəncə Pedaqoji texnikumunu bitirmişdir. 1925-1929-cu illərdə ADPİ-nin dil və ədəbiyyat fakültəsində təhsil almış, həm də fəhlə fakültəsində müəllimlik etmişdir. 1932-1941-ci illərdə aspiranturaya daxil olmuş, eyni zamanda institutun Ədəbiyyat kafedrasının assistenti, sonra dosenti kimi fəaliyyət göstərmişdir. M.F.Axundov adına Müəllimlər İnstitutunun Dil və ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, həm də Azərbaycan Yazıçılar İttifaqında təşkilat katibi, "Ədəbiyyat qəzeti" redaksiyasının məsul katibi, "Gənc işçi" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

1939-cu ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun bədii ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1941-ci ildə səfərbərliyə alınmış, sovet ordusu tərkibində siyasi rəhbər və jurnalist kimi alman işğalçılarına qarşı vuruşmuşdur. O, 1944-1946-cı illərdə Cənub-Qərb, Şimali Qafqaz, Zaqafqaziya cəhbələrində siyasi şöbənin baş təlimatçısı, cəbhə qəzetlərində ("Vo slavu Rodını", "Vpered k pobede", "Boets RKKA", "Vətən yolunda") məsul redaktorun müavini olmuşdur. 1946-1947-ci illərdə ordu sıralarından tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Kommunist" qəzetində Mədəniyyət və məişət şöbəsinin müdiri işləmişdir.

1947-1950-ci illərdə ADU-nun filologiya fakültəsinin dekanı, 1954-cü ilədək rektoru işləmişdir. 1954-1961-ci illərdə yenidən Azərbaycan Dövlət Universitetinin Sovet ədəbiyyatı kafedrasının müdiri olmuşdur. 1949-cu ildə professor elmi rütbəsini almışdır.

"Qırmızı ulduz" (1942), "Qırmızı Əmək Bayrağı" (1946) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları, Fəxri fərman və hədiyyələrlə mükafatlandırılmışdır.

Cəfər Xəndan 1961-ci il avqust ayının 10-da Bakıda vəfat etmişdir. Bakı küçələrindən biri onun adını daşıyır.

Ədəbiyyat

Seçilmiş əsərləri: 3 cilddə /C.Xəndan.- Bakı: Çaşıoğlu, 2010.

Əhmədalılar, T. Şanlı adlardan-böyük elm, mədəniyyət, ədəbiyyat, ictimaiyyət və həyat adamı-Cəfər Xəndan /T.Əhmədalılar //Mədəniyyət.- 2013.- 8 mart.- S.12.

Əhmədov, T. Cəfər Xəndan /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.- S.154-155.

Əliyev, R. Cəfər Xəndan şəxsiyyəti və ədəbiyyat /R.Əliyev //Ədəbiyyat qəzeti.- 2011.- 30 dekabr.- S.5.

Qafarlı, R. "Cəfər Xəndan Hacıyev: həyatı və yaradıcılıq yolu" /R.Qafarlı //Xalq qəzeti.- 2012.- 5 fevral.- S. 6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Qara Namazov 1930

Ədəbiyyatşünas



Qara Mustafa oğlu Namazov 1930-cu il may ayının 8-də Qərbi Azərbaycanın Dilican qəzasının (indiki Krasnoselo rayonunun) Əmirxeyir kəndində anadan olmuşdur. İlk təhsilini Əmirxeyir və Gölkənd məktəblərində almış, orta məktəbi Qazax rayonunun Dağkəsəmən kəndində bitirmişdir. Ordu sıralarında xidmət edərkən Suxumi şəhərində təyyarəçilik məktəbini bitirmiş, 1951-1955-ci illərdə Türkmənistanın Nebitdağ şəhərində Qırıcı Təyyarə Alayının gizli şöbəsinin rəisi işləmişdir. 1956-1961-ci illərdə ADU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini bitirmişdir. 1959-1967-ci illərdə universitetin mərkəzi kitabxanasında şöbə müdiri, sonra AEA-nın Tarix İnstitutu kitabxanası və arxivinin direktoru olmuşdur. Eyni zamanda AEA-nın Nizami adına Ədəbiyyat İnstitutu şifahi ədəbiyyat şöbəsinin qiyabi aspirantura-sında təhsilini davam etdirmişdir.

1968-ci ildə "Azərbaycan aşıq şeirinin inkişafı tarixindən (1920-1950)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1966-1970-ci illərdə ADU-nun kitabxanaçılıq fakültəsində müəllim, baş müəllim işləmiş, sonra filologiya fakültəsinin Azərbaycan Sovet ədəbiyyatı kafedrasına dosent keçmişdir. 1987-ci ildə "Azərbaycan Sovet uşaq və gənclər ədəbiyyatının inkişaf mərhələləri (1920-1985)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1989-cu ildən BDU-nun professorudur.

Əsas yaradıcılıq istiqaməti-şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı, ədəbiyyat tarixi, müasir Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığın ayrı-ayrı problemləri olmuşdur.

1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin, 1987-ci ildən Aşıqlar Birliyinin üzvüdür. 10 monoqrafiyanın, 30 kitabın, 300 elmi-kütləvi əsərin müəllifidir. İndiyə qədər 20 elmlər namizədi yetişdirmişdir.

Ədəbi fəaliyyətə 1956-cı ildə çap olunan "Vətən", "Kəndimizin qızları" adlı ilk şeirləri ilə başlayan Q.Namazovun silsilə şeirləri, "Bir qərinədə" poeması dərc olunmuşdur. Azərbaycan, Türkiyə, Türkmənistan, İsveç və digər ölkələrdə keçirilmiş beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

Qara Namazov 2002-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. 2006-cı ildə Türkiyədə keçirilən uluslararası simpoziumda türk sözünün açımına və Türkmən-Azərbaycan-oğuz folklor əlaqələrinə görə mükafat almışdır. 2008-ci ildə Mir Cəlal adına mükafata, "Vətən andı" diplomuna layiq görülmüşdür. 2009-cu ildən "Qızıl qələm" mükafatı laureatı, "Şöhrət" ordeni təltifçisidir.

Ədəbiyyat

Azərbaycan uşaq ədəbiyyatı: ali məktəblər üçün dərslik /Q.Namazov.- Bakı: Bakı Universiteti, 2007.- 444 s.

Gecikmiş nəğmələr /Q.Namazov.- Bakı: Nurlan; Günəş, 2008.- 349 s.

Ozan-aşıq sənətinin tarixi: monoqrafiya /Q.Namazov.- Bakı: Elm və təhsil, 2013.- 479 s.

Qara Mustafa oğlu Namazov: biblioqrafiya /tərt.- müəl. Ş.Tahirqızı.- Bakı: Elm, 2011.- 101 s.

Əhmədov, T. Qara Namazov /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XX1 yüzillikdə).- Bakı, 2011.- S.527-528.

İnternetdə

www.anl.az

www.folklorinstitutu.com

philology.bsu.edu.az

www.az.wikipedia.org

www.qaraqoyunlu.com

90 illiyi

Cavad Heyət 1925-2014

Həkim



Cavad Mirzəli oğlu Heyət 1925-ci il mayın 24-də Təbrizdə anadan olmuşdur.

İlk və orta təhsilini Təbriz, Həmədan və Tehranda almış, daha sonra tibb təhsilinə başlamış, ancaq üçüncu sinifdən sonra təhsilini davam etdirmək üçün İstanbula yollanmışdır. 1946-cı ildə Türkiyənin İstanbul Universitetini bitirib, həmin universitetdə 3 il işlədikdən sonra təhsilini 4 il müddətində Fransadakı Paris universitetində davam etdirmişdir. Yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İrana qayıtmışdır.

Tibb sahəsindəki elmi yazıları ilə yanaşı o, Azərbaycan türkcəsi, ədəbiyyatı, tarixi ilə bağlı sanballı əsərlər müəllifi kimi də tanınır. "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" (2 cilddə), "Müqayisətül-lüğəteyn", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Türklərin tarix və mədəniyyətinə bir baxış", "Türk dili və ləhcələrinin tarixinə bir baxış", "Ədəbiyyatşünaslıq" kimi əsərləri yüksək tirajla nəşr edilmişdir.

Görkəmli alim Azərbaycan elm və mədəniyyənin inkişafındakı, İran-Azərbaycan ədəbi-mədəni, ictimai əlaqələrinin möhkəmləndirilməsindəki böyük xidmətlərinə görə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının fəxri akademiki, Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Xəzər Universitetinin fəxri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Pedaqoji Universitetinin fəxri professoru, Azərbaycan Cərrahları Elmi Cəmiyyətinin fəxri üzvü seçilmişdir. Azərbaycan Yazıçılar Birliyinin "M.F.Axundov adına mükafat"ına və "Dədə Qorqud" Assosasiyasının təsis etdiyi "Məmməd Araz" mükafatına layiq görülmüş, həmin mükafatlardan aldığı pulu qaçqınlara bağışlamışdır.

40 ildən artıq Tehran Universitetində calışmışdır. İranda ilk dəfə açıq ürək əməliyyatı (koronar şuntlama) gerçəkləşdirmişdir. Bu və digər uğurlarına görə Beynəlxalq Cərrahlar Cəmiyyətinin idarə heyətinin və Paris Cərrahlar Akademiyasının üzvü seçilmişdir.

O, 12 il ərzində "Daneşe pezeşki" (Tibb Elmi) adlı jurnal dərc etdirmiş və yüzlərcə elmi məqalənin, cərrahiyyəyə aid uç kitabın müəllifi olmuşdur. 1979-cu il İran islam inqilabından sonra, professor Həmid Nitqi, Məhəmmədəli Fərzanə, Həsən Məcidzadə Savalan, Kərim Məşrutəçi (Sönməz), Mənzuri Xamneyi, Səməd Sərdarniya, Qulamhüseyn Beqdeli ilə birlikdə Tehranda "Varlıq" jurnalını təsisçi kimi nəşr etdirən Cavad Heyət türkologiyaya aid yeddicildlik kitabın müəllifidir. Cavad Heyət eyni zamanda Azərbaycanın müxtəlif universitetlərinin fəxri doktoru və professoru, Türk Dil Qurumunun fəxri sədri, eləcə də İstanbul Universitetinin fəxri doktorudur (həm tibb, həm də türkologiya sahəsi üzrə).

O, Azərbaycan, ingilis, fars, türk və s. dilləri mükəmməl bilirdi.

Görkəmli alim Cavad Heyət 2014-cü il avqust ayının 12-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda: (məqalələr toplusu) /Cavad Heyət.- Bakı: Elm və təhsil, 2011.- 703 s.

Türk dilləri və ləhcələrinin tarixi: 2 kitabda /Cavad Heyət.- Bakı: Təhsil, 2011.

Türklərin tarix və mədəniyyətinə bir baxış: İslamdan əvvəl və islam dövrü. Başlanğıcından XVI əsrə qədər /Cavad Heyət.- Bakı: Azərnəşr, 1993.- 176 s.

Heydər Əliyev dahi şəxsiyyət idi /Cavad Heyət //İki sahil.- 2011.- 17 noyabr.- S.14.

Xudiyev, N. Cavad Heyət möcüzəsi /N.Xudiyev.- Bakı Azərnəşr, 2005.- 167 s.

Məmmədli, P. Özünü millətə həsr edən vətən sevdalısı- Doktor Cavad Heyət /P.Məmmədli //525-ci qəzet.- 2011.- 24 may.- S.4.

Tofiq, H. BSU-da Dr.Cavad Heyətlə görüş /H.Tofiq //Azad Azərbaycan.- 2012.- 17 oktyabr.- S.7.

İnternetdə

www.anl.az

az.wikipedia.org

MAY

30

85 illiyi

Seyfəddin Əliyev 1930

Akademik



Seyfəddin Vəli oğlu Əliyev 1930-cu il may ayının 30-da Naxçıvan MR Şərur rayonunun Alışar kəndində anadan olmuşdur. 1947-ci ildə Naxçıvan Tibb Texnikumunu, 1951-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (indiki APU) bitirmişdir.

Azərbaycanda 716 sovka növünün yayıldığını aşkar etmiş, bundan 390 növü respublikanın sovka faunası üçün, 145 növü Zaqafqaziya, 67 növü isə keçmiş SSRİ ərazisi üçün yeni olmuşdur. İlk dəfə olaraq bu növlərin Azərbaycanda rayonlar, şaquli istiqamətə, zonalar, biotoplar, ekoloji qruplar üzrə yayılmasını, formalaşmasını, zoocoğrafi analizini, qida əlaqələrini vermiş, zərərli növlərin bioloji xüsusiyyətlərini öyrənmiş və onlara qarşı mübarizənin elmi əsaslarını işləyib hazırlamışdır. İlk dəfə olaraq 61 növ sovkanın kənd təsərrüfatı bitkilərinə zərər verməsini müəyyənləşdirmişdir. Pambığın qorxulu zərərvericisi olan, pambıq sovkasını tələf edən 21 növ parazit, 12 növ yırtıcı cücü aşkar etmiş, onların pambıq sahələrində say meyarı və rolunu müəyyənləşdirmişdir ki, bu tədqiqatların nəticəsi inteqrasiya mübarizə metodu kimi təsərrüfatlarda tətbiq olunmuşdur. Bu sovkanın pambıqçılıq rayonlarında yayılma dərəcəsini əks etdirən, həmçinin, texniki və bostan bitkilərinin kompleks zərərvericilərinə həsr olunuan xəritələr tərtib olunmuşdur.

Azərbaycanın Qırmızı kitabı üçün 35 növ nadir və endemik sovka növü haqda məlumat tərtib etmişdir. Bakıdan Gürcüstan sərhədlərinə qədər uzanan neft kəməri boyunca və onun ətraf ərazilərində yayılan müxtəlif qrup cücülərin icmalı tərtib olunub Amerikanın BP (AMOKO) şirkətinə təqdim edilmişdir.

Orta məktəbin 7-8-ci sinifləri üçün "Zoologiya" dərsliyinin, 10 cildlik "Azərbaycan ensiklopediyasının" və V.A.Dogelin Universitetlər üçün yazdığı 55 çap vərəqi həcmində olan "Onurğasızlar zoologiyası" dərsliyini Azərbaycan dilinə tərcümə edən müəlliflərdən biridir. "Azərbaycanın heyvanlar aləmi" monoqrafiyasının 2-ci cildinin əsas tərtibatçısı və burada cücülərin bir neçə fəsilə və dəstələri haqda yazılmış məqalələrin və Azərbaycan dilinin izahlı lüğətinin IV cildində verilmiş zoologiya və entomologiya terminlərinin müəllifidir.

Ali məktəblər üçün çapdan çıxan 9 dərsliyin, 2 dərs vəsaitinin, 7 monoqrafiyanın, 4 kitabçanın redaktorudur.

Alim 168 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. Xaricdə 40 elmi əsəri çapdan çıxmışdır. S.Əliyevin kadr hazırlığında da xidmətləri böyükdür. İndiyə qədər 9 elmlər namizədi və 3 elmlər doktoru onun rəhbərliyi altında müdafiə etmişdir.

1978-ci ildən biologiya elmləri doktoru, 1998-ci ildən professordur. 2007-ci ildən AMEA-nın həqiqi üzvüdür.

Xidmətlərinə görə IX beşilliyin zərbəçisi adına və mükafatına, "Əmək veteranı" medalına, Beynəlxalq Corc Soros təqaüdü və diplomuna, 2 dəfə AMEA Rəyasət Heyətinin Fəxri fərmanına layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycanın zərərli sovkaları /S.Əliyev.- Bakı: AzSSR EA, 1964.- 76 s.

Pambığın bar orqanlarına zərər verən sovkalar /S.Əliyev.- Bakı: Elm, 1981.- 59 s.

Zoologiya 7 /S.Əliyev, T.Mikayılov, M.Musayev.- Bakı: Çaşıoğlu, 2006.- 126 s.

Əliyev, A. Görkəmli bioloq /A.Əliyev //Respublika.- 2010.- 23 iyun.- S.7.

Fətəliyev, Q. Nəsillərə örnək olan alim ömrü /Q.Fətəliyev //Elm.- 2010.- 17 iyun.- S.9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

80 illiyi

Telman Əliyev 1935

Akademik



Telman Abbas oğlu Əliyev 1935-ci il may ayının 2-də Goranboy rayonunun Dəliməmmədli şəhərində anadan olmuşdur. 1943-1953-cü illərdə Goraranboy rayon orta məktəbində təhsil almışdır. 1953-cü ildə Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olunmuş və 1958-ci ildə həmin institutu bitirmişdir. Təyinatla Hesablama mərkəzinə (indiki Kibernetika İnstitutu) göndərilmiş və orada 1962-ci ilədək texnik, mühəndis, baş mühəndis vəzifələrində çalışmışdır. 1962-ci ildə aspiranturaya qəbul olunmuş, elmi rəhbəri Bauman adına Moskva Dövlət Texniki Universitetinin (MDTU) professoru Vladimir Viktoroviç Solodovnikovun rəhbərliyi altında 1966-cı ildə "Neft emalının tipik proseslərinin korrelyasiya analizi" mövzusunda namizədlik, 1977-ci ildə isə Bauman adına MDTU-də "Real zaman miqyasında çoxölçülü təsadüfi proseslərin korrelyasiya analizi və kodlaşdırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1983-cü ildə AEA-nın müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilmişdir. Alim 1985-ci ildə professor elmi rütbəsini almışdır. 1982-ci ildə Kibernetika institutunda elmi işlər üzrə direktor müavini, 1984-cü ildən 1988-ci ilin mayınadək Azərbaycan Mühəndis İnşaat İnstitutunda kafedra müdiri işləmişdir. 1988-ci ildən bu günədək Kibernetika institutunun direktotu vəzifəsində çalışır.

T.İ.Əliyev kibernetika, informatika və fizika sahələrinin qovşağında yerinə yetirilən bir sıra fundamental işlərin müəllifidir. Onun 391 elmi işi nəşr olunmuşdur. 220 elmi əsəri xaricdə çap olunmuşdur. Eləcə də 10 monoqrafiyanın, 65 patentin müəllifidir. Alimin elmi rəhbərliyi ilə 30-dan artıq aspirant və 6 doktorant elmi tədqiqat işi müdafiə etmişdir.

Alim Azərbaycanda informatikanın inkişafında həlledici rol oynayan və birləşmiş respublikalar arasında ikinci (Ukraynadan sonra) olan 1958-1960-cı illərdə yaradılmış "Elektron hesablama maşını" laboratoriyasının təşkilatçısı və 1976-cı ilədək isə həmin laboratoriyanın rəhbəri olmuşdur. O, İnformatika və hesablama texnikası cəmiyyətinin idarə heyətinin üzvü, keçmiş Sovet ittifaqının informatika, hesablama texnikası və kibernetika üzrə ekspert heyətinin üzvü olmuşdur.

1994-cü ildən informatika üzrə UNESCO-un ekspertləri tərkibinə daxil olunmuşdur.

1991-ci ildə Keldış adına medalla, 2004-cü ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2010-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

İnformatika və kibernetikaya həsr edilmiş 50 il (1958-2008) /T.Əliyev.- Bakı: Elm, 2009.- 340 s.

El ağsaqqalının üçüncü gəncliyi /T.Əliyev //Ədəbiyyat qəzeti.- 2013.- 5 iyul.- S.6.

Heydər Əliyev və Azərbaycanda kibernetika və informatika elmlərinin inkişafı /T.Əliyev //Elm.- 2013.- 17 may.- S.5.

"İki ildən sonra zəlzələnin yerini də, vaxtını da deyə biləcəyik" /T.Əliyev; müsahibə alan T.Məhərrəmova, Telman Abbas oğlu //Kaspi.- 2012.- 28 sentyabr.- S.9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Musa Rüstəmov 1930

Akademik



Musa İsmayıl oğlu Rüstəmov 1930-cu il may ayının 8-də Naxçıvan MR Ordubad şəhərində anadan olmuşdur. 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunu (indiki ADNA) bitirərək, mühəndis-texnoloq ixtisasına yiyələnmişdir. Azərbaycan Neft Emalı Sənayesi Elmi Tədqiqat İnstitutunda (indiki AMEA Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu) müxtəlif vəzifələrdə işləmiş, 1968-ci ildən direktor müavini, 1988-ci ildən isə direktoru olmuşdur. 1968-ci ildə texnika elmləri doktoru elmi adını, 1971-ci ildə professor elmi rütbəsini almışdır. 1980-ci ildə AMEA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. 507 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir ki, onlardan 157-si xaricdə nəşr edilmişdir.

Alim 1993-1995-ci illərdə ADNA-da, 1999-2005-ci illərdə isə BDU-da pedaqoji fəaliyyətlə göstərmişdir.

Onun elmi tədqiqatlarının istiqaməti heterogen-katalitik proseslərinin texnologiyasını, neft emalı və neft kimya prosesləri üçün katalizatorların yaradılmasını, neft emalı məhsullarının keyfiyyətlərinin yüksəldilməsini əhatə edir. O, heterogen-katalitik prosesləri aparmaq üçün lift reaktorlarının hidrodinamikasını, kiçik ölçülü mikrosiferik katalizatorların, qaynar lay və lift reaktorlar sistemində kimyəvi proseslərin effektivliyini nəzəri cəhətdən tədqiq etmiş, mikrosferik katalizatorların axıcılıq indeksinin proseslərin effektivliyinə təsirini öyrənmişdir. Akademik M.Rüstəmov yüksək effektivli Q.43-107 katalitik krekinq kompleksinin müəlliflərindən biridir. Bu proses Bolqarıstan, Rusiya, Ukrayna, Latviya, və Azərbaycan neft emalı zavodlarında istismar olunur. Onun tədqiqatlarının bir qismi neft emalı məhsullarının keyfiyyətini yüksəltmək məqsədi ilə hidrokrekinq, hidroizomerləşmə, destruktiv izomerləşmə, seolit katalizatorları iştirakında oksigenli əlavələrin alınması proseslərinin yaradılmasına həsr edilmişdir. Nəticədə tərkibində qurğuşun olmayan, ekoloji cəhətdən təmiz Aİ-93, Aİ-95 avtomobil benzinlərinin alınma texnologiyasını təklif etmişdir. O, Azərbaycanda hidrogen energetikası sahəsində tədqiqatların əsasını qoymuşdur. Onun tərəfindən Azərbaycanda neft emalı, qaz emalı və neft kimya sənayesinin inkişaf konsepsiyası yaradılmış və onun əsasında neft emalı zavodlarının 2010-cu ilə kimi kompleks modernizasiyasının tərkib hissəsi və sxemi hazırlanmışdır. M.Rüstəmov bir çox beynəlxalq və respublikada fəaliyyət göstərən elmi şuraların və assosiasiyaların üzvi olmuşdur, beynəlxalq konfranslarda, simpoziumlarda Azərbaycanı təmsil etmişdir.

1979-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1982-ci ildə Dövlət mükafatı laureatı olmuşdur. 2002-ci ildə İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının "Elm və Texnoloji sahəsində mükafatına", 2004-cü ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat

Raket və reaktiv yanacaqları /M.Rüstəmov, A.Həsənov, S.Sultanov.- Bakı: Elm, 2005.- 228 s.

Azərbaycanda elmin inkişafına diqqət artmaqdadır /M.Rüstəmov //Xalq qəzeti.- 2011.- 28 aprel..- S. 4.

Musa İsmayıl oğlu Rüstəmov: biblioqrafiya /tərt.: G.Fərhadova (red.) [və başq.].- Bakı: Elm, 2000.- 212 s.

Əmircanov, P. Akademik Musa Rüstəmov: Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi bizi sevən ölkələrin sevinci, sevməyənlərin kədəridir /P.Əmircanov //Xalq qəzeti.- 2011.- 3 noyabr.- S. 7.

Hidayətqızı, N. Görkəmli alim və elm təşkilatçısı, akademik Musa Rüstəmovun 80 illik yubileyi qeyd olundu /N.Hidayətqızı //Elm.- 2010.- 19 may.- S.9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY

3

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü 1993



1991-ci il may ayının 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşan jurnalistlər "Vindhuk Bəyannaməsi"ni qəbul etdilər. Bəyannamə informasiya vasitələrinə yardımçı olmaq məqsədilə dünya hökumətlərinə mətbuat azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağırırdı. Buna görə, BMT Baş Məclisi 1993-cü il may ayının 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü elan etdi.

Söz və mətbuat azadlığı demokratiyanın meyarı olaraq tanınır. Söz azadlığının olmadığı ölkələrdə insan hüquqlarının pozulması hallarına daha çox rast gəlinir. Bu gün bir çox beynəlxalq qurumlar ölkələrdə söz və mətbuat azadlığını diqqət mərkəzində saxlayırlar.

Ədəbiyyat

www.anl.az

www.az.wikipedia.org

5

Əlillərin hüquqlarının müdafiəsi Günü 1992



1992-ci ildən BMT Baş Assambleyasının qərarı ilə hər il 5 may tarixi Əlillərin Hüquqlarının müdafiəsi günü kimi qeyd olunur. Azərbaycanda bu qəbildən olan insanların sayı 450 mindən çoxdur. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı mövcuddur. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Əlillərin sosial müdafiəsi isə ildən-ilə daha da gücləndirilir, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu tədbirlər onların cəmiyyətə inteqrasiyasına xidmət edir. Dövlət hər ay əlillik qruplarına uyğun olaraq onlara pensiya və sosial müavinətlər verir. Əlillərin pensiyaları, onlara edilən maddi yardımlar da ildən-ilə artır. Onların sağlamlığının bərpası üçün paytaxtda və bölgələrdə reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar əlilliyin qarşısının alınmasında, əlillərin reabilitasiyasında mühüm rol oynayır.


Ədəbiyyat

Məmmədli, Z. Əlillərlə bağlı yeni strategiya işə düşür "Əlillərin Sosial Hüquqlarının Müdafiəsinə dair Milli Fəaliyyət Planı"na start verilməsi bu təbəqədən olan insanların problemlərini xeyli azaldacaq /Z.Məmmədli //Reytinq.- 2013.- 20 oktyabr.- S.10.

www.anl.az

www.az.wikipedia.org

Şuşanın işğalı günü 1992



Ərazisi: 289 km²
Əhalisi: 31499 nəfər
İşğal tarixi: 08.05.1992

Azərbaycanın dilbər guşəsi, musiqi və mədəniyyət ocağı olan Şuşa şəhəri dünyanın bəzi aparıcı dövlətlərinin məzlum xalq kimi tanıdıqları, əslində nəinki xalqımıza, bütün insanlığa qarşı terror siyasəti həyata keçirən məkrli ermənilər tərəfindən keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə işğal edilmişdir.

289 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24.900 nəfər əhali yaşayırdı. İşğal zamanı 480 nəfər insan qətlə yetirilmiş, 600 nəfər yaralanmış, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür.

Qeyd etmək lazımdır ki, Şuşaya hücumdan bir neçə saat öncə Tehranda İran Prezidentinin vasitəçiliyilə Ermənistan və Azərbaycan dövlət başçıları Qarabağ münaqişəsinin dinc yolla həllinə dair saziş imzalamışdı.

İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilmişdir. Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan Paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ermənilər Azərbaycana məxsus olan bir çox abidənin məhv edilməsinə və ya onların ermənilşdirilməsinə nail olmuşlar. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıtmışlar.

Artıq Şuşanın işğalından 23 il ötür. Tezliklə qədim Azərbaycan torpağının işğaldan azad olunacağı günü arzulayır və Allahdan bütün şəhidlərə rəhmət diləyirik!

Ədəbiyyat

Behbudov, K. Şuşa qalasının çıraqlarını yandıraq: Şuşanın işğalından 22 il ötür /K.Behbudov //Xalq qəzeti 2014.- 8 may.- S. 13.

Qələndərli, N. Şuşanın işğalı erməni vandalizminin növbəti nümunəsidir /N.Qələndərli //Yeni Azərbaycan.- 2012.- 3 may.- S.2.

Sevgili gözəl Şuşam, dərdim, kədərim Şuşam: Şuşanın işğalından 22 il ötür Ç.Fərəcov //Azərbaycan 2014.- 7 may.- S.14.

Şuşa rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.23-48.

Tapdıqoğlu, N. Qarabağın tacı - Şuşam: /N.Tapdıqoğlu //Müəllim sözü 2013.- №5(23).- may.- S.4-5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.shusha-ih.gov.az

MAY

9

Faşizm üzərində Qələbə Günü 1945



XX əsrdə İkinci Dünya müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olmuşdur. Almaniyada və İtaliyada yaranmış faşizm nəinki bu ölkələrin özünü və hətta bütün bəşəriyyəti təhlükə altına almışdı. İkinci Vətən müharibəsi illərində Azərbaycan xalqı həm cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərmişlər. Qısa bir müddətdə respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə dəstələri təşkil olunmuşdu. 1941-1945-ci illərdə 600 mindən çox Azərbaycan oğul və qızları cəbhəyə yollanmışdılar. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək mübariz yol keçmiş, 130-a yaxın həmyerlimiz "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüş, 30 nəfər "Şərəf ordeni" ilə təltif olunmuşdur. 170 min Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları - İsrafil Məmmədov, Ruslan Vəzirov, Adil Quliyev, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə; generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə bizim xalqın şərəfli tarixinə yeni sətirlər yazmışlar.

Az bir zamanda Bakı döyüşən ordunun ən mühüm cəbbəxanasına (arsenal) çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənəyemizi yanacaqla təmin etmişlər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə hava flotu (aviasiya) benzini almaq üçün yeni texnologiya yaradılmışdır. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox neft (23,5 milyon ton) istehsal olunmuşdu ki, bu da SSRİ-də istehsal olunan neftin 71.4%-ni təşkil etmişdir. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəni 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları ilə təmin etmişlər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanılmasında Bakı nefti əsas amillərdən biri olmuşdur.

İkinci Dünya müharibəsində əldə edilən qələbə Azərbaycan xalqının fədakar, qəhrəman, cəsarətli olmasını bir daha bütün dünyaya sübut etmişdir.

Ədəbiyyat

Azərbaycan aviatorları Böyük Vətən müharibəsində: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. N.Nağıyeva; burax. məs. və ixtisas red. K.Tahırov; red. M.Vəliyeva.- Bakı, 2010.- 81 s.

Jelev, J. Faşizm /J.Jelev; tərc. ed. R.Ramizoğlu; red. T.Barxudayev; rəyçi İ.Pçelintseva; Bakı Slavyan Un-ti.- Bakı: BSU "Kitab aləmi", 2005.- 280 s.

Abdullayeva, Z. Qələbə günündə görüşənədək: 9 may faşizm üzərində qələbə günüdür /Z.Abdullayeva //Respublika.- 2014.- 9 may.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY

14

Tarixdə bu gün

210 ili

Kürəkçay müqaviləsi 1805

Rusiya imperiyasının XIX yüzilin başlanğıcından Azərbaycan torpaqlarını yeni işğal cəhdi faktik olaraq müharibəyə çevrilmişdi. Çar hökuməti Azərbaycanın xanlıqlara parçalanmasından istifadə edərək, bu prosesdə həm silah, həm də müqavilələr bağlanmasından istifadə edirdi.

1805-ci il mayın 14-də Kürəkçay müqaviləsi indiki Goranboy rayonu ərazisində Kürəkçay çayı sahilində Qarabağ xanı İbrahimxəlil xan və Rusiya İmperiyası adından isə Rusiyanın Qafqaz qoşunlarının baş komandanı Knyaz Sisianov tərəfindən imzalanmışdır. Bu müqavilə Qarabağ xanlığının Rusiya tərəfindən ilhaqını faktiki rəsmiləşdirmişdir.

Belə ki, 11 maddədən ibarət müqavilənin şərtlərinə görə, Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir (maddə 1), müstəqil xarici siyasət hüququndan məhrum edilir (maddə 4), çar xəzinəsinə hər il 8000 çervon bac verməyi öhdəsinə götürürdü (maddə 8). Rusiya dövləti də xanın varis və davamçılarının Qarabağ xanlığı üzərində hakimiyyətinin dəyişilməz saxlanılmasını, daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana, ölkədən yığılan gəlirin xanın səlahiyyətində qalmasını öhdəsinə götürürdü (maddə 5). Bundan başqa, müqaviləyə görə, Qarabağ xanı Qafqaz komandanlığının əmrlərini yerinə yetirməli və mayor Lisaneviçin rəhbərliyi altında 500 rus əsgərini Şuşada qalaya bitişik Xanbağı adlanan yerdə yerləşdirməli idi.

Qarabağ xanlığının Rusiya tərəfindən ilhaqından sonra Kürəkçay müqaviləsi əslində icra olunmamışdır. Öncə İbrahimxəlil xan qətlə yetirilmiş, daha sonra isə Qarabağ xanlığının özünün mövcudluğuna son qoyulmuşdu. Daimi müddətə imzalandığı qeyd edilsə də, Kürəkçay müqaviləsi cəmi 17 il sonra, 1822-ci ildə ləğv edilmişdir. Rusiya Kürəkçay müqaviləsi ilə Qarabağın bütövlüyünün saxlanmasına imperator zəmanəti versə də, 1822-ci ildə Qarabağ xanlığı aradan götürülmüşdü. Qarabağda İbrahim xan və onun varislərinin hakimiyyəti rus administrasiyası ilə əvəz olunmuşdur. Çar Rusiyası etnik təmizləmə siyasətinə uygun olaraq Qarabağ əhalisinin etnik tərkibində ermənilərin sayını artırmaq üçün köçürmə siyasəti həyata keçirməyə başlamışdı.

Müqavilənin tezliklə Rusiya İmperiyası tərəfindən ləgv olunma səbəbləri arasında Çar Rusiyasının bölgənin etnik tərkibini özünün uzunmüddətli maraqlarına xidmət edə biləcək şəkildə dəyişməyə əsaslanan imperiya siyasətini də qeyd etmək lazımdır. Bu siyasət ən çox İran və Türkiyədən ermənilərin kütləvi şəkildə Azərbaycanın Qarabağ və digər xanlıqlarına köçürülməsini təşkil etməklə mövcud ərazi inzibati quruluşun və etnik tərkibin dəyişdirilməsində öz əksini tapmışdır.

Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların ümumi sayı isə 200 mindən çox olmuş və köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başlamışdır. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və s.) yaranmışdır.


Ağır şərtlərlə Rusiya İmperiyası ilə imzalanmasına və sonrakı illərdə icra olunmamasına baxmayaraq, Kürəkçay müqaviləsi mühüm əhəmiyyətə malikdir. Xüsusilə onu qeyd etmək lazımdır ki, bu müqavilə çarizmin Qarabağ xanlığını işğal etməsinə qədər azərbaycanlıların bölgənin aborigen xalqı olmasını, xanlığın siyasi-iqtisadi həyatına rəhbərlik etmələrini, ermənilərin Rus işğalından və bölgənin etnik tərkibini dəyişdirməyə yönəlmiş siyasətlərindən, onların kütləvi şəkildə İran və Türkiyədən Azərbaycan torpaqlarına köçürülməsindən sonra Çar Rusiyasının himayəsi ilə üstün mövqelərə çıxdıqlarını göstərir.

Şükürov, K. Qarabağ Rusiya imperiyası tərkibində //Şükürov K. Qarabağ dünən, bu gün və sabah.- Bakı, 2004.- S.118-121.

MAY

17

Laçın rayonunun işğalı günü 1992



Ərazisi: 1835 km²
Əhalisi: 72 228 nəfər
İşğal tarixi: 17.05.1992

Bu gün Azərbaycanın strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Laçın rayonunun işğalından 23 il keçir.

1992-ci il may ayının 17-18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıdaraq talan etmişdir. İşğal nəticəsində 72 min 228 Azərbaycan vətəndaşı öz yurdundan didərgin düşmüş, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Rayonda 8950 bina, o cümlədən 7 sənaye və tikinti müəssisəsi, 471 xidmət idarəsi, 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qalmışdır.

Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən mayın 18-də Laçını işğal etmişdir. Əhəmiyyətli geostrateji mövqeyə malik olan Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurmuşdur.

Təbii sərvətlərlə zəngin olan Laçın rayonunda Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar mövcud olmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayonun işğalı ilə bağlı yaydığı məlumatda bildirilmişdir ki, Laçın rayonu ərazisində ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü və digər təbii sərvətləri var.

Laçın rayonundakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da hal-hazırda işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü var. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri məskunlaşmışdır. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağ-keçisi (bezoar keçisi) 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda canavar, porsuq, dələ, qırqovul, kəklik qeydə alınmışdır.

İşğalçı dövlət beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq hazırda Laçında qanunsuz məskunlaşma aparır.

Bu gün hər bir azərbaycanlı Qarabağın işğal altından qurtulacağı günü gözləyir.

Qarabağa böyük qayıdışın olacağına hamımız inanırıq.

Ə d ə b i y y a t

Ağamirzə, T. Ermənilər həmişə Laçına yiyələnmək arzusunda olmuşlar /T.Ağamirzə //Vətən səsi.- 2011.- 13 may.- S.3.

Alıoğlu, S. Laçın Azərbaycanın əzəli və əbədi torpağıdır /S.Alıoğlu //Respublika.- 2011.-18 may.- S.7.

Qaraca, B. Ay Laçın... Laçının işğalından 21 il keçir /B.Qaraca //Azərbaycan.- 2013.- 18 may.- S.6.

Laçın rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.63-82.

Nərimanoğlu, M. Laçında talanmış maddi-mənəvi sərvətimiz /M.Nərimanoğlu //Azərbaycan.- 2013.- 19 may.- S.7.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.avciya.az

www.lachin-ih.gov.az

MAY

28

Tarixdə bu gün

Respublika Günü 1990



1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradılmışdı. Bu respublika millətimizin tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur.

Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Demokratik Cümhuriyyət Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

1918-ci il may ayının 28-də Azərbaycan milli Şurası İstiqlaliyyət Bəyannaməsi ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Demokratik Cümhuriyyəti yarandığını elan etmişdi. Bu tarixi sənədə görə Azərbaycan qonşu xalqlar və dövlətlərlə dostluq münasibəti quracaqdı. Müstəqil Azərbaycan dövlətinin təşkil idarəsi xalq cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görməmiş və bütün vətəndaşların siyasi hüquqlarını təmin etmişdi.

Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı isə Fətəli Xan Xoyski seçilmişdi. 10 gün Milli Şura Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülmüş, yalnız 1918-ci ilin sentyabrında Türkiyə ordusunun rəhbərliyi ilə Bakı daşnak-rus qüvvələrindən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçmüşdü.

Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. 96 il bundan əvvəl ilk dəfə qadınlara seçim hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən Müstəqil Azərbaycan Cümhuriyyəti, o cümlədən milli ordu, milli pul, demokratlaşma, milli bank, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının tanınması, Azərbaycanın bütövlüyünü təmin etmək, iqtisadi islahatları həyata keçirmişdir.

Azərbaycan Demokratik Respublikasını rəsmi surətdə 1918-ci il iyun ayının 4-də tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur.

1918-ci il 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Demokratik Respublikasının bayrağı qırmızı rəngdə idi.

Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bilmişdi. Təəssüflər olsun ki, Müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalmış, müvəqqəti olaraq devrilmişdi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etmişdi. Bolşeviklər tərifindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilməmiş və M.Ə.Rəsulzadənin "BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ" şüarı öz əksini tapmış və nəhayət, 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etmişdir.

1990-cı ildən Respublika günü – dövlət müstəqilliyinin bərpa edilməsi günü dövlət bayramı kimi qeyd edilir.

Ə d ə b i y y a t

Seyidov, Y. Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi /Y.Seyidov //Respublika.- 2013.- 26 may.- S.4.

www.anl.az

www.az.wikipedia.org

1 iyun

Gün çıxır 06:12
Gün batır 21:05

30 iyun

Gün çıxır 06:13
Gün batır 21:15

İYUN

22 may

21 iyun

Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünə keçdiyi dövrdə doğulanlar çox ağıllı olub hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

B.E.	1
Ç.A.	2
Ç.	3
C.A.	4
C.	5
Ş.	6
B.	7
B.E.	8
Ç.A.	**9**
Ç.	10
C.A.	11
C.	12
Ş.	13
B.	14
B.E.	15
Ç.A.	**16**
Ç.	17
C.A.	18
C.	19
Ş.	20
B.	21
B.E.	22
Ç.A.	**23**
Ç.	24
C.A.	25
C.	26
Ş.	27
B.	28
B.E.	29
Ç.A.	**30**

- *Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Milli Silahlı Qüvvələr Günü (26.06.1918)*
- *Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.)*

130 il Üzeyir Hacıbəyli 1885-1948



Üzeyir Hacıbəyli Azərbaycan musiqisini dərindən araşdırmış və onun zəngin və çoxşaxəli olduğunu elmi məqalələrində göstərmişdir. Azərbaycan musiqisində realizm, xəlqilik və beynəlmiləlçilik kimi estetik problemlərin ciddi tədqiqi də Hacıbəylinin adı ilə bağlıdır.

Ü.Hacıbəyli istedadlı bəstəkarlar, musiqişünaslar nəsli yetişdirmişdir. Q.Qarayev, F.Əmirov, Niyazi, S.Hacıbəyov və başqaları onun tələbələridir.

Bəstəkar 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini – Azərbaycan Dövlət Türk Musiqi Məktəbini (sonralar texnikum) təşkil etmişdir. 1926-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərən Ü.Hacıbəyli burada nəzəriyyə, harmoniya, Azərbaycan musiqisinin əsasları fənlərindən dərs demiş, konservatoriya yanında ilk çoxsəsli Azərbaycan xor kollektivini yaratmışdır.

Üzeyir bəy 1927-ci ildə Müslüm Maqomayevlə birgə ilk "Azərbaycan türk el nəğmələri" məcmuəsini nəşr etdirmişdir. O, 1931-ci ildə Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestri təşkil etmişdir.

İYUN

2015



Dünya ədəbiyyatı

Alman yazıçısı Mann Tomasın (06.06.1875-12.08.1955) anadan olmasının 140 illiyi

Gürcü şairi, ictimai xadim Sereteli Akaki Rostomoviçin (21.06.1840-08.02.1915) anadan olmasının 175 illiyi

Rus şairi Tvardovski Aleksandr Trifonoviçin (21.06.1910-18.12.1971) anadan olmasının 105 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar ali məktəb işçisi, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Beynəlxalq Memarlıq və İnşaat Akademiyasının, Avropa Memar-Akustiklər və Beynəlxalq Ekologiya Akademiyasının akademiki, memarlıq doktoru, professor Əbdülrəhimov Ramiz Həmid oğlunun (29.06.1940) anadan olmasının 75 illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, tarzən Əliyev Firuz Əliabbas oğlunun (04.06.1950) anadan olmasının 65 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Hacıyev Telman Hacı oğlunun (09.06.1930-05.01.1991) anadan olmasının 85 illiyi

Naxçıvan MR və Azərbaycan Respublikasının Əməkdar artisti, müğənni Səfərov Yaşar Abutalıb oğlunun (25.06.1940-2007) anadan olmasının 75 illiyi

Xalq artisti, müğənni Məmmədov Gülağa Allahverdi oğlunun (28.06.1925-07.06.1994) anadan olmasının 90 illiyi



Teatr.Kino

Xalq artisti Pənahova Amaliya Əliş qızının (15.06.1945) anadan olmasının 70 illiyi 163

Xalq artisti Sənani Möhsün Sadıq oğlunun (19.06.1900-11.02.1981) anadan olmasının 115 illiyi 164

Xalq artisti Ələsgərov Süleyman Ağababa oğlunun (20.06.1915-10.12.1998) anadan olmasının 100 illiyi 165

Xalq artisti, rejissor Güləhmədova-Martınova Gülcahan Şüaulla qızının (23.06.1925) anadan olmasının 90 illiyi 166

Rejissor Ələkbərov Əliheydər Əbdüləli oğlunun (26.06/07.1915-14.03.1974) 167

anadan olmasının 100 illiyi 168
Xalq artisti Kazımov Ağakişi Şəmməd oğlunun (28.06.1935) anadan olmasının 80 illiyi 169



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Qurbanov Novruz Əliyullah oğlunun (02.06.1975-17.03.1995) anadan olmasının 40 illiyi 170
Azərbaycanın Milli Qəhrəmanı Əkbərov Rövşən Telman oğlunun (04.06.1965) anadan olmasının 50 illiyi 171
Azərbaycanın Milli Qəhrəmanı Quliyev Zabit Adil oğlunun (06.06.1975) anadan olmasının 40 illiyi 172
Azərbaycanın Milli Qəhrəmanı Əmirov Faiq İsfəndiyar oğlunun (22.06.1975-17.03.1995) anadan olmasının 40 illiyi 173



Siyasət.Hərbi iş

Millət vəkili, texnika elmləri doktoru, professor Mirələmov Hüseynbala Fazil oğlunun (25.06.1945) anadan olmasının 70 illiyi



Tarix

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Baxşəliyev Vəli Baxşəli oğlunun (05.06.1955) anadan olmasının 60 illiyi 174



Fəlsəfə.İqtisadiyyat

Sosialist Əməyi Qəhrəmanı Qazıyeva Sevil Həmzət qızının (01.06.1940-23.09.1963) anadan olmasının 75 illiyi
Akademik Səmədzadə Ziyad Əliabbas oğlunun (25.06.1940) anadan olmasının 75 illiyi 175




Coğrafiya.Geologiya

Geologiya-minerologiya elmləri doktoru Allahverdiyev Şamil İsmayıl oğlunun (06.06.1930) anadan olmasının 85 illiyi



Riyaziyyat.Fizika.Astronomiya

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Hüseynov Rauf Vəli oğlunun (12.06.1940) anadan olmasının 75 illiyi



Kimya.Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Əsədov Ziyafəddin Həmid oğlunun (19.06.1950) anadan olmasının 65 illiyi

Texnika.Mühəndis işi



Maşınşünaslıq və maşın detalları üzrə alim, texnika elmləri doktoru, professor Abdullayev Ayaz Hidayət oğlunun (02.06.1940) anadan olmasının 75 illiyi

Tarixdə bu gün



Uşaqların Beynəlxalq Müdafiə Günü (01.06.1950) 176
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)
Ümumdünya ətraf mühitin mühafizəsi günü (05.06.1972)
Azərbaycanın mətbuat və ictimai-siyasi tarixində mühüm rol oynamış "Həyat" qəzeti nəşrə başlamaşının 110 illiyi (07.06.1905) 177
Azərbaycan SSR Ali Sovetinin Ermənistanla sərhəd boyu ərazilərdə fövqəladə vəziyyət elan edilmişdir (11.06.1990)
Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında fərman verilmişdir (13.06.2000)
Beynəlxalq Qan Donoru Günü (14.06.2004)
Milli Qurtuluş Günü (15.06.1993) 178
Səhiyyə İşçiləri Günü (17.06.2001)
İnsan Hüquqları Günü (18.06.2007)
Dənizçilərin Peşə Bayramı Günü (19.06.2014)
Ümumdünya Qaçqınlar Günü (20.06.2000) 179
Beynəlxalq Olimpiya Günü (23.06.1967)
Dövlət Qulluqçularının Peşə Bayramı (23.06.2006)
Azərbaycan YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2010-2014-cü illər üzrə üzvü seçilmişdir (24.06.2010)
Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.)
Milli Silahlı Qüvvələr Günü (26.06.1992) 180
Birləşmiş Millətlər Təşkilatı qurulmuşdur (26.06.1945)

İYUN

28

90 illiyi

Gülağa Məmmədov 1925-1994

Müğənni



Gülağa Allahverdi oğlu Məmmədov 1925-ci il iyunun 28-də Lənkəranın Kiçik Bazar adlanan məhəlləsində anadan olmuşdur. Bakıda boya-başa çatmışdır.

Müğənni kimi fəaliyyətə 30-cu illərdə "Kəndlilər evi"ndə başlamışdır. Burada özfəaliyyət dərnəyinin ən fəal üzvlərindən idi. Opera Teatrında keçiriləcək müsabiqədə iştirak edən azyaşlı Gülağa Ü.Hacıbəyli, Bülbül, S.Rüstəmov kimi görkəmli sənətkarların münsiflər heyətinin tərkibində olduğu müsabiqədə bəyənilir.

G.Məmmədov 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyünün iştirakçısı olur. Böyük Teatrın səhnəsində maestro Niyazinin müşayiəti ilə ifa etdiyi Koroğlunun "Səni gördüm, aşiq oldum" ariyası böyük alqışlarla qarşılanmış, Moskvadan gümüş medal və Fəxri fərmanla qayıtmışdır. Bundan sonra Üzeyir Hacıbəylinin dəstəyi ilə onun ailəsinə ikiotaqlı mənzil və aya 250 manat təqaüd ayrılmışdır.

Gülağa 15 yaşında Səid Rüstəmovun ansamblına qəbul edilmiş, sonra konservatoriyada təhsil almışdır. O, 20 yaşından, 1947-ci ildə Musiqili Komediya Teatrında çalışmağa başlamış, Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarında Məcnun, Kərəm, Əsgər, Sərvər rollarında çıxış etmişdir. Lakin bir neçə ildən sonra, 1949-cu ildə teatrdan ayrılmışdır. Konservatoriyada oxuduğu illərdə o, vokal dərsini Bülbüldən, muğamın sirlərini isə Sarabskidən öyrənmişdir. Oxuduğu mahnıların çoxu isə S.Rüstəmova məxsus olurdu. Çünki, S.Rüstəmov mahnılarının əksəriyyətini xüsusi olaraq onun üçün yazırdı. T.Quliyevin də, C.Cahangirovun da əsərlərini ilk səsləndirən G.Məmmədov olub.

Müğənni şirin, lakonik səsi ilə 600-dən artıq xalq və bəstəkar mahnıları oxuyub. 15-dən çox bədii filmdə, teatr tamaşalarında xarakterik musiqi nömrələri ifa edib. Respublikada fəaliyyət göstərən əksər xalq çalğı alətləri ansambllarıyla, simfonik orkestrlərlə birgə çıxışlar edib. Müslüm Maqomayev adına Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında, Dövlət Musiqili Komediya Teatrında işləyib. 1952-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (hazırda Səid Rüstəmov adına) xalq çalğı alətləri ansamblının solisti olub. "Ay qız", "Ana Kür", "Oxu, gözəl", "Şeir deyilmi", "Mənim qızım" kimi mahnıların hər birini özünəməxsus tərzdə ifa edib.

Müğənni əvvəlcə "Əməkdar artist", 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Sevilən müğənni Gülağa Məmmədov 1994-cü il iyun ayının 7-də vəfat etmişdir.

2002-ci ildə onun haqqında "Azərbaycantelefilm" tərəfindən qısametrajlı sənədli televiziya filmi çəkilmişdir.

Ədəbiyyat

Çəmənli, M. Gülağa Məmmədov //Çəmənli M. Sənət hekayələri.- Bakı, 2014.- S.432-436.

Xatirələrdə yaşayan sənətkar...: "Koroğlu" ariyası ilə böyük səhnələrdə... //Azəadlıq.- 2012.- 5 aprel.- S.14.

Məmmədov Gülağa Allahverdi oğlu //Üzeyir Hacıbəyli Ensiklopediyası.- Bakı, 2008.- S.150.

Nizamqızı, H. Səs xatirəsi /H.Nizamqızı //Mədəniyyət.- 2012.- 11 iyul.- S.12.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org

www.az.wikipedia.org

İYUN
15

70 illiyi

Amaliya Pənahova 1945

Aktrisa



Ədəbiyyat

Aktyor yaradıcılığında obrazın yaranma prosesində ifaçının ikinci plan duyumu və onun təcəssüm vasitələri: dərs vəsaiti /A.Pənahova.- Bakı: Şirvannəşr, 2007.- 375 s.

Yaratdığım obrazların ikinci planı /A.Pənahova.- Bakı: Tural NPM, 2001.- 236 s.

Sönməyən işıq Heydər Əliyev mənim həyatımda /A.Pənahova //Azərbaycan.- 2013.- 14 iyul.- S.6.

Rəhimli, R. Teatr kraliçası. 40 il səhnədə /R.Rəhimli.- Bakı: Adiloğlu, 2004.- 351 s.

Bürcəliyeva, Ş. Sənətə böyük sevgi /Ş.Bürcəliyeva //Mədəniyyət.- 2013.- 14 iyun.- S.13.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

Amaliya Əliş qızı Pənahova 1945-ci il iyun ayının 15-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1962-1966-cı illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunu dram və kino aktyorluğu ixtisası üzrə bitirmişdir.

Kurs rəhbəri Adil İsgəndərovdan sənətin sirlərini öyrənmiş, institutun ikinci kursundan Akadenik Dram Teatrın səhnəsində çıxış etməyə başlamışdır. Aktrisanın səhnə fəaliyyəti Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ilə sıx bağlıdır. Aktrisa yazıçının "Unuda bilmirəm" pyesində Nərmin, "Sən həmişə mənimləsən"ndə Nargilə, "Xurşidbanu Natəvan" pyesində Natəvan, "Mahnı dağlarda qaldı"da Şahnaz və başqa obrazları yüksək professionallıqla canlandırmışdır.

Amaliya Pənahova kinoda bir sıra epizodik rollara çəkilmiş, ilk böyük rolu Əlisəttar Atakişiyevin 1977-ci ildə çəkdiyi "Qərib cinlər diyarında" film nağılındakı Zərri obrazı olmuşdur.

1982-ci ildə ilin aktrisası elan edilmiş, 1998-ci ildə isə Türk dünyasının birinci kino festivalında adı altı populyar aktyor sırasında qeyd olunmuşdur.

Böyük istedada, hərtərəfli biliyə malik olan aktrisa həmçinin bacarıqlı rejissor kimi də özünü sınamışdır. O, 43 illik sənət fəaliyyəti dövründə 12 tele və teatr tamaşasına quruluş vermişdir ki, bunların çoxu lentə alınıb, hal-hazırda televiziyanın Qızıl fondunda saxlanılır.

Aktrisanın istedadının başqa bir cəhəti onun böyük təşkilatçılıq qabiliyyətidir ki, 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və bu teatra orta və yaşlı nəsillə yanaşı, gənc istedadlı aktyorları da cəlb etmiş və onların yaradıcılıq qabiliyyətinin inkişafı üçün hər cür lazımi şərait yaratmışdır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə dərs demək üçün dəvət olunmuşdur. Həmin universitetin professorudur.

2003-cü ildə elmlər namizədi, 2013-cü ildə sənətşünaslıq doktoru elmi dərəcəsini almışdır.

2000-2005-ci illərdə Milli Məclisin deputatı, sosial-siyasət daimi komissiyasının üzvü, MDB Parlamentlərarası Mədəniyyət, İnformasiya, Turizm, İdman daimi Komissiyasının, İtaliya-Azərbaycan Parlamentlərin işçi qrupunun sədri olmuşdur.

1968, 1972-ci illərdə Lenin Komsomolu və Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuşdur. Teatr və kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə ona 1974-cü ildə "Əməkdar artist", 1985-ci ildə isə "Azərbaycan SSR-in Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan milli teatr sənətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidentinin 1995-ci il 8 iyul tarixli Fərmanı ilə "Şöhrət" ordeni, 25 iyun 2013-cü ildə "Şərəf" ordeni ilə təltif edilmişdir. Prezident təqaüdçüsüdür.

115 illiyi
Möhsün Sənani 1900-1981
Aktyor



Möhsün Sadıq oğlu Cəfərov (Möhsün Sənani) 1900-cu il iyun ayının 19-da Tiflis şəhərinin Şeytanbazar məhəlləsində doğulmuşdur.

Möhsün valideynlərini çox erkən itirmişdir. O, 1909-cu ildən gündəlik çörəkpulu qazanmaq üçün işləməyə başlamışdır. Şirin və məlahətli səsi olan Möhsün Sənani 1911-ci ildə məhərrəmlik ayında göstərilən şəbih tamaşalarında "Qasım otağı" epizodunda çıxış etmişdir.

"Hicaz" muğamı üstündə oxuduğu mərsiyə-qəsidənin xoş sədası məhəlləyə yayılmış, Tiflis şəhərində azərbaycanlıların həvəskar teatr truppasının məşhur aktyoru Mirzəxan Quliyev onu şagird və yeniyetmələrin dram dərnəyinə dəvət etmişdir. 1914-cü ilin axırlarında aktyorluğa ciddi maraq göstərən, səylə çalışan Möhsün Sənani taleyini ömürlük səhnə sənətinə bağlamışdır.

1915-1919-cu illər arasında Tiflisdə azərbaycanlı teatr həvəskarlarının oynadıqları tamaşalarda iştirak edən Möhsün Sənani 1919-cu ilin iyununda Bakıya gəlmişdir. Bir qədər həvəskar aktyor kimi çıxış etmiş və sonra dövlət teatrının truppasına qəbul olunmuşdur. Möhsün Sənani Milli Dram Teatrında işləməklə yanaşı, 1927-1930-cu illərdə Bakı Türk İşçi Teatrında hazırlanan bir sıra tamaşalarda da oynamışdır. Buna aşağıdakı rolları misal göstərmək olar: İsgəndər, Mirbağır ağa və Məşədi Oruc ("Ölülər", C.Məmmədquluzadə), Yuri ("İki qardaş", M.Lermontov), Nəbi ("Qaçaq Nəbi"), Mehdi-Mixaylo ("Uzaq sahillərdə", İ.Qasımov və H.Seyidbəyli), Qatır Məmməd ("Qatır Məmməd", Z.Xəlil), Gərşivəz ("Səyavuş", H.Cavid), Zavyalov ("Çiçəklər yolu", V.Katayev), Surxay ("Aydın", C.Cabbarlı), Ferdinand ("Ögey ana", O.deBalzak), S.Tulenin ("Gənc qvardiya", A.Fadeyev), Xanmurad ("Bahar suları", İ.Əfəndiyev), Şərif, Dövlət bəy, Xosməmməd ("Almaz", "Aydın" və "Dönüş", C.Cabbarlı) və s.

Möhsün Sənaninin yaradıcılığında "Azərbaycanfilm"də istehsal olunmuş kinolarda oynadığı rollar xüsusi yer tutur. Aktyorun çəkildiyi səssiz və səsli, ağ-qara və rəngli filmlərdəki rollarının ən məşhuru Eldar ("Kəndlilər", 1939) və Qoçu Əsgər ("O olmasın, bu olsun", 1956) obrazlarıdır.

Onun zəngin səhnə təcrübəsini, yaradıcılıq xüsusiyyətlərini öyrənmək bizim gənc aktyor və kino sənətkarlarımız üçün maraqlı olduğu qədər də səmərəlidir.

Sənətkarın xidmətləri yüksək qiymətləndirilmiş, üç "Qırmızı Əmək Bayrağı", "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenləri ilə təltif edilmiş, 17 iyun 1943-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1949-cu il iyul ayının 21-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Möhsün Sənani 1981-ci il fevral ayının 11-də Bakıda vəfat etmiş və II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Dadaşov, A. Möhsün Sənani : (həyat və yaradıcılığı) /A.Dadaşov.- Bakı: Yazıçı, 1981.- 126 s.

Abbaslı, T. Bir aktyorun üç möhtəşəm rolu: Biri həyatda, ikisi sənətdə /T.Abbaslı //Mədəniyyət.- 2011.- 17 iyun.- S.11.

Abbaslı, T. Lütfən oxuyasız... /T.Abbaslı //Mədəniyyət.- 2014.- 12 fevral.- S.11.

Fərəcov, S. Unudulmaz sənətkarlar...: Möhsün Sənani /S.Fərəcov //Mədəniyyət.- 2011.- 11 fevral.- S.11.

Zümrüd. Aktyoru xalqa sevdirən onun sənətə olan böyük məhəbbətidir /Zümrüd //Səs.- 2014.- 11 fevral.- S.13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

100 illiyi

Süleyman Ələsgərov 1915-1998

Aktyor



Süleyman Ağababa oğlu Ələsgərov 1915-ci il iyun ayının 20-də Bakıda doğulmuşdur. Yeddiillik təhsilini başa vuraraq Maliyyə Texnikumuna daxil olmuş, orada üç il oxumuş və iqtisadçı diplomu alandan sonra Azərbaycan Dövlət Tibb İnstitutuna imtahan vermiş və üç il də orada oxumuşdur. O, səhnəyə 1933-cü ildə Dənizçilər Mədəniyyət Evinin dram dərnəyində çıxmışdır. Səhnə sənətinə bağlandığına görə təhsilini yarımçıq qoymuşdu. 1936-cı ilin sentyabrında Süleyman Ələsgərov Gənc Tamaşaçılar Teatrına müsabiqə yolu ilə aktyor götürülmüşdür.

Onun GTT-da ifa etdiyi əsas rollar bunlardır: Polad (“Qızıl quş”, M.Seyidzadə), Fərzəli bəy (“Nəsrəddin”, Y.Əzimzadə), Aqşin (“Babək”, Ə.Yusifov), Vəzir, Oruc (“Fitnə” və “Qaraca qız”, A.Şaiq), Kaçkaryov, Poçt müdiri (“Evlənmə”, və “Müfəttiş” N.Qoqol), Arqant (“Skapenin kələkləri”, J.B.Molyer), Müşavir (“Qarlar Kraliçası”, Y.Şvarts), Eldostu (“Çiçəkii dağ”, M.Təhmasib), Hacı Nuru və Molla Salman (“Molla İbrahimxəlil kimyagər”, M.F.Axundzadə), Valentin və Pontolone (“İki ağanın bir nökəri”, K.Haldoni), Molla Səfi və Hacı Qəmbər (“Hacı Qəmbər”, N.Vəzirov), Lorenso (“Romeo və Cülyetta”, V.Şekspir), Yaşar (“Yaşar”, C.Cabbarlı), Musa (“Bəxtsiz cavan”, Ə.Haqverdiyev), Valentin (“İki veronalı”, V.Şekspir), Çuxray (“Polad necə bərkidi”, N.Ostrovski), Komissar (“Anacan”, Y.Əzimzadə), Zeynalabdm Şirvani (“Əlvida, Hindistan!”, Q.Rəsulov), Səməd Vurğun, Baba, Əfrasiyab (“Komsomol poeması”, “Açıl bənövşəm, açıl” və “Rüstəm və Söhrab”, İ.Coşqun), Montanelli (“Ovod”, E.Voyniç), Namaz (“Xırs quldurbasan”, M.F.Axundzadə), Mahmud (“Dağ seli”, Ə.Əsgərov), Kaplar (“Qavroş”, V.Hüqonun “Səfillər” romanı üzrə səhnələşdirənləri Z.Nemətov və Ə.İsmayılov), Murtuz (“Mənim nəğməkar bibim”, Ə.Əylisli), Naçalnik (“Danabaş kəndinin məktəbi”, C.Məmmədquluzadə).

Süleyman Ələsgərov “Azərbaycanfilm” kinostudiyasında istehsal olunan bir neçə kinolentlərində çox kiçik epizodlara çəkilmişdir. Onun ən populyar və irihəcmli ekran obrazı “Bizim Cəbiş müəllim” filmində əsas qəhrəman olan Cəbiş müəllim roludur.

Aktyor GTT-nın inkişafında xidmətlərinə görə 1954-cü il fevral ayının 27-də “Azərbaycan Respublikasının Əməkdar artisti”, 1982-ci il dekabr ayının 1-də isə “Xalq artisti” fəxri adlarına layiq görülüb. 1961-ci ildə oynadığı Səməd Vurğun roluna görə Respublika Lenin komsomolu mükafatı laureatı olub. Yaradıcılığının özəyi, mayası əsasən realist aktyor məktəbinin estetik prinsipləri ilə yoğrulmuşdur. Qəhrəman personajlarının ifası psixoloji dramatizmi, komik və satirik rolları təbiiliyi, koloritli gülüşü, estetik zərifliyi ilə səciyyəvi idi.

Süleyman Ələsgərov 1998-ci il dekabr ayının 10-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Ələsgərov Süleyman Ağababa oğlu //Cəlil Məmmədquluzadə Ensiklopediyası.- Bakı: Şərq-Qərb, 2008.- S.96.

Rəhimli, İ. Süleyman Ələsgərov /İ.Rəhimli //Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.743-745.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.mugamradio.az

90 illiyi

Gülcahan Güləhmədova-Martınova 1925

Rejissor



Gülcahan Şüaulla qızı Güləhmədova-Martınova 1925-ci il iyun ayının 23-də Bakı şəhərində, həkim ailəsində anadan olmuşdur. Atası "xalq düşməni" adı ilə həbs olunmuş və sürgün edilmişdir. Gənclik illəri Böyük Vətən müharibəsi dövrünə təsadüf etmiş, o anası ilə birgə hərbi qospitallarda işləməyə başlamış, fəhlə gənclərin gecə məktəbində -132 saylı orta məktəbdə təhsil almışdır. Orta təhsilini bitirdikdən sonra Sənaye və Tibb İnstitutlarına qəbul olunsa da, təhsilini yarımçıq qoyaraq Bakı Teatr İnstitutuna daxil olmuş, 1951-ci ildə oranın birinci rejissor kursunu bitirmişdir. SSRİ Xalq artisti Mehdi Məmmədovun tələbəsi olmuşdur. İlk qadın-rejissordur. Təyinatla Səməd Vurğun adına Rus Dram Teatrında işləməyə başlamışdır. 30 il ərzində bu teatrda rejissor və quruluşçu rejissor işləmişdir. Teatrın səhnəsində onlarla milli və dünya ədəbiyyatı nümunələrini səhnəyə qoymuşdur.

1982-ci ildən Bakı Musiqi Akademiyasının Ş.Məmmədova adına Opera studiyasında baş rejissor işləməyə başlamışdır.

Tələbələri arasında "Qran-pri" laureatı, La Skala teatrının solisti, çoxsaylı musabiqələrin laureatları və diplomantları, xalq və əməkdar artistləri, Respublika və xarici opera teatrlarının (Almaniya, Türkiyə, Misir, Fransa, Boliviya) solistləri vardır.

Onun tərəfindən ümumilikdə 70-dək əsər tamaşaya qoyulmuşdur. 1987-ci ildə lentə alınan İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" televiziya tamaşasının quruluşçu rejissoru olmuşdur.

Gülcahan Güləhmədova-Martınovanın yaradıcı fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1972-ci ildə "Komandorun addımları" tamaşasına görə Respublika Dövlət mükafatına, 1981-ci ildə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adına layiq görülmüşdür. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Hazırda Bakı Musiqi Akademiyasının professorudur. Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Güləhmədova-Martınova, G. "Məni buraxmırlar. Deyirlər ki, hələ vaxtı çatmayıb": Hər yerə səs salan tamaşaların müəllifi və Azərbaycanın ilk qadın rejissoru haqqında nə bir kitab, nə də böyük məqalələr yazılıb /G.Güləhmədova-Martınova; müsahibəni apardı T.Məhərrəmova // Kaspi.- 2010.- 23 iyun.- S.14.

Güləhmədova-Martınova Gülcahan //Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.- S.148.

Elsevər, S. Gülcahan Güləhmədova-Martınova-85: Sadəcə Gülcahan xanım... /S.Elsevər //Ekspress.- 2010.- 25 iyun.- S.23.

Гюльджахан Гюлахмедова: «Пока мы есть...» /Гюльахмедова Г.; интерьвю вел Н.Исмайлова //Зеркало.- 2010.- 24 июля.- С.23-24

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

100 illiyi

Əliheydər Ələkbərov
1915-1974

Rejissor



Əliheydər Əbdüləli oğlu Ələkbərov 1915-ci il iyun (iyul) ayının 26-da Bakı şəhərində anadan olmuşdur.

1931-1934-cü illərdə Bakı Teatr Məktəbində təhsil almışdır. 1964-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunu bitirmişdir.

1931-ci ildən əvvəlcə kütləvi səhnələrə çıxmış, sonra rejissor köməkçisi, rejissor laborant və rejissor assistenti kimi çalışmışdır. 1960-1967-ci illərdə Musiqili Komediya Teatrında baş rejissor işləmişdir. 1967-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Dram Teatrının direktoru olmuşdur. Teatrın repertuar qurumunun formalaşmasında, rejissor sənətinin yeni peşəkarlıq keyfiyyətləri əxz etməsində, aktyor truppasının kamilləşməsində Əliheydər Ələkbərovun böyük xidmətləri var. O, bu teatrda bir sıra uzunömürlü tamaşalara maraqlı quruluşlar vermiş, onlara monumental ruh verməyə çalışmışdır. Xor və baletdən komponent-obraz kimi istifadəyə xüsusi meyl göstərmişdir. Onun rejissurası dolğun ifadə vasitələri, dərin realizmi və təbii yumorun obrazlı bədii həlli ilə seçilmişdir. Bu baxımdan onun teatrda hazırladığı "Bir dəqiqə" (M.Əlizadə və H.Xanməmmədov. 17 oktyabr 1961), "Ulduz" (S.Rəhman və S.Ələsgərov. 6 dekabr 1964), "Haradasan, ay subaylıq?" (S.Qədirzadə və S.Ələsgərov. 16 fevral 1968), "Özümüz bilərik" (Ş.Qurbanov və S.Ələsgərov. 5 yanvar 1963), "Olmadı elə, oldu belə" (15 mart 1964) və "Milyonçunun dilənçi oğlu" (20 may 1966) "Hacı Qara" (M.F.Axundzadənin eyniadlı komediyası əsasında, libretto müəllifi Ş.Bədəlbəyli. Bəstəkarlar V.və R.Mustafayev. 14 oktyabr 1962), "Keçmişin məişət səhnələri" (M.Ə.Sabirin şeirləri əsasında, librettonun müəllifi S.Dadaşov və bəstəkar V.Adıgözəlov) musiqili komediyaları repertuarda daha uzunömürlü olmuşlar.

O, 1966-cı ildə Bolqarıstanın Şumen şəhərindəki Türk teatrında Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" operettasına quruluş vermişdir. 1967-ci ildə filarmoniyada fəaliyyət göstərən "Gəlməli, görməli, gülməli" miniatür satirik teatrının rejissoru olmuşdur. Televiziyada bir neçə əsərə quruluş vermişdir. 1965-ci ildən Azəbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs demişdir.

Əliheydər Ələkbərov "Milyonçunun dilənçi oğlu" musiqili komediyasına görə 1967-ci ildə Üzeyir bəy Hacıbəyov adına Dövlət mükafatına, "Mahnı dağlarda qaldı" tamaşasına görə isə 1972-ci ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür. 1949-cu il iyul ayının 21-də ona "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adı verilmişdir. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

Əliheydər Ələkbərov 1974-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan SSR Xalq artistkası Sona Hacıyeva /Ə.Ələkbərov.- Bakı, 1959.- 48 s.

Ələkbərov Əliheydər Əbdüləli oğlu //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.46.

Ələkbərov Əliheydər Əbdüləli oğlu //Azərbaycan Sovet Ensiklopediyası.-Bakı, 1980.- C.4.- S.163-164.

Rəhimli, İ. Əliheydər Ələkbərov /İ.Rəhimli //Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.295-296.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.mugamradio.az

azteatr.musigi-dunya.az

80 illiyi

Ağakişi Kazımov 1935

Rejissor



Ağakişi Şəmməd oğlu Kazımov 1935-ci il iyun ayının 28-də Ağcabədi rayonunda anadan olmuşdur. 1952-ci ildə Ağcabədi rayonunun Xəlfərəddin kəndində orta məktəbi bitirmişdir.

1952-1957-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsində ali təhsil almışdır. Burada R.Təhmasibin, M.Məmmədovun, M.Haşımovun rəhbərliyi ilə aktyor sənətinin sirlərini öyrənmişdir. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında Akademik Dram Teatrın yaradıcı qrupunun tərkibində iştirak etmişdir.

1960-cı ildə A.Kazımov Quba Dövlət Dram Teatrına baş rejissor göndərilmişdir.

1964-cü ildə o, Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olmuşdur. Orada təhsilini başa vurarkən diplom işi ərəfəsində Kazanda Q.Kamal adına Tatarıstan Dövlət Akademik Dram Teatrında M.Bayciyevin "Duel" dramını, diplom işi kimi isə C.Cabbarlının "Aydın" əsərini tatarca hazırlamışdır.

1969-1970-ci illərdə o, əvvəl direktor, sonralar isə baş rejissor kimi Sumqayıt Dövlət Musiqili Dram Teatrında çalışmışdır. 1973-1983-cü illərdə ADGTT-da, 1978-1983-cü illərdə C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında, 1982-ci ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında, 1984-cü ildə N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında, 1975-1992-ci illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, 1999-cu ildə Köln və Düsseldorf Almaniya Türk Dövlət Teatrında bir çox tamaşalara quruluş vermişdir.

Onun quruluşları monumental səhnə həlli, milli ənənəyə sadiqliyi ilə səciyyəvidir. Onun yaradıcılığının estetik mahiyyətini təcəssüm etdirən "Müsibəti Fəxrəddin" (N.Vəzirov), "Toy" (S.Rəhman) - Sumqayıt Dövlət Dram Teatrında, "Təzə gəlin" (S.Dağlı), "Arşın mal alan" (Ü.Hacıbəyli), "Xoşbəxtliyə gedən yol" (İ.Dunayevski) - Dövlət Musiqili Komediya Teatrında, "Komsomol poeması" (İ.Coşqun), "Məlik Məmməd" (Ə.Abbasov), "Hacı Qənbər" (N.Vəzirov), "Kiçik təpə" (N.Xəzri), "Büllur sarayda" (İ.Əfəndiyev) və s. - Gənc Tamaşaçılar Teatrında hazırlanan bu tamaşalar müxtəlif janrlıdırlar. Bu da rejissorun sənət duyumunun əsas göstəricisi kimi qiymətləndirilə bilər.

1972-2003-cü illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 60-dan artıq əsərə quruluş vermişdir.

20 il Azərbaycan Gənc Tamaşçılar Teatrında baş rejissor, 10 il Akademik Dram Teatrında rejissor işləmişdir. Hazırda ADMİU-nun professorudur.

Azətbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə 1987-ci ildə "Əməkdar incəsənət xadimi", 2000-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1998-ci ildə "Qızıl Dərviş", 2014-cü ildə "Cəfər Cabbarlı" mükafatlarının laureatı olmuşdur. Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Rejissor sənətinin əsasları: dərs vəsaiti /A.Kazımov.- Bakı: Azərbaycan, 2013.- 247 s.

Teatr və onun yaradıcıları /A.Kazımov.- Bakı: Xəzər Universiteti, 2008.- 500 s.

"Azərbaycan teatrının inkişafı üçün təkanverici, ümidverici gəncləri axtarıb tapmaq lazımdır" /A.Kazımov; müsahibəni apardı C.Səlimqızı //Mərkəz.- 2012.- 26 iyul.- S.14.

Hacızadə, N. Onun sənət həyatı: Azərbaycanın Xalq artisti Ağakişi Kazımovun 75 illik yubileyinə həsr olunur /N.Hacızadə.- Bakı: Elm və təhsil, 2010.- 211 s.

Hacızadə, N. İstedad və zəhmət /N.Hacızadə //Mədəni həyat.- 2014.- №3.- S.26-30.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

40 illiyi

Novruz Qurbanov 1975-1995

Milli Qəhrəman



Novruz Əliyullah oğlu Qurbanov 1975-ci il iyun ayının 2-də Ağstafa rayonunun Yuxarı Göycəli kəndində anadan olmuşdur.

1992-ci ildə kənd orta məktəbini bitirmişdir.

1993-cü ildə Ağstafa rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. "N" saylı hərbi hissədə xidmət edən Novruz atəşkəs imzalananadək döyüşlərdə iştirak etmişdir.

1995-ci il 13-17 mart hadisələri zamanı dövlət çevrilişinin qarşısının alınmasında iştirak etmiş, mart ayının 17-də həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Qurbanov Novruz Əliyullah oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Yuxarı Göyçəli kəndində dəfn edilmişdir.

Doğulduğu kənddə büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qurbanov Novruz Əliyullah oğlu-Müdafiə Nazirliyi, sıravi-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S. 1.- (Ölümündən sonra).

Əsgərov, V. Qurbanov Novruz Əliyullah oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.178.

Qurbanov Novruz Əliyullah oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.127-128.

Seyidzadə, M. Qurbanov Novruz Əliyullah oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.133.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.zengilan.com



50 illiyi

Rövşən Əkbərov 1965

Milli Qəhrəman



Rövşən Telman oğlu Əkbərov 1965-ci il iyun ayının 4-də Bakı şəhərində dünyaya gəlmişdir.

1972-ci ildə 42 saylı orta məktəbin birinci sinfinə getmiş, səkkizinci sinfə qədər burada təhsil almışdır.

1979-cu ildə C.Naxçıvanski adına Hərbi Məktəbə daxil olmuş, 1982-ci ildə təhsilini başa vurmuşdur. Sonra isə Kiyev Ali Ümumqoşun Komandirlər Məktəbinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1986-cı ildə təyinatla Zaqafqaziya Hərbi Dairəsi Komandanlığının sərəncamına göndərilmişdir. 1987-ci ildə xidmət etdiyi ordunun tərkibində Əfqanıstana göndərilmiş, 1988-ci ildə yenidən öz iş yerinə qayıtmışdır. 1989-cu ildə xidmət etdiyi alayda bölük komandiri vəzifəsinə təyin edilmişdir. 1990-92-ci illərdə Beyləqan rayonunda hərbi komissarın köməkçisi, sobra Azərbaycan Silahlı Qüvvələrinin tərkibində müxtəlif vəzifələrdə çalışmışdır.

1993-1995-ci illərdə motoatıcı briqadanın komandiri vəzifəsində çalışmışdır. Müxtəlif vəzifələrdə işləyən R.Əkbərov 1998-ci ildə Ordu korpusu komandiri vəzifəsinə təyin edilərək general-leytenant rütbəsinə qədər yüksəlmişdir. Rövşən Əkbərov 1999-cu ildə Bakı Ali Dənizçilik Məktəbinin, 2002-ci ildə isə Ukrayna Hərbi Akademiyasının müdavimi olmuşdur.

Azərbaycanın ərazi bütovlüyünün qorunub saxlanmasında göstərdiyi igidliyə görə iki dəfə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı Fərmanı ilə Əkbərov Rövşən Telman oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

2002-ci ildən general-leytenantdır. 2011-ci ilin fevralında Şəmkir korpusunun komandiri təyin olunmuşdur.

Ailəlidir, dörd övladı var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əkbərov Rövşən Telman oğlu-polkovnik leytenant-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi zamanı şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 oktyabr 1994-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1994.- №19.- S.10.

Əsgərov, V. Əkbərov Rövşən Telman oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.74-75.

Əkbərov Rövşən Telman oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova .- Bakı, 2008.- S.54.

Seyidzadə, M. Əkbərov Rövşən Telman oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.51.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

40 illiyi

Zabit Quliyev
1975

Milli Qəhrəman



Zabit Adil oğlu Quliyev 1975-ci il iyun ayının 6-da Kürdəmir rayonunun Ərəbxan kəndində anadan olmuşdur.

1992-ci ildə doğma kəndlərində orta məktəbi bitirmiş, bir müddət kənddə təsərrüfatla məşğul olmuşdur.

1993-cü ildə Milli Ordu sıralarına çağırılmış və oradan da döyüş bölgəsinə göndərilmişdir. Zabit Quliyev Ağdam, Füzuli, Ağdərə, Tərtər bölgələrində gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. Seysulan kəndi uğrunda gedən döyüşdə düşmənin 4 tankını vurmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Quliyev Zahid Adil oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ailəlidir, bir övladı var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Zabit Adil oğlu-Müdafiə Nazirliyi, çavuş-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.

Əsgərov, V. Quliyev Zabit Adil oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.176.

Quliyev Zabit Adil oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S. 127.

Seyidzadə, M. Quliyev Zabit Adil oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.127.

İ n t e r n e t d ə

www..anl.az

www.az.wikipedia.org

www.infocenter.gov.az

www.milliqahraman.az

40 illiyi

Faiq Əmirov
1975-1995

Milli Qəhrəman



Faiq İsfəndiyar oğlu Əmirov 1975-ci il iyun ayının 22-də Zaqatala rayonunun Bəhmədli kəndində anadan olmuşdur.

1992-ci ildə doğma kəndində orta məktəbi bitirmişdir.

1993-cü ildə orduya çağırılmış, Füzuli, Tərtər, Ağdərə uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

1995-ci il martın 17-də dövlət çevrilişinə cəhdin qarşısının alınmasında qəhrəmancasına həlak olmuşdur. Bəhmədli kənd qəbiristanlığında dəfn edilmişdir. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Əmirov Faiq İsfəndiyar oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Zaqatala şəhərindəki küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əmirov Faiq İsfəndiyar oğlu-Müdafiə Nazirliyi, sıravi-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S. 1.- (Ölümündən sonra).

Əsgərov, V. Əmirov Faiq İsfəndiyar oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.95.

Əmirov Faiq İsfəndiyar oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.67.

Seyidzadə, M. Əmirov Faiq İsfəndiyar oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.66.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



60 illiyi

Vəli Baxşəliyev 1955

Alim



Vəli Baxşəli oğlu Baxşəliyev 1955-ci il iyun ayının 5-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz kəndində anadan olmuşdur.

Naxçıvan Dövlət Pedaqoji İnstitutun tarix fakültəsini bitirmişdir.

Əsas elmi nailiyyətləri: E.ə. VI-I minilliklərdə Naxçıvanda meydana gələn qədim metallurgiya və metalişləmə sənətinin yerli xammal mənbələri əsasında meydana gəlib inkişaf etdiyi müəyyən edilmiş; Naxçıvanın qədim mədəniyyətlərinin dövrləşdirilməsi ilə bağlı problemlərin tədqiq edilərək Erkən və Orta Tunc dövrü abidələri üçün yeni dövrləşdirmə verilmiş; Naxçıvanın Erkən Tunc dövrü mədəniyyətinin vətəni olduğu müəyyən edilmiş; Naxçıvanın qədim mədəniyyətinin Ön Asiya və Cənubi Qafqaz ölkələri ilə qarşılıqlı münasibətləri tədqiq edilərək müəyyənləşdirilmişdir ki, Orta Tunc dövrü Boyalı qablar mədəniyyəti Cənubi Qafqazın digər ölkələrinə Naxçıvandan yayılmışdır; Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti tədqiq edilmiş, Naxçıvanda meydana gələn qədim mədəniyyətlərin, o cümlədən qədim sənət əsərlərinin Azərbaycan xalqının etnoqrafiyası və folkloru ilə sıx bağlı olduğu müəyyən edilmişdir.

Gəmiqaya təsvirlərinin böyük bir qisminin semantik məzmunu açılmış; Naxçıvanın arxeoloji abidələri toplu halında nəşr etdirilmişdir.

Naxçıvan ərazisində minə yaxın arxeoloji abidə aşkar edilmiş və pasportlaşdırılmışdır. Son illərin araşdırmaları zamanı Neolit və Eneolit mədəniyyətinə aid yeni abidələr aşkar edilmiş, Erkən Dəmir dövründə Şərurda Urartulara qarşı mübarizə aparan qədim dövlətin olduğu müəyyən edilmişdir.

Tarix elmləri doktoru Vəli Baxşəliyev, 2007-ci ildən arxeologiya ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyasına müxbir üzv seçilmişdir.

Alimin kadr hazırlığında da xidmətləri vardır. 145 elmi əsəri çapdan çıxmışdır. 25 elmi əsəri xaricdə nəşr olunmuşdur.

Vəli Baxşəliyev hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsində şöbə müdiri işləyir.

Ədəbiyyat

Azərbaycan arxeologiyası: ali məktəb tələbələri üçün vəsait /V.Baxşəliyev.- Bakı: Elm, 2007.- 238 s.

Naxçıvanın arxeoloji abidələri /V.Baxşəliyev.- Bakı: Elm, 2008.- 301 s.

Ovçulartəpəsi: 2006-2008-ci il tədqiqatlarının ilk nəticələri /V.Baxşəliyev, C.Marro, S.Aşurov.- Bakı: Elm, 2010.- 153 s.

Sirabda arxeoloji araşdırmalar /V.Baxşəliyev.- Bakı: Oskar, 2010.- 160 s.

Naxçıvanın tarixi coğrafiyasına aid yeni faktlar /V.Baxşəliyev //Azərbaycan.- 2014.- 7 mart.- S.7.

Bu qala bizim qala //Elm.- 2010.- 28 yanvar.- S.17.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

75 illiyi Ziyad Səmədzadə 1940

Akademik



Ziyad Əliabbas oğlu Səmədzadə 1940-cı il iyun ayının 25-də Bakı şəhərinin Buzovna kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1962-1965-ci illərdə SSRİ EA İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil almış və elə həmin institutda namizədlik dissertasiyası müdafiə etmişdir.

1971-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsinə yiyələnmiş, 1977-ci ildə professor elmi rütbəsini almışdır.

1976-1978-ci illərdə o, Azərbaycan SSR Dövlət Plan Komitəsi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu direktorunun birinci müavini, 1978-82-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru olmuşdur. 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

1983-1993-cü illərdə Azərbaycan KPMK iqtisadiyyat şöbəsinin müdiri, Azərbaycan Respublikası Ali Sovet sədrinin birinci müavini, Baş nazirin birinci müavini, Dövlət Plan-İqtisad Komitəsinin sədri, TASİS və TRASEKA proqramları üzrə Azərbaycanın Milli Koordinatoru olmuşdur. O, iqtisadi inkişaf, struktur, demoqrafiya, məşğulluq, effektlilik kimi aktual problemlərə dair 500-dən çox əsərin, çoxsaylı monoqrafiyaların müəllifidir.

Azərbaycan tarixinin mürəkkəb dövrlərindən birində Respublika Ali Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdir. Akademikin apardığı dərin iqtisadi araşdırmalar əsasında keçmiş İttifaqda və bütün dünyada siyasi xadimlər və geniş ictimaiyyət DQMV-dəki həqiqi sosial-iqtisadi vəziyyət haqda düzgün təsəvvür əldə etdi.

O, TASİS proqramının Azərbaycanda fəaliyyətə başlaması üçün böyük zəhmət çəkmiş, Avropa İttifaqının (Aİ) ekspertləri ilə çoxsaylı görüşlər keçirmiş, milli koordinator, bir iqtisadçı-alim kimi TRASEKA proqramının hazırlanması ilə bağlı elmi araşdırmalar aparmış, 1993-cü ilin may ayında Brüsseldə birinci beynəlxalq konfransda əsas məruzə ilə çıxış etmiş və Brüssel bəyannaməsini imzalamışdır.

İqtisadçı elmi kadrların hazırlanması sahəsində müstəsna xidmətləri olan akademik nüfuzlu beynəlxalq simpozium və konqreslərdə Azərbaycanı ləyaqətlə təmsil edir. O, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti kimi də çox faydalı işlər görür. Akademikin baş elmi redaktəsi ilə ümumi həcmi 2500 səhifəyə bərabər olan "Azərbaycan XXI əsrin astanasında" üçcildliyi nəşr edilmişdir. 1999-cu ildə "İqtisadiyyat" adlı qəzet təsis etmiş və onun müntəzəm nəşrinə başlamışdır.

Akademikin elmi fəaliyyətində Azərbaycan və dünya iqtisadiyyatı problemlərinin tədqiqi böyük yer tutur. Dünya ölkələrinin təcrübəsini dərindən öyrənən və onların mütərəqqi cəhətlərini Azərbaycanda təbliğ edən Səmədzadə bir çox ölkələrdə, o cümlədən bir neçə dəfə Çin Xalq Respublikasında olmuş, "Dünya iqtisadiyyatı: Çin "iqtisadi möcüzəsi" kitabını nəşr etdirmişdir.

2004-cü ildə akademikin "Böyük yolun mərhələləri" - "Azərbaycan iqtisadiyyatı yarım əsrdə: reallıq və perspektivlər" adlı kitabı çapdan çıxmışdır. Yaxın vaxtlarda kitabın ikinci cildi işıq üzü görəcəkdir.

"Qırmızı Əmək Bayrağı" (1986) və "Şöhrət" ordenli (2010), "Frasisk Skorina" (Belarus, 2011) medalına layiq görülmüş akademik Ziyad Səmədzadə Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri kimi respublikada iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi, bütövlükdə ölkənin iqtisadi inkişaf strategiyasının reallaşması məsələlərinin həllində fəal iştirak edir.

Ədəbiyyat

Böyük İqtisadi Ensiklopediya: 5 cilddə /ideya müəl. və baş red. [ön söz] Z.Səmədzadə.- Bakı: Azərbaycan İqtisadçılar İttifaqı; Şərq-Qərb, 2012.

Dağlıq Qarabağ: Naməlum həqiqətlər /Z.Səmədzadə.- Bakı: Vətən, 1995.- 83 s.

Çin qlobal dünya iqtisadiyyatında /Z.Səmədzadə.- Bakı: Elm və təhsil, 2009.- 607 s.

İqtisadi tərəqqiyə həsr edilən ömürlər: Azərbaycanın iqtisadçı alimləri /Z.Səmədzadə.- Bakı: Gənclik, 2002.- 400 s.

Müasir dövrün böyük strateqi Heydər Əliyev xoşbəxt gələcəyi olan bir dövlət qurdu /Z.Səmədzadə //İqtisadiyyat.- 2011.- 6-12 may.- S.3.

Sultanova, M. Tanış olun, akademik Ziyad Səmədzadə /M.Sultanova //Ekran-efir.- 2010.- 25 iyun.- S.5.

www.anl.az

İYUN

1

Tarixdə bu gün

Uşaqların Beynəlxalq Müdafiəsi Günü 1950



Uşaqların Beynəlxalq Müdafiəsi Günü (ing. International Children's Day) 1950-ci il iyun ayının 1-dən etibarən BMT Baş Assambleyasının qərarı ilə qeyd olunmağa başlanmışdır.

İyunun 1-i bütün dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. Bu, təsadüfi deyil, çünki müasir dövrdə uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması ən aktual məsələlərdən biridir. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, onların şəxsiyyət kimi formalaşması əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Son illər bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl işlər aparılır, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, konvensiyalara qoşulur. BMT-nin Baş Məclisi 1989-cu il noyabrın 20-də "Uşaq hüquqları haqqında Konvensiya" qəbul etmişdir. Dünyanın əksər ölkələri, o cümlədən Azərbaycan Respublikası bu konvensiyaya qoşulmuşdur. Burada uşaqların bir çox hüquqları müəyyən edilmişdir. Onlar fikir, vicdan, din azadlığına, rəyini ifadə etmək, şəxsi həyat hüququnun müdafiə olunmasına, müxtəlif mənbələrdən, informasiyalardan istifadə etmək, laqeyd rəftar hallarından qorunmaq, fiziki, əqli, mənəvi, əxlaqi, sosial inkişafı üçün lazımi şəraitə, istirahət, asudə vaxt və mədəni həyatda iştirak etmək və s. hüquqlara malikdirlər.

Ümummilli lider Heydər Əliyev uşaq hüquqlarının müdafiəsinin davamlılığı, onun məzmununun zənginləşdirilməsi məqsədilə 1998-ci il avqustn 24-də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun təsdiqi ilə bağlı xüsusi fərman imzalamışdır. Qanunda uşaqların hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı, yaşamaq və inkişaf etmək, tərbiyə almaq, şərəf və ləyaqətinin müdafiəsi hüquqları da xüsusi vurğulanır.

Hazırda ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uşaq dövlət siyasəti ilə bağlı silsilə fərman və sərəncamlar imzalamışdır. "Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"na əsasən məktəblərimiz müasir kompyuter və digər İKT avadanlığı ilə təchiz edilmişdir.

Azərbaycan dövlətinin yeritdiyi siyasət ölkədə gələcəyin vətənpərvər, yüksək zəkalı, intellektual gəncliyi olan bugünkü uşaqların firavan həyatının, təlim-tərbiyəsinin, fiziki-mənəvi sağlamlığının müdafiəsinə yönəlmişdir.

Ədəbiyyat

Allahverdiyev, E. Uşaqların Beynəlxalq Müdafiəsi Günündə... /E.Allahverdiyev //Ekran-efir .-2013.- 31 may.- S.4.

Qocayev, Ə. 1 iyun-Uşaqları Beynəlxalq Müdafiə Günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.110-112.

Rüstəmov, İ. Uşaqlar gələcəyimizin əmanətidir /İ.Rüstəmov //Xalq qəzeti.- 2013.- 1 iyun.- S.9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.fenomen.az

www.milli.az

110 illiyi
"Həyat" qəzeti 1905



1905-ci il iyun ayının 7-də "Həyat" qəzeti nəşrə başladı. Həyata çox ziddiyyətli, tələtümlü, mürəkkəb bir dövrdə "qədəm basan" bu mətbu orqanını jurnalistika tariximizin araşdırıcıları 1905-1906-cı illərin fikir, düşüncə və mübarizə salnaməsi adlandırırlar.

"Həyat"ın fəaliyyətə başladığı ilk iki ayda - iyun və iyul aylarında Bakıdakı sənaye müəssisələrinin dörddə üç hissəsini tətil bürüdü. Çar quruluşu idarəsinin zəifləməsindən istifadə edən Tiflis və Bakıda özlərinin siyasi mərkəzlərini yaratmış Daşnaksütyun Partiyasının üzvləri və Erməni Milli Şurasının nümayəndələri açıq-aşkar yerli müsəlman əhalisinə, Azərbaycan xalqına qarşı terror və təxribat törədirdilər. Tarixə erməni-müsəlman davası kimi düşmüş, əslində ermənilərin Bakıda, Naxçıvanda, Qarabağda və Zaqafqaziyanın azərbaycanlılar yaşayan hissələrində törətdikləri qətliamlar sistemli şəkil almışdı. 1905-ci ilin fevral ayının ilk ongünlüyündə Bakıda qırğınlar törədildi, dinc əhali dəhşətli günlər yaşadı. Belə bir ağır şəraitdən çıxmaq üçün informasiya və təbliğat vasitəsinə ciddi ehtiyac var idi. Belə bir çətin, zamanın tələblərinə uyğun olaraq gündəlik qəzet nəşr etmək məsələsi Azərbaycan ziyalılarını düşündürürdü. 1905-ci il mart ayının 15-də mesenant H.Z.Tağıyevin mənzilində toplaşmış ziyalılar bir çox önəmli məsələlər kimi gündəlik qəzet nəşr etməyi də müzakirə etdilər. 1905-ci il aprelin 16-da dövrün görkəmli ziyalıları Ə.Hüseynzadə və Ə.Ağaoğlu Peterburq baş Mətbuat İdarəsinə "Həyat" adlı qəzet nəşr etmək istəyini ərizə ilə bildirdilər. H.Z.Tağıyevin böyük nüfuzu və işə qarışması ilə 1905-ci il aprelin 22-də Qafqaz Canişini Vorontsov Daşkov "Həyat"ın nəşrinə icazə verdi. Qəzetin məzmunu, ideya istiqamətləri milli mövqedə dayanan Ə.Topçubaşov (naşir), Ə.Hüseynzadə (baş redaktor) və Ə.Ağaoğlu (1905-ci ilin axırlarınadək baş redaktor) tərəfindən həyata keçirilirdi.

"Həyat"ın ilk sayında dərc olunan "Qəzetimizin məsləki" sərlövhəli məqalədə mətbuatın xalqın həyatında, cəmiyyətin inkişafında önəmi vurğulanırdı. Qəzet təkcə Qafqazda deyil, Volqaboyunda, Orta Asiyada, İranda və Türkiyədə yayılırdı.

"Həyat" geniş coğrafi məkanda yaşayan türk və müsəlmanların milli oyanışı ilə eyni vaxtda meydana çıxmış və bu oyanışın davamlı prosesə çevrilməsində mühüm rol oynamışdı. Ümumən XX əsr ictimai-siyasi və ədəbi-fəlsəfi fikir tarixində böyük rolu olan Ə.Hüseynzadə "Həyat" qəzeti və "Füyuzat" dərgisi ilə Azərbaycanda milli məfkurənin, türkçülük hərəkatının genişlənməsində öncüllük etdi.

"Həyat"da Ə.Hüseynzadənin 50-yə yaxın tarixi-publisistik, siyasi-fəlsəfi məqalələri dərc olundu. 1905-ci il iyunun 7-dən 1906-cı il sentyabrın 3-nə qədər "Həyat"ın 325 nömrəsini buraxmaq mümkün olmuşdu.

Ədəbiyyat

Zərdabi, H. Rusiyada əvvəlinci türk qəzeti /H.Zərdabi //Respublika.- 2010.- 20 iyul.- S. 6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.sherg.az

İYUN

15

Tarixdə bu gün

Milli Qurtuluş Günü
1993



1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdü. Qiyamçı hərbi hissənin rəhbərliyi, əvvəlcə o vaxtki Baş nazir və Milli Məclis Sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdi. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdı. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdu. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdi. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdi. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil edilmişdir.

Ulu öndərin Ali Sovetin Sədri seçilməsi Azərbaycanda eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etmişdi. Heydər Əliyev parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdı. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdi.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdi. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir.

Ədəbiyyat

Məmmədov, Q. Milli Qurtuluş Günü Azərbaycanın tarixi xilas günüdür: 15 iyun Milli Qurtuluş Günüdür /Q.Məmmədov //Respublika 2014.- 15 iyun.- S.5.

Milli Qurtuluş Günü tariximizə qızıl hərflərlə yazılıb /A.Əsgərov //Yeni Azərbaycan.- 2014.- 13 iyun.- S.4.; Səs.- 2014.- 13 iyun.- S.11.

Rəhimzadə, A. 15 İyun-Milli Qurtuluş Günü ölkəmizə və xalqımıza dirçəliş, intibah gətirdi /A.Rəhimzadə //Yeni Azərbaycan 2014.- 14 iyun.- S.6.

Rəhimzadə, V. Milli Qurtuluş Günü Azərbaycanın inkişafının və yüksəlişinin əsas istinad nöqtəsidir: 15 iyun Milli Qurtuluş Günüdür /V.Rəhimzadə //Respublika 2014.- 14 iyun.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Ümumdünya Qaçqınlar Günü 2000



Hər il iyun ayının 20-də BMT Ümumdünya Qaçqınlar Gününü qeyd etməklə bütün dünyanı qaçqınların və məcburi köçkünlərin vəziyyətinə diqqət ayırmağa çağırır. Ümumdünya Qaçqınlar Günü 2000-ci il 4 dekabr tarixində BMT Baş Assambleyası tərəfindən yekdilliklə qəbul olunmuş qətnamə ilə müəyyən edilmişdir. 20 iyunda qaçqınların və məcburi köçkünlərin cəsurluğu, mətanət və iradəsi qeyd olunmaqla onlara mənəvi dəstək verilir.

Bu gün BMT QAK 6300 nəfər heyətlə 120 ölkədə fəaliyyət göstərir. Heyətin 80 faizdən çoxu dünyanın müxtəlif yerlərindəki sahə ofislərində, tez-tez isə ailələrindən ayrı, çətin şərtlər altında çalışır.

BMT-nin açıqlamasına görə dünyada 15.4 milyon qaçqının beşdə dördü kasıb ölkələrin payına düşür. Qaçqınların ümumi sayının dördə birindən bir qədər çox isə 3 ölkəyə - Pakistan, İran və Suriyaya aiddir. Bu göstəriciyə Şimali Afrika və Yaxın Şərqdə baş verən son ixtişaşlardan qaçqın düşən insanlar daxil edilməmişdir. Onların sayı isə artmaqda davam edir. Dünya qaçqınları sırasında Azərbaycanın da 20 faiz torpaqları erməni yaraqlıları tərəfindən işğal edilib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı öz yurd-yuvasından qaçqın düşüb.

Azərbaycanda BMT QAK-ın 20 nəfərlik heyəti qaçqın və sığınacaq axtaran şəxslərə zəruri maddi yardımın göstərilməsi və mümkün olduqca fəal şəkildə davamlı həll yollarını təmin etməkdən ibarətdir. Azərbaycan hökumətinin 250 mindən çox qaçqının inteqrasiya edilməsi və yarım milyondan artıq məcburi köçkünün yaşayış şəraitinin yaxşılaşdırılması BMT-nin Qaçqınlar üzrə Ali Komissarı və BMT Baş Katibinin məcburi köçkünlərin hüquqları üzrə xüsusi nümayəndəsi tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilmişdir. Təşkilat məcburi köçkünlərin hələ də üzləşdikləri humanitar problemlərin aradan qaldırılmasında və onların hüquqlarının, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli nəticəsində öz doğma yurdlarına qayıtma hüququnun qorunması sahəsində hökumətin səylərinə fəal şəkildə qoşulmuş və dəstək vermişdir.

20 iyunda biz dünya qaçqınlarını yada salır, həyata ruhlandırır, onlara mənəvi dəstək göstəririk. Bu şərəf və ləyaqətini ən çətin şəraitdə qorumaq üçün mücadilə edən didərgin və yurd yuvasından məhrum olmuş insanların həmrəyliyi günüdür.

Ümumdünya Qaçqınlar gününün qeyd edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini bu insanların yaşadıqları ağır şəraitə cəlb etməkdir.

Ədəbiyyat

Dünyada hər 4 saniyədə bir insan qaçqına və ya məcburi köçkünə cevrilir //Azərbaycan.- 2013.- 21 iyun.- S.3.

Hacımusalı, O. 20 iyun Ümumdünya Qaçqınlar Günüdür /O.Hacımusalı //Yeni Azərbaycan.- 2013.- 20 iyun.- S.6.

Qaliboğlu, E. Taleyimizə düşən qaçqınlıq, köçkünlük dərdləri...: Tarix boyunca xalqımız dəhşətli qırğınlar, qaçqınlıq, soyqırımı, mənəvi genosidlər yaşayıb /E.Qaliboğlu //P.S.Elm, təhsil və həyat.- 2009.- 19 iyun.- S.1; 3.

İnternetdə

www.azadliq.org

www.refugees-idps-committee.gov.az

Milli Silahlı Qüvvələr Günü
1992



26 iyun tariximizin əlamətdar səhifələrindən biri - Azərbaycan Milli Ordusunun yarandığı gündür. 1918-ci il iyun ayının 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk milli diviziyanın və Hərbi Nazirliyin yaradılması barədə qərar qəbul etmişdir.

Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri idi. Məhz güclü, nizami ordu 1918-ci il may aının 28-də elan edilmiş istiqlalın bütün ölkə ərazisində qələbə çalmasını təmin edə bilərdi. Artıq iyun ayının əvvəlində Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə cümhuriyyətə qarşı savaşa başlamışdı. Məqsəd milli hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin daşnaklar buna nail ola bilmədilər.

İyun ayının 26-da ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul edilmiş, Azərbaycan Milli Ordusunun təməli qoyulmuşdur. General Səməd ağa Mehmandarov hərbi nazir, general Əli ağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin olunmuşdu.

1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ olmuşdu. Ordunun yaradılması prosesi 1920-ci il yanvar ayında əsasən başa çatdırılmışdı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi

1920-ci ilin aprel ayında XI Qızıl Ordu Azərbaycan sərhədlərinə yaxınlaşmış və A.Mikoyan başda olmaqla Bakı bolşevikləri rus ordusunu Bakıya çağırmışdı. Milli Ordunun sərhəddəki azsaylı hissələri ruslara müqavimət göstərə bilməmişdi. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamış, Bakıda milli hökumət süqut etmişdi. Azərbaycan istiqlaliyyətinin süqutu ilə Milli Ordunun mövcudluğuna da son qoyulmuşdu. Bolşevik hökuməti isə artıq 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret vermişdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i bolşeviklər tərəfindən güllələnmiş, komandirlərin böyük hissəsi repressiyaya məruz qalmışdı.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Məhz Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğuna başlanmışdı.

Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilmişdir. Hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

1 iyul

Gün çıxır 06:13
Gün batır 21:15

31 iyul

Gün çıxır 06:36
Gün batır 21:57

İYUL

Ç.	1
C.A.	2
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	**7**
Ç.	8
C.A.	9
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	**14**
Ç.	15
C.A.	16
C.	17
Ş.	18
B.	19
B.E.	20
Ç.A.	**21**
Ç.	22
C.A.	**23**
C.	24
Ş.	25
B.	26
B.E.	27
Ç.A.	**28**
Ç.	29
C.	30
C.a	31

23 iyun
21 iyul
Xərcəng bürcünün Nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

- *Azərbaycan Polisi Günü (02.07.1998)*
- *"Əkinçi" qəzetinin ilk sayı çapdan çıxmışdır (22.07.1875)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.)*
- ***Ağdam rayonunun işğalı günü* (23.07.1993)**

130 il Üzeyir Hacıbəyli 1885-1948



Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, 19-cu əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. Artıq bir əsrdən çox vaxt ərzində çalınan, səslənən Üzeyir Hacıbəyli musiqisi Azərbaycan xalqının canına, qanına sirayət edərək onun bədii mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. Necə ki, Üzeyir bəy xalq musiqimiz haqqında deyirdi ki, ona həmişə "ruh yüksəkliyi və aydınlıq ehtizazı, sabakı qalibiyyətə möhkəm inam, mənəvi bütünlük, alicənablıq, şücaət və qəhrəmanlığı tərənnüm etmək xas olmuşdur", eləcə də Hacıbəylinin musiqisi üçün də bu cəhətlərlə bərabər günəş kimi parlaqlıq, əlvanlıq xas olmuşdur.

İYUL

2015



Milli ədəbiyyat

Nasir, publisist, dramaturq Kərimov Yusif Abbas oğlunun (01.07.1940) anadan olmasının 75 illiyi 185

Görkəmli şair, maarif və mətbuat xadimi Mir Cəfərzadə Seyid Əzim Seyid Məhəmməd oğlunun (Seyid Əzim Şirvani) (09.07.1835-20.05.1888) anadan olmasının 180 illiyi 186

Xalq yazıçısı Əhmədli Sabir Məhəmməd oğlunun (10.07.1930-17.04.2009) anadan olmasının 85 illiyi 187

Şair, publisist Əliyev Məstan Rəsul oğlunun (Məstan Günər) (25.07.1935-2010) anadan olmasının 80 illiyi



Heykəltəraşlıq.Rəssamlıq. Memarlıq

Xalq rəssamı, heykəltəraş Qaryağdı Cəlal Məhərrəm oğlunun (15.07.1915-01.12.2001) anadan olmasının 100 illiyi 188



Musiqi.Opera.Balet

Xalq artisti, professor Adıgözəlzadə Zöhrab Əfrasiyab oğlunun (03.07.1940-24.05.2012) anadan olmasının 75 illiyi 189

Bəstəkar Qasımova Ruhəngiz Nağı qızının (12.07.1940) anadan olmasının 75 illiyi

Xalq artisti, professor Atakişiyev Rafiq (Rauf) İsrafil oğlunun (15.07.1925-03.02.1994) anadan olmasının 90 illiyi 190

Xalq artisti, professor Rzayev Azər Hüseyn oğlunun (15.07.1930) anadan olmasının 85 illiyi 191

Xalq artisti, opera müğənnisi Bünyadzadə Ağababa Balağa oğlunun (19.07.1915-17.12.1974) anadan olmasının 100 illiyi

Professor, musiqişünas, ilk azərbaycanlı violençelçalan qadın Abbaszadə Nəzmiyyə Müzəffər qızının (19.07.1945) anadan olmasının 70 illiyi

Xalq artisti, xanəndə Bağırzadə Məmmədbağır Məmmədəli oğlunun (21.07.1950-30.10.2005) anadan olmasının 65 illiyi 192

Xalq artisti, professor, bəstəkar Adıgözəlov Vasif Zülfüqar oğlunun (28.07.1935-15.09.2006) anadan olmasının 80 illiyi 193



Teatr. Kino

Əməkdar incəsənət xadimi, rejissor Nemətov Zəfər Paşa oğlunun (12.07.1915-19.11.1971) anadan olmasının 100 illiyi 194



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Həsənov Tabil Qasım oğlunun (04.07.1960-29.03.1992) anadan olmasının 55 illiyi 195
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Etibar Böyükağa oğlunun (11.07.1955-23.08.1993) anadan olmasının 60 illiyi 196
Azərbaycanın Milli Qəhrəmanı Alıcanov Rafiq Cəfər oğlunun (11.07.1965-05.11.1993) anadan olmasının 50 illiyi 197
Azərbaycanın Milli Qəhrəmanı Qədiməliyev Arif Maasif oğlunun (13.07.1975-13.03.1995) anadan olmasının 40 illiyi 198
Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Əsəd Cəlal oğlunun (15.07.1970-31.07.1992) anadan olmasının 45 illiyi 199



Siyasət. Hüquq.Hərbi iş

Dövlət xadimi Cəfərov Cəfər Hüseynqulu oğlunun (02.07.1915-27.06.1957) anadan olmasının 100 illiyi
Diplomat, Azərbaycanın xarici işlər naziri Məmmədyarov Elmar Məhərrəm oğlunun (02.07.1960) anadan olmasının 55 illiyi
İctimai xadim, tarix elmləri doktoru, professor Musayev Səfiyar Bəylər oğlunun (17.07.1935-06.01.1999) anadan olmasının 80 illiyi



Fəlsəfə. İqtisadiyyat

Fəlsəfə elmləri doktoru, professor Tağıyev Əlikram Mirhəsən oğlunun (01.07.1945) anadan olmasının 70 illiyi

Mədəniyyət.Maarif.Elm



Filologiya elmləri doktoru, professor, tənqidçi Xəlilov Pənah İmran oğlunun (01.07.1925) anadan olmasının 90 illiyi 200
Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Əfəndiyev Timuçin İlyas oğlunun (17.07.1945) anadan olmasının 70 illiyi 201
Filologiya elmləri doktoru, professor Yusifli Xəlil Həmid oğlunun (17.07.1935) anadan olmasının 80 illiyi



Coğrafiya.Geologiya

AMEA-nın müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Qədirov Fəxrəddin Əbülfət oğlunun (19.07.1950) anadan olmasının 65 illiyi 202



Kimya. Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Əliyev Namiq Nəriman oğlunun (28.07.1940) anadan olmasının 75 illiyi



Kitabxanaşünaslıq.Bibliopqrafiya

Tarix elmləri doktoru, professor İsmayılov Xəlil İsmayıl oğlunun (01.08.1945) anadan olmasının 70 illiyi 203

Tarixdə bu gün



Azərbaycan Polisi Günü (02.07.1998)
Ağdərə rayonunun işğalı günü (07.07.1993) 204
Ramazan bayramı (18-19)
Heydər Əliyev Moskvadan Bakıya qayıtmışdır (20.07.1990) 205
“Əkinçi” qəzetinin ilk sayı çapdan çıxmışdır (22.07.1875)
Milli Mətbuat və Jurnalistika Günü (22.07.) 206
Ağdam rayonunun işğalı günü (23.07.1993)

75 illiyi Yusif Kərimov 1940

Yazıçı



Yusif Abbas oğlu Kərimov 1940-cı il iyul ayının 1-də Bərdə şəhərində anadan olmuşdur. 1957-ci ildə Bərdə şəhərindəki 1 saylı orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika şöbəsinə qəbul olmuşdur.

1962-ci ildə ali təhsilini tamamladıqdan sonra KP Mərkəzi Komitənin rayonlararası "Yüksəliş" qəzeti redaksiyasında məsul katib, 1964-1973-cü illərdə "Bakı" axşam qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır. Sonralar 1973-1978-ci illərdə Azərbaycan televiziyasında gənclər üçün proqramlar baş redaksiyasında baş redaktor, 1978-1980-ci illərdə Bakı Ali Partiya Məktəbində müdavim, 1981-1995-ci illərdə "Azərbaycan gəncləri" respublika qəzetinin redaktoru, 1995-1997-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat katibi, 1997-2001-ci illərdə Azərbaycan Respublikası Ticarət Nazirliyinin mətbuat katibi, 2001-2007-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsində məsləhətçi, 2009-2013-cü illərdə Milli Aviasiya Akademiyasında tərcüməçi, "Gənc aviator" qəzetinin baş redaktoru olmuşdur.

O, pedaqoji fəaliyyətlə də məşğul olmuş 2000-2007-ci illərdə BDU jurnalistika fakültəsində, 2007-2008-ci illərdə "Odlar yurdu" Universitetində müəllim kimi fəaliyyət göstərmişdir.

Onun "Yollar.." adlı ilk kitabı 1969-cu ildə çap edilmişdir.

Y.Kərimov 1963-cü ildən Jurnalistlər İttifaqının, 1978-ci ildən Yazıçılar Birliyinin üzvüdür. 1975-ci ildə jurnalistika sahəsində "Qızıl qələm" mükafatına, 2003-cü ildə isə "Səni mənə verməzlər..." romanına görə Yazıçılar Birliyinin "Yaddaş" Milli Mükafatına layiq görülmüşdür.

Yazıçı Y.Kərimov yaradıcılığında uşaqları və yeniyetmələri də unutmamışdır. Müxtəlif illərdə qələmə aldığı "Lalə və kəpənək", "Lətifənin xoruzu", "Lift", "Fərhadın qoçaqlığı", "Balaca toplan", "Fəridənin albomu", "Fidanın nağılları", "Səbinənin ürəyi", "Qırx pilləkəndə döyüş", "Erməni şikəstəsi", "Bakıda ...Xarı bülbül", "Tarın döyüşü", "Havayozanlar" hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

2004-cü ildə Heydər Əliyev adına Beynəlxalq Xeyriyyə Fondunun (Novosibirsk) laureatı olmuş, 2010-cu ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülmüş və Azərbaycan Mətbuat Şurasının "Ali Media mükafatı" ilə təltif edilmişdir. 2011-ci ildə "Təmas xəttindən məktublar..." adlı esseyə görə Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş Respublika müsabiqəsinin xüsusi mükafatı, "Əbədiyyət yolu" adlı esselər kitabına görə XI Bakı Kitab Sərgisinin Milli Kulturoloji mükafatı ilə təltif edilmiş və eləcədə milli mətbuatın inkişafında səmərəli xidmətlərinə görə müxtəlif diplomlar, tərifnamələr almışdır.

Ədəbiyyat

Çalarlar: publisistika /Y.Kərimov; red. Y.Əlizadə.-Bakı: Ərgünəş, 2005.- 350 s.

Əbədiyyət yolu: esselər /Y.Kərimov; red. və ön söz. Y.Əlizadə.-Bakı, 2010.- 72 s.

İşğal vadisi: tarixi roman /Y. Kərimov.- Bakı: Vətən, 2014.- 575 s.

Ömür adlı yol keçdim... /Y. Kərimov.-Bakı: Vətən, 2012.- 635 s.

Bayramov, Q. Həyat dərslərinin bədii təcəssümü /Q.Bayramov //Ədəbiyyat qəzeti.- 2010.- 9 iyul.- S.4.

İnternetdə

www.anl.az

www. adam.az

www.az.wikipedikia.org

www.meneviservetimiz.az

180 illiyi

Seyid Əzim Şirvani
1835-1888

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 3 cilddə /S.Ə.Şirvani.- Bakı: Avrasiya Press, 2005.

Cəfərzadə, Ə. Aləmdə səsim var mənim: [tarixi roman] /Ə.Cəfərzadə.- Bakı: Şərq-Qərb, 2006.- 432 s.

Əhmədli, R. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri /R.Əhmədli.- Bakı: Elm, 2005.- 195 s.

Əsgərli, Z. Seyid Əzim Şirvani [Mətn] /Z.Əsgərli.- Bakı: Elm, 2005.- 64 s.

Hümmətova, X. . Seyid Əzim Şirvani yaradıcılığının orta məktəblərdə öyrənilməsi /X.Hümmətova //Azərbaycan müəllimi.- 2010.- 30 aprel.- S.19.

Seyid Əzim Şirvani: şair, maarifçi, publisist //Mədəniyyət.- 2010.- 9 iyul.- S. 14.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

Seyid Əzim Seyid Məhəmməd oğlu Şirvani 1835-ci il iyul ayının 9-da Şamaxıda anadan olmuşdur. Atası vəfat etmiş, 7 yaşından anası Səkinə xanımın himayəsində qalmışdır. Dağıstanın Yaqsay kəndində yaşayan ana babası Molla Hüseyn onu yanına aparmış və şair yeniyetməlik dövrünü babasının himayəsində keçirmişdir.

İbtidai təhsilini orada alan Şirvani bir neçə Dağıstan ləhcəsi də öyrənmişdir. Babasının təsiri ilə dini elmlərə maraq göstərən şair 1853-cü ildə Şamaxıya qayıtmışdır.

1856-cı ildə ali ruhani təhsili almaq həvəsi 21 yaşlı gənc Seyid Əzimi İraqa, əvvəl Nəcəf və Bağdada, sonra isə Suriyanın Şam şəhərinə aparır. Gənc şair İraqda oxuyarkən dünyəvi elmlərə də böyük maraq göstərir

O, 1857-ci ildə yenidən Məkkə, Mədinə, Misir və Suriyaya səyahət etmişdi. 50-ci illərin sonunda vətənə qayıdan Seyid ruhani olmaq fikrindən əl çəkib məktəbdarlıqla məşğul olur.

"Əkinçi" qəzetinin nəşrini sevinclə qarşılayan şair şeirlərinin bir qismini bu qəzetdə çap etdirmişdir. "Əkinçi" bağlandıqdan sonra "Ziya", "Ziyayi-Qafqaziyyə" qəzetləri ilə əməkdaşlıq etmişdir.

1877-ci ildə Seyid Əzim Şamaxı məktəbinə Azərbaycan dili və şəriət müəllimi düzəlmiş, qısa fasilə ilə ömrünün sonuna qədər orada işləmişdir.

1879-cu ildə "siyasi cəhətdən şübhəli müəllim" kimi ittiham edilərək işdən çıxarılmış, Tiflisə şikayət etdikdən sonra yenidən öz vəzifəsinə qaytarılmışdır.

1878-ci ildə Şamaxı ruhani məktəbində işləyərkən "Rəbiül-ətfal" (Uşaqların baharı) dərsliyini tamamlamışdır.

1887-ci ildə maarif sahəsindəki xidmətlərinə görə "Za userdiye" medalı ilə təltif olunmuşdur. Maddi ehtiyac içində yaşayan şair bu medalı almaq üçün 7 manat 50 qəpiyi tapa bilmədiyindən yalnız ölümünə 10 gün qalmış 1888-ci ilin may ayında almışdır.


Şarin bədii irsi biri Azərbaycanca, digəri farsca iki böyük külliyyatdan ibarətdir. Onun yaradıcılığının çox hissəsini lirik janrda yazılmış qəzəllər, öyüd, təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələr, doğruçuluq, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. gözəl və nəcib sifətlərin tərbiyələndirilməsinə həsr edilmiş şeirlər təşkil edir. İctimai mahiyyət daşıyan satiraları da Seyid Əzimin yaradıcılığında müstəsna mövqe tutmuşdur. Onu öz dövrünün böyük realist şairi kimi tanıdan "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata" və s. satiralarıdır.

Seyid Əzim Seyid Məhəmməd oğlu Şirvani 1888-ci il may ayının 20-də vəfat etmişdir. Öz vəsiyyətinə görə Şamaxının Şaxəndan qəbiristanlığında dəfn olunmuşdur.

85 illiyi

Sabir Əhmədli 1930-2009

Yazıçı



Sabir Məhəmməd oğlu Əhmədli 1930-cu il iyul ayının 10-da Cəbrayıl rayonunda anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra 1946-1951-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. 1951-1954-cü illərdə Cəbrayıl rayon mərkəzində müəllim, 1955-1956-cı illərdə Şükürbəyli kəndində orta məktəbin direktoru, yenə 1956-cı ildə Cəbrayıl rayon mərkəzində müəllim, 1956-1993-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, Nəsr şöbəsinin müdiri, 1993-1996-cı illərdə baş redaktor işləmişdir.

1955-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür. S.Əhmədli Azərbaycan Yazıçılar İttifaqının M.F.Axundov adına ədəbi mükafat komissiyasının sədri seçilmişdir.

Ədəbi fəaliyyətə 1951-ci ildən "Pioner" jurnalında çap olunan "Poçtalyon" hekayəsi ilə başlamışdır. Bundan sonra bədii əsərləri və publisistik məqalələri dövri mətbuatda müntəzəm çap olunmuşdur. 1961-ci ildə onun "Bir payız axşamı" kitabı işıq üzü görmüş və tələbələrin, ədəbiyyatsevərlərin, ümumiyyətlə oxucuların böyük marağına səbəb olmuşdu. 1989-cu ildə Azərnəşrdə S.Əhmədlinin ikicildlik əsərləri çap edilmişdir.

Onun bir-birinin ardınca çıxan "Aran" ("Uşaqgəncnəşr", 1962) ikihissəli romanı, "Pillələr" (Azərnəşr, 1964), "Yamacda nişanə" ("Gənclik", 1973), "Toğana" ("Yazıçı" 1981), "Mavi günbəz" ("Gənclik", 1984, povestlər), "Yasamal gölündə qayıqlar üzürdü" ("Yazıçı", 1984), "Yasaq edilmiş oyun, Gülməli kişinin axırı" ("Yazıçı", 1988) kitabları böyük maraqla qarşılanmışdır.

Qarabağ hadisələrinə həsr etdiyi irihəcmli ədəbi-publisistik məqalələri - "Qarabağın gecikmiş yazı", "Qarabağın qarlı səngərləri" "Ədəbiyyat və incəsənət" qəzetinin 1992-1993-cü illər mart-aprel saylarında dərc edilmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

Yazıçının fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1975-ci ildə "Əmək şöhrətinə görə" medalı, 1984-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adı ilə təltif edilmişdir. 1991-ci ildə "Qızıl sünbül" ədəbi mükafatı laureatı olmuş, 1992-ci ildə "Azərbaycanın Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür.

Sabir Əhmədli 2009-cu il aprel ayının 17-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /S.Əhmədli.- Bakı: Azərnəşr, 1989-1990.

Kütlə: roman /S.Əhmədli.- Bakı: Azərnəşr, 1999.- 276 s.

Yanvar hekayələri /S.Əhmədli.- Bakı: Azərnəşr, 1992.- 126 s.

Yazılmayan yazı: roman: ixtisarla /S.Əhmədli.- Bakı: Təhsil, 2010.- 478 s.

Mədətov, F. Sabir Əhmədlinin romanları /F.Mədətov.- Bakı: Bakı Universiteti, 1998.- 90 s.

Abbasova, Ə. Unudulmaz Xalq yazıçısı /Ə.Abbasova //Respublika.- 2011.- 16 aprel.- S.6.

Hacımusalı, O. Torpaq həsrətli nasir /O.Hacımusalı //Xalq cəbhəsi.- 2011.- 26 oktyabr.- S.13.

Yusifli, V. Böyük nəsr ustası /V.Yusifli //525-ci qəzet.- 2010.- 19 iyul.- S.28.

İnternetdə


www.anl.az

www.az.wikipedikia.org

100 illiyi

Cəlal Qaryağdı 1915-2001

Heykəltəraş



Cəlal Məhərrəm oğlu Qaryağdı 1915-ci il iyul ayının 15-də Şuşada anadan olmuşdur. 1927-ci ildə Bakıya gəlmiş, burada Rəssamlıq Məktəbinə qəbul olunmuşdur. 1932-1935-ci illərdə təhsilini Tbilisi Rəssamlıq Akademiyasında davam etdirmiş, lakin yarımçıq qoyaraq Bakıya qayıtmışdır.

C.Qaryağdı XX əsrin 30-cu illərində qəzetlərdə rəssam, həm də Rəssamlıq Məktəbində müəllim olaraq çalışmış sonralar heykəltəraşlıq əsərlərini yaratmağa başlamışdır.

İçərişəhərin qala divarlarının yaxınlığında görkəmli satirik şair M.Ə.Sabirin heykəli (memar Ə.İsmayılov və Q.Əlizadə, 1958-ci il) Cəlal Qaryağdının ilk böyük işlərindən biridir.

Bakıda N.Nərimanovun, vaxtilə Lenin (indiki Azadlıq) meydanında qoyulmuş V.İ.Leninin heykəllərini, Nizami adına Ədəbiyyat Muzeyinin Qərb fasadının eyvanında qoyulmuş M.P.Vaqifin heykəlini, Qara Qarayevin, Fikrət Əmirovun, Bülbülün, Niyazinin, Cahangir Cahangirovun və başqalarının büstlərini yaratmışdır.

Onun monumental-dekorativ heykəltəraşlıq əsərləri bədii ifadəliyi və dinamikliyi ilə diqqəti cəlb edir. 1972-ci ildə yaratdığı Nəriman Nərimanovun heykəli, 1983-cü ildə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanovun abidəsi Azərbaycan heykəltəraşlığının qiymətli nümunələri sırasına daxildir.

O, rəssam, heykəltəraş kimi müxtəlif janrlarda monumental heykəl, portret, büst, barelyef və s. əsərlər yaratmışdır. Bu cür yaradıcılığı ilə seçilən rəssam Azərbaycanda keçirilən sərgilərdə sənət nümunələrini təqdim edərək uğurlar qazanmışdır.

Onun rəssamlıq fəaliyyətinin əsas mərhələsi Böyük Vətən müharibəsi (1941-1945) illərinə təsadüf etmişdir. Bu illərdə, o, insanların bədii obrazını, onların hünər və rəşadətini əks etdirərək, qəhrəmanlıq nümunəsindən çıxış edən şəxslərin portretini yaratmışdır.

Cəlal Qaryağdının yaradıcılığı zamanın müxtəlif dövrlərini özündə yaşadır. Bu baxımdan Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında hazırlanmış "Fərhad Bisütun dağını yararkən" barelyefi, Xurşidbanu Natəvanın büst və portretləri diqqəti cəlb edir.

O, bədii təfəkküründən yaranan incə ştrixləri rənglərin və fırçanın köməyi ilə kətan üzərində əks etdirərək, əsərlərinin hər birində yüksək sənətkarlıq nümayiş etdirmişdir. "Tarçalan", "Kamançaçı", "Xanəndə" fiqurlarında obrazların yığcamlığı və milli kolorit özünü göstərir.

Cəlal Qaryağdının yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1954-cü ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir.

Azərbaycan heykəltəraşlıq məktəbinin banilərindən biri, görkəmli sənətkar Cəlal Qaryağdı 2001-ci il dekabr ayının 1-də vəfat etmişdir.

Ədəbiyyat

Abbaslı, T. Sal daşlar sənətdaşı /T.Abbaslı //Mədəniyyət.- 2012.- 13 yanvar.- S.11.

Əliyev, Z. Monumental heykəllər ustası /Z.Əliyev //Azərbaycan.- 2013.- 14 iyul.- S. 9.

Quliyev, Ə. Tişə ustası Cəlal Qaryağdı /Ə.Quliyev //525-ci qəzet.- 2012.- 20 mart.- S.7.

Məhərrəmova, T. Qəribə taleli əsərlərin müəllifi /T.Məhərrəmova //Kaspi.- 2010.- 14 iyul.- S. 15.

Sadıqov, S. Heykəltəraş Cəlal Qaryağdının yaradıcılıq aləmi /S.Sadıqov //Paritet.- 2012.- 7-9 yanvar.- S.16.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.lit.az

75 illiyi Zöhrab Adıgözəlzadə 1940-2012

Bəstəkar



Zöhrab Əfrasiyab oğlu Adıgözəlzadə 1940-cı il iyul ayının 3-də Bakı şəhərində anadan olmuşdur.

1962-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını (M.R.Brennerin sinfini, 1970-ci ildə Sankt-Peterburq konservatoriyasının aspiranturasını) bitirdikdən sonra orada müəllim, dosent, professor kimi gənc musiqiçilər nəslinin yetişdirilməsində əvəzsiz xidmətlər göstərmişdir.

Bir çox ifaçılar ilk yaradıcılıq addımlarını məhz ustad sənətkarın köməyi ilə almış, böyük səhnədə öz istedadlarını göstərmişlər.

O, həm də konsert fəaliyyəti ilə məşğul olmuş, Azərbaycan, rus, Avropa bəstəkarlarının əsərlərini böyük məharətlə ifa etmişdir. Zöhrab Adıgözəlzadə Azərbaycan fortepiano məktəbini bir çox ölkələrdə uğurla təmsil etmiş, Türkiyə, Hindistan, Macarıstan, Polşa, Fransa, Norveç, Bolqarıstan, Almaniya, İtaliya, Çin, Yaponiya, Livan, Misir, Küveyt, İordaniya, Suriya və keçmiş SSRİ respublikalarında qastrol səfərlərində olmuşdur. Onun repertuarında İ.S.Bax, L.Bethoven, V.Motsart, F.Şopen, F.List, A.Skyabin, S.Raxmaninov, S.Prokofyev və başqalarının əsərləri geniş yer tutmuşdur.

Azərbaycan bəstəkarlarından Q.Qarayev, F.Əmirov, A.Məlikov, C.Hacıyev, T.Bakıxanov və başqalarının əsərlərinin ilk ifaçısı olmuşdur. Azərbaycan bəstəkarlarının əsərləri onun ifasında "Melodiya" qrammofon valları firması (Moskva) tərəfindən buraxılmışdır. Sənətkarın dünyanın ən nüfuzlu konsert salonlarındakı çıxışları tamaşaçıların yaddaşına həkk olunmuşdur.

1990-cı ildən ömrünün sonuna qədər Türkiyədə Əskişəhər Anadolu Universitetinin Dövlət Konservatoriyasında kafedra müdiri vəzifəsində çalışmışdır.

Zöhrab Adıgözəlzadə milli musiqi mədəniyyəti sahəsindəki xidmətlərinə görə 1967-ci ildə "Azərbaycanın Əməkdar artisti", 1983-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

1979-cu ildə professor elmi rütbəsini almışdır.

Bəstəkar, pedaqoq, pianoçu Zöhrab Əfrasiyab oğlu Adıgözəlzadə 2012-ci il may ayının 24-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycanın Xalq artisti, professor Zöhrab Adıgözəlzadə son mənzilə yola salınmışdır //Musiqi dünyası.- 2012.- №3/48.- S.137.

Zöhrab Əfrasiyab oğlu Adıgözəlzadə //Mədəniyyət.- 2012.- 25 may.- S.4.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Rafiq (Rauf) Atakişiyev
1925-1994

Müğənni



Rafiq (Rauf) İsrafil oğlu Atakişiyev 1925-ci il iyulun 15-də Göyçayda anadan olmuşdur.

1949-cu ildə Moskva Dövlət Konservatoriyasını Konstantin Nikolayeviç İqumnovun (1873-1948) sinfi üzrə bitirmiş və vokal üzrə Antonina Vasilyevna Nejdanovadan (1873-1950) dərs almışdır.

1953-1994-cü illədə Opera və Balet Teatrının solisti olmuşdur.

1953-cü ildən Azərbaycan Dövlət Konservatoriyasının fortepiano kafedrasının müəllimi, 1969-cu ildən isə həmin kafedranın müdiri olmuşdur.

Lenski ("Yevgeni Onegin", P.Çaykovski), Alfred ("Traviata", C.Verdi), Almaviva ("Sevilya bərbəri", C.Rossini), Faust ("Faust", Ş.Quno), Balaş ("Sevil", F.Əmirov) partiyalarını ifa etmişdir.

Lirik-dramatik tenor səsi olan müğənni, həm də pianoçu idi. Teatrda Əsgər ("Arşın mal alan"), Faust ("Faust"), Qraf Almaviva ("Sevilya bərbəri", Coakkino Rossini), Knyaz Sinoda ("Demon", Anton Rubinşteyn), Hofman ("Hofmanın nağılları", Jak Offenbax), Malxaz ("Daisi", Zaxari Paliaşvili), Alfred ("Traviata", Cüzeppe Verdi), Edmond ("Kornevil zəngləri", Rober Plaket), Anatoli ("İnsanın taleyi") partiyalarını oxumuşdur.

Rəşid Behbudovun ifasında daha çox məşhur olan "Я встретил девушку" mahnısının ilk ifaçısıdır. Mahnı ilk dəfə 1957-ci ildə Tacikistan SSR-in "Stalinabad" kinostudiyasında çəkilmiş eyniadlı filmdə ifa olunmuşdur.

Onun yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən qiymətləndirilmiş, ona 1967-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adı verilmişdir. 1972-ci ildə professor elmi rütbəsini almışdır.

Rafiq (Rauf) Atakişiyev 1994-cü il fevral ayının 3-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Atakişiyev Rafiq (Rauf) İsrafil oğlu //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2010.- C.2.- S.212.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

Azər Rzayev
85 illiyi
1930

Bəstəkar



Azər Hüseyn oğlu Rzayev 1930-cu il iyul ayının 15-də Bakıda anadan olmuşdur.

Atası rejissor Hüseyn Rzayev, anası isə unudulmaz sənətkar Həqiqət Rzayevanın istedadı və sənət sevgisi övladlarına da sirayət etmişdi.

1944-cü ildə Azər Rzayevin kiçik bəstələrini dinləyən Üzeyir bəy onu Dövlət Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbində professor B.İ.Zeydmanın apardığı uşaq yaradıcılığı - yəni bəstəkarlıq sinfinə qəbul olunmasını tövsiyə edib.

O, təhsilini Azərbaycan Dövlət Konservatoriyasında davam etdirmiş, 1953-cü ildə oranın skripka və bəstəkarlıq ixtisasları üzrə bitirmişdir.

Onun əsərlərindən "Hacı Kərimin aya səyahəti" musiqili komediyasını, skripka ilə orkestr üçün 2 konserti, skripkaalt və orkestr üçün ikili konserti, 7 simfonik poemanı, "Bakı - 90" simfoniyasını və başqalarını qeyd etmək olar. 1955-ci ildə gənc bəstəkarların beynəlxalq müsabiqəsinin laureatı olmuşdur.

A.Rzayev ictimai fəaliyyət də göstərmiş, 1972-1988-ci illərdə Dövlət Opera və Balet Teatrının direktoru olmuşdur. Bu illər ərzində onun təşəbbüsü ilə bir neçə yeni əsər tamaşaya qoyulmuş, Ü.Hacıbəylinin "Koroğlu" və "Leyli və Məcnun"operaları yeni quruluşda səhnələşdirilmişdi.

1977-ci ildə professor elmi rütbəsini almışdır.

Bəstəkar 1986-cı ildə Üzeyir bəyin "Əsli və Kərəm" operasını xalq çalğı alətləri orkestri üçün, 1990-1992-ci illərdə "Arşın mal alan" musiqili komediyasından Əsgərin ariyasını tar və kamera orkestri üçün, "Koroğlu" operasından "Çənlibel" səhnəsini xor və kamera üçün, "Leyli və Məcnun" operasının I pərdəsindən Leyli və Məcnunun duetini solistlər və kamera orkestri üçün işləyib.

A.Rzayevin yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1972-ci ildə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi", 1990-cı ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2002-ci ildə "Humay" mükafatı laureatı olmuşdur. Prezident təqaüdçüsüdür.

2010-cu il 13 iyul tarixində Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azər Hüseyn oğlu Rzayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Ədəbiyyat

Vokal nitqinin sirləri incəsənət və elm /V.P.Morozov; tərc. ed. A.Rzayev.- Bakı, 2011.- 183 s.

Rzayev Azər Hüseyn oğlu //Üzeyir Hacıbəyov ensiklopediyası.- Bakı: Şərq-Qərb, 2007.- S.181-182.

A.H.Rzayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 13 iyul 2010-cu il //Azərbaycan.- 2010.- 14 iyul.- S.4.

Касимова, С. Азер Рзауев /С.Касимова.- Баку: Ишыг, 1981.- 69 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

www.kultaz.com

65 illiyi

Məmmədbağır Bağırzadə 1950-2005

Müğənni



Məmmədbağır Məmmədəli oğlu Bağırzadə 1950-ci il iyul ayının 21-də Bakının Nardaran kəndində dünyaya gəlmişdir.

Orta məktəbi bitirdikdən sonra, 1975-ci ildə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin muğam şöbəsinə daxil olmuşdur. Burada oxuduğu müddətdə muğam sənətimizin bilicisi Əlibaba Məmmədovdan ifaçılıq sənətinin sirlərinə yiyələnmişdir. Musiqi məktəbini bitirdikdən sonra, 1980-ci ildə Azərbaycan Dövlət Konsert Birliyinə dəvət olunmuş, burada özünün rəhbərlik etdiyi "Dilkəş" ansamblını yaratmışdır. "Azkonsert "birliyində işlədiyi illərdə saysız-hesabsız qastrol səfərlərində olmuş, muğamımızın təbliğində xeyli əmək sərf etmişdir.

Məmmədbağır Bağırzadənin sənət yolu toylardan və el şənliklərindən başlamışdır. O, adətən öz mahnılarını oxusa da, klassik, müasir bəstəkar və şairlərin yaradıcılığına müntəzəm müraciət etmişdir. Xüsusilə də, şairə Zivər Ağayeva ilə qurduğu yaradıcılıq əlaqələri nəticəsində Azərbaycan milli musiqi sənətinə çoxlu sayda gözəl mahnılar bəxş etmişdir.

Məmmədbağır Bağırzadəni televiziyaya gətirən və onun yaradıcılığında xüsusi rol oynayan bəstəkar Ələkbər Tağıyev olmuşdur. Müğənninin repertuarına Oqtay Kazımovun, Nəriman Məmmədovun, Tahir Əkbərin və digərlərinin mahnıları da daxil idi. Radionun fondunda onlarca mahnısı saxlanan müğənninin ifa etdiyi bəstələr "Melodiya" firması tərəfindən vala yazılaraq geniş yayılmışdır.

1979-cu ildə Ələkbər Tağıyevin mahnıları, 1981-ci ildə isə öz bəstələri kütləvi tirajla buraxılmışdır.

1985-ci ildən müğənni Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin solisti, "Dilkeş" instrumental ansamblının rəhbəri olmuşdur.

Repertuarında 200-dən çox mahnı olan müğənni M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət Universitetinin mədəni-maarif fakültəsinə daxil olmuş, 1987-ci ildə oranı bitirmişdir.

M.Bağırzadə 2002-ci ildə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin xanəndə sinfində 3 il müəllim işləmişdir. O, 300-ə yaxın təsnifin, bir çox qəzəllərin müəllifidir.

Müğənninin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, "Azərbaycanın Əməkdar artisti", 2002-ci il dekabr ayının 24-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Məmmədbağır Bağırzadə 2005-ci il oktyabr ayının 30-da vəfat etmişdir.

Ədəbiyyat

Əhmədov, T. Azərbaycan oğluyam /T.Əhmədov.- Bakı: Azərbaycan, 2007.- 383 s.

Azəri, L. "Düşünərsən" /L.Azəri //Mədəniyyət.- 2012.- 20 iyul.- S.12.

Əsədova, İ. Ayrılığın üzü dönsün bu dünyada... /İ.Əsədova //Mədəniyyət.- 2010.- 29 oktyabr.- S.12.

Xəlilzadə, F. Sahili görünməyən dənizlər /F.Xəlilzadə //Yazdıqlarım: 7 cilddə.- C.2. Mədəniyyət-mənəviyyat.- S.207-209.

Məhərrəmova, T. Azərbaycan oğlu /T.Məhərrəmova //Kaspi.- 2010.- 27 iyul.- S.15.

Nizamqızı, H. "Bizim mahnılar"ın nəğməkarı /H.Nizamqızı //Mədəniyyət.- 2013.- 18 oktyabr.- S. 13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.librarything.com

80 illiyi

Vasif Adıgözəlov 1935-2006

Bəstəkar



Ədəbiyyat

Violençel və fortepiano üçün sonatina [Notlar] : (viola və fortepiano üçün A.Y.Əlizadənin işləməsi) /V.Adıgözəlov; [tərt. və işl. A.Əlizadə; red. T.Aslanov; rəyçilər R.Nərimanbəyli [və b.]]; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli adına Musiqi Akademiyası.- Bakı: [s.n.], 2011.- 32 s.

Babayeva, H. Vasif Adıgözəlov /H.Babayeva.- Bakı: Ergün, 1995.- 24 s.

Tahirov, K. Vasif Zülfü oğlu Adıgözəlov /K.Tahirov //Muğamın sədası.- Bakı, 2008.-S.72-80.

Xəlilzadə, F. Laylası da muğam idi /F.Xəlilzadə //Mədəniyyət.- 2011.- 29 iyul.- S.13.

Эфендиева, И. Васиф Адигезалов /И.Эфендиева; предисл. Т.Кулиев.- Баку, 1999.- 323 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.librarything.com

Vasif Zülfüqar oğlu Adıgözəlov 1935-ci il iyul ayının 28-də Bakıda məşhur muğam ustası Zülfü Adıgözəlovun ailəsində anadan olmuşdur. İlk musiqi təhsilini konservatoriyanın nəzdindəki 10 illik Musiqi məktəbində pianoçu kimi almışdır. 1953-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olaraq bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın sinfində təhsilini davam etdirmiş, 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirmişdir.

Əmək fəaliyyətinə 1958-ci ildən Radio və Televiziya Komitəsində musiqi redaktoru kimi başlamışdır. Sonralar Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, M.Maqomayev adına Dövlət Filarmoniyasının baş musiqi redaktoru, A.Zeynallı adına Bakı Musiqi məktəbinin direktoru və s. vəzifələrdə çalışmışdır. 1972-ci ildən Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında əsas işçi kimi müəllimlik etmiş, 1990-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının I katibi seçilmişdir. Bakı Musiqi Akademiyasında Xor dirijorluğu kafedrasına rəhbərlik etmişdir.

Bəstəkar musiqinin müxtəlif janrlarında əsərlər yaratmışdır; simfonik, vokal-simfonik, irihəcmli instrumental əsərlər yaradıcılığında əsas yer tutur. 2 opera: "Ölülər" (1963), "Natəvan" (2003), 5 musiqili komediya: "Hacı Qara" (operetta, 1957) (həmmüəllifi R.Mustafayev), "Nənəmin şahlıq quşu" (1971), "Boşanaq - evlənərik" (1976), "Lənət şeytana" (1984), "Aldın payını, çağır dayını", (2005), 4 oratoriya: "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala-1915", "Qəm karvanı", 3 kantata, 4 simfoniya, 6 instrumental konsert, kamera-instrumental musiqinin, kino-teatr musiqisinin, romans və mahnıların müəllifidir. Vasif Adıgözəlovun yaradıcılığı üçün parlaq melodizm, muğamın improvizasiyalı inkişafından irəli gələn forma xüsusiyyətləri, politritmiya, tembr effektləri səciyyəvidir. Bir çox filmlərə: "Xidmət lifti", "Cazibə qüvvəsi", "Şərikli çörək", "Skripkanın sərgüzəşti", "Həyat bizi sınayır", "Kişi sözü" və s. musiqi bəstələmişdir. O, həmçinin fortepiano üçün 24 prelüd, orqan üçün "Muğam-sonata" və s. kamera-instrumental əsərlərin müəllifidir. Bəstəkar "Don Juan", "Üç nağıl", "Qəribə əhvalat", "Çahargah fantaziyası" və s. dram tamaşalarına da musiqi bəstələmişdir.

Bəstəkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1973-cü ildə "Əməkdar incəsənət xadimi", 1989-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1980-ci ildə professor elmi rütbəsini almış, 1991-ci ildə Dövlət Mükafatı laureatı olmuşdur. 1995-ci ildə "Şöhrət", 2006-cı ildə "İstiqlal" ordenləri ilə təltif olunmuşdur.

Vasif Adıgözəlov 2006-cı il sentyabr ayının 9-da vəfat etmişdir.

100 illiyi Zəfər Nemətov 1915-1971

Rejissor



Zəfər Paşa oğlu Nemətov 12 iyul 1915-ci ildə Bakıda, mühəndis ailəsində anadan olmuşdur.

Uşaqlıqda mütaliəyə, ədəbiyyat və mədəniyyətə maraq göstərmişdir. 37 saylı məktəbdə təhsil almışdır. 1928-1929-cu illərdə Türk İşçi Uşaq Teatrı (indiki Gənc Tamaşaçılar Teatrı) həmin məktəbin 3-cü mərtəbəsində yerləşirdi. Məktəbli Zəfər öz fəaliyyətinə Lətif Kərimovun "Fırtına" pyesinin tamaşası ilə başlamışdır. Şagird ikən, 1929-cu ilin dekabrında Akademik Milli Dram Teatrının bir neçə tamaşasında kütləvi səhnələrdə iştirak edən gənc Zəfər 1931-ci ildə Gənc Tamaşaçılar Teatrına dəvət olunmuş və aktyor truppasının yardım heyətinə qəbul edilmişdir. Həmin ilin sentyabrında M.F.Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbinin (texnikumunun) aktyorluq fakültəsində təhsil almağa başlamışdır. Səhnə danışığını, vərdişlərini müəllimi Abbas Mirzə Şərifzadədən öyrənmişdir.

Teatr rejissorları Aleksandr Tuqanov və Məhərrəm Haşımov 1930-cu illərin ikinci yarısından başlayaraq gənc aktyoru rejissor assistenti kimi də işə cəlb etmişdir. Zəfər Nemətov Jan Batist Molyerin "Zorən təbib", Abdulla Şaiqin "El oğlu", Fridrix Şillerin "Qaçaqlar", Cəfər Cabbarlının "Aydın" əsərlərinin tamaşalarının hazırlanmasında müəyyən rejissorluq təcrübəsi toplamışdır.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda könüllü şəkildə faşist işğalçıları ilə döyüşə yollanmışdır. Bir il sonra ağır yara alaraq ordudan tərxis olunmuş və yenidən doğma kollektivdə səhnə fəaliyyətini rejissor kimi davam etdirmişdir. 1943-cü ilin yanvar ayında Zəfər Nemətovun ilk müstəqil quruluş verdiyi "Məlik Məmməd" (Əyyub Abbasov) nağıl tamaşasının premyerası olmuşdur.

Zəfər Nemətov Gənc Tamaşaçılar Teatrının Azərbaycan bölməsində 1945-1971-ci illərdə "Sənin evin" ("Ağbəniz", Valentina Lyubimova), "Xüsusi tapşırıq" (Sergey Mixalkov), "Odlar içində" (Əbil Yusifov), "Bahar nəğməsi" (Əyyub Abbasov), "Qaraca qız" (Abdulla Şaiq), "Yaşıl sandıqca" (İvan Vasilenko), "Düşmənlər içində" (Novruz Gəncəli), "Tamahkar" (Süleyman Sani Axundov), "Qastello" (İsidor Ştok), "Turp" (Pavel Malyerski), "Gülşən" (Əli Vəliyevin eyniadlı əsəri əsasında səhnələşdirəni Ağəli Dadaşov), "Meşə gölünün sahilində" (Sezar Solodar), "Yaşar" (Cəfər Cabbarlı), "Anacan" (Yusif Əzimzadə), "Bir saatlıq xəlifə" (Abdulla Şaiq), "Göyərçinlər" (Tələt Əyyubov), "İki həyat" (Rauf İsmayılov), "Romeo və Cülyetta" (Vilyam Şekspir) və s. pyeslərini tamaşaya hazırlamışdır.

Teatrın rus bölməsində "Qar kraliçası" (Yevgeni Şvarts), "Müfəttiş" (Nikolay Qoqol), "Sənin evin" və "Qürur məktəbi" (Valentina Lyubimova), "Meşə kənarında göl" (Sezar Solodar), "İyirmi ildən sonra" (Mixail Svetlov), "Polad üzük" (Konstantin Paustovski), "Zorən təbib" (Jan Batist Molyer), "Kasıblıq eyib deyil" (Aleksey Ostrovski), "Afrikadan gələn zərf" (Lyubomir Qarabin), "Bütün bunlar sadəcə işlər deyil" (Gennadi Şmelyov) tamaşalarına quruluş vermişdir.

Rejissor yaradıcılığında əldə etdiyi nailiyyətlərə görə 1954-cü il fevral ayının 27-də Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli sənətkar 1971-ci il noyabr ayının 19-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Əliağa Ağayev /Z.Nemətov, T.Kazımov; red. H.Sadıqova.- Bakı, 1978.- 42 s.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; layih. rəhb. Ə.Qarayev; layih. koordin. Ə.Vəliyev; mətnin müəl. İ.Rəhimli.- Bakı, 2010.- S.69-72.

Rəhimli, İ. Zəfər Nemətov (12.7.1915-19.11.1971) //Rəhimli İ. Kəsişən paralellər.- Bakı, 2010.- S.19-31.

Yusifli, V. Üçüncüsü? Yox hələlik yetişməyəcək /V.Yusifli //Panorama.- 1997.-25 oktyabr

İnternetdə

www.anl.az

www.tyuz.az

55 illiyi

Tabil Həsənov 1960-1992

Milli Qəhrəman



Tabil Qasım oğlu Həsənov 1960-cı il iyulun 4-də Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur.

1977-ci ildə burada məktəbi bitirmişdir.

1980-cı ildə hərbi xidmətə çağırılmışdır.

1982-ci ildə ordu sıralarından tərxis olunan Tabil Xocalının Kosalar kəndində Rabitə şöbəsində işləməyə başlamışdır.

1991-ci il 15 dekabr erməni millətçi qəsbkarları Cəmilli kəndinə dörd tərəfdən hücuma keçərkən Tabil və dəstəsi ilə düşmənə əks hücum edərək Meşəli kəndini azad etmişdilər. Bu qələbədən sonra ona el arasında "Qırxız qartalı" deyə səslənirdilər. Erməni işğalçıları sonra yenidən Meşəli kəndinə hücum etmiş, Tabil bu kəndi yenidən azad edə bilmiş və düşmənin canlı qüvvəsi məhv edilmişdi.

1992-ci il mart ayının 29-da erməni qəsbkarları Kosalara yenidən hücum etmişdilər. Saatlarla davam edən döyüşdə 53 erməni öldürülmüş, onların 12-ni "Qırxız qartalı" Tabil məhv etmişdi. Lakin bu onun son döyüşü olmuş, o, bu döyüşdə qəhrəmancasına həlak olmuşdu.

Ailəli idi. Üç övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Həsənov Tabil Qasım oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Xocalı rayonunun Kosalar kəndində dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov Tabil Qasım oğlu-Müdafiə Nazirliyi, sıravi-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.- 1995.- 17 yanvar.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Həsənov Tabil Qasım oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.116.

Həsənov Tabil Qasım oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.83-84.

Seyidzadə, M. Həsənov Tabil Qasım oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.89.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az




İYUL
11

Milli Qəhrəmanlar

60 illiyi

Etibar Əliyev
1955-1993

Milli Qəhrəman



Etibar Böyükağa oğlu Əliyev 1955-ci il iyul ayının 11-də Lənkəran şəhərində anadan olmuşdur.

Burada 5 saylı orta məktəbdə 8-ci sinfi bitirmiş, 1969-cu ildə 34 saylı texniki-peşə məktəbində dülgər ixtisasına yiyələnmişdir.

1973-cü ildə hərbi xidmətə çağırılmışdır. Etibar Əliyev 1975-ci ildə Saratov vilayətində əsgəri xidmətini başa vurub doğma yurduna qayıdaraq Lənkəran şəhər Əhaliyə Məişət Xidməti İdarəsində işləməyə başlamışdır.

1993-cü il avqustun 23-də "Talış-Muğan Respublikası" yaratmaq iddiası ilə çıxış edənlərə qarşı mübarizə aparmış, bu mübarizədə igidlik göstərərək həlak olmuşdur.

Ailəli idi. İki qızı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Əliyev Etibar Böyükağa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Etibar Əliyev Lənkəran şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Lənkəran şəhərindəki küçələrdən biri qəhrəmanın adını daşıyır. Şəhərin "23 Avqust" meydanında büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Etibar Böyükağa oğlu Əliyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Lənkəran şəhər əhaliyə məişət xidməti idarəsinin dülgəri - Azərbaycan Respublikasının dövlətçiliyinin və ərazi bütövlüyünün qorunmasında, Azərbaycan xalqına təcavüz edən cinayətkar ünsürlərə qarşı mübarizədə göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 24 avqust 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı- 1993.- № 16.- S. 19.- (Ölümündən sonra).

Əsgərov, V. Əliyev Etibar Böyükağa oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.78.

Əliyev Etibar Böyükağa oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.55.

Seyidzadə, M. Əliyev Etibar Böyükağa oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.53.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az



50 illiyi

Rafiq Alıcanov
1965-1993

Milli Qəhrəman



Rafiq Cəfər oğlu Alıcanov 1965-ci il iyul ayının 11-də Qazax rayonunun Kəmərli kəndində dünyaya göz açmışdır.

Muğanlı kənd orta məktəbini bitirdikdən sonra Kaliningrad şəhərinə gedərək Ali Hərbi Məktəbə daxil olmuşdur.

1988-ci ildə təhsilini bitirib Ukraynada ixtisası üzrə işə başlamışdır. Lakin Qarabağ müharibəsi başladığı üçün Azərbaycana geri dönmüşdür. Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Kəlbəcər, Ağdam, Tərtər, Füzuli, Zəngilan rayonlarında və Naxçıvan MR-da döyüşlərdə iştirak etmiş, kapitan rütbəsinə yüksəlmişdir.

5 noyabr 1993-cü ildə Füzuli rayonunun Kürdmahmudlu kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi, bir qızı və bir oğlu var.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə kapitan Alıcanov Rafiq Cəfər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Köçəvəlli kəndində dəfn edilmişdir.

Köçəvəlli kənd orta məktəbi qəhrəmanın adını daşıyır. Məktəbdə və Ağstafa şəhərinin mərkəzində büstü var. Büstün qoyulduğu ərazidə yerləşən park onun adını daşıyır. Eyni zamanda Bakı şəhəri Suraxanı rayonu Qaraçuxur qəsəbəsində və Ağstafa rayonunun mərkəzindəki küçəyə onun adı verilmişdir.

Rafiq Alıcanovun qəhrəmanlığından, keçdiyi həyat yolundan bəhs edən Güləmail Muradla Salatın Əhmədlinin "Vətən sağ olsun" şeir kitabı və Fəridə Ləmanın "Lalələr şəhid qanı" poeması işıq üzü görmüşdür. Qarabağ uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə (ölümündən sonra) bir sıra diplomlarla təltif olunmuşdur.

2013-cü ildə onunla yanaşı Qazax rayonundan olan digər iki Milli Qəhrəman - Mərifət Nəsibov və Şamoy Çobanovun həyat və döyüş yollarından bəhs edən "Qartal yuvası" sənədli-bədii filmi çəkilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Alıcanov Rafiq Cəfər oğlu-kapitan-Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- (Ölümündən sonra).

Əsgərov, V. Alıcanov Rafiq Cəfər oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.30.

Alıcanov Rafiq Cəfər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.26-27.

Seyidzadə, M. Alıcanov Rafiq Cəfər oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.33.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.e-qanun.az
www.muallim.edu.az

İYUL

13

Milli Qəhrəmanlar

40 illiyi

Arif Qədiməliyev 1975-1995

Milli Qəhrəman



Arif Maasif oğlu Qədiməliyev 1975-ci il iyul ayının 13-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olmuşdur.

1992-ci ildə burada məktəbi bitirmiş və sovxozda işləmişdir.

1993-cü ildə Ağstafa rayonundan Milli Ordu sıralarına çağırılmışdır. 1994-cü ildə 18 yanvar tarixində cəbhəyə göndərilmişdir.

Arif "N" saylı hərbi hissənin tərkibində Füzuli, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, həm kəşfiyyatçı, həm də nişançı-atıcı kimi komandirlərin hörmətini qazanmışdır.

1995-ci il mart ayının 17-də dövlət çevrilişinə cəhdin qarşısını alarkən həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Qədiməliyev Arif Maasif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Dağ Kəsəmən kəndində dəfn edilmişdir.

Ağstafa şəhərində büstü qoyulmuş, mədəniyyət evinə qəhrəmanın adı verilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qədiməliyev Arif Maasif oğlu-Müdafiə Nazirliyi, sıravi-Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Qədiməliyev Arif Maasif oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.157.

Qədiməliyev Arif Maasif oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.117.

Seyidzadə, M. Qədiməliyev Arif Maasif oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.120.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az



Milli Qəhrəmanlar

45 illiyi

Əsəd Əhmədov
1970-1992

Milli Qəhrəman



Əsəd Cəlal oğlu Əhmədov 1970-ci il iyul ayının 15-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində anadan olmuşdur.

Doğma kənddə orta məktəbi bitirdikdən sonra Bakıdakı 5 saylı texniki-peşə məktəbində oxumuşdur.

1989-cu ildə Almaniyada tank qoşunlarında hərbi qulluğa başlamışdır.

1992-ci ilin martında Milli Ordu sıralarına qoşulmuş, Əsəd Əhmədov Şuşa rayonunun Zarıslı, Salatınkənd, Turşsu məntəqələrində, Laçın ətrafında, Ağdam rayonunun Şelli, Abdal-Gülablı, Güllücə, Papravənd, Naxçıvanlı kəndləri uğrunda döyüşlərdə iştirak etmişdir. O, 1992-cı il iyul ayının 31-də Papravənd kəndi ətrafında döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Əsəd Cəlal oğlu Əhmədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Bakı şəhəri Yasamal rayonundakı küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbacanın Milli Qəhrəmanı adı verilməsi haqqında: [Əhmədov Əsəd Cəlal oğlu-starşina-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaətgöstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 3.- S. 11.- (Ölümündən sonra).

Əsgərov, V. Əhmədov Əsəd Cəlal oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.67-68.

Əhmədov Əsəd Cəlal oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.49-50.

Seyidzadə, M. Əhmədov Əsəd Cəlal oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.73.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az

90 illiyi

Pənah Xəlilov 1925

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Nəsrimizin üfüqləri: məqalələr /P.Xəlilov.- Bakı: Yazıçı, 1982.- 183 s.

X sinifdə ədəbiyyat dərsləri... /P.Xəlilov, B.Bağırov.- Bakı: Maarif, 1979.- 218 s.

SSRİ xalqları ədəbiyyatı: 2 hissədə: ali məktəblərin filologiya fakültəsi üçün dərslik /P.Xəlilov.- Bakı: Maarif, 1975-1977.

Sən bizimləsən, əzizim...: [prof.F.Hüseynov haq.] /P.Xəlilov //Ədəbiyyat qəzeti.- 2013.- 15 noyabr.- S. 6.

Professor Pənah Xəlilov /tərt. və red. K.Nəcəfova.- Bakı: Elm və təhsil, 2010.- 142 s.

Əhmədov, T. Pənah Xəlilov /T.Əhmədov //Azərbaycan yazıçıları: (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.744.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.mapyourinfo.com

Pənah İmran oğlu Xəlilov 1925-ci il iyul ayının 1-də Gürcüstanın Borçalı rayonunun Sadaxlı kəndində ziyalı ailəsində anadan olmuşdur.

İbtidai təhsilini kənddə almış, 1934-cü ildə ailəlikcə Gəncəyə köçdüklərindən M.Ə.Sabir adına 5 saylı şəhər orta məktəbini bitirmişdir.

1943-1948-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almış, 1948-1951-ci illərdə orada Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı, sonra həmin kafedrada baş müəllim, dosent (1951-1969), SSRİ xalqları ədəbiyyatı tarixi kafedrasının müdiri (1969-1989) olmuşdur.

1948-ci ildən fəal ədəbi yaradıcılığa başlamışdır. Ədəbi tənqid, ədəbiyyatşünaslıq və bədii tərcümə ilə məşğul olmuşdur. Azərbaycan ədəbiyyatı və keçmiş SSRİ xalqları ədəbiyyatı sahəsində ixtisaslaşmışdır. "Azərbaycan sovet ədəbiyyatı tarixi" (üç cilddə) və "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerkləri" (rusca) kitablarının müəlliflərindən biridir. Azərbaycan yazıçılarının VI qurultayında idarə heyətinə seçilmişdir.

1954-cü ildə "Böyük Vətən müharibəsi illərində Azərbaycan poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Professor Pənah Xəlilov məhsuldar fəaliyyət göstərən alimlərdən olmuşdur. Uzun müddət Azərbaycan-Özbəkistan universitetləri arasında kafedra ixtisasına uyğun professor-müəllim mübadiləsi yaratmış, hər iki universitetdən tələbələrin qarşılıqlı təhsil almasına nail olmuşdur. Alim 15-dən artıq elmlər namizədi, 5 elmlər doktoru yetişdirmişdir.

Ötən əsrin 70-ci illərində Azərbaycan Dövlət Televiziyasında "Ədəbi üfüqlər" verilişinin aparıcısı olmuş, ədəbiyyatımızın və incəsənətimizin nailiyyətlərini təbliğ etmişdir.

Onun yaradıcılığında tərcüməçilik fəaliyyəti əsas yer tutur. M.Servantesin "Lamançlı Don Kixot", Herodotun "Tarix" kimi qiymətli əsərlərini rus dilindən dilimizə tərcümə etmişdir.

Pənah Xəlilov 20-dən çox kitabın, 300-ə qədər məqalənin müəllifidir. Onun "Nəsrimizin üfüqləri", "Əhməd Yasəvi", "Kitabi-Dədə Qorqud"-intibah abidəsi", "Qədim adlar da tarixdir", "Əli və Nino problemləri" və s. monoqrafiyaları dəyərli tədqiqat işləridir.

1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1969-cu ildən filologiya elmləri doktoru, 1971-ci ildən isə professordur.

Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə, 2000-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Pənah Xəlilov 2002-ci ildən Prezident təqaüdçüsüdür.

70 illiyi

Timuçin Əfəndiyev 1945

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Heydər Əliyev-mədəniyyət və əbədiyyət /T.Əfəndiyev.- Bakı: Təhsil, 2013.- 125 s.

Hüseyn Cavidin ideyalar aləmi /T.Əfəndiyev.- Bakı: Yazıçı, 1985.- 204 s.

Mədəniyyət və incəsənətimizin məbədgahı ADMİU-90 /T.Əfəndiyev.- Bakı: [ADMİU], 2013.- 250 s.

Mədəniyyətdə tarixilik və müasirlik /T.Əfəndiyev.- Bakı: Təhsil, 2011.- 391 s.

İlham Əliyev və Azərbaycan dövlətinin teatr tarixi /T.Əfəndiyev //Xalq qəzeti.- 2010.- 30 noyabr.- S. 5.

Əməkdar incəsənət xadimi, filologiya üzrə elmlər doktoru, professor Timuçin İlyas oğlu Əfəndiyev: biblioqrafik göstərici /tərt. müəl.: V.Əliyev, X.Zeynalov.- Bakı: Elm, 2013.- 359 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.mapyourinfo.com

www.mechmath.bsu.edu.az

Timuçin İlyas oğlu Əfəndiyev 1945-ci il iyul ayının 17-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

1963-cü ildə Bakı şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra o, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuşdur.

1968-ci ildə Respublika Gənclər Təşkilatında çalışmışdır. 1969-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının aspiranturasına qəbul olmuş, 1972-ci ildə aspiranturanı bitirərək "Hüseyn Cavidin yaradıcılığı" mövzusunda dissertasiya müdafiə etmiş və elmlər namizədi adını almışdır. 1987-ci ildən professordur. Elə həmin ildən Azərbaycan Milli Elmlər Akademiyasında elmi katib vəzifəsində çalışmışdır.

Timuçin Əfəndiyev 1977-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışmışdır. O, burada əvvəlcə baş müəllim, sonra dosent vəzifəsini tutmuş, 1978-ci ildən 1987-ci ilədək fakültə dekanı olmuş, 1987-ci ildən 2014-cü ilədək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifəsində çalışmışdır.

1999-cu ildə "Romantik dramaturgiyada tarixilik və bədiilik" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

İlk ədəbi-tənqidi məqalələri 1973-cü ildə "Ulduz" jurnalı səhifələrində çap olunan Timuçin Əfəndiyev rektor vəzifəsində çalışdığı dövrdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti simpoziumlarında məruzəçi kimi iştirak etmişdir.

O, Azərbaycanda və xaricdə nəşr olunmuş bir çox kitabın ("Rus teatrı (XVII-XVIII əsrlər xalq teatrı)" (1998), "Cəfər Cabbarlı və romantik dramları" (1999), "Azərbaycan kino tarixi oçerkləri" (2001), "Azərbaycan dramaturgiyasında metodlar", "Azərbaycan mədəniyyəti və incəsənəti" (2002)), monoqrafiya və elmi məqalələrin müəllifidir.

1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Professor T.Əfəndiyev pedaqoji fəaliyyəti ilə yanaşı, ədəbi-elmi yaradıcılığını da ardıcıl davam etdirmiş, Azərbaycan sovet ədəbiyyatının aktual nəzəri və ədəbi-tarixi problemləri ilə məşğul olmuşdur. 1991-ci ildən "Tanıtım" jurnalı redaksiya heyətinin və Türkiyə "Vəqfi"nin üzvüdür.

2004-cü ildə "Humay", 2005-ci ildə "Akademik Yusif Məmmədəliyev", "Yaddaş" milli mükafatlarının laureatı, "Teatr xadimi", 2006-cı ildə Azərbaycan Milli İdman Assosiasiyası qızıl müdalına layiq görülmüş, 2005-ci ildə elm və təhsil sahəsində dünyanın aparıcı təşkilatçı-pedaqoqu nominasiyasında Beynəlxalq Diplomu, "Jurnalistlərin dostu" fəxri media Diplomu, 2008-ci ildə "Vətənə sevgi" diplomu almışdır.

Timuçin Əfəndiyev 2000-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adı ilə, 2005-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə 2013-cü il dekabr ayının 10-da isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

65 illiyi

Fəxrəddin Qədirov 1950

Akademik



Fəxrəddin Əbülfət oğlu Qədirov 1950-ci il iyul ayının 19-da Şəki şəhərində anadan olmuşdur.

1967-ci ildə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) fizika fakültəsinə daxil olmuş və 1972-ci ildə oranı bitirmişdir.

F.Qədirov əmək və elmi fəaliyyətinə 1975-ci ildə AMEA Geologiya İnstitutunda başlamışdır. O, 1981-1986-cı illərdə kiçik elmi işçi, 1986-1988-ci illərdə böyük elmi işçi, sonralar "Qravimetriya" laboratoriyasının rəhbəri, "Geodinamika və Seysmologiya" şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

O, 1984-cü ildə fizika-riyaziyyat elmləri namizədi, 2002-ci ildə isə geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcələrini almışdır.

1998 və 2000-ci illərdə ABŞ-ın Massaçusets Texnologiya İnstitutunda GPS tədqiqatları ilə məşğul olan alim bu texnologiyanı dərindən mənimsəmiş və 1998-ci ildə onun təşəbbüsü ilə Azərbaycan ərazisində ilk dəfə olaraq GPS müşahidə sistemi qurulmuş və GPS texnologiyası əsasında Azərbaycan ərazisinin müasir geodinamikasının tədqiqinin əsası qoyulmuşdur.

F.Qədirovun rəhbərliyi altında Azərbaycanda 10 ildən artıq müddətdə aparılan GPS monitorinqi nəticəsində Yer qabığının üfüqi hərəkətləri öyrənilmiş, zəlzələ təhlükəsini daha dəqiq dəyərləndirmək üçün deformasiya enerjisinin akkumulyasiya qanunauyğunluqları müəyyənləşdirilmiş, Qafqaz blokunun saat əqrəbinin əksinə dönməsi və Azərbaycan ərazisinin geodinamik şəraitinə təsiri tədqiq olunmuş, Abşeron yarımadasının cənub hissəsinin şərqə tərəf hərəkət etməsi və intensiv yer qabığı qısalmalarının sürəti və baş verdiyi ərazilər müəyyən edilmiş və bütün bunların seysmik proseslərdəki rolu aydınlaşdırılmışdır.

Alim ilk dəfə olaraq Azərbaycanın neftli-qazlı vilayətlərinin çöküntü təbəqələrindəki qravitasiya tarazlığı proseslərini nəzəri olaraq öyrənmişdir.

F.Qədirov tərəfindən Qafqaz-Xəzər regionunun litosfer quruluşunun 3D qravitasiya modeli hazırlanmış və qırılmaların səth və dərinlik paylanması öyrənilmişdir. Onun təcrübi və nəzəri tədqiqatları nəticəsində Cənubi Xəzər hövzəsində Moho sərhədi altında sıxlığı böyük olan təbəqənin olduğu müəyyən edilmiş və bu təbəqənin regionun geodinamikasındakı rolu öyrənilmişdir.

2007-ci ildə geofizika ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmişdir.

150-dən çox elmi məqalə və monoqrafiyanın müəllifi olan F.Qədirov 9 beynəlxalq elmi-tədqiqat layihəsinin rəhbəri olmuş, ABŞ və Avropada keçirilən beynəlxalq elmi konfranslarda dəfələrlə Azərbaycanı müvəffəqiyyətlə təmsil etmişdir.

Onun elmi rəhbərliyi ilə 10 elmlər namizədi hazırlanmışdır. Bir çox doktorantın elmi rəhbəridir. F.Qədirov bir sıra elmi cəmiyyətlərin, o cümlədən Avropa Geoloq Alim və Mühəndislər Assosiasiyasının (EAGE), Amerika Geofiziklər İttifaqının (təşkilatının) (AGU), Amerika Neftçi-Geoloqlar İttifaqının (AAPG) üzvüdür.

Ədəbiyyat

Abşeronda müasir geodinamik şərait amerikalı mütəxəssislərlə birgə izlənilir /F.Qədirov //Azərbaycan.- 2002.- 5 iyul.- S.5.

Elmə həsr edilmiş ömür: [A.M.Quliyev haq.] /F.Qədirov //Respublika.- 2013.- 15 dekabr.- S. 7.

İsayeva, M. Elmə xidmət etmək bəşəriyyətə xidmətdir /M.İsayeva //Xalq qəzeti.- 2010.- 10 iyul.- S.7.

Численные гравитационные модели глубинного строения Азербайджана: дис. ... д-ра геол.-минерал.наук: 04.00.12. /Ф.А.Кадиров; НАН Азерб. Ин-т Геологии.- Баку, 2001.- 293 с.

«Земля во все времена была динамически активной системой» /Ф.Кадиров //Азербайджанские известия. 2012. - 5 мая.- - С.1,3.

İnternetdə

www.adam.az

www.anl.az

70 illiyi

Xəlil İsmayılov 1945

Alim



Ədəbiyyat

Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): monoqrafiya /X.İsmayılov; elmi red. A.Xələfov.- Bakı, 2000.- 416 s.

Kitabxana-informasiya texnologiyaları: dərs vəsaiti /X.İsmayılov.- Bakı: Nurlar, 2009.- 311 s.

Kitabxana işinin təşkili və idarə edilməsi: ali məktəb tələbələri üçün dərslik /X.İsmayılov; elmi red. A.Xələfov.- Bakı: Nurlar NPM, 2010.- 327 s.

Kitabxana menecmentinin əsasları: dərs vəsaiti /X.İsmayılov.- Bakı: Bakı Universiteti, 2007.- 200 s.

İnternetdə

www.anl.az

www.azeribalasi.com

www..bsu.edu.az

www.qu.edu.az

Xəlil İsmayıl oğlu İsmayılov 1945-ci il iyul ayının 1-də Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olmuşdur. 1952-1963-cü illərdə yeddiillik kənd məktəbində təhsil almış, sonra isə Çayrəsullu kənd onbirillik orta məktəbdə təhsilini davam etdirmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra 1968-1972-ci illərdə ADU-nun kitabxanaçılıq fakültəsində təhsil almışdır.

1974-1976-cı illərdə Kitabxanaşünaslıq kafedrasının laborantı vəzifəsində işləmiş, 1976-1979-cu illərdə kafedranın əyani aspirantı olmuşdur. 1979-1983-cü illərdə həmin kafedrada müəllim, 1983-1986-cı illərdə baş müəllim, 1986-2004-cü illərdə kafedranın dosenti vəzifəsində çalışmışdır.

1984-cü ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Партийные библиотеки Азербайджана в годы Советской власти (История, современное состояние и перспективы развития)" mövzusunda müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcəsi, 2004-cü ildə isə "Azərbaycan Respublikasında kitabxanaların metodik təminat sistemi: 1918-2000-ci illər (Tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

1990-1993-cü illərdə Kitabxanaçılıq kafedrasının müdiri olmuş, 1993-2012-ci illərdə kitabxanaşünaslıq-informasiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 2007-ci ildən Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiridir.

Professor X.İsmayılov şəxsi təşəbbüsü ilə 1997-ci ildən nəşr olunan ixtisas məcmuəsinin -"Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi jurnalın təsisçisi və baş redaktoru kimi mühüm bir fəaliyyətlə məşğuldur.

1999-cu ildə Azərbaycanda təşkil olunmuş AKİİA-nın (Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası) təsisçilərindən biri və prezidentidir. ABŞ (Boston), Fransa (Nitsa, Leon, Kan), Belçika (Brüssel, Namur), Norveç (Oslo), və Koreyada (Seul) təşkil olunmuş Beynalxalq kitabxana forumlarında və İFLA-nın iclaslarında Azərbaycan kitabxana cəmiyyətini təmsil etmiş və beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. "Kitabxana işinin idarə edilməsinin təşkilati-metodik məsələləri" (1995), "Kitabxana menecmentinin əsasları" (2005, 2007), "Kitabxana-informasiya texnologiyaları" (2009), "Kitabxana işinin təşkili və idarə olunması" (2010) adlı dərs vəsaitlərinin və "Azərbaycan Respublikasında Kitabxanaların metodik təminat sisteminin inkişaf tarixi: (1918-2000)" (2000) monoqrafiyanın, 150-dən çox elmi məqalənin müəllifidir.

2009-cu ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, Respublika Təhsil Nazirliyi tərəfindən iki dəfə "Qabaqcıl təhsil işçisi" adına, BDU-nun rektoru tərəfindən Fəxri fərmanlara layiq görülmüşdür. O, prinsipial, obyektiv və humanist insan kimi öz müsbət təşkilatçılıq və idarəçilik keyfiyyətləri ilə dərin hörmət qazanmışdır.

Görkəmli alim 28 aprel 2014-cü ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.

İYUL

18

Tarixdə bu gün

Ramazan bayramı

İslam dininin müqəddəs bayramları arasında Ramazan bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 622-623-cü il) başlanmışdır.

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfqətli və ən müqəddəs ay hesab edilir. Onu "on bir ayın sultanı" da adlandırırlar. Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Oruc ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Orucluq ayında günün işıqlı vaxtı yemək, içmək, siqaret çəkmək, və s. olmaz. Oruc tutmaqdan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, cəbhədə vuruşanlar, uzaq yola çıxanlar azad olunurlar. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın." ("Bəqərə" surəsi, 187)

Məhəmməd peyğəmbər (s.ə.s.) buyurmuşdur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzinə oruc (qəzasını) tutmalı və ya fidyə verməlidirlər.

Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran hədiyyə edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə "leylət al-Qadr" - qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqqında belə yazılır: "Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!" ("Qədr" surəsi, 3-5)

Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan edilmişdi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur olmuşdular. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdi. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlamışdır.

Ə d ə b i y y a t

Hicrani, Ə.T. Orucun tarixi və mənəvi dəyərləri /Əli Təbrizi Hicrani.-[Yersiz]:[Məhdiyar], 2005.-141 s.
Qocayev, Ə. Orucluq bayramı //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.-S. 5-7.
Fitrə //İqtisadiyyat.- 2014.- 25 iyul-7 avqust.- S.15.

140 illiyi

“Əkinçi” qəzeti 1875



Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı milli mətbuatın yaranması zərurətini doğurmuşdur. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən görkəmli maarifçi Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Xeyli zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci il iyul ayının 22-də Bakıda qubernator mətbəəsində Azərbaycan dilində “Əkinçi” qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetin çapı ilə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur.

1875-ci il 22 iyul tarixindən 1877-ci il 29 sentyabr tarixinə qədər çapını davam etdirən “Əkinçi” ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

“Əkinçi” qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun “Vəkili-naməlumi millət” imzası ilə məqalələri dərc olunmuşdur.

Həsən bəy Zərdabinin yaratdığı “Əkinçi” qəzetinin dəsti-xətti əsasən bir ideya üzərində qurulmuşdu. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsi ilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi.

İlk mətbu orqan kimi “Əkinçi” incəsənət və ədəbiyyata aid də yeni demokratik tələblər irəli sürürdü. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov köhnə şeirlərlə yanaşı, şairləri müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan oyatmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi. Təbii ki, bu cür demokratik məqalələrindən sonra çarizmin diqtəsi ilə özlərini “ziyalı” sayan bəzi üzdəniraq insanlar “Əkinçi”nin üzərinə “hucum”a keçdilər. Beləliklə, 1877-ci il sentyabrın 29-da “Əkinçi” öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan “Əkinçi” realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də, belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi.

Ədəbiyyat

Əkinçi 1875-1877: tam mətni.- Bakı: Avrasiya Press, 2005.- 496 s.

“Əkinçi” qəzetinin biblioqrafiyası /tərt. M.Aslanov.- Bakı: Şirvqannəşr, 2005.- 40 s.

Nazimqızı, K. Həqiqət carçısı /K.Nazimqızı; red. A.Balayev.- Bakı: Nurlan, 2000.- 220 s.

Həsənov, Ə. Milli mətbuatımızın 137 illiyi qeyd olunub /Ə.Həsənov; müsah. apardı R.İsmayılov //Kaspi.- 2012.- 24 iyul.- S.9.

Əliyeva, J. Maarifçi ideyalar “Əkinçi”si /J.Əliyeva //Azərbaycan.- 2012.- 22 iyul.- S.2.

Rzayev, M. “Əkinçi” ənənələri yaradıcılıqla davam etdirilir /M.Rzayev //Xalq qəzeti.- 2013.- 9 iyun.- S.5.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

İYUL

23

Tarixdə bu gün

Ağdam rayonunun işğalı günü 1993



Ərazisi: 1154 km²
Əhalisi: 175400
İşğal tarixi: 23.07.1993

Bu gün Azərbaycanın Ağdam rayonunun işğalından 22 il keçir.

1993-cü il 23 iyul tarixində birinci Qarabağ müharibəsinin ən geniş miqyaslı əməliyyatlarından biri baş tutmuş, 1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı vermişdir.

Ağdam üzərinə edilən birinci hücum nəticəsiz qalmış, ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirmiş, iyun ayının 26-da Ağdərə düşmən əlinə keçmişdir.

Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başlamışdır. 600 minlik erməni ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın milli ordusu durmuş, 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatmışdır.

Ərazisi 1154 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometri, rayon mərkəzi ilə birgə 90 kəndi işğal olunmuş, işğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşayır. Bunların 17 mini yaşlı nəslin nümayəndəsidir.

İşğal nəticəsində Ağdam rayonunun 38 kolxozu, 12 sənayesi, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçmişdir.

Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuş, minlərlə insan fiziki şikəstlik qazanmış, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdır.

Ərazisinin 70 faizdən çoxunu itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirmişdir. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda indi 17 min ha sahədə əkin aparılır.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonunun işğalı nəticəsində ölkəmizə ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəymişdir.

Hər bir azərbaycanlı, hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musiqi səslərinə möhtac qalmış bərli-bərəkətli torpaqlarımız, ata-babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək.

O gün uzaqda deyil.

Ədəbiyyat

Abbasoğlu, B. Ağdam ağrıları: [məlumat kitabı] /B.Abbasoğlu; red. V.Quliyev.- Bakı: Şuşa, 2003.- 151 s.

Abbasoğlu, B. Seyidlidə bitən qeyrət /B.Abbasoğlu; red. S.Ağayev.- Bakı: Azərbaycan, 1998.- 128 s.

Tofiqli, V. Ağdam çörək muzeyi: dünəni, bu günü və sabahı /V. Tofiqli.- Bakı:Adiloğlu,2011.-139 s.

Ağdam rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.105-122.

Alıoğlu, S. Biz torpaqlarımıza qayıdacağıq /S.Alıoğlu //Respublika.- 2014.- 23 iyul.- S.6.

Sayadoğlu, P. Ağdam rayonunun ermənilər tərəfindən işğal olunmasından 21 il ötür /P.Sadayoğlu// Yeni Azərbaycan 2014.- 23 iyul.- S.6.

İnternetdə

www.anl.az

www.az.trend.az.new

www.az.wikipedia.org

www.milli.az

1 avqust

Gün çıxır 06:37
Gün batır 20:56

31 avqust

Gün çıxır 07.06
Gün batır 20:15

AVQUST

22 iyul-
23 avqust

Şir bürcünün Nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxilən zəngin olurlar.

Ş.	1
B.	2
B.E.	3
Ç.A.	**4**
Ç.	5
C.A.	6
C.	7
Ş.	8
B.	9
B.E.	10
Ç.A.	**11**
Ç.	12
C.A.	13
C.	14
Ş.	15
B.	16
B.E.	17
Ç.A.	**18**
Ç.	19
C.A.	20
C.	21
Ş.	22
B.	**23**
B.E.	24
Ç.A.	**25**
Ç.	26
C.A.	27
C.	28
Ş.	29
B.	30
B.E.	**31**

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.)*
- *Ümumrusiya müsəlmanlarının I Qurultayı işə başlamışdır (15.08.1905)*
- ***Cəbrayıl rayonunun işğalı günü (23.08.1993)***
- ***Füzuli rayonunun işğalı günü (23.08.1993)***
- ***Qubadlı rayonunun işğalı günü (31.08.1993)***

130 il Üzeyir Hacıbəyli 1885-1948



Azərbaycan Dövlət Konservatoriyasına (1949), Azərbaycan simfonik orkestrinə (1944) onun adı verilmişdir. Bakının mərkəzi küçələrindən biri onun adını daşıyır. 1966-1970-ci illərdə Azərbaycanda Ü.Hacıbəyli adına Respublika Dövlət Mükafatı təsis edilmişdir.

Şuşada (1965) və Bakıda (1975) böyük bəstəkarın Ev-muzeyi fəaliyyət göstərir. Bakıda (1960) və Şuşada (1985) heykəli ucaldılmışdır. Təəssüflə qeyd edilməlidir ki, Şuşadakı heykəl erməni işğalçıları tərəfindən güllələborana məruz qalmış və böyük çətinliklə Bakıya gətirilmişdir.

Dahi Azərbaycan bəstəkarı, peşəkar musiqimizin banisi Üzeyir Hacıbəylinin adını daşıyan quru yük gəmisi 1977-ci ildə Rusiyanın Rıbinsk şəhərindəki Volodarski adına gəmiqayırma zavodunda inşa edilib. "Çay-dəniz" tipli teploxodun yükqaldırma qabiliyyəti 3000 tondur. Gəmi hazırda Qara dəniz – Aralıq dənizi hövzəsində istismar olunur, Avropa, Afrika, Asiya limanlarına səfərlər edir.

F.Əmirov skripkalar, violençel və 2fr.üçün "Ü.Hacıbəyova ithaf" (1949) poemasını yazmışdır. "Azərbaycanfilm" kinostudiyasında iki seriyalı "Üzeyir ömrü" (1982; ssenari müəllifi və quruluşçu rejissor Anar) rəngli bədii televiziya filmi çəkilmişdir. 1983-85-ci illərdə Hacıbəylinin musiqi əsərlərinin akademik nəşrinin üç cildi ("Leyli və Məcnun"operasının partiturası və klaviri, "Koroğlu" operasının 1-3-cü pərdələrinin partiturası) çap olunmuşdur.

AVQUST 2015



Milli ədəbiyyat

Xalq şairi, akademik Vahabzadə Bəxtiyar Mahmud oğlunun (16.08.1925-13.02.2009) anadan olmasının 90 illiyi 210
Xalq şairi Qocayev Fikrət Göyüş oğlunun (Fikrət Qoca) (25.08.1935) anadan olmasının 80 illiyi 211
Nasir Hacızadə Əlibala Qüdrət oğlunun (28.08.1935-08.10.2009) anadan olmasının 80 illiyi 212



Dünya ədəbiyyatı

Fransız yazıçısı Gi de Mopassanın (05.08.1850-06.07.1893) anadan olmasının 165 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Nərimanbəyov Toğrul Fərman oğlunun (07.08.1930-02.06.2013) anadan olmasının 85 illiyi 213
Əməkdar incəsənət xadimi, professor Avalov Elturan Vəli oğlunun (20.08.1940) anadan olmasının 75 illiyi 214
Əməkdar memar və Əməkdar mühəndis Abdullayev Tahir Abdulla oğlunun (25.08.1915-05.01.2004) anadan olmasının 100 illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, opera müğənnisi Bağırov Məmmədtağı Abbas oğlunun (05.08.1890-16.04.1961) anadan olmasının 125 illiyi
Əməkdar incəsənət xadimi, musiqişünas, pedaqoq Karagiçeva-Bretanitskaya Lyudmilanın (19.08.1920) anadan olmasının 95 illiyi
Xalq artisti, bəstəkar, tarzən Dadaşov Ağadadaş Hacıbala oğlunun (30.08.1935) anadan olmasının 80 illiyi



Teatr. Kino

Xalq artisti Manafov Fəxrəddin Manaf oğlunun (02.08.1955) anadan olmasının 60 illiyi 215
Xalq artisti Şeyxzamanov Məmmədrza İsa oğlunun (04.08.1915-21.01.1984) anadan olmasının 100 illiyi 216
Xalq artisti Səfərova (Bəşirqızı) Afaq Bəşir qızının (15.08.1955) anadan olmasının 60 illiyi 217



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Ağayev Fərhad İslam oğlunun (04.08.1975-15.03.1995) anadan olmasının 40 illiyi 218
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Əli Hüseyn oğlunun (11.08.1955-01.10.1992) anadan olmasının 60 illiyi 219
Azərbaycanın Milli Qəhrəmanı Səfərov Sərdar Mədəd oğlunun (12.08.1960-25.09.1991) anadan olmasının 55 illiyi 220
Azərbaycanın Milli Qəhrəmanı Rüstəmov Hidayət Eldar oğlunun (19.08.1970-23.12.1991) anadan olmasının 45 illiyi 221
Azərbaycanın Milli Qəhrəmanı Nuriyev Elnur Eyvaz oğlunun (22.08.1975-05.10.1994) anadan olmasının 40 illiyi 222
Azərbaycanın Milli Qəhrəmanı Babayev Əjdər Xalıqverdi oğlunun (26.08.1950-13.03.1995) anadan olmasının 65 illiyi 223
Azərbaycanın Milli Qəhrəmanı Məcidov Eldar Tofiq oğlunun (26.08.1965-15.03.1992) anadan olmasının 50 illiyi 224
Azərbaycanın Milli Qəhrəmanı Mustafayev Çingiz Fuad oğlunun (29.08.1960-15.06.1992) anadan olmasının 55 illiyi 225
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Əmiraslan Rza oğlunun (30.08.1960-17.03.1995) anadan olmasının 55 illiyi 226



Siyasət.Hərbi iş

Hərbi xadim Naxçıvanski Cəmşid Cəfərqulu oğlunun (10.08.1895-26.08.1938) anadan olmasının 120 illiyi 227
Filologiya elmləri doktoru, dövlət və ictimai xadim Qurbanov Şıxəli Qurban oğlunun (16.08.1925-24.05.1967) anadan olmasının 90 illiyi 228
Sovet İttifaqı Qəhrəmanı Məhərrəmov Məlik Məlik oğlunun (29.08.1920-16.07.2004) anadan olmasının 95 illiyi



Tarix

Azərbaycan arxeoloqu və etnoqrafı Cəfərzadə İshaq Məmmədrza oğlunun (14.08.1895-05.01.1982) anadan olmasının120 illiyi



İqtisadiyyat.Fəlsəfə

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Muradov Şahbaz Musa oğlunun (10.08.1940) anadan olmasının 75 illiyi 229
Riyaziyyatçı, filosof, riyaziyyatın fəlsəfəsi ixtisası üzrə Azərbaycanda ilk mütəxəssis-alim, fəlsəfə elmləri doktoru, fizika-riyaziyyat elmləri doktoru Əkbərov Maarif Süleyman oğlunun (12.08.1930-12.08.2006) anadan olmasının 85 illiyi
Akademik Aslanov Aslan Məmməd oğlunun (20.08.1925-23.08.1995) anadan olmasının 90 illiyi
Alman filosofu, alman klassik fəlsəfəsinin nümayəndəsi Hegel Georq Vilhelm Fridrixin (27.08.1770-14.11.1831) anadan olmasının 245 illiyi



İdman

Əməkdar idman xadimi Məmmədov Yaşar Əzizağa oğlunun (02.08.1935) anadan olmasının 80 illiyi
Əməkdar bədən tərbiyəsi və idman xadimi, pedaqogika üzrə fəlsəfə elmləri doktoru, professor Quliyev Dilqəm Qasım oğlunun (06.08.1950) anadan olmasının 65 illiyi



Mədəniyyət.Maarif.Elm

Publisist Ağazadə Fərhad Rasim oğlunun (12.08.1880-04.01.1931) anadan olmasının 135 illiyi
Akademik Hüseynov Rafael Baba oğlunun (12.08.1955) anadan olmasının 60 illiyi 230
Akademik Nəbiyev Bəkir Əhməd oğlunun (21.08.1930-15.03.2012) anadan olmasının 85 illiyi 231
Əməkdar jurnalist, şair, publisist Xəlilzadə Flora Fətulla qızının (23.08.1955) anadan olmasının 60 illiyi 232
AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Ərtegin Əbdül Vahab oğlunun (28.08.1965) anadan olmasının 50 illiyi



Kimya.Biologiya.Tibb

Akademik, cərrah Topçubaşov Mustafa Ağabəy oğlunun (05.08.1895-23.11.1981) anadan olmasının 120 illiyi 233




Tarixdə bu gün

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) 234
Azərbaycan Kinosu Günü (02.08.1898) 235
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996) 235
Goranboy, Göygöl, Qazax, Şəmkir, Tovuz, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Astara, Cəlilabad, Lerik, Lənkəran, Sabirabad, Salyan, Ağdam, Şuşa, Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan, Şamaxı rayonlarının yaranmasının (08.08.1930) 90 illiyi
Beynəlxalq Gənclər Günü (12.08.1999) 236
Umumrusiya müsəlmanlarının I Qurultayı işə başlamışdır (15.08.1905)
Sərhəd Qoşunlarının Peşə Bayramı Günü (18.08.1994) 236
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü (23.08.2008)
Cəbrayıl rayonunun işğalı günü (23.08. 1993) 237
Füzuli rayonunun işğalı günü (23.08. 1993) 238
Beynəlxalq Azərbaycan Muğamı Günü (26.08.2010)
Ginnesin rekordlar kitabının (27.08.1955) nəşrə başlamasının 60 illiyi 239
Respublikada İctimai Televiziya yayıma başlamışdır (29.08.2005)
Qubadlı rayonunun işğalı günü (31.08.1993) 240

90 illiyi

Bəxtiyar Vahabzadə 1925-2009

Akademik



Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqust ayının 16-da Şəki şəhərində anadan olmuşdur. 1934-cü ildə Bakıya köçmüş, burada orta məktəbi bitirdikdən sonra, 1942-1947-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır.

1951-ci ildə namizədlik, 1964-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1950-1990-cı illərdə BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır. 1980-ci ildə AEA-nın müxbir üzvü, 2000-ci ildə həqiqi üzvü seçilmişdir. 1991-ci ildə Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin və Ağsaqallar Şurasının üzvü olmuşdur.

Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şeiri ilə başlamışdır. 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1949-cu ildə "Mənim dostlarım" adlı ilk kitabı çap olunmuşdur. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilirdi. O, tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. 100-ə yaxın şeir kitabının, monoqrafiyanın, yüzlərlə elmi-publisistik məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmişdir. "Vicdan", "Yağışdan sonra", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" və s. (1960-2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

B.Vahabzadə XX əsrin 60-cı illərindən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur. 1962-ci ildə şair "millətçi" damğası ilə ADU-dan uzaqlaşdırılmış, yalnız iki ildən sonra işə bərpa edilmişdir. Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, öz millətinin dərdlərini dilə gətirmişdir. Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə Sovet İttifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

O, Azərbaycan KP Bakı şəhər Komitəsinə üzv və bir neçə çağırış Bakı Xalq Deputatları Sovetinə, X çağırış Azərbaycan Ali Sovetinə, 1995 və 2000-ci illərdə Azərbaycan Milli Məclisinə deputat seçilmişdir.

Şairin yaradıcılığı və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1974-cü ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına, 1976-cı ildə "Leninlə söhbət" və "Muğam" poemalarına görə Respublika, 1984-cü ildə isə "Bir gəminin yolçusuyuq" şeirlər kitabına görə SSRİ Dövlət mükafatlarına layiq görülmüşdür. 1984-cü ildə "Azərbaycanın Xalq şairi" fəxri adını almışdır. 1988-ci ildə M.F.Axundov adına ədəbi mükafatın laureatı olmuşdur. 1995-ci ildə "Qırmızı Əmək Bayrağı" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur.

Bəxtiyar Vahabzadə 2009-cu il fevral ayının 13-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə: şeirlər /B.Vahabzadə; ön söz. müəl. Ç.Aytmatov; tərt. ed. və red. A.Bağırov.- Bakı: Öndər, 2004.- C.1.- 328 s.; C.2. Poemalar.- 2004.- 320 s.

Seçilmiş əsərləri /B.Vahabzadə; red. hey.: Ə.Quliyev (baş red.) və b..-Bakı: Çaşıoğlu, 2005.-440 s.

Ağayeva, M. Bəxtiyar Vahabzadə pyeslərinin səhnə taleyi: [monoqrafiya] /M.Ağayeva; elmi red. İ.Kərimov; AMEA, Memarlıq və İncəsənət İn-tu.- Bakı: [Xəzər Univeristeti] 2013.- 158 s.

Almənmədova, S. Bəxtiyar Vahabzadə poeziyasının dili: [monoqrafiya] /S.Almənmədova; elmi red. və ön sözün müəl. V. Arzumanlı.- Bakı: Elm, 2010.- 163 s.

Bəxtiyar Vahabzadə - 89 //Ədalət 2014.-16 avqust.- S.16.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

80 illiyi

Fikrət Qoca 1935

Şair



Fikrət Göyüş oğlu Qocayev (Fikrət Qoca) 1935-ci il avqust ayının 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1959-1964-cü illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır.

Əsərləri 1956-cı ildən mətbuatda çap edilir. Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, Azərbaycan Yazıçılar İttifaqında beynəlxalq əlaqələr üzrə məsul katib, "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi olmuş, "Azərbaycan" jurnalında fəaliyyət göstərmişdir. 1987-2004-cü illərdə "Qobustan" incəsənət toplusunun baş redaktoru olmuşdur. 1998-ci ildən Azərbaycan Yazıçılar İttifaqının katibidir.

Çap etdirdiyi şeir kitablarında vətən məhəbbəti, vətənpərvərlik duyğuları, insan və zaman haqqında düşüncələri öz əksini tapmışdır. Dünyanın bir çox ölkəsində yaradıcılıq səfərlərində olmuş, həmin ölkələrdə gedən milli azadlıq hərəkatlarına şeirlər həsr etmiş, o cümlədən Kubanın azadlıq mübarizi Ernesto Çe Gevar ("Ünvansız məktublar"), Qvineya-Bisaunun azadlıq hərəkatı xadimi Amilkar Kabral ("Amilkar Kabral"), Filippinin milli qəhrəmanı Xose Risal ("Xose Risal"), vyetnamlı gənc Li Vi Tom ("Li Vi Tom") və b. haqqında poemalar yazmışdır. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. 1990-cı illərdə yazdığı "Oddan keçənlər", "İnsan səviyyəsi", "Adi həqiqətlər" və s. poemalarında Azərbaycanda gedən azadlıq mübarizəsindən bəhs olunur. "Ölüm ayrılıq deyil" (1990), "Hələlik, - qiyamətədək" (2000) povestlərində 1990-cı ilin 20 Yanvar hadisələri öz əksini tapmışdır.

M.Lermontov, T.Şevçenko, E.Mejelaytis, İ.Volker, X.Risal, İ.Taufer və b.-dan tərcümələri var.

Şairin "Anacan dostum evlənir", "Könlüm", "Günay", "Gəl ey səhər", "Çiçək tapa bilmədim", "Gecə yaman uzundur", "Payız gəldi", "Bir xumar baxışla", "Arazım", "Qaytar eşqimi", "Ey xəyal" və başqa şeirlərinə musiqi bəstələnmiş, Azərbaycanın məşhur müğənnilərinin ifasında səslənmiş və sevilmişdir.

Gənclərin qəhrəmanlıq və fədakarlığından bəhs edən "Təkərlər geri fırlanır", "Yaralı çiçəklər" və "Rəssam düşünür" poemalarına görə 1968-cı ildə Azərbaycan komsomolu mükafatını almışdır. 1998-ci ildə uğurlu yaradıcılıq fəaliyyətinə görə "Humay" mükafatı laureatı olmuşdur.

Fikrət Qoca 1978-ci ildə "Əməkdar incəsənət xadimi", 1999-cu ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüşdür. 1995-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2010-cu ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Fikrət Göyüş oğlu Qocayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri: 6 cilddə /F.Qoca; red. Y. Qoca; burax. məsul. A.Qüdrətoğlu.- Bakı: Azərnəşr, 2005.- 362 s.

Adi həqiqətlər: şeirlər və poemalar /F.Qoca; portretin müəl. T.Nərimanbəyov; ön sözün müəl. Anar; red. A.Əmrahoğlu.- Bakı: Azərnəşr, 2000.- 220 s.

Hələlik, qiyamətəcən...: [nəsr əsərləri] /F.Qoca; rəssam Azər Ələkbərov.- Bakı: Yurd, 2001.- 392 s.

Pənah, G. Fikrət Qocanın yaradıcılıq yolu /G.Pənah; red. A.Arifqızı.- Bakı: Yurd, 2006.-352 s.

Yusifli, V. Fikrət Qoca 70 il /V.Yusifli; red.: Y.Qoca, V.Yusifli.-Bakı: Nurlan, 2005.-192 s.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

www.kitabxana.net

80 illiyi

Əlibala Hacızadə 1935-2009

Yazıçı



Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci il avqust ayının 28-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşdur. Rayonun Xırmandalı kənd orta məktəbində təhsil alımış, 1953-cü ildə ADU-nun şərqşünaslıq fakültəsinə, fars şöbəsinə qəbul olunmuşdur.

Əmək fəaliyyətinə 1958-ci ildə Azərbaycan EA-nın Yaxın və Orta Şərq xalqları İnstitutunda (indiki Şərqşünaslıq İnstitutu) kiçik elmi işçi kimi başlamışdır. 1964-cü ildə filologiya elmləri namizədi alimlik dərəcəsini almışdır.

1966-1970-ci illərdə Əfqanıstanda mütərcimlik etmişdir. Sonra Bakıya qayıdan yazıçı 1976-cı ildən yenidən Yaxın və Orta Şərq xalqları İnstitutunda baş elmi işçi vəzifəsində işləmiş və ömrünün sonuna kimi həmin institutun İran filologiyası şöbəsində çalışmışdır. 1994-1996-cı illərdə "Nizami" jurnalının baş redaktoru olmuşdur.

Onun "Mənim müəlliməm" adlı ilk hekayəsi 1956-cı ildə "Gəncliyin səsi" almanaxında dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. 1962-ci ildən Yazıçılar Birliyinin üzvü olmuşdur.

XX əsrin 80-ci illərində Ə.Hacızadənin qələmə aldığı "Möcüzə" romanı o dövrdə baş verən mürəkkəb ictimai proseslərə özünəməxsus bir baxışı əks etdirirdi. Yazıçının XX əsr İran poeziyasının məşhur nümayəndələrindən olan Fərrux Yəzdiyə həsr olunmuş monoqrafiyası dünya şərqşünaslığında bu böyük şairin həyat və yaradıcılığı haqqında ilk geniş tədqiqat olmuşdur. Bundan başqa o, müasir İran romanının tipologiyasına dair fundamental elmi araşdırmanın müəllifidir. O, həmçinin bir sıra orta əsr mənbələrini dilimizə tərcümə etmişdir.

Onun Azərbaycan ədəbiyyatına gətirdiyi yeni mövzulardan biri elmi mühitin təsviridir. Bu, təbii ki, onun yarım əsrdən artıq çalışdığı mühitlə əlaqədar olmuşdur. O, romanları ilə elm adamlarının bir növ qapalı olan həyatını geniş oxucu kütləsinə çatdırmışdır. Onun əsərləri oxucular tərəfindən bu gün də sevilə-sevilə oxunur.

Ə.Hacızadə həm də gözəl novella ustası idi. Bu novellalarda kəskin, öldürücü satiradan çox, incə yumor, zarafat nəzərə çarpır. Ədibin həyati realist inikas bacarığı, təsvir imkanları, konkret, dəqiq lövhə çəkmək məharəti bədii surətlərin zahiri görkəmində və kiçik məişət epizodlarının təsvirində diqqəti cəlb edir.

1993-1994-cü illərdə "İtkin gəlin" romanı əsasında yazdığı ssenarisinə 12 seriyalı bədii televiziya filmi çəkilmişdir. Onun sözlərinə bəstələnmiş mahnılar populyar müğənnilərin repertuarında özünəməxsus yer tutmuşdur.

Yazıçı Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, İranda "Ölməz şəxsiyyətlər" mükafatına layiq görülmüş, çoxillik elmi fəaliyyətinə görə AMEA Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Əlibala Qüdrət oğlu Hacızadə 2009-cu il oktyabr ayının 9-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Əsərləri: 10 cilddə /Ə.Hacızadə; red. M.Mahmudov.-Bakı: Nafta-Press, 2004-2005.

Mənim yazıq ürəyim: şeirlər /Ə.Hacızadə; tərt. ed. R.Sultan.- Bakı: Nafta-Press, 2007.-145 s.

Sevəcəyəm: şeirlər, hekayələr /Ə.Hacızadə.- Bakı: Diplomat, 2001.- 170 s.

Təyyarə kölgəsi: roman /Ə.Hacızadə; red. Z.Əsgərova.-Bakı: Gənclik, 1992.- 304 s.

Vəfalım mənim: roman /Ə.Hacızadə; red. Z.Əsgərova.-Bakı: Gənclik, 1993.- 368 s.

Ayrılığın sonu yoxmuş //Mədəniyyət.- 2013.- 28 avqust.- S. 11.

Əhmədova, C. Əlibala Hacızadə yolu - sadə, zəngin və maraqlı /C.Əhmədova //525-ci qəzet.-2011.-31 mart.- S.7.

İnternetdə


www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Toğrul Nərimanbəyov 1930-2013

Rəssam



Toğrul Fərman oğlu Nərimanbəyov 1930-cu il avqust ayının 7-də Bakı şəhərində doğulmuşdur. 1950-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini, 1955-ci ildə isə Litvada Vilnüs Rəssamlıq İnstitutunu bitirmişdir. XX əsrin 50-ci illərindən etibarən yaradıcılığa başlamışdır.

Hələ Litvada təhsil alarkən Qərbə məxsus barokko üslubunun təmtəraq və qotika arxitekturası ilə tanış olmuş, Delakrua sənətinə xas olan romantik gözəllik, Cotto əsərlərindən süzülüb gələn səmimiyyət, Rembranta xas tragik vüsət, Pol Sezanda rəssam fikrinin ifadə dəqiqliyi onun dünyamiqyaslı bir rəssam kimi yetişib formalaşmasında mühüm rol oynamışdır.

İnsanların daxili aləminin ən incə çalarlarınadək təsvirini verən portretləri öz orijinallığı, bədii forma kamilliyi və novatorluğu ilə seçilmişdir. Təzad və şərtiliyi, ənənəvilik və müasirlik kimi müxtəlif yanaşmaları əsərlərində harmonik şəkildə əks etdirmişdir. Ayrı-ayrı tamaşalara verdiyi bədii tərtibatlarla Azərbaycan teatr rəssamlığının dəyərli nümunələrini də yaratmışdır. Monumental boyakarlıq və divar rəssamlığı janrında işlənmiş tabloları böyük estetik təsir qüvvəsinə malikdir.

Onun "Göyçay bağlarında", "Bahar yarmarkası", "Narlar və armudlar", "Çiçəklər", "Köhnə çinar", "Qız qalası" kimi heyranedici natürmort və peyzajlarında təbiətin təsviri xüsusilə göz oxşayır. "Xəzər üzərində şəfəq", "Baltika balıqçıları" tablolarında gənc entuziastların romantik obrazları əks olunmuş, "Emalatxanada", "S.Bəhlulzadə", "Mahnı", "Məhsuldarlıq", "Polyaçka", "Sevinc" kimi lirik lövhələrində işıqlı həyati anlar əks olunmuşdur.

1952-ci ildən əsərləri Kubada, Hindistanda, Polşada, Çexiyada, Slovakiyada, Almaniyada, Fransada, İtaliyada, Moskvada, ABŞ-da Azərbaycan rəssamlığının qiymətli nümunələri kimi mötəbər sərgi salonlarında, rəsm qalereyalarında və incəsənət muzeylərində uğurla nümayiş etdirilir, ayrı-ayrı şəxslərin kolleksiyalarında saxlanılır. 1966-cı və 2011-ci illərdə haqqında qısametrajlı sənədli televiziya filmi çəkilmiş, bir sıra filmlərdə "Qobustan" (1967), "Əllər və rənglər" (1974), "Dədə Qorqud" (1975), "Rənglərin melodiyası" (1981), "Yeddi gözəl" (1982) rəssam kimi çıxış etmiş, onun rəsm əsər-lərindən istifadə edilmişdir.

1974-cü ildə F.Əmirovun "Nəsimi haqqında poema" baletinin tərtibatına görə Azərbaycan SSR Dövlət mükafatı, 1980-ci ildə yenidən F.Əmirovun "Min bir gecə" baletinin tərtibatına görə SSRİ dövlət mükafatıyla təltif olunmuşdur. 1964-cü ildə "Azərbaycanın Əməkdar rəssamı", 1967-ci ildə Azərbaycan SSR-in, 1989-cu ildə SSRİ-nin "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, bir sıra orden və medallarla - 2000-ci ildə "İstiqlal", 2010-cu ildə "Şərəf" ordenləri ilə təltif olunmuş, 2009-cu ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Toğrul Nərimanbəyov 2013-cü il iyun ayının 2-də Parisdə vəfat etmiş, Parisin Passi qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat

Toğrul Nərimanbəyov 1930-2013 /layihənin rəhbəri Ç.Fərzəliyev.- Bakı, 2013.-102 s.

Məhərrəmova, T. Azərbaycan ruhlu rəssam: Toğrul Nərimanbəyov bütün dünyada tanınan, sevilən, yaradıcılığına və əsərlərinə böyük maraq göstərilən sənətkar idi /T.Məhərrəmova //Kaspi.-2013.- 11 iyun.- S.11.

Rənglərdə əbədi yaşayacaq görkəmli fırça ustası, Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyov dünyasını dəyişib //Mədəniyyət.-2013.- 12 iyun.- S. 5.

Rzayeva, M. "Şuşadan doğan Günəş...": Dünya şöhrətli rəssamın dilindən Qarabağ həqiqətləri səsləndi, əli isə çəkirdi /M.Rzayeva //Şərq.-2014.- 25 yanvar.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

75 illiyi

Elturan Avalov 1940

Rəssam



Elturan Vəli oğlu Avalov 1940-cı il avqust ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirmişdir.

O, rəngarəng yaradıcı maraqlara malik bir insandır. Hələ uşaqlıqdan rəsmə böyük həvəs göstərmiş və ilk rəsmlərini "Molla Nəsrəddin" jurnalının təsiri ilə çəkmişdir. Belə ki, jurnalın peşəkar karikaturistləri O.Şmerlinq və İ.Rotterin əl işlərindən ilham almışdır.

Elturan Avalov Cüzeppe Verdinin "Aida" və "Karmen" operalarına rəsmlər, Üzeyir Hacıbəylinin musiqili komediyalarına, Bəxtiyar Vahabzadənin "Muğam" poemasına illüstrasiyalar çəkmişdir.

Yaradıcılığında portret janrına da üstünlük vermiş və yaratdığı obrazlarda bizi əhatə edən müxtəlif insan talelərini ustalıqla əks etdirmişdir. Onun "Naməlum adam", "Qatıqçı", "Kisəçi" və s. portretləri bu qəbildəndir.

"Şuşanın memarlığı" (1977), "Elturan" (1986), "Memarın gözü ilə" adlı kitabların müəllifidir.

30-dan çox sərginin iştirakçısıdır. Bakıda (1985, 1994, 2005), Moskvada (1986), Türkiyədə (1999) fərdi sərgiləri keçirilmişdir. 2003-cü ildə ona professor elmi rütbəsi verilmişdir.

2005-ci ildən Azərbaycan Rəssamlar İttifaqının, 2006-cı ildən Azərbaycan "Karikaturaçı Rəssamlar Birliyi"nin, FECO-nun (Karikaturaçılar Təşkilatının Beynəlxalq Federasiyası) Azərbaycan qrupunun üzvüdür.

2011-ci ildə Dünya Turizm Günü ilə əlaqədar "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Qoruq-Muzeyində tanınmış rəssam, sənətşünas, professor Elturan Avalovun əsərlərindən ibarət sərgi açılmışdı. Sərgidə müəllifin İçərişəhər, eləcə də Azərbaycan memarlıq abidələrini əhatə edən əsərləri nümayiş olunmuşdur.

O, həmçinin bəstəkarlıqla da məşğul olmuş, onun musiqi əsərləri həm yerli, həm də xarici səhnələrdə səslənmişdir. Skripka və fortepiano üçün yazdığı "Adacio", həmçinin görkəmli bəstəkar Fikrət Əmirovun xatirəsinə həsr etdiyi "Ekspromt" və "Fantaziya" Türkiyədə B.Axundov və L.Axundova tərəfindən ifa edilmiş, Abdulla Şaiqin sözlərinə bəstələdiyi "İdman marşı" isə Rusiyada keçirilən festivalda Sumqayıt Uşaq xoru tərəfindən səslənmişdir.

Onun yaradıcılığında Qarabağ mövzusu geniş yer tutmuşdur. Onun çəkdiyi əsərlərdə Azərbaycanın təbiəti, Şuşa memarlığı, İçərişəhər, Gəncə və Ordubad abidələri böyük ustalıqla təsvir olunmuşdur.

Elturan Avalov 1991-ci ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Mənə Vətənimin qoxusu daha əzizdir /E.Avalov //Zaman.- 2011.- 12-18 mart.- S.7.

Sənətşünaslıq elminə yeni töhfələr /E.Avalov //Kaspi.- 2012.- 10-12 mart.- S.11.

Gülər. Memarlıq abidələri təsviri sənət əsərlərində: sərgi /Gülər //Mədəniyyət.- 2011.- 30 sentyabr.- S.13.

Шуша [Электронный ресурс] : графика /Э.Авалов; Фонд Гейдара Алиева, Общественная организация развития регионов.- Баку: Чашыоглу, 2008. - 1 эл. опт. диск (CD-ROM).- ("Nizami" layihəsi).

Shusha [Graphic]: etchings /E.Avalov; Heydar Aliyev Foundation; [foreword K.Shukurov; layout. Regional Development Public Association].- Baku: [s.n], 2008.- 107 p.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.bibliotekar.ru

www.en.wikipedia.org

60 illiyi

Fəxrəddin Manafov 1955

Aktyor



Fəxrəddin Manaf oğlu Manafov 1955-ci il avqust ayının 2-də Xankəndidə anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Nərimanov rayonundakı 12 saylı texniki peşə məktəbinə daxil olmuş və oranı kino mexanikliyi ixtisası üzrə bitirmişdir. 1971-1974-cü illərdə A.M.Şərifzadə adına Aktyor evində kinomexanik kimi çalışmışdır. İlk dəfə orada "Yuğ" Teatrının təməlini qoyan bədii rəhbər, baş rejissor, direktor Vaqif İbrahimoğlunun köməyi ilə səhnə danışığını, səhnə mədəniyyətini, səhnə plastikasını öyrənmişdir. Hələ "Yuğ" Teatrı yaranmamışdan, 1976-cı ilin sonu, 1977-ci illərin əvvəllərində Vaqif müəllimlə Aktyorlar evində tədris teatrında bir aktyor kimi fəaliyyətə başlamışdır.

1975-1980-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almış, 1976-1978-ci illərdə Tədris teatrında aktyor kimi fəaliyyət göstərmişdir. 1978-ci ildən bu günədək C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında aktyor kimi filmlərə çəkilir. İlk dəfə "İşgüzar səfər" adlı bədii filmə çəkilmiş, 1989-1993-cü illərdə "Yuğ" Dövlət Teatrında aktyor vəzifəsində çalışmışdır.

Tamaşaçıların böyük rəğbətinə səbəb olan maraqlı, xarakterik obrazlar yaratmışdır. "Ölsəm, bağışla", "Gecə qatarında qətl" filmləriylə insanların qəlbini fəth etməyi bacaran aktyor, Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı əsasında ekranlaşdırılan "Təhminə" filmində tamaşaçıların yaddaşına Zaur obrazı ilə həkk olundu.

İfa etdiyi rəngarəng obrazlar bir-birindən xarakter baxımından tamamilə fərqlidir: Teymur ("Göz qabağında şeytan balası"), Şəfibəyov ("İşarəni dənizdən gözləyin"), İsgəndər ("Qəm pəncərəsi"), Rüstəm ("Gecə qatarında qətl"), Marat ("Park"), Eldar ("Köhnə bərə"), Tahirbəyov ("Özgə ömür"), Zaur ("Təhminə"), Rza ("Əlvida, cənub şəhər") Yusif ("Ölsəm Bağışla"), İbrahim xan ("Hökmdarın taleyi"), Professor ("Otel Otağı"), Narkobaron Sadıxov ("Dronqo" (serial))-, Abbasqulu ağa Bakıxanov ("Sübhün səfiri") və s.

F.Manafovun ən maraqlı obrazlarından biri Xalq yazıçısı Elçinin eyniadlı romanı əsasında çəkilmiş, Azərbaycan və Türkiyə arasında ilk müştərək kino layihəsi olan "Mahmud və Məryəm" filmində baş qəhrəman Mahmudun atası Ziyad xan roludur. Ziyad xan rolu aktyorun tarixi bir filmdə canlandırdığı ilk obraz deyil. Onun 2008-ci ildə "Hökmdarın taleyi" filmində yaratdığı İbrahimxəlil xan obrazı da öz milli kaloriti, tarixiliyi və həyatiliyi ilə seçilir. Hətta aktyor İbrahim xan roluna görə "Zirvə" mükafatı ilə təltif edilmişdir.

Fəxrəddin Manafovun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1987-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 2000-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat

"Tənhalıq mənim həyat obrazımdır" /F.Manafov //Şərq.-2011.- 4 iyun.- S.7.

Əhmədoğlu, M. Sənsevimli Fərhadımız... /M.Əhmədoğlu //Ədalət.-2010.- 3 avqust.- S.4.

"Şah Qacarın obrazını yaratsam..." //Üç nöqtə.-2009.- 18 mart.- S.3.

İnternetdə


www.anl.az

www.adam.az

www.kino-teatr.ru

www.az.wikipedia.org

100 illiyi
Məmmədrza Şeyxzamanov
1915-1984
Aktyor



Məmmədrza İsa oğlu Şeyxzamanov 1915-ci il avqust ayının 4-də Gəncə şəhərində anadan olmuşdur. 1934-cü ildə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının rejissoru Həbib İsmayılovun təşəbbüsü ilə teatra dəvət edilmişdir. Burada aktyor studiyasında oxumuş, eyni zamanda yardımçı heyətin tərkibində teatrın tamaşalarında iştirak etmişdir. İlk dəfə Ə.Həmidin "Hind qızı" tamaşasında Brahma adlı kiçik rolda çıxış etmişdir.

1954-cü ilədək Gəncə teatrında işləyərək bir sıra maraqlı obrazlar yaratmışdır. Sonra Bakı şəhərinə köçmüş, Akademik Milli Dram Teatrının aktyor truppasına daxil olmuşdur. Aydın diksiyaya, geniş diapazona malik sənətkar olan aktyorun yaradıcılığı üçün milli orijinallıq, yaratdığı xarakterlərin psixoloji xüsusiyyətlərinə nüfuz edə bilmək bacarığı səciyyəvi idi. Onun səslər içində seçilən əsl səhnə və kino səsi olmuş, qəhrəman obrazlarını, komik rolları daha məharətlə ifa etmişdir. Ümumiyyətlə, yumşaqlıq, kövrəklik, humanistlik və sülhsevərlik M.Şeyxzamanova xas olan cəhətlər idi.

Teatrda "Göz həkimi"ndə Şahbazov, "Qış nağılı"nda Poliksen, "Hamlet"də Poloni, "Fərhad və Şirin"də Xosrov, "Vaqif"də Qacar, Eldar, "Otello"da Otello, "Aydın"da Aydın, "Qaçaq Nəbi"də Qaçaq Nəbi, "Səyavuş"da Rüstəm, "Xəyyam"da Müfti, "Şeyx Sənan"da Şeyx Mərvan, "Od gəlini"ndə Altunbay kimi bir-birindən fərqlənən, psixoloji, dramatik obrazları yaddaşlara həkk olunmuşdur.

Aktyorun dramatik rolları C.Cabbarlının "Almaz" (Hacı Əhməd), C.Məmmədquluzadənin "Ölülər" (Hacı Həsən ağa), İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" (Həsənalı), komedik rolları S.Rəhmanın "Küləklər" (İmanqulu), "Xoşbəxtlər" (Bərbərzadə) və "Yalan" (Saleh), R.Vivianinin "Çarəsiz dələduz" və s. alqışlarla qarşılanmışdır.

Aktyor böyük ekrana ilk dəfə 1955-ci ildə, "Bəxtiyar" filmində Rəcəbov rolu ilə çıxmışdır. 1963-cü ildə böyük sənətkar A.İsgəndərovun S.Rəhmanın ssenarisi əsasında quruluş verdiyi "Əhməd haradadır?" adlı musiqili komediya filmində Şirin kişi rolunda çəkilmişdir. 1976-cı ildə o, R.Ocaqovun İ.Hüseynovun ssenarisi əsasında çəkdiyi "Tütək səsi" filmində İsfəndiyar kişi rolunda çıxış etmişdir. "Qızmar günəş altında" (Əmir dayı), "Bir qalanın sirri" (Həkim baba) və s. filmlərə də çəkilmişdir.

Aktyorluq sənətindəki nailiyyətlərinə görə ona 10 iyun 1959-cu ildə "Əməkdar artist", 1 iyun 1974-cü ildə isə "Xalq artisti" fəxri adları verilmiş, H.Cavidin "İblis" faciəsindəki İxtiyar roluna görə 1984-cü ildə (ölümündən sonra) Dövlət mükafatı ilə təltif edilmişdir.

Məmmədrza Şeyxzamanov 1984-cü il yanvar ayının 21-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Aygün. Əsl sənətkarların yaradıcılığı öyrənilməlidir: "Məmmədrza Şeyxzamanov Azərbaycanın kino mədəniyyətində böyük rolu olan insanlardandır" /Aygün //Üç nöqtə.-2013.- 25 yanvar.- S.13.

Əhmədalılar, T. Başdan-başa tamaşa kişi /T.Əhmədalılar //Mədəniyyət.- 2014.- 24 yanvar.- S.12.

Kinomuzun unudulmaz Şirin dayısı: Kiçik rollardan böyük səhnəyə doğru //Azadlıq.- 2011.- 10 iyun.- S.14.

Məmmədrza Şeyxzamanov zəngin dünyagörüşünə malik sənətkar idi //Səs.- 2013.- 3 avqust.- S. 12.

Şeyx Nizaminin varisləri- Şeyxzamanovlar Azərbaycan üçün önəmli bir soyad //Azadlıq.-2012.- 15 fevral.- S.14.

"Yaxşı kişi"- Məmmədrza Şeyxzamanov: Kino qəhrəmanları //Ekran-efir.- 2013.- 28 iyun.- S.9.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

60 illiyi

Afaq Bəşirqızı 1955

Aktrisa



Afaq Bəşir qızı Səfərova (Afaq Bəşirqızı) 1955-ci il avqust ayının 15-də Bakı şəhərində anadan olmuşdur. 1974-1979-cu illərdə İncəsənət Universitetinin mədəni-maarif fakültəsində təhsil almışdır.

Aktyorluq fəaliyyətinə 1973-cü ildə Lənkəran Dövlət Dram Teartında başlamışdır. 1975-ci ildə Sumqayıt Dövlət Dram Teatrında çalışmış, burada klassik və müasir dramaturqların əsərlərində baş rolları ifa etmişdir. İlk rollarından özünü istedadlı, işgüzar, səhnəyə böyük məhəbbətlə bağlı, daim axtarışda olan sənətkar kimi göstərərək, tamaşaçıların dərin rəğbətini qazanmışdır. Azərbaycanın teatr və kino səhnəsinin unudulmaz aktyoru Bəşir Səfəroğlunun ailəsində böyüməsi Afaq xanımın bir aktrisa kimi formalaşmasında mühüm rol oynamışdır.

Onun "Bəxt üzüyü" tamaşasında yaratdığı Söylü obrazı öz koloritinə, tutumuna, yüksək bədii keyfiyyətlərinə görə klassik nümunədir. Əsasən komik rolların ifaçısı kimi daha da püxtələşən Afaq Bəşirqızı 1989-cu ildə Musiqili Komediya Teatrına dəvət almış və bu illər ərzində "Subaylarınızdan görəsiniz"də Səməni, "O olmasın, bu olsun"da Sənəm, "Bankir adaxlı"da Nisə, "Məhəbbət oyunu"nda Səltənət, "İtkin ər"də Məleykə, "Məsmə xala dayımdır"da Məsmə və s. rolları məharətlə ifa etmişdir.

"Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Bəxt üzüyü", "Girov" filmlərində rol almışdır. Televiziya tamaşalarında yaratdığı Zəhra xalaqızı ("Yaşıl eynəkli adam"), Suğra ("Balabaşa bəla"), Darçınbəyim ("Evləri köndələn yar"), Ayka ("Yarımştat"), Gülya ("Nekroloq") rolları ilə daha da məşhurlaşmışdır.

"Afaq gülür-güldürür" adlı komik səhnəciklər toplusu ilə televiziya ekranlarında çıxış etmiş, atasının xoş xatirəsini daim yaddaşlarda yaşatmaq üçün "Bəşir" teatrını yaratmışdır.

Hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində aktyorluq kursunda dərs deyir.

1989-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1993-cü ildə "Xalq artisti" adlarına layiq görülmüşdür. Görkəmli aktyor 1993 və 2003-cü illərdə "Qızıl Dərviş" mükafatına, 2012-ci ildə Prezident mükafatına layiq görülmüşdür.

Milli teatr sənəti sahəsindəki uğurlarına görə 2011-ci ildə "Yaxşıların yaxşısı" Milli Mükafatına layiq görülmüşdür.

2013-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, eyni zamanda "Azərbaycan mədəniyyətinə dəyərli töhfə" nominasiyası üzrə Azərbaycanın teatr və kino sənəti sahəsindəki uzunmüddətli səmərəli fəaliyyətinə görə "Zirvə" mükafatını almışdır.

Ədəbiyyat

Afaq Bəşirqızı: "Məni ayağa qaldıran xalqımın sevgisi oldu" /A.Bəşirqızı; müsahibəni apardı X.Sadıqova //Zaman.- 2014.- 1aprel.- S.8.

"Həyatda aktyor deyiləm" /A.Bəşirqızı //Bizim yol.- 2014.- 26 fevral.- S.13.

"Yaratdığım Suğra, Söylü, Ayka obrazlarımın eyhamları hələ də dillərdədir" /A.Bəşirqızı; müsahibəni apardı X.Günəş //Palitra.- 2013.- 15 may.- S.13.

Xəlilzadə, F. Bu mənim tale yolum: publisistik oçerk /F.Xəlilzadə; red. Y.Hüseynov.- Bakı: ŞirAk, 1999.- 98 s.

Hüsniyyə. Afaq Bəşirqızı "Yaxşıların yaxşısı" oldu /Hüsniyyə //525-ci qəzet.- 2011.- 4 may.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

40 illiyi

Fərhad Ağayev 1975-1995

Milli Qəhrəman



Fərhad İslam oğlu Ağayev 1975-ci il avqust ayının 4-də Sabirabad rayonunun Ələmbəyli kəndində anadan olmuşdur.

O, 1992-ci ildə Ələmbəyli kənd məktəbini bitirdikdən sonra, 1993-cü ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmış, Prezident Qvardiyasında xidmətə başlamışdır.

Fərhad Ağayev 24 yanvar 1994-cü ildə cəbhəyə yola düşmüş, ilk döyüşlərini Füzuli rayonunun Seyidəhmədli kəndində keçirmişdir. O, Murovdağ, Güzgü, Ömərdağ kimi əhəmiyyətli ərazilərin müdafiəsində şücaət göstərmişdir.

1995-ci ilin mart ayında bir qrup silahlı dəstə namərdlik edərək yenicə təşəkkül tapmağa başlayan dövlətimizə xəyanət etmiş, Fərhad dövlət çevrilişinin qarşısını almaq üçün Ağstafaya göndərilmişdir.

1995-ci il mart ayının 13-də Fərhad Ağayev qardaş gülləsindən ağır yaralanmış, mart ayının 15-də isə aldığı yaradan həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 aprel tarixli, 307 saylı fərmanı ilə Ağayev Fərhad olümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Sabirabad rayonundakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bitirdiyi orta məktəb qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Ağayev Fərhad İslam oğlu-Müdafiə Nazirliyi, sıravi -Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Ağayev Fərhad İslam oğlu (1975-1995) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.-Bakı, 2008.- S.24.

Əsgərov, V. Ağayev Fərhad İslam oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.26.

Seyidzadə, M. Ağayev Fərhad İslam oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.22.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az



60 illiyi

Əli Məmmədov 1955-1992

Milli Qəhrəman



Əli Hüseyn oğlu Məmmədov 1955-ci il avqust ayının 11-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhərindəki 255 saylı məktəbdə almışdır. 1975-ci ildə ordu sıralarına çağırılmış, Macarıstanda xidmətini başa vurmuşdu.

1982-ci ildə Polis Akademiyasına daxil olmuş, 1992-ci ildən cəbhəyə getməyə başlamışdı.

1992-ci ilin sentyabr ayında Laçın cəbhəsində vuruşmağa başlayır. Qızartı yüksəkliyini ələ keçirən döyüşçülərimiz oktyabr ayının 1-də, səhər tezdən güclü hücuma məruz qalırlar. Yaralıları təhlükəsiz yerə çıxaran və döyüşün qaynar nöqtəsində vuruşan Əli başından ağır yaralanır, cəsur döyüşçü bu yaradan da, əbədiyyətə qovuşur.

Ailəli idi, iki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə polis kapitanı Məmmədov Əli Hüseyn oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Bakı küçələrindən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Əli Hüseyn oğlu – polis kapitanı – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- № 20.- S.18.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Əli Hüseyn oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri. -Bakı, 2010.- S.195.

Nazim, N. Məmmədov Əli Hüseyn oğlu //Nazim N. İstiqlal ulduzları.- Bakı,1995.- S.111.

Seyidzadə, M. Məmmədov Əli Hüseyn oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.-Bakı, 2010.-S.142.

Məmmədov Əli Hüseyn oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərtib edəni H.Həmidova.- Bakı, 2008.-S.137.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az



55 illiyi

Sərdar Səfərov 1960-1991

Milli Qəhrəman



Sərdar Mədəd oğlu Səfərov 1960-cı il avqust ayının 12-də Kəlbəcər rayonunda anadan olmuşdur.

1977-ci ildə burada məktəbi bitirmiş və kolxozda işləmişdir.

1979-cu ildə hərbi xidmətə gedərək, Ermənistan və Gürcüstan respublikasında xidmət keçmişdir.

1981-ci ildə ordudan tərxis olunaraq, 1982-ci ildə Bakı Avtomobil zavoduna işə düzəlmişdir. 3 il Daxili İşlər Şöbəsinin mühafizə bölməsində milis nəfəri kimi fəaliyyət göstərmişdir.

1987-ci ildə SSRİ-nin Kaunas Xüsusi Milis Məktəbini bitirmişdir. 1991-ci ildə Vətənə dönmüş və Qusar rayonunda sahə müvəkkili işləməyə başlamışdır.

1991-ci il sentyabr ayının 25-də erməni terrorçuları Əsgəran rayonu ərazisində "QAZ-53" markalı sərnişin avtomobilinə hücum etmişdilər. Buraya göndərilən istintaq qrupunun müstəntiqi Sərdar Səfərov idi. Hadisə yerindən qayıdan istintaq qrupu Xankəndi yaxınlığında "Ağa körpüsü"ndə erməni yaraqlılarının hücumuna məruz qalmış, Sərdar yoldaşlarını xilas edərək qəhrəmancasına həlak olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Sərdar Mədəd oğlu Səfərov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Kəlbəcər rayonunda dəfn edilmişdir. Kəlbəcər küçələrindən biri qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Səfərov Sərdar Mədəd oğlu - polis mayoru - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov V. Səfərov Sərdar Mədəd oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S. 261.

Seyidzadə, M. Səfərov Sərdar Mədəd oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.202.

Səfərov Sərdar Mədəd oğlu (1960-1991) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.188-189.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

45 illiyi

Hidayət Rüstəmov 1970-1991

Milli Qəhrəman



Hidayət Eldar oğlu Rüstəmov 1970-ci il avqust ayının 19-da Ağdam rayonunun Xıdırlı kəndində anadan olmuşdur.

Burada orta məktəbi bitirən Hidayət daha sonra Ağdam rayon 50 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmişdir.

1988-1990-cı illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur.

1991-ci il Ağdam rayon Daxili İşlər Şöbəsinin post-patrul alayına daxil olmuşdur. Şərəfli döyüş yolu keçən Hidəyət bu yolda çox yürüyə bilməmişdir...

1991-ci il dekabr ayının 23-də erməni işğalçıları Meşəli kəndinə hücum edərək ağlasığmaz vəhşiliklər törədirdilər. Boş evlərin birini özünə istehkam seçən cəsur polis çavuşu Hidayət qəfil sərrast atəşlərlə erməni quldurlarının xeyli qüvvəsini məhv etmişdi. Murdar erməni faşistləri Hidayətin sığındığı evə od vurmuşdu. Qorxunun nə olduğunu bilməyən Azərbaycan döyüşçüsü son nəfəsinə qədər vuruşmuş və qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Rüstəmov Hidayət Eldar oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ağdam rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rüstəmov Hidayət Eldar oğlu - polis nəfəri - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Rüstəmov Hidayət Eldar oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.245.

Rüstəmov Hidayət Eldar oğlu (1970-1991) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.175-176.

Seyidzadə, M. Rüstəmov Hidayət Eldar oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.187.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az



40 illiyi

Elnur Nuriyev 1975-1994

Milli Qəhrəman



Elnur Eyvaz oğlu Nuriyev 1975-ci il avqust ayının 22-də Zəngilan rayonunun Cahangirbəyli kəndində dünyaya göz açmışdır.

1982-1992-ci illərdə burada kənd orta məktəbində təhsil almış, 1993-cü ildə Zəngilan rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır.

Bir müddət təlim keçdikdən sonra Elnur Nuriyev cəbhəyə göndərilmişdi. O, Füzuli rayonunun Kürdmahmudlu, Alxanlı kəndlərində rəşadətlə vuruşmuşdur. Elnur minaaxtaranlar bölüyünə komandir təyin edilmişdi. Tərtər cəbhəsində ermənilər güclü əks hücuma keçərək bir neçə kəndi işğal etmişdi. Elnur bölüyü ilə həmin əraziyə göndərilmiş, Qapanlı, Seysulan kəndləri azad edilmişdi. Elnur döyüşlərdə şücaət göstərərək vuruşmuşdu.

1994-cü il 4-5 oktyabr hadisələri zamanı onu Gəncəyə göndərmişdilər. Dövlət çevirilişinə cəhd edən silahlı dəstənin zərərsizləşdirilməsi zamanı Elnur döyüş tapşırığını yerinə yetirərkən həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı Fərmanı ilə Nuriyev Elnur Eyvaz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Kürdəmir şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nuriyev Elnur Eyvaz oğlu - çavuş - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi zamanı göstərdiyi şəxsi qəhrəmanlıq və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 oktyabr 1994-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1994.- № 19.- S.10.- (Ölümündən sonra).

Əsgərov V. Nuriyev Elnur Eyvaz oğlu //V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.233.

Nuriyev Elnur Eyvaz oğlu (1975-1994) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.167-168.

Seyidzadə, M. Nuriyev Elnur Eyvaz oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.180.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



65 illiyi

Əjdər Babayev 1950-1995

Milli Qəhrəman



Əjdər Xalıqverdi oğlu Babayev 1950-ci il avqust ayının 26-da Qazax rayonunun Mollacəfərli kəndində anadan olmuşdur.

Sonradan onun ailəsi Ağstafaya Xətai kəndinə köçmüşdür.

1958-ci ildə burada məktəbə getmiş və 1967-ci ildə həmin məktəbi bitirmişdir.

1969-cu ildə hərbi xidmətə çağırılmış, sonra isə ordudan tərxis olunan Əjdər Nərimanov rayon polis şöbəsinə işə qəbul edilmişdir. Polis orqanlarında işlədiyi dövrdə 1978-1981-ci illərdə Sumqayıt Politexnik Texnikumunda təhsil almışdır.

Dörd il Qazax Rayon Polis Şöbəsində çalışmış, sonra isə iş yerini Ağstafa Rayon Polis Şöbəsinə dəyişmişdir.

Nümunəvi polis işçisi kimi dəfələrlə Daxili İşlər Nazirliyinin mükafatlarına layiq görülmüşdü.

1995-ci il 13-17 mart hadisələrində dövlət çevrilişinə cəhd edən silahlı dəstələrin zərərsizləşdirilməsində Əjdər Babayev böyük şücaət göstərmiş və həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Babayev Əjdər Xalıqverdi oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ağstafa rayonunda dəfn edilmişdir. Rayonda qəhrəmanın adını daşıyan məktəb var.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: [Babayev Əjdər Xalıqverdi oğlu - Daxili İşlər Nazirliyi, polis starşinası, Ağstafa Rayon Polis Şöbəsi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1995.- №2.- S.38; Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Babayev Əjdər Xalıqverdi oğlu (1950-1995) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.37.

Əsgərov, V. Babayev Əjdər Xalıqverdi oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.47.

Seyidzadə, M. Babayev Əjdər Xalıqverdi oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

50 illiyi

Eldar Məcidov 1965-1992

Milli Qəhrəman



Eldar Tofiq oğlu Məcidov 1965-ci il avqust ayının 26-da Bakı şəhərində dünyaya göz açmışdır.

1972-1982-ci illərdə Yasamal rayonu 52 saylı məktəbdə təhsil almış, 1983-cü ildə ordu sıralarına hərbi xidmətə çağırılmışdır. Eldar hərbi xidmətini Almaniya Demokratik Respublikasında keçmişdir.

1985-ci ildə ordudan tərxis olunmuş və 1989-cu ildə Azərbaycan İncəsənət İnstitutuna imtahan verərək mədəni-maarif fakültəsinə daxil olmuşdur. Ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklərə dözə bilməyən Eldar könüllü olaraq cəbhəyə getməyi qərara almışdır.

1992-ci il may ayının 9-da "N" saylı hərbi hissəyə qeyd olunaraq cəbhəyə yola düşmüşdür. O, cəbhədə tezliklə öz şücaətini göstərmiş, yaralıların və mülki əhalinin təhlükəsizliyinin təmin edilməsində müstəsna xidmətləri olmuşdur.

1992-ci il may ayının 15-də Şuşa rayonunun Zarıslı kəndində gedən döyüşlərdə Eldar rəşadətlə vuruşmuş, yoldaşlarını xilas edərkən sağ ayağından yaralanmışdır. Onu Qubadlı xəstəxanasına çatdırsalar da, çoxlu qan itirdiyindən Eldarın həyatını xilas etmək mümkün olmamışdı.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Eldar Tofiq oğlu Məcidova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məcidov Eldar Tofiq oğlu - çavuş - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- (Ölümündən sonra).

Əsgərov V. Məcidov Eldar Tofiq oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.182.

Məcidov Eldar Tofiq oğlu (1965-1992) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.130-131.

Seyidzadə, M. Məcidov Eldar Tofiq oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.15

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



55 illiyi

Çingiz Mustafayev 1960-1992

Milli Qəhrəman



Çingiz Fuad oğlu Mustafayev 1960-cı il avqust ayının 29-da Həştərxan vilayətinin Vladimir rayonunda hərbçi ailəsində dünyaya gəlmiş, 1964-cü ildə ailəsi ilə Bakıya köçmüşdür. O, 1977-ci ildə Tibb İnstitutunun Sanitariya-Gigiyena fakültəsinə qəbul olmuş, 1983-cü ildə oranı bitirmiş, təyinatla Dəvəçi rayonunda üç il həkim işləmişdir. 1985-ci ildə yaratdığı "Cəngi" birliyindəki fəaliyyəti ilə Azərbaycan gənclərinin lideri səviyyəsinə yüksəlmişdir.

Qarabağ müharibəsi başlayandan sonra Çingiz jurnalistikaya üz tutmuşdu. O, 1991-ci ildən Azərbaycan Dövlət Televiziyasında reportyor kimi çalışmağa başlamışdır. Onun reportajları, informasiya blokadasında olan Azərbaycan haqqında gerçəklikləri Amerika və Avropanın aparıcı teleagentlikləri və televiziyalarına çatdırırdı. Dövlət televiziyasında mövcud olan senzura və ciddi yasaqlar səbəbindən Çingiz əlahiddə olaraq "215 kl" studiyası kimi muxtar qurumun yaradılmasının təşəbbüskarı və yaradıcısı olmuşdu. O, Azərbaycan-Ermənistan mühari-bəsinin 1992-ci ilə qədər olan dövrünün əsl salnaməsini yaratmışdı. Ölkənin döyüş gedən bütün bölgələrindən operativ xəbərlər, ayrı-ayrı əsgərlər haqda xüsusi reportajlar və bütün bunlarla yanaşı Azərbaycanda gedən siyasi proseslər barədə ətraflı informasiyalar onun müəllifliyi ilə pərvəriş tapmışdı. Dünya onu daha çox Xocalıda çəkdiyi filmlə tanımışdı. Onun məhz bu filmi ilə Ermənistanın imici bütün dünyada ciddi sarsıntıya məruz qalmışdı. O, döyüş zonalarına yalnız reportyor kimi yollanmırdı. O, cəbhədə bir əsgər, bir zabit və hətta bir komandan kimi çox vəzifəni öz üzərinə götürmüşdü. Laçından çıxan əsgərlərlə onun geri qayıtmaq barədə verdiyi kəskin və qısa göstərişlər, bu əmrlərin yerinə yetirilmədiyi təqdirdə Çingizin emosional davranışı ən yeni teletarixin ən dramatik səhifələri olmuşdur.

1992-ci il iyun ayının 15-də Xocalı yaxınlığındakı Naxçıvanik kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsindən həlak olan Çingiz sonadək kameranı söndürmədi. Bu həm də onun öləndən sonra da yaşayacağına işarə idi.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Mustafayev Çingiz Fuad oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir. Daxili İşlər Nazirliyinin Şüvalandakı istirahət guşəsi, Bakı küçələrindən biri, ANS-ÇM radiostansiyası, Azərbaycan gəmilərindən biri qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önündə barelyefi vurulmuşdur. C.Naxçıvanski adına Hərbi Litseydə büstü qoyulmuşdur. 2011-ci ilin avqust ayında Almaniyada 3 min nüsxə ilə onun təsviri olan poçt markası buraxılmışdır.

Ədəbiyyat

S.Ə.Əskərovaya, A.M.Mustafayevə və Ç.F.Mustafayevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Ağa Ramiz qızı, K. Ölümdə yaşanan həyat /K.Ağa Ramiz qızı.- Bakı: Qanun, 2005.- 184 s.

Mustafayev Çingiz Fuad oğlu (1960-1992) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.155-158.

Seyidzadə, M. Mustafayev Çingiz Fuad oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.167.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

55 illiyi

Əmiraslan Əliyev 1960-1995

Milli Qəhrəman



Əmiraslan Rza oğlu Əliyev 1960-cı il avqust ayının 30-da Naxçıvan şəhərində anadan olmuşdur.

1967-1977-ci illərdə Ü.Hacıbəyov adına Naxçıvan şəhər 1 saylı orta məktəbdə təhsil almışdır.

1977-1979-cu illərdə Naxçıvan Şərabçılıq zavodunda fəhlə işləmişdir. 1979-1981-ci illərdə SSRİ Silahlı Qüvvələrində hərbi xidmətdə olmuşdur. Bir müddət Ukrayna Respublikasında, sonra Polşada hərbi xidmətini davam etdirmişdir.

1981-1982-ci illərdə Naxçıvan Şüşə Qablar zavodunda, 1982-1992-ci illərdə isə Vayxır Su-Tikinti İdarəsində fəhlə işləmişdir. İstehsalda çalışmaqla yanaşı, o, təhsilini də davam etdirməyi unutmamış, 1982-1987-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitunun tarix-filologiya fakültəsində təhsil almışdır.

1992-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunlarında hərbi xidmətə çağırılmışdır. Nümunəvi xidmətlərinə görə Əmiraslan Əliyev qərargahın baş zabiti kimi yüksək vəzifəyə təyin olunmuşdur. Baş leytenant Əmiraslan Əliyev xidmət etdiyi hərbi hissə tərəfindən 8 oktyabr 1994-cü ildə Fəxri fərmanla təltif edilmişdir.

Əmiraslan Əliyev 17 mart 1995-ci ildə Mart hadisələri zamanı Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınmasında qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Əliyev Əmiraslan Rza oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

"N" saylı sərhəd zastavasında qəhrəmanın xatirə otağı açılmış və büstü qoyulmuşdur. "N" saylı sərhəd məntəqəsinə Ə.Əliyevin adı verilmişdir.

Ə d ə b i y y a t

Əliyev Əmiraslan Rza oğlu (1960-1995) Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Əliyev Əmiraslan Rza oğlu –Milli Təhlükəsizlik Nazirliyi, baş leytenant - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.-1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Əliyev Əmiraslan Rza oğlu (1960-1995) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.58-59.

Əsgərov V. Əliyev Əmiraslan Rza oğlu /Əsgərov V. //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.82.

Seyidzadə, M. Əliyev Əmiraslan Rza oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.57.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az
www.muallim.edu.az



120 illiyi

Cəmşid Naxçıvanski 1895-1938

Hərbi xadim



Cəmşid Cəfərqulu oğlu Naxçıvanski 1895-ci il avqust ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. 1915-ci ildə Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir.

1914-1918-ci illərdə Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, "Brusilov cəbhəsi" nin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, II, III, IV dərəcəli Anna, II dərəcəli Stanislav ordenləri ilə təltif olunmuşdur.

Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri başçılıq etdiyi alayla birlikdə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə korpusu ilə birgə Bakını daşnaq, eser-menşeviklərdən ibarət olan və ingilislərə arxalanan "Sentrokaspi diktaturası" qüvvələrindən təmizləmişdir. Azərbaycanın müstəqilliyi uğrunda da inamla vuruşmuşdur. 1920-ci ilin martında onun Qarabağda (Şuşada) yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir.

1920-ci il Aprel işğalından sonra onun süvari alayı bolşeviklərin tərəfinə keçmişdir. N.Nərimanov Şuşaya, onun dərhal Bakıya qayıtması, milli ordu hissələrinin təşkilinə başlaması haqqında teleqram göndərmişdi. O, Azərbaycanda baş verən antisovet üsyanların yatırılmasında iştirak etmişdir. O, Bakıda yaradılmış Azərbaycan Birləşmiş Komanda Məktəbinin rəisi, 1921-ci ilin dekabrında isə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin edilmiş, yüksəkixtisaslı hərbi kadr hazırlığında mühüm rol oynamışdır.

1923-1928-ci illərdə Moskvada Ali Hərbi Akademiyanın qısa müddətli kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur.

1923-1929-cu illərdə "Hərbi bilik" jurnalının redaktorlarından biri olmuşdur. 1931-ci ildə Moskvaya M.V.Frunze adına Ali Hərbi-Siyasi Akademiyaya oxumağa göndərilmişdi. 1933-cü ildə oranı fərqlənmə diplomu ilə bitirdikdən sonra, orada müəllim saxlanılmış, üç il Ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakültənin kurs rəisi olmuşdur. 1935-ci ildə Naxçıvanski briqada komandiri (Kombriq) hərbi vəzifəsinə təyin olunmuşdu. 1938-1939-cu illərdə o, repressiyaya məruz qalmışdır.

Naxçıvanski Azərbaycan SSR və Zaqafqaziya SFSR Mərkəzi İcraiyyə Komitələrinin üzvü idi. "Qırmızı bayraq", "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenləri ilə təltif edilmişdir.

Cəmşid Naxçıvanski 26 avqust 1938-ci ildə Moskvada güllələnmişdir. 1956-cı ildə Cəmşid Naxçıvanski tam bəraət almışdı. Adına Bakıda hərbi lisey (Naxçıvanda filialı) açılmışdır. Bakıda və Naxçıvanda adına küçə vardır. Həmçinin Naxçıvanda ev-muzeyi yaradılmışdır.

Ədəbiyyat

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.- Bakı, 2005.- C.2.- S.253-254.

Nəzirli, Ş. General Cəmşid xan Naxçıvanski (Sonuncu Kəngərli generalı) /Nəzirli Ş. 1920-ci ildə Qarabağ döyüşləri.- Bakı, 2009.- S.317-330.

Nəzirli, Ş. General Cəmşid xan Naxçıvanski: (Sonuncu Kəngərli generalı) /Ş.Nəzirli //Ədalət.-2013.- 16 yanvar.- S. 5.

Иванов, Р.Н. Именем Союза советских... Жизнь и гибель комбрига Нахичеванского /Р.Н.Иванов.-М.: Герои отечества, 2007.- 832 с.

Рустамов, Р. Генерал, сын и отец генерала: Верный присяге /Р.Рустамов //Зеркало.- 2012.- 8 мая.- С.3.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org


www.milliqahraman.az

www.muallim.edu.az

90 illiyi

Şıxəli Qurbanov 1925-1967

İctimai-siyasi xadim



Şıxəli Qurban oğlu Qurbanov 1925-ci il avqust ayının 16-da Bakıda, qulluqçu ailəsində doğulmuşdur. 1941-ci ilin iyul ayında könüllü cəbhəyə getmiş, ön cəbhədə döyüşmüşdür.

O, 1950-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) təhsil aldıqdan sonra, orada Azərbaycan ədəbiyyatı kafedrasında aspirant, eyni zamanda rus ədəbiyyatının tədrisi üzrə müəllim kimi çalışmışdır. 1956-cı ilin iyununda "A.S.Puşkin və Azərbaycan poeziyası" mövzusunda dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, həm də dövlət xadimi idi. 1954-1955-ci illərdə Azərbaycan KP Bakı Komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri olmuşdur. 1955-1957-ci illərdə Bakı şəhəri indiki Səbail rayonu partiya komitəsinin birinci katibi, 1958-ci ilin yanvarından Pedaqoji İnstitutda baş müəllim, dosent vəzifələrində çalışmışdır.

1957-1961-ci illərdə Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri işləmiş, 1966-cı ildən Azərbaycan KP MK katibi və büro üzvü olmuşdur.

Onu müasirlərindən fərqləndirən cəhət, heç bir üstünlüyü, imtiyazı, maaşımuzdu olmayan, əksinə, fədakarlıq və məhrumiyyət tələb edən vətəndaşlıq vəzifəsini daşıdığı titulların hamısından yüksək tutması olmuşdu.

Məlumdur ki, sabiq SSRİ dönəmində imperiya xalqların əksəriyyətinə milli dəyərləri unutdurmağa, yaddan çıxarmağa cəhd göstərirdi. Mərkəzin təkid və tələbi ilə ölkəmizdə Orucluq, Qurban və Novruz bayramının qeyd olunmasına qadağa qoyulmuşdu. İmperiyanın bu ədalətsiz, hegemon qadağasına ilk dəfə barışmaz mövqe tutan, milli adətənənəyə sadiq Şıxəli Qurbanov olmuşdur. O, uzunmüddətli fasilədən sonra 1967-ci ildə Azərbaycanda ilk dəfə dövlət səviyyəsində Novruz bayramının keçirilməsinə müvəffəq olmuş və sübut etmişdir ki, Novruz bayramı heç də dinlə əlaqəli bayram deyil və Azərbaycan xalqının tarixi ənənələrə söykənən milli bayramıdır.

1958-1961-ci illər ərzində o, bir sıra səhnə əsərləri "Rəis məşğuldur", "Əcəb işə düşdük", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Sənsiz" pyeslərini, "Bahadır və Sona" librettosunu qələmə almışdır. 1966-cı ildə yazdığı "Milyonçunun dilənçi oğlu" komediyasında burjua əxlaqı və ailə münasibətləri ifşa olunmuşdur. Onun lirik şeirləri, poema, hekayə və tənqidi məqalələri dövri mətbuatda müntəzəm çap olunmuşdur.

Şıxəli Qurbanov 1967-ci il may ayının 24-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ölümündən sonra "Lenin" ordeni və medallarla təltif edilmişdir. Azərbaycan Musiqili Komediya Teatrına, Bakı küçələrindən birinə onun adı verilmişdir.

Ədəbiyyat

Zərif tellər /Ş.Qurbanov; tərt. ed. İ.Qurbanov.- Bakı: Yazıçı, 1991.-264 s.

Budaqov, B. Novruz yaşarlı ömür /B.Budaqov; red. R.Kərimova.- Bakı: Elm, 1996.- 48 s.

Əhmədov, Ə. Sağalmaz yara /Ə.Əhmədov.- Bakı: Adiloğlu, 2004.-45 s.

42 illik həyat... Şıxəli Qurbanov çox işlər görmüşdü //Şərq.- 2012.- 9 iyun.- S.17.

Mustafa, Ə. Şıxəli Qurbanov: sovet rejminə meydan oxuyan şəxs /Ə.Mustafa //Zaman.- 2012.- 29 mart.- S.13.

Şıxəli Qurbanov: yazıçı-dramaturq, alim və dövlət xadimi //Mədəniyyət.- 2010.- 18 avqust.- S. 14.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

www.science.az

75 illiyi

Şahbaz Muradov 1940

Alim



Şahbaz Musa oğlu Muradov 1940-cı il avqust ayının 10-da Laçın rayonunun Xumarta kəndində doğulmuşdur.

1961-ci ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmiş, gənc mütəxəssis kimi Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutuna elmi işçi kimi göndərilmişdir.

1961-1966-cı illərdə kiçik elmi işçi, 1966-1968-ci illərdə baş elmi işçi vəzifələrində çalışmış, 1968-ci ildən isə İnstitutun Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı şöbəsinə rəhbərlik etmişdir. 1965-ci ildə iqtisad elmləri namizədi, 1972-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almış, 1977-ci ildə isə professor elmi rütbəsinə layiq görülmüşdür. 1991-ci ildən institutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmış, 1999-cu ilin əvvəlindən instituta rəhbərlik etmişdir.

1966-cı ildən BDU, ADİU, ADNA və s. təhsil ocaqlarında "Siyasi iqtisad", "İqtisadi nəzəriyyə", "Demoqrafiya", "Əməyin iqtisadiyyatı və sosiologiyası" fənlərindən dərs deməklə, ali təhsil sahəsində kadr hazırlanması işinə köməkliyini göstərməkdədir.

Professor apardığı başlıca tədqiqat işlərinin nəticələri 350 çap vərəqi həcmindən çox olan 300 əsərdə öz əksini tapmışdır. Həmin əsərlərin 25-i iri həcmli monoqrafiyalar, kitab və broşürlardan ibarətdir.

Əsas elmi fəaliyyəti demoqrafiyanın sosial iqtisadi problemləri, iş qüvvəsinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadənin sosial iqtisadi problemləri; məşğulluq, işsizlik və demoqrafiya siyasətinin nəzəri-metodoloji əsasları və regional aspektlərinin, habelə müxtəlif sosial-demoqrafik qruplardan olan əhalinin məşğulluq problemlərinin tədqiqi olmuşdur.

2001-ci ildən AMEA-nın müxbir üzvü seçilmişdir. Onun rəhbərliyilə 50 nəfərdən çox namizədlik və 10 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir. 40-dan çox namizədlik və doktorluq dissertasiyasına rəsmi opponentlik etmiş, onlarca elmi kitabın redaktoru və rəyçisi olmuşdur.

O, AMEA İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış doktorluq elmi şurasının sədri, YUNESKO-nun Azərbaycan Respublikasında "Bioetika elmi bilikləri və texnologiyaların etikası" üzrə Milli Komitənin üzvü, bir sıra elmi şuraların və jurnalların redaksiya şuralarının üzvü və s. kimi də mühüm ictimai fəaliyyət göstərir.

Şahbaz Muradov 2000-ci ildə Beynəlxalq İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin Elmi Şurasının I dərəcəli mükafatı ilə, 2004-cü ildə isə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər /Ş.Muradov; red. A.Nadirov; AMEA, İqtisadiyyat İn-tu.-Bakı: Elm, 2004.-660 s.

Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007- ci illər): [monoqrafiya] /Ş.Muradov; red. A.Gözəlova.-Bakı: Elm, 2008.-235 s.

Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar /Ş.Muradov, Ç.Baxış; red. A.Gözəlova.- Bakı: [Avropa], 2013.- 135 s.

Глобализация, демографическое развитие и трудовая активность населения в Азербайджане: [монография] / Ш.Мурадов, А.Гёзалова, Р.Эфендиев; ред. А.Алескеров.- Баку: Элм, 2007.- 264 с.

İnternetdə

www.az.wikipedia.org

www.science.az

60 illiyi

Rafael Hüseynov 1955

Akademik



Ədəbiyyat

Əbədi Cavid /R.Hüseynov; AMEA, N.Gəncəvi adına Azərbaycan ədəbiyyatı Milli Muzeyi.- Bakı: [Nurlan], 2007.- 840 s.

Məhsəti Gəncəvi - özü, sözü, izi /R.Hüseynov; N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi.-Bakı: Nurlan, 2005.-560 s.

Mehseti Gencevi Edebi portre (portret-oçerk) /R.Hüseynov.- Bakü: Şərq-Qərb, 2013.-100 s.

Sabirin saatı /R.Hüseynov.- Bakı: Elm və təhsil, 2012.- 48 s

Şirvan şairləri /R.Hüseynov; [rəssam S.Şatikov].-Bakı: [Elm və təhsil], 2012.- 107 s.

Yurdun adındakı can /R.Hüseynov; red. C.Həsənli, L.Kərimli (Rəfibəyli).- Bakı: Elm, 2010.- 903 s.

Rafael Hüseynovun "Söz heykəli" //Kaspi.- 2012.- 14-16 iyul.- S.13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.rafaelhuseynov.com

Rafael Baba oğlu Hüseynov 1955-ci il avqust ayının 12-də Kürdəmir şəhərində anadan olmuşdur. 1971-ci ildə burada 12 saylı şəhər orta məktəbini bitirmiş, 1971-1976-cı illərdə ADU-nun şərqşünaslıq fakültəsində, fars filologiyası ixtisası üzrə təhsil almışdır.

Əmək fəaliyyətinə 1976-cı ildə, AMEA Fəlsəfə və Hüquq İnstitutunun Fəlsəfə tarixi şöbəsində başlamışdır. 1978-1982-ci illərdə həmin institutun İran filologiyası şöbəsində kiçik elmi işçi, 1982-1988-ci illərdə isə Orta əsrlər Şərq yazılı mən-bələrinin tədqiqi və nəşri şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. 1980-ci ildə namizədlik, 1992-ci ildə doktorluq elmi dərəcələrini almışdır. Bir neçə il AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin şöbə müdiri işləmiş, 1993-cü ildən muzeyin direktorudur.

Ədəbi fəaliyyətə 1975-ci ildə Kürdəmir rayonunda çıxan "İrəli" qəzeti səhifələrində dərc olunan şeirləri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı məqalələri dərc edilmiş, Azərbaycan xalq musiqisi və onun görkəmli ifaçıları haqqında hazırladığı "Nəğməli ömürlər" və "Axşam görüşləri" adlı həftəlik verilişlər silsiləsi efirdə səslənmişdir. "Qobustan" incəsənət toplusunda "Görməyən gözlərin aydınlığı", "Əsas odur ki, xalq sizi sevir", "Həsrət qatarı" və s. publisistik yazıları çap olunmuşdur. Orta əsrlər fars və türkdilli poeziyanın müxtəlif problemlərinə həsr edilmiş 30-dan artıq ədəbiyyatşünaslıq əsərinin müəllifidir. AYB-nin və Teatr Xadimləri İttifaqının üzvüdür.

M.Gəncəvinin rübailərini, R.Rza və N.Rəfibəyli haqqında "İki ömrün işığı" (1987) adlı xatirələr kitabını tərtib etmişdir. ADU-da "Fars ədəbiyyatı" (1987-1989), konservatoriyada "Mədəniyyət tarixi" (1990-1991), Xəzər Universitetində "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mədəniyyəti" (1995) fənlərindən dərs demişdir.

1995-1998-ci illərdə Xəzər Universitetində Azərbaycan filologiyası və şərqşünaslıq kafedrasının müdiri olmuşdur. Onlarla monoqrafiyanın, dərslik və dərs vəsaitinin, 300 elmi araşdırmanın, 500-dən çox publisistik məqalənin, 3 tammetrajlı sənədli-publisistik filmin ssenarisinin, 200-dən çox televiziya və radio verilişinin və proqramın müəllifidir.

Hacıqabul-Kürdəmir seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyası sədrinin müavinidir. Azərbaycan-Bosniya-Hersoqovina, Azərbaycan-İspaniya, Azərbaycan-İsveç, Azərbaycan - İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.


2005-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

2014-cü ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

85 illiyi

Bəkir Nəbiyev 1930-2012

Akademik



Bəkir Əhməd oğlu Nəbiyev 1930-cu il avqust ayının 21-də Ağdaşın Üçqovaq kəndində anadan olmuşdur. 1947-ci ildə Ağdaşda 1 saylı orta məktəbi bitirmişdir.

1945-1947-ci illərdə Ağdaş radio şəbəkəsinin diktoru işləmişdir. 1947-1949-cu illərdə Ağdaşda müəllimlik etmişdir. 1949-1954-cü illərdə ADU-nun filologiya fakültəsində təhsil almış, həm də Bayıldakı 55 saylı orta məktəbdə müəllimi kimi çalışmışdır. İlk tənqidi qeydləri "Lenin tərbiyəsi uğrunda" qəzetində dərc olunmuşdur.

Ədəbi fəaliyyətə "Ədəbiyyat qəzeti"ndə çap edilən "Dama-dama göl olar" rəyi ilə başlamışdır. Universiteti bitirdikdən sonra "Azərbaycan gəncləri", "İnşaatçı" qəzetlərində məsul katib müavini, ədəbi işçi vəzifələrində işləmişdir. ADU-nun aspiranturasına daxil olmuş, 1960-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1958-ci ildən AYB-nin, 1960-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü olmuşdur.

1959-1961-ci illərdə "Kommunist" qəzeti redaksiyasında Mədəniyyət şöbəsinin müdiri işləmişdir. 1961-1971-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Sovet ədəbiyyatı şöbəsində kiçik elmi işçi, şöbə müdiri və institutun elmi katibi, 1971-1986-cı illərdə Nizami adına Azərbaycan Dövlət Ədəbiyyat Tarixi Muzeyinin direktoru, 1982-1986-cı illərdə Azərbaycan Ədəbiyyat Fondunun sədri işləmişdir. 1989-cu ildən AMEA-nın həqiqi üzvü olmuşdur.

1965-1985-ci illərdə Yazıçılar İttifaqı nəzdində tənqid və ədəbiyyatşünaslıq şurasının, SSRİ EA nəzdində humanitar elmlərə dair tədqiqatları əlaqələndirmə Şurasının, Azərbaycan EA Rəyasət Heyətinin üzvü, "Xəbərlər" jurnalının baş redaktoru, 1987-1990-cı illərdə Azərbaycan Mədəniyyət fondunun sədri, 1993-cü ildən ədəbiyyat üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin, Dövlətnəşrkomun metodiki şurasının, C.Cabbarlı adına "Azərbaycanfilm" studiyasının bədii şurasının üzvü kimi fəaliyyət göstərmişdir.

2003-2012-ci illərdə AMEA Rəyasət Heyətinin üzvü və Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olmuşdur. 2002-ci ildə Təfəkkür Universitetində filologiya kafedrasının müdiri, 30 cildlik "Türk dünyası ədəbiyyatı" ensiklopediyasının respublika üzrə məsul əlaqələndiricisi olmuşdur. 40-dan çox kitabın, 600-dən artıq məqalə və resenziyanın, bir neçə monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi ilə 22 elmlər namizədi, 4 elmlər doktoru müdafiə etmişdir.

1970-ci ildə "Şərəfli əməyə görə" yubiley medalı ilə təltif edilmiş, 1972-ci ildə "Qızıl qələm" mükafatı laureatı, 1978-ci ildə Azərbaycan Dövlət Mükafatı laureatı olmuş, 1986-cı ildə SSRİ-nin "Xalqlar dostluğu" ordeni almışdır. 1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adına, 1993-1994-cü illərdə "H.Z.Tağıyev", "M.Araz" mükafatlarına, 1997-ci ildə "Ustad" ali mükafatına, 2000-ci ildə Beynəlxalq TİKA mükafatına layiq görülmüş, 2000-ci ildə Azərbaycanın "Şöhrət" ordeni ilə təltif edilmiş, 2010-cu ildə ədəbiyyatşünaslıq elminin və ədəbi fikrin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomunu almışdır.

Bəkir Nəbiyev 15 mart 2012-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Alimin xatirəsini əbədiləşdirmək məqsədilə 4 aprel 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır.

Ədəbiyyat

Seçilmiş əsərləri: 5 cilddə /B.Nəbiyev.-Bakı: Çinar-Çap, 2009.

Azərbaycan xalq ədəbiyyatı:ali məktəb tələbələri üçün dərslik: [2 hissədə] /B.Nəbiyev.-Bakı: Turan, 2002.- H.1.- 2006.

Hərənin öz yolu var... /B.Nəbiyev.-Bakı: Çinar-Çap, 2008.-466 s.

Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri /B.Nəbiyev; AMEA, Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Ozan, 2012.-287 s.

Akademik Bəkir Nəbiyev haqqında soraq kitabı /tərt. ed. G.Rəsulova; red. A.Kəngərli; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.-Bakı:[Nafta-press], 2009.- 387 s.

Akademik Bəkir Nəbiyev - 80 /A. Ülvi //Xalq qəzeti 2010.- 18 sentyabr.- S. 5.

Tağısoy, N. Bəkir Nəbiyev və Azərbaycan ədəbiyyatşünaslığı /N.Tağısoy //525-ci qəzet.- 2011.- 20 avqust.- S. 11.

www.science.az

60 illiyi

Flora Xəlilzadə 1955

Publisist



Flora Fətulla qızı Xəlilzadə 1955-ci il avqust ayının 23-də Zəngəzur mahalının Sisian rayonunun Urud kəndində anadan olmuşdur. Rayonun Vağədi kənd orta məktəbini bitirdikdən sonra ADU-nun jurnalistika fakültəsinə daxil olmuş və 1977-ci ildə oranı bitirmişdir. "Azərbaycan təbiəti" jurnalında, "Azərbaycan müəllimi", "Azərbaycan" qəzetlərində işləmişdir. Bir müddət "Azərbaycan qadını" jurnalının redaktoru olmuşdur. Hazırda "Azərbaycan" qəzetinin Mədəniyyət şöbəsinin redaktoru vəzifəsində çalışır.

1972-ci ildən mətbuatda yüzlərlə elmi, ədəbi, publisistik, tənqidi məqalələri dərc edilmiş, kitabları çap olunmuşdur. "Ruhumun ehtiyacı", "Aysel adını itirib", "Bənövşə ətirli səs" (Flora Kərimova haqqında), "Analar", "Bu mənim tale yolum" (Afaq Bəşirqızı haqqında), "Ürəyim aldatdı məni", "Taleyimdən keçən adamlar", "İgidliyin son zirvəsi" (Şəhid Cəmşid Teymurov haqqında), "Məmməd Araza məktub" (elmi-ədəbi toplu), "Yuxular", "Yolum düşə Zəngəzura" (Tarixi, etnoqrafik, bədii nəşr), "Dağları tərpədən fəryad" (Yaqut Abdullayeva haqqında), "Yazıçılar təşkilatının rəhbərləri, "Yazdıqlarım" və başqa kitabların müəllifidir.

Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Yolum düşə Zəngəzura" kitabı Yeni Yazarlar və Sənətçilər Qurumu tərəfindən "2007-ci ilin publisistik-sənədli kitabı" adına layiq görülmüşdür.

Bir çox mükafatların - Türkiyə Diyanet Vaqfının türkdilli xalqlar arasında keçirdiyi "Peyğəmbərin nəthi" yarışmasında Türkiyədə aldığı Beynəlxalq mükafat, Azərbaycan Jurnalistlər Birliyinin təsis etdiyi "Həsənbəy Zərdabi mükafatı", KİV Həmkarlar İttifaqının "Qızıl qələm", "Xan qızı Natəvan", "Səməd Vurğun-90", "Şərəf" və "İnam" mükafatları, 2 dəfə Respublika Mətbuat Fondunun "Dan ulduzu" mükafatı, Qorqud Assosiasiyasının təsis etdiyi "Məmməd Araz mükafatı", Nabat xanım adına xeyriyyə cəmiyyətinin təsis etdiyi "Nabat xanım mükafat", Lider Qadınlar İctimai Birliyinin təsis etdiyi "Salatın Əsgərova mükafatı" və s. sahibidir.

2007-ci ildə Jurnalist Qadınlar Assosiasiyası tərəfindən "İlin qadın jurnalisti" elan olunmuşdur. 2011-ci ildə Azərbaycan mətbuatındakı səmərəli fəaliyyətinə görə Mətbuat Şurasının Ali Media Mükafatını almışdır. 2009-cu ildən Prezident mükafatçısıdır və "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

2013-cü ildə Jurnalistika sahəsindəki səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Dağları tərpədən fəryad /F.Xəlilzadə; ön söz. müəl. T.Əfəndiyev; red. K.Mirzəyeva; rəssam Y.Əsədov.-Bakı: Araz, 2008.- 212 s.

İgidliyin son zirvəsi /F.Xəlilzadə; red. S.Kərimova.- Bakı: Nurlan, 2001.-79 s.

Məmməd Araza məktub /F.Xəlilzadə; red. S.Kərimova.- Bakı: Araz, 2003.-108 s.

Yolum düşə Zəngəzura /F.Xəlilzadə; ön söz. müəl. İ.Vəliyev; red. K.Mirzəyeva.-Bakı: Araz, 2007.-522 s.

Yuxular /F.Xəlilzadə; red. S.Kərimova; rəssam M.Əliyev.-Bakı: Araz, 2004.- 262 s.

Azərbaycan Televiziyasının efirə çıxmasından 58 il keçir /F.Xəlilzadə //525-ci qəzet .-2014.- 14 fevral.- S.4.

Fəzilətli nəslin şöhrətli oğlu: Əhməd Ağdamski-130 /F.Xəlilzadə //Kaspi.-2014.- 23 yanvar.- S.14-15.

İnternetdə

www.anl.az

120 illiyi Mustafa Topçubaşov 1895-1981

Akademik



Mustafa Ağabəy oğlu Topçubaşov 1895-ci il avqust ayının 5-də Qərbi Azərbaycanın Göykümbət kəndində anadan olmuşdur. 1904-cü ildə gimnaziyaya daxil olmuş, 1914-cü ildə Kiyev Universitetinin tibb fakültəsinə qəbul olmuşdur.

1919-cu ildə təhsilini başa çatdırmış, Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq etmişdir. 1920-1923-cü illərdə ADU-nun tibb fakültəsinin Cərrahiyyə kafedrasında koordinator, 1923-1930-cu illərdə isə assistent vəzifələrində çalışmışdır. 1930-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Bu işin əhəmiyyətinə görə ona professor adı verilmiş və o, ATU-nun Cərrahiyyə kafedrasının müdiri seçilmişdir.

1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu - inyeksion efir-yağ narkozunu - anelgeziya üsulunu kəşf etmişdir. Bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gəlinən bir sıra mənfi halların (dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s.) aradan qaldırılmasına imkan verdiyinə görə geniş tətbiq edilməyə başlanmışdı. 1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efir-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdi.

Müharibə illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışmışdır. SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı olmuşdur. Müharibədən sonra Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş cərrahı vəzifəsinə təyin edilmişdir. 1945-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, 1947-1949-cu illərdə Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışmışdır. İki dəfə (1951-1956 və 1969-1981) AEA-nın vitse-prezidenti vəzifəsini daşımışdır. 1954-cü ildə özü işlədiyi kafedrada operasion-auditoriya təşkil etmişdir.

Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Azərbaycan Cərrahlar və Uroloqlar Cəmiyyətinin fəxri sədri olmuşdur. Dəfə-lərlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1955-1959-cu illərdə Ali Sovetin sədri olmuşdur.

Əsas elmi tədqiqatları "Ürək-damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahlıq", "Yad cisimləri çıxaran aparat və onun tətbiqi", "Normal hipertenziya və onun cərrahi müalicəsi", "Uzunmüddətli analgeziyanın tibbdə tətbiqi" əsərləridir.

M.Topçubaşov 1940-cı ildə "Əməkdar elm xadimi" fəxri adını almış, 1953-cü ildə Stalin mükafatı laureatı olmuş, 1960-cı ildə SSRİ Tibb EA-nın akademiki seçilmiş, 1975-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdür.

M.Topçubaşov 1981-ci il noyabr ayının 20-də Bakı şəhərində vəfat etmişdir.

Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyev 31 iyul 1995-ci il tarixində Azərbaycanda tibb elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq akademik Mustafa Topçubaşovun anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalamışdır.

AMEA Elmi-Tədqiqat Eksperimental Klinik Təbabət İnstitutuna və Bakıdakı küçələrdən birinə onun adı verilmiş, 2011-ci ildə akademik haqqında sənədli televiziya filmi çəkilmişdir.

Ədəbiyyat

Baş və üzün cərrahi xəstəlikləri: Tibb Universiteti tələbələri üçün dərslik /M.Topçubaşov.- Bakı, 2010.- C.1.-348 s.; C.2. Ağız boşluğu, çənə, əng və boynun cərrahi xəstəlikləri.- Bakı, 2010.- 347 s.; C.3. Qalxanabənzər vəzi, yemək borusu, süd vəzisi, döş qəfəsi, orqanları və diafraqmanın cərrahi xəstəlikləri.- Bakı, 2010.- 671 s.; C.4. Qarnın ön divarının və qarın boşluğu orqanlarının cərrahi xəstəlikləri.-Bakı, 2010.- 664 s.; C.5. Sidik-cinsiyyət sistemi orqanlarının cərrahi xəstəlikləri.-Bakı, 2010.-397 s.

Mustafa Topçubaşov: Fotoalbom /müəllif v. tərt. Ş.Qədimov; rəyçi. N.Rzayev; red.: Q.Rəhimov, S.Quliyev.- Bakı : İşıq, 1989.-101 s.

Məhərrəmova, T. Mustafa Topçubaşovun Nobel almasına kim mane olub? /T. Məhərrəmova //Kaspi.- 2013.- 24 yanvar.- S.15.

www.az.wikipedia.org

www.science.az

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü 2001



1 avqust ölkəmizdə ən əziz günlərdən biri kimi qeyd olunur. Çünki milli varlığımızın əsas atributlarından olan Ana dilimizlə bağlıdır. Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Ulu öndər milli-mənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atmışdır. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoymuşdu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, ulu öndərin Ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi olmuşdu.

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilmişdi. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi ulu öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etmişdi.

Ümummilli liderin 9 avqust 2001-ci il tarixli Fərmanı ilə avqustun 1-i ölkəmizdə "Azərbaycan dili və Azərbaycan əlifbası günü" kimi qeyd olunur. 2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" Sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ədəbiyyat

Abbasov, İ. Azərbaycan dili milli dövlətçiliyimizin əsas atributlarından biridir /İ.Abbasov //Xalq qəzeti.- 2013.- 2 avqust.- S.3.

Abbasov, İ. Ana dilimiz müqəddəsdir 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür /İ.Abbasov //Respublika.- 2013.- 30 iyul.- S.3.

Qocayev, Ə. 1 avqust- Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.42-43.

Mahmudov, M. Azərbaycan əlifbası türk kontekstində. 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür /M.Mahmudov //Respublika.- 2013.- 31 iyul.- S.5.

İnternetdə

www.anl.az

www.azterm.az

www.aztv.az

Azərbaycan Kinosu Günü 1898



1898-ci il avqust ayının 2-də yeni proqram hazırlanmış və bu proqrama "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin "Великий князь Алексей" paroxodunda yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal-sənədli və "İlişdin" bədii kinosüjetləri daxil edilmişdi. Bu kinosüjetləri fransız yəhudisi, 25 ildən artıq Bakıda yaşayıb işləmiş, Bakı elmi foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mixayloviç Mişon lentə almışdır. Bununla da Azərbaycanın kino tarixində ilk süjetlər yaranmışdır. Həmin kinosüjetlərdən 2-si – "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" 2001-ci ildə Azərbaycan Dövlət Filmfondunun təşəbbüsü ilə Fransanın kino arxivindən Azərbaycana göndərilmiş və hazırda filmfondda 35 mm-lik plyonkada və videokasetdə qorunub saxlanılır.

Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və ölkəmizdə çəkilmiş kinosüjetlərin 1898-ci il avqustun 2-də ilk kinoseansının həyata keçirildiyini nəzərə alaraq, ulu öndər Heydər Əliyev 18 dekabr 2000-ci il tarixli Sərəncamı ilə avqustun 2-si tarixini kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü elan etmişdir.

Ədəbiyyat

Kazımzadə, A. Azərbaycanfilm: tarixin səhifələri: 2 avqust Azərbaycan Kinosu günüdür /A.Kazımzadə //Kaspi.- 2014.- 2-4 avqust.- S.22-23.

Hərbi-Dəniz Qüvvələri Günü 1996



"Qars", "Ərdahan" qayıqları, "Astrabad", "Göytəpə" poçt gəmiləri, "Araz" hidroqrafik gəmisi və "Bayıl" liman daşıyıcı gəmisindən ibarət Azərbaycanın hərbi dəniz donanması 1918-ci ildə yaradılmışdır. Daha sonra Bakını tərk edən ingilis əsgərləri özlərinin döyüş gəmilərinin və yardımçı üzgüçü vasitələrinin bir hissəsini Azərbaycana vermişlər. Demokratik cümhuriyyətin süqutundan sonra donanma Sovet Azərbaycanının Qırmızı donanması adlandırılmış və 1920-ci ilin yayında bu donanma Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil olunmuşdur.

Keçmiş SSRİ-nin Qırmızı bayraqlı Xəzər Donanmasının Bakı və Moskva arasında bölünməsi 1992-ci ildə həyata keçirilmişdir. Hərbi gəmilərin Azərbaycanın balansına qəbul edilməsində HDQ-nın keçmiş komandanı, kontr-admiral Rafik Əsgərov mühüm rol oynamışdır. 1992-ci ilin iyul ayında Azərbaycan hərbi gəmiləri ölkəmizin bayrağı altında reydə çıxmışlar. Hazırda Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin sayı 3000 nəfərdən çoxdur.

1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olunmuş və həmin ildə ulu öndər Heydər Əliyevin fərmanı əsasında 5 avqust tarixi - Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü kimi qeyd olunmuşdur.

Ədəbiyyat

Qaraca, B. Havada, quruda, dənizdə... : 5 avqust Azərbaycan Hərbi Dəniz Qüvvələrinin yaranma günüdür /B.Qaraca //Azərbaycan.- 2013.- 4 avqust.- S.1.

www.anl.az

www.az.wikipedia.org

12

Beynəlxalq Gənclər Günü 1999



İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.files.preslib.az

1998-ci il 8-12 avqust tarixində Lissabon şəhərində keçirilmiş Gənclər Nazirlərinin I toplantısında Beynəlxalq Gənclər Gününün keçirilməsi BMT-nin Baş Assambleyasının 54/120 saylı qətnaməsi ilə 17 dekabr 1999-cu ildən bəri 12 avqust tarixində qeyd olunur.

Respublikamızda Beynəlxalq Gənclər Günü ilk dəfə 2000-ci il avqust ayının 12-də qeyd edilmişdir.

Hazırda dünya əhalisinin təqribən 3 milyard nəfəri, yaşı 25-ədək olan gənclərdir. Onların yarım milyarddan çoxu kasıbçılıq həddində yaşayır. 100 milyondan artıq uşaq məktəbə gedə bilmir. Hər gün 30 min uşaq aclıqdan ölür. BMT-nin Baş katibi dünya birliyini gənclərin problemlərini həll etməyə çağırmışdır. Azərbaycanda gənclər dövlətin qayğısı ilə hərtərəfli şəkildə əhatə olunmuşdur. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2 fevral tarixi 1996-cı ildən etibarən Azərbaycan gəncləri günü kimi təsdiq olunmuşdur. Bu, ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Onu da qeyd edək ki, gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunmuşdur.

18


Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü 2000

Məlum olduğu kimi, Azərbaycanda milli sərhəd xidmətinin yaranma tarixi 1918-ci il dövrünə gedib çıxır. 1918-ci il iyun ayının 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılmış, digər istiqamətlərdə də oxşar məntəqələrin yaradılması işinə başlanılmışdır. 1919-cu il avqust ayının 18-də Azərbaycan Demokatik Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul etdikdən sonra əlavə olaraq 99 post yaradılaraq Azərbaycan sərhədlərinin mühafizəsi təşkil edilmişdir.

Müstəqillik illərində Azərbaycan Ordusunun yaradılması, formalaşdırılması proseslərinə bilavasitə rəhbərlik edən ulu öndər Heydər Əliyev Sərhəd Qoşunlarının formalaşdırılması, ölkəmizin sərhədlərinin qorunması işinin təşkili istiqamətində əvəzsiz xidmət göstərmiş, milli sərhəd siyasətinin əsasını qoymuş, sərhəd strategiyasını müəyyənləşdirmişdir. Ümumiyyətlə, üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

2000-ci il avqust ayının 16-da Prezident cənab Heydər Əliyev ADR-in ilk sərhəd mühafizəsinin təsis edildiyi tarixin - 18 avqustun Azərbaycan Respublikasının Sərhəd Qoşunları Əməkdaşlarının peşə bayramı Günü kimi elan edilməsi haqqında sərəncam imzalamışdır.

Cəbrayıl rayonunun işğalı günü 1993



Ərazisi : 1049 km²
Əhalisi: 54430 nəfər
İşğal tarixi: 23.08.1993

1993-cü il avqust ayının 23-də Cəbrayıl rayonu işğalçı erməni silahlı qüvvələri tərəfindən zəbt edilmişdir.

1994-cü il Horadiz əməliyyatı zamanı Milli Ordunun hərbi silahlı qüvvələri şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində irəliləsə də, Cəbrayılın yalnız Cocuq -Mərcanlı kəndi düşmən işğalından azad olunmuşdu.

İşğaldan əvvəl rayonda 72 orta və natamam orta məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğu fəaliyyət göstərmişdi. Zəngin eksponatları olan tarix-diyarşünaslıq muzeyi olmuşdu. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi xidmət göstərirdi.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 16 nəfər həlak olmuş, 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişmiş, 90 nəfərə yaxın isə əsir və itkin düşmüşdür. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu almış, 6 nəfər isə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var.

2006-2007-ci illər ərzində erməni işğalçıları tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilmişdir.

Ölkənin 58 bölgəsinə səpələnən cəbrayıllılar daha çox Beyləqan, İmişli, Sabirabad, Saatlı, Biləsuvar rayonlarında məskunlaşmışlar.

Biz inanırıq ki, qələbə uzaqda deyil. Ali baş komandanın yürütdüyü uzaqgörən siyasət, apardığı danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad olacaq, bütün həmvətənlərimiz öz yurd-yuvalarına dönəcəklər.

Ədəbiyyat

Abuzərov, A. Cəbrayılın qəm karvanı /A.M. Abuzərov.- Bakı: Ulu, 2000.-180 s

Cəbrayıl: sabaha inamla /T.Hüseyn //Respublika.- 2011.- 5 noyabr.- S.5.

Xalid.Bu gün iki rayonun işğal tarixi anılır Cəbrayıl və Füzulinin işğalı ilə daha 191 600 Azərbaycanlı məcburi köçkün düşüb /Xalid //Üç nöqtə .-2013.- 23 avqust.- S. 10.

Hacımusalı, O. Füzuli və Cəbrayıl rayonlarının işğalından 20 il ötür /O.Hacımusalı //Yeni Azərbaycan .-2013.- 23 avqust.- S.5.

Yaqubzadə, M."Cəbrayıla, Qarabağa dönəydim kaş..." /M.Yaqubzadə //Xalq qəzeti.- 2013.- 24 avqust.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.files.preslib.az

AVQUST

23

Tarixdə bu gün

Füzuli rayonunun işğalı günü 1993

- **Ərazisi: 1386 km²**
- **Əhalisi: 105 000**
- **125368 hektar ərazisi işğal olunub**
- **İşğal tarixi: 23.08.1993**

23 avqust 1993-cü ildə ümumi sahəsi 1386 km² hektar olan Füzuli rayonunun qərb hissəsindən (50 kənd) 125368 hektar ərazinin erməni bədxahları tərəfindən işğal olunmasından 22 il ötür.

Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə yenidən təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlamışdı.

İşğaldan əvvəl rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd, 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri - zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi kimi torpaq sahələri olan rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdi. Kənd təsərrüfatı ilə yanaşı, tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzuli sakini döyüşmüş, yüzlərlə insan şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid verən Füzuli rayonunun əhalisi olmuşdur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır.

Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılmışdır.

Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək. Minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır. O gün gələcək ki, Füzuli rayonu yenidən öz əvvəlki qüdrətini, əzəmətini bərqərar edəcək.

60 illiyi

Ginnesin rekordlar kitabı 1955



Ginnesin Rekordlar Kitabı (ing. The Guinness Book of Records) insanlar tərəfindən göstərilən və təbiətdə qeydə alınan ən yüksək nəticələri ümumiləşdirən məcmuədir. İlk dəfə 1955-ci ildə İrlandiyanın "Ginness" pivə zavodunun sifarişi ilə nəşr olunmuşdur.

"Ginness" pivə zavodunun direktoru Hyu Biver 4 may 1951-ci ildə tanışı ilə birlikdə ova çıxmış və ovda onların arasında qızılı cüllütün, yoxsa şotland tetra quşunun daha sürətlə uçması barədə mübahisə düşmüşdür. Həmin vaxt bu barədə soraq kitabı olmadığına görə, kimin haqlı olduğunu müəyyənləşdirmək mümkün olmamışdır. Bundan sonra ser Hyu belə bir soraqça tərtib etdirməyi qərara almışdır. İdeyanı həyata keçirmək üçün o, bu işi Londonda məlumat agentliyi saxlayan Norris və Ross Makuirter qardaşlarına tapşırmışdı.

1954-cü ildə soraq kitabının ilk variantı hazırlanmış və 1000 nüsxə pulsuz paylanmışdır. 1995-ci il avqust ayının 27-də isə kitab formasında 197 səhifəlik ilk nəşri çap edilmiş və pulla satılmağa başlamışdır və Milad bayramı ərəfəsində İngiltərədə ən çox satılan kitablar siyahısında ön sıraları tutmuşdur. 1956-cı ildə rekordlar kitabı ABŞ-da 70 min nüsxə ilə satışa çıxarılmışdır. Birinci kitabın nəşri üçün pivə zavodunun sahibi tərəfindən "Guinness World Records Limited" şirkəti yaradılmış, sonradan kitabın çap hüququ bir neçə dəfə satılmışdır.

1995-ci ildə kitabın konsepsiyası dəyişmişdir. Yalnız mətndən ibarət olan kitab şəkilli alboma çevrilmişdir. Albomun özü də rekorda imza atmışdır. Hazırda "Ginnessin rekordlar kitabı" dünyanın 100-dən çox ölkəsində, 24 dildə çap olunur. O, kitab ticarəti tarixində ən uğurlu kommersiya nəşriyyatıdır. 2003-cü ildə o 100 milyon tirajla satılmışdır. Kitab sahibləri iddia edirlər ki, onlar müəlliflik hüququ ilə qorunan ən çox satılan kitabdır.

Azərbaycanla bağlı rekordlar: 28 oktyabr 1995-ci ildə "Ulduz" və "Nərimanov" stansiyaları arasındakı tuneldə qatarın alışması nəticəsində 300 nəfər həlak olmuş, 400 nəfər isə xəsarət almışdır. Bu qəza "Ginnes Rekordlar Kitabı"na ən dəhşətli metro qəzası kimi düşmüşdür.

Cəbrayıl rayonunda anadan olmuş, hazırda Belçikada yaşayan və həyatının 25 ilini qrafika sənətinə və kölgə rəsmləri çəkməyə həsr etmiş Fəxrəddin Vəliyev 2004-cü ildə adı "Ginnesin Rekordlar Kitabı"na düşmüş ilk azərbaycanlıdır. O, 5 dəqiqəyə 20 nəfərin siluetini çəkməklə bu şərəfə nail olub.

Lənkəran rayonunun Aşağı Nüvədi kənd sakini 7 yaşlı Ələsgər Rəhim oğlu Həsənzadə "Ginnesin Rekordlar Kitabı"na düşən ən azyaşlı şəxsdir. O, 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucu ilə sinəsini yerə vurmamaq şərti ilə 3 min dəfə qalxıb enmişdir.

Ədəbiyyat

Məmmədova, S. Dünyanın ən çox nəşr olunan kitabı: "Ginnesin rekordlar kitabı"nda azərbaycanlı rekordçuların da adları var /S.Məmmədova //Mədəniyyət.-2011.- 5 oktyabr.- S.15.

Книга рекордов Гиннесса. 1988 /[редакторы А.Рассел, Н.Маквиртер]; Перевод с англ. С.Федотова.- Москва: Сов. Россия, 1989.-352 с.

Guinness World Records 2013.-U.K.: Bantam Books, an imprint of The Random House Publishing Group, 2013.- 606 p.

İnternetdə

www.anl.az

www.azterm.az

www.aztv.az

www.files.preslib.az

Qubadlı rayonunun işğalı günü 1993

- **Ərazisi: 802 km²**
- **Əhalisi: 374 00**
- **İşğal tarixi: 31.08.1993**



Qubadlı rayonunun 31 avqust 1993-cü il tarixində ermənilər tərəfindən işğalından artıq 22 il ötür.

Qubadlı rayonu 1933-cü ildə yaradılmışdır. İnzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid idi. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən Ermənistanla həmsərhəddir.

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil etmişdir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olmuşdur. Rayonda üzümün ilkin emalı üzrə 2 zavod fəaliyyət göstərmişdi. Tam gücü ilə işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət etmişdir. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəmişdi. Qubadlıda 21 rabitə müəssisəsi var idi. 8 avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində dururdu.

Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərmişdir.

Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 orta tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 əczaxana əhalinin sağlamlığının keşiyində durmuşdu. Rayon gigiyena-epidemiologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

Erməni işğalçıları Qubadlıda 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırmış və talan etmişlər. İşğala qədər 33 800 nəfər əhalisi olan Qubadlıda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Qubadlının işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-diyarşünaslıq Muzeyini də talan etmişlər.

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Rayonda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klub, 6 avtoklub olmuşdur. Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olmuş, Qarabağ müharibəsində isə Qubadlının ümumilikdə 232 sakini şəhid, 146-sı əlil olmuşdur.

22 ildir ki, rayonun 30 min əhalisi məcburi köçkün həyatı yaşayır.

Ədəbiyyat

Bəşəri, K.Gözümüzün Qubadlı qarası /K.Bəşəri; red. Əliyeva Ş; rəssam E.İbrahimoğlu.- Bakı: Adiloğlu, 2005.- 180 s.

Şahmar, E.Ocaq yanğısı /E.Şahmar; red.: H.Əfəndi, A.Eldaroğlu.- Bakı: Nurlan, 2004.- 584 s.

Nərimanoğlu, M. Vandalizmin qurbanlarına çevrilən abidələr /M.Nərimanoğlu //Azərbaycan.- 2014.- 30 avqust.- S.10.

Nigar. Qubadlı rayonunun işğalından 21 il ötür /Nigar //Palitra.- 2014.- 30 avqust.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.azeri.net

www.karabakhblog.com

www.milliqahraman.az

SENTYABR

1 sentyabr

Gün çıxır 07:07
Gün batır 20:13

30 sentyabr

Gün çıxır 07:35
Gün batır 19:25

Ç.A.	**1**
Ç.	2
C.A.	3
C.	4
Ş.	5
B.	6
B.E.	7
Ç.A.	**8**
Ç.	9
C.A.	10
C.	11
Ş.	12
B.	13
B.E.	14
Ç.A.	**15**
Ç.	16
C.A.	17
C.	18
Ş.	19
B.	20
B.E.	21
Ç.A.	**22**
Ç.	23
C.A.	24
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	**29**
C.	30

24 avqust-
23 sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Neftçilər Günü (20.09.1994)*
- *Beynəlxalq Sülh Günü (21.09.1981)*
- *Beynəlxalq Turizm Günü (27.09.1970)*

130 il Üzeyir Hacıbəyli 1885-1948



1995-ci il 18 sentyabr tarixində ulu öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabr Milli Musiqi Günü rəsmi şəkildə qeyd edildi. Bu nəcib qərar bütün insanların, musiqisevərlərin ürəyincə oldu.

Üzeyir musiqi gününün keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Dahi Azərbaycan bəstəkarı, Azərbaycan milli operasının banisi, böyük musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyovun Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq, böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə qərara alıram:

1. Hər il sentyabr ayının 18-də Üzeyir musiqi günü keçirilsin.

2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə tapşırılsın ki, hər il sentyabr ayının 18-də Üzeyir musiqi gününün keçirilməsini təmin etsin.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 sentyabr 1995-ci il.

SENTYABR

2015



Milli ədəbiyyat

Yazıçı-publisist və jurnalist Salamzadə Oqtay Məmmədhəsən oğlunun (01.09.1930-02.04.2012) anadan olmasının 85 illiyi 244

Yazıçı-dramaturq Səmədli Əli Qafur oğlunun (01.09.1930-30.05.2006) anadan olmasının 85 illiyi 245

Şair, publisist Mahmudov Əvəz Cəlal oğlunun (Əvəz Lələdağ) (06.09.1935) anadan olmasının 80 illiyi

Tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, publisist Hacıyev Maqsud İbrahim oğlunun (10.09.1935) anadan olmasının 80 illiyi

M.Qorki adına Ümumittifaq mükafatı laureatı, şair İbrahimov Vaqif Əliyar oğlunun (Vaqif İbrahim) (30.09.1945-1983) anadan olmasının 70 illiyi



Folklor

Əməkdar mədəniyyət işçisi, folklorçu Hüseynzadə Əbülqasım Nurməhəmməd oğlunun (25.09.1890-02.09.1988) anadan olmasının 125 illiyi



Rəssamlıq.Heykəltəraşlıq. Memarlıq

Əməkdar rəssam Hüseynov Hüseyn Əli Gülbala oğlunun (02.09.1930-23.12.1987) anadan olmasının 85 illiyi



Musiqi.Opera.Balet

Akademik, Xalq artisti Hacıbəyli Üzeyir Əbdülhüseyn oğlunun (18.09.1885-23.11.1948) anadan olmasının 130 illiyi 246-247

Əməkdar incəsənət xadimi, bəstəkar, dirijor Maqomayev Əbdül Müslüm Məhəmməd oğlunun (18.09.1885-28.07.1937) anadan olmasının 130 illiyi 248

Xalq artisti, kamança ifaçısı Dadaşov Fəxrəddin Əlisahib oğlunun (26.09.1950) anadan olmasının 65 illiyi 249



Teatr.Kino.Sirk

Sirk pəhləvanı, peşəkar güləşçi Yusifov Rəşid Əliməmməd oğlunun (01.09.1900-1982) anadan olmasının 115 illiyi 250

Xalq artisti Aslanov Səyavuş Məmmədağa oğlunun (Səyavuş Aslan) (05.09.1935-27.06.2013) anadan olmasının 80 illiyi 251

Xalq artisti, rejissor Babayev Vasif Hacıağa oğlunun (16.09.1940) anadan olmasının 75 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Vahid Həbibulla oğlunun (20.09.1955) anadan olmasının 60 illiyi 252

Azərbaycanın Milli Qəhrəmanı Ağayev Eldar Əsgər oğlunun (29.09.1955-17.05.2013) anadan olmasının 60 illiyi 253



Tarix

AMEA-nın müxbir üzvü, tarixçi İsmayılov Mahmud Əliabbas oğlunun (01.09.1920-16.08.2002) anadan olmasının 95 illiyi 254



Fəlsəfə.İqtisadiyyat

Fəlsəfə elmləri doktoru, professor Məmmədov Cahangir Rza oğlunun (16.09.1940) anadan olmasının 75 illiyi

Filosof Əfəndiyev Asif Qasım oğlunun (Asif Ata) (25.09.1935-06.06.1997) anadan olmasının 80 illiyi



Mədəniyyət.Maarif.Elm

Filologiya elmləri doktoru, professor Allahyarov Kamil Hüseyn oğlunun (22.09.1950) anadan olmasının 65 illiyi 255



Kimya.Biologiya.Tibb

Əməkdar elm xadimi, kimyaçı Şaxtaxtinski Həbibulla bəy Baxşəli oğlunun (09.09.1900-22.09.1986) anadan olmasının 115 illiyi

Baytarlıq elmləri doktoru, profesor Əhmədova (Qayıbova) Saqibə İsmayıl qızının (25.09.1925) anadan olmasının 90 illiyi

AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Məhərrəmov Saleh Heydər oğlunun (25.09.1965) anadan olmasının 50 illiyi

Əməkdar elm xadimi, tibb elmləri doktoru Məmmədhəsənov Rafiq Musa oğlunun (26.09.1945) anadan olmasının 70 illiyi 256



Tarixdə bu gün

Bakıda Şərq xalqlarının I qurultayı keçirilmişdir (01.09.1920)

Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı olmuşdur (01.09.2010)

Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)

Neft ixrac edən ölkələrin təşkilatı - OPEK-in (The Organization of the Petroleum Exporting Countries) yaradılması Günü (09.09.1960)

Bilik Günü (15.09.2004)

Milli Musiqi Günü (18.09.1995) 257

Neftçilər Günü (20.09.1994)

Beynəlxalq Sülh Günü (21.09.)

Beynəlxalq Lal-Karlar Günü (24.09.1951)

Qurban bayramı (24-25) 258

Beynəlxalq Turizm Günü (27.09.1980)

85 illiyi

Oqtay Salamzadə 1930-2012

Yazıçı, publisist



Oqtay Məmmədhəsən oğlu Salamzadə 1930-cu il sentyabr ayının 1-də Füzuli rayonunun Cuvarlı kəndində anadan olmuşdur.

1948-1953-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fəlsəfə şöbəsində təhsil almış, bilik və bacarığı nəzərə alınaraq gənclər təşkilatının rəhbəri vəzifəsinə irəli çəkilsə də, yaradıcı mühitə daim üstünlük vermişdir.

1954-1959-cu illərdə Bakı Şəhər Komsomol Komitəsinin, Komsomolun Mərkəzi Aparatının katibi vəzifəsində çalışmışdır.

1959-1963-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində uşaq və gənclər verilişləri redaksiyasının məsul redaktoru olmuşdur.

Oqtay Salamzadə 1963-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının məsul katibi seçilmiş, sonralar Beynəlxalq Jurnalistlər Təşkilatının Rəyasət Heyətinin üzvü, SSRİ Jurnalistlər İttifaqı Təftiş Komissiyası sədrinin müavini olmuşdur.

1976-1979-cu illərdə "Kitabsevərlər" cəmiyyətinin baş redaktoru, 1979-1984-cü illərdə "Yazıçı" nəşriyyatında böyük redaktor, 1989-1993-cü illərdə "Karvan" jurnalının baş redaktoru olmuşdur.

O, ömrünün 60 ildən çoxunu qələmə, yaradıcılığa həsr etmiş, yüzlərlə oxunaqlı mətbu yazıları, ədəbi-bədii əsərləri yadigar qalmışdır. Bu nümunələr janr, mövzu rəngarəngliyinə, dil, üslub xüsusiyyətlərinə görə daim diqqəti çəkmiş, müəllifinə medianın da, ədəbiyyatsevərlərin də rəğbətini qazandırmışdı.

1993-cü ildən Azərbaycan KİV İşçiləri Həmkarlar İttifaqının sədri, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurası sədrinin müavini olmuşdur.

Oqtay Salamzadənin dövri mətbuatda işıq üzü görən 500-dən çox məqaləsi, "Bizim nəsil", "Tahirə", "Qızıl torpaq" romanları, "İsgəndərin övladları", "İkinci pillə", "Yaz yağışı", "Səma elçiləri" povestləri, ölkənin dram teatrlarında səhnəyə qoyulan əsərləri onun gərgin və mənalı axtarışlı həyat yolundan xəbər verir.

Tanınmış yazıçı-publisist, jurnalist Oqtay Məmmədhəsən oğlu Salamzadə 2012-ci il aprel ayının 2-də vəfat etmişdir.

Ədəbiyyat

Dünyanın zinəti /O.Salamzadə.- Bakı: Gənclik, 1983.- 306 s.

Əsrlərin sirri: roman /O.Salamzadə.- Bakı: Yazıçı, 1989.- 589 s.

Odlu peşə /O.Salamzadə; [red. M.Namaz; rəssamı. F.Əfəndiyev].- Bakı: Gənclik, 1986.- 253 s.

Sevgi iztirabı: ikihissəli tarixi roman /O.Salamzadə; red.: X.Cəlilova, E.Salamov.- Bakı: El-Aliance, 2003.- 565 s.

Tanınmış jurnalist Oqtay Salamzadə dünyasını dəyişdi //525-ci qəzet.- 2012.- 3 aprel.- S.2.

İnternetdə

www.anl.az


www.az.wikipedikia.org

www.kitab.az

85 illiyi

Əli Səmədli
1930-2006

Yazıçı



Əli Qafur oğlu Səmədli 1930-cu il sentyabr ayının 1-də Göyçay rayonunun Mallışıxlı kəndində, müəllim ailəsində anadan olmuşdur.

O, 1948-ci ildə Göyçay şəhərində orta təhsilini başa vuraraq, Bakı şəhərinə gəlmiş, İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Teatrşünaslıq fakültəsinə daxil olmuşdur.

Əmək fəaliyyətinə 1953-cü ildə Pirallahı adasındakı fəhlə yataqxanasında tərbiyəçi müəllim kimi başlamışdır.

Sonra Azərbaycan SSR Mədəniyyət Nazirliyində (indiki Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi) inspektor, Respublika kinoprokat idarəsində rəis müavini, Azərbaycan Kinematoqrafçılar İttifaqında sovet incəsənətinin təbliği bürosunun direktoru, "Azərbaycan pioneri" qəzeti redaksiyasında "Ədəbiyyat və incəsənət" şöbəsinin müdiri olmuşdur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram redaksiyasında redaktor kimi çalışmışdır.

Ə.Səmədli ədəbi yaradıcılığa 1959-cu ilin mayında "Ədəbiyyat və incəsənət" qəzetində çap olunan "Unuda bilmirəm" hekayəsi ilə başlamışdır. Bundan sonra dövri mətbuatda hekayələrlə müntəzəm çıxış etmişdir. Əli Səmədli ədəbiyyatın bütün janrlarında qələmini sınamışdır. Yazıçının "Ən böyük yalançı" adlı nağılı ilk dəfə "Azərbaycan pioneri" qəzetində dərc edilmişdir. "Aqil babanın nağılları" adlı ilk kitabı 1962-ci ildə işıq üzü görmüşdür.

Onun "Artıq tamah baş yarar", "Hərənin bir ulduzu", "Kibrit çöplərinin macərası", "Sehrli xalça", "Siçanların toyu" və s. əsərləri respublika dövlət teatrında tamaşaya qoyulmuşdur.

Əli Səmədli 55 ildən artıq uşaq və gənclər ədəbiyyatı sahəsində ədəbi fəaliyyət göstərmişdir. O, 40-a yaxın kitabın və 33 səhnə əsərinin müəllifidir.

Ayrı-ayrı əsərləri 20-dən artıq xarici dilə tərcümə edilmişdir. Türk, özbək, türkmən, qırğız, belarus və başqa dillərdə kitabları nəşr olunmuşdur.

"Artıq tamah baş yarar" nağılpyesi 1964-1983-cü illərdə A.Şaiq adına Dövlət Kukla Teatrında 1500 dəfə tamaşaya qoyulmuşdur.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli yazıçısı Əli Qafur oğlu Səmədli 2006-cı il may ayının 30-da vəfat etmişdir.

Ədəbiyyat

Çinarlı şəhərim mənim /Ə.Səmədli; red. İ.Tapdıq. - Bakı: Turan, 2003.- 341 s.

Qanlı bənövşə: nağıl və hekayələr /Ə.Səmədli; red. H.Sadıqova; rəs. N.Babayev.- Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1996.- 48 s.

Ömür karvanı: hekayə, şeir, əfsanə /Ə.Səmədli; red. R.İsmayılov.- Bakı: Ulu, 2005.- 204 s.

Əlili-əlisiz günlər: [məqalələr, xatirələr] /nəşrə hazırlayan və ön söz müəl. S.Xəyal; red. A.İsgəndərli.- Bakı: [MBM], 2012.- 99 s.

Azəri, L. Yazıçılar Birliyində Əli Səmədli yad edildi /L.Azəri //Mədəniyyət.- 2012.- 1 iyun.- S.4.

İnternetdə

www.anl.az

www.en.wikipedia.org

130 illiyi Üzeyir Hacıbəyli 1885-1948

Bəstəkar



Ə d ə b i y y a t

Leyli və Məcnun [Notlar]: Partitura [5 pərdəli, 6 şəkilli opera: Füzulinin eyni adlı poeması əsasında] libretto /Ü.Hacıbəyli; Heydər Əliyev Fondu; Azərbaycan Mədəniyyət Fondu.- [Bakı] [Şərq-Qərb], [2010].- 373 s.

Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-1912) /Ü.Hacıbəyli; topl., ərəb əlifb. latın qrafik. çevir., ön sözün müəl. və lüğətin tərt. Ş.Hüseynov.- Bakı: Elm, 2009.- H.1.- 298 s.

Üzeyir Hacıbəyli: biblioqrafiya /tərt. ed.: R.Orucəliyeva, H.Haşımova və başq.; baş red. və burax. məsul K.Tahirov; red.: G.Səfərəliyeva; M.F. Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı, 2009.- 368 s. ("Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası).- Azərbaycan və rus dillərində.

Üzeyir Hacıbəyov ensiklopediyası /müəlliflər və red. heyəti: E.Abbasova və b.; Azərbaycan Mədəniyyətinin Dostları Fondu.-Bakı: Şərq-Qərb, 2007.-264 s.

Çəmənli, M. Ürəyimdə qalan sözlər //Çəmənli M. Sənət hekayələri.-Bakı, 2014.- S.33-45.

www.anl.az

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabr ayının 18-də Azərbaycanın dilbər guşələrindən olan Şuşada anadan olmuşdur. İlk təhsilini buradakı ikisinifli rus-türk məktəbində almışdır. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Hacıbəylinin musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir.

Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olmuşdur. O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almış, dünyagörüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripkada çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Seminariyanı bitirdikdən sonra 1904-cü ildə Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilmişdir.

Üzeyir bəy Hacıbəyli Rusiyada 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türkirusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir.

Bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordanburdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

Dahi bəstəkar, pedaqoq, ictimai xadim, musiqişünas-alim və publisist Üzeyir Hacıbəyli milli musiqimizdə köklü dönüş yaratmışdır. Onun 1908-ci il yanvar ayının 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. O, operanın librettosunu Füzulinin eyniadlı poeması əsasında yazmışdır.

1909-1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşud banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operalarının librettosunu xalq dastanları və rəvayətlər, Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdır. Xalq dastanı əsasında bəstələdiyi "Əsli və Kərəm" operasında muğamatla bərabər aşıq musiqisindən də istifadə etmişdir.

Azərbaycanda musiqili komediya janrının yaradıcısı (komediyalarının mətnini də özü yazmışdır) olmuşdur. Onun "Ər və Arvad" (1909, ilk tamaşası: 1910), "O Olmasın, bu Olsun" (1910, ilk tamaşası: 1911), "Arşın Mal Alan" (1913) musiqili komediyalarında inqilabdan əvvəlki Azərbaycan məişəti, xalq adət və ənənələri əksini tapmışdır. Üzeyir bəy 1911-ci ildə

musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü Hacıbəylinin yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını məhz burada yaratmışdır.

Görkəmli bəstəkar 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini - Azərbaycan Dövlət Türk Musiqi Məktəbini (sonralar texnikum) təşkil etmişdir. 1926-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərmiş və burada nəzəriyyə, harmoniya, Azərbaycan musiqisinin əsasları fənlərindən dərs demiş, konservatoriya yanında ilk çoxsəsli Azərbaycan xor kollektivini yaratmış, 1931-ci ildə Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestrini təşkil etmişdir.

1937-ci ildə Ü.Hacıbəyli Avropa operasının prinsiplərini milli musiqimizin üslubu ilə mükəmməl səviyyədə əlaqələndirərək xalq dastanı əsasında özünün şah əsəri - "Koroğlu" operasını yazmışdır. Bu operada ilk dəfə olaraq klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaratmışdır.

Onun musiqi səhnə əsərləri içərisində məhəbbət və xeyirxahlığı tərənnüm edən, cəhalətə qarşı çıxan "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları xüsusi qeyd olunmalıdır. Bəstəkarın "Arşın mal alan" musiqili komediyası ingilis, alman, çin, ərəb, türk, fars, polyak, ukrayna, rus, belarus, gürcü və s. dillərə tərcümə edilmiş, Moskvada, Nyu Yorkda, Parisdə, Londonda, Tehranda, İstanbulda, Qahirədə, Berlində, Varşavada, Pekində, Sofiyada, Budapeştdə, Buxarestdə və s. şəhərlərdə tamaşaya qoyulmuş, dəfələrlə ekranlaşdırılmışdır.

O, həmçinin bir neçə kantatanın xalq çalğı alətləri orkestri üçün "Çahargah" və "Şur" fantaziyalarının, "Aşıqsayağı", "Şəfqət bacısı", "Yaxşı yol" və digər mahnıların, Nizaminin sözlərinə məşhur "Sənsiz" və "Sevgili canan" romanslarının müəllifidir. Azərbaycan Respublikasının hazırki, eləcə də keçmiş himnini məhz Üzeyir bəy Hacıbəyli bəstələmişdir.

Azərbaycanda, eləcə də müsəlman Şərqində ilk musiqi təhsil ocağı - konservatoriya (hazırki Bakı Musiqi Akademiyası) 1921-ci ildə məhz onun səyi nəticəsində yaradılmışdır. Üzeyir bəy özü də konservatoriyada dərs demiş, 2 dəfə Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929, 1939-1948) vəzifəsində çalışmışdır. Azərbaycan musiqisinin görkəmli xadimləri Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Ağabacı Rzayeva, Şəfiqə Axundova və başqaları Üzeyir Hacıbəylinin sinfində təhsil almışdır. Ölkəmizdə ilk çoxşaxəli xoru, notla çalan ilk çalğı orkestrini də Üzeyir bəy yaratmışdır.

Hacıbəyli həm də böyük musiqişünas alim idi. O, müasir Azərbaycan elmi musiqişunaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır. Milli musiqimizin tədqiqinə son dərəcə böyük əhəmiyyət verən dahi bəstəkar 1927-ci ildə Müslüm Maqomayevlə birgə Azərbaycanda ilk dəfə el nəğmələrinin not yazılarını dərc etdirmişdir. "Azərbaycan xalq musiqisinin əsasları" adlı sanballı elmi əsərin müəllifidir.

1935-ci idə "Azərbaycanın əməkdar incəsənət xadimi", 1938-ci ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1941-ci ildə Stalin Mükafatı, "Lenin Ordeni" və "Qırmızı Əmək Bayrağı" ordeni laureatı olmuşdur.

O 1940-cı ildə professor, 1945-ci ildə Elmlər Akademiyasının (indiki AMEA) akademiki olmuşdur. 1938-1948-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, 1945-1948-ci illərdə Azərbaycan EA (indiki AMEA) İncəsənət İnstitutunun direktoru olmuşdur.

Ü. Hacıbəyli təmiz qəlbli, yüksək mənəviyyatlı, təvazökar və xeyirxah bir insan kimi də xüsusi məhəbbətlə xatırlanır.

Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəyli 1948-ci il noyabr ayının 23-də vəfat etmişdir.

Üzeyir bəy Hacıbəylinin anadan olmasının 100 illik yubileyi böyük təntənə ilə keçirilmişdir. UNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən Ü. Hacıbəylinin yubileyi beynəlxalq miqyasda da qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 23 fevral 2010-cu il tarixli Sərəncamı ilə Üzeyir Hacıbəylinin 125 illik yubileyi təntənəli şəkildə keçirilmişdir.

130 illiyi

Əbdül Müslüm Maqomayev 1885-1937

Bəstəkar



Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev 1885-ci il sentyabr ayının 18-də Qroznı şəhərində anadan olmuşdur. 1899-1904-cü illərdə Qroznıda ikiillik şəhər məktəbini bitirdikdən sonra Qori Müəllimlər Seminariyasında oxumuşdur. Təhsil illərində musiqiyə böyük maraq göstərmiş, burada ilk əsərlərini yazmış, Ü.Hacıbəyli ilə tanış olmuşdur.

1905-1911-ci illərdə Şimali Qafqazın Bekoviç kəndində, Lənkəran şəhər məktəbində müəllimlik etmişdir. Məktəbdə xor, dram dərnəyi, orkestr təşkil etmiş, bir çox xalq mahnılarını nota yazmışdır. 1911-ci ildə Bakıya köçmüş, Azərbaycan opera teatrında skripkaçı işləmişdir. 1912-ci ildən etibarən opera tamaşalarına dirijorluq edən Müslüm Azərbaycanın ilk opera dirijoru olmuşdur.

1916-cı ildə yazdığı ilk əsəri "Şah İsmayıl" operası onun fitri istedada malik olduğunu aydın göstərmişdi. Azərbaycan opera repertuarında görkəmli və şərəfli yer tutan "Şah İsmayıl" əsəri, onun gözəl melodiyaları, əsərdə gördüyümüz surətlərin musiqi səciyyəsi, mahir ustadın sənətə bəslədiyi saf və səmimi bir məhəbbətin gözəl nümunəsidir.

1927-ci ildə onun ümumi redaktəsi ilə "Azərbaycan türk el nəğmələri" məcmuəsi nəşr edilmişdir. 1929-cu ildən Azərbaycan radio verilişlərinin musiqi şöbəsinə bədii rəhbər təyin olunmuş, 1934-cü ildən Azərbaycan Opera və Balet Teatrının direktoru, bədii rəhbəri və baş dirijoru vəzifələrində çalışmışdır.

Bəstəkarın yaradıcılığında ən önəmlisi, yeni musiqi əsərinin "Nərgiz" operasının yaradılması olmuşdu. Bu operada ilk dəfə olaraq baş qəhrəman rolunda sadə kəndli qızı çıxış etmişdir.

1935-ci ildə böyük yaradıcılıq müvəffəqiyyəti olan "Nərgiz" operası ictimaiyyətin diqqətini cəlb etmiş, musiqi mütəxəssislərinin yüksək qiymətinə layiq görülmüşdür. Klassik opera ənənələri əsasında bəstələnmiş "Nərgiz" operasının musiqi dili Azərbaycan xalq musiqisi intonasiyaları ilə aşılanmışdır. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə bu opera çox böyük müvəffəqiyyət qazanmışdır.

O, həmçinin "Ölülər", "1905-ci ildə" dram tamaşalarına, "Azərbaycan incəsənəti", "Bizim raport" və s. sənədli filmlərinə musiqi bəstələmişdir. O, böyük sənətkar, tarzən Q.Pirimovun çalğısından "Rast" muğamını nota yazmış və bu, Azərbaycan musiqisində muğamın nota yazılması sahəsində ilk təcrübə hesab edilmişdir. Həmçinin, 300-dən artıq xalq mahnı və rəqslərini nota köçürmüşdür. Onun son əsəri "Xoruz bəy" müsiqili komediyasına yazmağa başladığı musiqi idi, lakin bu iş tamamlanmamış qalmışdır.

O, 1936-cı ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Müslüm Maqomayev 1937-ci il iyun ayının 28-də Nalçik şəhərində vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il sentyabr ayının 20-də Müslüm Maqomayevin 120 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

Ə d ə b i y y a t

Hüseynova, A. Müslüm Maqomayev: oçerklər /A.Hüseynova; elmi red. S.Qasımova.- Bakı: Çinar-Çap, 2003.- 92 s.

Müslüm Maqomayev: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. L.Şirinova; burax. məsul və ixt. red. K.Tahirov; red. M.Vəliyeva.- Bakı, 2011.- 168 s.

Çəmənli, M. Müslüm Maqomayevi xatırlayarkən //Çəmənli M. Sənət hekayələri.- Bakı, 2014.- S.53-67.

Gülər. Müslüm Maqomayevin 125 illiyinə həsr olunmuş konfrans /Gülər //Mədəniyyət.- 2010.- 12 noyabr.- S.7.

İlk Avropasayağı operanın bəstəçisi...: Azərbaycan musiqisinin korifeyi Müslüm Maqomayev //Azadlıq.- 2011.- 3 dekabr.- S.14.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

65 illiyi

Fəxrəddin Dadaşov 1950

Kamança ifaçısı



Fəxrəddin Əlisahib oğlu Dadaşov 1950-ci il sentyabr ayının 26-da Bakıda dünyaya göz açmışdır.

1963-cü ildə 2 saylı uşaq musiqi məktəbini bitirdikdən sonra, Bülbül adına orta-ixtisas musiqi məktəbinə daxil olmuş və 1972-ci ildə həmin sənət ocağını bitirmişdir.

O, 1977-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını kamança ixtisası üzrə bitirmişdir. Hələ məktəbli olarkən, 1966-cı ildə tarzən Həbib Bayramov tərəfindən Azərbaycan Dövlət Radio və Televiziyasının Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblına dəvət edilmiş dir və hazırda ansamblın konsertmeysteridir. Eyni zamanda, 1989-cu ildən tarzən Möhlət Müslümovla birgə yaratdığı Cabbar Qaryağdıoğlu adına muğam üçlüyünə rəhbərlik edir.

Dünyanın bir neçə ölkəsində, o cümlədən Hollandiya, Fransa, Almaniya, İtaliya və Kanadada kompakt diskləri çıxmışdır.

1988 və 1998-ci illərdə Fransada keçirilən Beynəlxalq festivalın laureatı olmuşdur.

Mahir kamança ifaçısı 49 xarici ölkədə, o cümlədən Kanada, ABŞ-ın Texas ştatında, Nikaraqua, Kuba, Braziliya, Meksika, İngiltərə, Almaniya, Fransa, İsveç, İsveçrə, İtaliya, İspaniya, Norveç, Avstriya, Tayland, Tayvan, Hindistan, Mərakeş və s. ölkələrdə konsertlərlə çıxış etmiş, onun solo və müşayiətlə olan ifaları ilə Azərbaycan musiqisi dünya səviyyəsində konsertlərin, festivalların yaraşığına çevrilmişdir.

Klassik xanəndələrdən başlamış, hazırda səsi efiri bəzəyən görkəmli sənətkarlara qədər, ayrı-ayrı nəsillərin nümayəndələri ilə saysız-hesabsız çıxışları olmuş, Xan Şuşinski, Yaqub Məmmədov, Mütəllim Mütəllimov, Əbülfət Əliyev, Rübabə Muradova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Hacıbaba Hüseynov, Tükəzban İsmayılova, Şövkət Ələkbərova, Arif Babayev, Ağaxan Abdullayev, Alim Qasımov, Ruzə İbişova, Səkinə İsmayılova, Zabit Nəbizadə, Mələkxanım Əyyubova, Qəndab Quliyeva, Aygün Bayramova, Nəzakət Teymurova kimi sənətkarları məharətlə müşayiət etmişdir.

F.Dadaşov gərgin ifaçılığı ilə yanaşı, həm də pedaqoq kimi Azərbaycan musiqi mədəniyyətinə xidmət göstərir. İlk pedaqoji fəaliyyətə 13 saylı Uşaq Musiqi Məktəbindən başlayan ifaçı Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, Asəf Zeynallı adına Musiqi Kollecində, Bakı Musiqi Akademiyasında, Milli Musiqi Konservatoriyasında neçə-neçə tələbəyə kamançanın dərinliklərini öyrətmişdir. Azərbaycan Milli Konservatoriyasının dosenti F.Dadaşov 2010-cu ildə Milli Musiqi Konservatoriyasının professoru elmi rütbəsinə layiq görülmüşdür.

Azərbaycan Radio və Televiziya fondunda onun ifasında "Mahur Hindi", "Şüştər", "Çahargah", "Bayatı-Şiraz", "Rahab", "Vilayəti-Dilkəş", "Şur" muğamlarının lent yazıları saxlanılır.

Fəxrəddin Manafov 2000-ci ildə "Əməkdar artist", 2005-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2009-cu ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ədəbiyyat

"Kamança mənim dünyamdır" /F.Dadaşov //Mədəniyyət .- 2010.- 24 sentyabr.- S.7.

Kamança musiqi alətinin bədii-texniki ifaçılıq imkanlarına dair /F.Dadaşov //Musiqi dünyası.- 2011.- №2/47.- S.67-69.

Muğamımızı dünyaya daha geniş açdı: F.Dadaşov: "Mənə görə qadın-kişi fərq etməz, alət onu ifa edənindir..." /F.Dadaşov, müsahibəni apardı G.Camalqızı //Ekran-efir.- 2013.-1 noyabr.- S.10.

Səmədov, A. Ürəkləri titrədən kaman: Fəxrəddin Dadaşov-60 /A.Səmədov //Xalq qəzeti.- 2010.- 10 oktyabr.- S. 8.

Tanınmış kaman ustasının yubileyi qeyd olunub //Mədəniyyət.- 2010.- 6 oktyabr.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

80 illiyi

Səyavuş Aslan 1935-2013

Aktyor



Aslanov Səyavuş Məmmədağa oğlu (Səyavuş Aslan) 1935-ci il sentyabr ayının 5-də Bakı şəhərində anadan olmuşdur.

1947-1953-cü illərdə aktyorluğa həvəskar kimi dram dərnəyindən başlamışdır. 1954-cü ildə Musiqili komediya teatrının xoruna işə qəbul olunmuş və elə həmin il ordu sıralarına xidmətə getmişdir. Hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki Kukla teatrına qəbul olunmuşdur.

1958-ci ildə Quba Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlamışdır. Bir ildən sonra Bakıya qayıdan Səyavuş Aslan musiqili komediya teatrının yardımçı heyətinə işə qəbul edilmişdir. 1959-cu ildə A.Məşədibəyovun "Toy kimindir?" tamaşasında Qoşun rolunu uğurla ifa etdiyinə görə aktyor heyətinə keçirilir.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aparıcı aktyoru kimi bir çox obrazların mahir ifaçısı olmuşdur: Bayram ("Kəndimizin mahnısı", K.Kərimov), İbişov ("Özümüz bilərik", Ş.Qurbanov), Füruzbala ("Altı qızın biri Pəri", M. Əlizadə), Şubay ("Ulduz"), Dadaşbala ("Hicran", S.Rəhman) və s.

1984-cü ildən Akademik Milli Dram Teatrının səhnəsində bir çox rəngarəng obrazlar yaratmışdır: Mindilli ("Nişanlı qız", S.Rəhman), Luka ("Həyatın dibində", M.Qorki), Ağaəli ("Günah", R.Əlizadə), Oddamdı ("Od gəlini", C.Cabbarlı), Fəriş ("Bizim qəribə taleyimiz", İ.Əfəndiyev), Cabbar ("Sevgililərin cəhənnəmdə vüsalı", İ.Əfəndiyev), Ağamusa Fərəcov ("Dəlilər və ağıllılar", İ.Əfəndiyev), Vanya Koxa ("Hökmdar və qızı", İ.Əfəndiyev), Qərib Qulam ("Mənsiz dünya", N.Xəzri), Əsdulla ("Ah, Paris…Paris!..", Elçin), Kişi ("Mənim ərim dəlidir", Elçin), Baş redaktor ("Mənim sevimli dəlim", Elçin), Yoldaş tək ("Poçt şöbəsində xəyal", Elçin), Sarı ("Varlı qadın", Ə.Əmirli) və s.

Aktyor televiziya tamaşalarında da yüzdən çox obraz ifa etmişdir. Teatr və kino aktyoru kimi fəaliyyət göstərdiyi müddət ərzində bir sıra fəxri adlar, mükafatlar, orden və medallarla təltif edilmişdir. 1965-ci ildə teatr və kino yaradıcılığındakı səmərəli fəaliyyətinə görə Ali Sovetin Fəxri Fərmanına, 1973-cü ildə "Azərbaycan SSR-in Əməkdar artisti", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına, 1995-ci ildə "Şöhrət" ordeninə, 2002-ci ilin iyul ayında Prezident mükafatına, 2003-cü ildə Prezident təqaüdünə, 2004-cü ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Teatr xadimi" medalına (qızıl suyuna salınmış) layiq görülmüşdür.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan incəsənətinin inkişafındakı xidmətlərinə görə Səyavuş Məmmədağa oğlu Aslanovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə, 2013-cü ildə isə ən ali "Şərəf" ordeni ilə təltif edilməsi barədə müvafiq sərəncamlar imzalamışdır.

Səyavuş Aslan 2013-cü il iyun ayının 27-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Rəhimli, R. Həmişə təravətli sənət /R.Rəhimli; red. S.Niyazqızı.- Bakı: Nağıl evi, 2005.-350 s.

İltifat. Səyavuş Aslanı itirdik: Milli səhnədə daha "mogikan" qalmadı /İltifat //Ekspress.- 2013.- 28 iyun.- S.2;11.

Səyavuş Aslan təkrarolunmaz sənətkardır: Əliqismət Lalayev: "O, Musiqili Komediya Teatrı tarixində yadda qalacaq böyük aktyorlardandı" //Üç nöqtə.- 2013.- 10 iyul.- S. 13.

Vahid, T. Səyavuş Aslan "Fəxri diplom" la təltif edildi: Görkəmli sənətkar bu mükafata Azərbaycan incəsənətindəki xidmətlərinə görə layiq görülüb /T.Vahid //Mədəniyyət.-2010.- 8 sentyabr.- S. 4.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az

75 illiyi Vasif Babayev 1940

Kinorejissor



Vasif Hacıağa oğlu Babayev 1940-cı il sentyabr ayının 16-da Bakı şəhərində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

1964-cü ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əvvəlcə rejissor köməkçisi, assistenti, rejissoru olmuş, 1966-cı ildə Leninqrad Televiziyası nəzdində Ali Televiziya rejissoru kurslarını bitirmişdir. 1969-cu ildən isə televiziyanın baş rejissoru, 1969-1987-ci illərdə onlarla genişformatlı "Yeni il mavi işıq" televiziya proqramları və bayram ve-rilişlərinin quruluşçu rejissoru olmuşdur.

1967-1986-cı illərdə Bolqarıstan, Yuqoslaviya, Avstriya, Macarıstan, Yunanıstan, İran, Türkiyə, Malta, İspaniya Fransa, İtaliya kimi xarici ölkələrdə çəkilişlər apararaq verilişlər və kinofilmlər yaratmışdır. O, jurnalist Nadejda İsmayılova ilə birlikdə 1988-ci ilin əvvəllərində kino-televiziya tarixində ilk dəfə olaraq araşdırmalar apararaq "Mikayıl Müşfiq", "Abbaz Mirzə Şərifzadə", "Ülvi Rəcəb", "Ruhulla Axundov", "Hüseyn Rəhmanov", "Salman Mümtaz" kimi "siyasi məhbuslar"ın şəxsi işləri əsasında bir sıra silsilə verilişlər hazırlamışdır.

1991-ci ildə Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsinin bədii rəhbəri vəzifəsinə təyin edilmişdir. 1994-1996-cı illərdə "MİR" dövlətlərarası Teleradio şirkətinin direktoru, 1996-1999-cu illərdə "Sara" müstəqil Teleradio şirkətinin icraçı direktoru, 2001-2006-cı illərdə Moskvada Rusiyanın "İnter-Az" müstəqil Teleradio şirkətinin vitse-prezidenti olmuşdur. 40-a yaxın sənədli filmin müəllifi və rejissorudur. Bu filmlərin bəziləri müxtəlif kinoforumlarda mükafatlara layiq görülmüşdür.

1970-1982-ci illərdə ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən, demək olar, bütün vacib dövlət və hökumət tədbirlərinin, televiziya verilişlərinin və canlı yayımlanan proqramların aparıcı rejissoru olmuşdur. 1973-cü ildən Kinematoqrafçılar İttifaqları Konfederasiyasının üzvüdür.

O, 1972-1987-ci illərdə R.Həsənoğlu ilə birlikdə iki ildən bir SSRİ Mərkəzi televiziyasından İntervideniye sistemi ilə Avropaya yayımlanan iki saatlıq Azərbaycan haqqında proqramların müəllifi və rejissoru olmuşdur.

V.Babayev ümummilli lider Heydər Əliyevin televiziya və kino salnaməsinin yaradıcılarından biridir. 2000-ci ildən Peşəkar Azərbaycan kinorejissorları gildiyasının üzvüdür. Dövri mətbuatda dəfələrlə çıxış etmişdir.

Görkəmli televiziya və kino rejissoru Vasif Babayev 1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmiş, 1977-ci ildə "Azərbaycanın Əmək-dar artisti", 1981-ci ildə "SSRİ Televiziya və radio əlaçısı", 1989-cu ildə "Xalq artisti" fəxri adına respublikamızda layiq görülmüş ilk televiziya rejissorudur. 1995-ci ildə "MİR" Dövlətlərarası teleradio şirkətinin Azərbaycan nümayəndəliyinin direktoru işləyərkən beynəlxalq "Humay" mükafatını almış, 1999-cu ildə "Akademik Yusif Məmmədəliyev" medalı ilə təltif edilmişdir. 2004-cü ildə Beynəlxalq Televiziya və Radio Akademiyasının akademiki olmuş, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ədəbiyyat

Cəbrayıloğlu, E. Vasif Babayev - 70 ildən 8 an /E.Cəbrayıloğlu //Ədalət.- 2010.- 18 sentyabr. - S.8-9.

Qaraca, B. Milli dəyərlərə sadiq rejissor /B.Qaraca //Azərbaycan.- 2010.- 17 sentyabr.- S.7.

Qasımov, K. Vasif Babayev - 70 /K.Qasımov //Həftə içi.- 2010.- 14 sentyabr.- S.7.

Qasımov, K. Zaman-zaman tanıdığım Vasif Babayev /K.Qasımov //Mədəniyyət.- 2010.- 15 sentyabr.- S.7.

Muradxanlı, M. Hər şey irəlidədir, Vasif! /M.Muradxanlı //Həftə içi.-2010.- 14 sentyabr.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az

www.teatrmuzeyi.musigi-dunya.az

60 illiyi

Vahid Quliyev 1955

Milli Qəhrəman



Vahid Həbibulla oğlu Quliyev 1955-ci il sentyabr ayının 20-də Cəbrayıl rayonunun Qumlaq kəndində anadan olmuşdur. Uşaqlıq illəri Niyazqullar kəndində keçmişdir. O, 1972-ci ildə Zəngilan rayonunda Hacallıkənd orta məktəbini bitirmiş, bir müddət Niyazqullar kəndində təsərrüfat işlərində çalışmışdır. 1974-cü ildə ordu sıralarına çağırılmışdır. O, hərbi xidmətini Özbəkistan Respublikasında və Rusiyanın Obninsk şəhərində keçmişdir. 1976-cı ildə hərbi xidmətini başa vuraraq, Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuşdur. 1981-ci ildə universiteti bitirərək, təyinatla Laçın rayonunun Fərəcan kəndinə göndərilmişdir. 3 il burada müəllimlik etdikdən sonra Bakıya qayıtmış, "Azon" Cihazqayırma zavodunda sahə rəisi vəzifəsinə işə qəbul edilmişdir. 1992-ci ilə qədər bu zavodda çalışmış və öz işinin öhdəsindən layiqincə gəlmişdir.

O, 1992-ci ilin avqust ayında Yasamal rayon Hərbi Komissarlığına gələrək, cəbhəyə göndərilməsini xahiş etmiş, onu bir zabit kimi döyüş xəttinə yola salmışlar. Sentyabrın 7-də Ağdam istiqamətindən döyüşə girmişdir. O, bu döyüşdə düşmənin bir tankını vurmuş, beləliklə, erməni yaraqlılarının hücumunun qarşısı alınmışdır. Oktyabrın 14-də Qubadlıya gedərək, burada da rəşadətlə vuruşmuş, düşmənin bir neçə döyüş texnikasını və xeyli canlı qüvvəsini sıradan çıxarmışdır.

1994-cü il fevral ayının 28-də yenidən Ağdam döyüş bölgəsinə dönmüşdür. V.Quliyev xidmətə başlayan gündən atəşkəs elan olunana qədər düşmənin on zirehli texnikasını sıradan çıxarmışdı. Bunun səkkizi tank, ikisi isə PDM (Piyada Döyüş Maşını) idi.

Azərbaycan Respublikası Prezidentinin 9 noyabr 1994-cü il tarixli Fərmanı ilə göstərdiyi şücaətlərə görə Vahid Həbibulla oğlu Quliyevə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

O, 1996-cı ildə BDU-nun hərbi kafedrasında müəllim, 2000-ci ilin avqust ayından 2002-ci ilin oktyabr ayına qədər Azərbaycan Ali Hərbi Məktəbində baş müəllim kimi fəaliyyətini davam etdirmişdir. 26 oktyabr 2002-ci ildə isə orduдan tərxis olunmuşdur.

Polkovnik-leytenant Vahid Quliyev hazırda Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində müəllim kimi çalışır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Vahid Həbibulla oğlu - kapitan - Azərbaycan Respublikası suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsində misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 oktyabr 1994-cü il //Azərbaycan Ordusu.- 1994.- 11 oktyabr.- S.1.

Əsgərov, V. Quliyev Vahid Həbibulla oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.-S.174-175 .

Quliyev Vahid Həbibulla oğlu (1995) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.126.

Seyidzadə, M. Quliyev Vahid Həbibulla oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.125.

60 illiyi

Eldar Ağayev 1955-2013

Milli Qəhrəman



Eldar Əsgər oğlu Ağayev 1955-ci il sentyabr ayının 29-da Tbilisi şəhərində hərbçi ailəsində anadan olmuşdur.

Sonralar ailəsi ilə Bakıya köçmüş, 1962-ci ildə 20 saylı orta məktəbə getmiş, sonra təhsilini 134 saylı məktəbdə davam etdirmişdir. 1972-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə daxil olmuş, 1976-cı ildə motoatıcı ixtisası ilə Qusev şəhərində hərbi xidmətə başlamışdır.

1978-ci ildə Kamçatka yarımadasında, 1981-1984-cü illərdə Amur vilayətinin Obluçye şəhərində motoatıcı bölüyünün komandiri olmuşdur.

1984-1986-cı illərdə Əfqanıstanda motoatıcı bölüyün kəşfiyyat rəisi, sonra isə komandiri olmuşdur. Bacarıqlı komandir olduğunu görən rəhbərlik onu əvvəlcə tank alayınının rəisi, sonra isə Drezden kəşfiyyat taboruna komandiri təyin etmişdir. Ermənilər torpaqlarımıza hücum edən zaman Eldar Vətənə qayıtmış və 1992-ci ildə Milli Ordunun tərkibində "N" saylı alayını yaratmışdır. Daha sonra ikinci taboru yaratmış və ona komandirlik etmişdir. Onun komandirlik etdiyi tabor dəfələrlə qaynar döyüşlərə atılmış və onlarla erməni quldurunu məhv etmişdir. Eldarın yaratdığı tabor 1995-ci ildə Bakıda dövlət çevrilişinin qarşısının alınmasında da iştirak etmişdir. Bu taborun 18 əsgər və zabiti "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

1997-ci ildən 2000-ci ilədək Azərbaycan Politexnik İnstitutunda hərbi kafedranın rəisi olmuşdur. 2000-2001-ci illərdə isə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin kəşfiyyat kafedrasının rəisi vəzifəsində çalışmışdır.

Sovetlər birliyi zamanı "Qırmızı Ulduz", "İgidliyə görə" ordenləri ilə, Qarabağ döyüşlərində iştirak etdiyi üçün "Azərbaycan Bayrağı"ordeni ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli Fərmanı ilə Ağayev Eldar Əsgər oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ağayev Eldar Əsgər oğlu 2013-cü il may ayının 17-də vəfat etmişdir.



Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Ağayev Eldar Əsgər oğlu-Müdafiə Nazirliyi, polkovnik – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.

Ağayev Eldar Əsgər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.22.

Əsgərov, V. Ağayev Eldar Əsgər oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.23-24 .

Seyidzadə, M. Ağayev Eldar Əsgər oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.20.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

95 illiyi

Mahmud İsmayılov 1920-2002

Alim



Mahmud Əliabbas oğlu İsmayılov 1920-ci il sentyabr ayının 1-də Şəki şəhərində anadan olmuşdur. 1941-ci ildə ADU-nun tarix fakültəsini bitirmiş, 1949-cu ildə namizədlik, 1961-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1963-cü ildə professor elmi rütbəsini almışdır.

1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1946-cı ildə Azərbaycan EA-nın Tarix İnstitutunda laborant kimi başlamış, sonra aspirant, kiçik elmi işçi, baş elmi işçi olmuş, 1952-ci ildə Azərbaycanın yeni tarixi şöbəsinin rəhbəri, 14 ilə yaxın (1954-1968) Tarix institutunda direktor müavini, 1968 - 1983-cü illərdə şöbə müdiri işləmişdir. 1983-cü ildən yenidən elmi hissə üzrə direktor müavini olmuşdur.

Onun elmi yaradıcılığının əsas istiqaməti XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda kapitalizmin genezisi və inkişafı, kənd təsərrüfatının tarixi problemlərinin tədqiqi olmuşdur. Onun "Azərbaycan dövlət kəndliləri XIX əsrin sonunda" (1957), "XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı" (1960), "XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatında kapitalizm" (1964), "İmperializm dövründə Azərbaycanın sosial-iqtisadi strukturu" (1982) və başqa əsərlərində Şimali Azərbaycanın kənd təsərrüfatı və iqtisadiyyatının dünya sivilizasiyasına müvafiq olaraq qanunauyğun inkişaf etdiyi sübut olunmuşdur.

Alim onlarla monoqrafiyanın, 40-dan artıq elmi-kütləvi məqalənin müəllifidir. Onun redaktəsi ilə 30-a yaxın kitab çapa hazırlanmışdır. 3 cildlik "Azərbaycan tarixi" kitabının əsas müəlliflərindən biri, 7 cildlik "Azərbaycan tarixi" kitabının IV və V cildlərinin məsul redaktoru olmuşdur. Onun 1992-ci ildə çapdan çıxmış "Azərbaycan tarixi" əsəri dəfələrlə nəşr olunmuşdur.

O, eyni zamanda yeddi: "Ağ yapıncı", "Xaqani", "El üçün yan", "İki od arasında", "Sənin ulu baban", "Qara Yusif", "Uzun Həsən" tarixi romanlarının müəllifidir.

M.Ə.İsmayılov Moskvada nəşr olunmuş "SSRİ-də tarix elminin tarixi" (1955), "Qafqaz xalqları" (1962) və b. əsərlərin yazılmasında yaxından iştirak etmişdir. O, bir sıra respublika, ümumittifaq və beynəlxalq elmi konfransların, simpoziumların və sessiyaların iştirakçısıdır. Ankara, Kayseri, Paris, Roma, Moskva və başqa şəhərlərdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak etmişdir.

Tarixçi alimin rəhbərliyi ilə 25-dək namizədlik və doktorluq dissertasiyası müdafiə olunmuşdur.

M.Ə.İsmayılov "1941-1945-ci illərdə Almaniya üzərində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə" medalları və Fəxri fərmanlarla təltif olunmuşdur.

Mahmud İsmayılov 2002-ci il avqust ayının 16-da vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Azərbaycan tarixi /M.İsmayılov; red. E.Məmmədyarova.- Bakı: Azərnəşr, 1992.-260 s.

Qara Yusif: roman /M.İsmayılov; red. N.Bayramova.-Bakı: Yazıçı, 1991.- 286 s.

Şəki: tarixi oçerk /M.İsmayılov; elmi red. S.Əliyarov.-Bakı:Azərnəşr, 1982.- 150 s.

Məmmədova, N. Unudulmaz alim /N.Məmmədova //Respublika.-2011.- 28 yanvar.- S.7.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

65 illiyi

Kamil Allahyarov 1950

Ədəbiyyatşünas



Kamil Hüseyn oğlu Allahyarov (Hüseynoğlu) 1950-ci il sentyabr ayının 22-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdur.

1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (İndiki BDU) şərqşünaslıq fakültəsinin fars filologiyası şöbəsini bitirmiş və Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar institutunun aspiranturasına qəbul olmuş, 1979-cu ildə bitirmişdir.

1979-1990-cı illərdə Əlyazmalar institutunda elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi olmuşdur. 1997-ci ildə uğurla müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini almışdır.

Azərbaycan ədəbiyyatı, mədəniyyəti və etnoqrafiyasına, o cümlədən şifahi xalq poeziyası və klassik yazılı şeirin formalaşması və inkişafına, orta əsrlər əlyazma sənətinə, qədim türk xalqlarının mənşəyinə, türk toponim və etnonimlərinin etimologiyasına dair araşdırmaların müəllifidir. Bu elmi araşdırmalar "Nizami Gəncəvi əsərlərinin əlyazmaları dünya kitab xəzinələrində" (1987, rus dilində), "Azərbaycan şeir mədəniyyəti (yaranma və təkamül dövrü)" (1996), "Qədim Turan: mifdən tarixə doğru" (2006) kitablarda öz əksini tapmışdır.

120-dən çox elmi əsərin, bir neçə monoqrafiya, Azərbaycanda və xarici (Rusiya, İran, Türkiyə) dövri mətbuatda dərc edilmiş onlarla elmi məqalənin müəllifidir.

Hazırda AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyi Folklor nəzəriyyəsi şöbəsinin müdiri vəzifəsində çalışır.

Ədəbiyyat

Azərbaycan şeir mədəniyyəti: Yaranma və təkamül dövrü /K.Hüseynoğlu; red. A.Rüstəmli; AEA, Nizami ad. Ədəbiyyat İnstitutu Folklor Sarayı Elmi-Mədəni Mərkəzi.- Bakı: Ozan, 1996.- 88 s.

Qədim Turan: mifdən tarixə doğru /K.Hüseynoğlu; elmi red. A.Hacıyev; AMEA, Folklor İnstitutu.-Bakı: MBM, 2006.-120 s.

Bayrağımızdakı ay-ulduz rəmzlərinin mənası nədir? /K.Hüseynoğlu //Kredo.- 2011.- 10 dekabr.- S.6.

Dilimizin inkişaf etdirilməsi zamanın tələbidir /K.Hüseynoğlu //Kredo.- 2011.- 17 sentyabr.- S.12.

Füzuli poeziyasında eşq və onun təkamül mərhələləri /K.Hüseynoğlu //Kredo.- 2011.- 10 dekabr.- S.6.

Nizami əsərlərinin ideya-üslubi xüsusiyyətləri /K.Hüseynoğlu //Kredo.- 2012.- 7 yanvar.- S.13.

Novruz Güney Azərbaycanda /K.Hüseynoğlu //Kredo.- 2012.- 10 mart.- S.7.

Allahyarov Kamil Hüseyn oğlu //Naxçıvan ensiklopediyası.-Bakı, 2002.- S.22.

İnternetdə

www.az.wikipedia.org

70 illiyi

Rafiq Məmmədhəsənov
1945

Alim



Rafiq Musa oğlu Məmmədhəsənov 1945-ci il sentyabr ayının 26-da Gədəbəy rayonunda anadan olmuşdur.

Gədəbəydə orta məktəbi bitirərək Bakı şəhərinə gəlmiş və 1963-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olmuş, 1969-cu ildə həmin institutu bitirmişdir.

O, 1969-1971-ci illərdə Naftalan sanatoriyasında həkimlik fəaliyyətinə başlamış, sonra 1971-1973-cü illərdə Bakı şəhərinə qayıdaraq Mərdəkan mədə-bağırsaq sanatoriyasında çalışmışdır.

1974-1976-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun II müalicə-profilaktika fakültəsinin daxili xəstəliklər kafedrasının aspirantı olmuş, 1977-1986-cı illərdə həmin kafedrada assistent vəzifəsində işləmişdir. O, tədqiqat prosesi zamanı böyük uğurlar əldə edərək namizədlik dissertasiyasını vaxtından qabaq başa çatdırmışdır. Respublikada İxtisaslaşmış müdafiə elmi şurası olmadığına görə 1979-cu ildə Tbilisi Dövlət Tibb İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1986-1990-cı illərdə Moskvada Ümumittifaq Endokrinologiya və Hormonlar Kimyası İnstitutunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsinə yiyələnmişdir.

1990-cı ildən Tibb Universitetinin Daxili xəstəliklər kafedrasının müdiri vəzifəsində çalışmış və həmin ildən eyni zamanda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş endokrinoloqu olmuşdur. Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Tibb Universitetinin təlim-tərbiyə işləri üzrə prorektorudur.

2005-ci ildən Azərbaycan Tibb Jurnalının baş redaktorudur. 2006-2009-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Tibb üzrə ekspert şurasının sədri işləmişdir. 250-dən artıq elmi əsərin müəllifidir. Tibb Universitetinin tələbələri üçün "Daxili xəstəliklər" və "Endokrinologiya" fənnlərindən dərsliklər yazmışdır. Əsərlərin bir çoxu xarici olkələrdə çap olunmuşdur. Azərbaycan Respublikasının baş endokrinoloqu kimi Rusiya, Almaniya, Türkiyə, Meksika, Belçika, İsrail, İran və başqa ölkələrdə keçirilən konqreslərdə Azərbaycanın endokrinologiya elmini təmsil etmişdir.

2000-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamla Azərbaycan Tibb Universitetinin 70 illiyi münasibətilə elm, təhsil və səhiyyə sahəsində nailiyyətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 2010-cu ildə isə Azərbaycanda tibb təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif edilmişdir. 1992-ci ildən YAP siyasi şurasının üzvüdür.

Azərbaycan Respublikasının Milli Məclisinə deputatıdır.

Ədəbiyyat

Endokrinologiya: Tibb Universitetinin tələbələri üçün dərslik /R.Məmmədhəsənov; Azərb. Resp. Səhiyyə Nazirliyi, Azərb. Tibb Un-ti.- Bakı: Qismət, 2008.-238 s.

Şəkərli diabetin fəsadları: monoqrafiya /R.Məmmədhəsənov, T.Mehdiyev.- Bakı: Azərbaycan Tibb Universiteti, 2003.- 129 s.

Əsl soyqırımı ermənilərin azərbaycanlılara, xüsusən də körpələrə qarşı törətdikləri qanlı terrorlardır /R.Məmmədhəsənov //Azərbaycan.-2012.- 28 yanvar.- S.4.

Mütləq çoxluğun siyasi iradəsinə əsaslanan seçim /R.Məmmədhəsənov //Azərbaycan.- 2013.- 7 noyabr.- S.5.

Tariximizin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır: Heydər Əliyev - 90 /R.Məmmədhəsənov //Respublika.- 2013.- 14 may.- S.7.

www.anl.az

www.az.wikipedia.org

Milli Musiqi Günü 1995



Sentyabr ayının 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

XX əsrin 70-80-ci illərində maestro Niyazinin təşəbbüsü ilə həmişə bu günü dahi bəstəkarın anadan olduğu gün kimi respublikamızda xüsusi təntənə ilə qeyd edilirdi. Ötən əsrin 90-cı illərində hər şeyin bir-birinə dəydiyi vaxtda bu ənənə də unuduldu. Dahi sənətkarın özfəaliyyət səviyyəsində xatırlanması, həqiqətən, narahatlıq doğururdu.

Unudulmaz Niyazinin təşəbbüsü 1995-ci ildə ulu öndər Heydər Əliyevin dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması haqqında fərmanı ilə rəsmi status aldı. Bu nəcib qərar bütün insanların, musiqisevərlərin ürəyincə oldu.

Ü.Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi də məşhurdur. Məhz onun fədakar əməyi sayəsində Azərbaycan milli opera sənətinin tarixi Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası ilə başlandı.

Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır.

Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü.Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Bu gün Azərbaycan musiqisi əsl çiçəklənmə dövrünü yaşayır. Ölkəmizdə davamlı olaraq keçirilən beynəlxalq musiqi festivalları, müxtəlif müsabiqələr bütövlükdə, Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqisinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Üzeyir Hacıbəylinin taleyində ən möhtəşəm səhifə bir də odur ki, bəstəkar Azərbaycan Dövlət himninin müəllifidir. Bu gün Azərbaycan bayrağı məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, səhərlərimiz, həmçinin, bütün tədbirlərimiz bu himnin sədaları ilə başlayır.

Ü.Hacıbəylinin kimliyi barəsində düşünərkən ilk növbədə, bu dahi insanın öz sözləri yada düşür: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər".

Ədəbiyyat

Abdullayeva, F. Üzeyir musiqisinin cazibəsi: Dahi bəstəkarın doğum günündə milli musiqi bayramı /F.Abdullayeva //Mədəniyyət.- 2014.- 19 sentyabr.- S.3.

Azərbaycan musiqisi dünyanı fəth edir: 18 Sentyabr Milli Musiqi Günüdür M.Mükərrəmoğlu //Xalq qəzeti 2013.- 18 sentyabr.- S. 6.

Xəlilzadə, F. Əbədi şöhrətin işığı /F.Xəlilzadə //Mədəni həyat.- 2012.- №9.- S.5-8.

Qocayev, Ə. 18 sentyabr - Milli Musiqi Günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.23.

Zərbəliyev, C. Üzeyir musiqisinin işığında: 18 sentyabr - Milli Musiqi Günü təntənəli şəkildə qeyd olundu /C.Zərbəliyev //Mədəniyyət 2013.- 20 sentyabr.- S. 3.

İnternetdə

www.anl.az

Tarixdə bu gün

Qurban Bayramı



Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (S.S.)İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdi. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdı. Lakin uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdi. Buna görə də bu bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da demişlər.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Qurban bayramında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Kəsiləcək qurbanlıq gözəgəlimli olmalıdır. Qurbanın bir hissəsindən din xadimlərinə pay göndərilir, bir hissəsi isə kasıblara paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə dilənçi və kasıblar bayram günü ac qalmasınlar deyə bu gün həmin mərasimlərə dəvət olunurlar.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar - Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə - dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

Çox sevdiyi övladını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Allah kəsilən bütün qurbanlarımızı qəbul etsin!

OKTYABR

1 oktyabr

Gün çıxır 07:36
Gün batır 19:24

31 oktyabr

Gün çıxır 07:08
Gün batır 17:40

C.A.	1
C.	2
Ş.	3
B.	4
B.E.	5
Ç.A.	**6**
Ç.	7
C.A.	8
C.	9
Ş.	10
B.	11
B.E.	12
Ç.A.	**13**
Ç.	14
C.A.	15
C.	16
Ş.	17
B.	18
B.E.	19
Ç.A.	**20**
Ç.	21
C.A.	22
C.	23
Ş.	24
B.	25
B.E.	26
Ç.A.	**27**
Ç.	**28**
C.A.	**29**
C.	30
Ş.	31



24 sentyabr-
23 oktyabr

Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə doğulanlar yumşaq xasiyyətli, parlaq zəkalı olurlar.

- Beynəlxalq Musiqi Günü (01.10.1975)
- ***Xocavənd rayonunun işğalı günü (02.10.1992)***
- *Beynəlxalq Müəllimlər Günü (05.10.1966)*
- *Dövlət Müstəqilliyi Günü (18.10.1994)*
- ***Zəngilan rayonunun işğalı günü (29.10.1993)***

130 il Üzeyir Hacıbəyli 1885-1948





Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılıq irsi nəinki Azərbaycan xalqının milli sərvətidir, həm də dünya mədəniyyətinin incisidir. Bu dahi insanın musiqisi dünya mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Bəstəkarın yaratdığı musiqi, ədəbi və elmi irs ölməz və əbədidir. Dünyanın müxtəlif ölkələrində bəstəkarın abidələri ucaldılmışdır.

2006-cı ildə Avstriyanın Vyana şəhərindəki Dunay parkında dahi bəstəkarın abidəsi ucaldılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 2013-cü il mayın 12-14-də də Avstriya səfəri zamanı abidənin önünə gül dəstəsi qoymuşlar.

Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə 2011-ci il iyun ayının 9-da, Serbiya Prezidenti Boris Tadiçin iştirakı ilə Novi Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstünün açılışı olmuşdur.

OKTYABR

2015



Milli Ədəbiyyat

Şair, nasir, tərcüməçi Məmmədzadə Səyavuş İmran oğlunun (02.10.1935) anadan olmasının 80 illiyi

Əməkdar incəsənət xadimi, şair Abbasov Həmid Məmmədəli oğlunun (Həmid Abbas) (10.10.1935-19.11.1999) anadan olmasının 80 illiyi

Şair Aslanov Şəkər Mirzə oğlunun (Şəkər Aslan) (10.10.1935-12.07.1995) anadan olmasının 80 illiyi 264

Şair İsgəndərov Əliağa Məmmədqulu oğlunun (Əliağa Vahid) (15.10.1895-30.09.1965) anadan olmasının 120 illiyi 265

Yazıçı Axundov Süleyman Sani Rzaqulu bəy oğlunun (Süleyman Sani Axundov) (21.10.1875-29.03.1939) anadan olmasının 140 illiyi 266

Əməkdar jurnalist, tərcüməçi, publisist Muradxanova Mailə Balabəy qızının (22.10.1940-12.06.2010) anadan olmasının 75 illiyi 267

Nasir Ağayev Məmməd Salman oğlunun (Məmməd Aranlı) (22.10.1920-08.10.1950) anadan olmasının 95 illiyi

Yazıçı, kinodramaturq, tarix elmləri namizədi, şərqşünas alim Hüseynov Əbdül Ənbiyə oğlunun (25.10.1925) anadan olmasının 90 illiyi 268

Ədəbiyyatşünas, publisist, nasir, mətnşünas Qafar Kəndli Hərisçi Əli oğlunun (26.10.1925- 24.05.1997) anadan olmasının 90 illiyi



Dünya ədəbiyyatı

Rus şairi Yesenin Sergey Aleksandroviçin (03.10.1895-28.12.1925) anadan olmasının 120 illiyi 269

Rus yazıçısı Bunin İvan Alekseyeviçin (22.10.1870-08.11.1953) anadan olmasının 145 illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, xanəndə İbrahimov Mənsum İsrafil oğlunun (01.10.1960) anadan olmasının 55 illiyi

Xalq artisti, bəstəkar Mirzəzadə Xəyyam Hadı oğlunun (05.10.1935) anadan olmasının 80 illiyi 270

Əməkdar incəsənət xadimi, bəstəkar, pedaqoq və musiqişünas Əliyev Rəşid Camal oğlunun (Rəşid Şəfəq) (13.10.1940) anadan olmasının 75 illiyi

Xalq artisti, tarzən Abdullayev Ağasəlim Sahib oğlunun (15.10.1950) anadan olmasının 65 illiyi 271

Avstriya bəstəkarı Ştraus İohanın (25.10.1825-03.06.1899) anadan olmasının

190 illiyi

Xalq artisti, tarzən Pirimov Qurban Baxşəli oğlunun (30.10.1880-29.08.1965) anadan olmasının 135 illiyi 272

Bəstəkar və musiqişünas Şəfiyeva Nərgiz Mahmud qızının (31.10.1940) anadan olmasının 75 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Zülfüqarov Cahangir Oqtay oğlunun (31.10.1955) anadan olmasının 60 illiyi



Teatr.Kino

Əməkdar incəsənət xadimi, kino rejissoru Seyidzadə Hüseyn Əli oğlunun (15.10.1910-02.06.1979) anadan olmasının 105 illiyi 273

Xalq artisti, rejissor Məmmədov Cavanşir Musa oğlunun (17.10.1915-1997) anadan olmasının 100 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

İlk azərbaycanlı qadın teatr rəssamlarından biri Seyidova İzzət Əli qızının (20.10.1910-30.11.1973) anadan olmasının 105 illiyi

Xalq rəssamı, qrafik Şaxtaxtinskaya Elmira Həbibulla qızının (25.10.1930-15.10.1996) anadan olmasının 85 illiyi 274



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əliyev İmamverdi Barat oğlunun (01.10.1950 -15.11.1991) anadan olmasının 65 illiyi 275

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Elşad Eynulla oğlunun (08.10.1960 -15.06.1992) anadan olmasının 55 illiyi 276



Siyasət.Hərbi iş

Kəşfiyyatçı, jurnalist Zorge Rixardın (04.10.1895-07.11.1944) anadan olmasının 120 illiyi

Rusiya İmperator ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri, sovet hərb xadimi Mehmandarov Səməd bəy Sadıx bəy oğlunun (16.10.1855-12.02.1931) anadan olmasının 160 illiyi 277

Siyasi və dövlət xadimi, diplomat, alim, tarix elmləri doktoru Həsənov Həsən Əziz oğlunun (20.10.1940) anadan olmasının 75 illiyi 278

İqtisad elmləri doktoru, professor Mehbalıyev Səttar Suliddin oğlunun (28.10.1955) anadan olmasının 60 illiyi 279



Fəlsəfə.İqtisadiyyat.Din

Neftçi, geoloq Hacıyev Hümmət Ələkbər oğlunun (10.10.1935) anadan olmasının 80 illiyi

Din xadimi Həsənli Hacı Sabir Hüseyn oğlunun (12.10.1945) anadan olmasının 70 illiyi



Tarix

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Aslanov Səlvər Rza oğlunun (11.10.1930-03.08.2000) anadan olmasının 85 illiyi
Akademik, ictimai xadim Hüseynov İsmayıl Abbas oğlunun (15.10.1910-08.11.1969) anadan olmasının 105 illiyi 280



Mədəniyyət.Maarif.Elm

Görkəmli ictimai və maarif xadimi, nasir, mühərrir Cəfərzadə Əlisgəndər Hacıbaba oğlunun (14.10.1875-1941) anadan olmasının 140 illiyi
Filologiya elmləri doktoru, professor Vəlixanova Fəridə Ağaəli qızının (21.10.1935) anadan olmasının 80 illiyi 281



Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Nəsirov Vaqif İbad oğlunun (04.10.1945) anadan olmasının 70 illiyi 282
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Məmmədov Yəhya Cəfər oğlunun (10.10.1930-26.01.2000) anadan olmasının 85 illiyi 283



Kimya.Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, pofessor Ağayev Telman Məmmədəli oğlunun (10.10.1935) anadan olmasının 80 illiyi 284
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Məmmədov Şamxal Əliməmməd oğlunun (15.10.1910-30.10.1984) anadan olmasının 105 illiyi
Akademik Şaxtaxtinski Toğrul Nemət oğlunun (22.10.1925-08.10.2010) anadan olmasının 90 illiyi
Biologiya elmləri doktoru, SSRİ EA-nın fəxri üzvü, ÜİKTEA fəxri üzvü Miçurin İvan Vladimiroviçin (27.10.1855-07.06. 1935) anadan olmasının 160 illiyi



Texnika

Texnika elmləri doktoru, professor Məmmədov Havar Əmir oğlunun (09.10.1945) anadan olmasının 70 illiyi
Akademik Əliyev Ağadadaş Mahmud oğlunun (16.06.1940) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Süleymanov Nizami Məmməd oğlunun (25.10.1945) anadan olmasının 70 illiyi
Texnika elmləri doktoru, professor, Beynəlxalq Mühəndis Akademiyasının

akademiki Eyyubov Yaqub Abdulla oğlunun (24.10.1945) anadan olmasının 70 illiyi



Kitabxanaşünaslıq.Biblioqrafiya

M.Ə.Sabir adına şəhər kitabxana-klubun (05.10.1985) yaranmasının 30 illiyi




Tarixdə bu gün

Prokurorluq İşçiləri Günü (01.10.1998)
Beynəlxalq Ahıllar Günü (01.10.1992) 285
Beynəlxalq Musiqi Günü (01.10.1975) 286
Xocavənd rayonunun işğalı günü (02.10.1992) 287
Beynəlxalq Müəllim Günü (05.10.1966)
Ümumdünya Poçt Günü (09.10.1970)
Bakı-Sabunçu-Suraxanı xəttinin istifadəyə verilməsi ilə Azərbaycanda dəmiryol nəqliyyatının əsası qoyulmuşdur (13.10.1880)
Azərbaycanda ilk dəfə Bakıda konka fəhlə və qulluqçularının Həmkarlar İttifaqı yaradılmasının (17.10.1905) 110 illiyi
Ümumdünya yoxsulluqla mübarizə Günü (17.10.1992)
Dövlət Müstəqilliyi Günü (18.10.1994) 288
Beynəlxalq Kulinariya Günü (20.10.2007)
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1945) 289
Bakı metrosunun “N.Nərimanov”və “Ulduz”stansiyaları arasında sərnişin qatarında dəhşətli yanğın olmuşdur (28.10.1995)
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə Günü (30.10.1974)
Zəngilan rayonunun işğalı günü (29.10. 1993) 290

80 illiyi

Şəkər Aslan
1935-1995

Şair



Şəkər Mirzə oğlu Aslanov (Şəkər Aslan) 1935-ci il oktyabr ayının 10-da Lənkəran rayonunun Boladi kəndində anadan olmuşdur. 1969-cu ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun poeziya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə Lənkəran mədəniyyət evində başlamışdır. 1964-1968-ci illərdə "Leninçi" rayon qəzetində ədəbi işçi, 1968-1970-ci illərdə Azərbaycan KP Lənkəran komitəsində təlimatçı, 1970-1992-ci illərdə "Leninçi" (sonralar "Lənkəran") qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. 1992-ci ildə "Söz" ədəbi-bədii jurnalını təsis etmişdir. 1968-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1994-1995-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin Lənkəran şöbəsinin sədri və "Şəfəq" jurnalının baş redaktoru olmuşdur.

Ədəbi fəaliyyətə "Sosialist subtropikası" Lənkəran rayon qəzetinin 23 iyul 1953-cü il tarixli sayında çıxan "Koreyalı bacıma" adlı şeiri ilə başlamışdır. Şeirləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Çoxsaylı publisistik məqalələrin, Lənkəran çayının tarixinə, xüsusiyyətlərinə həsr olunmuş "Samovara od salmışam" bədii-publisistik kitabın müəllifidir. "Sən kimsən, Ata?" (1982), "Birtərəfli hərəkət" (1987) pyesləri Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

Şəkər Aslanın poeziyamıza gətirdiyi yeniliklərdən biri də sonet janrına müraciət etməsidir. Onun XX əsrin 70-80-ci illərində yazdığı sonetlər mövzu konkretliyi, fikrin yığcam, mənalı detallarla təqdim edilməsi ilə maraq doğurmuşdu. Şairin bu janrdakı şeirləri içərisində 1987-ci ildə yazdığı "Lənkəran sonetləri" adı altında toplanmış nümunələr xüsusi qeyd olunmalıdır. Silsilə italyan soneti formasında yazılmış 13 sonetdən ibarətdir. Həmin sonetləri oxuduqca Lənkəranın əsrarəngiz təbiəti, könül oxşayan gözəllikləri, füsunkar mənzərələri göz önündə canlanır.

"Bahar yağışı"(1964), "Ürəyimi açıram" (1967), "Sənə nəğmə deyirəm" (1969), "Məhəbbət fəsli" (1973), "Живу у моря" (1976), "Sevgi günü" (1977), "Səni sevdiyim gündən" (1980), "Bu günlərdən iz qalacaq" (1982), "Döy mənim qapımı" (1986), "Цветы из Ленкорани" (1986, rus dilində), "Dünyanın sevincləri"(1987), "Samovara od salmışam" (1989), Evə məktub (1991), "Payıma düşən ömür" (2012) və s. kitabları çap olunmuşdur.

Şeirlərinə görkəmli bəstəkarlarımız T.Quliyev, T.Əhmədov, R.Mustafayev, R.Hacıyev, N.Məmmədov, V.Adıgözəlov, R.Mirişli, Ə.Əzimov, H.Adıgözəlzadə, O.Kazımov, E.Sabitoğlu və b. tərəfindən musiqi bəstələnmişdir.

1978-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl Qələm" mükafatı laureatı olmuşdur. 1981-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına və "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

Şəkər Mirzə oğlu Aslanov 1995-ci il iyun ayının 12-də vəfat etmişdir. Lənkəran rayonunda adını daşıyan küçə var.

Ədəbiyyat

Evə məktub: şeirlər və poemalar /Şəkər Aslan.- Bakı: Yazıçı, 1991.- 205 s.

Payıma düşən ömür /Şəkər Aslan; tərt. ed., ön söz müəl. S.Əlibəyli; red. U.Rəhimoğlu; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Avrasiya Press, 2012.- 230 s.

Füzuli ömrüdür əsr də, an da...: şeirlər /Şəkər Aslan //Ədəbiyyat qəzeti.- 2013.- 11 yanvar.- S.3.

İnternetdə

www.anl.az

elibrary.azlib.net

www.science.gov.az

120 illiyi

Əliağa Vahid 1895-1965

Qəzəlxan



Əliağa Məmmədqulu oğlu İsgəndərov (Əliağa Vahid) 1895-ci il oktyabr ayının 15-də Bakıda doğulmuşdur. İbtidai təhsilini mədrəsədə almış, mollaxanada iki il oxuduqdan sonra, yoxsulluq üzündən təhsilini yarımçıq qoyub işləməyə başlamışdır. Atası çox erkən vəfat etdiyi üçün əmisinin himayəsində böyümüşdür.

Ədəbi fəaliyyətə 1914-1915-ci illərdən başlamışdır. Məktəbdə təhsil almaq imkanı olmasa da, öz üzərində müstəqil çalışmışdır. Erkən yaşlarından dahi qəzəl ustadı M.Füzulinin bir çox qəzəllərini əzbər bilmiş, M.Ə.Sabirin satiralarını, Seyid Əzimin mənzum hekayələrini, qəzəllərini dönə-dönə oxumuşdur. Qəzet və jurnalları müntəzəm mütaliə etmiş, bədii yaradıcılıqla dərindən maraqlanmış, dövrün problemlərinə, tələblərinə diqqət yetirmişdir. Bir müddətdən sonra mətbuatda Sabiranə şeirlər çap etdirməyə başlamışdır.

1915-1916-cı illərdən "Məzəli", "Babayi-Əmir", "Tuti", "Molla Nəsrəddin" kimi jurnallarla əməkdaşlıq etmiş və həmin jurnallarda çoxlu satirik şeirlər dərc etdirmişdir. Bu şeirlərin həm ideya-məzmununda, həm poetikasında ustadı M.Ə.Sabirin təsiri aydın duyulsa da, getdikcə ahəngdə, məcazlı deyimlərdə və bədii ifadə vasitələrində gənc şairin dəsti-xətti özünü hiss etdirmişdi.

Ə.Vahidin 1916-cı ildə ayrıca nəşr olunmuş "Tamahın nəticəsi" adlı ilk kitabçasında uşaqlar üçün nəzmə çəkdiyi üç mənzum hekayəsi verilmişdir. Bu kitabça istedadlı gəncin necə bir ciddiyyət və qətiyyətlə yaradıcılıq aləminə gəldiyini sübut etmişdir.

1919-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti ordusunda xidmət etmiş, yazdığı şeirlərini "Əsgər", "Əsgər Əliağa Vahid", "Əxz əsgər şöbəsi əsgərlərindən Əliağa Vahid" imzaları ilə nəşr etdirmişdir.

Ədəbiyyata "Olmadım bir ləhzə, ya rəbb, mən cahan mülkündə şad" misrası ilə başlanan müxəmməslə gələn şair I Dünya müharibəsinin, 1918-1920-ci illərdə xalqımızın başına gələn faciələrin, 1937-ci ilin repressiyasının, II Dünya müharibəsinin törətdiyi fəlakətlərin şahidi olmuş, əzablarını çəkmişdir. O, 1935-ci ildə "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan Dövlət Nəşriyyatında korrektor olmuşdur.

Bakı ədəbi mühitinin tanınmış qəzəl şairi M.Ə.Yusifi Əliağaya "Vahid" təxəl-lüsünü götürməyi məsləhət görmüşdür. O, klassik qəzəl məktəbinin istedadlı yetirməsi kimi, öz dəsti-xətti ilə seçilməyə başlamışdı. XX əsrin 30-cu illərində və sonralar, onun qəzəlləri ədəbi tənqiddəki yanlış meyllər nəticəsində dövri mətbuata buraxılmasa da, xalq arasında böyük sürətlə yayılmış, tanınmış müğənnilərin oxuduqları muğamat və mahnı mətnləri kimi ürəklərə yol tapmış, sevilmiş, dillər əzbəri olmuşdur. Klassik Azərbaycan ədəbiyyatında - Nizami, Xaqani, Fələki və Nəvai poeziyasından tərcümələr etmişdir.

II Dünya müharibəsində "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir. 1959-cu ilin oktyabr ayından respublika əhəmiyyətli fəxri təqaüd almışdır.

Əliağa Vahid 1965-ci il sentyabr ayının 30-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Paytaxtımızda heykəli ucaldılmış, 1991-ci ildə haqqında "Qəzəlxan" adlı tammetrajlı bədii film çəkilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Vahid; tərt. ed. Q.Məmmədli, R.Quliyev, A.Paşayev; ön sözün müəl. S.Quliyeva.- Bakı: Lider, 2005.- 472 s.

Qəzəllər /Ə.Vahid; tərt. ed. və ön söz. müəl. B.Nəbiyev; red. V.Məmmədəliyev.- Bakı: Çaşıoğlu, 2004.- 368 s.

Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov): biblioqrafiya /tərt.- müəl. İ.İsrafilov; red. M.Mehdiyeva; AEA N.Gəncəvi ad. Azərbaycan Ədəbiyyatı Muzeyi.- Bakı: Azərbaycan Ensiklopediyası, 1997.- 60 s.

Əliağa Vahid haqqında bildiklərimiz /tərt. M.Nuruoğlu; elmi red. M.Aslanov.- Bakı: Şərq-Qərb, 1995.- 240 s.

Zeynalova, A. Əlağa Vahidin poetik irsi /A.Zeynalova; elmi red. M.Qasımlı; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dillər Un-ti.- Bakı: Elm və təhsil, 2011.- 268 s.


www.anl.az

elibrary.azlib.net

www.az.wikipedia.org

140 illiyi Süleyman Sani Axundov 1875-1939

Yazıçı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri /S.S.Axundov; tərt. ed. və ön sözün müəl. N.Vəlixanov; red. Ş.Vəliyev.- Bakı: Şərq-Qərb, 2005.- 448 s.

Qorxulu nağıllar /S.S.Axundov; red. R.İsmayılov; rəssam Z.Cabbarov.- Bakı: Altun kitab, 2005.-112 s.

Ümid çırağı: hekayə /S.S.Axundov //Yeni Azərbaycan.- 2010.- 17 aprel.- S.11.

Vəlixanov, N. Süleyman Sani Axundovun elmi bioqrafiyası /N.Vəlixanov; elmi red. Ə.Məmmədov; AzEA. Nizami ad Ədəbiyyat İntu.- Bakı: Elm, 1996.-228 s.

Mustafayeva, G. Süleyman Sani Axundovun pedaqoji-ictimai fəaliyyəti /G.Mustafayeva //Ədalət.- 2011.- 20 may.- S.4.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.ebooks.preslib.az

Süleyman Rzaqulu bəy oğlu Axundov 1875-ci il oktyabr ayının 21-də Şuşa şəhərində bəy ailəsində doğulmuşdur. Hələ körpə ikən Süleymanın təlim-tərbiyəsi ilə bilavasitə dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyov məşğul olmuşdur. 1885-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olmuş, burada milli, klassik rus və dünya ədəbiyyatı ilə dərindən tanışlıq onun dünyagörüşünə faydalı təsir göstərmişdir.

1894-cü ildə seminariyanı bitirərək Bakıdakı III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir.

1906-cı ildə Bakıda çağırılan müəllimlərin I qurultayında fəal iştirak edən Süleyman Sani ərəb əlifbasını islah etmək üçün faydalı təşəbbüs göstərmiş, həmin qurultayda ana dilində proqram tərtib etmək üçün ayrılan komissiyaya seçilmiş, 1908-ci ildə A.Şaiq, M.Mahmudbəyov və başqa qabaqcıl maarif xadimləri ilə birlikdə Azərbaycan pedaqoji fikri tarixində mütərəqqi bir hadisə olan məşhur "İkinci il" dərsliyini tərtib etmişdir.

1918-ci ildə Bakıda Sovet hakimiyyəti qurulanda o, Azərbaycanda ilk maarif komissarı kimi maarif sahəsində böyük həvəslə çalışmışdır.

1920-ci ildə Qarabağ İnqilab Komitəsinin qərarı ilə avqustun 9-da Qarabağ vilayət maarif şöbəsinə müdir təyin edilmişdir. Qarabağ və Zəngəzurda məktəb, uşaq evi, klub, qiraətxana və başqa mədəni-maarif ocaqlarının açılmasında fəal iştirak etmişdir.

1922-ci ildə S.Sani M.Mahmudbəyov, S.Əbdürrəhmanzadə, F.Ağa-zadə, A.Şaiq, Ə.Əfəndizadə ilə birlikdə "Yeni türk əlifbası" dərsliyini yazmışdır. Həmin ildə o, "Azərbaycan ədib və şairlər ittifaqı"nın sədrliyinə seçilmişdir.

Onun yaradıcılığı zəngin və çoxcəhətlidir. O, dramaturgiyamıza M.F.Axundovun "Hacı Qara" əsərinin təsiri ilə yazdığı "Tamahkar" komediyası ilə gəlmişdir. 1906-cı ildə o, "Dibdat bəy" və "Türk birliyi" komediyalarını yazmışdır.

XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında da onun böyük xidməti vardır. Ədib, "Qorxulu nağıllar" (1912-1914) ilə Azərbaycan uşaq ədəbiyyatında forma, məzmun, üslub yenilikləri gətirmisdir.

Onun bədii yaradıcılığının yeni yüksəliş mərhələsi 1920-ci illərdən başlamışdır. "Laçın yuvası" (1921) dramı, bir sıra pyeslər "Cərxi fələk" (1921), "Qaranlıqdan işığa" (1921), "Eşq və intiqam" (1922) və komediya janrının ilk nümunələri də "Molla Nəsrəddin Bakıda" (1921), "Şahsənəm və Gülpəri" (1921), "Bir eşqin nəticəsi" (1922), "Yeni həyat" (1923) onun qələmindən çıxmışdır.

Süleyman Sani həm də orijinal nasirdir. Onun 1923-1935-ci illərdə yazmış olduğu "Qan bulağı", "Ümid çırağı", "Cəhalət qurbanı", Nə üçün?", "Təbrik", "Sona xala", "Namus", "Mister Qreyin köpəyi" və s. hekayələri Azərbaycan nəsrinin ilk nümunələrindəndir.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 1932-ci ildə Süleyman Sani Axundovun pedaqoji-ədəbi, həmçinin ictimai-mədəni fəaliyyətini nəzərə alaraq ona "Əmək qəhrəmanı" fəxri adı vermişdir.

Süleyman Sani Axundov 1939-cu il mart ayının 29-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

75 illiyi

Mailə Muradxanlı 1940-2010

Publisist



Mailə Balabəy qızı Muradxanlı 1940-cı il oktyabr ayının 22-də Salyan şəhərində müəllim ailəsində anadan olmuşdur. 1946-cı ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, burada 1947-1957-ci illərdə Maştağa qəsəbəsindəki 187 saylı orta məktəbdə təhsil almışdır. Orta təhsilini tamamladıqdan sonra 1957-1962-ci illərdə ADU-nun filologiya fakültəsinin jurnalistika bölməsində təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində radionun uşaq verilişləri şöbəsinin kiçik redaktoru kimi başlamış, 1962-1967-ci illərdə redaktor, 1967-1972-ci illərdə ədəbi dram verilişləri baş redaksiyasında, incəsənət, bədii ədəbiyyat şöbələrində müdir, 1972-1994-cü illərdə ədəbi-dram verilişləri baş redaksiyasında baş redaktor vəzifəsində işləmiş, 1994-2010-cu illərdə televiziyanın ədəbi dram verilişləri baş redaksiyasında baş redaktor olmuşdur. 1965-ci ildən Jurnalistlər Birliyinin üzvü, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Ədəbi aləmə 1962-ci ildə tərcümələri və dövri mətbuatda çıxan oçerkləri ilə daxil olmuşdur. "Azərbaycan", "Azərbaycan qadını" jurnallarında, "Kommunist", "Ədəbiyyat və incəsənət" qəzetlərində müntəzəm çıxış etmişdir. Onun "Qınamayın məni" pyesi 1990-cı ildə Sumqayıtda tamaşaya qoyulmuşdur. Tərcümə etdiyi Ə.Əbubəkrin "Dulusçunun hekayəti", O.Kamalın "Yad qızı", A.Koşutanın "Vətənə dönmək istəyirəm", B.Şounun "Sezar və Kleopatra", Evripidin "İfigeniyalı Avlitdə", Brextin "Kurja ana və ya sərbəst qadın" pyesləri respublikanın dram teatrlarında göstərilmişdir. Ruscadan Azərbaycan dilinə tərcümə olunmuş yüzdən artıq filmin sinxron mətninin müəllifidir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə bir neçə pyesi Azərbaycan dilinə çevirmişdir. Azərbaycan radiosunda "Sənətkarlar öz qəhrəmanları arasında" silsilə verilişlərin və həftəlik əyləncəli "Sabahınız xeyir" proqramının ssenari müəllifi olmuşdur. Azərbaycan Jurnalistlər Birliyi İdarə Heyətinin üzvü seçilmişdir. 1990-2010-cu illərdə Azərbaycan Jurnalistlər Birliyinin katibi vəzifəsində çalışmışdır. Jurnalistlər heyətinin tərkibində 1972-ci ildə Suriya, Livan, 1975-ci ildə Yunanıstan, 1980-ci ildə Türkiyədə, Azərbaycan Qadınlar Cəmiyyəti nümayəndələri tərkibində isə Türkiyədə (1992), İranda (1992) olmuşdur. 1990-cı ildə İstanbulda keçirilən I Azərbaycan konqresində iştirak etmişdir. "Bakıfilm" kinostudiyasının baş redaktoru idi.

1967-ci ildə Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı laureatı olmuş, 1970-ci ildə "V.İ.Leninin anadan olmasının yüz illiyi" medalı, 1984-cü ildə Monqolustan Böyük Xalq Xuralının "Dostluq" medalı ilə təltif edilmiş, 1989-cu ildə "Azərbaycanın Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdür.

Mailə Muradxanlı 2010-cu il iyun ayının 12-də vəfat etmişdir.

Ədəbiyyat

Əhmədli, Z. Əcəli də təbəssümlə qarşıladı: Vida /Z.Əhmədli //Ədəbiyyat qəzeti.- 2010.- 18 iyun.- S.3.

Mirməmməd, G. O, fantaziyası tükənməyən sənətkar idi... /G.Mirməmməd //Mədəniyyət.- 2010.- 18 iyun. - S.6.

İnternetdə

www.adam.az

www.anl.az

www.anspress.com

www.az.wikipedia.org

www.hafta-ichi.az

90 illiyi

Əbdül Hüseynov 1925

Yazıçı



Ə d ə b i y y a t

Mustafa xanın xəzinəsi: tarixi povest /Ə.Hüseynov; rəy. və ön söz. müəl. M.İsmayılov; red. Ş.Novruzov.- Bakı: [Vətən], 1994.-168 s.

Мечты мудреца /А.Гусейнов; [отв. ред. Е.Потапенков; науч. ред. Н.Мамедов].- Москва: Оверлей, 2007.- 262 с.

Унесенные чумой повесть о скорби и любви /А.Гусейнов; пер. с русс. на англ. яз. С.Ибрагимова.-Москва: ИД Содружества, 2012.- 60 с.

Əliş, Ə. Əbdül Hüseynovun yeni kitabı /Ə.Əliş //Təzadlar.- 2011.- 12-14 aprel.- S.15.

Nəbioğlu, N. Yazıçı Əbdülün üsyankar Xaqanisi /N.Nəbioğlu // Ədəbiyyat qəzeti.- 2010.- 29 oktyabr.- S.4.

"Üsyankar Xaqani" //Ədəbiyyat qəzeti.- 2011.- 15 iyul.- S.1.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

Əbdül Ənbiyə oğlu Hüseynov 1925-ci il oktyabr ayının 25-də Bakının Əmircan kəndində anadan olmuşdur. Hələ orta məktəbi bitirməmiş, könüllü olaraq müharibəyə getmiş, müharibədən qayıtdıqdan sonra bir müddət Ukraynada, Türkmənistanda işləmiş, Krasnovodsk şəhərində rus dilində nəşr olunan "Krasnovodsk fəhləsi" qəzetinin baş redaktor müavini vəzifəsində çalışmışdır. 1956-cı ildə Aşqabad Dövlət Universitetinin hüquq-tarix fakültəsini bitirmişdir.

1958-ci ilə qədər Türkmənistan Respublikası Mədəniyyət nazirinin müavini olmuş, 1960-cı ildə Moskvaya köçmüş və 1971-ci ildən diplomatik sahədə fəaliyyət göstərmişdir.

Ə.Hüseynov tarixçi alim kimi uzun illər Türkiyədə, İranda, Monqolustanda işləmişdir. Yazıçının qələmindən bir-birinin ardınca "Mustafa xanın xəzinəsi", "Arzamaslı qadın", "İslam dünyasının cəngavəri", "Taxta çıxan əkinçi", "Qan qardaşları", "Cənuba yürüş", "Bəhrəmgurun məhəbbəti və kədəri", "Müdrik adamın arzuları", "Məhəbbət haqqında üç dastan", "Üsyankar Xaqani", "Xocalı fəryadı", "Müharibənin sədası" kimi tarixi romanlar, ümumilikdə isə otuzdan çox roman, povest və digər əsərlər çıxmışdır.

Onun ədəbi qəhrəmanları müxtəlifdir. Əbdül Hüseynovun başqalarından seçilən nikbin və təbii bir üslubu, özünəməxsus yazı manerası var. Yazıçının əsas məqsədi tarixi romanlarında həqiqətin gözünə dik baxmaq, heç nəyi saxtalaşdırmamaq, həyatın şirin və acılarını qəlbinin süzgəcindən keçirərək yazmaqdan ibarətdir.

Hələ Sovetlər dönəmində bir sıra məşhur azərbaycanlılarla, o cümlədən, TofiqTağızadə, Eldar Quliyev, Hüseyn Seyidzadə kimi rejissorlarımızla sıx əlaqə saxlamış, "Sönmüş ocaqların işığı", "Babək", "Koroğlu", "Qaynana" kimi filmlərin beynəlxalq arenaya çıxmasında müstəsna xidmətləri olmuşdur. Rasim Ocaqovun "Tütək səsi" filmi haqqında Amerikada nəşr olunan "Sinema" jurnalında sanballı məqaləylə çıxış etmişdir. Onun əsərləri ingilis, ispan, alman, fransız, ərəb dillərinə tərcümə edilərək nəşr edilmişdir. Ə.Hüseynov 400-dən çox elmi-publisist məqalənin, "Türkiyədə həmkarlar hərəkatı", "Yılmaz Qüney-həyat və qəhrəmanlıq", "Türkiyənin ictimai-siyasi həyatında kütləvi informasiya vasitələrinin rolu" kimi monoqrafiyaların müəllifidir.

Yazıçının ssenariləri əsasında 7 film çəkilmişdir. O, doğma vətəndən kənarda yaşasa da, ədəbiyyatımızı və mədəniyyətimizi layiqincə təmsil etmişdir.

Ümumiyyətlə, Əbdül Hüseynovun Azərbaycandan yazdığı əsərlər Rusiya ilə, Rusiyadan yazdığı əsərlər isə Azərbaycanla əlaqəlidir. Onun yaradıcılığı iki xalq, iki mədəniyyət arasında körpü təsiri bağışlayır.

Əbdül Hüseynov III dərəcəli "Şöhrət" ordeni, I dərəcəli "Böyük Vətən müharibəsi" ordeni, 16 medalla təltif edilmişdir.

Yazıçı, kinodramaturq, tarix elmləri namizədi, şərqşünas alim Əbdül Hüseynov ömrünün 90 yaşında da fəaliyyətini yorulmadan davam etdirir.

120 illiyi

Sergey Yesenin 1895-1925

Rus şairi



Sergey Aleksandroviç Yesenin 1895-ci il oktyabr ayının 3-ü (bəzi mənbələrdə 21.09.1895) Ryazan quberniyasının, Kozmin mahalındakı Konstantinovo kəndində anadan olmuşdur. Uşaqlığı ana babasının himayəsində keçmiş Yesenin 1909-cu ildə kənd dördillik məktəbini əla qiymətlərlə bitirərək təhsilini Spas-Klepikovski müəllim məktəbində davam etdirmişdir. 9 yaşında şeir yazmağa başlamış gənc şair 1912-ci ilin yayında Moskvaya gələrək ədəbi həyata qoşulmuş, o vaxtlar xalq içərisindən çıxmış gənc ədəbiyyatçıları birləşdirən Surikov adına ədəbi-musiqi dərnəyinin üzvü olmuşdur. O, müntəzəm olaraq Şanyavski Xalq universitetinə gəlmiş, tərəqqipərvər əhvali-ruhiyyəli professorların mühazirələrini dinləmişdir. Sonra İ.D.Sıtinin mətbəəsində işə düzələn gənc Sergey inqilabi hərəkata qoşulmuş və 1914-cü ildə "Put pravdı" qəzetində onun "Dəmirçi" şeiri dərc olunmuşdur.

1915-ci ildə Peterburqa köçmüş, Peterburq həyatı şairin dünyagörüşünün formalaşmasında müstəsna rol oynamışdır. 1916-cı ildə ilk şeirlər kitabı "Radunitsa" çap olunmuşdur. Sonrakı illərdə yazdığı poemalarda ("Coşğunluq", "Yad diyar", "Qüdrətli") kənd ab-havası çox güclü olmuşdur. Şeirləri "Русская мысль", "Ежемесячный журнал", "Северние записки" və s. jurnallarda çap olunurdu.

O, 1919-1923-cü illərdə imajinizm ədəbi cərəyanına qoşulmuş, bu, şairin müvəqqəti olaraq ictimai həyatdan uzaqlaşmasına səbəb olmuşdur. O, "Meyxanalı Moskva" şeirlər silsiləsi, "Qara adam" poemasını yazmışdır. 1924-1925-ci illər onun yaradıcılığında dönüş illəri olmuşdur.

1924-1925-ci illərdə Bakıda olmuş, bir müddət Mərdəkanda yaşamışdır. Bakı həyatı Yesenin yaradıcılığında nikbinlik əhvali-ruhiyyəsini, beynəlmiləlçilik motivlərini gücləndirmiş və yaradıcılığının ən məhsuldar dövrü hesab edilmişdir. Təsadüfi deyil ki, yeseninşünaslar bu dövrü onun yaradıcılığının "qızıl dövrü" adlandırır və həmin dövrü Puşkin yaradıcılığının "Boldino payızı" ilə müqayisə edirlər. Yesenin bir sıra məşhur əsərlərini, o cümlədən "Anna Snegina" poemasını, o cümlədən sevgi poeziyasında xüsusi yeri olan Yeseninin sevgi himni sayıla biləcək "İran nəğmələri" silsiləsinə daxil olan şeirlərin bir çoxunu burada yazmışdır. Ümumilikdə, 1924-1926-cı illərdə Yeseninin Bakı mətbuatında 51 əsəri (48 seir və 3 poema) dərc edilmiş, onlardan 50-si (47 şeir və 3 poema) "Bakinski raboçi" qəzetində işıq üzü görmüşdür. Yesenin, Bakıya olan böyük sevgisini və rəğbətini məşhur "Прощай, Баку" şeirində ifadə etmişdir. Şeirləri dünyanın 50-dən çox dilinə tərcümə edilmişdir. Azərbaycanda ilk dəfə Yesenin yaradıcılığına S.Rüstəm müraciət etmişdir.

1975-ci il oktyabr ayının 3-də, Yeseninin anadan olmasının 80 illiyi münasibətilə Mərdəkanda şairin yaşadığı evdə onun xatirə muzeyi (otaq-muzey) yaradılmışdır. həmin küçəyə şairin adı verilmişdir.

Sergey Aleksandroviç Yesenin 1925-ci il dekabr ayının 28-də intihar etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /M.Y.Lermontov.- Bakı: Öndər nəşriyyatı, 2005.- 520 s.

Aşıq Qərib: nağıl /M.Y.Lermontov; red. M.Namaz; tərc. ed. Ə.Yusifoğlu.- Bakı: Gənclik, 1981.- 23 s.

Sevirəm Qafqazı mən /M.Y.Lermontov; tərc. ed. M.Rahim və b.- Bakı: Gənclik, 1988.-181 s.

Qurbanov, Ş. Lermontov və Azərbaycan ədəbiyyatı /Ş.Qurbanov.- Bakı: Maarif, 1976.- 66 s.

Lermantov Mixail Yuryeviç //Azərbaycan Sovet ensiklopediyası:10 cilddə.-Bakı, 1982.- C.VI.- S.206-207.

İnternetdə

www.az.wikipedia.org

en.wikipedia.org

russiapedia.rt.com

80 illiyi

Xəyyam Mirzəzadə 1935

Bəstəkar



Xəyyam Hadı oğlu Mirzəzadə 1935-ci il oktyabr ayının 5-də Bakıda anadan olmuşdur. 1957-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Həmin ildən orada çalışır. 1969-1983-cü illərdə kompozisiya kafedrasının müdiri olmuşdur. 1979-cu ildə professor elmi rütbəsini almışdır.

Onun əsərləri Avstriya, İngiltərə, Macarıstan, Hollandiya, Almaniya, İtaliya, Fransa və s. ölkələrdə ifa olunur. 30-dan artıq kinofilmə və 15 dram tamaşasına, estrada və caz pyeslərinə, populyar mahnılara musiqi bəstələmişdir.

"Ağlar və qaralar" (2000) baleti, kamera orkestri üçün "Musiqi" (1964), "Üç xoreoqrafik şəkil" (1969), "Simfonik orkestr üçün" I Simfoniya (1957), II Simfoniya (Triptix, 1970), Kiçik lirik süita (1963), Oçerklər-63 simfonik poema (1963), "Muğan çöllərində" süitası (1967); xor, solist və simfonik orkestr üçün "Çiçəklən, Vətənim" (1964, E. Mahmudovla birgə), Partiya haqqında oda (1975-sözləri: B.Vahabzadənindir); ağacdan nəfəs alətləri üçün "Sekstet" (1962); misdən nəfəs alətləri üçün "Kvartet" (1970), simli kvartet üçün I Kvartet (1956), II Kvartet (1961), Dörd miniatür (1958), Noraşen rəqsləri (1972); skripka və fortepiano üçün Sonatina (1950), Poema və sketso (1952) əsərlərin müəllifidir.

Gənc bəstəkarların və ifaçıların iştirakilə dünyanın bir sıra ölkələrində keçirilmiş müsabiqələrin münsiflər heyətinin üzvü olmuş professor Mirzəzadə bəstəkarların müxtəlif səviyyələrdə keçirilən müşavirə, plenum və qurultaylarında, elmi attestasiya komissiyalarının işində fəal iştirak etmişdir.

Onun yaradıcılığı milli musiqi sənətimizdə qabarıq şəkildə ifadə olunmuş yeni intellektual-psixoloji mərhələnin təməlini qoymuşdur.

Bir çox filmlərə musiqi bəstələmişdir. 1959-cu ildə İ.Qasımovun ssenarisinə əsasən çəkilmiş "Bizim küçə" filmi bəstəkarın musiqi bəstələdiyi ilk filmdir. Bundan sonra "Bu, Qum adasında olmuşdur", "Yeddi oğul istərəm...", "Bakıda küləklər əsir", "Arxadan vurulan zərbə", "Bağ mövsümü", "Kinorejissor Arif Babayev", "Havalansın Xanın səsi", "Çay daşı", "Güllələnmə təxirə salınır!...", "Müstəqillik yollarında", Arxada qalmış gələcək", "Ev", "Düyün" və s. təxminən 40-a yaxın filmə musiqi bəstələmiş, kinoda T.Tağızadə, A.Babayev, M.Dadaşov, Ə.Atakişiyev, Y.Qusman kimi rejissorlarla, həm də gənclərlə işləmişdir.

Xəyyam Mirzəzadə 1970-ci ildə Azərbaycan Lenin Komsomolu Mükafatı laureatı olmuş, 1972-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adını almış, 1975, 1986-cı illərdə 2 dəfə SSRİ Dövlət Mükafatı laureatı olmuş, 1987-ci ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adına layiq görülmüşür. 2000-ci ildə "Şöhrət", 2010-cu ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

2011-ci ildə Tofiq İsmayılovun rejissorluğu və ssenarisi əsasında bəstəkar haqqında "Maestro. Özüm və zaman haqqında. Bəstəkar Xəyyam Mirzəzadə" sənədli bioqrafik film çəkilmişdir.

Ədəbiyyat

X.H.Mirzəzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 oktyabr 2010-cu il //Azərbaycan .-2010.-8 oktyabr.- S. 1.

"Axşama doğru" bas klarnet üçün solo sonata [Notlar] /X.Mirzəzadə.- Bakı, 2003.-7 s.

Adajio skripka və fortepiano üçün [Notlar] /X.Mirzəzadə; skripka partiyasının red. T.Babayeva.-Bakı, 2008.-6 s.

Ağ və Qara [Notlar]: orqan üçün 12 prelüd : metodik tövsiyə /X. Mirzəzadə; red. R. Babayeva.-Bakı : [s.l.], 2008.-50, [1] s. ;21 sm.

Fikirlər, düşüncələr, məqalələr: 2 hissədə /X.Mirzəzadə; tərt. ed. K.Ələsgərli; elmi red. Ü.İmanova.- Bakı: Nurlan, 2011.

Gəzinti [Notlar] /X.Mirzəzadə.- Bakı, 2008.-17 s.

Serenada [Notlar] /X.Mirzəzadə.- Bakı, 2009.-3 s.

www.az.wikipedia.org

65 illiyi

Ağasəlim Abdullayev 1950

Tarzən



Ağasəlim Sahib oğlu Abdullayev 1950-ci il oktyabr ayının 15-də Bakı şəhərində anadan olmuşdur. 5 saylı musiqi məktəbində təhsil almış, Asəf Zeynallı adına Orta İxtisas Musiqi Texnikumunun tar (H.Məmmədovun sinfi) sinfində təhsilini davam etdirmiş, 1971-ci ildə oranı bitirmişdir. Sonra Azərbaycan Dövlət Konservatoriyasına qəbul olmuş və Səid Rüstəmovun tələbəsi kimi 1976-cı ildə təhsilini tamamlamışdır.

Ağasəlim Abdullayev 1970-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin S.Rüstəmov adına xalq çalğı alətləri orkestrinin solisti, Baba Salahovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının konsertmeysteri, 1982-ci ildən B.Salahov adına "Araz" xalq çalğı alətləri ansamblının rəhbəridir.

Ağasəlim Abdullayevin rəhbərlik etdiyi ansambl həmişə seçilmişdir. Dövlət tədbirlərindən başlamış, ən ucqar kəndlərdə qurulan məclislərə qədər, respublikamızı səhnə-səhnə gəzib dolaşmışdır. Ardıcıl olaraq hərbi hissələrə baş çəkmiş, əsgərlər qarşısında konsertlər vermişdir. Moskva, Sankt-Peterburq, Kiyev, Minsk və Tallin şəhərlərində keçirilmiş musiqi festivallarında, YUNESKO-nun təşəbbüsü ilə 1987-ci ildə Səmərqənddə təşkil edilmiş Ümumdünya muğam simpoziumunda "Araz" xalq çalğı alətləri ansamblı Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

2000-ci ildən Azərbaycan Milli Konservatoriyasının dosentidir. Repertuarında "Bayatı-Şiraz", "Rast", "Xaric segah", "Şüştər", "Şahnaz" və s. muğamlar əsas yer tutur.

Görkəmli xanəndələrdən Ağaxan Abdullayev, Arif Babayev, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Yaqub Məmmədov, Hacıbaba Hüseynov, Sara Qədimova, Rübabə Muradova, Zeynəb Xanlarova, Ruzə İbişova, Səxavət Məmmədov, Alim Qasımov, Qəndab Quliyeva, Səkinə İsmayılova və başqalarını müşayiət etmişdir.

Ağasəlim Abdullayevin solo çıxışları dinləyicilər tərəfindən həmişə hərarətlə qarşılanır. Çünki ifası zamanı tarzən həmişə musiqi dilində obraz yaratmağa önəm verir, hissin-düşüncənin təsvirinə və dərkinə çalışır, axıra qədər yumşaq tempdən kənara çıxmır. Simləri öz hökmünə tabe etdirməklə bərabər, incə çalğı texnikası hesabına həm də tar ifaçılığının qayım-qədim ənənələrini qoruyub saxlaya bilir.

Mahir tarzən səhnələrdə gözəl çıxışlarla yanaşı eyni zamanda, qırx ildir ki, fasiləsiz olaraq pedaqoji iş aparır, gənclərə musiqinin, tar ifaçılığının sirlərini öyrədir.

Tarzən Ağasəlim Abdullayevin musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, 2005-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 2007-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat

"Bayatı-şiraz" muğamının ifaçılıq təcrübəsində yaranmış variantları /A.Abdullayev //Musiqi dünyası.-2011.- №2/47.- S.65-67.

Abdullayev Ağasəlim Sahib oğlu //Azərbaycan milli ensiklopediyası.- Bakı, 2009.- C.1.- S.28.

Səmədov, A. Musiqiyə bərabər ömür /A.Səmədov //Mədəniyyət.- 2010.- 26 fevral.- S.8.

Səmədov, A. Su kimi ruhlara çilənən nəğmələr: Ağasəlim Abdullayev-60 /A.Səmədov //Xalq qəzeti.- 2010.- 23 oktyabr.- S.8.

İnternetdə

www.az.wikipedia.org

en.wikipedia.org

135 illiyi

Qurban Pirimov 1880-1965

Tarzən



Qurban Bəxşəli oğlu Pirimov 1880-cı il oktyabr ayının 30-da Ağdam rayonunun Gülablı kəndində anadan olmuşdur.

Görkəmli tarzən Sadıqcandan dərs almış, Qarabağ muğam ifaçılığı məktəbinin ənənələrini dərindən mənimsəyən Qurban Pirimov sənətdə öz yolunu açmışdır.

Qurban Pirimov klassik ənənələrə əsaslanaraq, muğam ifaçılığını yeni dövrdə inkişaf etdirmiş, özünəməxsus xüsusiyyətlərlə zənginləşdirmişdir. Buna görə də, Qurban Pirimovun yaradıcılığı, ifaçılıq sənəti öz orijinallığı ilə seçilir. Onun ifa edərək yaratdığı "Mahur-Hindi", "Çahargah", "Xaric segah", "Şur", "Zabul segah", "Çoban bayatı" nadir sənət nümunələri kimi musiqi xəzinəsinə daxil edilmişdir.

1905-ci ildən başlayaraq, xanəndə Cabbar Qaryağdıoğlu və kamançaçı Saşa Oqanezaşvili ilə birlikdə yaratdığı muğam üçlüyündə 20 ilə yaxın fəaliyyət göstərərək məhşurlaşmış, bir sıra xaici ölkələrdə - Rusiyanın, Zaqafqaziyanın, Orta Asiyanın və Yaxın Şərqin müxtəlif şəhərlərində konsertlər vermişdir.

Onun solo və ansamblda ifa etdiyi muğamlar qrammofon vallarına yazılmışdır. Qurban Pirimovun müşayəti ilə Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev, İslam Abdullayev, Ələsgər Abdullayev, Seyid Şuşinski və b. xanəndələrin ifası qrammofon vallarına yazılmışdır.

1934-cü ildə Tiflisdə Zaqafqaziya incəsənəti olimpiadasının, 1939-cu ildə Ümumittifaq baxışının qalibi olmuşdur. Qurban Pirimov Üzeyir Hacıbəylinin yaratdığı ilk Azərbaycan operası "Leyli və Məcnun"da (1908) solist tarzən kimi çıxış etmişdir.

Azərbaycan tar ifaçılığı sahəsindəki xidmətlərinə ona görə 1931-ci ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adı verilmiş, "Şərəf nişanı" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Qurban Bəxşəli oğlu Pirimov 1965-ci il avqust ayının 29-da Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Abbaslı, T. Bir "Segah"i yazı: Gahdan da bir pərdə "Dügah"i, bir barmaq "Çahangah"i /T.Abbaslı //Mədəniyyət.- 2012.- 31 oktyabr.- S.12.

Pirimov Qurban Bəxşəli oğlu //Şuşinski F. Azərbaycan xalq musiqiçiləri.- Bakı, 1985.- S.276-291.

Şir biləkli tarzən: Tanrı heç kimə etibar etməyib öz əlində saxlayan Qurban Pirimov //Şərq.- 2011.- 25 may.- S.11.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

www.medeniyyet.az

www.mugamradio.az

105 illiyi Hüseyn Seyidzadə 1910-1979

Rejissor



Hüseyn Əli oğlu Seyidzadə 1910-cu il oktyabr ayının 15-də İrəvanda anadan olmuşdur. 1918-ci ildə Hüseynin ailəsi doğma yurdu tərk etmək məcburiyyətində qalıb, Bakıya köçmüşdür. Hüseyn 15 yaşında ikən fabrikdə fəhləlik etmiş, 1928-ci ildə Bakı İşçi Teatrının səhnəsində aktyor kimi fəaliyyətə başlamış, 1929-cu ildə Leninqrada göndərilmişdir. Dövlət Fəhlə Gənclər Teatrında təcrübə keçmiş, 1930-cu ildə Bakıya, kinostudiyaya qayıtmışdır. Həmin il o, "İlk komsomol buruğu" bədii filmində neftçi rolunda çəkilmişdir.

1931-ci ildə Moskvaya, Dövlət Kinematoqrafiya İnstitutunda təhsil almağa göndərilmiş, S.Eyzenşteyn, M.Romm, L.Kulicanovdan dərs almışdır.

1936-cı ildə institutu bitirib Bakıya qayıdan gənc mütəxəssis kinostudiyada "Bakılılar", "Bir ailə" bədii filmlərində rejissor assistenti, dublyaj rejissoru işləmişdir. 1940-cı ildə N.Bədəlovla birgə "Ayna" bədii filmini çəkməyə başlamış, lakin məlum olmayan səbəblərə görə filmin çəkilişi dayandırılmışdır. Sonra N.Bədəlovla birgə 1942-ci ildə "Ayna"nın materialları əsasında "Sovqat" qısametrajlı bədii filminə quruluş vermişdir. Bir müddət "Lenfilm", "Mosfilm" və M.Qorki adına kinostudiyalarda təcrübə keçmiş, bu studiyalarda istehsal olunan filmlərdə rejissor assistenti, ikinci rejissor işləmişdir.

1953-cü ildə "Doğma xalqımıza" bədii-sənədli filminin çəkilişi rejissor Yan Fridlə birgə H.Seyidzadəyə tapşırılmış, film 1954-ci ildə müvəffəqiyyətlə çəkilib ekranlara buraxılmışdı.

1956-cı ildə Ü.Hacıbəylinin "O olmasın, bu olsun" operettasını ekranlaşdırmışdır. Bu, Azərbaycan kino tarixində ilk rəngli bədii film idi. S.Rəhmanın ssenarisi əsasında lentə alınan musiqili kinokomediya Asiya və Afrika ölkələrinin Beynəlxalq Daşkənd kinofestivalında göstərilmiş, 60-dan artıq ölkəyə, o cümlədən İran, İraq, Yuqoslaviya,Yaponiya, Avstriya, ABŞ, İsveçrə və Macarıstana satılmışdı.

1959-cu ildə çəkilən "Koroğlu" qəhrəmanlıq kino-dastanı onun ikinci filmi idi. Lakin ssenari Moskvada əsaslı dəyişikliklərə məruz qaldığından ekran əsəri zəif alınmışdı.

1965-ci ildə Qılman İlkinin ssenarisi üzrə istehsal olunmuş "Yenilməz batalyon" tarixi-inqilabi filmi onun növbəti işi olur. 1969-cu ildə İ.Şıxlının eyniadlı romanı əsasında çəkilmiş "Dəli Kür" filmi isə Azərbaycan kinosunun ən yaddaqalan nümunələrindəndir. Bu filmdə də ssenariyə müdaxilələr edilmiş, rejissor təzadlı kino həyatında növbəti zərbələrdən birini almışdı.

1978-ci ildə H.Seyidzadə sonuncu filmini - "Qayınana" kinokomediyasını çəkmişdi. Şirin yumor, canlı komik səhnələr və hadisələrin dinamikliyi "Qayınana"nı baxımlı etmişdi. Film Aşqabad şəhərində keçirilən XII Ümumittifaq kinofestivalında nümayiş etdirilmiş, baş rolun ifaçısı N.Zeynalova və bəstəkar T.Quliyev mükafata layiq görülmüşdülər.

Rejissorun mübariz sənətkar olması, sözünü açıq deməsi çoxları tərəfindən sevilmirdi. Bu səbəbdən yaradıcılıq imkanları geniş olsa da rejissor kimi 43 il ərzində cəmi beş bədii film çəkmişdi.

Hüseyn Seyidzadə 1979-cu il iyun ayının 2-də vəfat etmişdir.

Ədəbiyyat

Azəri, L. Mədəniyyət tariximizdə iz qoyanlar Məşhur Seyidzadələr nəslinin iki görkəmli nümayəndəsinin yubileyi qeyd olundu /L.Azəri //Mədəniyyət.- 2012.- 7 noyabr.- S. 13.

Əliyeva, İ. Ağrılı taleyi olan korifey sənətkar /İ.Əliyeva // Azərbaycan.- 2012.- 20 oktyabr.- S. 11.

Xəlilzadə, F. Bir rejissorun taleyi: Hüseyn Seyidzadə - 100 /F.Xəlilzadə //Azərbaycan.- 2010.- 12 oktyabr.- S. 8.

Şanlı Seyidzadələr nəslinin iki görkəmli nümayəndəsinin 100 illiyi qeyd edilmişdir //Azərbaycan . - 2012.- 4 noyabr.- S. 5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.edebiyyat.info

85 illiyi

Elmira Şaxtaxtinskaya 1930-1996

Rəssam



Elmira Həbibulla qızı Şaxtaxtinskaya 1930-cu il oktyabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Onun anası Leyla xanım Cənubi Azərbaycanın hökmdarı Bəhmən Mirzə Qacarın nəvəsi olmuş, atası Həbibulla Şaxtaxtinski adlısanlı kimyaçı olmuşdur. Belə bir ailədə dünyaya gəlmiş Elmira xanım hələ uşaq yaşlarından milli incəsənətimizin vurğunu olmuşdur.

Orta təhsilini Bakı şəhərində almış, 1950-cı ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin təsviri incəsənət şöbəsini bitirmişdir. 1956-cı ildə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuşdur. Qrafika şöbəsində oxuyan Elmira xanım siyasi plakat janrı üzərində seçim etmişdi.

1956-cı ildə Moskvada təhsilini başa vuran Elmira xanım Bakıya dönərək fəal surətdə yaradıcılığa başlamış, yorulmaq bilmədən çalışdığı 40 illik yaradıcılığı ərzində o, müxtəlif mövzulara həsr olunmuş 100-dən artıq plakat yaratmışdır. Əməyə, sülhə, mübarizəyə, idmana və digər mövzulara həsr olunmuş əsərlər arasında "Bizə sülh lazımdır", "Yeni rekordlara doğru", "Təcavüzə son qoymaq - mədəniyyəti müdafiə etmək" və b. əsərlərinin adını çəkmək olar.

O, ekologiya mövzusunda - "İnsan, Yer üzündə həyatı qoru", "Bakı ən yaşıl, ən gözəl olacaq" və s. silsilə plakatlar yaratmışdı.

Dəzgah rəsmləri və akvarellərindən "Çexoslovakiyada", "Sosialist Bakısı" seriyası, "Bolqarıstanda", "Qutablar" və "Novruz bayramı" tabloları rəssama böyük şöhrət gətirmişdir.

XX əsrin 70-ci illərində çəkdiyi "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşamış elm, ədəbiyyat və incəsənət xadimlərindən N.Tusi, M.Gəncəvi, İ.Nəsimi, C.Urməvi, Ə.Naxçıvani, Sultan Məhəmməd və b.-nın, XX əsrin 80-ci illərində isə Ü.Hacıbəyli, S.Vurğun, H.Cavid, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b. portretlər qalereyasını yaratmışdır.

Elmira xanım bir sıra məsul vəzi-fələrdə çalışmış, SSRİ və Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin üzvü, Azərnəşrin bədii redaktoru, Nəşriyyat və Poliqrafiya üzrə Dövlət Komitəsinin baş rəssamı, eləcə də "Plakat" nəşriyyatının Zaqafqaziya üzrə komissiyasının üzvü olmuşdur. E.Şaxtaxtinskaya yaradıcılığının əsas mövzusu "Azərbaycan qədim mədəniyyət diyarıdır" adlı silsilə əsərləri olmuşdur.

Rəsmləri dünyanın bir sıra şəhərlərində nümayiş olunmuşdur.

Görkəmli rəssam "Şərəf" ordeni ilə təltif edilmiş, 1963-cü ildə "Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi", 1977-ci ildə isə "Azərbaycanın SSR-in Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Şaxtaxtinskaya Elmira 1996-cı il oktyabr ayının 15-də Moskvada vəfat etmiş, Bakıda, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Elmira Şaxtaxtinskaya (1930-1996) //Savalan.- 2013.- 21-23 may.- №35.- S.2.

Elmira Şahtaxtinskaya 1930-1996 /layih. rəhb. Ç.Fərzəliyev.-Bakı, 2013.-104 s.

Quliyev, Ə. Elmira Şahtaxtinskayanın yaradıcılığı /Ə.Quliyev //Qobustan.- 2012.- №2.- S.40-43.

Şaxtaxtinskaya Elmira //Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.- S.365.

Şərifov, A. Azərbaycanın Xalq rəssamı Elmira Şahtaxtinskaya /A.Şərifov //XX əsr Azərbaycanın yaradıcı nəsilləri.- Bakı, 2007.- S.67.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Milli Qəhrəmanlar

65 illiyi

İmamverdi Əliyev 1950-1991

Milli Qəhrəman



İmamverdi Barat oğlu Əliyev 1950-ci il oktyabr ayının 1-də İmişli rayonunun Qulubəyli kəndində anadan olmuşdur.

1969-cu ildə Kürdmahmudlu kənd orta məktəbini bitirmiş, sonra İmişli rayonu Hərbi Komissarlığının göndərişi ilə Saatlı rayonunda sürücülük kursuna getmişdir.

1970-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

1972-ci ildə ordudan tərxis olunduqdan sonra Bakı şəhəri Yasamal rayonunun Daxili İşlər Şöbəsində sürücü-milis nəfəri kimi işə başlamış, oxumaq arzusu ilə 1973-1977-ci illərdə Bakı Maliyyə-Kredit Texnikumunda təhsil almışdır.

1978-ci ildə isə Bakı Xüsusi Milis məktəbinin kursantı olmuşdur. Zabit rütbəsi ilə 1980-ci ildə İmişli rayon DİŞ-də mühafizə bölməsində baş inspektor vəzifəsində çalışmışdır.

1987-ci ildən İmişli rayonunda qanunçuluğun keşiyində durmuşdur.

Daha sonra məlum Qarabağ hadisələri başladıqda, 1991-ci il 15 noyabr tarixində Cəbrayıl rayonunun müdafiəsində dörd erməni tankını məhv etmiş, Hadrud rayonunun Şaqax kəndi yaxınlığında iki yüz azğın düşmənə qarşı on altı saat döyüşmüş, 28 nəfər erməni quldurunu məhv etmişdir. Bu döyüşdə İmamverdi Əliyev özü də şəhid olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Əliyev İmamverdi Barat oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

İmişli rayonunda dəfn edilmişdir. Rayonda İmamverdi Əliyevin adını daşıyan küçə var.

Doğulub boya-baş çatdığı Qulubəyli kənd orta məktəbi hal-hazırda igid döyüşçünün adını daşıyır. İmişli rayon Daxili İşlər Şöbəsi binasının önündə büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Əliyev İmamverdi Barat oğlu – polis baş leytenantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əliyev İmamverdi Barat oğlu (1950-1991) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.61.

Əsgərov, V. Əliyev İmamverdi Barat oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.85.

Seyidzadə, M. Əliyev İmamverdi Barat oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.60.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org



55 illiyi

Elşad Hüseynov 1960-1992

Milli Qəhrəman



Elşad Eynulla oğlu Hüseynov 1960-ci il oktyabr ayının 8-də Masallı rayonunun Xıl kəndində anadan olmuşdur.

1978-ci ildə burada məktəbi bitirib sovxozda işləmiş, 1979-1981-ci illərdə Batumidə hərbi xidmətdə olmuşdur. 1981-ci ildə ordudan tərxis olunduqdan sonra Vətənə dönmüş və Bakının Səbail rayonunda DİŞ-nin nəzdindəki mühafizə şöbəsində milis nəfəri kimi işə qəbul olunmuşdur.

1986-cı ildə N.Rzayev adına Bakı Xüsusi Orta Milis məktəbinin qiyabi şöbəsinə daxil olmuş və 1989-cu ildə təhsilini başa vurmuşdur.

Ermənilərin doğma torpaqlarımıza basqınlarını görən Elşad müharibəyə getmək istəyi ilə bir neçə dəfə müraciət etdikdən sonra cəbhəyə yola düşmüşdür.

Elşad Cuvarlı, Ağbulaq və bir çox başqa kəndlərin azad edilməsində rəşadətlə vuruşmuşdu. Onun şücaəti erməni qəsbkarlarını lərzəyə salmışdı.

15 iyun 1992-ci il, döyüşçülərimiz Fərrux kəndini düşməndən azad edərkən, Elşad döyüşün qızğın yerində olmuş, mövqeyini dəyişmək istəyərkən düşmən gülləsinə tuş gəlmişdi.

Cəsur polis işçisi 1992-ci il iyun ayının 15-də Ağdam-Fərrux istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Hüseynov Elşad Eynulla oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Masallı rayonunda adını daşıyan küçə var və Xıl kəndində büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Elşad Eynulla oğlu – polis baş serjantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.-1992.- 9 oktyabr.-S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Elşad Eynulla oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.121.

Hüseynov Elşad Eynulla oğlu (1960-1992) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.87.

Seyidzadə, M. Hüseynov Elşad Eynulla oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.93.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



160 illiyi Səməd bəy Mehmandarov 1855-1931

Hərbi xadim



Səməd bəy Sadıq bəy oglu Mehmandarov 1855-ci il oktyabr ayının 16-da Lənkəranda anadan olmuşdur. Əslən Şuşalıdır. Bakıda ibtidai təhsil almış, 16 yaşında Peterburqdakı II Konstantin artilleriya məktəbinə daxil olmuşdur. 1875-ci ilin dekabrında podporuçik rütbəsi almış və üçüncü dərəcəli "Muqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur. 1890-cı ildə kapitan, 1898-ci ildə podpolkovnik, 1901-ci ildə polkovnik, 1904-cü ildə general-mayor rütbəsi almışdır. Rus-Yapon müharibəsində böyük rəşadət göstərdiyinə görə 1908-ci ildə ona general-leytenant rütbəsi verilmişdir.

I Dünya müharibəsi başlanarkən Varşava ətrafında xidmət edən general S.Mehmandarovun komandir oldugu 21-ci piyada diviziyasının tərkibində dörd alay var idi: 81-ci Abşeron alayı, 82-ci Dağıstan alayı, 83-cü Samur alayı və 84-cü Şirvan alayı. Visla çayı yaxınlığındakı İvanoqorod şəhərində 21-ci diviziya 52-ci piyada diviziyası tərkibində 205-ci Şamaxı və 206-cı Salyan alayları da var idi.

Diviziya komandiri S.Mehmandarov Lodz istiqamətində aparılmış döyüşdə alman generalı Makenzenin ordusu üzərində qələbə əldə etmişdi.

1915-ci ildə korpus komandiri təyin edilmişdi. 1917-ci ilin əvvəlində Rusiyanın bütün hərbi ordenləri ilə, eləcə də İngiltərənin, Fransanın, Rumıniyanın bir neçə hərbi ordeni ilə təltif edilmişdi.

1917-ci il fevral burjua inqilabı baş verərkən S.Mehmandarov Qafqazda idi. Həmin ilin aprel ayında o, vəzifəsini həmişəlik tərk edib istefaya çıxmış, bir müddət Vladiqafqaz şəhərində yaşamış, sonra Azərbaycana gəlmişdir.

S.Mehmandarov AXC hökumətində 1918-ci ildən hərbi nazir vəzifəsini tutmuş və qısa müddətdə 30 minlik ordu yaratmağa nail olmuşdu. 1919-cu ilin yazında ingilis hərbi hissələri Azərbaycanda oldugu dövrdə S.Mehmandarov AXC hökuməti başçısı N.Yusifbəyliyə göndərdiyi rəsmi məktubda, ingilis hərbi dəstələrinin Azərbaycanda talanlar etməsi, kəşfiyyat işi aparmalarına etiraz olaraq İngiltərə hökumətinin I Dünya müharibəsi illərində ona verdiyi ordenləri geri qaytarmağı xahiş etmişdi.

Sovet hakimiyyəti qurulduqdan sonra N.Nərimanovun şəxsi zəmanəti əsasında hərbi fəaliyyətini davam etdirmiş və Azərbaycanda yaradılmış hərbi komandirlər məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir.

S.Mehmandarov 1924-1927-ci illərdə Azərbaycanda hərbi sahədə aparılan geniş islahatlarda və tədbirlərdə fəal iştirak etmişdir. 1928-ci ildə səhhətinə görə ordudan tərxis olunmuş və ona fərdi dovlət təqaüdü verilməsi müəyyən edilmişdir.

General-polkovnik türk və fars dillərini yüksək səviyyədə bilirdi. Ömrünün son üç ilində islam tarixi və fəlsəfə ilə məşğul olmuşdur.

General Səməd bəy Mehmandarov 1931-ci il fevral ayının 12-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Nəzirli, Ş. Tam artilleriya generalı Səməd bəy Mehmandarov /Ş.Nəzirli.- Bakı: Hərbi, 1997.- 120 s.

Süleymanov, M. Mehmandarov: Həyatı, xidmət yolu və silahdaşları /M.Süleymanov; ön söz. müəl. S.Əbiyev; elmi red.: P.Darabadi, N.Maksvel; rəyçi: T.Qaffarov.-Bakı, 2000.- 376 s.

Azərbaycanın ilk hərbi naziri: O, rus ordusunda önəmli yer tutan hərbçi idi //Azadlıq.- 2011.- 3 iyun.- S.14.

Qədim soylu Mehmandarovlar: Nəslin ulu babası mehmandar Mirzə Əli bəy //Azadlıq .-2013.- 12 sentyabr.- S.14.

Tahirqızı, Ü.Azərbaycanın dəmir intizamlı ordusunun müəllifi /Ü.Tahirqızı //Xalq cəbhəsi.- 2013.- 11 sentyabr.- S.13.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

75 illiyi Həsən Həsənov 1940

Siyasi xadim



Həsən Əziz oğlu Həsənov 1940-cı il oktyabr ayının 20-də Tbilisi şəhərində anadan olmuşdur. 1958-ci ildə orada 43 saylı orta məktəbi bitirərək Bakıya gəlmiş və Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1963-cü ildə təhsilini başa vuraraq komsomol işində çalışmış, 1966-cı ildə Tikinti Materialları və Konstruksiyaları Elmi-Tədqiqat İnstitutunda aspiranturaya qəbul olmuşdur. 1967-ci ildə Azərbaycan KP MK-ya təlimatçı vəzifəsinə irəli çəkilmişdir.

1969-1971-ci illərdə Moskvada Ümumittifaq Komsomolu MK-da məsul təşkilatçı vəzifəsində çalışmış, 1971-ci ildə Bakıya qayıdıb Azərbaycan KP MK-da təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini vəzifələrində işləmişdir.

1975-ci ildən Bakının Səbail rayonu Partiya Komitəsinin, 1978-ci ildə Sumqayıt şəhər Partiya Komitəsinin, 1979-cu ildə Gəncə şəhər Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır.

1981-ci ildə Bakı Ali Partiya məktəbini bitirmişdir. Tələbəlik dövründə Komsomol Komitəsinin katibi olmuşdur. 1962-ci ildə Azərbaycan tələbələrinin təmsilçisi kimi Moskvada keçirilən XIV Ümumittifaq Komsomol Qurultayına nümayəndə seçilmiş, Azərbaycanın və SSRİ-nin bir sıra gənclər təşkilatının üzvü olmuşdur.

1981-1983-cü illərdə Azərbaycan KP MK-nın ideoloji məsələlər üzrə, 1983-1988-ci illərdə tikinti məsələləri üzrə, 1988-1990-cı illərdə iqtisadiyyat məsələləri üzrə katibi vəzifələrində çalışmışdır.

1990-1992-ci illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur.

1992-ci ildən xarici siyasət və diplomatiya sahəsində fəaliyyət göstərmişdir. 1992-1993-cü illərdə Azərbaycan Respublikasının BMT-də (Nyu-York) ilk daimi nümayəndəsi və ilk fövqəladə və səlahiyyətli səfiri, 1993-1998-ci illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri, 2004-cü ildən Azərbaycan Respublikasının Macarıstan Respublikasında və 2010-cu ildən isə Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışır.

Macarıstan və bir neçə SSRİ ordeni, Azərbaycan, Qazaxıstan medalları ilə təltif olunmuşdur.

H.Həsənov 23 il müxtəlif parlamentlərin nümayəndəsi olmuşdur. 1977-1995-ci illərdə Azərbaycan Ali Sovetinin, 1979-1984-cü illərdə SSRİ Ali Sovetinin, 1995-2000-ci illərdə Milli Məclisin nümayəndəsi və Milli Məclisin Beynəlxalq əlaqələr üzrə Komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir.

Müstəqil Azərbaycanın ilk Əsas Qanununu hazırlayan Konstitusiya komissiyasının üzvü olmuşdur.

H.Həsənov elmi və bədii yaradıcılıqla da məşğuldur. O, Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş M.F.Axundovun həyat və fəaliyyətinə həsr edilmiş "Brüsseldən məktublar" pyesinin müəllifidir. "Tarixin hədəfi" (Tarixin fəlsəfəsi), "Nəriman Nərimanovun milli dövətçilik baxışları və fəaliyyəti", "Türklüyümüz, Misir amuleti və ieroqlifləri Azərbaycanda" adlı monoqrafiyaların, "Azərbaycanın Avropaya inteqrasiyası" əsərinin və məqalələr toplularının müəllifidir.

2004-cü ildə Bakıda namizədlik, 2006-cı ildə Tiflisdə doktorluq dissertasiyasını müdafiəsi etmişdir.

Ə d ə b i y y a t

Brüsseldən məktublar: Proloq, epiloq və on altı şəkildə iki hissəli psixoloji dram /H.Həsənov.-Bakı: Əbilov, Zeynalov və oğulları, 2003.-76 s.

Nəriman Nərimanov- milli təmayüllü kommunist /H.Həsənov.-Bakı: Pedaqogika, 2004.-80 s.

Nəriman Nərimanovun tarixi missiyası /H.Həsənov; elmi red. F. İbrahimli; ön söz. müəl. Q.Bayramov.- Bakı: Pedaqogika, 2005.- 88 s.

Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması tarixindən: Mətbuat xəbərləri /H.Həsənov; tərt.: N.Tanrıqulu, F.Süleymanoğlu.- Bakı : Pedaqogika, 2005.- 72 s.

Tikan, quran, yaradan insan: Həmkarları Həsən Həsənovun tikinti sahəsindəki fəaliyyəti haqqında /red. İ.Akifqızı; topl. və tərt. ed.: B.İbrahimov, Z.Allahverdiyev.- Bakı: Pedaqogika, 2006.- 142 s.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

60 illiyi

Səttar Mehbalıyev 1955

İctimai xadim



Səttar Suliddin oğlu Mehbalıyev 1955-ci il oktyabr ayının 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qıvraq kəndində anadan olmuşdur.

1979-cu ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki ADİU) bitirmiş, 1973-cü ildə Bakı şəhərində dəmir-beton məmulatı zavodunda qəlibçi, 1976-cı ildən Bakı İstehsalat Tikiş Birliyində fəhlə, əmtəəşünas, mühəndis-iqtisadçı və baş mühasibin müavini vəzifələrində çalışmışdır.

1980-1993-cü illərdə Avtonəqliyyat və Şosse Yolları İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində müfəttiş-təlimatçı, maliyyə şöbəsinin müdiri işləmişdir.

Respublikamız müstəqillik qazandıqdan sonra ölkənin bütün sahələrində olduğu kimi həmkarlar ittifaqlarında da islahatların həyata keçirilməsi zərurəti yaranmışdır. 1992-ci ildə S.Mehbalıyevin rəhbərliyi ilə Azərbaycan Həmkarlar İttifaqları Şurasının və ümumilikdə həmkarlar ittifaqlarında struktur islahatlarının aparılması və yeni nizamnamənin hazırlanması məqsədi ilə təşkilat komissiyası yaradılmış və 1993-cü ilin fevralında Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının (AHİK) təsis qurultayı keçirilmişdir. Təsis qurultayının iştirakçılarının yekdil təklif və səsi ilə Səttar Möhbalıyev AHİK-in sədri seçilmişdir. 1998, 2003, 2008, 2013-cü illərdə AHİK-in I-II, III və IV qurultaylarında yenidən bu vəzifəyə seçilmişdir. 2006-cı ildə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Məclisində İttifaqın sədri olmuşdur.

S.Mehbalıyev AHİK-in sədri seçildikdən sonra həmkarlar ittifaqında islahatların aparılmasında, onun əmlakının qorunub saxlanılmasında, "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsində, həmkarlar ittifaqlarının nüfuzunun möhkəmləndirilməsində, transmilli şirkətlərdə həmkarlar ittifaqının yaradılmasında müstəsna əmək sərf etmişdir. S.Mehbalıyevin səyi nəticəsində AHİK MDB məkanında Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasına ilkin üzv olan təşkilatlardan biridir.

O, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir.

Milli Məclisin deputatı, respublikada aparılan islahatlarla bağlı yaradılmış bir sıra dövlət komissiyalarının üzvüdür. Elmi məqalələri var. Bir sıra dərsliklərin və tədris metodiki vəsaitlərin müəllifidir. İqtisad elmləri doktoru, professordur.

Polşa-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Fransa, Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Siyasət Daimi Komitəsinin, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının Sədrlər Şurasının, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin üzvüdür.

"Şöhrət" ordeni, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının gümüş medalı, Rusiya Federasiyasının Rabitə İşçilərinin Ümumrusiya Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Rəyasət Heyətinin qızıl ordeni, Neftqaztikinti həmkarlar ittifaqları Beynəlxalq Federasiyasının diplomu və mükafatı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Əmək bazarı və əhalinin sosial müdafiəsi: dərslik /S.Mehbaliyev, R.İsgəndərov; elmi red. H.Qaraşov; Əmək və Sosial Münasibətlər Akademiyası.- Bakı: Çaşıoğlu, 2002.-544 s.

Azərbaycan cəmiyyətində həmkarlar ittifaqlarının nüfuzu əhəmiyyətli dərəcədə artır: Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyevin müsahibəsi /S. Mehbalıyev //İki sahil.- 2013.- 6 iyul.- S.12.

Azərbaycan regionda iqtisadi və siyasi baxımdan əsas söz sahibinə çevrilib /S.Mehbalıyev //Azərbaycan.-2012.- 30 sentyabr.- S.3.

Səttar Mehbalıyev yenidən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri seçilmişdir //Azərbaycan.- 2013.- 6 fevral.- S.3.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

105 illiyi

İsmayıl Hüseynov 1910-1969

Akademik



İsmayıl Abbas oğlu Hüseynov 1910-cu il oktyabr ayının 15-də Tiflisdə anadan olmuşdur. 1928-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərq fakültəsinin hüquq şöbəsinə daxil olmuş və 1933-cü ildə təhsilini başa vurmuşdur. Həmin ildə Moskva şəhərində SSRİ MİK-si yanında Millətlər İnstitutunun tarix ixtisası üzrə aspiranturasına daxil olmuşdur. M.Lomonosov adına Moskva Dövlət Universitetində 1941-ci ildə namizədlik, 1947-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, tarix elmləri doktoru adını alan ilk azərbaycanlı olmuşdur.

İsmayıl Hüseynov iki dəfə (1941-1944; 1958-1960) Azərbaycan Elmlər Akademiyası (indiki AMEA) Tarix İnstitutunun direktoru olmuş, 1960-1966-cı illərdə isə akademiyanın İctimai Elmlər Bölməsinin akademik-katibi vəzifəsində çalışmışdır. O, 1949-cu ildə Elmlər Akademiyasının müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü seçilmişdir.

XX əsrin 30-cu illərində ədəbi yaradıcılıqla da məşğul olmuş, bir neçə şeir kitabı nəşr edilmişdir. 1942-1944-cü illərdə Böyük Vətən Müharibəsində iştirak etmiş, hərbi qəzet redaktorunun müavini olmuşdur.

İsmayıl Hüseynov yüzə yaxın elmi əsərin müəllifidir. Zaqafqaziyada sosialist inqilabının qələbəsi və sosializm quruculuğu tarixi problemləri, Azərbaycan sosialist millətinin təşəkkülü və inkişafı məsələləri elmi fəaliyyətində mühüm yer tutmuşdur. Onun 1941-1945-ci illər müharibəsi dövründə çap etdirdiyi "Görkəmli dövlət xadimi Şirvanşah İbrahim" və "Şah İsmayıl Səfəvi" əsərləri həmin dövlət xadimlərinə Azərbaycan tarixşünaslığında obyektiv qiymət verilməsi baxımından mühüm hadisə idi. Akademik Ə.S.Sumbatzadənin qeyd etdiyi kimi, Səfəvi dövlətinin erkən dövründə Azərbaycan dövləti olması haqqında tarixşünaslıqda ilk dəfə İ.A.Hüseynov fikir söyləmişdir. İ.A.Hüseynov 3 cildlik "Azərbaycan tarixi"nin nəşrə hazırlanması işinə rəhbərlik edənlərdən, onun müəlliflərindən və redaktorlarından biri olmuşdur. O, 40-dan artıq namizədlik və doktorluq dissertasiyalarının elmi rəhbəri və məsləhətçisi olmuşdur.

Akademik İsmayıl Hüseynov 1944-1948-ci illərdə pedaqoji fəaliyyətlə məşğul olmuş və Azərbaycan Dövlət Universitetinin SSRİ tarixi kafedrasına rəhbərlik etmişdir.

O, 1960-cı ildə İsveçdə, 1964-cü ildə Hindistanda, 1965-ci ildə isə Avstriyada tarixçilərin və şərqşünasların beynəlxalq konqreslərində məruzələrlə çıxış etmiş, Azərbaycan tarix elmini layiqincə təmsil etmişdir.

Akademik İ.A.Hüseynov Azərbaycan SSR Ali Sovetinin "Fəxri fərmanı" ilə təltif olunmuş və 1969-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli tarixçi alim İsmayıl Hüseynov 1969-cu il noyabr ayının 8-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Hüseynov İsmayıl Abbas oğlu //Fəxri Xiyaban /Heydər Əliyev Fondu.- Bakı, 2007.- S.90.

Hüseynov İsmayıl Abbas oğlu //Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə.- Bakı, 1987.- C.10.- S.286.

İnternetdə

wwwanl.az

www.adam.az

www.istoriya.az

80 illiyi

Fəridə Vəlixanova 1935

Alim



Ə d ə b i y y a t

Веймарский гений на Востоке: Иоганн Вольфганг Гете в "Западно-Восточном Диване" /Ф.Велиханова; НАН Азерб., Ин-т Литературы им. Низами.- Баку: Элм, 2009.-194 с.

Диалог неповторимых национальных литератур /Ф.Велиханова; НАН Азерб., Ин-т Литературы им. Низами.- Баку: Элм, 2003.- 118 с.

Русскоязычная проза Азербайджана /Ф.Велиханова.- Баку, 1999.- 172 с.

XX век и русскоязычие национальных литератур /Ф.Велиханова.- Баку, 2005.- 122 с.

İ n t e r n e t d ə

wwwanl.az

www.adam.az

www.bsu.az

Fəridə Ağaəli qızı Vəlixanova 1935-ci il oktyabr ayının 21-də Bakı şəhərində anadan olmuşdur.

Orta məktəbi qızıl medalla başa vurduqdan sonra M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə qəbul olmuş, SSRİ (hazırda Rusiya) Elmlər Akademiyası M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Filologiya elmləri doktoru, professordur.

Çapdan çıxmış elmi əsərlərinin ümumi sayı: 130-dan çoxdur. Onlardan bir neçəsi xaricdə nəşr edilmişdir.

Əsas elmi nailiyyətləri Azərbaycanda tərcüməşünaslıq elminin ilk tədqiqatçısı olması, ədəbiyyat nəzəriyyəsi və tarixinin dünya ədəbiyyatı kontekstində Qərb-Şərq probleminin tədqiqidir. "Səməd Vurğun poeziyasının rus tərcümələri" (1968), "Dostluq carçıları" (1974), "Azərbaycan sovet poeziyası rus dilində" (1977), "Azərbaycan ədəbiyyatının beynəlxalq üfüqləri" (1986), "Səməd Vurğun tərcüməçi dostları arasında" (1986), "Tərcümə sənəti (ikidilli)" (1990), "Azərbaycanın tərcümə tarixi" (1994), "Azərbaycanın rusdilli nəsri" (1999), "Təkrarolunmaz milli ədəbiyyatların dialoqu" (2003), "XX əsr rusdilli milli ədəbiyyatlar" (2005), "Veymarlı dahi Şərqdə (İ.V.Höte "Qərb-Şərq Divanında" (2009) tərcümə və tədqiqat əsərlərinin müəllifidir.

Fəridə Vəlixanova həmçinin kadr hazırlığı ilə də məşğul olmuş, onun rəhbərliyi ilə 16 elmlər namizədi, 5 elmlər doktoru müdafiə etmişdir.

Filoloq alim pedaqoji fəaliyyətini davam etdirmiş, Bakı Dövlət Universiteti və Slavyan Universitetində dərs demişdir. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2005-ci ildə "Əməkdar elm xadimi" fəxri adını almış, Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri fərmanı ilə təltif edilmişdir.

70 illiyi

Vaqif Nəsirov 1945

Fizik



Vaqif İbad oğlu Nəsirov 1945-ci il oktyabr ayının 4-də Masallı rayonunun Mollaoba kəndində anadan olmuşdur. 1963-cü ildə Boradigah qəsəbə onbirillik məktəbini qızıl medalla bitirmişdir. 1967-ci ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU-nun) fizika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1967-1968-ci illər ADPU-nun Ümumi fizika və astronomiya kafedrasının baş laborantı, 1971-1973-cü illər Ümumi fizika və astronomiya kafedrasının assistenti, 1973-1978-cü illər "Elektrik və optika" kafedrasının baş müəllimi, 1978-1994-cü illər "Elektrik və optika" kafedrasının dosenti olmuşdur. 1978-ci ildə Fransa Kimyəvi-fizika Cəmiyyətinə üzv seçilmişdir.

1972-ci ildə "KNO3, AgNO3, və TINO3 monokristallarında polimorf çevrilmələrin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını Bakı Dövlət Universitetində müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi adını almışdır.

1983-1987-ci illərdə Əlcəzair Demokratik Respublikası Bumerdes Yüngül Sənaye İnstitutuna ezam olunmuş və həmin institutun Fizika kafedrasına rəhbərlik etmiş, əlcəzairli tələbələrə fizikanı fransız dilində tədris etməklə yanaşı, Ümumi fizika kursunun müxtəlif bölmələrindən 4 dərs vəsaiti (fransız dilində) yazmışdır.

1993-cü ildə AMEA-nın doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almışdır.

1994-cü ildən ADPU-nun Elektrik və optika kafedrasının professorudur.

Üzvi və qeyri-üzvi birləşmələrin kristallarda polimorf çevrilmələrin mexanizminin araşdırılması, polimorf çevrilmələrin morfologiya və kinetikasının tədqiqi, polimorf modifikasiyaların kristal quruluşunun rentgenoqrafik tədqiqi alimin əsas tədqiqat sahəsidir. İlk dəfə olaraq polimorf çevrilmə zamanı kristal daxilində kristalın ritmik, pilləli, elastiki böyümələrini, qarşılıqlı çevrilən modifikasiyalar arasında kristalloqrafik istiqamət əlaqələrinin saxlanılması, qarşılıqlı çevrilən modifikasiya kristallarının böyümə sürətlərinin ossilyasiyası effektlərini müəyyən etmiş, optik şəffaf kristalların daxilində monokristallar yetişdirilməsi metodikasını işləyib hazırlamış, polimorfizmə malik kristallarda polimorf çevrilmə yolu ilə monokristallar yetişdirilməsinin metodikasını işləmişdir. Alim yüzdən artıq elmi-metodiki əsərin o cümlədən 24 adda kitabın müəllifidir. Dəfələrlə beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

O, həmçinin ədəbi fəaliyyətlə də məşğul olmuş, bir sıra bədii-publisistik əsərlərin müəllifidir. Onun "Sonradan bilmişəm", "Qardaş harayı", "Dünya çətin düzələ", "Dərd budur", "Anamın duaları", "Etiraf", "Şairlər vaxtsız qocalır" şeirlər, "Öz odunda yanan ürək", "Ömrün qürbət payı", "Əsrin loğmanı" bədii-publisistik kitabları geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Azərbaycan Yazıçıları Birliyinin üzvüdür.

2004-cü ildə Yusif Məmmədəliyev mükafatına layiq görülmüş, 2012-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

Ədəbiyyat

Elektrik və maqnetizm: dərs vəsaiti /V.Nəsirov, G.Aslanlı.- Bakı: Adiloğlu, 2008.-390 s.

Kristallar aləmi /V.Nəsirov, G.Aslanlı.- Bakı: Adiloğlu, 2008.- 131 s.

Optika nəzəri materiallar: test tapşırıqları: [dərs vəsaiti] /V.Nəsirov; red. M.Murquzov; rəyçi İ.Cəfərov, C.Hüseynov, A.Ələkbərov.- Bakı: [ADPU-nun nəşriyyatı], 2012.- 347s.

Ümumi fizika kursundan laboratoriya praktikumu: (dərs vəsaiti) /M.Murquzov, V.Nəsirov, C.Hüseynov.- Bakı, 2010.- 121 s.

Allahmanlı, M. Haqdan yanan ocaq /M.Allahmanlı; elmi red. A.Əliyev; rəssam A.Musayev.-Bakı: Adiloğlu, 2005.- 272 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Yəhya Məmmədov 1930-2000

Fizik



Yəhya Cəfər oğlu Məmmədov 1930-cu il oktyabr ayının 10-da Naxçıvanda anadan olmuşdur.

1954-cü ildə ADU-nu fərqlənmə diplomu ilə bitirərək aspiranturada saxlanılmış, 1957-ci ildə vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə etmiş, universitetdə müəllim, baş müəllim, dosent kimi fəaliyyət göstərmişdir. 1966-cı ildə doktorluq dissertasiyasını müdafiə edərək həmin il universitetin hesablama riyaziyyatı kafedrasının müdiri seçilmiş, 35 il bu vəzifəni uğurla icra etmişdir. O, 1971-ci ildən 1987-ci ilədək BDU-nun elmi işlər üzrə prorektoru, 1987-1989-cu illərdə isə rektor vəzifələrində çalışmışdır. 1967-ci ildə professor, 1983-cü ildə Azərbaycan EA-nın (indiki AMEA) müxbir üzvü seçilmişdir.

Alim prorektor kimi 17 illik gərgin fəaliyyəti ərzində universitetdə elmin inkişafına, onun beynəlxalq nüfuzunun yüksəlməsinə, bir çox elmi-tədqiqat laboratoriyalarının yaradılmasına, elmi tədqiqatların inkişafına, onların səmərəliliyinin artırılmasına, elmin istehsalat və tədris prosesi ilə əlaqələrinin yaxınlaşdırılmasına xüsusi diqqət və qayğı göstərmişdir.

Alimin rəhbərliyi altında Azərbaycan, Rusiya, Özbəkistan, Türkmənistan, Əlcəzair, Misir, Polşa, Almaniya, Türkiyə kimi ölkələrin 32 nəfər nümayəndəsi namizədlik dissertasiyası və onlardan 7 nəfəri doktorluq dissertasiyası müdafiə etmiş, 60-dan çox namizədlik və doktorluq dissertasiyalarına opponentlik etmişdir. Y.C.Məmmədov Moskvada (1966), Varşavada, Krakovda (1974) və digər ölkələrdə keçirilən beynəlxalq konfranslarda məruzələr etmiş, Polşa, Çexiya, Almaniya, Bolqariya, Türkiyə və İranda mühazirələr oxumuşdur. O, 109 elmi məqalənin, 5 dərsliyin və 7 monoqrafiyanın müəllifidir.

Tədqiqatları əsasən diferensial və inteqral tənliklər, qeyri-xətti funksional analiz, hesablama riyaziyyatı və başqa sahələri əhatə edir. Y.C.Məmmədov sağ tərəfi birtərəfli qiymətləndirməyə tabe olan qeyri-xətti operator-diferensial tənliklərin təqribi həlli üçün yeni üsullar vermiş, eləcə də abstrakt qeyri-xətti Volter operator-tənliklər nəzəriyyəsinin yaradıcılarından biri olmuşdur. Y.C.Məmmədov həllin tez yığılan iterasiyalar şəklində axtarılan ekvivalent tənliklərə gətirilməsi üçün maraqlı üsul təklif etmişdir. Bu üsul riyazi ədəbiyyatda "Məmmədov üsulu" adlandırılır. Onun elmi işləri, araşdırmaları və əsərləri Azərbaycan elminə misilsiz töhfələr vermiş, alimin elmi nailiyyətləri yalnız respublikada deyil, ölkədən kənarda da uğurla tətbiq olunmuşdur.

1976-cı ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1980-1981-ci illərdə (2 dəfə) Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanları, 1981-ci ildə "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuş, həmçinin "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adını almış, 1988-ci ildə akademik Vavilov adına medalla, iki dəfə (1971, 1986-cı illərdə) SSRİ Ali Təhsil Nazirliyinin medalları ilə təltif edilmişdir. O, 1981-ci ildə ABŞ-in Minneopolis şəhərinin Fəxri vətəndaşı adına layiq görülmüşdür.

Professor Yəhya Məmmədov 2000-ci il yanvar ayının 26-da vəfat etmişdir.

2010-cu ildə BDU-da Y.Məmmədovun anadan olmasının 80 illiyi münasibəti ilə "Yəhya Məmmədov auditoriyası"nın açılış mərasimi, həmçinin ona həsr olunmuş "Riyaziyyat və Mexanikanın aktual problemləri" adlı beynəlxalq konfransın plenar iclası keçirilmişdir.

Ədəbiyyat

Təqribi hesablama üsulları ali məktəblər üçün dərslik /Y.Məmmədov; elmi red. C.İsmayılov; rəy.: V.Kələntərov, R.Şəfiyev.-Bakı: Bakı Universiteti, 2008.- 286 s.

Məhərrəmov, A. Görkəmli elm və təhsil təşkilatçısı /A.Məhərrəmov //Azərbaycan.-2010.- 26 dekabr.- S.6.

Riyaziyyatda "Məmmədov üsulu"nun müəllifi: Böyük insan, nüfuzlu alim //Azadlıq.-2013.- 6 fevral.- S.14.

Yəhya Cəfər oğlu Məmmədov: biblioqrafiya /BDU.- Bakı, 2000.- 137 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

80 illiyi

Telman Ağayev 1935

Alim



Telman Məmmədəli oğlu Ağayev 1935-ci il oktyabr ayının 10-da Qərbi Azərbaycanın Sisyan rayonunun Vaqudi kəndində anadan olmuşdur. 1953-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun zootexnika fakültəsinə daxil olmuş, 1959-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə 1960-cı ildə Naxçıvan MSSR Nazirlər Sovetində başlamışdır.

1963-cü ildə Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

1964-cü ildə Azərbaycan EA-nın Fiziologiya bölməsində biokimya ixtisası üzrə aspiranturaya daxil olmuşdur. 1969-cu ildə insan və heyvan fiziologiyası ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi almışdır. 1967-ci ildən fiziologiya bölməsində kiçik elmi işçi, 1973-cü ildən isə A.İ.Qarayev adına Fiziologiya İnstitutunda baş elmi işçi, 1976-cı ildə isə laboratoriya rəhbəri vəzifəsinə seçilmişdir. 1983-cü ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsi almış, 1989-cu ildən professor rütbəsinə layiq görülmüşdür.

O, 1993-1995-ci illərdə Azərbaycan EA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində fəaliyyət göstərmiş, 2001-ci ildə direktoru təyin edilmişdir. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Onun rəhbərliyi altında 9 elmlər doktoru, 34 elmlər namizədi hazırlanmışdır. O, 7 magistr dissertasiyası və 22 diplom işinə rəhbərlik etmişdir.

Telman Ağayevin elmi əsərlərinin 130-u xarici ölkələrin nəşriyyatlarında çap olunmuşdur. O, bir çox beynəlxalq konqreslərdə məruzələrlə çıxış etmişdir.

XIV Ümumittifaq İ.P.Pavlov adına fizioloqların qurultayının məsul katibi, 1985-1990-cı illərdə Ümumittifaq Biokimyaçılar Cəmiyyətinin Mərkəzi Şurasının üzvü, 1985-1999-cu illərdə isə Azərbaycan Biokimya Cəmiyyətinin rəhbəri seçilmişdir. T.Ağayev 1999-cu ildən Federativ Avropa Biokimyaçılar Cəmiyyətinin üzvüdür.

Tanınmış alim 1999-cu ildən Respublika Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin İdarə Heyətinin üzvü, 1995-2004-cü illərdə A.İ.Qarayev adına Fizioloqlar Cəmiyyətinin vitse-prezidenti, 2005-ci ildən isə prezidenti kimi fəaliyyət göstərir. O, AMEA-nın biologiya elmləri seriyasının "Xəbərlər", "Ekoenergetika" və Gürcüstan EA-nın "Xəbərlər" jurnallarının redaksiya heyətinin üzvüdür. AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunda doktorluq və namizədlik dissertasiyaları üzrə Dissertasiya Şurasının sədr müavini və sədri vəzifələrində çalışmış, hazırda həm də institutun Elmi Şurasının sədridir. O, həmçinin YUNESKO-nun Azərbaycan Respublikasında elmi biliklərin və texnologiyanın (bioetika) Milli Komitəsinin və Beyin Tədqiqatçıları üzrə Beynəlxalq Büronun üzvüdür.

Ə d ə b i y y a t

Elm yolunda həyat necə davam edir /T.Ağayev; tərt. və red.: A.Qazıyev, G.Qurbanova; baş red. Ə.Fərəcov; AMEA A.İ.Qarayev ad.Fiziologiya İn-tu.- Bakı: Elm, 2011.- 604 s.

XX-XXI əsrin Azərbaycan fizioloqları və biokimyaçıları /T.Ağayev; red.: R.Qasımov, Ə.Allahverdiyev, Ə.Abbasov.-Bakı: Elm, 2005.- 204 s.

Əmiraslanov, Ə. Fundamental problemləri araşdıran alim /Ə.Əmiraslanov //Azərbaycan.- 2012.- 25 noyabr.- S.7.

Telman Məmmədəli oğlu Ağayev: biblioqrafiya / tərt.: Ə.Allahverdiyev; A.Qazıyev; red.: Ş.Tağıyev, Ş.Alişanlı; AMEA. A.Qarayev adına Fiziologiya İnstitutu, Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 2005.- 273 s.

www.anl.az

www.science.gov.az

www.mir-azerbaydjana.az

Prokurorluq işçiləri günü 1998



Ümummilli lider Heydər Əliyev oktyabr ayının 1-ci gününün Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixində Sərəncam imzalamışdır. Bu tarix Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması ilə əlaqədardır. Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Filip tərəfindən qoyulmuşdur. Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25 mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir örnək kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir. 1918-ci il noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. F.Xoyski, X.Xasməmmədov, A.Səfikürdski, T.Makinski AXC-nin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. AXC-nin süqutundan sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv olunmuşdu. Sovetləşmənin ilk illərində bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması zəruriliyini nəzərə alaraq Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyulmuşdu. Xalq ədliyyə komissarları Ə.Qarayev, S.Çivanov, B.Vəlibəyov, B.Talıblı, H.Hacıyev, A.Sultanova və başqaları həm də Azərbaycan SSR-in baş prokurorları olmuşlar. 1936-cı ilin iyul ayında Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə ayrıca qurum kimi fəaliyyətə başlamışdır. Kommunist partiyasının mütləq hakim olduğu Sovet hakimiyyəti dövründə prokurorluq bu rejimə və partiya liderlərinə xidmət edən bir orqan olmuşdur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yoluna qədəm qoymuşdur. 2002-ci il sentyabr ayının 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Ədəbiyyat

Qocayev, Ə. 1 oktyabr-Prokurorluq işçiləri günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.-Bakı, 2006.- S.25.

Prokurorluq işçiləri peşə bayramlarını qeyd etmişlər //Azərbaycan.-2013.- 2 oktyabr.- S.7.

Prokurorluq orqanları qanunçuluğun möhkəmlənləndirilməsi istiqamətində səylərini davam etdirir //Azərbaycan.-2011.-5 fevral. - S. 3.

Seyidov, R. Prokurorluq orqanları insan hüquq və azadlıqlarının etibarlı təminatçısıdır. Azərbaycan prokurorluğu - 95 /R.Seyidov //Respublika.-2013.- 15 sentyabr.- S.3.

İnternetdə

www.anl.az

www.sia.az

www.ebooks.preslib.az

Beynəlxalq Ahıllar Günü 1992



BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutmuşdur. 2002-ci ilin aprel ayında İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səslənmişdi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir.

Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən hörmətə layiqdirlər.

İnsanın qocalıq dövründə heç nəyə qadir olmadığını söyləmək səhv olardı. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunmuşlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşmış, fikirləri ilə hesablaşmışlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

2001-ci il iyun ayının 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. Beynəlxalq Ahıllar Günü ərəfəsində bütün dünyada olduğu kimi, respublikamızın şəhər və rayonlarında İcra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Həmin tədbirlərdə respublika üzrə 10 minlərlə ahıl və əlil vətəndaş bayram süfrələrinə dəvət olunur, onlara ərzaq paylanır, maddi yardım göstərilir.

Ədəbiyyat

Qaraca, B. Müqəddəs borc: 1 oktyabr Beynəlxalq Ahıllar Günüdür /B.Qaraca //Azərbaycan.- 2011.- 1 oktyabr.- S.6.

Qocayev, Ə. 1 oktyabr-Beynəlxalq ahıllar günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.53.

Şərəfli, B. Tariximizin yaddaş daşıyıcıları: 1 oktyabr Beynəlxalq Ahıllar Günüdür /B.Şərəfli //Azərbaycan.- 2010.- 1 oktyabr.- S.8.

İnternetdə

www.anl.az

www.azadliq.org

Xocavənd rayonunun işğalı günü 1992



Ərazisi: 1458 km²
Əhalisi: 41725 nəfər
İşğal tarixi: 02.10.1992

Xocavənd rayonunun erməni qəsbkarları tərəfindən işğalından 23 il ötür.

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli Qanununa əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmiş, Martuni şəhəri Xocavənd şəhəri, Martuni rayonu Xocavənd rayonu adlandırılmışdır. Hadrut rayonu isə ləğv edilərək ərazisi Xocavənd rayonunun tərkibinə verilmişdir.

Ərazisi alçaq dağlıq və düzənlikdən ibarət olan Xocavənd rayonunun ümumi sahəsi 1458 km², əhalisi 41725 (o cümlədən azərbaycanlılar-10.648) nəfər olmuşdur. Rayonda 1 şəhər (Xocavənd şəhəri-rayon məkəzi), 2 iri qəsəbə (Qırmızı Bazar və Hadrut), 81 kənd vardı.

Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənub-şərqində yerləşir.

1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Xocavənd rayonu 145 şəhid vermiş, 3600 uşaq zərər çəkmişdir.

2 oktyabr 1992-ci il tarixində Xocavənd rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində Xocavənddə 71 arxeoloji-memarlıq abidəsi, 41 klub, 40 kitabxana, 12 ziyarətgah, 10 məktəbəqədər müəssisə, 21 səkkizillik məktəb məhv edilmişdir. İşğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalmış, Azıx mağarasını ermənilər silah anbarına çevirmişlər.

Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınmış, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilmişdir. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilmişdir.

Ədəbiyyat

Tapdıqoğlu, N. Xocavənd ensiklopediyası /N.Tapdıqoğlu.- Bakı: [Zərdabi LTD], 2009.- 543 s.

Cavidan. Xocavəndin Ermənistan silahlı birləşmələri tərəfindən işğalından 21 il ötür /Cavidan //Palitra.- 2013.- 3 oktyabr.- S.10.

Xocavənd rayonu //Qarabağ. Yaddaş.- Bakı, 2010.- S.179-186.

Xocavənd rayonunun işğalının 21-ci ildönümü ilə əlaqədar anma mərasimi keçirildi //Azərbaycan.- 2013.- 3 oktyabr.- S.7.

Muradlı, E. Xocavənddən Şuşaya yol var... /E.Muradlı //Üç nöqtə.- 2012.- 6 mart.- S.8-9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.xocavend-ih.gov.az

Dövlət Müstəqilliyi Günü 1994



Ə d ə b i y y a t

Maqsudov, A. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir: 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür /A.Maqsudov //Respublika.- 2014.- 18 oktyabr.- S.10.

Səmədzadə, Z. Müstəqillik dəyəri olmayan ümumxalq sərvətidir /Z.Səmədzadə; müsahibəni apardı M.Hüseynova //İqtisadiyyat.- 2014.- 17-23 oktyabr.- S.3.

Şabanov, R. Müasir Azərbaycanın müstəqilliyi Heydər Əliyevin adı ilə bağlıdır: 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür /R.Şabanov //Respublika.- 2014.- 16 oktyabr.- S.5.

Şahmarov, Ə. Müstəqillik milli sərvətimizdir: 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür /Ə.Şahmarov //Respublika.- 2014.- 18 oktyabr.- S.9.

İ n t e r n e t d ə

www.anl.az

www.az.trend.az

www.az.wikipedia.org

www.portal.edu.az

Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanmışdı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirilmişdi.

1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamışdı. İkinci tarixi imkan bir də 70 il sonra yetişmiş, Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı vermişdi.

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunmuşdur. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşmuş, bununla da, Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyulmuşdu.

Azərbaycan Respublikasında 1991-ci il dekabr ayının 29-da ümumxalq səsverməsi keçirilmiş, Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxmışdı.

Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Onun müstəqilliyini dünya dövlətləri tanımışdır. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabr ayının 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanımışdılar.

Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlanmışdı. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşmişdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırmışdı. Lakin böyük siyasi təcrübəyə malik olan ümummilli lider, cənab Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşmuşdu.

1994-cü ilin 15 oktyabr tarixindən etibarən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 18 Oktyabr tarixi Dövlət Müstəqilliyi Günü kimi qeyd edilir.

70 illiyi

Birləşmiş Millətlər Təşkilatı Günü 1945

Birləşmiş Millətlər Təşkilatı-BMT (ing. United Nations Organization, UNO) 1945-ci il oktyabr ayının 24-də yaradılmışdır. Hal-hazırda 192 ölkə təşkilatın üzvüdür. Müstəqil dövlətlərdən yalnız Vatikan BMT-nin üzvü deyil.

Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

Birləşmiş Millətlər Təşkilatı İkinci Dünya müharibəsindən sonra, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqiyyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmışdır. BMT-nin Nizamnaməsi 1945-ci il iyul ayının 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il oktyabr ayının 24-də qüvvəyə minmişdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Üzv ölkələr öz aralarında BMT-nin Nizamnaməsinin - onların dünya birliyinin üzvləri kimi hüquq və vəzifələrini müəyyənləşdirən beynəlxalq müqavilənin prinsipləri ilə əlaqələnirlər.

Birləşmiş Millətlər Təşkilatı "ailəsi" aşağıdakı qurumlardan ibarətdir:

Altı əsas orqandan ibarət olan BMT-nin özü: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Hamilik Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmədən başqa, digər qurumlar Nyu-Yorkda, BMT-nin Mərkəzi idarələrində yerləşirlər.

BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin İnkişaf Proqramı (BMTİP) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) kimi inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində fəaliyyətləri həyata keçirən ixtisaslaşmış təşkilatları mövcuddur.

Məqsədləri:

-münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər qəbul etməklə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması;

-xalqın özünüdərketmək və bərabərlik prinsipinə hörmət etmək əsasında ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi;

- beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək, insanlara heç bir fərq qoymadan azadlıq, insan hüquqlarına hörmət və onun genişləndirilməsi;

- müxtəlif ölkələrin razılaşması üzrə; bu məqsədlərə çatmağa yönəldilmiş mərkəzi orqanın funksiyalarının yerinə yetirilməsi.

Prinsipləri:

-onun bütün üzvlərinin bərabərliyi;

- nizamnamə üzrə qəbul edilən öhdəçiliyi vicdanla yerinə yetirmək;

- beynəlxalq münasibətlərin sülh vasitəsi ilə həll edilməsi;

- beynəlxalq münasibətlərdə bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etmək;

-bu prinsipləri qəbul etməklə bütün hərəkətlərdə BMT-nin bütün üzvlərinə köməklik göstərmək;

- beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək (BMT-nin üzvü olmayan dövlət BMT-nin prinsiplərinə uyğun olaraq lazım gələrsə hər şeyi təmin etməlidir);

- dövlətlərin daxili işlərinə qarışmamaq;

- insanların əsas hüquq və azadlıqlarına hörmət etmək;

- xalqların özünüidarə etməsi və bərabər hüquqlu olması;

- əməkdaşlıq və tərksilah.

Tarixdə bu gün

Zəngilan rayonunun işğalı günü 1993

- **Ərazisi: 707 km²**
- **Əhalisi: 33900 nəfər**
- **İşğal tarixi: 29.10.1993**



Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da erməni işğalçıları tərəfindən işğal olunmuşdur. Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir.

Zəngilan rayonu 1930-cu ildə təşkil olunmuşdur. Rayonun sahəsi 707 km², əhalisi isə 33900 nəfərdir. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir.

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazılmışdı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da, digər rayonlarımız kimi xəyanətin qurbanı olmuş, təqvimimizdə daha bir qara günün sayı artmışdı - 29 oktyabr 1993-cü il.

Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Ermənilərin hücumu iyunun 29-da olmuş, çox ağır və qanlı döyüşlər iki saat çəkmişdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutmuş, bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalmışdı. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalamışdı. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçmişdi. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşmüşdü. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunmuş, bununla da Zəngilanın mühasirəsi başa çatmışdı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Xalqımızın xilaskarı, ulu öndərimiz H.Əliyev bu dəfə də xalqın köməyinə gəlmişdi. O, İran hökuməti ilə danışıqlar aparmış və Araz çayı üzərindəki bənddə suyu bağlatdırmışdı. Yalnız bundan sonra əhali çayı keçib xilas olmuşdu. Buna görə də, zəngilanlılar Heydər Əliyeva daim minnətdardırlar.

Zəngilanda nəyimiz qaldi?

Zəngilan boyda Vətən;

Dünyada II, Avropada I Nadir Çinar meşələri;

Torpaq üzərində olan bütün var-dövlət;

67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmiryol stansiyası, 2 şərab zavodu, konserv zavodu, dəmiryol deposu...

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Ədəbiyyat

Kərimli, A. Zəngilan şəhidləri /A.Kərimli; red. Q.Aslanov.-Bakı: İşıq, 1994.- 192 s.

Bayramov, V. Zəngilan rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr təhlil olunmuşdur /V.Bayramov //Xalq qəzeti.- 2011.- 9 fevral.- S.5.

Zəngilan rayonunun erməni hərbi birləşmələri tərəfindən işğalının 20 illiyi ilə bağlı anma mərasimi keçirilmişdir //Azərbaycan.- 2013.- 30 oktyabr.- S.3.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org

www. az.wikipedia.org

www.zengilan-ih.gov.az

www.zengilan.com

1 noyabr

Gün çıxır 07:09
Gün batır 17:38

30 noyabr

Gün çıxır 07:42
Gün batır 17:16

NOYABR

24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

B.	1
B.E.	2
Ç.A.	**3**
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	8
B.E.	9
Ç.A.	**10**
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	**17**
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	**24**
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	29
B.E.	30

- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1992)*
- ***Qarakənd faciəsi (20.11.1991)***
- *Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)*
- *Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)*

130 il Üzeyir Hacıbəyli 1885-1948



Üzeyir bəy Hacıbəylinin anadan olmasının 100 illik yubileyi dünyada böyük təntənə ilə keçirilmişdir. UNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən Hacıbəylinin yubileyi beynəlxalq miqyasda da qeyd edilmişdir.

2009-cu ildən başlayaraq Azərbaycanda Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilir. Festivalda Azərbaycan bəstəkarları və musiqiçiləri ilə birgə yaxın və uzaq ölkələrdən gəlmiş musiqiçilər də iştirak etmişdirlər.

2010-cu ildə Azərbaycanda və dünyada Üzeyir Hacıbəylinin anadan olmasının 125 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

Artıq 5-ci ildir ki, Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin adını daşıyan Beynəlxalq Musiqi Festivalı təşkil olunur.

NOYABR 2015



Milli ədəbiyyat

Şair Cəfərov Vahid Əziz oğlunun (Vahid Əziz) (23.11.1945) anadan olmasının 70 illiyi 295

Şair, nasir, publisist Alimov Gəray Fəzli oğlunun (Gəray Fəzli) (14.11.1925-26.12.1995) anadan olmasının 90 illiyi



Folklor

Şair, publisist, folklorçu İbrahimov Aydın Qurban oğlunun (Aydın Qurbanoğlu) (08.11.1935) anadan olmasının 80 illiyi



Dünya ədəbiyyatı

Rus şairi Blok Aleksandr Aleksandroviçin (28.11.1880-07.08.1921) anadan olmasının 135 illiyi

Amerika yazıçısı Tven Markın (30.11.1835-21.04.1910) anadan olmasının 180 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar incəsənət xadimi, teatr rəssamı Fətəliyev Əyyub Səfər oğlunun (07.11.1925-21.04.2000) anadan olmasının 90 illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, xanəndə Mirzəyev Baba Mahmud oğlunun (07.11.1940-06.12.2006) anadan olmasının 75 illiyi 296

Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşirov Əfsər Bayram oğlunun (08.11.1930-2006) anadan olmasının 85 illiyi

Xalq artisti, xanəndə Rüstəmov Qədir Çərkəz oğlunun (20.11.1935-14.12.2011) anadan olmasının 80 illiyi

Əməkdar incəsənət xadimi, Skripkaçı, müğənni, professor Adıgözəlov Rauf Zulfüqar oğlunun (22.11.1940-29.06.2002) anadan olmasının 75 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Quliyev Cavanşir Rəhim oğlunun (22.11.1950) anadan olmasının 65 illiyi

Əməkdar artist, xanəndə Behbudov Qaraxan İmran oğlunun (25.11.1935) anadan olmasının 80 illiyi



Teatr.Kino

Xalq artisti, diktor Cabbarova Fatma Ağacabar qızının (07.11.1920) anadan olmasının 95 illiyi

Xalq artisti Ağakişiyeva Zərnigar Fəti qızının (07.11.1945) anadan olmasının 70 illiyi 297

Xalq artisti İsmayılova Elmira Məhərrəm qızının (13.11.1945) anadan olmasının 70 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əsgərova Gültəkin Məlik qızının (20.11.1960-20.06.1992) anadan olmasının 55 illiyi 298

Azərbaycanın Milli Qəhrəmanı Kovalyov Yuri Petroviçin (29.11.1965-03.10.1991) anadan olmasının 50 illiyi 299



Siyasət.Hərbi iş

Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, iqtisad elmləri doktoru Ağalarov Araz İskəndər oğlunun (08.11.1955) 60 illiyi

Dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Vəzirov Süleyman Azad oğlunun (18.11.1910-07.02.1973) anadan olmasının 105 illiyi 300

Görkəmli siyasi və dövlət xadimi, AXC-nin banilərindən biri Xoyski Fətəli xan İsgəndər xan oğlunun (25.11.1875-19.06.1920) anadan olmasının 140 illiyi 301



İqtisadiyyat

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin elm və təhsil komitəsinin sədri, iqtisad elmləri doktoru, professor Hacıyev Şəmsəddin Hümmət oğlunun (08.11.1950) anadan olmasının 65 illiyi



Mədəniyyət. Maarif.Elm

Filologiya elmləri doktoru, professor ədəbiyyatşünas Əlibəyzadə Elmədddin Məhəmməd oğlunun (05.11.1925) anadan olmasının 90 illiyi 302


Filologiya elmləri doktoru, professor Verdiyeva Zemfira Nadir qızının (19.11.1935-08.11.2010) anadan olmasının 80 illiyi

Əməkdar elm xadimi, professor Xəlilov Qulu Qasım oğlunun (20.11.1930 -18.11.1995) anadan olmasının 85 illiyi 303



Coğrafiya.Geologiya

AMEA-nın müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Feyzullayev Əkpər Əkbər oğlunun (02.11.1945) anadan olmasının 70 illiyi



Kimya.Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Quliyev Abasqulu Məmməd oğlunun (13.11.1940) anadan olmasının 75 illiyi 304

Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Şahtaxtinskaya Zəhra Mustafa qızının (17.11.1895-16.09.1977) anadan olmasının 120 illiyi



Texnika.Mühəndis işi

Mexanika sahəsində alim Kəngərli Ayaz Mahmud oğlunun (11.11.1930) anadan olmasının 85 illiyi



Tarixdə bu gün

Kənd Təssərüfatı işçilərinin peşə bayramı Günü (01.11.2008)

Televiziya və Radio İşçiləri Günü (06.11.)

Azərbaycan Bayrağı Günü (09.11.2009) 305

Bakıda Dövlət Bayrağı Muzeyinin açılması (09.11.2010)

Konstitusiya Günü (12.11.1995) 306

Ümumdünya Diabet Günü (14.11.1991)

YUNESKO-nun - Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının (16.11.1945) yaranmasının 70 illiyi

Azərbaycan xalçalarının YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir (16.11.2010)

Milli Dirçəliş Günü (17.11.1992) 307

Qarakənd faciəsi (20.11.1991) 308

Beynəlxalq Uşaq Günü (20 noyabr)

Ümumdünya Salam Günü (21.11.1973)

Respublika Gənclər Təşkilatı Milli Şurasının yaradılması (21.11.1995)

Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000) 309

Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)

Azərbaycan SSR-nin adının dəyişdirilərək Azərbaycan Respublikası adlandırılması və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı elan edilməsi barədə fərman verilmişdir (29.11.1990)

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988) 310

70 illiyi Vahid Əziz 1945

Şair



Vahid Əziz oğlu Cəfərov (Vahid Əziz) 1945-ci il noyabr ayının 23-də Dərələyəz mahalında anadan olmuşdur.

Ailəsi ilə birlikdə Azərbaycanın Tərtər rayonuna köçmüş və 1963-cü ildə orta məktəbi burada bitirmişdir. Əmək fəaliyyətinə 1963-1964-cü illərdə Əli Bayramlı (indiki Şirvan) şəhərində Şirvanneft trestində başlamışdır.

1971-ci ildə Azərbaycan Politexnik İnstitutunu (indiki Azərbaycan Texniki Universiteti) bitirmişdir. 1971-1976-cı illərdə Xəbər mətbuat agentliyində müxbir, 1976-1982-ci illərdə Bakı şəhər Partiya Komitəsində Təbliğat və təşviqat şöbəsində təlimatçı, 1982-1989-cu illərdə Azərbaycan KP MK-da təlimatçı, mətbuat bölməsinin müdiri, 1989-1991-ci illərdə Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini vəzifələrində çalışmışdır.

1974-cü ildən Jurnalistlər Birliyinin, 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1991-1997-ci illərdə Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi olmuşdur. Bakı şəhər İcra hakimiyyətinin Reklam və şəhər tərtibatı departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri olmuşdur. 1989-cu ildən Dağlıq Qarabağ üzrə respublika təşkilat komitəsinin üzvüdür. İnqilabdan əvvəl görkəmli rus ədiblərinin yazdıqları əsərlərin yenidən nəşrini bilavasitə təşkil etmişdir.

"Oğuz eli" adlı ədəbi-publisistik qəzetin nəşrində xidmətləri olmuşdur. 1991-ci ildə Bakıda keçirilən Beynəlxalq-biznes konqresinin təşkilat komitəsi qərargahının rəisi olmuşdur. "Ergün" firmasını və eyniadlı nəşriyyatı təsis etmişdir. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmişdir.

Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda yeni şeirlərlə müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur.

Onun "Mən küləyi görürəm" (1969), "Aylı pəncərə" (1974), "İllərin baharı" (1980), "Əllərimin kölgəsi" (1986) "Тень моих рук" (1988) və başqa kitabları nəşr edilmişdir. 1997-ci ildə çap edilmiş "Dözmək olmur" şeirlər kitabı oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

40-dan çox mahnısına musiqi bəstələnmişdir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. Bədii tərcümə ilə də məşğul olur. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərlər: [şeirlər, poemalar, tərcümələr, publisistika]: 4 cilddə /Vahid Əziz.-Bakı: Gənclik, 2005.

Daha zarafatdan keçdi bizimki...: şeirlər /V.Əziz //Təzadlar.- 2013.- 30 noyabr.- S.13.

Mənə yüz il ömür arzulamayın...: şeirlər /V.Əziz //525-ci qəzet.- 2012.- 14 aprel.- S.30.

Ötüb - keçdi faciəli yüzillik...: şeirlər /V. Əziz //Ədalət.- 2012.- 21 aprel.- S.20.

Xəyal, S. Vahid Əziz: (poeziyası əsasında) /S.Xəyal; red. İ.Kamiyab; ön söz müəl. T.Həsənzadə.-Bakı: MBM, 2010.- 87 s.

Hüseynzadə, R. Sətirlərdə döyünən ürək /R.Hüseynzadə // Təzadlar.-2012.- 31 may.- S.12.

İnternetdə

www.anl.az

www.ru.wikipedia.org

salyan-mks.az

75 illiyi

Baba Mahmudoğlu 1940-2006

Xanəndə



Baba Mahmud oğlu Mirzəyev (Baba Mahmudoğlu) 1940-cı il noyabr ayının 7-də Qazax rayonunun Muğanlı kəndində doğulmuşdur. 1956-cı ildə orta məktəbi qızıl medalla bitirərək Neft Akademiyasına daxil olmuşdur. Tələbə olarkən Seyid Şuşinskinin dərslərində iştirak etmişdir. Eyni zamanda, S.Abdullayev, Ə.Məmmədov, N.Əliyev, N.Məmmədova, Z.Xanlarova ilə birgə A.Zeynallı adına Musiqi Məktəbində muğamları öyrənmişdir. Sonra S.Rüstəmovun rəhbərliyi ilə fəaliyyət göstərən orkestrlə televiziyaya çıxmışdır. Daha sonra Ə.Bakıxanovun, B.Salahovun ansamblı ilə ekranda görünməyə başlamışdır. Ə.Dadaşovun ansamblında isə bir qədər sonra oxumaq hüququ almışdır.

1962-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında stajor kimi fəaliyyətə başlayan B.Mahmudoğlu sonralar bu teatrın muğam bölməsinin solisti olmuşdur. "Leyli və Məcnun"da Məcnun, "Aşıq Qərib"də Aşıq Qərib, "Əsli və Kərəm"də Kərəm, "Koroğlu"da təlxək, "Şah İsmayıl"da Şah İsmayıl, "Xanəndənin taleyi"də Mir Seyid obrazlarını yaratmışdır.

Sənətkar 2005-ci ilin payızında uzun illər çalışdığı teatrdan təqaüdə çıxmışdır.

B.Mahmudoğlu "Dastan" folklor ansamblını yaratmış, ansamblla birgə çoxlu xarici səfərlərdə çıxış etmiş və Azərbaycan musiqisinin gözəlliyini digər xalqların nümayəndələrinə ən gözəl şəkildə çatdırmışdır. Həmin ansambl hal-hazırda sənətkarın adını daşıyır. Onun lentə alınmış neçə-neçə musiqi nümunələri qorunub saxlanılır. B.Mahmudoğlu öz yaradıcılığında aşıq musiqisindən geniş istifadə edirdi. Bu sırada onun oxuduğu "Misri Koroğlu", "Koroğlu qaytarması" və s. havaların adını çəkə bilərik. Baba Mahmudoğlunun yaradıcılığının önəmli bir cəhəti də onun qədim folklorumuza münasibəti idi. O, daim axtarışda idi. Qədim xalq mahnılarını arayıb axtarar və onları bərpa edərək öz təfsirində oxuyardı. "Bala gəlin", "Yeri dam üstə, yeri", "Oyna yar", "Zərnişan" və s. mahnılar məhz bu qəbildəndir

Onun ifasında "Qarabağ şikəstəsi", "Bala gəlin", "Oğuz eli", "Segah", "Azaflı dübeyti", "Qəhrəmani", "Ahu kimi", "Həştərxana gedən gəmi", "Mirzə Hüseyn segahı", "Qara gözlər" xalq mahnıları və muğamlar səslənmişdir.

Baba Mahmudoğlunun həyat və yaradıcılığına həsr olunmuş "Xanəndənin taleyi", "Sönməyən ulduzlar" verilişi lentə alınmışdır.

Səhhəti ilə əlaqədar olaraq bir müddət Şamaxı rayonunun Çuxuryurd kəndində yaşamış, daha sonra Bakıya qayıtmışdı.

1992-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüşdü. Prezident təqaüdçüsü idi.

Baba Mahmudoğlu 2006-cı il dekabr ayının 6-da vəfat etmişdir.

Ədəbiyyat

Rəhmanlı, Ə. Səhnəmizin Məcnunu Baba Mahmudoğlu /Ə.Rəhmanlı; naşir və red. Ə.Sayılov.- Bakı: Araz, 2012.- 559 s.

İsmayıl. Səhnəyə Məcnun gəldi, Məcnun getdi: Opera solisti Baba Mahmudoğlunun 70 yaşı onsuz qeyd olundu /İsmayıl //Ayna.- 2011.- 29 yanvar.- S.20.

Rəhmanlı, Ə. O, kim idi?: Baba Mahmudoğlunun 70 illik yubileyi ərəfəsində düşüncələrim /Ə.Rəhmanlı //Azadlıq.- 2010.- 7 noyabr.- S.15.

Təhmirazqızı, S. Mən dünyada olmayanda: Baba Mahmudoğlu - 70 /S.Təhmirazqızı //Mədəniyyət.- 2010.- 5 noyabr.- S.7.

Təranə. Baba Mahmudoğlunun 70 illik yubileyinə həsr olunmuş xatirə gecəsi /Təranə //Mədəniyyət.- 2011.- 26 yanvar.- S.2.

İnternetdə

www.anl.az

www.conservatory.az

www.mugam.musigi-dunya.

70 illiyi

Zərnigar Ağakişiyeva 1945

Aktrisa



Zərnigar Fəti qızı Ağakişiyeva 1945-ci il noyabr ayının 7-də Quba rayonunun Rustov kəndində doğulmuşdur. Uşaq yaşlarından ailəsi rayon mərkəzinə köçmüş və o, burada 3 saylı rus məktəbinin səkkizinci sinfini bitirmişdir. İki il fasilə verəndən sonra 1963-cü ildə Bakıya gəlmiş və Kooperativ Texnikumun Sənaye malları üzrə əmtəəşünas fakültəsinə daxil olmuşdur. 1966-cı ildə oranı bitirərək Moskvaya getmiş və Kooperativ Texnikumun nəzdində birillik ticarət reklamı üzrə xüsusi kursu qurtarmışdır.

Bir il Bakıda bu ixtisas üzrə işləmiş və 1968-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu fakültəsinə daxil olmuşdur.

İnstitutun Tədris teatrında C.Cabbarlının "Aydın" faciəsində Susanna rolunu məharətlə oynadığına görə ikinci semestrdə onu rektorun əmri ilə dram və kino aktyorluğu fakültəsinin gündüz şöbəsinə keçirmişlər. Eyni zamanda Tədris teartına aktrisa götürülmüş və burada Züleyxa ("Yusif və Züleyxa", N.Hikmət), Zənci qadın ("Bir iş gör, Met", Ə.Nesin) rollarını oynamışdır.

İnstitut təhsilini tamamladıqdan sonra bir müddət Tədris teartında aktrisa kimi çalışan Z.Ağakişiyeva rejissor Ə.Quliyevin dəvətilə Akademik Milli Dram Teatrında ilk tamaşası 19 may 1973-cü ildə göstərilən A.Ostrovskinin "Müdriklər" dramında Mamayeva rolunu oynamışdır. Həmin il dekabr ayının 23-də isə yenə Əşrəf Quliyevin quruluşunda Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" dramında Qadın obrazını ifa etmişdir. Qazandığı uğurlara görə Zərnigar Ağakişiyeva 2 sentyabr 1974-cü ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə aktrisa kimi qəbul olunmuşdur.

O, 15 iyun 1992-ci ildə teatrdan uzaqlaşmış və özəl milli kamera truppası toplayaraq fərdi fəaliyyətə başlamışdır. B.Vahabzadənin poetik nümunələri əsasında "Könüldən qalan səslər" kompozisiyasını, O.Qurbanovun "Yorğan-döşək", "Qan" musiqili estrada tamaşalarını hazırlamışdır. Paralel olaraq filmlərə çəkilmiş, televiziya tamaşalarında rollar oynamışdır.

Z.Ağakişiyeva 1999-cu ildən yenə Akademik Milli Dram Teatrının yaradıcı heyətində fəaliyyət göstərir. Məşhur aktrisa müəyyən fasilələrlə bu teatrın səhnəsində xeyli rol oynamışdır.

Azərbaycan Dövlət Televiziyasının hazırladığı çoxlu teletamaşalarda, ədəbi-bədii kompozisiyalarda çıxış etmişdir. Teatrda və televiziyada məşhur olan sənətkar "Azərbaycanfilm" kinostudiyasında "Yol hadisəsi", "Dantenin yubileyi" (Kəbirlinin arvadı), "Özgə həyat", "Fransız" (Zərnigar), "Yaramaz" (Qaynana), "Təhminə və Zaur" (Zivər) və s. filmlərdə rol almışdır.

Zərnigar Fəti qızı Ağakişiyeva səhnə sənətindəki xidmətlərinə, çoxşaxəli fəaliyyətinə görə 1982-ci il dekabr ayının 1-də "Azərbaycan Respublikasının Əməkdar artistı", 2000-ci il oktyabr ayının 28-də "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

"Daha özgə faciələrini oynamaq istəmirəm…". Zərnigar Ağakişiyeva: "Təkliyin nə olduğunu indi anlayıram" /Z.Ağakişiyeva //Xalq cəbhəsi.- 2012.- 3 noyabr.- S.15.

"Müğənni də ola bilərdim": Zərnigar Ağakişiyeva: "Taleyimi özüm yazmışam" /Z.Ağakişiyeva; müsahibəni apardı Ayxan //Ekspress.- 2013.- 2-4 noyabr.- S.19.

Zərnigar Ağakişiyeva: "Gurhagur həyatdan gəlib təkliyə düşdüm..." /Z.Ağakişiyeva //Ədalət.- 2013.- 5 iyun.- S. 8.

Rəhimli, İ. Zahiri sakitliyin daxili çılğınlığı: Xalq artisti Zərnigar Ağakişiyevanın həyat və yaradıcılığına fotoların tərtibat naxışları ilə səmimi bir nəzər /İ.Rəhimli.- Bakı: Çaşıoğlu, 2011.- 206 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.musakademiya.musigidunya.az

55 illiyi

Gültəkin Əsgərova 1960-1992

Milli Qəhrəman



Gültəkin Məlik qızı Əsgərova 1960-ci il noyabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

1978-ci ildə Nərimanov rayonundakı 200 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur.

1989-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 8№-li təcili yardım stansiyasında başlamış, 1991-ci ildən Uroloji kliniki xəstəxanada işləmişdir.

Gültəkin Əsgərova 1992-ci ilin aprel ayından konüllü cəbhəyə yollanmış, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərmişdir.

20 iyun 1992-ci ildə Aranzəmin-Naxçıvanik istiqamətində gedən ağır döyüşdə öz xidməti borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli 31 saylı Fərmanı ilə Əsgərova Gültəkin Məlik qızı ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Oxuduğu 200 saylı orta məktəbə onun adı verilmiş, büstü qoyulmuşdur. Xəzərdə üzən gəmilərdən biri qəhrəmanın adını daşıyır, gəmidə muzeyi yaradılmışdır.

Bakıda Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulmuşdur. Yaşadığı Mustafa Kamal Atatürk prospekti 2a ünvanındakı binaya xatirə lövhəsi vurulmuşdur.

Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetinin Tibbi biologiya kafedrası milli qəhrəmanın adını daşıyır, kafedrada xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Gültəkin Məlik qızı Əsgərovaya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Tibb xidməti baş leytenantı - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, yaralı əsgərlərin həyatının xilas edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 noyabr 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 3.- S.9.- (Ölümündən sonra).

Xanməmmədli, Ə. Gültəkin /Ə.Xanməmmədli.- Bakı: Nicat, 1997.- 47 s.

Əsgərov, V. Əsgərova Gültəkin Məlik qızı //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.99.

Əsgərova Gültəkin Məlik qızı (1960-1992) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S.70.

Seyidzadə, M. Əsgərova Gültəkin Məlik qızı /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.qazax-ih.gov.az



50 illiyi

Yuri Kovalyov 1965-1991

Milli Qəhrəman



Yuri Petroviç Kovalyov 1965-ci il noyabr ayının 29-da Göyçay rayonunda anadan olmuşdur.

1972-ci ildə ailəsi ilə birgə Rusiyanın Krasnodar vilayətinə köçmüş, 5 ildən sonra Bakıya qayıtmışdır.

1981-ci ildə Bakı şəhərinin Nizami rayonundakı 229 saylı tam orta məktəbə daxil olmuşdur.

1983-1985-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

Dənizçi olmaq arzusu ilə 1987-ci ildə Qırmızı Bayraqlı Dəniz Donanmasının 109 saylı miçmanlar və praporşiklər məktəbinə daxil olmuşdur.

1990-cı ildə DİN xüsusi təyinatlı polis bölməsinə qəbul olunmuş, bir çox döyüş bölgələrində iştirak etmiş və qəhrəmanlığı ilə fərqlənmişdir.

1991-ci il oktyabr ayının 3-də digər Omonçu dostları - Sergey Barının, Andrey Kudenin, Aleksandr Abramovla birlikdə Ağdam ərazisində Xocavənddən növbəti tapşırıqdan qayıdanda içində olduqları "UAZ" markalı avtomobili ermənilər fasiləsiz olaraq atəşə tutmuş, Yuri həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Yuri Kovalyova 5 iyun 1992-ci il tarixində "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kovalyov Yuri Petroviç - XTMD milis starşinası – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Əsgərov, V. Kovalyov Yuri Petroviç //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.154.

Kovalyov Yuri Petroviç (1965-1991) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.-Bakı, 2008.- S. 114-115.

Seyidzadə, M. Kovalyov Yuri Petroviç /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.117.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.qazax-ih.gov.az

www.milliqahraman.az



105 illiyi

Süleyman Vəzirov 1910-1973

Siyasi xadim



Süleyman Azad oğlu Vəzirov 1910-cu il noyabr ayının 18-də Şuşada ziyalı ailəsində anadan olmuşdur. 1918-ci ildən Şuşa real məktəbində oxumuş, sonra Bakı sənaye-iqtisad texnikumuna daxil olmuşdur. Texnikumda oxumaqla bərabər o, həm də kinomexanik köməkçisi işləmişdir. Texnikumu bitirdikdən sonra İliç buxtasında - mədəndə çalışmağa başlamışdır.

1928-ci ildə Azərbaycan Politexnik İnstitutunun dağ-mədən fakültəsinə daxil olmuş, 1932-ci ildə təhsilini başa vurmuşdur. Yüksəkixtisaslı kadr kimi Pirallahı, Lökbatan, Qaraçuxur kimi neft-qaz yataqlarının işlənilməsində bir neçə il ərzində mühəndis, böyük mühəndis, trestin baş mühəndisi vəzifələrində çalışaraq kamil mütəxəssisə çevrilmişdi.

1935-1937-ci illərdə "Molotovneft" trestində indiki - Əmirov adına Neftqazçıxarma idarəsi mədən müdirinin müavini, 1937-1940-cı illərdə "Kaqanoviçneft" trestinin - indiki Suraxanı Neftqazçıxarma idarəsi baş mühəndisi vəzifələrində çalışmışdır. 1940-cı ildə Azneftkombinata baş mühəndis vəzifəsinə irəli çəkilmişdir.

1941-ci ildə Azərbaycan maksimum - yəni 23,5 mln. ton neft hasil etmiş və kombinatın baş mühəndisi kimi S.Vəzirov Lenin ordeni ilə təltif olunmuşdu. 1942-ci ildə o, "Azneftekombinat"a rəhbər təyin edilmiş və kombinatın ilk azərbaycanlı rəhbəri olmuşdur. Müharibənin ağır illərində Azərbaycan neftçiləri 1941-1945-ci illərdə 75 mln. ton neft, 22 mln. ton benzin və digər neft məhsulları istehsal edərək, plan tapşırığını xeyli üstələmişdilər. Çətin müharibə şəraitində neft sənayesinin inkişafı sahəsində göstərdiyi xüsusi xidmətlərinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1944-cü il tarixli sərəncamı ilə S.A.Vəzirov "Sosialist Əməyi qəhrəmanı", "Lenin" ordeni və Qızıl "Oraq-Çəkic" medalı ilə təltif olunmuşdu. 1945-ci ildə "Azneft" birliyinin rəisi vəzifəsində çalışmışdır. 1946-cı ildə "Ölkənin cənub və qərb rayonlarında neft hasilatı üzrə Baş İdarənin" rəisi vəzifəsinə təyin edilmişdir. 1949-cu ildə "Turkmənneft" Birliyinin müdiri seçilmişdir. Qumdağ yatağının kəşf edilməsinə və mənimsənilməsinə görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Bu dövr ərzində - onun işlədiyi dörd il yarımda "Türkmənneft" birliyinin neft hasilatı iki dəfə artmışdı.

1954-cü ildə yaradılan Azərbaycan SSR Neft Sənayesi Nazirliyini nə dəvət edilmiş və Azərbaycanın birinci neft sənayesi naziri olmuşdur.

1958-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsinə irəli çəkilmiş, 1959-cu ildə isə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri təyin edilmişdi.

Süleyman Vəzirov 1973-cü il fevral ayının 7-də vəfat etmişdir.

S.Vəzirovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il 1 oktyabr tarixində Sərəncam imzalamışdır.

Neft və qaz kəmərlərinin sualtı hissəsinin çəkilişində istifadə olunan borudüzən gəmilərdən biri "Süleyman Vəzirov"un adını daşıyır.

Ədəbiyyat

Fəcri, F. Od oğullar: /F.Fəcri; red. Nisəxanım Mirzə.- Bakı:Mütərcim, 2004.- 144 s.

Süleyman Vəzirovun 100 illik yubileyinin keçirilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 1 oktyabr 2010-ci il //Azərbaycan.- 2010.- 2 oktyabr.- S. 2.

Məmmədli, İ. Neft sənayemizin ilk naziri /İ.Məmmədli //İki sahil.- 2010.- 14 noyabr.- S. 12.

Rəhimzadə, N. Süleyman Vəzirovun 100 illik yubileyi qeyd edildi /N.Rəhimzadə //İki sahil.- 2010.- 25 noyabr.- S. 5.

Yusifzadə, X. Neft-qaz sənayesi tarixinin ən parlaq simalarından biri: Süleyman Vəzirov-100 /X.Yusifzadə //İki sahil.- 2010.- 24 noyabr.- S. 6-7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.muallim.edu.az

www.e-qanun.az

140 illiyi

Fətəli xan Xoyski 1875-1920

Siyasi xadim



Fətəli Xan İsgəndər xan oğlu Xoyski 1875-ci il noyabr ayının 25-də Şəki şəhərində anadan olmuşdur. Əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olan Şəki xanı Cəfərqulu xanın nəslindən olan general-leytenant İsgəndər xan Xoyskinin oğludur. F.Xoyski Gəncə (Yelizavetpol) klassik gimnaziyasını, 1897-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Həmin ildən Gəncə dairə məhkəməsində işə başlayan Xoyski sonradan Kutaisi dairə və qəza məhkəmələrində, Zuqdidi barışıq məhkəməsində çalışmış, titulyar müşavir rütbəsinə layiq görülmüşdür. 1904-cü ildə kollej assessoru rütbəsi almış, Yekaterinodar (Krasnodar) dairə məhkəməsi prokurorunun müavini təyin olunmuş, 1907-ci ilədək orada çalışmışdır. 1907-ci ildə Gəncə quberniyasından II Dövlət Dumasına deputat seçilmişdir. Duma buraxıldıqdan sonra Gəncəyə qayıtmış, burada çalışmışdır.

1913-cü ildə Xoyski Bakıya köçərək, şəhər dairə məhkəməsində andlı iclasçı olmuş, şəhərin ictimai-mədəni həyatında fəal iştirak etmişdir. Rusiya Fevral inqilabından (1917) sonra Bakıda yaradılmış Müsəlman Milli Şurası müvəqqəti icraiyyə komitəsinin üzvü seçilən F.Xoyski həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayının təşkilatçılarından olmuşdur.

1917-ci ildə Bakı şəhər dumasına seçkilərdə müsəlman bloku 10 mindən çox səs almış və bu bloku təmsil edən F.Xoyski dumanın sədri, 1918-ci ildə Ümumrusiya Müəssislər Məclisinin deputatı seçilmişdir. Həmin ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində Xoyski xalq maarifi naziri vəzifəsini tutmuşdur.

F.Xoyski 1918-ci il may ayının 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri və daxili işlər naziri olmuşdur. 1918-ci il iyunun 16-da Milli Şura Gəncəyə köçdü, burada mürəkkəb daxili və xarici çətinliklərlə üzləşdi. Xoyski istefa verdi. Lakin Milli Şura hökumətin təşkilini yenidən ona tapşırdı. Xoyski yenidən Baş nazir vəzifəsi ilə yanaşı ədliyyə naziri vəzifəsini də tutur. 1918-ci il sentyabrın 15-də Bakı türk və Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad olundu, AXC Bakıya köçdü. Azərbaycan Parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də açıldı. Xoyski çox mürəkkəb tarixi şəraitdə hökumətin fəaliyyəti barədə hesabat vermiş, istefa vermiş, lakin yenidən Baş nazir və xarici işlər naziri vəzifəsini tutdu. Müxalifətçi partiyalar və fraksiyaların hökumətə qarşı yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919-cu il fevralın 25-də Xoyski hökuməti yenidən istefa verdi. İstefadan sonra o, Parlament üzvü kimi bir sıra siyasi, iqtisadi və maliyyə məsələlərinin həllində yenə də fəak iştirak etmiş, Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini araşdırmaq üçün yaradılan Azərbaycan nümayəndə heyətinin sədri təyin olunmuşdu. 1919-cu ilin dekabrında N.Yusifbəylinin təşkil etdiyi hökumətin tərkibində xarici işlər naziri olmuşdur.

1920-ci il aprel ayının 27-də XI Qırmızı Ordu Azərbaycanı işğal etdi və AXC-nin varlığına son qoyulmuşdur. Tiflisə mühacirət edən Xoyski 1920-ci il iyun ayının 19-da orada muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmiş, Tiflisdə Azərbaycan qəbiristanlığında dəfn edilmişdir.

Ümummilli lider Heydər Əliyev F.Xoyskinin Azərbaycan dövlətçiliyi tarixindəki fəaliyyətini yüksək qiymətləndirmiş, 1995-ci il dekabr ayının 18-də onun 120 illik yubileyinin keçirilməsi barədə Sərəncam imzalamışdır. Tiflisdə məzarı üzərində xatirə abidəsi ucaldılmışdır.

Ədəbiyyat

Xoyski Fətəli Xan: Həyat və fəaliyyəti: (Sənəd və materialları).- Bakı: Azərbaycan, 1998.- 152 s .

Əliyarlı, İ. Fətəli xan İsgəndər xan oğlu Xoyski /İ.Əliyarlı //Kaspi 2012.- 15 may.- S.12.

Xan Xoyski Fətəli (25.11.1875-21.06.1920) //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.X.- S.47.

Xoyski Fətəli xan İsgəndər xan oğlu //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.- Bakı, 2005.- C.II.- S.23.

Şirinova, A. Fətəli Xan Xoyski hökuməti /A.Şirinova //Xalq cəbhəsi.- 2013.- 26 fevral .- S.10.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

90 illiyi

Elməddin Əlibəyzadə
1925 Ədəbiyyatşünas



Elməddin Məhəmməd oğlu Əlibəyzadə 1925-ci il noyabr ayının 5-də Oğuz rayonunun Muxas kəndində anadan olmuşdur. Yeddiillik Oğuz natamam orta məktəbini bitirmiş, Şəki Pedaqoji texnikumuna daxil olmuşdur. 1941-1943-cü illərdə Balakəndə müəllimlik fəaliyyətinə başlamış, gənc yaşlarından II Dünya müharibəsinin ağrı-acılarını yaşamışdır. 1949-cu ildə ADU-nu (indiki BDU) bitirmiş, elmi fəaliyyətini davam etdirmək üçün aspiranturaya qəbul olunmuşdur. EA-nın Dilçilik İnstitutunda geniş elmi fəaliyyətə başlamışdır.

1953-cü ildə namizədlik, 1988-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1956-cı ildə Yerevan Dövlət Pedaqoji institutuna işləməyə göndərilmişdir. Xalqımızın tarixən ata-baba torpaqları olan, indi isə zorla erməni qəsbkarları tərəfindən zəbt olunmuş İrəvan, Göyçə və digər Qərbi Azərbaycan torpaqlarında yaşayan övladlarımızın bilik və bacarığını artırmaq yolunda əzmlə çalışmışdır. Bakıya qayıtdıqdan sonra yenidən Elmlər Akademiyasında elmi fəaliyyətini davam etdirən E.Əlibəyzadə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türk-Araşdırmaları Mərkəzi şöbəsinə rəhbərlik etmişdir. Türk dillərinin qədim türk xalqları ədəbiyyatlarının qədim dövrünün tədqiqi və klassik yazılı abidələrimizin araşdırılması məsələləri onun əsas işidir. Ulu Şumer Babil mədəniyyəti və Azərbaycan probleminin araşdırılması sahəsində aparılan elmi işlər, Azərbaycan elmi, mədəniyyəti tarixində qazanılmış böyük müvəffəqiyyətlər məhz Elməddin Əlibəyzadənin uğurlu fəaliyyətinin məhsuludur.

Alim 300-dən çox elmi əsər, çoxlu sayda qiymətli elmi, tarixi, nəzəri kitablar yazmışdır. "Ədəbi şəxsiyyət və dil" (1982), "Qədim dünyamızın ulu kitabı" (1996), "Ana kitabələr" (1996), "Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr)" (1998), "Nizami və tariximiz" (2004), "Türk-Azərbaycan bədii düşüncəsinin ilkin qaynaqları" (2007), "Azərbaycanşünaslığa giriş" (2010) və s. elmi əsərlərin müəllifidir. E.Əlibəyzadə "Bilqamıs" və "Dədə Qorqud" üzərində bəzi üslubi paralellərin müqayisəli təhlilini aparmışdır. Alp Ər Tonqa ağılarının zəngin, mükəmməl elmi-bədii təhlilini aparmışdır.

Alim Türkiyədə, İranda Azərbaycan elminin təbliğində xüsusilə fəaliyyət göstərmiş, elmi konfranslarda "Novruz", "Qurban" bayramlarının tarixi, "Şumer-Babil mədəniyyəti və Azərbaycan" mövzularında məruzələrlə çıxışlar etmişdir.

Elməddin Əlibəyzadə kadr hazırlığı ilə də məşğul olmuş, onun rəhbərliyi altında bir neçə elmlər namizədi dissertasiya müdafiə etmiş, onlarla dissertasiyaya opponentlik etmişdir.

Ədəbiyyat

"Avesta" Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir /E.Əlibəyzadə; AMEA Nizami ad. Ədəbiyyat İnstitutu.- Bakı: Yurd NPB, 2005.- 238 s.

Azərbaycan dilinin tarixi: 2 cilddə /E.Əlibəyzadə b.- Bakı: Azərbaycan tərcümə mərkəzi, 2007.

Azərbaycan ədəbiyyatı tarixi: ən qədim dövrlər /E.Əlibəyzadə.- Bakı: Qarabağ, 2009.- 831 s.

Alim-vətəndaş Elməddin Əlibəyzadə - 80 /tərt., ön sözün müəl. G.Şükürova. - Bakı: Adiloğlu, 2006.- 476 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.science.gov.az

85 illiyi

Qulu Xəlilov 1930-1995

Ədəbiyyatşünas



Qulu Qasım oğlu Xəlilov (Xəlilli) 1930-cu il noyabr ayının 20-də Qərbi Azərbaycanın Sisyan bölgəsində Qızılcuq kəndində anadan olmuşdur. İlk təhsilini Ağdamda, Fəhlə-gənclər məktəbində alan Qulu Xəlilli 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsində (indiki BDU Jurnalistika fakültəsi) oxumuşdur. Ali təhsilini tamamladıqdan sonra 1954-1955-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında tənqid şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Hələ tələbə ikən universitetdə tələbə elmi cəmiyyətinin sədri, fakültə divar qəzetinin redaktoru olmuşdur. 1956-1959-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) aspirant olmuş, 1959-1967-ci illərdə Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1967-1970-ci illərdə ADU-nun Jurnalistika fakültəsində Azərbaycan mətbuat tarixi kafedrasında müəllim, sonra professor, 1977-1978-ci illərdə filologiya fakültəsində dekan vəzifəsində çalışmışdır.

Milli ədəbiyyatşünaslıq tarixinə sanballı möhürünü vurmaqla özünəməxsus elmi məktəb formalaşdırmış nəcib ziyalılardan olan Qulu Xəlillinin "Qılınc dağında" adlı ilk mətbu əsəri "Ədəbiyyat və incəsənət" qəzetinin 08 yanvar 1953-cü il tarixli nömrəsində dərc edilmişdir. Hekayələri, publisistik və tənqidi məqalələri ilə dövri mətbuatda müntəzəm çıxış etmişdir. 1953-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Azərbaycan ədəbiyyatşünaslığı sahəsində araşdırmaları ona geniş oxucu auditoriyası qazandırmışdır. Elmi məclis və yaradıcılıq plenumlarında cəsarətli, məzmunlu və obyektiv çıxışları ilə məşhurlaşan Q.Xəlilli "Vaqif" pyesi və tarixi dram janrı" mövzusunda namizədlik, sonra 1967-ci ildə Azərbaycan romanının inkişaf tarixini əks etdirən doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Görkəmli alim milli ədəbiyyatşünaslıq elminin müxtəlif aspektləri üzrə apardığı tədqiqatlarla müasir elm tariximizə sanballı möhürünü vurmuş, ədəbi-poetik düşüncənin tədqiqində yeni səhifə, uğurlu cığır açmışdır. O, iyirmidən çox sanballı, prinsipial, dərin mənalı elmi-nəzəri monoqrafik, tənqidi əsərlərin, yüzlərlə publisistik yazıların müəllifidir. Təkcə Azərbaycan romanının inkişaf tarixinə dair fundamental əsəri ədəbiyyatşünaslığımız üçün qiymətli tədqiqat nümunəsidir.

"Ömrün baharı", "Atam və mən", "Yaşamaq istəyirəm", "Həyat və idrak" kimi roman və povestləri, "Yaylaqda", "Qocaların söhbəti", "Umusuq", "Mələk xala", "Həyatdan gələn səslər" və s. hekayələri geniş oxucu kütləsi tərəfindən böyük rəğbət qazanmışdır.

Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Azərbaycan elminin və ədəbiyyatşünaslığının inkişafındakı xidmətlərinə görə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı və beş medalla təltif edilmiş, 1993-cü ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Tənqidçi, ədəbiyyatşünas, müəllim-pedaqoq, görkəmli alim Qulu Xəlilli 1995-ci il noyabr ayının 18-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Hər şeydən keçilər, vətən keçilməz: polemik-publisistik məqalələr /Q.Xəlilli; red. R.Muradlı.- Bakı: Gənclik, 1995.- 156 s.

Sadıqova, A. Vətəndaş fəryadı: Qulu Xəlillinin publisistikası /A.Sadıqova; red. A.Nəbiyev.- Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2000.- 140 s.

Torpaq dərdli insan: Qulu Xəlilli xatirələrdə /tərt.: N.Xəlilov, A.Xəlilov; red. V.Quliyev.- Bakı: Şuşa, 2000.- 352 s.

Məmmədov, Ş. "Qulu Xəlilli jurnalistika fakültəsinə milli ruh, vətənpərvərlik gətirdi" /Ş.Məmmədov //Azərbaycan müəllimi.- 2011.- 29 aprel.-S.14-15.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org
www.e-qanun.az

www.mechmath.bsu.edu.az

75 illiyi

Abasqulu Quliyev 1940

Alim



Abasqulu Məmməd oğlu Quliyev 1940-cı il noyabr ayının 13-də Ermənistan Respublikası Şaumyan rayonu Razdan qəsəbəsində anadan olmuşdur.

Bakı Dövlət Universitetinin kimya fakültəsində təhsil almış, sonra Sumqayıt şəhərində "Səthi aktiv maddələr" zavodunda işləmişdir.

1964-1968-ci illərdə keçmiş SSRİ Elmlər Akademiyasının (indiki AMEA) Yüksək Molekullu Birləşmələr İnstitutunun (Sankt-Peterburq) aspiranturasında təhsilini davam etdirmişdir.

1970-ci ildə namizədlik, 1987-ci ildə "Viniltsiklopropanlar birləşmə, telomerləşmə və polimerləşmə reaksiyalarında" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun əsas tədqiqat obyekti funksional əvəzli viniltsiklo propanların birləşmə və izomerizasion polimerləşmə reaksiyalarının elmi əsaslarının yaradılması, karben və tsiklopropan kimyasının inkişaf etdirilməsindən ibarətdir. Onun elmi araşdırmaları nəticəsində viniltsiklopropanların polimerləşməsinin mexanizm barədə ümumi mülahizə formalaşdırmış, onların polimerləşməsinin aralıq mərhələdə əmələ gələn tsikloalkil radikallarının qruplaşması ilə getməsi barədəki konsepsiya təsdiq edilmişdir. Praktiki əhəmiyyət kəsb edən karbo- və heterozəncirin alınmasının ümumi prinsipi yaradılmış və yüksək litoqrafik göstəricilərə malik yeni fotoelektronrezistorlar işlənib hazırlanmışdır.

Pedaqoji fəaliyyətlə məşğul olan Abasqulu müəllim 1997-2000-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında dərs demişdir.

Professor A.Quliyev keçmiş Sovet İttifaqında, Türkiyədə keçirilən bir sıra Beynəlxalq konfransların iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir. 300-ə yaxın elmi əsərləri çapdan çıxmış, onlardan yarısı xarici mətbuatda dərc edilmişdir. Macarıstan, Bolqarıstan, İngiltərə, Almaniya, Braziliya və İspaniyada keçirilən konfransların materiallarında elmi əsərləri dərc edilmişdir. 62 müəlliflik şəhadətnaməsi və 1 patentin müəllifidir.

Görkəmli alim kadr hazırlığı ilə məşğul olmuş, 5 elmlər namizədinin, 2 elmlər doktorunun yetişməsinə rəhbərlik etmişdir.

O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının kimya elmləri üzrə Ekspert Şurasının üzvüdür. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2005-ci ildən Azərbaycan Respublikasının Əməkdar elm xadimidir.

Ədəbiyyat

Polymerizaton of p-(2-functionally substituted) cyclopropyl styrenes and synthesis of new photo- and electronsensitive polymers /A.Guliyev //A New International Polymer Conference "Partnership in Polymers", Cambridge, 1996.

Synthesis and Investigation of properties of cyclopropane containing polyacrilates. /A.Guliyev //International Polymer Conference SCI "Polymers in the Third Millenium", Montpellier, 2001.

İnternetdə

www.az.wikipedia.org

www.science.gov.az

Azərbaycan Bayrağı Günü 2009



Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verilmişdir. Həmin qərara görə Azərbaycan bayrağını qırmızı materialdan, üstündə ağ aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək nəzərdə tutulmuşdu. Bu qərar qəbul edilərkən Azərbaycan hökuməti hələ Gəncə şəhərində yerləşirdi. Hökumət Bakıda yalnız 15 sentyabr - şəhər türk qoşunlarının köməyi ilə düşmən qüvvələrdən təmizləndikdən sonra fəaliyyət göstərə bilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Bakıda fəaliyyətə başlamasından az sonra, bayraq haqqında ikinci qərar qəbul edilmişdi.

1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası milli bayraq haqqında qərar vermişdir. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı həmin qərarda deyilir: "Milli bayraq kimi yaşıl, qırmızı, mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin".

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilmişdir.

İkinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bu bayraq bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir.Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan bayrağının dalğalandığı dirək dünyada ən hündür bayraq dirəyi hesab olunur. "Ginnes"in dünya rekordları təşkilatı Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Qeyd edək ki, bayrağın çəkisi 350 kiloqramdır. İnşa olunmuş dayağın hündürlüyü isə 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri isə 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur.

Prezident İlham Əliyev 2009-cu il 17 noyabr tarixli Sərəncamla noyabr ayının 9-nu Azərbaycanda Dövlət Bayrağı Günü elan etmiş və bu bayram ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilmişdir.

Ədəbiyyat

Əhmədov, S. Azərbaycan Respublikasının Dövlət Bayrağı /S.Əhmədov, V.Məmmədov; elmi red. və ön sözün müəl. N.Vəlixanlı.- Bakı: Mega basım, 2010.- 153 s.

Əroğul, Ə. Azərbaycan bayrağı /Ə.Əroğlu //Respublika.- 2011.- 1 yanvar.- S.2.

Mirzəbəyli, E. Bir Millət - Bir Bayraq! /E.Mirzəbəyli //Xalq cəbhəsi -2010.- 4 noyabr.- S.3.

Turan, A. Azərbaycan bayrağında Ay-ulduz /A.Turan //Türküstan.- 2013.- 21-27 iyul.- S.9.

İnternetdə


www.anl.az

www.azerbaycanli.org

www.gov.az

www.mct.gov.az

Konstitusiya Günü 1995



Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası, müstəqil Azərbaycanın ilk Konstitusiyası idi.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti, dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşmüşdür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il may ayının 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSR Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunmuşdur. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yaranmış, ulu öndər Heydər Əliyev başda olmaqla xüsusi komissiya təşkil edilmiş və Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi. 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu ilə, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını qoymuş yeni Konstitusiya 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

2009-cu il martın 18-də keçirilən referendumda isə Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur.

Ölkəmizdə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günü kimi qeyd olunur.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir, dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir.

Konstitusiyanın yaranma tarixinə nəzər salsaq görərik ki, dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə təsbit olunmuş, ölkədə qəbul olunan Azadlıqların Böyük Toplusu ilk konstitusiya aktı sayılmışdır. İlk yazılı ali qanun isə ABŞ Konstitusiyasıdır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Konstitusiyası /burax. məsul. E.Əfəndiyev.- Bakı: Hüquq ədəbiyyatı, 2011.- 365 s.

Məmmədov, M. Azərbaycan Respublikasının Konstitusiyası onun dövlət müstəqilliyinin qarantıdır /M.Məmmədov //Respublika.- 2011.- 4 noyabr.- S.4.

Süleymanova, E. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının səmərəli təminə xidmət edir /E.Süleymanova //Respublika.- 2011.- 12 noyabr.- S.7.

İnternetdə

www.anl.az

www.dia.edu.az

www.country.az

www.az.wikipedia.org

"Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünün dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır".

Heydər Əliyev, ümummilli lider

Milli Dirçəliş Günü 1992



1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovmuşdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürmüş, diri-diri yandırmışdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya verməmişdilər. Ermənilər bununla da kifayətlənməmiş, 1988-ci il fevral ayının əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətmişdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırmışdılar.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxmış, xalq öz etirazını şəkildə rəhbərliyə bildirmiş, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V.İ.Lenin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər.

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlanmışdı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdılmışdı. 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

"XX əsri sona vuraraq, 2000-ci ilə gedərək qürur hissi ilə deyə bilərəm ki, həyatımızın nə qədər çətin, faciəli bir dövrünü yaşadıqsa, eyni zamanda ölkəmizin dirçəlişini, inkişafını, daha da gözəl gələcəyini təmin edə bildik".

Heydər Əliyev, ümummilli lider

Ədəbiyyat

Babaoğlu, H. Milli dirçəliş və qurtuluşun əsası: Siyasi sabitliyin təmin edilməsi və milli inkişafın başlanğıcı; lider faktoru /H.Babaoğlu //Yeni Azərbaycan.- 2013.- 15 iyun.- S.4.

Milli dirçəliş yolunun böyük öndəri //Azərbaycan.- 2010.- 14 noyabr.- S.1.

Ziya, Z. Milli dirçəlişin memarı /Z.Ziya //Ekspress.- 2010.- 8-11 may.- S.4-5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadliq.org

Qarakənd faciəsi 1991

Qarakənd faciəsi və ya 20 noyabr faciəsi - 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür. Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulmuşdu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatmış, lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verlişinin xəbərlər bölümündə, saat 15:30-də yayımlanmışdı. Həmin gün bu məlumatı saat 16:15-də Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlamışdı.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV prokuroru İqor Aleksandroviç Plavski, DQMB Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnik-leytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, videooperator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov, Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdi.

Üstündən iyirmi dörd il keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Məsələn, nə üçün bu qədər dövlət rəsmisi eyni zamanda bir helikopterdə toplanmışdır? Nə üçün döyüş zonasında mühafizə üçün onu hərbi helikopter müşayiət etməmişdir? Uçuşun dəqiq marşrutunu ermənilər haradan bilmişdir? Yeri gəlmişkən, həmin məlumata yalnız Qarabağda sovet silahlı qüvvələrinin komandanlığı malik olmuşdu. Helikopterin vurulduğu raketin mənbəyi də məlum deyil. Qarabağda o zaman ən çox istifadə edilən silah təyyarəvuran zenit raketləri və eyninövlü "Alazan" raketləri idi. İstilik raketlərindən istifadə edilmirdi. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır.

Bu terror aktı ilə erməni separatçıları özlərinin terrorçu mahiyyətini bir daha sübut etmişdilər. Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Hazırda isə cinayət işi üzrə istintaq dayandırılmış və buna səbəb terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır.

Ədliyyə İşçilərinin Peşə Bayramı Günü 2000



Azərbaycanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır.

Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Belə ki, Ədliyyə Nazirliyinin təsis edilməsinə xüsusi əhəmiyyət verilərək 1918-ci il may ayının 28-də - Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi, ümummilli lider, cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmişdi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmışdır.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və cənab Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı, səlahiyyət dairəsi genişləndi.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək 22 noyabr - 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməsi üçün dövlət başçısına müraciət edilmiş və cənab Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilmişdir.

Ə d ə b i y y a t

Həsənov, K. Ədliyyə sistemi daim təkmilləşir: 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günüdür /K.Həsənov //Respublika.- 2013.- 19 noyabr.- S.10.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.xalqqazeti.com

NOYABR

30

Tarixdə bu gün

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə "Morris soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilmişdir.

"Morris soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi həqiqətən də çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq informasiya cəmiyyəti inkişaf etdikcə bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq 1988-ci ildə Kompyuter avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü elan etmişdi. Ona görə ki, informasiya təhlükəsizliyi bir ölkəni yox, bütün bəşəriyyəti təhdid edən problemdir.

İnformasiya Təhlükəsizliyi Günü çoxdan istifadə olunan parolların yeniləşdirilməsi, sistemdə virusların mövcudluğunun yoxlanması, verilənlərin arxivləşdirilməsi, lazımsız informasiyanın silinməsi, vacib informasiyaların mühafizə səviyyəsinin auditi, kompleks təhlükəsizliyin və digər bu kimi tədbirlərin həyata keçirilməsi, ictimaiyyətin diqqətinin artırılması, müvafiq qurumların və mütəxəssislərin məsuliyyətinin xatırlanması və ümumiyyətlə, bir monitorinq günüdür. Həmin vaxtdan etibarən informasiya təhlükəsizliyi problemlərinin müxtəlif aspektlərinə həsr olunmuş beynəlxalq tədbirlər keçirilir.

Keçən müddət ərzində bu günün əhəmiyyəti daha da artmışdır. Cəmiyyətin bütün sahələrinin və insanların informasiya-kommunikasiya texnologiyalarından (İKT) asılılığı gücləndikcə informasiya təhlükəsizliyinin əhəmiyyəti özünü daha çox büruzə verir. İnformasiya təhlükəsizliyi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilir.

İnternetin sürətli inkişafı və kütləvi halda istifadəçilərin meydana çıxması ilə kompyuter və kommunikasiya sistemlərinə olan təhdidlər daha ehtimallı olur və onların realizəsinin nəticələri daha da geniş miqyas alır.

İnformasiya təhlükəsizliyinin təmin edilməsinin ən vacib vəzifələrindən biri də yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Bu istiqamətdə ölkədə müəyyən işlər görülür. Bir sıra ali məktəblərdə müvafiq ixtisaslar üzrə kadr hazırlanmasına başlanmışdır.

Vətəndaşlarda informasiya mədəniyyətinin vacib hissəsi olan informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması istiqamətində davamlı və məqsədyönlü tədbirlərin görülməsi zəruriyyəti də dövrümüzün reallıqlarıdır. Belə ki, istifadəçilərdə informasiya-kommunikasiya sistemlərində iş zamanı təhdidlərin vura biləcəyi ziyan, həmin təhdidlərdən mühafizə mexanizmləri haqqında zəruri bilikləri və onlarla işləmək bacarıqları olmalıdır. İnternet şəbəkəsindən istifadə mədəniyyətini formalaşdırmaq, neqativ təsirlərə qarşı "immunitet"in möhkəmləndirilməsi üçün bu mədəniyyət normalarını təbliğ etmək lazımdır.

30 noyabr - Beynəlxalq İnformasiya Təhlükəsizliyi Gününün əsas məqsədlərindən biri də elə budur.

Ə d ə b i y y a t

Beynəlxalq İnformasiya Təhlükəsizliyi gününə həsr olunmuş elmi-praktiki seminarın materialları /Azərb. Milli Elmlər Akademiyası, İnformasiya Texnologiyaları İn-tu; elmi red. R.Əliquliyev, Y.İmamverdiyev.- Bakı: [İnformasiya texnologiyaları], 2012.- 43 s.

1 dekabr

Gün çıxır 07:43
Gün batır 17:15

31 dekabr

Gün çıxır 08:03
Gün batır 17:24

DEKABR



23 noyabr-
21 dekabr

Oxatan bürcünün Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar.

Ç.A.	1
Ç.	2
C.A.	3
C.	4
Ş.	5
B.	6
B.E.	7
Ç.A.	**8**
Ç.	9
C.A.	10
C.	11
Ş.	12
B.	13
B.E.	14
Ç.A.	**15**
Ç.	16
C.A.	17
C.	18
Ş.	19
B.	20
B.E.	21
Ç.A.	**22**
Ç.	23
C.A.	24
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	**29**
Ç.	30
C.A.	31

- *QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)*
- *Beynəlxalq Əlillər Günü (03.12.1992)*
- *Azərbaycan Milli Arxiv İdarəsinin (06.12.1920) yaranmasının 95 illiyi*
- ***Xankəndinin işğalı günü (28.12.1991)***
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

130 il Üzeyir Hacıbəyli *1885-1948*



"Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər." Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin dediyi bu sözləri ilk növbədə bəstəkarın özünə aid etmək olar.

Üzeyir Hacıbəyli kimi dahilərin sənət dünyası ilə daha da zənginləşən Azərbaycan musiqisi bu gün çiçəklənmə dövrünü yaşayır. Üzeyir bəyin heç vaxt təravətini itirməyən irsi misilsiz sərvətdir. O, bu sərvəti bütün bəşəriyyət üçün qoyub gedib. İnanaq ki, dünyanı dolaşan bu musiqi tezliklə bəstəkarın bu səsə həsrət yurduna – Qarabağa, Şuşaya da çatacaq. "Üzeyir musiqi gün"ləri Cıdır düzündə keçiriləcək.

DEKABR

2015



Milli ədəbiyyat

Nasir, publisist, tərcüməçi Ağayev Rafiq İmanqulu oğlunun (Rafiq Savalan) (01.12.1940) anadan olmasının 75 illiyi

Xalq şairi Qurbanov Osman Abdulla oğlunun (Osman Sarıvəlli) (17.12.1905-03.07.1990) anadan olmasının 110 illiyi 316

Əməkdar incəsənət xadimi, nasir Vəkilov Yusif Səməd oğlunun (25.12.1935 - 17.08.1998) anadan olmasının 80 illiyi 317

Əməkdar mədəniyyət işçisi, şair Cabbarov Zeynal Əliabbas oğlunun (Zeynal Cabbarzadə) (31.12.1920-20.01.1977) anadan olmasının 95 illiyi 318



Folklor

Aşıq, şair Bədəlbəyli Əsgər Xanhüseyn oğlunun (28.12.1940) anadan olmasının 75 illiyi



Dünya ədəbiyyatı

Türk yazıçısı, publisist Əziz Nesinin (20.12.1915-06.07.1995) anadan olmasının 100 illiyi

Türk yazıçısı Kamal Namiq Mustafa Asım Bəy oğlunun (21.12.1840-2.12.1888) anadan olmasının 175 illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Əbdürrəhmanov Nadir Qəmbər oğlunun (05.12.1925-26.06.2008) anadan olmasının 90 illiyi

Xalq rəssamı Bağırov Fikrət Bağır oğlunun (10.12.1935-1996) anadan olmasının 80 illiyi

Əməkdar incəsənət xadimi, rəssam Topçubaşova Reyhan İbrahim qızının (15.12.1905- 05.03.1970) anadan olmasının 110 illiyi 319



Musiqi.Opera.Balet

Xalq artisti, bəstəkar Bakıxanov Tofiq Əhmədxan oğlunun (08.12.1930) anadan olmasının 85 illiyi 320

SSRİ Xalq artisti, müğənni Behbudov Rəşid Məcid oğlunun (14.12.1915-09.06.1989) anadan olmasının 100 illiyi 321

Əməkdar incəsənət xadimi, professor, sənətşünaslıq doktoru Əfəndiyeva İmruz Məmməd Sadıx qızının (16.12.1935) anadan olmasının 80 illiyi 322

Alman bəstəkarı Bethoven Lüdviq Vanın (16.12.1770-26.03.1827) anadan olmasının 245 illiyi 323

Bəstəkar Babayev Mobil Rəşid oğlunun (23.12.1945) anadan olmasının 70 illiyi



Teatr.Kino

Xalq artisti, kinorejissor, ssenarist Seyidbəyli Həsən Mehdi oğlunun (22.12.1920-25.06.1980) anadan olmasının 95 illiyi 324

Əməkdar artist İbrahimov Sadiq Əli Abbas oğlunun (23.12.1945) anadan olmasının 70 illiyi

Xalq artisti Əhmədova Nuriyyə Əliağa qızının (26.12.1950) anadan olmasının 65 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Rüstəmov Füzuli Salah oğlunun (25.12.1965-1990) anadan olmasının 50 illiyi 325

Azərbaycanın Milli Qəhrəmanı Aslanov Niyazi Şərəfxan oğlunun (25.12.1960-04.05.1992) anadan olmasının 55 illiyi 326

Azərbaycanın Milli Qəhrəmanı Həsənov Eldar İsfəndiyar oğlunun (26.12.1965-12.05.1994) anadan olmasının 50 illiyi 327



Siyasət.Hərbi iş

Hərbi xadim general mayor Sadıqov Nurəddin Sadiq oğlunun (05.12.1935-22.12.2009) anadan olmasının 80 illiyi

Əməkdar hüquqşünas, hüquq elmləri doktoru, professor, Azərbaycan EA-nın müxbir üzvü Qəhrəmanov Vahid Pənah oğlunun (28.12.1900-1978) anadan olmasının 115 illiyi



Tarix

Müasir türk tarixşünaslığının banilərindən biri, görkəmli başqırd professoru Əhməd Zəki Validi Toğanın (10.12.1890-26.07.1970) anadan olmasının 125 illiyi 328

Tarix elmlər doktoru, professor Əlibəyli Həsən Cahangir oğlunun (16.12.1940) anadan olmasının 75 illiyi

Tarix elmləri doktoru, professor Əliyarlı Süleyman Sərdar oğlunun (18.12.1930-16.01.2014) anadan olmasının 85 illiyi

Akademik Vəlixanlı Nailə Məmmədəli qızının (25.12.1940) anadan olmasının 75 illiyi 329

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor İbrahimov Zülfəli İmaməli oğlunun (25.12.1910-21.09.1972) anadan olmasının 105 illiyi

İlk azərbaycanlı qadın gəmi kapitanı Səlimova Şövkət Şahbaz qızının (25.12.1920-1999) anadan olmasının 95 illiyi



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Professor, filosof Nəsirov Vəli Hüseynəli oğlunun (17.12.1925-16.06.1987) anadan olmasının 90 illiyi

Filosof, fəlsəfə elmləri doktoru, professor Mirzəyeva Şüküfə Şamil qızının (20.12.1925) anadan olmasının 90 illiyi

AMEA-nın müxbir üzvü, Əməkdar iqtisadçı Axundov Bəhmən Yusif oğlunun (28.12.1910-02.10.1980) anadan olmasının 105 illiyi

Akademik Köçərli Firudin Qasım oğlunun (28.12.1920-03.06.2005) anadan olmasının 95 illiyi 330



Mədəniyyət.Maarif.Elm

Tənqidçi, ədəbiyyatşünas Musaxanlı Atababa Daşdəmir oğlunun (20.12.1905- 14.08.1941) anadan olmasının 110 illiyi

Akademik Abdullayev Kamal Mehdi oğlunun (Kamal Abdulla) (04.12.1950) anadan olmasının 65 illiyi 331

Filologiya elmləri doktoru, professor Əhmədov Teymur Əkbər oğlunun (25.12.1930) anadan olmasının 85 illiyi 332

Filologiya elmləri doktoru, professor Abdullayev Cəlal Mehdi oğlunun (30.12.1930-20.05.2010) anadan olmasının 85 illiyi

Filologiya elmləri doktoru, professor Şükürov Sadiq Cəfər oğlunun (31.12.1925) anadan olmasının 90 illiyi

Ədəbiyyatşünas, mətnşünas Bayramova Ofelya Əşrəf qızının (Ofelya Bayramlı) (31.12.1935-30.06.2006) anadan olmasının 80 illiyi



Coğrafiya.Geologiya

Akademik Mehdiyev Şəfaət Fərhad oğlunun (15.12.1910-1985) anadan olmasının 105 illiyi 333



Riyaziyyat.Fizika.Astronomiya

Akademik Haşımzadə Firudin Məmməd Əli oğlunun (07.12.1935) anadan olmasının 80 illiyi 334

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Aydazadə Kamil Rəcəb oğlunun (24.12.1950) anadan olmasının 65 illiyi

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Cəfərov İsgəndər Həsən oğlunun (30.12.1940) anadan olmasının 75 illiyi

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru Xeyirov Məmməd Bəy oğlunun (31.12.1925) anadan olmasının 90 illiyi



Kimya.Biologiya.Tibb

Akademik Məmmədəliyev Yusuf Heydər oğlunun (31.12.1905-15.12.1961) anadan olmasının 110 illiyi 335



Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor Abbasov Vaqif Abbas oğlunun (04.12.1945) anadan olmasının 70 illiyi
Akademik İbrahimov İsmayıl Əli oğlunun (31.12.1915) anadan olmasının 100 illiyi 336



Kitabxanaşünaslıq.Biblioqrafiya

Pedaqogika üzrə fəlsəfə doktoru, publisist, şair Aslan Knyaz İlyas oğlunun (25.12.1960) anadan olmasının 55 illiyi 337



Tarixdə bu gün

QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988) 338
Beynəlxalq Əlillər Günü (03.12.1992) 338
Azərbaycan Milli Arxiv İdarəsinin (06.12.1920) yaranmasının 95 illiyi 339
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı (06.12.2006) 340
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (12.12.)
Seyid Cəfər Pişəvərinin başçılığı ilə Güney Azərbaycanda Milli Hökumətin (12.12.1945) yaradılmasının 70 illiyi
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranmasının (16.12.2005) 10 ili
Beynəlxalq təqvim və saat qəbul edilmişdir (25.12. 1925)
Xankəndinin işğalı günü (28.12.1991) 341
28 dövlətin iştirakı ilə Dünya Bankı qurulmuşdur (27.12.1945)
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991) 342

110 illiyi
Osman Sarıvəlli
1905-1990

Şair



Osman Abdulla oğlu Qurbanov (Osman Sarıvəlli) 1905-ci il dekabr ayının 17-də Azərbaycanın Qazax rayonunun II Şıxlı (Sarıvəlli) kəndində anadan olmuşdur. Orta təhsilini Qazax Müəllimlər Seminariyasında aldıqdan sonra 1929-1938-ci illərdə Göyçay rayonunun Qaraməryəm və Bığır kənd məktəblərində müəllimlik etmiş, 1929-1932-ci illərdə ikinci Moskva Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. 1932-1935-ci illərdə Bakı Pedaqoji Texnikumunda müəllim, 1939-1940-cı illərdə Bakı Teatr Texnikumunda müdir, 1941-1942-ci illərdə Təbrizdə çıxan "Vətən yolunda" qəzeti redaksiyasında məsul katib, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müdir müavini, "Ədəbiyyat" qəzetinin redaktoru, "Uşaqgəncnəşr"də redaktor, Azərbaycan Sovet Yazıçılar İttifaqında şeir üzrə məsləhətçi vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1928-ci ildə "Gənc işçi" qəzetində çıxan "Ayaqsıza" şeiri ilə başlamış, 1934-cü ildə "Dəmir sətirlərim" adlı ilk şeirlər kitabını çap etdirmişdir. Daha sonra "Bənövşə" (1940), "Gənclik eşqi" (1946), "Şeirlər" (1948), "Yeni dünyanın qapısı" (1950), "Balaca dostlar" (1955), "Sabahı yaradanlar" (1970), "Hər kim yüz il yaşamasa" (1976), "Seçilmiş əsərləri" (II cilddə. 1986-1987), "Kür qırağında" (1987), bütövlükdə isə 26 adda kitabı işıq üzü görmüşdür. Dövri mətbuatda müntəzəm olaraq çıxışlar etmiş, əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Özü isə Nizami Gəncəvinin, Əfzələddin Xaqaninin, Viktor Hüqonun, Nazim Hikmətin, A.S.Puşkinin, N.A.Nekrasovun, T.Q.Şevçenkonun, N.Tixonovun, K.Simonovun, Y.Çarensin və başqalarının bir sıra əsərlərini, Sofoklun "Antiqona" faciəsini dilimizə çevirmişdir. Dünya xalqlarının sülh, demokratiya və azadlıq uğrunda mübarizəsi, beynəlxalq imperializmin ifşası Sarıvəlli poeziyasının başlıca mövzuları idi. Şair xalq yaradıcılığının təbliği, aşıqların əsərlərinin tərtibi və tədqiqi sahəsində də fəaliyyət göstərmişdir.

1937-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1977-ci ildə ona "Azərbaycanın Xalq şairi" fəxri adı verilmişdir. "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu", "Şərəf nişanı" ordenləri və Fəxri fərmanlarla təltif edilmişdir.

Osman Sarıvəlli 1990-cı il iyul ayının 3-də Bakıda vəfat etmiş, doğulduğu kənddə dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: [şeirlər, poemalar]: iki cilddə /O.Sarıvəlli.- Bakı: Azərnəşr, 1986.- C.I.- 448 s.

Seçilmiş əsərləri: iki cilddə /O.Sarıvəlli.- Bakı: Azərnəşr, 1987.- C.II.- 445 s.

Bizim babalar, bizim nəvələr: [şeirlər və poemalar] /O.Sarıvəlli.- Bakı: Gənclik, 1980.- 84 s.

Kür qırağında: [şeirlər və mənzum dram] /O.Sarıvəlli.- Bakı: Yazıçı, 1987.- 348 s.

Mən sabaha gedirəm /O.Sarıvəlli.- Bakı: Yazıçı, 1979.- 232 s.

Hər kim yüz il yaşamasa /O.Sarıvəlli; red. M.Seyidzadə.- Bakı: Gənclik, 1976.- 190 s.

İnternetdə

www.az.wikipedia.org


www.azerbaycanevi.com

www.bakunights.net

80 illiyi

Yusif Səmədoğlu 1935-1998

Yazıçı



Ədəbiyyat

Seçilmiş əsərləri /Y.Səmədoğlu.- Bakı: Şərq-Qərb, 2005.- 320 s.

220 nömrəli otaq: [hekayələr] /Y.Səmədoğlu.- Bakı: Uşaqgəncnəşr, 1960.-79 s.

Qalaktika: [hekayələr] /Y.Səmədoğlu.- Bakı: Gənclik, 1973.- 56 s.

Qətl günü: [roman] /Y.Səmədoğlu.- Bakı: Yazıçı, 1987.- 183 s.

Əhmədov, T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): [ensiklopedik məlumat kitabı].- Bakı, 2011.- S .1005.

Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular /İ.Həbibbəyli //Ədəbiyyat qəzeti.- 2008.- 1 fevral.- S.3.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.net

Yusif Səməd oğlu Vəkilov 1935-ci il dekabr ayının 25-də Bakı şəhərində Xalq şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur.

44 saylı Bakı şəhər orta məktəbini bitirərək 1953-cü ildə Moskvada Yazıçılar İttifaqı nəzdindəki M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olmuş, 1957-1958-ci illərdə həmin institutun dördüncü kursundan ADU-nun filologiya fakültəsinin beşinci kursuna dəyişilmişdir.

Əmək fəaliyyətinə 1958-1959-cu illərdə "Kommunist" qəzeti redaksiyasında tərcüməçi-redaktor kimi başlamışdır.

1959-cu ildə "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, 1960-1965-ci illərdə həmin redaksiyada Nəsr şöbəsinin müdiri, 1965-1969-cu illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın Ssenari redaksiya heyətinin üzvü, ssenari redaksiya heyətinin baş redaktoru, 1969-1976-cı illərdə "Azərbaycanfilm" kinostudiyasının direktor müavini, 1976-1987-ci illərdə "Ulduz" jurnalının baş redaktoru olmuş, 1987-ci ildən "Azərbaycan" jurnalının baş redaktoru vəzifəsində çalışmışdır.

1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (nəsr üzrə katib) seçilmişdir.

Bədii yaradıcılığa 1953-cü ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Qanlı çörək" adlı ilk mətbu hekayəsi ilə başlamışdır. Nasirin "220 nömrəli otaq" (1960), "Qalaktika" (1973), "Qətl günü" (1987) və "Seçilmiş əsərləri" (2005) kitabları çapdan çıxmışdır. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Onun "Yeddi oğul istərəm" ssenarisi əsasında film çəkilmişdir.

"Qətl günü" romanına görə 1987-ci ildə SSRİ Yazıçılar İttifaqının mükafatına layiq görülmüşdür.

1972-1974-cü illərdə bir sıra xarici ölkələrdə yaradıcılıq ezamiyyətində olmuşdur.


1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1970-ci ildə Azərbaycan Komsomolu mükafatı laureatı olmuş, 1980-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1990-cı ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir.

Yusif Səmədoğlu 1998-ci il avqust ayının 17-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

95 illiyi

Zeynal Cabbarzadə 1920-1977

Şair



Zeynal Əliabbas oğlu Cabbarov 1920-ci il dekabr ayının 31-də Bakı şəhərində, dənizçi ailəsində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1934-1937-ci illərdə fəhlə fakültəsində təhsil almış, 1937-1941-ci illərdə APİ-nin ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. Eyni zamanda 1938-1939-cu illərdə "Balıq cəbhəsi" və "Krasnı kurinets" ("Qırmızı kürçaylı") qəzeti redaksiyalarında fəaliyyət göstərmişdir.

1940-cı ilin yanvar-iyun aylarında Şamaxı rayonunun Mədrəsə kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. İkinci Dünya müharibəsi başlanan vaxt səfərbərliyə alınmış, piyada məktəbində kursant olmuş, kiçik leytenant rütbəsi ilə 416-cı atıcı diviziyasında hərbi xidmətini davam etdirmişdir. Naurisk rayonunda hərbi əməliyyatda ağır zədələndiyinə görə eşitmə və görmə qabiliyyətini itirmişdir.

1943-cü ildə hərbi xəstəxanadan ehtiyat baş leytenantı kimi tərxis olunmuşdur.

Z.Cabbarzadə yaradıcılığa kiçik yaşlarından başlamışdır. Onun "Puşkin" adlı ilk mətbu şeiri 1937-ci ildə dərc edilmişdir. İkinci Dünya müharibəsi və sonrakı illərdə coşqun yaradıcılıqla məşğul olmuşdur. 1943-cü ilin aprelindən 1948-ci ilin oktyabr ayınadək Azərbaycan Yazıçılar İttifaqında "Natəvan" adına klubun müdiri, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi və məsul katib vəzifələrində çalışmışdır.

"Pioner" jurnalında məsul katib, 1950-ci ildən ömrünün sonunadək məsul redaktor olmuşdur. Bu müddətdə dəfələrlə Azərbaycan LKGİ MK-nın rəhbər orqanlarına seçilmişdir. Onun ilk "Xanımana"(1946) kitabında cəbhə şeirləri toplanmışdır. Şairin sonrakı illərdə bir-birinin ardınca "Əfzələddin və şah" (1947), "Şerlər" (1950), "Çinar" (1952), "Bahar gəlir" (1954), "Dnepr sahillərində" (1956), "Arzular" (1958) , "Yaylaqda" (1960), "Sizin səsiniz" (1963), "Məni bağışlayın" (1965), "Uca dağ başında" (1980), "Atasının oğlu" (1986) və digər kitabları çapdan çıxmışdır.

Z.Cabbarzadə xidmətlərinə görə bir sıra medal və fəxri fərmanlarla təltif edilmişdir.

Şair 1943-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1970-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Zeynal Cabbarzadə 1977-ci il yanvar ayının 20-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Atasının oğlu: [şeirlər və poemalar]: kiçik-yaşlı məktəblilər üçün /Z.Cabbarzadə.- Bakı: Gənclik, 1986.- 72 s.

Bizim dünya: [şeirlər və poemalar] /Z.Cabbarzadə.- Bakı: Yazıçı, 1985.- 160 s.

Elə bil ki, dünəndi... /Z.Cabbarzadə.- Bakı: Gənclik, 1989.- 139 s.

Şeirlər /Z.Cabbarzadə.- Bakı: Uşaqgəncnəşr, 1951.- 20 s.

Uca dağlar başında: [şeirlər və poemalar] /Z.Cabbarzadə.- Bakı: Gənclik, 1980.- 222 s.

Əhmədov, T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.- S.1022.

İnternetdə

www.anl.az

www.kirimdernegi.org

110 illiyi Reyhan Topçubaşova 1905-1970

Rəssam



Reyhan İbrahim qızı Topçubaşova 1905-ci il dekabr ayının 15-də Qubada anadan olmuşdur. İlk təhsilini Hacı Zeynalabdin Tağıyevin Bakıda açdığı Qızlar məktəbində almışdır.

1923-cü ildə konservatoriyanın fortepiano sinfinə qəbul olunmasına baxmayaraq, ailə həyatı qurması və övladının dünyaya gəlməsi ilə əlaqədar təhsilini başa vura bilməmişdi. 1931-1935-ci illərdə görkəmli rəssam Əzim Əzimzadənin rəhbərlik etdiyi Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda oxumuşdur.

Əsərləri 1936-cı ildən respublika sərgilərində nümayiş olunmağa başlamışdır. Boyakarlığın portret ("M.Ə.Sabir", "Q.Almaszadə" və s.), məişət ("Köhnə bazar", "Toy", "Küçə" və s.) və mənzərə ("Qız qalası", "Dəniz", "Mərdəkanın görünüşü", "Gecə vaxtı dənizin mənzərəsi" və s.) janrlarında gözəl əsərlər yaratmış, eləcə də süjetli kompozisiyalar və natürmortlar çəkmişdir.

Mənzərə rəsmlərində Abşeron təbiətinin təsviri əsas yer tutur. Reyhan xanımın çəkdiyi əsərlərin hər birində müəllimi Əzim Əzimzadənin realist üslubu duyulurdu. Onun yaradıcılığı çoxşaxəli olmuş, bir çox janrlarda əsərlər yaratmışdır.

Balerina Qəmər Almaszadənin İncəsənət Muzeyinin daimi ekspozisiyasında nümayiş olunan portreti də Reyhan xanımın yaradıcılığının çoxşaxəli olmasının bariz nümunəsidir. Yaşadığı dövrün, zamanın bir çox hadisələrini gerçəkliyi ilə əsərlərində təsvir edərək əbədiləşdirməyə nail olmuşdur.

Tanınmış rəssamın "Köhnə Bakı küçəsi", "Şahdağ", "Dəniz" (Mərdəkandan görünüş), "Qayıq", N.Gəncəvinin "Xəmsə"sinə, M.Ə.Sabirə həsr edilmiş əsərləri ona böyük uğur gətirmişdir. Rəssamın əsərləri hazırda İncəsənət Muzeyində mühafizə olunur.

Reyhan xanımın təsviri incəsənət sahəsində uğurlu işlərindən biri də əsərlərində ustalıqla təsvir etdiyi milli geyim eskizləri əsasında mahnı və rəqs ansamblları üçün geyim eskizləri işləməsidir. Hazırda rəssamın evində 50-yə yaxın geyim eskizi saxlanılır.

1941-1945-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədr müavini olmuşdur.

R.Topçubaşova 1943-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. O, bu fəxri adı alan ilk azərbaycanlı qadındır.

Reyhan xanım Topçubaşova uzun sürən ağır xəstəlikdən sonra 1970-ci il mart ayının 5-də, Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Günay. Əməkdar incəsənət xadimi adını almış ilk azərbaycanlı qadın /Günay //Paritet.- 2008.- 8-12 may.- S.16.

Reyhan Topçubaşova (1905-1970) İzzət Seyidova (1910-1973) /layih. rəhb. Ç.Fərzəliyev.- Bakı, 2013.- S.8-42.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org


www.books.google.com

www.kitabxana.net

85 illiyi

Tofiq Bakıxanov 1930

Bəstəkar



Ədəbiyyat

"Xeyir və Şər" baletindən skripka və fortepiano üçün köçürmələr: dərs vəsaiti /T.Bakıxanov.- Bakı, 2010.- 44 s. (17 s.)

"Kəlam" gəzir dünyanı: [L.Mirzəbəylinin sözlərinə yazılmış musiqilər. Fortepiano ilə oxumaq üçün] /T.Bakıxanov.- Bakı, 2012.- 28 s.

Quzey Kıprıs fəsilləri: Quzey Kıprıs suitaları: Kaman: Skripka və fortepiano üçün /T.Bakıxanov.- Bakı, 2014.- 70 s.

Abdullayev, A. Tofiq Bakıxanovun yaradıcılığında xalq sevgisindən istifadənin bəzi bədii prinsipləri /A.Abdullayev //Musiqi dünyası.- 2012.- №2/51.- S.105.

Тофик Бакиханов: "Живу музыкой": [сборник] /сост. О.Алиева; ред. Г.Абдуллазаде; БМА им. Уз.Гаджибейли.- Баку: Мутарджим, 2014.- 463 с.

İnternetdə

www.anl.az

www.kirimdernegi.org

Tofiq Əhmədağa oğlu Bakıxanov 1930-cu il dekabr ayının 8-də Bakıda, görkəmli tarzən, respublikanın Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açıb. O, XIX əsrdə Azərbaycanın məşhur alimi, tarixçisi, şairi və ictimai xadimi Abbasqulu Ağa Bakıxanovun (təxəllüsü Qüdsi) nəslindəndir.

Tofiq Bakıxanov ilk musiqi təhsilini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası (indiki Bakı Musiqi Akademiyası) nəzdindəki onillik musiqi məktəbində (indiki Bülbül adına orta ixtisas musiqi məktəbi) skripka aləti üzrə respublikanın Əməkdar müəllimi M.İ.Simberovdan almışdır. Sonra Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirərək oranı iki ixtisas üzrə - 1953-cü ildə skripka üzrə professor A.N.Amitonun, 1957-ci ildə bəstəkarlıq üzrə professor Q.Qarayevin sinfini - bitirmişdir.

Tələbəlik illərində T.Bakıxanov ifaçılıq fəaliyyəti ilə məşğul olaraq Azərbaycan Dövlət Simfonik Orkestrində, həmçinin Azərbaycan radiosunun simfonik orkestrində solist kimi çalışmışdır.

T.Bakıxanovun yaradıcılığında kamera-instrumental və simfonik janrlı əsərlər üstünlük təşkil edir. O, üç balet ("Xəzər balladası", "Şərq poeması" və "Xeyir və Şər"), bəstəkar Nəriman Məmmədovla birlikdə yazdığı 3 musiqili komediya ("Altı qızın biri pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir"), tar və müxtəlif alətlər ilə simfonik orkestr üçün 25 konsert, 20 sonata, 5 simfonik muğam ("Nəva", "Şahnaz", "Rahab", "Humayun", "Dügah"), 8 simfoniya, 6 simfonik poema, kamera musiqisi sahəsində 26 sonata, müxtəlif tərkibli ansambllar üçün əsərlərin, 100-dən artıq mahnı və romansın müəllifidir.

Bəstəkar yarım əsrdən artıqdır ki, Bakı Musiqi Akademiyasında gənc nəslə musiqinin sirlərini öyrədir.

Professor Tofiq Bakıxanovun çoxşaxəli yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, 1991-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, 2000-ci ildə "Şöhrət" ordeni ilə, bir sıra medallar və Fəxri fərmanlarla təltif edilmişdir.

Haqqında resenziyalar, monoqrafiyalar, silsilə məqalələr yazılmış, "Tofiq Bakıxanov" adlı televiziya filmi çəkilmişdir.

Bəstəkar bu gün də yorulmaq bilmədən bir-birindən gözəl əsərlər yaradaraq milli musiqi xəzinəmizi zənginləşdirir.

100 illiyi

Rəşid Behbudov 1915-1989

Müğənni



Rəşid Məcid oğlu Behbudov 1915-ci il dekabr ayının 14-də Tiflisdə, xanəndə Məcid Behbudalı oğlunun ailəsində dünyaya gəlmişdir. Anası Firuzə xanım Vəkilovlar nəslinə mənsub idi.

Uşaq yaşlarından məktəb xorunda oxuyan Rəşid 1933-cü ildə Dəmiryolu Texnikumuna daxil olmuşdur. Təhsil illərində tələbə özfəaliyyət orkestrində çalışmışdır.

Hərbi xidməti zamanı ordu ansamblının solisti olan R.Behbudov, əsgəri xidmətdən sonra Tiflis estrada qruplarından birində solistlik etmişdir.

1945-ci ildə Bakı kinostudiyasında Ü.Hacıbəylinin eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rol alan R.Behbudov filmin nümayişindən sonra dünyanın 50-dən artıq ölkəsində yaratdığı Əsgər obrazı ilə təkrarsız səsi, yüksək musiqi duyumu və zərif artistlik qabiliyyəti ilə tanınmış və sevilmişdir. 1946-cı ildə bu rola görə "Stalin mükafatı" ilə təltif olunmuşdur. 1949-cu ildə Budapeştdə keçirilən Gənclərin və tələbələrin Ümumdünya festivalının iştirakçısı olmuşdur.

1946-1956-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-1960-cı illərdə fasilələrlə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1957-1959-cu illərdə Azərbaycan Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olmuşdur.

"Sevimli mahnı" (1958), "Bəxtiyar", "1001-ci qastrol" (1974) bədii filmlərində, həmçinin "Doğma xalqıma" (1954) bədii-sənədli filmdə çəkilmişdir. 1966-cı ildə Azərbaycan Dövlət Mahnı Teatrını yaratmış və ömrünün sonunadək teatrın solisti və bədii rəhbəri olmuşdur.

Bütün Sovet respublikaları ilə yanaşı, dünyanın 60-dan artıq ölkəsində qastrol səfərlərində olmuş, Azərbaycan musiqisini layiqincə təbliğ etmişdir. Onun ifasında "Azərbaycan" mahnısı Azərbaycanın əbədi vizit kartına çevrilmişdir. Lirik tenor səsə malik müğənninin repertuarında hind, alban, bolqar, türk, fars, italyan xalq mahnıları öz ifa gözəlliyi ilə seçilirdi. R.Behbudov Hindistana səfəri haqqında "Uzaq Hindistanda" kitabını yazmışdır.

O, Azərbaycan xalq mahnılarını və dünya bəstəkarlarının əsərlərini oxuyarkən yalnız ifaçı kimi deyil, həm də yaradıcı kimi çıxış edirdi.

Azərbaycahn SSR Ali Sovetinə (III-VI çağırış) deputat seçilmişdir.

Müğənninin yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1959-cu ildə ona "SSRİ Xalq artisti", 1980-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adları verilmişdir. SSRİ-nin "Lenin", "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu" ordenləri ilə təltif olunmuş, bir sıra xarici ölkələrin dövlət mükafatlarına layiq görülmüşdür.

1996-cı ildə onun adına poçt markası buraxılmışdır.

Rəşid Behbudov 1989-cu il iyun ayının 9-da, Moskva şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Uzaq Hindistanda /R.Behbudov; red. Y.Məmmədov.- Bakı: Uşaqgəncnəşr, 1952.- 56 s.

Behbudov Rəşid Məcid oğlu //Azərbaycan Sovet Ensiklopediyası: on cilddə.- Bakı, 1978.- C.II.- S.129.

Səməd, M .Yaddaşımızın yaşıdları /M.Səməd.- Bakı, 2003.- S.105-117.

Şərif, A. Əbədi bərq vuran ulduz XX əsr //Şərif Ə. Azərbaycanın yaradıcı nəsilləri.- Bakı, 2007.- S.37-39.

Гордость азербайджанского народа /сост. И.Эфендиева.- Баку: Şərq-Qərb, 1996.- 112 s.

İnternetdə

www.anl.az

İmruz Əfəndiyeva

80 illiyi 1935

Sənətşünas



Ə d ə b i y y a t

Axtarış yollarının bəhrəsi: [məqalələr toplusu] /İ.Əfəndiyeva; tərt. L.Məmmədova-Fərəcova; M.Əhmədova; red. G.Abdullazadə, C.Mahmudova.- Bakı: Zərdabi LTD, 2014.- 524 s.

Dahi alim və pedaqoq: Arnold Soxor-85 /İ.Əfəndiyeva //Musiqi dünyası.- Bakı, 2009.- №1-2.- S.23-26.

Musiqidə keçən ömür: biblioqrafiya; tərt. ed. S.Əsədova; burax. məs. və ixt. red. K.Tahirov; red. M.Vəliyeva; M.F.Axundov adına Milli Kitabxana.- Bakı, 2013.- 216 s.

Азербайджанская советская песня: монография /И.Эфендиева.- Баку: Язычы, 1981.- 150 с.

Васиф Адигезалов: монография /И.Эфендиева.- Баку: Шур, 1999.- 323 с.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

İmruz Məmməd Sadıx qızı Əfəndiyeva 1935-ci il dekabr ayının 16-da Bakı şəhərində, görkəmli dövlət xadimi, teatrşünas-alim, maarifçi və dramaturq Məmməd Sadıx Əfəndiyevin ailəsində anadan olmuşdur. İlk təhsilini Bakı şəhərindəki 189 saylı orta məktəbdə almışdır. 1951-1955-ci illərdə A.Zeynallı adına Bakı Musiqi Texnikumunda təhsilini davam etdirmişdir. 1955-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. 1960-cı ildə konservatoriyanın tarix-nəzəriyyə fakültəsini bitirmiş və orada işləməyə başlamışdır. 1962-ci ildə Azərbaycan EA-nın (indiki MEA-nın) Memarlıq və İncəsənət İnstitutunun aspiranturasına daxil olmuş, 1965-ci ildə oranı bitirmişdir. 1974-cü ildə ilk kitabı – "Новое в Азербайджанской песне" çapdan çıxmışdır. 1982-ci ildə Tbilisidə namizədlik, 2005-ci ildə isə Bakıda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1983-cü ildən BMA-nın Tələbə Elmi Cəmiyyətinin sədri və elmi rəhbəridir. 1985-ci ildən Bakı Musiqi Akademiyasının dosenti, 1993-cü ildən müsabiqə yolu ilə professor vəzifəsində çalışır.

İ.Əfəndiyeva 1968-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. O, Moskva, Peterburq, Kiyev, Tbilisi, Minsk, Tallin, Bakı və digər şəhərlərdə keçirilən ümumittifaq plenumlarda, konfranslarda, beynəlxalq simpoziumlarda maraqlı məruzələrlə çıxışlar edir, habelə elmi-nəzəri və publisistik məqalələləri həmin ölkələrin mətbu orqanlarında dərc edilir. O, milli harmoniya, Azərbaycan milli musiqisinin müxtəlif janrları əsasında bəstələnmiş 200 sekvensiyanın, "Azərbaycan mahnılarında yenilik", "Telman Hacıyev", "Azərbaycan sovet mahnısı", Rəşid Behbudovun 80 illiyinə həsr edilmiş "Гордость Азербайджанского народа", "Детская музыка в творчестве Севды Ибрагимовой" və "Vasif Adıgözəlov" monoqrafiyalarının müəllifidir. Musiqişünas habelə, bəstəkarlarımız haqqında müxtəlif səpkili oçerklər, elmi-publisistik məqalələr yazmış, ayrı-ayrı sənətkarların, ifaçıların yaradıcılıq portretlərini yaratmışdır. Əlli ildən artıqdır ki, o, səmərəli pedaqoji fəaliyyətini uğurla davam etdirir. Müxtəlif konfranslar, müsabiqələr təşkil edərək tələbələri bu işə cəlb edir.

O, BMA-nın Elmi Şuranın İxtisaslaşmış Müdafiə Şurasının üzvü, kafedra müdiri və dekan vəzifələrinin tutulması ilə bağlı müvafiq komissiyanın sədridir.


İ.Əfəndiyeva 1968-ci ildən etibarən milli televiziya və radioda maraqlı verilişlərin aparıcısıdır.

Professor İ.Əfəndiyevanın fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 2008-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2012-ci ildə yüksəkixtisaslı musiqiçi kadrların hazırlanması sahəsində uzun müddət səmərəli pedaqoji fəaliyyətinə görə və anadan olmasının 75 illiyi münasibətilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

245 illiyi

Lüdviq Van Bethoven 1770-1827

Bəstəkar



Lüdviq Van Bethoven 16 dekabr 1770-ci il dekabr ayının 16-da Almaniyada anadan olmuşdur.

O, dünyanın ən nəhəng simalarından biridir. Böyük Fransa inqilabının ideyalarından ilham alan bəstəkar öz yaradıcılığında, ilk növbədə insanın qəhrəmanlıq, mübarizlik əzmini tərənnüm etmişdir. Tarixi şəraitdən, yaşadığı mühitdən savayı, Bethovenin şəxsi problemləri, xüsusilə sağlamlığı ilə bağlı çətinlikləri də onun dünyagörüşünə ciddi təsir göstərmişdir.

28 yaşında ikən o, ağır xəstəliyin, musiqiçi üçün əsil faciə olan karlığın ilk əlamətlərini hiss etmişdir. Xəstəlik şiddətləndikcə çalmaq, sonra isə dirijorluq qabiliyyətini get-gedə itirmişdir. Ən dəhşətlisi isə bu idi ki, bəstəkar yaratdığı musiqini tamamilə eşitmirdi. Lakin nə xəstəlik, nə də tənhalıq Bethovenin mətin iradəsini qıra bilməmişdir.

Dünya şöhrətli bəstəkar cəmi 9 simfoniya yazmışdır. İlk baxışdan bu, Haydn və Mosart irsi ilə müqayisədə çox deyildi. Lakin nəzərə alınmalıdır ki, Bethoven simfoniyanın həcmini və dramatikliyini artıraraq bu janrı xeyli genişləndirmişdir. Bəstəkar, hətta Haydnın müəyyənləşdirdiyi orkestrin tərkibinə yeni alətlər daxil etmiş və beləliklə, onun daha qüvvətli səslənməsinə nail olmuşdur.

Böyük bəstəkar ən məşhur əsərlərindən biri olan 3-cü Simfoniyasını əvvəlcə Napoleona həsr etməyi nəzərdə tutubmuş. Lakin Napoleonun özünü imperator elan etməsini bəstəkar olduqca mənfi qarşılamış, nəzərdə tutduğu ithaf fikrindən daşınmış və Simfoniyanı "Qəhrəmanlıq" adlandırmışdır.

Bəstəkarın məşhur 5-ci Simfoniyasının ən yaddaqalan musiqi parçası əsəri başlayan qısa, zəhmli mövzudur. Həmin musiqini Bethoven "tale qapını döyür" bədii ifadəsi ilə şərh etmişdir. 9-cu Simfoniyada isə bəstəkar dövrü üçün cəsarətli bir yenilik tətbiq etmişdir; əsərin son hissəsində alman şairi Şillerin "Sevincə doğru" şeiri əsasında nəhəng xor səhnəsi vermişdir. Bu ölməz musiqi indiyədək xoşbəxtliyə, səadətə, dostluğa qardaşlığa alovlu çağırış olaraq dünya xalqlarının birlik rəmzi kimi qavranılmaqdadır.

Bethoven musiqisində incə lirika, dərin fəlsəfi düşüncələr də mühüm yer tutur. " Pastoral" adlandırdığı 6-cı Simfoniyasındakı " Aylı sonata"da təsvir olunan gözəl təbiət mənzərələri insanın daxili aləmi, onun fikir və düşüncələri ilə həmahəng səslənir.

Lüdviq Van Bethoven 1827-ci ildə vəfat etmiş, onun dəfn mərasimində otuz mindən artıq insan iştirak etmişdir. Dahi bəstəkarı con mənzilə yola salanların arasında Şubert də var idi. Bu, çox simvolik bir hadisə idi; ilk romantik sonuncu klassiklə vidalaşırdı. Bundan sonra Avropa klassisizmi cərəyanı romantizmlə əvəz olunurdu.

Ədəbiyyat

Sonatina fa major fortepiano üçün /L.V. Bethoven; red.: L.İ.Royzman. B.Məmmədova.- Bakı: Azərnəşr, 1958.-7 s.

Sonata G-dır: fortepiano üçün /L.V. Bethoven; red. B.Məmmədova.- Bakı: Azərnəşr, 1958.- 7 s.

3-Moll [notlar]: fortepiano üçün /L.V. Bethoven; red. B.Məmmədova.- Bakı: Azərb. Döv. Nəşr (Azmusnəşr) 1958.- 10 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.bahlulzade.az

www.medeniyyet.az

95 illiyi

Həsən Seyidbəyli 1920-1980

Kinorejissor



Həsən Mehdi oğlu Seyidbəyli 1920-ci il dekabr ayının 22-də Bakı şəhərində anadan olmuşdur.

1938-1939-cu illərdə Leninqrad Kino Mühəndisləri İnstitutunda, 1943-1951-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsində təhsil almışdır. "Azərbaycanfilm" kinostudiyasında kinorejissor kimi fəaliyyət göstərmişdir.

Kino tariximizin bir sıra ən parlaq səhifələri, onun adı ilə bağlıdır. H.Seyidbəylinin ssenarisi əsasında "Doğma xalqımıza" bədii-sənədli, "Qızmar günəş altında", "Uzaq sahillərdə", (İ.Qasımovla birgə) bədii, "Əyri yolla qazanc", "Yolda əhvalat" (hər ikisi İ.Qasımovla birgə) qısametrajlı bədii, "Toral və Zəri", "Sağ ol, dostum " animasiya, "Kamillik" və s. sənədli filmləri çəkilmişdir. "Ömrün səhifələri" kinoalmanaxında intermediyanın müəllifi, "Onun bəlalı sevgisi" filminin bədii rəhbəri olmuşdur. Yazıçının "Xidmət lifti" hekayəsinin motivləri əsasında "Liftçi qız" filmi lentə alınmışdır. "Nəsimi" (1973) filmi 7-ci Ümumittifaq Kinofestivalda "Ən yaxşı tarixi film üçün" mükafatına layiq görülmüşdür. "İmtahan", "Qızılaxtaranlar", "Bağlı qapılar" adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulmuşdur.

O, həm də yazıçı kimi fəaliyyət göstərmiş, "Kür sahillərində" (1953), "Telefonçu qız" (1960) povestlərini, "Cəbhədən-cəbhəyə" (1961), "İllər keçir" (1973), (İ.Qasımovla birgə), "Tərsanə" (1975), "Çiçək" (1978) romanlarını, "Dəniz cəsurları sevir" (1954), "Sən nə üçün yaşayırsan" (1959 (hər ikisi İ.Qasımovla birgə) pyeslərini və digər əsərlərini qələmə almışdır. Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadəyə həsr olunmuş məşhur "Uzaq sahillərdə" (1954, İ.Qasımovla birgə) romanı əsasında eyniadlı film çəkilmişdir. "Qiymətli damcılar" (1952), "Cəbhədən cəbhəyə" (1979), "Çiçək" (1980) kitabları nəşr olunmuş, əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

H. Seyidbəyli ictimai xadim kimi də Azərbaycan kinosunun inkişafına böyük təkan vermiş, 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, 1975-1980-ci illərdə sədri vəzifələrində çalışmışdır.

Azərbaycan Ali Sovetinin (IX-X çağırış) deputatı olmuşdur.

Kinorejissor, yazıçı, ssenarist H.Seyidbəylinin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, "Əməkdar incəsənət xadimi", "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir.

Həsən Seyidbəyli 1980-ci il iyun ayının 25-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Bakı şəhərindəki küçələrindən biri sənətkarın adını daşıyır.

Ədəbiyyat

Cəbhədən cəbhəyə: [povest] /H.Seyidbəyli.- Bakı: Gənclik, 1988.- 269 s.

Çiçək: [povest] /H.Seyidbəyli; red. P.Salamova.- Bakı: Gənclik, 1978.- 132 s.

Gördüyüm yerlər: (yol qeydləri) [Amerika, Yaponiya, Yuqoslaviya] /H.Seyidbəyli.- Bakı: Gənclik, 1980.- 208 s.

Tərsanə: [roman] /H.Seyidbəyli; red. Ə.Mehdiyeva.- Bakı: Azərnəşr, 1975.- 232 s.

Vəfalı it və oğru pişik: [kiçikyaşlı uşaqlar üçün].- Bakı: Gənclik, 1986.- 12 s.

Babayev, B. Həsən Seyidbəylinin bədii nəsri /B.Babayev; red. B.Nəbiyev; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Müəllim, 2011.- 150 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

Milli Qəhrəmanlar

50 illiyi

Füzuli Rüstəmov
1965-1990

Milli Qəhrəman



Füzuli Salah oğlu Rüstəmov 1965-ci il dekabr ayının 25-də Tərtər rayonunun Hüsənli kəndində anadan olmuşdur.

1978-ci ildə Xocalıda orta məktəbə getmiş, səkkizillik təhsilini orada başa vurmuşdur.

O, əvvəlcə Xocalı üzümçülük sovxozunda, 1990-cı ildə isə Xocalı Toxuculuq fabrikində çalışmışdır. Qarabağ hadisələri başlayan zaman vətənə xidməti borcunu yerinə yetirmək məqsədilə cəbhəyə yollanmışdır.

1990-cı ildə ermənilərin Xankəndinə gedişinin qarşısını almaq üçün əməliyyat planı hazırlayan 4 nəfərin içərisində Füzuli də vardı. O, Xocalı faciəsi zamanı əhalinin təhlükəsizliyinin təmin edilməsində xüsusi şücaət göstərmişdir. Neçə-neçə insanı ölümün pəncəsindən xilas etmiş və həmin vaxt aldığı ağır yaradan Ağdam Mərkəzi Xəstəxanasında dünyasını dəyişmişdir.

Doğulduğu Tərtər rayonunun Hüsənli kəndində dəfn edilmişdir.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1995-ci il tarixli 553 saylı Fərmanı ilə Rüstəmov Füzuli Salah oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Fizuli Salah oğlu Rüstəmova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü – Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiyinə, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 fevral 1995-ci il //Azərbaycan.- 1997.- 26 fevral.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Rüstəmov Füzuli Salah oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Bakı, 2005.- S.185

Rüstəmov Füzuli Salah oğlu//Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.31.

Seyidzadə, M. Milli Qəhrəmanlar zirvəsi /M.Seyidzadə.- Bakı, 2010.- S.186.

İ n t e r n e t d ə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



55 illiyi

Niyazi Aslanov 1960-1992

Milli Qəhrəman



Niyazi Şərəfxan oğlu Aslanov 1960-cı il dekabr ayının 25-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olmuşdur.

Burada orta məktəbi bitirdikdən sonra, 1979-1981-ci illərdə Rusiyanın Altay vilayətində hərbi xidmətdə olmuşdur. Ağdam Kənd Təsərrüfatı Texnikumunda təhsil almış, oxuduğu müddətdə əmək fəaliyyəti ilə də məşğul olmuşdur.

1989-cu ildə Goranboy rayonunda yaradılan özünümüdafiə dəstəsinə qoşulmuşdur. Yoldaşları ilə birlikdə sıradan çıxmış iki tankı təmir etmiş, bu tanklarla nəinki Tap Qaraqoyunlu kəndini, hətta qonşu kəndləri da layiqincə müdafiə etmişdilər.

Niyazi Aslanoov Şəfəq, Gürzalılar, Todan, Sarısu, Tərtər və Ağdam şəhərinin müdafiəsində fəal iştirak etmişdir. 1992-ci il mayın 4-də Tap Qaraqoyunlu kəndi yaxınlığında gedən döyüşlərdə Niyazi komandiri İsfəndiyar Əsədovu xilas edərkən qəhrəmancasına həlak olmuş, doğulub boya-başa çatdığı Tap Qaraqoyunlu kəndində dəfn edilmişdir.

Ailəli idi, iki oğlu var.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Aslanov Niyazi Şərəfxan oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Tap Qaraqoyunlu kəndindəki orta məktəbə və Naftalan şəhərindəki küçələrdən birinə qəhrəmanın adı verilmiş, Goranboy şəhərində büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- №3.- S.11.- (Ölümündən sonra).

Aslanov Niyazi Şərəfxan oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.31.

Əsgərov, V. Aslanov Niyazi Şərəfxan oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.24.

Seyidzadə, M. Aslanov Niyazi Şərəfxan oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.27.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



50 illiyi

Eldar Həsənov 1965-1994

Milli Qəhrəman



Eldar İsfəndiyar oğlu Həsənov 1965-ci il dekabr ayının 26-da Cəlilabad rayonunun Lallar kəndində anadan olmuşdur.

1983-cü ildə Xanəgah kənd orta məktəbini bitirmişdir.

1984-cü ildə ordu sıralarına çağırılmışdır. 1986-cı ildə hərbi xidmətini başa vurub doğma kəndinə qayıtmışdır.

1990-cı ildə E.Həsənov xüsusi təyinatlı polis dəstəsinə üzv yazılmışdır.

1991-ci ildə Polis Akademiyasına daxil olmuşdur. 1994-cü ilin yanvar ayında E.Həsənovun ikinci cəbhə həyatı başlamışdır. Cəbhədə göstərdiyi şücaətlərə görə təşvişə düşən ermənilər, onun başına 50 min ABŞ dolları qoymuşdular.

Həsənov Eldar İsfəndiyar oğlu 1994-cü il mayın 12-də Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Həsənov Eldar İsfəndiyar oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Anadan olduğu Lallar kəndində torpağa tapşırılmışdır. Cəlilabad Rayon Polis şöbəsinin həyətində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov Eldar İsfəndiyar oğlu – Daxili İşlər Nazirliyi, starşina – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə q əhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.- 1995.- 17 yanvar.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Həsənov Eldar İsfəndiyar oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.84.

Həsənov Eldar İsfəndiyar oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.83.

Seyidzadə, M. Həsənov Eldar İsfəndiyar oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.84.

İ n t e r n e t d ə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az



125 illiyi Əhməd Zəki Validi Toğan 1890-1970

Tarixçi, türkoloq



Əhməd Zəki Validi Toğan 1890-cı il dekabr ayının 10-da Başqırdıstanın Sterlitamak mahalının Küzən kəndində doğulmuşdur. İbtidai və orta təhsilini əvvəlcə Küzəndə, sonra dayısı Həbib Nəccarın Ütəkdəki mədrəsəsində, 1912-ci ildə Kazan Universitetinin tarix və ədəbiyyat fakültəsində ali təhsil almış, ancaq ali təhsilini sona çatdıra bilməmişdir. O, universitet təhsilini uzun müddətdən sonra, 1931-1935-ci illərdə Vyanada tamamlamışdır. Kazanda təhsil aldığı müddətdə elmi tədqiqatlara başlamış, "Türk və tatar tarixi"nin ilk cildini 1912-ci ildə Kazanda nəşr etdirmişdir. Bu əsər onun Kazan Universiteti Tarix və Arxeologiya Cəmiyyətinə üzv qəbul edilməsinə səbəb olmuşdur.

1914-cü ildə o, Rusiya EA tərəfindən Fərqanə və Buxara bölgələrinə elmi ezamiyyətlərə göndərilmişdir. "Qeyri-rus məktəblərində rus dili müəllimi" kursundan imtahan verərək Ufa şəhərindəki Osmaniyyə mədrəsəsində türk dili müəllimliyinə başlamış, həmçinin burada siyasi fəaliyyətlə məşğul olmuşdur. Dumaya deputat seçilmiş, 1917-ci il noyabrın 29-da qurulan Milli Başqırd hökumətinin daxili işlər naziri olmuşdur. 1918-ci il yanvarın 18-də Orenburq bolşeviklər tərəfindən işğal edildikdən sonra həbs olunmuş, başqırdlar və qazaxlar üstünlüyü ələ aldıqdan sonra həbsxanadan azad olunmuş, 1918-ci il iyunun 7-də Milli Başqırd hökumətini yenidən bərpa etmişdir.

Lakin artıq sovet qırmızı terrorunun uzaqda olmadığını görən Toğan bir neçə yaxın silahdaşı ilə 1920-ci il iyunun 29-da gizlicə Türküstana keçmiş, üç ilə qədər bolşeviklərə qarşı gizli mübarizə aparsa da, Rusiya qoşunları ilə mübarizənin mümkün olmadığını görərək 1923-cü ildə İrana keçmiş, Əfqanıstan yolu ilə Hindistana getmişdir. Bir müddət sonra Türkiyəyə yola düşsə də, vizası olmadığı üçün ölkəyə buraxılmamış, Avropaya gedərək Paris və Berlində yaşamışdır.

1925-ci ilin əvvəllərində Türkiyənin maarif naziri tərəfindən ora dəvət edilərək Ankaraya getmiş, 1927-ci ildən İstanbul Universitetində müəllimlik etməyə başlamışdır. 1932-ci ildə İstanbul Universitetində tutduğu vəzifədən istefa vermiş, ali təhsilini tamamlamaq üçün Vyanaya getmişdir. 1935-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, Bonn və Gettingen universitetlərində müəllimlik etmişdir.

II Dünya müharibəsi zamanı Z.Validi 1944-cü il mayın 15-də "turançılıq təbliğatı ilə Türkiyədə SSRİ əleyhinə hərəkatda olması" ittihamı ilə həbs edilərək 10 il müddətinə azadlıqdan məhrum edilmiş, 1945-ci ilin oktyabrında azad olunmuşdur.

O, Azərbaycanın tarixi etnoqrafiyasını öyrənən ilk xarici şərqşünas alim olmuşdur. Onun nəşr etdirdiyi "Azərbaycanın tarixi coğrafiyası" məqaləsi və "Ümumtürk tarixinə giriş" əsərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünə geniş yer ayrılıb. "Azərbaycan" adlı məqaləsi "İslam ensiklopediyası"nda çap olunmuşdur.

"Xatirələr", "Tarixdə üsul", "Ümumtürk tarixinə giriş" və "Türkün müqəddəratı üzərinə" əsərlərinin müəllifidir.

Z.V.Toğan 1970-ci il iyulun 26-da İstanbulda vəfat etmiş, Qaracaəhməd qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

Azərbaycanın tarixi coğrafiyası /Ə.Z.Validi.-Bakı: Təhsil, 2009.- 112 s.

Azərbaycan /Ə.Z.Validi; tərt.: M.Ənsərli, T.H.Nəcəfli; red. Ş.Mustafayev.- Bakı: Ocaq, 2007.- 88 s.

Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları: Bakı, 28-30 aprel 2010 /Azərb. Respub. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; TÜRKSOY Uluslararası Türk Kültürü Teşkilatı; AMEA, akad. Z.M.Bünyadov ad. Şərqşünaslıq İn-tu; red. və burax. məs. K.Tahirov; tərt. Ə.Cəfərova.- Bakı, 2010.- 93 s.

Baxşəliyeva, G. Türk tarixinin yorulmaz tədqiqatçısı /G.Baxşəliyeva //Azərbaycan.- 2010.- 13 may.- S.7.

Fərəcov, S. Bir başqırd kəndindən İstanbuladək /S.Fərəcov //Mədəniyyət.- 2013.- 15 mart.- S.4.

İnternetdə

www.anl.az

75 illiyi

Nailə Vəlixanlı 1940

Akademik



Nailə Məmmədəli qızı Vəlixanlı 1940-cı il dekabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. 1963-cü ildə ADU-nun şərqşünaslıq fakültəsinin ərəb şöbəsini, 1967-ci ildə EA-nın Şərqşünaslıq İnstitutunun aspirantu-rasını bitirmişdir. 1968-ci ildə akademik Z.Bünyadovun elmi rəhbərliyi ilə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1963-1992-ci illərdə AMEA-nın Şərqşünaslıq İnstitutunda, 1992-1998-ci illərdə Tarix İnstitutunda baş laborant, kiçik elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1998-ci ildən Milli Azərbaycan Tarixi Muzeyinin direktorudur.

2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü seçilmişdir.

N.Vəlixanlının vətən tarixşünaslığı-nın tədqiqi sahəsində xüsusi xidmətləri vardır. Elmi əsərlərində Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun Ərəb Xilafəti tərkibində mövqeyi, sosial-iqtisadi münasibətlər, siyasi-mədəni tarix və tarixi coğrafiya məsələlərinə aydınlıq gətirilmiş, elmdə son vaxtlaradək hakimlik edən erməni-gürcü ənənəsini sındırmaqla tarixşünaslığımızda yeni mərhələ açılmışdır. Alim Azərbaycan tarixinə dair bir neçə sanballı monoqrafiyanın, 200-dən çox elmi məqalə və resenziyanın müəllifidir. N.Vəlixanlı yeddicildlik "Azərbaycan tarixi"nin II cildinin məsul redaktoru və əsas müəlliflərindən biridir. Alimin "IX-XII əsrlər ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında", "İbn Xordadbeh", "Yollar və məmləkətlər haqqında kitab" (tədqiqat, ərəb dilindən tərcümə, şərhlər, göstəricilər və xəritələr), (rus dilində), "Naxçıvan ərəblərdən monqollaradək (VII-XII əsrlərədək) monoqrafiyaları, " Azərbaycanda dövlətçilik və onun rəmzləri" kitab-albomu nəşr edilmişdir. Onun "Azərbaycan Sovet Ensiklopediyası" və "Naxçıvan Ensiklopediyası"nda çoxsaylı elmi məqalələri dərc edilmişdir.

N.Vəlixanlı Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurasının, AR Milli Məclisi Toponomiya Komissiyasının, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının, AMEA Terminologiya Komissiyasının nəzdində Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, Azərbaycan Ensiklopediyasının redaksiya heyətinin və s. üzvü, "AMEA-nın Xəbərləri (ictimai elmlər seriyası)" jurnalının, "Azərbaycan Tarixi Muzeyi" toplusunun baş redaktorudur. 1991-ci ildən Azərbaycan Universitetinin professorudur.

N.Vəlixanlı Moskva, Ankara, Berlin, Budapeşt, Stavanger və digər xarici ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan tarixşünaslığını yüksək səviyyədə təmsil etmişdir.

N.Vəlixanlı "Şöhrət" ordeni, "Əmək rəşadətinə görə" medalı və bir sıra Fəxri fərmanlarla təltif edilmişdir.

Ədəbiyyat

Ərəb xilafəti və Azərbaycan /N.Vəlixanlı; elmi red. Z.Bünyadov; red. M.Əsədova.- Bakı: Azərnəşr, 1993.- 157 s.

IX-XI əsrlər ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında /N.Vəlixanlı.- Bakı: Elm, 1974.- 222 s.

Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu: [II Respublika elmi konfransının materialları] /AMEA; Milli Azərb Tarixi Muzeyi; red. hey.: N.Vəlixanlı (məsul red.).- Bakı: Ziya, 2012.-163 s.

Nailə Məmmədəli qızı Vəlixanlı: biblioqrafiya AMEA, Mərkəzi Elmi Kitabxana; tərt.-müəl. A.Əliyeva-Kəngərli; red.: N.Seyidəliyev, İ.Səfərov.- Bakı: Elm, 2012.- 237 s.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

95 illiyi

Firudin Köçərli 1920-2005

Akademik



Firudin Qasım oğlu Köçərli 1920-ci il dekabr ayının 28-də Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. 1926-1935-ci illərdə İsalı kənd orta məktəbində təhsil almışdır. 1936-cı ildə Gəncə Pedaqoji Texnikumuna daxil olmuş, 1940-cı ildə oranı bitirərək doğma kəndində müəllimlik fəaliyyətinə başlamışdır.

F.Köçərli 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin nəzdində olan fəlsəfə şöbəsinə daxil olmuşdur. Bu ali təhsil ocağını fərqlənmə diplomu ilə bitirərək 1950-ci ildən 1953-cü ilə qədər M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspirantı olmuş və dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

F.Köçərli 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin Fəlsəfə kafedrasının dosenti vəzifəsində çalışmışdır. O, 1958-1967-ci illərdə Azərbaycan Elmlər Akademiyasının fəlsəfə sektorunun rəhbəri, 1967-1985-ci illərdə Fəlsəfə və Hüquq İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Akademik F.Köçərlinin elmi-tədqiqat fəaliyyəti, əsasən Azərbaycanda fəlsəfə və ictimai fikir tarixinin, dialektik və tarixi materializmin, etika və estetika problemlərinin tədqiqinə yönəldilmişdir. Azərbaycanın bir çox elm və mədəniyyət xadimlərinin fəlsəfi baxışlarına dair tədqiqatlar aparmış, həmin tədqiqatların nəticələri onun nəşr etdirdiyi kitab və monoqrafiyalarda öz əksini tapmışdır.

F.Köçərli 1966-cı ildə doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsini almışdır.

Firudin Köçərli 1966-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1976-cı ildə həqiqi üzvü seçilmişdir.

SSRİ Fəlsəfə Cəmiyyəti Azər-baycan bölməsinin sədri olmuşdur.

O, bir sıra dövlət mükafatlarına layiq görülmüşdür. Azərbaycan SSR Həmkarlar İttifaqı RH-nin, Ümumittifaq "Bilik" cəmiyyətinin, Azərbaycan SSR Ali Sovetinin RH-nin, Azərbaycan SSR EA RH-nin Fəxri fərmanları ilə, "Fədakar əməyə görə", "Əmək veteranı" medalları ilə təltif edilmişdir.

1989-cu ildə "Azərbaycan SSR Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1991-ci ildə Azərbaycan "Bilik" cəmiyyəti RH-nin qərarı ilə akademik Y.Məmmədəliyev adına medal və mükafat təltif edilmişdir.

Firudin Köçərli 2004-cü il iyun ayının 3-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Abbasqulu Ağa Barıxanov Qüdsi /F.Köçərli.-Bakı: Şəhriyar, 1995.-75 s.

M.F. Axundovun dünyagörüşü /F.Köçərli; red. F.Süleymanoğlu; Azərbaycan EA H.Hüseynov ad. Fəlsəfə və Hüquq İnstitutu.- Bakı: Elm, 1999.- 124 s.

Firudin Qasım oğlu Köçərli: biblioqrafiya / Azərbaycan EA, Mərkəzi Elmi Kitabxana; tərt. ed. Ç.Əhmədova; red. F.Hüseynova.- Bakı: Elm, 1997.- 65 s.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

65 illiyi

Kamal Abdulla 1950

Akademik



Ə d ə b i y y a t

Dilçiliyə səyahət: [dilçi olmayanlar üçün dilçilik] /K.Abdulla; red. M.Mirzəliyeva, Ç.Hüseynzadə.- Bakı: Mütərcim, 2010.-196 s.

Labirint [hekayələr] /K.Abdulla; red. Ş.Ağakişiyeva; ön sözün müəl. S.Sarvan.- Bakı: Qanun, 2012.- 279 s.

Mifdən yazıya və yaxud gizli Dədə Qorqud /K.Abdulla; elmi red. və ön söz müəl. R.Bədəlov; red. Ə.Mirzallı.- Bakı: Mütərcim, 2009.- 375 s.

Unutmağa kimsə yox... roman /K. Abdulla.- Bakı: Qanun, 2011.- 527s.

300 azərbaycanlı: ədəbi-bədii-esselər /K.Abdulla; red.: E.Başkeçid, Ə.Mirzallı, Ş.Ağakişiyeva; ön sözün müəl. R.Rövşən.- Bakı: Mütərcim, 2007.- 340 s.

Bayatlı, V.Ö. Kamal Abdulla artıq birincidir /V.Ö.Bayatlı //525-ci qəzet.- 2012.- 5 may.- S.19.

İ n t e r n e t d ə

www.anl.az

www.muallim.edu.az

Kamal Mehdi oğlu Abdullayev 1950-ci il dekabr ayının 4-də Bakıda ziyalı ailəsində doğulub. 1968-ci ildə Bakıdakı 190 saylı orta məktəbi bitirib.

1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1973-1976-cı illərdə SSRİ EA Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin əyani aspirantı olub.

1977-ci ildə namizədlik, 1984-cü ildə doktorluq dissertasiyası müdafiə edib.

Azərbaycan Televiziyasında 1983-cü ildən başlayaraq "Azərbaycan dili", "Qoşma", "Dəfinə" kimi aylıq ədəbi-bədii, elmi-publisistik verilişlər hazırlayaraq təqdim edib.

1993-cü ildən 2000-ci ilədək Xarici Dillər İnstitutunun Ümumi və Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifəsini yerinə yetirib. 1994-1995-ci illərdə Türkiyə Uludağ Universitetinin "Türk dili və ədəbiyyatı" bölümünün professoru kimi çalışıb.

Türk Dil Qurumunun, Ukrayna Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü və Rusiya PEN-klubun üzvüdür. 200-dən artıq məqalə və 30-dan çox kitabın müəllifidir. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilib.

Türk xalqlarının qədim epik ədəbiyyatları sahəsində araşdırmalar müəllifidir. Müxtəlif ölkələrin universitetlərində (Rusiya, Türkiyə, Polşa, Fransa, Almaniya, ABŞ...) "Ümumi dilçilik", "Mətn sintaksisi", "Kitabi-Dədə Qorqud" dastanlarının kulturoloji aspektlərinə həsr olunmuş mühazirələr və xüsusi kurslar aparıb.

Elmi və publisistik məqalələri Azərbaycanda və ondan kənarda mütəmadi olaraq çap olunur. Bədii yaradıcılıqla məşğul olur – pyesləri, hekayələri, romanları, esseləri və şeirləri Azərbaycanda və xarici ölkələrdə çap olunur.

2009-cu ildə həyata keçirilməyə başlamış "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar haqqında nəğmə" 10 illik beynəlxalq layihənin ideya müəllifi və təşkilatçılarından biridir.

Əsərləri rus, gürcü, ingilis, fransız, alman, ispan, polyak, portuqal və başqa dillərə tərcümə olunub, pyesləri Azərbaycan, Gürcüstan, Estoniya Türkiyə teatrlarında səhnəyə qoyulub. "Gizli Dede Korkut" kitabı Bursada (1995) və İstanbulda, (1995) ayrı-ayrılıqda türk dilinə tərcümə edilib çap olunmuşdur. "Gəlin azərbaycanca danışaq" kitabı və "Sehirbazlar dərəsi" romanı bir çox ölkələrdə həmin xalqların dillərində nəşr edilib.

2000- 2014-ci illərdə Bakı Slavyan Universitetinin rektoru vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 fevral tarixli Sərəncamı ilə Kamal Abdulla Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvüdür.

K.Abdulla "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. 2007-ci ildə Rusiya prezidenti tərəfindən Puşkin medalı ilə, 2009-cu ildə Polşa prezidentinin sərəncamı ilə iki ölkənin münasibətlərinin inkişafına göstərdiyi xidmətlərə görə "Kavaler" ordeni ilə təltif olunub.

85 illiyi

Teymur Əhmədov 1930

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı /T.Əhmədov; red. N.Qurbanova; rəy. Anar.- Bakı: Nurlar, 2011.- 1056 s.

Nəriman Nərimanovun dramaturgiyası /T.Əhmədov; red. M. İbrahimov.- Bakı: Nurlar, 2005.- 384 s.

Nəriman Nərimanovun yaradıcılıq yolu /Teymur Əhmədov; red.akad. Mirzə İbrahimov. rəyçilər.: akad. M.C.Cəfərov, akad.M.Q.Köçərli.- Bakı: Nurlar, 2005.- 366s.

Kərimova, H. İki əsrin salnaməçisi /H.Kərimova; rəyçi. O.Salamzadə red. Ş.Əliyeva .- Bakı: Nurlar, 2001.- 207 s.

Qadir, Q. Teymur Əhmədov: [Ədəbi portret - 75] /Qalib Qadir.- Bakı: Nurlar, 2005.-109 s.

Teymur Əkbər oğlu Əhmədov: biblioqrafik məlumat toplusu AMEA, Nizami ad. Ədəbiyyat İn-tu, Mərkəzi Elmi Kitabxana; tərt.-müəl. İ.Səfərov; red. N.Rüstəmli.- Bakı: Nurlar, 2007.- 222 s.

İ n t e r n e t d ə

www.anl.az

www.muallim.edu.az

Teymur Əkbər oğlu Əhmədov 1930-cu il dekabr ayının 25-də Şəmkir şəhərində anadan olmuşdur. 1936-cı ildə ailəlikcə valideynlərinin vaxtilə deportasiya olunduğu İrəvana köçmüşdür. 1949-cu ildə Qərbi Azərbaycanın Zəngibasar (indiki Masis) rayonunda orta məktəbi qızıl medalla bitirmiş, 1949-1954-cü ildə təhsilini Bakı Dövlət Universitetinin filologiya fakültəsində davam etdirmişdir. 1959-1961-ci illərdə isə Moskvada "Pravda" qəzeti nəzdində olan Ümumittifaq jurnalistika və fotoreportaj üzrə qiyabi lektoriyanın jurnalistika şöbəsini bitirmişdir.

1961-1964-cü illərdə Azərbaycan SSR EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda aspirantura təhsili almış, "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik (1966), "Nəriman Nərimanovun yaradıcılıq yolu" mövzusunda doktorluq işi müdafiə etmişdir.

1965-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında şöbə müdiri, 1968-ci ildə Azərbaycan SSR EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1968-1990-cı illərdə Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində müdir müavini, 1988-ci ildən aparıcı elmi işçi, 1996-cı ildən bu günədək AMEA Nizami adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiridir.

1990-1991-ci illərdə "Vətən həsrəti", 1992-1993-cü illərdə "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru işləmişdir. 1995-ci ildən "Respublika" qəzetinin, 2005-ci ildən "Füyuzat" jurnalının baş redaktorudur.

T.Əhmədov 2004-cü ildə AMEA Humanitar və ictimai elmlər bölməsinin ədəbiyyatşünaslıq üzrə problem şurasının elmi katibi, Milli-mədəni İrsi Araşdırmalar Fondunun təsisçilərindən biri, 2005-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir.

Professorun 20 kitab və kitabçası, 500-dən artıq elmi və publisistik məqaləsi dərc edilmişdir.

T.Əhmədovun rəhbərliyi və opponentliyi ilə 20 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir.

Professor T.Əhmədov ilk gənclik illərindən bədii yaradıcılıqla da məşğul olmuş, "Ülkər" adlı hekayələr və oçerklər kitabı 1961-ci ildə İrəvanda çap olunmuşdur. "Dostluq nəğməkarı", "Nəriman Nərimanovun dramaturgiyası", "Nəriman Nərimanov", "Vedibasarın qanlı-qadalı günləri", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)", "Mirzə İbrahimov", "Nizami adına Ədəbiyyat İnstitutu", "Ədəbi qeydlər", "Nəriman Nərimanovun yaradıcılıq yolu" və s. kitabları nəşr edilmişdir.

Filologiya elmləri doktoru, professor Teymur Əhmədovun səmərəli elmi fəaliyyəti yüksək qiymətləndirilmiş, 1982-ci ildə Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanına, 1996-cı ildə "İlin nüfuzlu ziyalısı" adına, 2001-ci ildə "Veteran" və iki dəfə "Tərəqqi" medallarına, Akademik Yusif Məmmədəliyev adına mükafata və medala, "Qızıl Qələm", "Ustad" ali jurnalistika mükafatlarına və bir sıra fəxri fərmanlara layiq görülmüşdür.

105 illiyi

Şəfaət Mehdiyev 1910-1985

Akademik



Ə d ə b i y y a t

Pyeslər /Ş.F.Mehdiyev.- Bakı: Elm və təhsil, 2012.- 313 s.

Ümumi geologiya ali məktəblər üçün dərslik /Ş.F.Mehdiyev.- Bakı: MarsPrint NPF, 2008.- 404 s.

Cəlilli, Ş. İşıq adam /Ş.Cəlilli.- Bakı: Elm, 2005.- 504 s.

Cəlilli, Ş. İşıq adamın nağılı /Ş.Cəlilli, İ.Mirzəyev.- İstanbul: İMAKOFSET, 2012.- 264 s.

Həşimli, H. Akademik Şəfaət Mehdiyevin ədəbi-publisistik irsi /H.Həşimli //Palitra.- 2010.- 29 dekabr.- S.6.

İ n t e r n e t d ə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

Şəfaət Fərhad oğlu Mehdiyev 1910-cu il dekabr ayının 15-də İranın Sarab qəzasının Şalqun kəndində anadan olmuşdur. Dörd yaşında atasını itirdikdən sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1934-cü ildə Azərbaycan Sənaye İnstitutunun (hazırki ADNA) geoloji kəşfiyyat fakültəsini bitirmişdir.

Hələ tələbə ikən "Azneftkəşfiyyat" Trestində geoloq, Mərdəkan mədənində kəşfiyyat sahəsinin geoloqu, Mərdəkan-Türkan kəşfiyyat qrupunun böyük geoloqu vəzifələrində işləmişdir.

1932-1936-cı illərdə Sənaye İnstitutunun "Neft kadrları uğrunda" adlı çoxtirajlı, daha sonra "Gənc işçi" qəzetlərinin, "Gənc bolşevik" məcmuəsinin, "Azərbaycan idmançısı", "Qala neftçisi" qəzetlərinin redaktoru işləmişdir. 1936-cı ildən Pirsaat neft mədənində, 1937-1938-ci illərdə Neftçala neft mədənində geoloq kimi çalışmış, Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda baş geoloq, direktor müavini vəzifələrinə irəli çəkilmiş, eyni zamanda aspiranturaya daxil olmuşdur. O, 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuş, 1944-cü ilin martında mühəndis-geoloq kimi arxa cəbhəyə göndərilmişdir. Ş.Mehdiyev yenidən aspiranturaya bərpa olunmuş, 1950-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1951-ci ildə professor elmi rütbəsini almışdır.

Akademik 400-ə qədər elmi əsərin, 20-dən artıq monoqrafiyanın, Azərbaycanın geoloji və tektonik xəritələrinin, neft və qaz yataqları xəritələrinin redaktoru və tərtibçisi olmuşdur.

Ş.Mehdiyev 1952-ci ildən 1954-cü ilədək Azərbaycan Elmlər Akademiyasının Məhsuldar Qüvvələr Şurasının sədri, 1954-1958-ci illərdə Geologiya İnstitutunun direktoru vəzifəsində çalışmışdır. 1958-ci ilin aprel ayından 1965-ci ilin fevral ayınadək Azərbaycan Dövlət Universitetinin rektoru olmuşdur. BDU-da Ş.Mehdiyevin adını daşıyan auditoriya yaradılmış və barelyefi qoyulmuşdur.

1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1958-ci ildə həqiqi üzvü seçilmişdir.

Alim 1965-ci ildən ömrünün sonunadək AMEA-nın Geologiya İnstitutunda neftin və qazın geologiyası şöbəsinin rəhbəri və Azərbaycan Dövlət Neft Akademiyasında Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının müdiri olmuşdur.

Meksika (1956,1967), Hindistan (1964), Kanada (1972), Avstraliya (1976), AFR və İsveçrədə (1978) keçirilən Beynəlxalq geoloji, Ümumdünya neft konqreslərində və simpoziumlarında məruzələrlə çıxış etmişdir.

Ensiklopedik biliyə, qeyri-adi istedada malik Ş.Mehdiyevin müxtəlif illərdə yazdığı "Mirzə Fətəli", "Ərk qalası", "Müstəntiq", "Səttar xan", "Rüşvət ustası", "Su pərisi", "Çoxmərtəbəli Amerika" və digər ədəbi əsərləri hər zaman böyük maraqla oxunur.

Akademik bir sıra mükafatlara və fəxri adlara layiq görülmüşdür. 1979-cu ildə "Qaz sənayesi fəxri işçisi" adına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri və S.İ.Vavilov adına qızıl medalla təltif edilmişdir.

Şəfaət Mehdiyev 1985-ci il dekabr ayının 15-də vəfat etmişdir.

Ümummilli lider Heydər Əliyevin fərmanı ilə Bakı küçələrindən birinə onun adı verilmiş, yaşadığı evin fasadına xatirə lövhəsi vurulmuşdur.

80 illiyi

Firudin Haşımzadə 1935

Akademik



Firudin Məmməd Əli oğlu Haşımzadə 1935-ci il dekabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir.

1972-ci ildə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini, 1974-cü ildə professor elmi rütbəsini almışdır. 1980-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda əvvəl yarımkeçiricilər laboratoriyasının müdiri vəzifəsində işləmiş, sonra isə həmin institutda baş elmi işçi kimi fəaliyyət göstərmişdir.

Bakı Dövlət Universitetinin Bərk cisim fizikası kafedrasında 35 il pedaqoji fəaliyyət göstərmişdir.

Əsərləri bərk cisimlər nəzəriyyəsinə aiddir. H.Keyn tipli yarımkeçiriçilərin və yarımmetalların kinetik, optik və maqnit xassələrinin ardıcıl nəzəriyyəsini yaratmış, onların volt-amper xarakteristikasının qeyri-xəttiliyinin yeni mexanizmini aşkar etmiş, həmin tip yarımkeçiricilərin anomal maqnit xassələrinə malik olmasını göstərmişdir.

Akademik Firudin Haşımzadə ilk dəfə mürəkkəb tərkibli kristallarda elektron, maqnon və elektronların spektrinin analizinə qrup nəzəriyyəsi üsulunu tətbiq etmişdir. Professor psevdopotensial metodu ilə yarımkeçirici birləşmələrin zolaq quruluşunu hesablamışdır. Maqnit dielektriklərin qəfəs dinamikası və optik spektrinin nəzəri məsələlərini də tədqiq etmişdir.

Akademikin yüksəkixtisaslı elmi kadrların hazırlanmasında böyük xidmətləri vardır. Onun rəhbərliyi altında 22 elmlər namizədi, 7 elmlər doktoru yetişmişdir.

Firudin Haşımzadə 120 elmi əsərin müəllifidir. Bunlardan 70-i xarici ölkələrdə nəşr edilmişdir.

Akademik Firudin Haşımzadənin elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, Azərbaycan Dövlət mükafatı, "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat

Akademik Firudin Məmməd Əli oğlu Haşımzadə-75 //Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Fizika-riyaziyyat və texnika elmləri seriyas, fizika və astronomiya.-2011.-№2.-S.179.

Firudin Məmməd Əli oğlu Haşımzadə //Azərbaycan Sovet Ensiklopediyası: on cilddə 1987.-C.X.-S.156

Примесныесостояния узкощеедевых молумагнитных полупроводниках с короткодействующим потенциалом /Ф.Гашимзаде, Х.Хатамов.- Баку, 1989.- 22 с.

Резонансное эксимонное комбинационное рассеяние света в ролимагнитном ролупроводнике /Ф.М.Гашимзаде, Р.С.Надирзаде, Т.Г.Исмаилов.- Баку, 1989.- 12 с.

İnternetdə

www.anl.az

www.adam.az

110 illiyi

Yusuf Məmmədəliyev 1905-1961

Akademik



Ə d ə b i y y a t

Azərbaycanda elmin inkişafı /Y.Məmmədəliyev; [red. Z.Məmmədov].-Bakı: Azərnəşr, 1960.-120 s.

Akademik Yusuf Məmmədəliyev: biblioqrafiya /Azərbaycan Milli Elmlər Akademiyası, Akad. Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Azərbaycan Milli Kitabxanası, AMEA Mərkəzi Elmi Kitabxana, Akad. Y.Məmmədəliyev adına Fond; tərt. A.Kazımov; elmi məsl. S.Məmmədəliyeva; red.: K.Tahirov, A.Əliyeva-Kəngərli.- Bakı: Şərq-Qərb, 2011.- 275 s.

Fərəcullayeva, M. Akademik Yusuf Məmmədəliyev /M.Fərəcullayeva; red. S.Məmmədəliyeva; foto R.Bağırov.- Bakı, 2005.- 96 s.

Hacıyeva, Z. AMEA prezidentləri. Şanlı yolun mərhələləri /Z.Hacıyeva; baş elmi məsl. A.Əlizadə.- Bakı: [s.n.], 2014.- 392 s.

İ n t e r n e t d ə

www.anl.az

www.science.az

Yusuf Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabr ayının 31-də Ordubad şəhərində anadan olmuşdur. 1918-ci ildə erməni daşnakların vəhşi hücumundan yaxa qurtarmaq üçün onun ailəsi Təbriz şəhərinə köçmüş və orada yeddiillik Ruşdiyə məktəbində təhsilini davam etdirmişdir. 1920-ci ildə Ordubada qayıtmış və 1923-cü ilə qədər müəllimlik edərək savadsızlığın ləğvində fəal iştirak etmiş və ilk qızlar məktəbini açmışdır.

1923-cü ildə Azərbaycan Pedaqoji Universitetinin hazırlıq fakültəsində oxumuş və 1924-1926-cı illərdə orada təbiət elmləri fakültəsində ali təhsil almışdır. 1924-cü ildə Azərbaycan ziyalılarının I qurultayında məruzə etmişdir. Elə həmin il təyinatla Gəncə şəhərinə göndərilmiş və orada iki il müəllim işləmişdir.

1929-1931-ci illərdə Moskva Dövlət Universitetinin (MDU) kimya fakültəsində təhsil almışdır.

1933-1945-ci illərdə Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutunda kiçik, sonra böyük elmi işçi vəzifələrini tutmuş, 1945-ci ildə isə laboratoriya müdiri vəzifəsinə seçilmişdir.

O, dünyada ilk dəfə olaraq neft qazlarından sintetik kauçukun alınması ideyasını irəli sürmüş və 1933-cü ildə "Etil spirtinin neft qazlarından alınması" adlı ilk elmi əsərini çap etdirmişdir. 1934-cü ildə kauçuk ilə əlaqədar olaraq "Azərbaycanda süni kauçukun problemləri" ikinci məqaləsini nəşr etdirmiş və bununla da o, respublikamızda sintetik kauçukun yaradılmasının mümkünlüyünü əsaslandırmışdır.

1938-ci ildə M.V.Lomonosov adına MDU-nun Elmi Şurası Y.H.Məmmədəliyevin təbii və süni neft qazlarının kimyəvi emalı sahəsində apardığı sistemli tədqiqatları nəzərə alaraq ona müdafiə etmədən "kimya elmləri namizədi" alimlik dərəcəsi vermişdir. O, apardığı tədqiqatları ümumiləşdirərək 1942-ci ildə "Aromatik karbohidrogenlərin alkilləşdirilməsi və dealkilləşdirilməsi ilə toluolun sintezi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1943-cü ildə "Neft-kimyası" ixtisası üzrə professor elmi rütbəsinə layiq görülmüşdür.

Onun yüksək keyfiyyətli aviabenzin ilə təmin edən komponent əldə etmək sahəsində apardığı tədqiqatlar dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1944-cü ildə Lenin ordeni ilə, 1946-cı ildə isə Stalin mükafatı ilə mükafatlandırılmışdır.

1945-ci ildə Azərbaycan SSR EA-nın akademiki, 1958-ci ildə SSRİ EA-nın müxbir üzvü seçilmişdir. 1947-ci ildə Azərbaycan EA-nın prezidenti seçilmiş, 1954-1958-ci illərdə BDU-nun rektoru olmuşdur. SSRİ Ali Sovetinin (V çağırış, 1958 -1961) və Azərbaycan SSR Ali Sovetinin (IV çağırış, 1955-1959) deputatı seçilmişdir.

Yusuf Məmmədəliyev 1961-ci il dekabr ayının 15-də vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

100 illiyi İsmayıl İbrahimov 1915

Akademik



İsmayıl Əli oğlu İbrahimov 1915-ci il dekabr ayının 31-də Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur.

M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir (indiki Azərbaycan Dövlət Neft Akademiyası).

1968-ci ildə AMEA-nın müxbir üzvü, 1980-ci ildə həqiqi üzvü seçilmişdir. 1971-1978-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdir.

İsmayıl İbrahimov fasiləsiz işləyən texnoloji proseslərin və istehsalatların riyazi modelləşdirilməsi və optimal idarə edilməsinin metodoloji əsaslarını yaratmışdır. Neft emalı istehsalatının optimallaşdırılması məsələlərini faktiki olaraq reallaşdırmaqdan ötrü modellərin struktur və funksional xüsusiyyətlərini nəzərə alan səmərəli hesablama üsulları qurmuşdur.

1946-1997-ci illərdə pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycan Dövlət Neft Akademiyasında baş laborant, baş müəllim, dosent, kafedra müdiri, professor və rektor vəzifələrində çalışmışdır.

Alimin yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur. 7-ci (Mexiko, 1967), 9-cu, (Tokio, 1975) Ümumdünya Neft konqreslərində, 13-cü Ümumdünya qaz konqresində (London, 1976), Avtomatik İdarəetmə üzrə Beynəlxalq Federasiyanın 5-ci (Paris, 1972), 7-ci (Helsinki, 1978) konqreslərində məruzələrlə çıxışlar etmişdir. SSRİ Ali Sovetinin (8-10-cu çağırış) deputatı olmuşdur.

İsmayıl İbrahimov SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin neft, qaz və neft-kimya ali təhsili üzrə elmi-metodiki şuranın sədri vəzifəsində çalışmışdır.

1979-cu ildə ASE elmi redaksiya şurasının üzvü olmuşdur.

Görkəmli alim "Nəzarət ölçü cihazları" (1952), "Avtomatik tənzimləmə nəzəriyyəsinin əsasları və istehsal proseslərinin avtomatlaşdırılması" (1972), "Elementı i sistemı pnevmoavtomatiki" (1965) və s. əsərlərin müəllifidir.

Akademik İsmayıl İbrahimov "Sosialist Əməyi Qəhrəmanı", "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, iki dəfə Lenin, üç dəfə "Qırmızı Əmək Bayrağı", "Vətən qarşısında xidmətlərinə görə" ordenləri, bir sıra medal və Fəxri fərmanlarla təltif edilmişdir.

1983-cü ildə bir qrup alim və mütəxəssislə birlikdə "İstehsalatın səmərəliliyini yüksəltmək üçün idarəetmə və informasiya sistemlərinin hazırlanması və tətbiqi" adlı işinə görə elm və texnika sahəsində SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Ədəbiyyat

Dünyanın türk-müsəlman dövlətlərinin mədəni əlaqələrinin genişlənməsi /İ.İsmayılov, red. Y.Əhmədov; ön söz İ.İbrahimov.- Bakı, 2010.-203 s.

Azərbaycan Respublikasının müstəqillik illərində kibernetika və informatika sahəsində əldə olunmuş elmi-texniki nailiyyətlər (1991-2011-ci illər) /elmi red. İ.İbrahimov; red. şurası T.Əliyev və b.- Bakı: Elm, 2012.- 240 s.

İbrahimov İsmayıl Əli oğlu //Azərbaycan Sovet Ensiklopediyası (ASE).- Bakı, 1980.- C.IV.- S.360.

İnternetdə

www.anl.az

www.muallim.edu.az

www.edu.gov.az

55 illiyi Knyaz Aslan 1960

Alim



Knyaz İlyas oğlu Aslan 1960-cı il dekabr ayının 25-də Gürcüstan Respublikası Dmanisi (Başkeçid) rayonunun Hamamlı kəndində anadan olmuşdur.

1979-cu ildə orta məktəbi qızıl medalla bitirmişdir. 1988-ci idə ADU-nun kitabxanaçılıq fakültəsini, 1998-ci ildə jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1988-2012-ci illərdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasında laborant, müəllim, dosent vəzifələrində çalışmış, eyni zamanda Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutunun və Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi olmuşdur. 1998-ci ildən Xəzər Universitetinin dosenti kimi Azərbaycan ədəbiyyatı və jurnalistika ixtisasları üzrə mühazirələr oxuyur.

2004-cü ildə "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu" mövzusunda dissertasiya müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsini, 2006-cı ildə dosent elmi adını almışdır. Həmin ildən BDU-nun doktorantı kimi "Azərbaycan ədəbiyyatı klassiklərinin irsində kitab və mütaliə məsələləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. 2012-ci ilin yanvar ayından BDU-nun Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri vəzifəsində çalışır.

1979-cu ildən Gürcüstan və Azərbaycan kütləvi informasiya vasitələrində müntəzəm çıxış edir. Müxtəlif illərdə "Bakı Universiteti", "Azərbaycan gəncləri", "Azərbaycan Ordusu", "Respublika", "Borçalı", "Elturan" ("Milli Məsələlər"), "Xəzər Xəbər" kimi qəzet və jurnallarda müxbir, redaktor və baş redaktor vəzifələrində işləmişdir. 1992-1995-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində "Azərbaycan Ordusu" qəzetinin şöbə redaktoru və "Hərbi Nəşriyyat"ın redaktoru olmuş, hərbi jurnalist kimi işğalçı Ermənistanla aparılan döyüşlərdə iştirak etmişdir. Qarabağ müharibəsi veteranıdır.

Hazırda "Kitabxanaşünaslıq və informasiya" jurnalının, "Ədəbi əlaqələr" toplusunun baş redaktor müavini, "Kitabxana.az", "Göyqurşağı" uşaq jurnalının, "Borçalı" qəzetinin və jurnalının redaktorudur. Çoxsaylı elmi-nəzəri, ədəbi-publisistik məqalələrin, 5 monoqrafiyanın, 30-dan artıq kitabın müəllifidir.

Şeirləri rus, ingilis və alman dillərinə çevrilmişdir. A.Puşkin, M.Lermontov, S.Yesenin, T.Şevçenko və başqa məşhur şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Azərbaycan Jurnalistlər Birliyinin, Aşıqlar Birliyinin, Yazıçılar Birliyinin, Mətbuat Şurasının üzvüdür. Azərbaycan yazıçılarının və jurnalistlərinin son qurultaylarının nümayəndəsi olmuşdur. ABŞ, Rusiya, Ukrayna, Gürcüstan, İran və başqa ölkələrdə keçirilmiş bir sıra beynəlxalq elmi konfranslarda iştirak etmişdir.

2011-ci ildə BDU-da "İlin alimi", 2012-ci ildə isə "Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi" fəxri adına layiq görülmüşdür. Ədəbi-publisistik uğurlarına görə N.Gəncəvi, H.Zərdabi, M.Şəhriyar, Ö.F.Nemanzadə, A.Şaiq, S.Yesenin mükafatları laureatı olmuş, "Büllur Qələm", "Qızıl Saz", "Qızıl Kitab", "Qızıl Qələm", "Peşəkar Jurnalist", "Kamil Söz Ustası", "Ustad" və başqa mükafatlarla təltif edilmişdir.

Ədəbiyyat

Bu dünyaya nə gətirdim... Hamlet İsayev (İsaxanlı): monoqrafiya /K.Aslan, V.Ömərli.- Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2005.- 118 s.- (Azərbaycan və rus dillərində)

Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): dərs vəsaiti /K.Aslan.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010.- 448 s.

Elm və təhsil fədaisi (Prof. A.Xələfov): monoqrafiya /K.Aslan.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006.- 240 s.

Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: monoqrafiya /K.Aslan.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005.- 300 s.

Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti /K.Aslan.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011.- 416 s.

Üzü yaza gedən cığır: şeirlər və poemalar /K.Aslan.- Bakı: Qartal, 2011.- 368 s.

İnternetdə

www.anl.az

1

QİÇS-lə Mübarizə Günü 1988



Hər il dekabr ayının 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. İlk dəfə 1988-ci ildə təsis edilmiş AİDS günü bu il Azərbaycanda artıq 25-ci ildir ki, keçirilir.

Azərbaycanda ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən bugünədək QİÇS-lə Mübarizə Mərkəzində HİV infeksiyası təsdiq olunmuş 3199 nəfər rəsmi qeydiyyata götürülmüşdür.

Səhiyyə Nazirliyi tərəfindən HİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsinin təmin edilməsi işi Respublika QİÇS-lə Mübarizə Mərkəzində davam etdirilir. Belə ki, AİDS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondun dəstəyi ilə 08.11.2006-cı il tarixdən etibarən HİV-lə yaşayan insanlara pulsuz qaydada həyata keçirilən antiretrovirus terapiyasına hazırda 310 nəfər cəlb olunmuşdur.

Dünyada hər gün 6800-dən artıq insan HİV-ə yoluxur, 5700-dən artıq insan isə AİDS səbəbindən vəfat edir. 2007-ci ilin sonuna Yer kürəsində HİV-lə yaşayan insanların sayı 33,2 milyon təşkil etmişdir ki, onlardan da 15,4 milyonu qadın, 2,5 milyonu uşaqdır.

Ədəbiyyat

Sevinc. Azərbaycanda QİÇS-lə mübarizə güclənir /Sevinc //Həftə içi.- 2013.- 30 noyabr-2 br.- S.6.

www.joy.az

3

Beynəlxalq Əlillər Günü 1992



Dekabrın 3-nün Əlillər Günü kimi qeyd olunmasıyla bağlı qərar Rusiya Federasiyasının təşəbbüsü ilə 1992-ci ildə BMT-nin Baş Məclisində qəbul edilmişdir. Hər il bu tarixdə BMT-yə üzv olan ölkələrdə əlillərin cəmiyyətdəki mövqelərinin daha da möhkəmlənməsinə yönələn tədbirlər görülür. Hər il keçirilən Beynəlxalq əlillər günü, əlillərin ehtiyaclarını başa düşmək və məhdud imkanlara malik olan insanların ləyaqət, hüquq və rifahına dəstəyi irəli çəkmək və həmçinin, məhdud imkanlı insanların siyasi, sosial və mədəni həyatın bütün aspektlərinə cəlb edilməsindən əldə olunan xeyir haqda məlumatlandırmanı yaxşılaşdırmaq məqsədilə elan edilmişdir.

Bu günün elan olunmasının digər bir məqsədi - insan hüquqlarına tam və bərabər riayət edilməsinə və əlillərin cəmiyyətin həyatında iştirakına nail olmaqdır. Bu məqsəd 1982-ci ildə Baş Məclis tərəfindən qəbul edilmiş əlillərə münasibətdə Ümumdünya hərəkət proqramında göstərilmişdir.

Hazırda dünyada 150 milyondan çox xüsusi qayğıya ehtiyacı olan əlil uşaq var.

Azərbaycanda isə bu gün 462 min 672 nəfər əlil var. Bunların müəyyən hissəsi əmək pensiyası, digər qismi isə sosial müavinətlə dolanır.

Ədəbiyyat

Alim.Əlillər hansı üstün əmək hüquqlarına malikdir?: Pərviz Zamanlı: "Əlillər artıq iş vaxtına yalnız onların öz razılığı ilə cəlb oluna bilərlər" /Alim //Olaylar .-2013.- 25-27 may.- S.6.

İnternetdə

www.anl.az

www.un.org

Tarixdə bu gün

95 illiyi

Azərbaycan Milli Arxiv İdarəsi 1920

Dövlət arxivinin əsası 1920-ci il dekabr ayının 6-da Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov tərəfindən imzalanmış dekretlə qoyulmuşdur. Bu dekretə əsasən Azərbaycan ərazisində keçmişdə mövcud olmuş və dekret verilərkən fəaliyyətdə olan idarə, təşkilat və müəssisələrin arxivləri Vahid dövlət arxiv fondunun tərkibinə daxil edilməli və kargüzarlıqdan qurtarmış işlər isə mərkəzi dövlət arxivinə verilməli idi. 1921-ci ilin yanvarından isə Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi kimi fəaliyyətə başlamışdı.

Müxtəlif dövrlərdə burada yaranan qiymətli arxiv sənədləri ya məhv edilmiş, ya da xarici işğalçılar tərəfindən talanıb aparılmışdır. Təsadüfi deyildir ki, bu gün Avropa, Asiya, Amerikanın müxtəlif ölkələrinin muzey və arxivlərində Azərbaycan tarixinə aid çoxlu qiymətli sənədlər və nadir əlyazmalar saxlanmaqdadır.

SSRİ-nin yaranması ilə əlaqədar olaraq 1922-ci ildə arxiv fondları ilə bağlı səlahiyyətlər müttəfiq respublikaların əlindən alınır, arxiv təşkilatları ittifaq-respublika tabeli orqana çevrilir, onların işinə məhz Moskvadan rəhbərlik edilməyə başlanılır. Onlara əməli rəhbərlik Daxili İşlər Nazirliyinin Baş Arxiv İdarəsi, sonra isə SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsi tərəfindən həyata keçirilirdi. 1922-ci ilin avqust ayında Mərkəzi Dövlət Arxivinə rəhbərlik bilavasitə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət (MİK) Heyətinə həvalə olunur. 1925-ci il dekabr ayının 13-də Naxçıvan Muxtar Respublikasında Mərkəzi arxiv, 1928-ci ildən isə Azərbaycanın qəzalarında qəza arxiv bürolarının yaradılmasına başlanılır.

1938-ci ildə arxiv təşkilatları Xalq Daxili İşlər Komissarlığının tabeçiliyinə verilmiş, 1960-cı ilə qədər bu tabeçilik davam etmişdir. 1960-cı ildə arxiv təşkilatları Daxili İşlər Nazirliyinin tabeliyindən Nazirlər Sovetinin tabeliyinə verilir və yalnız bundan sonra arxiv işinə və arxiv sənədlərindən istifadəyə diqqət artırılır, dövlət arxivləri şəbəkəsinin yenidən qurulması və genişləndirilməsi işinə başlanır.

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı öz mənəvi sərvətləri olan arxivlərə sahib ola bildi. İllərlə qapalı saxlanmış bu arxiv materiallarından tariximizin tədqiqində və həqiqətlərin ortaya qoyulmasında geniş istifadə olunmağa başlandı. Beynəlxalq arxiv təşkilatları və ayrı-ayrı dövlətlərin arxiv xidməti orqanları ilə əlaqələr yaradan Baş Arxiv İdarəsi 1996-cı ildə YUNESKO yanında Beynəlxalq Arxiv Şurasına tam hüquqlu üzv qəbul edilmişdi. Arxivlər MDB-yə daxil olan ölkələrin arxivləri ilə yanaşı, bir sıra qonşu ölkələrin arxivləri, xüsusilə Türkiyə və İran arxivləri ilə geniş əlaqələr yaratmışdı. Bu gün ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, İran, Belçika, Polşa və başqa ölkələrdən olan tədqiqatçılar respublikamızın arxivlərində saxlanılan elmin müxtəlif sahələrinə aid sənədlərdən geniş istifadə edirlər.

1999-cu il iyul ayının 27-də isə ümummilli lider Heydər Əliyev tərəfindən "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman imzalanmışdır. İlk dəfə olaraq bu Qanunla müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında dövlət, ictimai, dini və digər təşkilatlar, vətəndaşlar qanunvericilikdə müəyyən olunmuş qaydalarla arxiv yaratmaq hüququna malikdirlər. Yaradılmış bu arxivlər küll halda Azərbaycan Respublikasının milli arxiv fondunu təşkil edir. Bu Qanuna əsasən mülkiyyət formasından və mühafizə olunduğu yerdən asılı olmayaraq Milli arxiv fonduna daxil olan sənədlər Milli Arxiv İdarəsi tərəfindən dövlət qeydiyyatına götürülür.

Xalqımızın tarixinin ilk mənbələr əsasında öyrənilməsində idarə və müəssisələrin, habelə vətəndaşların informasiyaya olan gündəlik tələbatlarının ödənilməsində milli arxiv fondunun böyük əhəmiyyətini nəzərə alaraq arxiv işinin təkmilləşdirilməsi məqsədi ilə 2002-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradılmışdı. Bu idarəyə tabe olan respublika əhəmiyyətli 6 dövlət arxivi, Dövlət arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının dövlət arxivi, habelə 55 rayon və şəhər dövlət arxivləri mövcuddur.

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli sərəncamına əsasən, hər il dekabrın 6-sı Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü kimi qeyd edilir.

Ən qədim dövrlərdə insanlar hündürlükdə tonqal yandırmaqla, çaparlarla, göyərçinlərlə informasiya ötürülməsi prosesini təmin edə bilmişdilər. Lakin zaman ötdükcə, insan zəkası inkişaf etdikcə daha mütərəqqi üsullara ehtiyac artmış və informasiya texnologiyalarının yaranması üçün labüd şərait yaranmışdır. Azərbaycanda rabitənin tarixi çox qədimdir. 1881-ci ildə ölkəmizdə ilk telefon xəttinin Bakıda "Nobel qardaşları Cəmiyyəti" tərəfindən çəkilməsilə tarixə düşən Azərbaycan rabitəsi yarandığı gündən özünəməxsus inkişaf yolu keçərək bugünkü dövrə çatmışdır.

1901-ci ildə Tiflis Poçt Teleqraf Dairəsi İdarəsinin tərkibində Bakı Poçt-Teleqraf kontoru yaradılmışdır.

1916-cı ildə bu kontor ləğv edilmiş və ayrı-ayrılıqda poçt və teleqraf kontorları təşkil edilmişdir. 1918-ci il may ayının 25-də Azərbaycan Milli Şurası müstəqillik haqqında Bəyannamə qəbul etdikdən sonra Müvəqqəti Hökumətin tərkibində Yollar, Poçt və Teleqraf Nazirliyi yaradılmışdı.

II Kabinə hökumətdaxili dəyişiklik-lərdən sonra oktyabr ayının 6-da Azərbaycan Respublikası Poçt və Teleqraf Nazirliyi, 1954-cü ildə Azərbaycan SSR-də Respublika Rabitə Nazirliyi, 2004-cü il fevral ayının 20-də Azərbaycan Respublikası Prezidentinin 94 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdı.

Qədim tarixə malik olan rabitə sahəsi müasir dövrdə yüksək inkişaf səviyyəsinə çatmışdır. Dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilən bu sahənin daha da inkişaf etdirilməsi ilə əlaqədar olaraq ölkəmizdə məqsədyönlü işlər aparılmış, müxtəlif dövlət proqramları, layihələr həyata keçirilmişdir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" və "Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı" bu gün də uğurla icra edilir.

Ədəbiyyat

Mükərrəmoğlu, M. Rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramına həsr edilən tədbir keçirilmişdir /M.Mükərrəmoğlu //Xalq qəzeti .-2011.- 6 dekabr.- S. 6.

Rabitə və informasiya texnologiyaları sahəsi işçiləri peşə bayramlarını qeyd etmişlər //Azərbaycan .-2011.- 6 dekabr.- S.7.

İnternetdə

www.anl.az

www.aztelekom.org

www.ict.az

www.mincom.gov.az

Xankəndinin işğalı 1991



Ərazisi: 1048 km²
Əhalisi: 57 000 nəfər

28 dekabr – Yuxarı Qarabağın mərkəzi olan Xankəndi şəhərinin işğalı günüdür. Şəhər 28 dekabr 1991-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, separatçı rejim yaradılmışdır. Məhz həmin tarixdə Xankəndindən sonuncu azərbaycanlı ailələr qovulmuş və 1989-cu ildən soydaşlarımıza qarşı aparılan etnik təmizləmə başa çatmışdır.

1991-ci il dekabr ayının 28-da Xankəndinin itirilməsi, qarşıda Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilanın işğalına yol açdı.

Yuxarı Qarabağın mərkəzi, Qarqar çayının sahilində, Qarabağ silsiləsinin Şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşən Xankəndi, Azərbaycanın inkişaf etmiş sənaye mərkəzi idi. Şəhərdə yüngül və yeyinti sənayesi müəssisələri var idi. Elektrotexnika, avtomobil təmiri və asfalt-beton zavodları, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris istehsalat kombinatları belə müəssisələrdən idi.

Tarixi sənədlərə görə Xankəndi şəhəri XVIII əsrin axırlarında, o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdı. Elə şəhərin adı da buradan yaranmışdır. 1813-cü ilədək bircə nəfər ermənininin də yaşamadığı Xandəndində sonralar çar Rusiyası tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bura İrandan köçürülən ermənilər yerləşdirilmişdir.

SSRİ dövründə Xankəndində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da güclənmiş, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılmışdır. 1923-cü ildə Rusiya İmperiyasının siyasətilə Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Bundan sonra vilayətin ermənləşdirilməsi siyasəti aktivləşmiş, 6 oktyabr 1923-cü ildə ermənilərin müraciəti nəzərə alınaraq Xankəndinin adı dəyişdirilərək Azərbaycan xalqına qarşı genosid törətmiş cinayətkar Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılmışdır. Muxtar Vilayətdə rəhbər vəzifələrə ermənilər irəli çəkilmiş, beləliklə də, Xankəndi erməni işğalı altına düşmüşdü.

Keçmiş SSRİ dövründə Xankəndində yaşayan azərbaycanlılar tədricən buradan didərgin salınmışlar.

1988-ci il hadisələri başlayanda Xankəndində erməni əhalisi azərbaycanlılardan xeyli çoxluq təşkil edirdi. Həmin vaxt azərbaycanlıların sayı 17 minə yaxın idisə, ermənilər artıq 40 min nəfərədək artmışdılar.

1988-1989-cu ildə Xankəndi artıq erməni separatizminin mərkəzinə çevrilmişdi. Moskvanın himayəsilə güclənən erməni separatizmi sonuncu azərbaycanlıları 28 dekabr 1991-ci ildə Xankəndindən qovmağa nail olmuş, şəhərin işğalı tam başa çatdırılmışdı.

Təəssüf ki, bu gün işğal tarixləri qeyd olunarkən Xankəndinin işğalı bir çox hallarda unudulur.

Ə d ə b i y y a t

Feyziyev, C. Xankəndiyə gedən yol /C.Feyziyev //Azərbaycan.- 2012.- 1 mart.- S.4.

İ n t e r n e t d ə

www.anl.az

www.xankendi.az

DEKABR

31

Tarixdə bu gün

Dünya Azərbaycanlılarının Həmrəylik Günü 1991



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilmiş, Yeni il isə ikinci plana keçmişdir. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.


SSRİ-nin son günləri, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü, bu birləşmək istəyinin simvolik nişanıdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda, sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyulmuş, Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdılmışdı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verilmişdi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmiş, beləliklə, bütün azərbaycanlılar üçün əziz olan bu gün bütün dünyada bayram edilir.

• **Bu bölmədə 2015-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz.**

130 il Üzeyir Hacıbəyli 1885-1948





Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyəti tarixində yeni istiqamət və milli bəstəkarlıq məktəbinin özülünü qoymuşdur. Azərbaycan musiqisi tarixində ilk opera, ilk musiqili komediya və bir sıra digər janrlarda, ilk nümunələrin yaradıcısı kimi tanınmış dahi bəstəkar ilk azərbacanlı folklorçu-bəstəkar və Azərbaycan musiqisinin dərinliklərini və istiqamətlərini araşdırıb üzə çıxarmış və əsaslandırmış ilk azərbaycanlı musiqişünas-alimdir. Üzeyir Hacıbəyli həm də ədəbi-bədii dəyərini itirməmiş yazıları ilə tanınan publisist, felyetonçu və librettoçu-dramaturqdur. Üzeyir Hacıbəyli görkəmli yenilikçi, müəllim-ustad və Azərbaycanda böyük musiqiçi-ictimaiyyətçı kimi, Şərqdə ilk musiqili teatrın və ilk Konservatoriyanın yaradıcısı kimi Azərbaycan xalqının tarixində və mədəniyyətində ən böyük simalardan biri kimi yaşayır və yaşayacaq.

Onun xidmətləri yüksək qiymətləndirilmiş, "Azərbaycanın Əməkdar incəsənət xadimi" (1935), "SSRİ Xalq artisti" (1938) fəxri adlarına layiq görülmüş, Stalin Mükafatı laureatı (1941) olmuş, "Lenin Ordeni" və "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Azərbaycan EA-nın akademiki (1945), professor (1940), Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929, 1939-1948), Azərbaycan EA İncəsənət İnstitutunun direktoru (1945-1948) olmuşdur.

Əlavələr

2015



Milli ədəbiyyat

Ədəbiyyatşünas Yəhya ibn Əli Xətib Təbrizi (1030-03.01.1109) anadan olmasının 985 illiyi 349

Şairə Dünbüli Heyran xanım Kərim xan qızının (1790-1860) anadan olmasının 225 illiyi 350

Şairə Qiyasbəyova Rəncur Şahnigar xanım Kazımağa qızının (1850-1899) anadan olmasının 165 illiyi

Şair Qafarzadə Əbdülxalıq Səfərəli oğlunun (Əbdülxaliq Cənnəti) (1855-06.06.1931) anadan olmasının 160 illiyi

İlk qadın dramaturq Axundzadə Səkinə xanım Mirzə Heybət qızının (1865-1927) anadan olmasının 150 illiyi

Şairə İmanova Ağcaqız Kərbəlayı Dadaş qızının (1880-1974) anadan olmasının 135 illiyi

Fransada yaşayıb-yaratmış azərbaycanlı yazıçı Əsədullayeva Ümmülbanu (bəzi mənbələrdə Ümm-Əl-Banu) Mirzə qızı (Banin) (1905-1992) anadan olmasının 110 illiyi 351

Görkəmli mühacir yazıçı Məhəmməd Əsəd bəy (Lev Nussimbaum (Əsəd bəy)) (1905-1942) anadan olmasının 110 illiyi

Əməkdar incəsənət xadimi, şair, dramaturq Abbasov Əyyub Cəbrayıl oğlunun (1905-18.11.1957) anadan olmasının 110 illiyi

Şair, publisist Əliyev Dünyamalı Kərəm oğlunun (Dünyamalı Kərəm) (1920) anadan olmasının 95 illiyi

Şair, tərcüməçi, ədəbiyyatşünas Hüseyni Əbülfəz Aslan oğlunun (1925-1987) anadan olmasının 90 illiyi



Folklor

Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim Ağa Ağabacının (1780/1781-1832) anadan olmasının 235 illiyi

Aşıq Hüseynov Teymur Səfər oğlunun (Aşıq Teymur) (1895-1980) anadan olmasının 120 illiyi

Aşıq Hüseynov Nəcəf Alı oğlunun (Aşıq Nəcəf) (1905-1941) anadan olmasnın 110 illiyi

Əməkdar mədəniyyət işçisi, şair, aşıq Rüstəmov Əhməd Ədil bəy oğlunun (Aşıq Əhməd) (1920-12.08.2008) anadan olmasının 95 illiyi

Əməkdar mədəniyyət işçisi, "Aşıq Pəri" məclisinin yaradıcısı və rəhbəri Narınc Xatun-Cəfərova Narınc Əvəz qızının (1930-2007) anadan olmasının 80 illiyi 352



Dünya ədəbiyyatı

Qədim yunan dramaturqu Aristofanın (e.ə təqribən 445-e.ə. təqribən 385) anadan olmasının 2460 illiyi
Qədim yunan dramaturqu Esxil Aysxilosun (e.ə.təqribən 525-456) anadan olmasının 2540 illiyi
İngilis yazıçısı və publisisti Defo Danielin (təqribən 1660-26.04.1731) anadan olmasının 355 illiyi
Türk xalq ozanı, təkkə şeirinin yaradıcılarından biri, "Vəhdəti vücud" fəlsəfəsinin ardıcılı, türkdilli ədəbiyyatın ilk mütəsəvvüflərdən biri, zaman etibarilə Oğuz dillərinin ilk böyük şairi Yunus Əmrənin (1238/1240(1)-1320(1)) anadan olmasının 775 illiyi 353



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi və bir çox memarlıq əsərlərinin müəllifi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin (1120-?) anadan olmasının 895 illiyi
Görkəmli rəssam, portret və ornament ustası Mirzə Qədim İrəvaninin (1825 -1875) anadan olmasının 190 illiyi 354
Xalq rəssamı Əliyev Baba Balababa oğlunun (1915-1990) anadan olmasının 100 illiyi
Xalq rəssamı Mehdiyev Ağa Cəfər oğlunun (1920-2003) anadan olmasının 95 illiyi



Musiqi.Opera.Balet

Musiqi xadimi, bəstəkar, tarzən Əmirov Məşədi Cəmil Kərbəlayı Əmiraslan oğlunun (1875-1928) anadan olmasının 140 illiyi 355



Teatr.Kino

Teatr xadimi, pedaqoq, aktyor Zeynalov Cahangir Məşədi Rza oğlunun (1865-1918) anadan olmasının 150 illiyi 356
Əməkdar incəsənət xadimi, aktyor Əhməd Haşım oğlu Məlikovun (Əhməd Qəmərlinski) (1880-09.03.1952) anadan olmasının 135 illiyi 357
Əməkdar artist Tağızadə Süleyman İsmayıl oğlunun (1905-13.09.1960) anadan olmasının 110 illiyi



Siyasət.Hərbi iş

Azərbaycan sərkərdəsi və siyasi xadimi Babək əl Xürrəminin (təqribən 795/798-14.03.838) anadan olmasının 1220 illiyi 358
Qaraqoyunlu dövlətinin əsasını qoymuş görkəmli dövlət xadimi və sərkərdəsi Cəmaləddin Qara Yusif Baraninin (1355-1420) anadan olmasının 660 illiyi
Qarabağın sonuncu hakimi, general-mayor Mehdiqulu xan İbrahimxəlil xan Cavanşirin oğlunun (1775-1845) anadan olmasının 240 illiyi
İctimai-siyasi xadim, jurnalist, həkim, müəllim Ağayev Həsən bəy Məşədi

Hüseyn bəy oğlunun (1875-19.07.1920) anadan olmasının 140 illiyi 359
Dövlət və ictimai xadim, azərbaycanın ilk inqilabçı qadınlarından biri Sultanova (Musabəyova) Ayna Mahmud qızının (1895-1938) anadan olmasının 120 illiyi
Azərbaycan dövlət və ictimai xadimi Aslanova Çimnaz Əbdüləli qızının (1904-10.03.1970) anadan olmasının 110 illiyi



Tarix

Qədim yunan tarixçisi Herodotun (e.ə.təqribən 490-e.ə.təqribən 425) anadan olmasının 2505 illiyi
Azərbaycan türklərindən olan tarixçi, diplomat Bayat Oruc bəy Sultanəli bəy oğlunun (1560-1604) anadan olmasının 455 illiyi
Azərbaycan türklərindən olan görkəmli tarixçi, şair və xəttat İskəndər bəy Münşi Türkmanın (1560-1634) anadan olmasının 455 illiyi



İqtisadiyyat.Fəlsəfə.Din

Mütəfəkkir, ilahiyyatçı filosof Bakuvi Seyid Yəhya Cəlaləddinin (təqribən 1410-1462) anadan olmasının 605 illiyi 360
AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Səttarov Məqsəd Məhəmmədəli oğlunun (1925-2000) anadan olmasının 90 illiyi
Əməkdar müəllim, fəlsəfə elmləri doktoru, professor Mikayılov Nurqələm Mikayıl oğlunun (1930-24.09.2014) anadan olmasının 85 illiyi



Mədəniyyət.Maarif.Elm

Şərqşünas alim Topçubaşov Mirzə Cəfər Əlimərdanbəy oğlunun (1790-04.02.1869) anadan olmasının 225 illiyi 361
Əmir Nizam, dövlət xadimi, ədib, xəttat, dilçi Gərrusi Həsənəli xan Məhəmmədsadıq oğlu (1820-1900) anadan olmasının 195 illiyi
Maarifpərvər Qayıbov Hüseyn Əfəndinin (1830-20.01.1917) anadan olmasının 185 illiyi
Maarif xadimi, pedaqoq Mövsümov Mirağa Mirmövsüm oğlunun (1850-1926) anadan olmasının 165 illiyi
Məşhur Azərbaycan milyonçusu, xeyriyyəçi, Azərbaycan sahibkarlığının və neft sənayesinin görkəmli nümayəndəsi Muxtarov Murtuza Muxtar oğlunun (1855-1950) anadan olmasının 160 illiyi 362
Maarifçi ziyalı, xeyriyyəçi Rəfiyev Hacı Məhəmmədhüseyn oğlunun (1860-1920) anadan olmasının 155 illiyi
Maarif xadimi Bədəl bəy Bəşir bəy oğlu Bədəlbəylinin (1875-12.09.1932) anadan olmasının 140 illiyi
Mətbuat xadimi, şair, nasir, maarifçi Hüseynzadə Əlipaşa Səbur Fərəculla oğlunun (Səbur Əlipaşa) (1885-11.05.1934) anadan olmasının 130 illiyi
Publisist, pedaqoq Nərimanova Nabat Məhəmməd qızının (1890-1975)

anadan olmasının 125 illiyi
Əməkdar müəllim, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Həsənov Fərrux Həsən oğlunun (1910-1944) anadan olmasının 105 illiyi
Azərbaycan jurnalisti, publisist, ensiklopedist-lüğətşünas, tərcüməçi, maarifpərvər Rzaquliyev Cəbrayıl Manaf oğlu (Ağacəbrayıl Rzaquluzadə) (1910-1974) anadan olmasının 105 illiyi
Filoloq alim, filologiya elmləri doktoru, professor Turxan Gənceyinin (1925) anadan olmasının 90 illiyi

Coğrafiya.Geologiya



Məşhur səyyah və coğrafiyaçı, tarixçi, etnoqraf, filosof və şair Hacı Zeynalabdin ibn Axund İskəndər Şirvaninin (1780-1838) anadan olmasının 235 illiyi
SSRİ EA-nın müxbir üzvü, geoloq-alim, geologiya-mineralogiya elmləri doktoru, professor Əmiraslanov Əli Ağamalı oğlunun (1900-1962) anadan olmasının 115 illiyi

Kimya.Biologiya.Tibb



Həkim, professor Sultanov Məlik bəy Qasım bəy oğlunun (1880-1939) anadan olmasının 135 illiyi
Tibb elmləri doktoru, professor Mahmudbəyov Lətif bəy Əsəd bəy oğlunun (1895-1972) anadan olmasının 120 illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor İbrahimov Məmmədbağır Əli oğlunun (1905-12.12.1979) anadan olmasının 110 illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Hüseynov Dursun Yaqub oğlunun (1915) anadan olmasının 100 illiyi
Tibb elmləri doktoru, professor Şirəliyev Oqtay Kazım oğlunun (1950) anadan olmasının 65 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya



Biblioqraf, tədqiqatçı, şair Ağayev Novruz Ağagül oğlunun (1870-1948) anadan olmasının 145 illiyi
Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının (1920) yaranmasının 95 illiyi
Azərbaycan Dövlət Neft Akademiyasının əsaslı Kitabxanasının (1920) yaranmasının 95 illiyi
Tovuz rayon Mərkəzi Kitabxanasının (1925) yaranmasının 90 illiyi
Şəki şəhər Mərkəzi Kitabxanasının (1925) yaranmasının 90 illiyi
Milli Arxiv İdarəsinin Elmi Məlumat Kitabxanasının (1930) yaranmasının 85 illiyi
Respublika Elmi-Texniki Kitabxanasının (1930) yaranmasının 85 illiyi
Qəbələ rayon Mərkəzi Kitabxanasının (1930) yaranmasının 85 illiyi

AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin Kitabxanasının (indiki Kitabxana və İnformasiya Mərkəzi) (1940) yaranmasının 75 illiyi
Respublika Elmi Tibb Kitabxanasının (1940) yaranmasının 75 illiyi
Azərbaycan Texniki Universitetinin Kitabxanasının (1950) yaranmasının 65 illiyi
Biləsuvar rayon Mərkəzi Kitabxanasının (1960) yaranmasının 55 illiyi
A.Babayev adına Naxçıvan Respublika Uşaq Kitabxanasının (1965) yaranmasının 50 illiyi
Ağdaş rayon Mərkəzləşmiş Kitabxana Sisteminin (1980) yaranmasının 35 illiyi
Ağstafa rayon Mərkəzləşmiş Kitabxana Sisteminin (1990) yaranmasının 25 illiyi

Tarixdə bu gün



"Kitabi -Dədə Qorqud" dastanının 1315 illiyi 364-365
Şirvanşahlar sarayının (1420-1460-cı illərdə) tikilməsinin 595 illiyi 366-367
"Kitabi-Dədə Qorqud" dastanının dünya elm aləminə tanıdılmasının (1815) 200 illiyi
"Açıq söz " qəzeti nəşrə başlamaşnın (1915) 100 illiyi
Azərbaycan Dövlət Neft Akademiyasının (keçmiş Azərbaycan Neft və Kimya İnstitutu) fəaliyyətə başlamasının (1920) 95 illiyi 368
Azərbaycan Tarixi Müzeyinin Bakıda yaradılmasının (1920) 95 illiyi 369
Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin yaradılmasının (1920) 95 illiyi
Naxçıvan MR-da Ordubad rayonu təşkil olunmuşdur (1925)
Azərbaycan Texniki Universiteti (keçmiş Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu) yaradılmasının (1950) 65 illiyi
Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasının yaradılmasının (1965 dekabr) 50 illiyi
"Mozalan" satirik kinojurnalının yaradılmasının (1970) 45 illiyi
Üzeyir bəy Hacıbəylinin xatirə ev-muzeyinin yaradılmasının (1975) 40 illiyi
Azərbaycan Mədəniyyətinin Dostları Fondunun (1995) yaradılmasının 20 illiyi 370-371
Vahid Poeziya Evinin yaradılmasının (1995) 20 illiyi

985 illiyi

Xətib Təbrizi 1030-1109

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Kitab əl-kafi fi-l-əruz və-l-qəvafi /X.Təbrizi; tərc. ed. Q.Allahverdiyev; red. İ.Həmidov.-Bakı: Tural, 2005.-428 s.

Allahverdiyev, Q. XI əsr Azərbaycan ədəbiyyatşunaslığı məsələləri Xətib Təbrizinin "Şərh Əl-Həmasə" kitabı əsasında /Q.Allahverdiyev; Şərq Araşdırmaları Mərkəzi-2.- Bakı, 2004.- 286 s.

Mahmudov, M. Xətib Təbrizinin həyat və yaradıcılığı /M.Mahmudov; AzSSR EA Yaxın və Orta Şərq Xalqları İn-tu.-Bakı: Elm, 1972.-203 s.

"Ədəbiyyatşünasların rəhbəri" Xətib Təbrizi: 20 yaşlı gəncin qeyri-adi istedadı //Azadlıq.- 2012.- 17 noyabr.- S.14.

Xətib Təbrizi //Qafarova S., Gərayzadə E. Azərbaycan ədəbiyyatının tədrisi tarixi: dərs vəsaiti.- Bakı, 2010.- S.38-41.

Qasımov, X. Xətib Təbrizi //Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti.- Bakı, 2008.- S.114-117.

İ n t e r n e t d ə

www..anl.az

www.az.wikipedia.org

Əbu Zəkəriyyə Yəhya İbn Əli İbn Məhəmməd İbn Həsən İbn Məhəmməd İbn Musa İbn Bistam əl Şeybani 1030-cu ildə Təbriz şəhərində doğulmuşdur. Lakin o özünü Xətib Təbrizi kimi təqdim etmişdir.

Ərəb ədəbiyyatının ən məşhur simalarından biri Əbül-əla-əl Məərri yanında təhsil almışdır. Tarixçilər Əbüləlanın yanında təhsilini bitirdikdən sonra Xətibin müxtəlif Şərq ölkələrində dövrünün məşhur alimlərinin yanında da biliyini artırdığını yazırlar.

Oxumaq həvəsi onu Suriyaya çəkib aparmışdır. O, burada tanınmış ərəb alimlərindən ilahiyyat, leksikoqrafiya və poetika dərsləri almışdır. 1064-cü ildə Xətib Dəməşqə getmiş və burada onun tanınmış tarixçi Xətib Bağdadi (1002-1071) ilə dostluğu başlamışdır. Bundan sonra Misirə yola düşən Təbrizi orada saray alimi Tahir ibn Babaşazdan ərəb qrammatikasını öyrənmişdir.

1067-ci il sentyabr ayının 22-də Bağdadda türk-səlcuq hakimlərinin vəsaiti hesabına məşhur vəzir, iranlı Nizamülmülkün şərəfinə "Nizamiyyə" adlandırılan və sonralar bütün Şərqdə şöhrət tapan mədrəsə açılmışdır. Xətib Təbrizi "Nizamiyyə" mədrəsəsinin açılış günündən ömrünün sonuna qədər, təxminən 40 il burada filologiyanı tədris etmiş, mədrəsədəki məşhur kitabxananın təşkilatçısı və rəhbəri olmuşdur. Azərbaycan kitabxanaçılığının inkişafında misilsiz xidmətləri olmuş şəxsiyyətlərdən biri olmuşdur.

Xətib yaradıcılığında əsas fəaliyyət sahəsi ədəbiyyatşünaslıq idi. Bu mövzuya o, iyirmiyə yaxın risalə həsr etmişdir. Bundan başqa Xətib Təbrizi "Qurana dörd-cildlik şərhlər"in, ədəbi əsərlərin və leksikoqrafiyaya, qrammatikaya, habelə ərəb poetika nəzəriyyəsinə dair bir sıra risalələrin müəllifidir. Məhəmmədəli Tərbiyət onun ərəb ədəbiyyatına həsr olunan əsərlərinin əhəmiyyətini qiymətləndirərək Xətib Təbrizini ərəb dilinin "anası" adlandırır.

Xətib Təbrizi 1109-cu il yanvar ayının 3-də vəfat etmiş, "Bab Abraz" qəbiristanlığında dəfn edilmişdir.

Xətib Təbrizinin Təbriz şəhərində zəngin şəxsi kitabxanası olmuşdur. İlk Azərbaycan ədəbiyyat nəzəriyyəçisi kimi tanınan Xətib Təbrizi Ə.Müərrinin yanına gedərkən hədiyyə olaraq ərəb aliminə şəxsi kitabxanasından bir neçə kitab da aparmışdır. O, Bağdadda dəfn edilərkən həmin kitabların (17 adda) və bütün əsərlərinin sərgisi təşkil edilmişdir.

Xətib Təbrizinin əlyazmaları bir çox tanınmış muzey və kitabxanalarda saxlanır. Bunlardan ən qiymətlisi, şairin özü tərəfindən üzü köçürülmüş və Tunis milli kitabxanasında saxlanan şərhin əlyazmasıdır. Həmin şərh şair Müfəzzəl Dabinin "Müfəzzəliyyat" adlı antologiyasına yazılmışdır.

225 illiyi

Heyran xanım Dünbüli 1790-1860

Şairə



Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Heyran xanım; tərt. ed.: M.Soltan, Q.Məmmədli; red. C.Nağıyeva.- Bakı: Şərq-Qərb, 2006.- 232 s.

Divan /Heyran xanım.- Təbriz: Hadi, 1990.- 180 s.

37 qəzəl və bir tərci-bənd /Heyran xanım.- Bakı: Gənclik , 1981.-37 s.

Naxçıvanlı şairə Heyran xanım Kəngərlinin təxəllüsündəki "Dünbüli" sözü haqqında //Yol (Bilim Kültür Araşdırma Dərgisi).- Ankara, 2009.- S.242-244.

Heyran xanım //Rəhimova A. Qulam Məmmədli Təzkirəsi "Azərbaycanlı alim, yazıçı, şair və başqa görkəmli xadimlər haqqında biblioqrafik materiallar".- Bakı, 2012.-S.8-14.

Teymurbəyli-Rəhimli, S. Heyran xanım //Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan qadınlarımız /S.T.Rəhimli.-Naxçıvan, 2011. S.8-14.

www.anl.az

www. az.wikipedia.orq

www. kitabevi.ws

www.misra.az

Heyran xanım Kərim xan qızı Dünbüli 1790-cı ildə Naxçıvanda Dünbuli Kəngərli xanları ailəsində doğulmuşdur. Naxçıvanda təhsil almış, ərəb və fars dillərini, klassik Azərbaycan və fars ədəbiyyatını öyrənmişdir. XIX əsrin əvvəllərində Rusiya-İran toqquşmaları dövründə çoxlu xoylu naxçıvanlılar ilə birlikdə onun da ailəsi Naxçıvandan İrana köçürülmüşdür. Füzuli ədəbi məktəbinin davamçılarından, klassik Azərbaycan poeziyasının tanınmış nümayəndələrindəndir.

Azərbaycan və fars dillərində, əsasən, aşiqanə şeirlər yazmışdır. Rudəki, İzzəddin Həsənoğlu, Sədi Şirazi, Hafiz Şirazi, İmadəddin Nəsimi, Əlişir Nəvai, Məhəmməd Füzuli, Qövsi Təbrizi və başqa şairlərə nəzirələri var. Əruzun heca vəzninə yaxın bəhrlərində, sadə xalq dilində yazmışdır. Bəzi şeirləri şifahi xalq ədəbiyyatı nümunələrinə yaxındır. Əsərlərinin 3 əlyazması (Bakı, Tehran və Tbilisi nüsxələri) məlumdur; bunlardan ən mükəmməli şairənin sifarişi ilə yazılmış Bakı nüsxəsidir. Həmin nüsxə Azərbaycan Respublikası Əlyazmalar İnstitutunda saxlanılır.

Doğma yurdundan və yaxın adamlarından ayrı düşən Heyran xanımın həyatı kədərli keçmişdir. O, həmişə zəmanədən, adamların vəfasızlığından, özünün qürbətdə tək-tənha qalmasından gileylənmiş, yaşadığı Təbriz şəhərini "guşeyi-zindan" adlandırmışdır. Ömrü iztirablar içində keçən şairənin gənclik təravəti və gözəlliyi tez solmuş, zahirən tamam qocalmışdır.

Şairənin ömrünün sonları daha kədərli keçmişdir. Ailə ixtilafları və narazılıqları onun iztirablarını daha da çoxaltmış, dərd-qəmini artırmışdır. Təbii ki, bunlar ona ağır təsir göstərmiş, getdikcə səhhəti pisləşmişdir. Heyran xanım 1848-ci ildə Təbrizdə vəfat etmiş və orada dəfn olunmuşdur.

Yaradıcıllığında klassik poeziya üslubunu davam etdirən Heyran xanım əsərlərini İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əlican Qövsi kimi klassik Azərbaycan şairlərinin ədəbi təsiri ilə yazmışdır.


Təmiz, insani məhəbbətin tərənnümü, ayrılıq dərdi, hicran aləmi, vüsal arzusu onun şeirlərinin əsas mövzusudur. Böyük sələflərinin yaradıcıllıq yolunu davam etdirən Heyran xanım gözəlliyi ehtirasla tərənnüm edir, müasirlərini mənəvi-əxlaqi təmizliyə çağırır. Şairənin fikrincə həqiqi gözəllik ağılla ölçülür. Gözəlliyin birinci meyarı ağıldır. Camalı gözəl olanların ağlı, kamalı da gözəl olmalıdır.

İstedadlı şairənin əsərləri janr, üslub, bədii sənətkarlıq keyfiyyətləri baxımından zəngindir. O, klassik poeziyyanın qəzəl, müxəmməs, müstəzad, rübai, tərcibənd janrlarında, habelə məsnəvi formasında əsərlər yaratmış, lirik qəhrəmanın daxili aləmini, sevinc və kədərini dərindən açmaq üçün təşbeh, istiarə, təzad, təkrir, mübaliğə kimi bədii təsvir və ifadə vasitələri işlətmiş, ədəbiyyatımızı yeni keyfiyyətlərlə zənginləşdirmişdir.

Heyran xanım 1860-cı ildə vəfat etmişdir.

110 illiyi Ümmülbanu 1905-1992

Yazıçı



Ümmülbanu (bəzi mənbələrdə Ümm-Əl-Banu) Mirzə qızı Əsədullayeva (Banin) 1905-ci ilin yanvar ayında anadan olmuşdur. Ümmülbanu neft sənayesində milli kapitalın 60 faizinə qədərini öz əlində cəmləmiş 12 firmaya rəhbərlik edən, XX əsrin əvvəllərində öz müəssisələri əsasında səhmdar cəmiyyəti yaratmış Şəmsi Əsədullayevin ailəsində dünyaya gəlmişdir.

Yasaq və qadağalar illərində Ümmülbanunu həmyerlimiz kimi tanıya bilmirdik. Lakin 80-ci illərin əvvəllərindən ümmumittifaq mətbuatı ilə yaxından tanışlıq, yazıçı və mədəniyyət işçilərimizin, alimlərimizin Fransada görüşləri Ümmülbanunu bizə tanıtdı. Yazıçı Anar 9 yanvar 1985-ci ildə "Bakı" qəzetində dərc etdirdiyi "Fransa görüşləri" adlı oçerkində fransız yazıçısı, həmyerlimiz, Banin ləqəbi ilə tanınan Umm-El-Əsəddullayeva barəsində məlumat vermişdi.

Azərbaycanda 15 il yaşamış Ümmülbanu ömrünün qalan illərini Parisdə keçirmişdi. Ümmülbanunun bir vaxtlar ağlına da gəlməzdi ki, Paris onun bütün gözəlliklərinin nəsibi olacaq, hər gün Konkord meydanından keçəcək, tez-tez Luvr muzeyini gəzəcək, uzun çəkən müharibə və inqilabdan sonra ömrünün ən şirin arzularına qovuşacaq.

Paris həyatı, 20-30-cu illərin Fransa ədəbi mühiti onun dünyagörüşündə əsaslı dönüş yaratmış, onu yeni-yeni əsərlər üzərində işləməyə alışdırmışdı. "Nami"dən başlanan yaradıcılıq yolu bir-birinin ardınca "Paris günləri", "Ernst Yunkerlə görüş", "Mən tiryəki seçdim", "Sonra", "Yad Fransa", "Son ümidin çağırışı", "İvan Buninin son höcəti" və s. bədii əsərlərini burada yazmışdır.

Ümmülbanunun 10 kitabı və bir çox tərcümələri vardır. Tərcümələri rus, ingilis və alman yazıçılarının əsərlərindəndir.

Azərbaycanda da çap olunan "Qafqaz günləri" romanı müəllifin Bakıda keçən uşaqlıq və gənclik illərindən, bilavasitə gördüyü, şahidi olduğu hadisələrdən bəhs edir.

Banin Fransada təkcə romanları ilə deyil, həm də rus, ingilis, alman dillərindən gözəl bədii ədəbiyyat tərcüməçisi kimi məşhur idi. Banin Buninin və Dostoyevskinin yaradıcılığının ən yaxşı bilicilərindən biri sayılırdı.

Fransız ədəbiyyatına qaynayıb-qarışmasına baxmayaraq, Banin öz xalqını heç vaxt yaddan çıxarmazmış. O, Dağlıq Qarabağda baş verən hadisələrdən olduqca dərin həyəcan keçirərmiş. Banin Parisdə "Azərbaycan evi" assosiasiyasının üzvü idi. O, Fransanın kütləvi informasiya vasitələrində mütəmadi olaraq Qarabağ hadisələrində öz xalqını müdafiə edən məqalələrlə çıxış edərmiş.

İlk fransızdilli azərbaycanlı yazıçı Banin 1992-ci il oktyabr ayının 29-da Fransada vəfat etmişdir.

Ədəbiyyat

Qafqaz günləri /Banin; frans. tərc. H.Qoca; Qafqazın Strat. Tədqiq. İn-tu.-Bakı: Qafqaz, 2006.- 240 s.

Paris günləri: roman /Banin; frans. tərc. H.Qoca; Qafqazın Strateji Tədqiq. İn-tu.- Bakı: Qafqaz, 2006.- 208 s.

Hacımusalı, O. Ümmülbanu (Banin) ilə Bunin /O.Hacımusalı //Xalq cəbhəsi.-2012.- 25 yanvar.- S.15.

Nərimanlı, A."O, özünün azərbaycanlı mənşəyi ilə həmişə fəxr edərdi" /A.Nərimanlı //Paritet.-2012.-8-9 mart.- S.13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadqadin.az

www.elibrary.az

www.country.az

80 illiyi

Narınc Xatun 1930-2007

Aşıq şair



Cəfərova Narınc Əvəz qızı 1930-cu ildə Neftçala rayonunda anadan olmuşdur.

Böyük yaradıcılıq əzminə, güclü hafizəyə malik olan Narınc Xatun ilk şeirlərini hələ orta məktəb illərində yazmağa başlamışdır. Şeirləri "Oktyabr bayrağı" adlı rayon qəzetində, "Azərbaycan" və "Azərbaycan qadını" kimi mərkəzi mətbuat orqanlarında dərc olunmuş, respublika radiosunun "Gənclik", "Xalq yaradıcılığı-Bulaq" verilişlərində səslənmişdir.

Narınc Xatun görkəmli el sənətkarı Mikayıl Azaflı ilə birlikdə müasir dövrdə analoqu olmayan 3 hissədən ibarət "Azaflı və Narınc Xatun" dastanını yaratmışdır.

1982-ci ildə dastanın bir qolu Xalq artistləri Əlabbas Qədirov, Amalya Pənahova və Mikayıl Mirzənin ifasında respublika radiosunda səslənmişdir.

Aşıq yaradıcılığına olan böyük həvəsi N.Xatunda qadın aşıq və şairlərdən ibarət "Aşıq Pəri Məclisi" yaratmaq fikri oyatmışdır. Azərbaycanı, eləcə də Borçalı və Göyçə mahallarını el-el dolaşaraq aşıq üslubunda yazan şairələri öz ətrafına toplamış, nəhayət, 1984-cü ildə 22 sentyabrda Yazıçılar İttifaqının "Natəvan klub"unda "Aşıq Pəri məclisi"nin ilk təqdimat mərasimi keçirilmişdir.

Ötən illər ərzində "Aşıq Pəri Məclisi" böyük yaradıcılıq yolu keçmiş, ölkəmizin hüdudlarından kənarda - Türkiyədə, İranda, Gürcüstanda, Dağıstanda, özünə saysız-hesabsız dinləyici məhəbbəti qazanmışdır.

N.Xatunun təşəbbüsü ilə 1988-ci ildə Cəbrayıl rayonun Maralyan kəndində Aşıq Pərinin məzarının üstü abadlaşdırılmışdır.

1993-cü ildə N.Xatun Mədəniyyət Nazirliyinin köməyi ilə Aşıq Pərinin 180-illik yubileyinin yüksək səviyyədə keçirilməsini təşkil etmişdir.

N.Xatun keçmişdə yazıb yaratmış qadın şairələrin və məclis üzvlərinin şeirlərindən ibarət "El şairləri və aşıqları" kitabının tərtibçilərindən biridir. O, gənc aşıq qızların I Respublika Müsabiqəsinin keçirilməsi ilə bağlı təşəbbüs qaldırmış və onun Tovuz şəhərində keçirilməsinə nail olmuşdur. Böyük müvəffəqiyyətlə keçən müsabiqənin təşəbbüskarı və təşkilatçısı kimi Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Onun "Burla Xatun nəvəsiyəm" adlı şeirlər kitabı 2004-cü ildə poeziya sevərlərə ərmağan edilib. 2006-ci ildə isə "Mən xalqımın aşiqiyəm" adlı ikinci kitabı işıq üzü görüb.

Gördüyü əvəzsiz işin müqabilində xalq tərəfindən sevilən, bütün ailələrin, el-obanın arzu olunan qonağına çevrilən N.Xatunun zəhməti dövlətin də diqqətindən yayınmamışdır. O, 1993-cü ildə Azərbaycan Respublikasının "Əməkdar Mədəniyyət işçisi" kimi fəxri ada layiq görülmüşdür.

2006-ci il oktyabr ayının 10-da Mahnı Teatrında Mədəniyyət və Turizm Nazirliyi xətti ilə N.Xatunun anadan olmasının 75 illik yubileyinin təntənə ilə qeyd edilməsi də onun əməyinə verilən qiymətdən xəbər verir.

Narınc Xatun 2007-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Mən xalqımın aşiqiyəm: şeirlər və dastan /N.Xatun (Cəfərova); red. A.Mirzə; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2006.- 328 s.

Aşıq pəri məclisi: aşıqlar; el şairləri /tərtib ed.: N.Xatun, M.Əhmədov, Z. Yaqub.- Bakı: Yazıçı, 1991.- 440 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadqadin.az

www.neftchala.jimdo.com

www.elibrary.az

775 illiyi

Yunus Əmrə 1238/40-1320/1

Türk ozanı



Ə d ə b i y y a t

Əsərləri /Ə.Yunus; tərt., ön söz və lüğətin müəl. C.Bəydili.-Bakı: Şərq-Qərb, 2009.-357 s.

Divan /Ə.Yunus; tərt., ön söz və lüğətin müəl. C.Bəydili.- Bakı: Nafta-Press, 2004.- 285 s.

Risalətün-nüshiyyə /Ə.Yunus.- Bakı: Elm və təhsil, 2013.- 194 s.

Böyük Türk şairi Yunus Əmrənin həyat və yaradıcılığına həsr olunmuş "Yaşayan Yunus Əmrə" beynəlxalq elmi konfransının materialları. 9 dekabr 2013 /red. hey. İ.Həbibbəyli.- Bakı, 2013.- 845 s.

Hümmətova, X. Yunus Əmrə: məqalələr toplusu /X.Hümmətova.- Bakı, 2012.- 236 s.

Özgen, K. Yunus Əmrəm var yarına: roman /K.Özgen.- Bakı, 2008.- 123 s.

İ n t e r n e t d ə

www.anl.az

www. adam.az

www az.wikipedia.org

tabevi.ws

Kitabların bildirdiyi tarix və məlumatlara görə Yunus Əmrə 1240(1)-1320(1)-ci illərin arasında yaşamışdır. Bəzi mənbələrdə 1238-ci ildə Porsuq çayının Sakaryaya töküldüyü yerdə - Sərfi kəndində anadan olmuşdur. Doğulduğu yerin tam aydın olmaması bəzi müzakirələrə gətirib çıxardığından mənbələrin çoxu artıq Yunusun Əskişəhərin Mihalıççık kəndində doğulması ilə bağlı fikri qəbul etmişlər. Həmçinin, təhsili haqqında da heç bir məlumat tapılmayıb. "Əmrə" sözünün mənası Anadoluda müxtəlif xalq ozanlarının, aşiğin və dərvişin adında iştirak edən Əmrə/Emre sözünün (məsələn, Yunus Əmrə, Tapdıq Əmrə) türkcədə "Aşiq" mənasını verdiyi elmi baxımdan öz təsdiqini tapmışdır.

Həyatı və şəxsiyyəti haqqında çox az məlumat olan Yunus Əmrənin yaradıcılığı, Anadolu Səlcuq dövlətinin dağılması və Anadolunun çeşidli bölgələrə kiçik-böyük Türk bəyliklərin qurulmaya başladığı dövrləri əhatə edir. Həmçinin yaşadığı dövr, Osmanlı imperiyasının qurulmağa başladığı dövrdür.

Yunus Əmrə uzun müddət Hacı-Bektaşı Vəli Dərgahında işləmişdir.

Yunusun yaşadığı illər ərzində, Anadolu türkləri ilə Moğol imperiyası arasında sıx ittifaq və münaqişə olmuşdur. Həmçinin, Yunus Əmrənin yaşayış tarixçəsi, yalnız siyasi baxışlarla deyil, həmçinin məzhəb və inanclarında toqquşduğu və müharibələrin geniş vüsət aldığı illərlə zəngindir.

Yunus Əmrə yaradcılığının ilham qaynağı Mövlana Cəlaləddin Rumi, Hacı Bektaşi-Vəli, Əhli Evrani Vəli və sair şairlərdir. Yunus Əmrə bu insanlar sayəsində Allaha sevgini, məhəbbət və əxlaqi düşüncələri, digər başqa batil inanclara qarşı yöntəmləri öyrənmişdir. Bir sıra mənbələr Hacı Bektaşi-Vəlidən dərs aldığını söyləyirlər.

Yunus Əmrə şeirləri Divani Lüğət adlı bu divanda toplanılmışdır. Şeirlər əruz ölçüsü və heca vəznində yazılıb. Yunus Əmrədən qalan bütün informasiya və şeirlər məhz həmin kitabda cəmləşib.

Hər il may ayında Türkiyənin ən gözəl şəhərlərindən olan Əskişəhərdə Yunus Əmrə günləri keçirilir.

Yunus Əmrə xalq ozanı idi. Təkkə şeirinin öncülüdür. Təmiz türk dilinin bayraqdarı "Vəhdəti vücud" fəlsəfəsinin qaranlıqlarını dələn bir filosofdur. O, sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdığı qəzəl və məsnəvilərdə ifadə etmiş, şeirimizi yüksək bədii səviyyəyə qaldırmış, özündən sonra yaranan Türkiyə, Azərbaycan və Türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir.

Türk şairi Yunus Əmrə 1320/21-ci ildə vəfat edib, doğulduğu Sarıköydə dəfn olunmuşdur.

190 illiyi

Mirzə Qədim İrəvani 1825-1875

Rəssam



Mirzə Qədim İrəvani 1825-ci ildə qədim İrəvan şəhərində, sənətkar ailəsində anadan olmuşdur.

Mirzə Qədim şəhərdə yeni açılan "Üsuli-cədid" məktəbində oxumuşdur. Sonra atası təhsilini davam etdirmək məqsədilə onu Tiflisə göndərmiş, gimnaziya təhsili almışdır. Təhsilini başa vurduqdan sonra İrəvana dönmüşdür.

O, yaradıcılığının ilk dövrlərində dekorativ sənət sahəsində çalışmışdır. Əsasən divar rəsmləri, bədii tikmələr üçün rəsm və trafaretlər çəkmiş, qızılgül, zanbaq və digər çiçəklərdən mürəkkəb kompozisiyalar tərtib etmişdir. Rəssam yaradıcılığının erkən çağlarından Avropa boyakarlığına böyük maraq göstərmişdir. O, həmin dövrdə kağız, şüşə və güzgü üzərində bir neçə portret çəkmişdir. Bu əsərlər arasında "Süvari", "Rəqqasə", "Dərviş" portretləri xüsusilə seçilir.

O, İrəvan sərdarı Hüseynqulu xanın məşhur sarayının divar rəsmlərini bərpa etmək dəvəti almış, burada rəssam sarayın otaqlarını, xüsusən güzgülü zalın divarlarını bəzəyən köhnə dekorativ pannoları və süjetli kompozisiyaları yenidən bərpa etmişdir. Eyni zamanda bir neçə tarixi şəxsiyyətlərin portret təsvirlərini çəkmişdir. Həmin əsərlər arasında tamaşaçıların və mütəxəssislərin diqqətini ən çox Fətəli şah Qacar, şahzadə Abbas Mirzə, sonuncu İrəvan xanı Hüseynqulu xanın portretləri cəlb etmişdir. Təəssüf ki, Azərbaycan bədii sənətinin yüksək səviyyəsini, həmçinin irəvanlı azərbaycanlılara məxsus olduğunu sübut edən Sərdar sarayı məhv edilib. Təkcə iki portret (Fətəli şah və Abbas Mirzənin) divardan çıxarılaraq Tiflisə aparılıb. Hazırda bu əsərlər Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.

Mirzə Qədim İrəvaninin yaradıcılığının ən məhsuldar dövrü 1860-1870-ci illərə təsadüf edib. Rəssamın mövcud olan ən qiymətli əsərləri məhz bu illərdə yaranıb. Onun "Oturmuş qadın", "Vəcihulla Mirzə", "Şah Tələt" (hər üçü Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır), "Molla", "Gənc qadın", "Fətəli şah", "Abbas Mirzə", "Naməlum qadın" (Azərbaycan Milli İncəsənət Muzeyi) və s. başqa portretlər rəssamın bu dövrdəki yaradıcılıq uğurlarını əks etdirir.

O, xalq sənətini dərindən bilən, əsərlərində bu tükənməz sərvətin gözəl ənənələrindən bacarıqla istifadə edən mahir ornamentalist rəssam olub. Əsərlərində - döşəməyə salınmış xalça, mürəkkəb naxışlı şəbəkə, adamların geyimi və ev əşyasının üzərində çəkdiyi müxtəlif biçimli ornament bəzəkləri bunu bir daha sübut edir. O, təsviri incəsənətdə yeni bir dövrün əsasını qoymuşdur.

Mirzə Qədim İrəvani ömrünün və yaradıcılığının ən coşqun çağlarında, 1875-ci ildə İrəvan şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Əfəndi, R. Mirzə Qədim İrəvani //Əfəndi R. Azərbaycan incəsənəti.- Bakı, 2007.- S.114-116.

Fərəcov, S. Təsviri incəsənətimizin ilk realist rəssamı /S.Fərəcov //Mədəniyyət.- 2012.- 1 iyun.- S.15.

Görkəmli Azərbaycan rəssamı Mirzə Qədim İrəvani: Gənc rəssamın yeni fərqli üslubu... //Azadlıq .-2012.- 11 oktyabr.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.jurnal.meclis.gov.az

www.iravan.info

140 illiyi

Məşədi Cəmil 1875 – 1928

Tarzən



Məşədi Cəmil Kərbəlayı Əmiraslan oğlu Əmirov 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur.

İlk təhsilini Şuşa şəhərində yerləşən mədrəsədə almışdır.

Məşədi Cəmil kiçik yaşlarından tara çox böyük maraq göstərmişdir. Bəstəkar, tarzən Mir Möhsün Nəvvabın (1833-1918) musiqi məclislərinin təsiri ilə formalaşmış Məşədi Cəmil 1907-ci ildə ailəsi ilə birlikdə Gəncə şəhərinə köçmüşdür.

Məşədi Cəmil Gəncə şəhər məclislərində Məşədi Məhəmməd Fərzəliyevi, Malıbəyli Həmidi, Musa Şuşinskini, Bülbülü və Seyid Şuşinskini tarda müşayiət etmişdir.

1910-cu ildə Riqa şəhərində "Qramofon" firması tərəfindən Məşədi Cəmil Əmirov və digər Azərbaycan musiqiçilərinin birgə ifa etdikləri xalq mahnıları və muğamları vala köçürülmüşdür.

Məşədi Cəmil 1911-1912-ci illərdə Türkiyənin İstanbul şəhərində musiqi təhsili almış və orada "Heyratı" muğamını nota köçürərək nəşr etdirmişdir. Cəmil Əmirov iki il ard-arda İstanbula konsert proqramları ilə səfər etmişdir. Məşədi Cəmil Türkiyədə Azərbaycan musiqisinin qızğın təbliğatçısı kimi çıxış etmişdir.

Daim axtarışda olan tarzən 1913-cü ildə İranın Məşhəd şəhərinə ziyarətə gedir və oradan ud və kanonu Gəncəyə gətirir, onlarda da ifa etməyə başlayır. Məhz bu ziyarətdən sonra Cəmil Əmirov musiqi aləmində Məşədi Cəmil Əmirov kimi tanınır. O, öz yaradıcılığında vokal sənətinə də geniş yer vermişdir. Hələ Şuşada oxumağa meyl göstərən sənətkar, artıq Gəncədə səhnəyə çıxaraq Rzabəy, Zeyd, Kərəm, hətta Məcnun kimi mürəkkəb obrazları yaratmışdır.

Azərbaycan musiqi tarixində bir bəstəkar kimi də müəyyən xidmətləri olmuşdur. O, 1915-ci ildə uzun çalışmadan sonra "Seyfəl-mülk" operasını yazmış və əsəri səhnələşdirmək üçün bir çox sənətkarları Gəncəyə dəvət etmişdir. Opera Gəncədə iki dəfə oynanıldıqdan sonra Tiflisə dəvət almış və 1916-ci il 3 iyunda Tiflis Kozyanın teatrında (indiki Gürcüstan Dövlət Opera və Balet teatrı) səhnələşdirilmişdir. 1923-cü ildə isə "Namuslu qız" və "Sərkərdənin qılıncı" musiqili dramını səhnəyə çıxartmışdır.

1923-cü ildə isə Məşədi Cəmil Gəncədə musiqi məktəbi açmaq üçün icazə alır və birinci ildə 39 tələbə musiqi məktəbinə qəbul edilir. Məşədi Cəmilin oğlu Fikrət Əmirov, Qənbər Hüseynli, Telman Hacıyev və başqa bir çox Gəncənin görkəmli şəxsləri məhz bu məktəbin yetirmələridirlər.

Məşədi Cəmil Kərbəlayı Əmiraslan oğlu Əmirov 1928-ci ildə Gəncədə vəfat etmiş və Gəncənin Səbiskar qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

Füzuli, R. Dünya şöhrətli bəstəkarın atası /R.Füzuli //Ruzigar.- 2013.- 7 may.- S.15.

Musiqimizin parlaq adlarından biri - Məşədi Cəmil //Azadlıq.- 2013.- 29 mart.- S.14.

Şuşinski, F. Məşədi Cəmil Əmirov //Şuşinski F. Azərbaycan xalq musiqiçiləri.- Bakı, 1985.- S.223-233.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

www.ganca.org

www.shusha.az

150 illiyi

Cahangir Zeynalov 1865-1918

Teatr xadimi



Kərbəlayı Cahangir Məşədi Rza oğlu Zeynalov 1865-ci ildə Bakıda anadan olmuşdur. Cahangir bəy ibtidai təhsil almışdı, rus və fars dillərini mükəmməl bilirdi, geniş mütaliəsi vardı.

Səhnəyə ilk dəfə 1885-ci ildə qız rolunda çıxıb. Bakıda fəaliyyət göstərən Lanskoy, Şorşteyn, Aqriptseva kimi aktyorların truppaları ilə yaxından əlaqəsi vardı, şəhərə gələn qastrolçuların tamaşalarına müntəzəm baxırdı. Hətta, 1916-1918-ci illərdə baxdığı tamaşalar barədə rəylərini, sənət haqqında mühakimələrini təcəssüm etdirən "Teatro dəftərçəsi" (Əxs etdiyim hərəkətlər) nəzəri-təcrübi fikirlərini traktat səpkisində yazıb. Müəyyən vərəqləri itmiş həmin dəftərçə Azərbaycan Dövlət Teatr Muzeyində saxlanılır.

1900-cü illərdə Müsəlman Dram Artistləri Şirkətinin ("Şirkət" də deyilib) təşkilində Zeynalovun müstəsna rolu olub. "Nicat" (1906) və "Səfa" (1910), "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında Kərbəlayı Cahangir əsasən aktyorluq edər və həm də tamaşalara quruluşlar verərdi.

"Səfa"nın kitabxanasının təşkilində böyük işlər görən Cahangir Zeynalov onun fonduna çoxlu nüsxədə kitab bağışlamışdı. Bakıda qabaqcıl elm ocaqlarından sayılan "Səfa" məktəbində S.Mənsur, A.Şərifzadə, C.Bünyadzadə ilə yanaşı, Cahangir Zeynalov da dərs deyirdi. O, dəfələrlə, "Səfa" Teatr bölməsi idarə heyətinin rəhbərləri sırasına seçilmişdi. Hətta 1914-cü ildə sədr vəzifəsini Cahangir Zeynalov, müavinliyi isə Mehdi bəy Hacınski tutmuşlar.

Cahangir Zeynalov rejissor kimi də səmərəli fəaliyyət göstərmişdir.

O, ilk Azərbaycan aktyorudur ki, səhnə fəaliyyətinin 25 illiyi münasibətilə teatr ictimaiyyəti ona təntənəli yubiley (Yomi ali) keçirib. "Nicat" cəmiyyətinin Qurban bayramı günündə (30 noyabr -1910) Tağıyev teatrında keçirdiyi yubiley təntənəsində M.F.Axundzadənin "Lənkəran xanın vəziri" komediyası oynanılmış, Mirzə Həbib rolunu Cahangir Zeynalov ifa etmişdi.

Səhnəmizdə qadınların olmamasından həmişə rahatsızlıq keçirən aktyor qızını aktrisa görmək istəmiş, ancaq amansız ölüm bu arzuya kölgə salmışdı. Üç yaşında valideyni Cahangir Zeynalovu itirmiş Nəsibə Zeynalova sonralar atasının bünövrəsini qoyduğu realist aktyor məktəbinin ən layiqli davamçısı kimi tarixləşdi.

Cahangir Zeynalov 1918-ci ildə vəfat etmişdir.

2000-ci ildə ulu öndər Heydər Əliyev Cahangir Zeynalovun xatirəsini əbədiləşdirmək məqsədilə yaşadığı binaya (Hüsü Hacıyev küçəsi, 42) xatirə lövhəsinin vurulması barədə Sərəncam imzalamışdır.

Ədəbiyyat

Abbaslı, T. Kültür qaranlığında tacir aydınlığı: Çox rollar oynamış Cahangir Zeynalovun öz obrazı //Mədəniyyət.- 2012.- 21 sentyabr.- S.11.

Əhmədalılar, T. Milli mədəniyyət mərdi /T.Əhmədalılar //Mədəniyyət.-2013.- 25 sentyabr.- S.13.

Teatr tarixini yaradan böyük insanlardan biri: Evin "səhnəsindən" başlanan teatr //Azadlıq.- 2013.- 10 yanvar.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

www.nasiba-zeynalova.az

www.medeniyyet.az

135 illiyi Əhməd Qəmərlinski 1880-1952

Aktyor



Əhməd Haşım oğlu Məlikov (Qəmərlinski) 1880-ci ildə Bakı şəhərində anadan olmuşdur. İçərişəhərdə boya-başa çatan Əhməd Sultanməcid Qənizadənin məktəbində təhsil almışdır.

Səhnəyə ilk dəfə 1906-cı ildə Balaxanıda həvəskar aktyorların hazırladığı "Adı var, özü yox" (N.B.Vəzirov) tamaşasında çıxıb. Sonralar "Nicat" Cəmiyyətinin nəzdindəki teatr truppasının aktyoru olmuşdur.

Səhnədə tanınmış aktyorlar Sidqi Ruhullanın, Hüseyn Ərəblinskinin oyununu gördükdən sonra Əhməd Qəmərlinski dərk etmişdir ki, o, yalnız aktyor ola bilər. Çünki onun fitri istedadı və sənətə olan tükənməz məhəbbəti var idi.

1908-ci ildən etibarən Əhməd Qəmərlinski azərbaycanlı aktyorlarla birlikdə Azərbaycanın bir sıra kənd və rayonlarını gəzmiş, ən ucqar guşələrdə aktyor dostları ilə birlikdə çıxışlar etmiş, Azərbaycan, eyni zamanda dünya dramaturgiyasının ən tanınmış əsərlərində müxtəlif obrazlar yaratmışdır. Onun teatr məktəbi bax, beləcə yaranıb. Məsələn, Nadir şah faciəsində Ədhəm xan, "Otello" tamaşasında senator Brabansion obrazlarını yaradıb. Əhməd Qəmərlinskini bir aktyor kimi şöhrətləndirən onun Ə. Haqverdiyevin "Pəri-cadu" tamaşasındakı şeytan obrazı olmuşdur. Bu tamaşadan sonra aktyorların, o cümlədən tamaşaçıların Əhməd Qəmərlinskiyə olan münasibəti dəyişmişdir. Onun özünə məxsus ifa tərzi, nitq mədəniyyəti diqqəti cəlb etmişdir. "Qəmərlinski" ləqəbini ona Hüseyn Ərəblinski vermişdir. Qəmərli kəndindən qastroldan qayıdarkən dostuna Qəmərlinski təxəllüsünü təklif etmiş və Əhməd həyatının sonunadək bu soyadı daşımışdır.

O, həmçinin yazıçılıqla da məşğul olmuş, tarixi və müasir mövzuda yazdığı 12 əsərinin demək olar ki, hamısı 1910-1920-ci illərdə H. Ərəblinski, S. Ruhulla və başqa görkəmli sənətkarlar tərəfindən tamaşaya qoyulmuşdur. Bunlardan "Cavanlar", "Tufan Kərbəla", "Rüstəm və Söhrab", "Məkri-zənən", 1920-1945-ci illərdə yazılmış "Eşq-məhəbbət", "Məktəb vodevili", "Ziyarət nəticəsi", "Maymaq" və s. kiçik həcmli pyeslərdə Ə. Qəmərlinski ictimai həyatda baş verən mühüm problemlərə toxunmuşdur. Onun köhnəliyi, fanatizmi ifşa edən acı satirası qaraguruhçu adamları qəzəbləndirir və onlar müəllifə qarşı kəskin hücumlar edirdilər. Əhməd Qəmərlinskinin yazdığı kiçik həcmli əsərlər bu gün də öz əhəmiyyətini itirməyib.

Ə.Qəmərlinski Azərbaycanda yeni yaranmaqda olan kino sahəsinə də maraq göstərmiş, "Almaz", "Səbuhi" və "İsmət" filmlərində bir sıra epizodik rollara çəkilmişdir.

1940-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Əhməd Qəmərlinski 1952-ci il martayının 9-da, Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Qəmərlinski //Azərbaycan Sovet Ensiklopediyası: on cilddə.-Bakı, 1979.- C.III.- S.136.

Qəmərlinski Əhməd Haşım oğlu Məlikov //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.-Bakı, 2005.- C.II.- S.148.

Rəhimli, İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Teatrın 1873-2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi: 3 cilddə /İlham Rəhimli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; [red. A.Quliyeva].-Bakı: Təhsil, 2013.- C.I.- 574s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.mct.gov.az

1220 illiyi

Babək 795/798-838

Sərkərdə



Babək Xürrəmi (Babək əl-Xürrəmi) təqribən 795-ci ildə, (başqa məlumata görə 798) Ərdəbil şəhəri (Cənubi Azərbaycan) yaxınlığındakı Bilalabad kəndində doğulmuşdur. Bəzi tarixi mənbələrə görə, əsl adı Həsən olmuş, xürrəmilərə qoşulduqdan sonra isə atəşpərəstlik təlimində ən hörmətli adlardan olan "Babək" adını götürmüşdür.

Cəsarəti, vətənpərvərliyi ilə xürrəmilərin başçısı Cavidan ibn Səhli cəlb etmiş Babək onun köməkçisi olmuş, Cavidan həlak olduqdan sonra xürrəmilərin başçısı seçilmişdir. Xürrəmilərin mərkəzi Ərdəbildən 145 km şimal-qərbdə Bəzzeyn dağında qurulmuş Bəzz şəhərqalası olmuşdur.

Tanınmış ərəb sərkərdələri Babəkə qarşı müharibələrdə ağır məğlubiyyətlərə düçar olmuş, ərəb ordusunun 6 məşhur sərkərdəsi Babək tərəfindən məhv edilmişdir.

Babək ərəb ordusunun Azərbaycandan çıxarılmasına nail olmaq məqsədilə 834 - 836-cı illərdə Bizans imperatoru Fefilə xiləfətə qarşı hərbi siyasi ittifaq bağlamaq təklifi göndərir. Babəkin ərəblərə qarşı Bizans İmperiyası ilə əvvəllər də hərbi siyasi müqavilələr bağlaması məlumdur. 837-ci ildə imperator ərəblərə qarşı qoşun göndərsə də, bu Azərbaycanda mübarizənin gedişatına əhəmiyyətli təsir göstərməmişdir. Xürrəmilərin getdikcə güclənməsindən qorxuya düşən xəlifə Mütəsim Bizans İmperisyası ilə sülh bağlamaq məcburiyyəti qarşısında qalır və xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı yönəldir. Xürrəmilərin şiddətli müqavimətinə baxmayaraq, 837-ci ilin yayında ərəblər Bəzzə tam yaxınlaşır və onu mühasirəyə alırlar. Xürrəmilər inadla vuruşur, lakin qüvvələr nisbəti bərabər olmadığı üçün 837-ci il avqustun 27-də Bəzz qalası süquta uğradılır. Babək xırda dəstə ilə Arrana doğru hərəkət etməyə başlayır. Lakin əvvəllər onun müttəfiqi olmuş, artıq ərəblərin tərəfinə keçmiş alban knyazı, erməni əsilli Səhl ibn Sumbat tərəfindən xəyanətkarcasına tutulub ərəblərə verilən Babək və onun qardaşı Əbdallah xilafətin mərkəzi şəhəri və iqamətgahı sayılan Samirəyə aparılır. 838-ci il martın 14-də xəlifə əl-Mötəsimin iştirakı ilə Babək və onun qardaşı əzabla edam olunurlar. Xəlifə Mütəsim Babəki xüsusi işgəncə ilə edam etdirir. Buna baxmayaraq, Babəkin başçılığı altında Azərbaycan xalqının ərəb istilasına qarşı apardığı azadlıq mücadiləsi xilafəti zəiflədir və onun parçalanmasını sürətləndirir.

Xürrəmilərin Babəkin başçılığı ilə apardıqları xalq-azadlıq müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindəndir. İrimiqyaslı və qanlı müharibədə o zaman dünyanın ən güclü dövlətlərindən olan Ərəb xilafətinə 20 il müqavimət göstərmiş xürrəmilər təxmini hesablamalara görə düşmənin 200 mindən artıq döyüşçüsünü və onlarca sərkərdəsini məhv etmişdir. Müharibə məğlubiyyətlə nəticələnsə də, Azərbaycanın azad edilməsi üçün zəmin yaranmışdır. Müharibə zəncirvari reaksiya əsasında digər regionlarda da üsyanlar doğurmuş və son nəticədə Ərəb xilafətinin parçalanmasına səbəb olmuşdur.

Babəkin adı isə Azərbaycan xalqının istiqlaliyyət uğrunda mübarizə rəmzinə çevrilmişdir.

Ədəbiyyat

Bayramlı, C. Babək və Hürrəmilik (yalanlar və gerçəklər) /C.Bayramlı; elmi red. V.Zifəroğlu.- Bakı: Kitab aləmi, 2011.- 451 s.

Babək, Babək əl-xürrəmi (795/798) //Azərbaycan Milli Eiklopediyası.-Bakı, 2010.- C.2.- S.589-590.

Əhmədov, S. Babək //Əhmədov S. Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.- S.18-20.

İnternetdə

www.anl.az

www.azeri.tarix.az

www.az.wikipedia.org

140 illiyi

Həsən bəy Ağayev 1875-1920

İctimai-siyasi xadim



Ə d ə b i y y a t

Ağayev Həsən bəy Məşədi Hüseyn bəy oğlu //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası:2 cilddə.- Bakı, 2004.- C.I.- S.104-105.

Ağayev Həsən bəy Məşədi Hüseyn bəy oğlu //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2009.- C.I.- S.170.

Həsən bəy Ağayev //Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti: (1918–1920).- Bakı, 1990.- 96 s.

Vətən naminə çalışmaq, əqidə naminə ölmək... O, bu həyat prinsipini seçən insanlardan idi //Azadlıq.- 2012.- 17 mart.- S. 14.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.genceinformasiya.com

www.muallim.edu.az

www.preslib.az

Həsən bəy Məşədi Hüseyn bəy oğlu Ağayev 1875-ci ildə Gəncədə anadan olmuşdur. Gəncə klassik gimnaziyasında təhsilini başa vurduqdan sonra 1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçiliyilə Moskva Universitetinin tibb fakültəsində oxuyaraq oranı bitirmişdir. Vətənə qayıdaraq həkimlik etmişdir. Rusiya Sosial Demokrat Fəhlə Partiyasının müsəlmanlardan təşkil olunan "Hümmət" qrupunun tapşırığı ilə Həsən bəy "Silk, sinif, firqə" kitabçasını Azərbaycan türkcəsinə çevirərək 1906-cı ildə Tiflisdəki "Qeyrət" mətbəəsində çap etdirmişdir. Lakin kitabçanın nəşri hökumət dairələri tərəfindən heç də yaxşı qarşılanmamışdı.

Təqib və təzyiqlərin gündən-günə artdığını görən Həsən bəy 1906-1907-ci illərdə Güney Azərbaycanda yaşamağa məcbur olmuşdur. H.B.Ağayevin İrana mühacirət etməsi və bir müddət orada yaşaması Məşrutəçilərə kömək məqsədi daşıyıb. 1907-ci ildə Bakıda keçirilən Qafqaz müsəlman müəllimləri qurultayı mərkəzi komitəsinin sədri seçilmişdir. "Difai" təşkilatının üzvü olmuşdur.

1914-cü ilin sonlarında o, Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyətini yaratmışdır. Əslində, bu ictimai təşkilatlar gələcəkdə yaradılacaq siyasi partiyalar üçün zəmin hazırlamaq məqsədi daşıyıb.

Gəncədə, Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Azərbaycan tarixində ilk dəfə olaraq Avropa mədəni dəyərlərinə istinad məramlı bir partiyanın - "Türk Ədəmi-mərkəziyyət firqəsi"nin əsasını qoymuşdur (1917). Bu partiya Müsavatla birləşəndən sonra onun Mərkəzi Komitəsinin üzvü seçilmişdir.

1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycan Milli Şurasının iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edilərkən Həsən bəy Ağayev Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin müavini olmuş və bu tarixi hadisədə birbaşa iştirak etmişdir. Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır.

Dekabrda Parlament sədrinin müavini seçilmiş, sədr Əlimərdan bəy Topçubaşov Bakıda olmadığına görə 2 fevral 1920-ci ilədək sədr vəzifəsini icra etmişdir. Onun rəhbərliyi, təşəbbüsü və fəal iştirakı ilə parlament müstəqilliyi və ərazi toxunulmazlığını qorumaq, milli və siyasi hüquqları müdafiə etmək, qonşu ölkələrlə dostluq əlaqələri yaratmaq, bu əlaqələri möhkəmləndirmək, hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq, geniş sosial islahatlar həyata keçirmək haqqında bir sıra qərarlar qəbul edilib.

1920-ci il aprel ayının 17-də parlamentin son iclası keçirilib və bolşeviklər Azərbaycanı işğal edərək onun vətənpərvər oğullarına divan tutublar. AXC-nin rəhbər işçilərinin bir çoxunu da Gürcüstana getməyə məcbur ediblər. Gürcüstana gedənlər sırasında Azərbaycan parlamentinə rəhbərlik etmiş Həsən bəy Ağayev, Baş nazir Fətəli xan Xoyski və başqaları da vardı.

Tiflisə mühacirət edən Həsən bəy Ağayevi və Fətəli xan Xoyskini Tiflisdə muzdlu erməni terrorçusu qətlə yetirmiş, 1920-ci il iyul ayının 19-da onun cənazəsi Tiflisin müsəlman qəbiristanlığında torpağa tapşırılmışdır.

605 illiyi Seyid Yəhya Cəlaləddin Bakuvi 1410-1462

Filosof



Seyid Yəhya Cəlaləddin Bakuvi 1410-cu ildə Şamaxıda anadan olmuşdur. Tam adı, əs-Seyid Cəmaləddin Yəhya ibn əs-Seyid Bəhaəddin əş-Şirvani əş-Şamaxi əl-Bakuvidir. Daha çox "Şirvani" və "Bakuvi" nisbəsi ilə məşhur olmuşdur. Şirvani nisbəsi vətəninin Şirvan olması səbəbilədir. Bakuvi deyilməsinin səbəbi isə həyatının ən uzun və ən səmərəli dövrünü Bakıda yaşamış olmasındandır.

Yəhya Şirvaninin doğum tarixi haqqındakı məlumatların azlığı, həmçinin onun uşaqlığının da necə keçdiyini müəyyənləşdirməyi çətinləşdirir. Seyid nəslindən olub, soyu Hz.Peyğəmbərə (s.ə.s) qədər gedib çıxır. Yəhya Şirvani İmam Museyi-Kazımın nəvələrindəndir. Xəlvətiyyə təriqətinin inkişaf etməsində göstərdiyi böyük xidmətə görə ona təriqətin "piri-sani"si (ikinci piri) ləqəbi verilmişdir. İkinci ləqəbi isə mənbələrdə II Pir Seyyidul-Taifətil-Xəlvətiyyə əş-Şeyx Seyid Cəlaləddin Yəhya ibn əs-Seyid Bəhaəddin əş-Şirvani əl-Bakuvidir.

O, Şirvanşahlar dövlətinin mərkəzi olan Şamaxıda, sonra da Bakıda Şah Xəlilullahın sarayında yaşamışdır. O, Bakıya gəldikdən sonra burada I Xəlilullah xanın da yardımı ilə xəlvətiliyin ilk böyük xanəgahını açmışdı. Bakıdakı xanəgahın inşasında I Xəlilullah xanın yardımçı olmasını Seyid Yəhyanın qəbrinin ətrafında Şirvanşah tərəfindən inşa edilən məscid, türbə və digər binalardan anlamaq mümkündür. I Xəlilullah xan ilə aralarındakı yaxşı münasibəti göstərən əlamətlərdən biri də Seyid Yəhyanın "əşfül-qülub" adlı əsərini Şirvanşaha ithaf etməsidir. Onun Bakıda qurduğu ilahiyyat-fəlsəfə məktəbinin Bərdədə, Təbrizdə və digər bölgələrdə şöbələri vardı. Azərbaycanın böyük maarifçisi Abbasqulu Ağa Bakıxanov onun haqqında belə deyirdi: "Seyid Yəhya Bakuvi VIII əsrdə (hicri) bu diyarın böyük din müəllimi idi. Onun adı bir çox gizli elmlərdə məşhurdur." (Sara Aşurbəyli, Şirvanşahlar Dövləti.- Bakı: Azərnəşr, 1997.- S.408.)

Yəhya Şirvaninin doğumu kimi, ölümü haqqındakı məlumatlar da ziddiyyətlidir. Bəzi Osmanlı müəllifləri onun ölüm tarixinin 1457, bəziləri də 1463 olduğunu qeyd etmişlər. Qəbri Bakıda, İçərişəhərdədir.

Seyid Yəhya Cəlaləddin Bakuvi orta əsr Azərbaycan alimi, mütəfəkkiri, filosof-ilahiyyatçı, astroloqdur. Seyid Yəhya Bakuvinin Azərbaycan, fars və ərəb dillərində yazdığı 18 əsəri zəmanəmizədək gəlib çıxmışdır. Həmin əsərlər Türkiyənin İstanbul ("Muradiyyə" kitabxanası), Konya, Manisa şəhərlərində saxlanılır.

Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin təşəbbüsü ilə Seyid Yəhya Şirvaninin həyat və yaradıcılığına həsr edilmiş "Xəzərin piri Seyid Yəhya Şirvani" adlı film çəkilir.

UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında islamda xəlvətilik sufi məktəbinin qurucularından sayılan Seyid Yəhya Bakuvinin vəfatının 550-ci ildönümü münasibətilə 2013-cü il Seyid Yəhya Şirvani ili elan edilmiş və ildönümünün dünya səviyyəsində qeyd edilməsi haqqında qərar qəbul edilmişdir.

Ədəbiyyat

Şəfa əl Əsrar: sufiliyin sirləri adlı əsəri /S.Y.Əş-Şirvani Əl Bakuvi; elmi red. Z.Quluzadə, A.Musayeva; azərb. dilinə uyğ. N.Abuzərov, A.Sultan, Ə.Fərhadov, D.Əhmədov.- Bakı: Elm, 2010.- 407 s.

Seyid Yəhya Şirvani mövzusunda seminar //Mədəniyyət.- 2013.- 10 aprel.- S.12.

Zərbəliyev, C. Seyid Yəhya Bakuviyə həsr olunmuş konfrans Livan mətbuatında /C.Zərbəliyev //Mədəniyyət.- 2013.- 9 oktyabr.- S.11.

İnternetdə

www.anl.az

www.anl.az

www.azerislam.com

www.miras.az

www.seyidyahyashirvani.az

225 illiyi

Mirzə Cəfər Topçubaşov 1790-1869

Şərqşünas alim



Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov 1790-cı ildə (bəzi mənbələrdə 1784) Gəncə şəhərində anadan olmuşdur. Sonralar ailəsi ilə Tiflis şəhərinə köçmüşlər. Mirzə Cəfər Topçubaşov mədrəsə təhsili almış, rus, ərəb, fars, türk, erməni və gürcü dillərini bilmişdir.

O, 1812-ci ildə Rusiya Xarici işlər nazirliyində işə düzəlmişdi.

M.Topçubaşov 1817-ci ildə İran elçiləri arasında Peterburqa gedərkən, burada ona Xarici İşlər Nazirliyinin departamentində tərcüməçi vəzifəsi təklif olunmuş, beləliklə, o, rus imperiyasının paytaxtında qalmışdır.

1819-cu ildə Mirzə Cəfər Sankt-Peterburq Baş Pedaqoji İnstitutunda ərəb, fars, və türk dillərindən dərs demişdir.

1823-cü ildə o, Peterburq Universitetinin fars filologiyası üzrə professoru olmuş, 1835-1849-cu illərdə Fars dili və fiziologiyası kafedrasına rəhbərlik etmişdir. 1849-1867-ci illərdə Rusiya Xarici İşlər Nazirliyi Asiya departamentinin Şərq Dilləri İnstitutunun professoru olmuşdur.

1852-1857-ci illərdə M.C.Topçubaşov Rusiya Arxeologiya və numizmatika cəmiyyətinin müəssislərindən və onun Şərq şöbəsinin ilk rəhbəri olmuşdur. Onun təşəbbüsü ilə həmin şöbə "İzvestiya" (Xəbərlər) adlı jurnal nəşr edərək burada Şərq arxeologiyası, habelə Azərbaycan haqqında məqalələr nəşr edirdi.

O, "Kitabi-Dədə Qorqud"u və 50-dən artıq şairin əsərlərini rus dilinə tərcümə etmişdir. Jurnaldakı məqalələrin əksəriyyətini M.C.Topçubaşov özü yazırdı. Onun rəhbərliyi altında bir sıra rus şərqşünası və diplomatı hazırlanmışdır.

Rusiyada şərqşünaslıq elmi və təhsilinin təşəkkülündə Topçubaşovun rolu böyükdür. Topçubaşov fars dilinin qrammatikasına dair bir sıra əsərlərin müəllifidir. O, 50 ilə yaxın rəsmi sənəd və ədəbiyyatı fars dilindən tərcümə etmişdir. Topçubaşov İmperator kitabxanasında saxlanılan Şərq əlyazmalarının müxtəsər izahlı biblioqrafiyasını hazırlamışdır.

A.S.Qriboyedov ondan fars, A.Mitskeviç isə türk dilini öyrənmişdir. O, Mitskeviçlə dost olmuş və onun "Krım sonetləri" adlı əsərini fars dilinə tərcümə etmişdir.

M.Topçubaşovun elmi fəaliyyətini V.Belinski, İ.Kraçkovski, O.Senkovski kimi rus elm və mədəniyyət xadimləri yüksək qiymətləndirmişlər.

1869-cu ildə Topçubaşovun şəxsi təşəbbüsü və vəsaiti hesabına hüquq-şünaslıq sahəsində dəyərli əsərlər yazan tələbələr üçün Senatın qərarı və imperatorun imzası ilə 100 rubl verməklə "Topçubaşov mükafatı" təsis olunmuşdu.

O, London Kral Asiya Cəmiyyətinin həqiqi üzvü olmuşdur.

Şərqşünas alim I dərəcəli Stanislav, II və III dərəcəli Anna, İranın "Şiri-Xurşid" ordenləri ilə mükafatlandırılmışdır.

Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov 1869-cu il fevral ayının 4-də Peterburqda vəfat etmişdir.

Ədəbiyyat

Rzayev, A. Mirzə Cəfər Topçubaşov /A.Rzayev; red. M.Axundov.- Bakı: Yazıçı, 1993.- 96 s.

Azərbaycan diasporunun görkəmli nümayəndələrindən Mirzə Cəfər Topçubaşov //Olaylar.- 2013.- 10 iyul.- S.15.

Topçubaşov Mirzə Cəfər Əlimərdanbəy oğlu // Azərbaycan Sovet Ensiklopediyası: on cilddə.- Bakı, 1986.- C.X.-S.316-317.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadliq.info

www.ebooks.preslib.az

www.diaspora.gov.az

www.tarix.info

160 illiyi

Murtuza Muxtarov 1855-1920

Xeyriyyəçi, mesenat



Murtuza Muxtar oğlu Muxtarov 1855-ci ildə Bakının Əmircan kəndində anadan olmuşdur. 1870-ci ildən Balaxanı, Zabrat kəndləri ətrafındakı mədənlərdən birində fəhləlik etmişdir. Burada adi fəhlə kimi işə başlamış, sonra usta təyin edilmişdir. İxtiraçılıq qabiliyyəti, qazma dəzgahının təkmilləşdirilməsi, dözümü və qətiyyəti sayəsində sahibkara çevrilmiş, şəxsi qazma kontoru açmışdır.

M.Muxtarov "diplomsuz neft mühəndisi" kimi şöhrət tapmış, Azərbaycan neft sənayesi tarixinə özünün ixtirası ilə daxil olmuşdur. 1895-ci ildə dünyada ilk dəfə metal ştanqlarla zərbə qazma dəzgahını quraşdırmış və bunun üçün dövlət patenti almışdır. O, bu ixtirasına "Bakı qazma sistemi" adı vermişdir. Həmin dəzgahın əvvəlkilərdən üstünlüyü çox idi.

Əsasını 1891-ci ildə qoyduğu "Muxtarov M" şirkəti neft sənayesi üçün texniki avadanlıq buraxmış və neft quyuları qazmaqla məşğul olmuşdu.

Elektrik qatarı ilə Bakıdan Buzovnaya gedərkən Sabunçudan sonra birinci dayanacaq onun adı ilə "Muxtarovka" adlanır. Bu dayanacağın ətrafındakı bütün neft quyuları vaxtilə ona məxsus olmuşdur.

XIX əsrin axırlarında M.Muxtarov tərəfindən işə salının Bibiheybətdəki qazma avadanlığı zavodunun istehsal etdiyi dəzgah və avadanlıqlar Rusiyaya və xarici ölkələrə də satılırdı.

M.Muxtarov geniş xeyriyyəçilik fəaliyyəti göstərmiş, ictimai binaların, məktəblərin inşasına heç zaman vəsaitini əsirgəməmişdir. O, "Nəşri maarif" və "Nicat" cəmiyyətlərinin fəaliyyətlərində fəal iştirak etmiş, idarə heyətlərinin üzvü olmuşdur.

Bakıda və ətraf kəndlərdə, Rusiya və Avropanın bir sıra şəhərlərindəki çoxlu binalar onun adı ilə bağlıdır.

Həyat yoldaşı Liza xanımla Avropa səyahətində olarkən Venetsiyadakı binaların memarlığı Muxtarovu valeh etmiş, bir il ərzində Bakıda (1911-1912) onlara oxşar mülk tikdirmişdi. Hal-hazırda onun adını daşıyan küçədəki "Səadət sarayı" kimi fəaliyyət göstərən Avropa memarlıq üslubundakı bina memar İ.K.Ploşkonun layihəsi əsasında tikilmişdir.

1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid binası indiyədək öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayır.

1913-cü ildə Abşeronun qumsal dəniz sahilində mayaq qülləsi, Mərdəkanın Pirhəsən adlanan yerində Axund Mirzə Abu Turabın qəbri üstündə günbəz, Vladiqafqaz şəhərində məscid, Kislovodskda, İtaliyanın Florensiya şəhərində mövcüd olan gözəl, yaraşıqlı binalar M.Muxtarovun vəsaiti hesabına tikilmişdir.

1908-ci il iyunun 3-dən fəaliyyətə başlayan "Tərəqqi" qəzeti Muxtarovun pulu ilə çap edilmişdir.

Təbiətcə çox məğrur olan bu şəxsin həyatı faciə ilə bitmişdir. Bakıda Aprel inqilabının ilk günləri idi. Bu günlərdən birində Muxtarov Vrangel (indiki Əhməd Cavad) və Persidski (indiki Muxtarov) küçələrinin tinindəki mənzilinə iki silahlı hərbçi gəlir. Muxtarov qapını açıb, onları gördükdə atəş açıb, onlardan birisini öldürür, ikinci gülləni də öz alnına çaxır.

Ədəbiyyat

Məmmədov, T. Murtuza Muxtarovun bağı: Mərdəkan Dendrarisi /T.Məmmədov.- Bakı, 2000.- 124 s.

Mirzəyev, G.M. Azərbaycan neft sənayesinin milyonçuları /M.Mirzəyev, M.Mirzalıyev //Neft haqqında nə bilirsiniz?.- Bakı, 2005.- S.122-123.

Джанахмедов, А. Нефтяной магнат Муртуза Мухтаров /А.Джанахмедов.- Баку: Чашыоглу, 2000.- 66 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

www.azadliq.info

www.preslib.az

235 illiyi

Hacı Zeynalabdin Şirvani 1780-1838

Səyyah və coğrafiyaçı



Hacı Zeynalabdin ibn Axund İskəndər Şirvani 1780-ci ildə Şamaxı şəhərində anadan olmuşdur.

Onun beş yaşı tamam olanda ailəsi Bağdad yaxınlığındakı Kərbəla şəhərinə köçmüşdür. Zeynalabdin də ilk təhsilini burada mədrəsədə almışdır. 1796-cı ildə o, təhsilini başa vurmaqdan ötrü Bağdad şəhərinə getmişdir. Zeynalabdin Bağdadda fəlsəfə, tibb, astronomiya və riyaziyyatı, habelə dilləri öyrənməkdə davam etmişdir.

Bağdad kitabxanalarında olan səyahətnamələr, bütün Şərq dünyasından buraya axışıb gəlmiş alimlərin, müqəddəs şəhərin ziyarətinə gələn zəvvarların söhbətləri bu gənc oğlanın nəzərlərində yeni bir dünya açmışdır. Dünyanı görmək və onun möcüzələri ilə həmyerlilərini tanış etmək elə həmin vaxtdan gənc Zeynalabdinin həyat məqsədinə çevrilmiş və o, tərəddüd etmədən səyahətə çıxmaq qərarına gəlmişdir.

İndi artıq bir çoxu sıradan çıxmış beş yüzdən artıq əlyazma və mətbu qaynağın və səyahətlər zamanı etdiyi şəxsi müşahidələri nəticəsində Şirvani ona dünya şöhrəti gətirən üç kitab yazmışdır: 1822-ci ildə "Riyazüs-səyahət" ("Səyahət bağçaları"), 1827-ci ildə "hədaiqüs-səyahət" ("Səyahət bağları") və nəhayət, 1833-cü ildə "Bustanus-səyahət" ("Səyahət gülzarı"). Bu əsərlərdə o, bir çox ölkələrin coğrafiyası, tarixi, etnoqrafiyası, arxitekturası, ədəbiyyatı və görkəmli ictimai xadimləri barədə dəyərli məlumatlar vermişdir. Şərqin digər alim və səyyahları kimi o da Yeri yeddi iqlim qurşağına bölmüşdür.

Olduğu bir çox yerlərdə onu saraya dəvət etmişlər. Bunlardan Misir hakimi İbrahim bəyi, İran şahı Fəthəli şah Qacarı, Türkiyə sultanı Mahmudu və başqalarını göstərmək olar. Olduğu saraylarda müzakirə və söhbətlərdə iştirak edən Şirvani həmişəlik burada qalmaq dəvətlərinə nəzakətlə rədd cavabı vermişdir. Şirvani həmişə macəralar və məhrumiyyətlərlə dolu səyyah həyatını saraydakı rahat həyatdan üstün tutmuşdur.

Zeynalabdin eyni zamanda şair olmuş və "Təmkin" təxəllüsü ilə şeirlər yazmışdır. Həmin şeirlər onun səyahətnamələrinə səpələnmiş və əlyazması Tehran mərkəzi kitabxanasında saxlanan "Divan"ında toplanmışdır. Bu nadir şəxsiyyətin digər əsərlərinin əlyazmaları Britaniya muzeyində, Paris Milli kitabxanasında, Sankt-Peterburqda və İranda saxlanır.

Şirvaninin əsərləri bir çox Azərbaycan, İran, rus və Avropa tədqiqatçıları tərəfindən öyrənilib. Bu alimlərdən A.Ağa Bakıxanovun, M.Tərbiyətin, Ə.Həmid Rəbbaninin, B.A.Dornun, N.V.Xanıkovun, E.Bloşenin və başqalarının adlarını çəkmək mümkündür. Bu sırada öz ömrünün böyük bir hissəsini Zeynalabdin Şirvaninin elmi hünərlərinin tədqiqinə həsr etmiş N.K.Kərəmovun adı xüsusilə qeyd olunmalıdır.

Şirvani ömrünün son illərini ailəsi ilə Şirazda keçirib. Elə buradan da özünün son səyahətinə yollanıb. Bu, onun həyat yoldaşı ilə birlikdə çıxdığı həcc ziyarəti idi.

1838-ci ildə həmin səfəri zamanı Zeynalabdin Şirvani yolda xəstələnmiş və Middə şəhəri yaxınlığında dünyasını dəyişmişdir. Hacı Zeynalabdin elə orada da dəfn olunmuşdur.

Ədəbiyyat

Quliyev, A. Azərbaycanın görkəmli səyyah və alimi Hacı Zeynalabdin Şirvani /A.Quliyev; red. Ə.Ələsgərzadə; Azərb. SSR EA, Şərqşünaslıq İn-tu.- Bakı: AzSSR EA, 1964.- 209 s.

Haqverdiyev, H. Hacı Zeynalabdin Şirvanin tarixi-coğrafi fikirləri /H.Haqverdiyev //Kredo.- 2014.- 25 yanvar.- S.15.

Fərəcov, S.Səyahətdə keçən ömür: Hacı Zeynalabdin Şirvani //Mədəniyyət.- 2011.- 27 aprel.- S. 13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

www.files.preslib.az

1315 illiyi

Kitabi-Dədə-Qorqud



Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mədəni-mənəvi sərvətlər xəzinəsində "Kitabi-Dədə Qorqud" özünəməxsus layiqli yer tutur. Qəhrəmanlıq dolu keçmişimizi parlaq əks etdirən bu misilsiz və möhtəşəm sənət abidəsi milli varlığımızın müəyyənləşməsində mühüm rol oynamışdır. Əcdadlarımız barəsində yaradılmış ən böyük və məşhur oğuznamələrdən ibarət "Kitabi-Dədə Qorqud" ("Kitab-i Dədəm Qorqud əla lisan-i taife-i Oğuzan" (Oğuz tayfalarının dilində Dədəm Qorqudun kitabı - Oğuz türk dastanı)) ana dilimizin tükənməz ifadə imkanlarını özündə yaşadır. Azərbaycanın tarixi coğrafiyasını bütün genişliyi ilə əhatə edən monumental epos xalqımıza məxsus qədim adət-ənənələrin, ulu babalarımızın dünyagörüşünün, mənəvi aləminin və yüksək bədii zövqünün öyrənilməsində qiymətli mənbədir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir (XI-XII əsrlər). Elm aləminə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır.

"Kitabi-Dədəm Qorqud" eposunun bizə gəlib çatmış əlyazma nüsxələrinin köçürülmə tarixi XVI əsr kimi müəyyən edilir. Boylarda orta əsrlər dastanlarımız kimi, nəsr və şeir parçaları növbələşsə də, həmin şeir parçaları orta əsrlərin poetika qanunlarına az uyğun gəlir. Bəzi tədqiqatçıların fikrincə, "Kitabi-Dədə Qorqud"da vaxtilə bəzi digər qədim türk dastanları kimi başdan-başa şeirlə yaradılmış, sonra isə yaddaşlarda yalnız əsas motivləri qaldığından, yazıya köçürülərkən nəsrlə bərpa edilmişdir.

Dastanların əsas süjeti aşağıdakı on iki boyda əks olunmuşdur: "Dirsə xan oğlu Buğacın boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Bayburanın oğlu Bamsı Beyrək boyu", "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", "Duxa Qoca oğlu Dəli Domrulun boyu", "Qanlı Qoca oğlu Qanturalı boyu", "Qazılıq Qoca oğlu Yeynəyin boyu", "Basat Təpəgözü öldürdüyü boy", "Bəkil oğlu Əmranın boyu", "Uşun Qoca oğlu Səgrəyin boyu", "Salur Qazan dustaq olub oğlu Uruz çıxardığı boy", "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy".

Bu dastanlar islamdan öncə Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmirqapı Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göyçə gölü və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"u yazıya köçürən şəxs Dədə Qorqudu bu dastanların yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. "Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatla zəngindir. Soykökümüzü, tariximizi, dövlətçiliyimizi və Azərbaycan türkcəsini öyrənmək baxımından zəngin mənbə olan "Kitabi-Dədə Qorqud" yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır.

Azərbaycan xalq bədii təfəkküründün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının poetik dili bədii təsvir vasitələri ilə zəngindir. Onlarda xalq dilinin incəliklərindən, atalar sözü, məsəl və idiomatik

Ə d ə b i y y a t

Kitabi-Dədə Qorqud: əsl və sadələşdirilmiş mətnlər.-Bakı:Öndər nəşriyyatı.- 2004.-376 s.

Kitabi Dədəm Qorqud: əla lisani-taifeyi-oğuzan /tərt. ed., çapa hazırl., ön söz. və lüğətin müəl. S.Əlizadə; "Kitabi-Dədə Qorqud" Dastanının 1300 illiyi Üzrə Dövlət Komissiyası.- Bakı: Yeni Nəşrlər Evi, 1999.-704 s.

Kitabi-Dədə Qorqud ensiklopediyası: 2 cilddə Drezden və Vatikan əlyazma nüsxələri və M.Erginin nəşri əsasında /tərt. ed., çapa haz. S.Əlizadə; red.şurası: Anar (sədr), A.Axundov, B.Vahabzadə, B.Nəbiyev [və b.]; AMEA; Azərb. Yazıçılar Birliyi; TÜRKSOY; Azərb. Resp. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi üzrə Dövlət Komissiyası; layih. rəhb.: O.Ələkbərli, T.Həsənov.- Bakı: Yeni Nəşrlər Evi, 2000.- C.I.-623 s.; C.II.- 567 s.

Nəbiyeva, A. "Kitabi-Dədə Qorqud"un nəşr və tədqiqi tarixindən /A.Nəbiyeva //Kredo.- 2014.- 23 avqust.- S.10-12.

ifadələrdən məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Müasir dövrdə "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar Fərman imzalamışdır. Bu fərmandan sonra görülən bir sıra dövlət tədbirləri, yubiley hazırlıqları sistemə salındı və "Dədə Qorqud kitabı"nın öyrənilməsində bir canlanma yaratdı. Ulu öndər rəsmi sənədlərdə, yığıncaqlardakı çıxışlarında, habelə verdiyi müsahibələrində dönə-dönə Dədə Qorqud mövzularına qayıdaraq, dastanın tarixi, mədəni dəyərindən danışmış, onu ədəbiyyatımızın ən dəyərli abidələrindən biri kimi qiymətləndirmişdir. 1300 illik yubiley üzrə Dövlət Komissiyasının iclaslarında H.Əliyev alimlər, yaradıcı ziyalılar, eləcə də dövlət qurumları qarşısında məsələlər qaldırmış, yeni elmi, bədii, təsviri sənət əsərləri yaradılmasını tövsiyə etmiş, kino, televiziya, radio və mətbuat işçiləri üçün perspektiv tapşırıqlar vermiş, Dədə Qorqud dastanı ilə bağlı park kompleksinin hazırlanmasını gündəliyə gətirmişdi. Ulu öndər bu məsələni xüsusi vurğulayırdı ki, dastanın öyrənilməsi yubileylə dayanmayıb, fasiləsiz davam etsin.

"Dədə Qorqud" dastanının 1300 illik tarixinin o dastanın öz mətnindən çıxan məntiqi vardır. 1300 il "Peyğəmbərimizin zamanına yaxın - "Rəsuləleyhissəlam dövrünə yaxın Bayat boyundan Qorqud Ata deyilən bir ər qopdu" cümləsindən çıxmışdı. Ulu öndər bu cümlənin məntiqindən çıxış edərək bu yaşı müəyyən etmişdi. Onun ən böyük arzusu həm də o idi ki, biz bu dastanın əlyazmasının dünyaya təqdimedilmə tarixini unutmamalıyıq və o tarixi gözləməliyik. Bu, 1815-ci ildir. Böyük alman filoloqu Fridrix fon Dits ilk dəfə olaraq dünyaya "Dədə Qorqud" dastanının əlyazmasının bir hekayətini tərcümə edərək təqdim etdi. Gözəl, rəğbət dolu, məhəbbət dolu bir "Ön söz"lə təqdim etdi. Bu dastanı qədim, dünyaya yaxşı tanış olan yunan mifləri ilə müqayisə etdi. 1815-ci il və 2015-ci il. 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur. 200 il kifayət qədər yuvarlaq rəqəmdir ki, bu yenə də dünyanın mədəni mərkəzlərindən biri olan Azərbaycanın filoloji, mədəni bir bayramına çeviriləcək. İndi bütün qorqudşünaslar, filoloqlar xarici ölkələrdən də bu rəqəmin ətrafına yığışıb "Dədə Qorqud"u və dünya mədəniyyətinin bir çox nümunələrini tədqiq etməyə, qeyd etməyə hazırlaşırlar.

2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktorunun iştirakı ilə böyük təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmana əsasən Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdır. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, Prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə Dədə Qorqud abidəsinin təntənəli açılışında iştirak etmişdir. Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, Dədə Qorqud heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Geniş tikinti və abadlıq işləri nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmışdır. Parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır.

Ötən dövr ərzində abidənin tədqiqi istiqamətində çoxsaylı elmi araşdırmalar aparılmış, eposu təşkil edən boyların süjet və motivləri əsasında ədəbi əsərlər yazılmış, təsviri sənət nümunələri meydana gətirilmişdir. Hələ 1975-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycanda tanınmış sənət xadimlərinin iştirakı ilə "Dədə Qorqud" boylarına həsr olunan ikiseriyalı bədii film çəkilmişdir. Ondan sonra, müstəqillik dövründə - 1993-2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür. "Dədə Qorqud" dastanlarının azərbaycançılıq məfkurəsi baxımından müstəsna əhəmiyyətini, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında əvəzsiz rolunu nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti 28 dekabr 2013-cü ildə "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında Sərəncamı vermişdir.

Bütün bunlar bir daha onu göstərir ki, Dədə Qorqud Azərbaycan xalqının qəlbində daim yaşayırdı, yaşayır və yaşayacaqdır. "Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda, bütün Türk dünyasını daha da sıx birləşdirir.

595 illiyi

Şirvanşahlar sarayı 1420-1460



İçərişəhərdə orta əsr memarlığının şah əsərlərindən biri olan Şirvan hakimlərinin iqamətgahı - "Şirvanşahlar Saray Ansamblı" bu günə qədər öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Şamaxıda baş verən zəlzələdən sonra paytaxt Bakıya köçürüldükdə, şəhərin ən yüksək nöqtəsində Şirvanşahlar Sarayı ucaldılır. Sarayın ansamblı 9 tikilidən: Saray binasından, Divanxanadan, Dərviş türbəsindən, Şərq darvazasından (portal), saray məscidindən, Key-Qubad məscidindən, saray türbəsindən, hamam və ovdandan ibarətdir.

Kompleks binalarının biri digərindən 5,6 metr hündürlükdə yerləşən 3 həyətdən ibarətdir. Sarayın yerləşdiyi ərazi mürəkkəb relyefli olduğu üçün, saray vahid memarlıq planına malik deyildir. Lakin ən müxtəlif nöqtələrdən baxarkən onların saray ansamblının tərkib hissələri olduğu aydın görünür.

Kompleksin bütün tikintiləri əhəng daşı olan yerli bədamdam daşından inşa olunmuşdur. Kompleksin bütün tikililəri arasında ən çox dağılmaya məruz qalan saray binası olmuşdur.

1500-cü ildə Şirvanşahlarla Səfəvilər arasındakı döyüş zamanı Fərrux Yassar öldürüldükdən sonra saray talan olunmuşdur. Şirvanşahlardan sonra sarayda kimlərin yaşadığı məlum deyil.

1723-cü ildə I Pyotr qoşunlarının Bakıya top atəşi açması zamanı saray məscidinin şimal-şərq fasadı ziyan çəkmişdir.

Saray binası - Saray ikimərtəbəli düzgün olmayan düzbucaqlı formaya malik bir binadır. Sarayı yaxşı işıqlandırmaq üçün binanın cənubi-şərq bucağı girintili-çıxıntılı hazırlanmışdır. İlk vaxtlar sarayda 52 otaq varmış, onlardan 27-si I, 25-ci isə II mərtəbədə yerləşirmiş. Otaqlar simmetrik şəkildədir. II mərtəbədə tağ tavanla örtülmüş Şahın özü və ailəsinin otaqları yerləşir. II mərtəbənin pəncərələri Bakı buxtasının gözəl mənzərəsinə açılır. Onları daş şəbəkələr daha da gözəlləşdirir. Girişdə XV əsr Azərbaycan memarlığının bütün elementlərini özündə cəmləşdirən və heç bir bəzək elementi olmayan əzəmətli portal diqqəti cəlb edir. Girişin sağ və sol tərəfində dərin divar oyuğu vardır.

Divanxana kompleksi yuxarı həyətdə yerləşir və onun şimal tərəfi ilə bir tini yaşayış binasına bitişmişdir. Divanxana 8 guşəli rotondadan ibarət olub, 12 tərəfli günbəzlə tamamlanır. O, 8 guşəli zaldan açıq eyvanla birləşir. Tağların xarici hissəsində azadlıq rəmzi olan göyərçin şəkilli daş və 2 ədəd su axarı üçün daş növ vardır. Belə bir ehtimalı da təkzib etmək olmaz ki, Şirvanşah Fərrux Yasər Divanxana kompleksini özü üçün məqbərə olaraq tikdirmişdir. Lakin tikinti işləri başa çatmamış, yarımçıq qalmışdır. Divanxana gözəlliyinə və incəliyinə görə nəinki Azərbaycanın, həm də Yaxın Şərqin uyğun memarlıq abidələrənin şah əsəri sayılır.

Dərviş türbəsi - Xalq arasında "Dərviş

Ədəbiyyat

Mirzəliyev, C. "Bakı üzüyü"nün qaşında gövhər, dünyanın incisi - İçərişəhər /C.Mirzəliyev; elmi red. C.Qiyasi.-Bakı: Azərbaycan,2005.- 128 s.

Cabbarov, M. "Şirvanşahlar sarayına gələnlər şah sarayının abhavasını hiss edəcək" /M.Cabbarov //Palitra.- 2012.- 24 fevral.- S.15.

İsayeva, R. Şirvanşahlar sarayı - Bakının möhtəşəm memarlıq nümunəsi /R.İsayeva //Mədəniyyət.- 2012.- 18 aprel.- S.15.

Rzayeva, R. Şirvanşahlar Sarayı - dünya əhəmiyyətli memarlıq incisi /R.Rzayeva //Yeni Azərbaycan.- 2010.- 12 iyun.- S.11.

Тағиев, И. Дворец Ширваншахов или Ханака С.Я.Бакуви /И.Тағиев.- Бакy: Çaşıoğlu, 2003.- 96 с.

İnternetdə

www.anl.az

az.wikipedia.org

www.icherisheher.gov.az

www.avciya.az

türbəsi" adı ilə məşhur olan və həyətin cənub hissəsində yerləşən türbə orta həyətdə mərkəzi yer tutur. Bəzi mütəxəssislər bu türbənin yanlışlıqla Seyid Yəhya Bakuviyə aid olduğunu iddia edirlər. Türbə Keyqubad məscidi bünövrəsi olan kompleksdədir. Onu qeyd etmək lazımdır ki, türbə üzərində onun kimə aid olduğunu bildirən kitabə və türbənin içərisində məzar daşı olmamışdır. Kiçik həcmli 8 bucaqlı türbə yüksək sənətkarlıqla işlənmişdir. Yaraşıqlı görünməsi üçün gümbəzin piramidaya oxşar səthləri az qabarıq verilmişdir. Türbənin hündürlüyü 7,5 metrdir. Türbə yeraltı və yerüstü hissədən ibarətdir. Divarların hörgüsü tünd və açıq daşlardan tikildiyindən onların təkrarlanması səthlərin rəngli görünməsinə səbəb olmuşdur. Türbənin daşdan yonulmuş şəbəkələrlə bəzəkli üç pəncərəsi vardır.

Keyqubad məscidi Dərviş türbəsi yanında ona bitişik bir məscid-mədrəsə binası olmuşdur. Türbə məscidin cənub hissəsində yerləşir. Məscid düzbucaqlı ibadət zalından və onun önündəki kiçik dəhlizdən ibarətdir. Vaxtilə zalın mərkəzində gümbəzi saxlayan 4 sütun var imiş. Məsciddə Bakuvinin tədris və ibadət etməsi barədə A.Bakıxanov yazır: "Onun ibadət etdiyi hücrə, işlədiyi məktəb və qəbri orada – məsciddədir".

Şərq darvazası portalı - Kompleksin XVI əsrə aid olan yeganə tikilisi "Murad" darvazasıdır. Murad darvazası portalının yuxarı çərçivəsində olan 2 medalyon arasında aşağıdakılar yazılıb: "Bu bina Ulu Rəcəb Bakuvinin 994-cü ildə (1585-86) sifarişi əsasında böyük və ədalətli Sultan III Muradın dövründə tikdirilib".

Şirvanşahlar türbəsi -Aşağı həyətin ərazisində kompleksin 2 tikilisi, türbə və saray məscidi yerləşir. Aşağı həyəti digərindən iri dairəvi qapalı divarlar ayırır. Türbəyə yuxarıdan baxdıqda kəsmə ulduzla bəzədilmiş və 6 bucaqlı gümbəzlə tamamlanmış düzbucaqlı olduğu görünür. Türbənin girişində dəhliz vardır və o, 8 bucaqlı gümbəzlə örtülmüşdür. Onun sağ və solunda xidmət üçün 2 yardımçı otaq vardır. Türbədə Şirvanşahlar ailəsinin üzvləri də dəfn edilmişdir. Qazıntılar zamanı sökülmüş döşəmənin altından daş lövhələr tapılmışdır. Bu daş lövhələrdən 7 ədəd qəbrin örtüyü olduğu məlum olmuşdur, yalnız 5 qəbrdə sümük qalıqları tapılmışdır, 2 qəbrdə sümüklər yox idi.

Saray məscidi -Aşağı həyətdə türbə ilə yanaşı saray məscidi yerləşir. Məscidin hündürlüyü 22 metrdir. Minarəni əhatə edən yazıdan məlum odur: "bu minarənin ucalmasını böyük sultan I Xəlilullah əmr etmişdir. Allah onun şahlığını və hakimiyyət illərini böyütsün 845-ci il" (1441-42 illər). Məscidə girməzdən əvvəl yuyunmaq və dəstəmaz almaq üçün həyətin şimal tərəfində, hündür meydançada quyu və kiçik hovuz vardır. Onun giriş portalı bəzəksizdir, lakin minarə zərifliyi və gözəlliyi ilə diqqəti cəlb edir. Onun eyvanını saxlayan stalaktitlər və aşağıda yerləşən yazı kəməri yüksək sənətkarlıqla işlənmişdir. Minarə dilimli gümbəzlə tamamlanır.

Saray hamamı -Kompleksin ən aşağı həyətində saray hamamı yerləşir. İçərişəhərin bütün hamamları kimi bu hamam da temperatur rejimini sabit saxlamaq üçün yer altında tikilib. Vaxt keçdikcə torpaq qatının qalınlığı artaraq onu tamam örtmüşdür. Hamam 1939-cu ildə təsadüfən aşkar olunmuş, 1953-cü ildə bir hissəsi təmizlənmiş, 1961-ci ildə konservasiya edilmişdir. Hamamın indiyə qədər qalmış divarlarına görə demək olar ki, onun otaqlarının üstü gümbəzlə örtülmüşdü. Gümbəzdə olan deşiklərdən hamamın içərisinə işıq düşürmüş. Hamamın sol hissəsi bərpa olunmuş, sağ hissə isə öz əvvəlki formasını daha çox saxlamışdır. Hamama daxil olan su, divar yaxınlığında olan ovdandan (su anbarından) qazanxanaya axır, oradan isə tikilmiş xüsusi yollar vasitəsi ilə otaqlara paylanırdı. Hamamda soyunmaq üçün, tək adamın çimməsi üçün "xəlvəti" adlanan otaqlar da vardır. Divarda otaqlara çəkilmiş borunun ucu tağın içindən görünür. Hamamın sağ küncündə üstü günbəzli bir böyük və iki kiçik otaq vardır. Kaşı üzlüyə malik bu otaqların çəxsən şaha məxsus olduğu ehtimal olunur.

1964-cü ildən qoruq-abidə elan olunan saray 1997-ci ildən UNESCO tərəfindən qorunan abidələr siyahısına daxil edilib.

2000-ci ildə YUNESKO tərəfindən İçərişəhər və Qız qalası ilə birlikdə Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

95 illiyi Azərbaycan Dövlət Neft Akademiyası 1920

1920-ci ildə Avropa və Asiyada neft-qaz təmayüllü ilk ali texniki təhsil müəssisəsi kimi fəaliyyətə başlayan ADNA (Azərbaycan Dövlət Neft Akademiyası) bu illər ərzində dünyanın qabaqcıl təhsil mərkəzləri səviyyəsinədək inkişaf yolu keçmişdir.

1920-ci ildə Bakı Politexnik İnstitutu yaradılmış və bu təhsil mərkəzi sonralar Azərbaycan Politexnik İnstitutu (1923-1930), Azərbaycan Neft İnstitutu (1930-1934), Azərbaycan İndustrial (Sənaye) İnstitutu (1934-1959), Azərbaycan Neft və Kimya İnstitutu (1959-1991), Azərbaycan Sənaye Universiteti (1991-1992) və Azərbaycan Dövlət Neft Akademiyası (1992-ci ildən) adı altında neft-qaz və digər sənaye sahələri üçün yüksəkixtisaslı mühəndis və elmi-pedaqoji kadrları hazırlamışdır.

Neft sənayesi üçün mütəxəssis hazırlığında əldə etdiyi nailiyyətlərə görə institut 1931-ci ildə Azərbaycan SSR-in "Qırmızı Əmək Bayrağı Ordeni" ilə, 1940-cı ildə institut ittifaq hökumətinin ali mükafatlarından olan "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Ulu öndər Heydər Əliyevin vaxtilə dediyi "İnstitut öz varlığı ərzində bütün ölkədə ali təhsilin, xüsusən ali neft təhsilinin inkişafına sanballı kömək göstərmişdir", "institutun respublikamız qarşısında xidmətləri böyükdür", "institutu bitirən kadrlar Azərbaycanın mühəndis-texniki və elmi işçilərinin özəyi olmuşdur" sözləri Azərbaycan Dövlət Neft Akademiyasının fəaliyyətinə verilən ən layiqli qiymətdir.

ADNA-nın 1 milyona yaxın kitab fondu olan kitabxanası, informasiya hesablama mərkəzi, tədris vəsaitləri çap edən nəşriyyatı, 7 korpuslu tələbə şəhərciyi, 3 tədris korpusu, tələbə poliklinikası və xəstəxanası, idman kompleksi, Nabranda istirahət zonası vardır.

Akademiyada "Elmi əsərlər", "Azərbaycan ali texniki məktəblərinin xəbərləri" adlı məcmuələr, "Neft kadrları uğrunda" adlı çoxtirajlı qəzet nəşr olunur. ADNA-nın məzunlarından 50 nəfərdən çox Azərbaycan EA-nın həqiqi və müxbir üzvü, 150 nəfərdən çox Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanı, 70 nəfərə yaxın Dövlət mükafatı laureatı fəxri adlarına layiq görülmüşdür.

Xarici ölkələr üçün ali təhsilli mütəxəssis hazırlığına isə ADNA-da 1964-cü ildən başlanmışdır. Bununla əlaqədar olaraq Əcnəbi Tələbələrlə İş üzrə (ƏTİ) dekanlıq yaradılmışdır. ADNA-da dünyanın bir çox ölkəsi üçün bakalavr, mühəndis, magistr dərəcəli texniki kadrlar, elmlər namizədi və elmlər doktoru hazırlanmışdır. 70-ci illərdən başlayaraq ADNA-nın professor müəllim heyəti Əlcəzair, Əfqanıstan, Liviya, Qvineya-Bisau, Kamerun və digər ölkələrdə ali təhsil sisteminin təşkili və inkişafında fəal iştirak etmişlər. Əlcəzair və Əfqanıstanda tədris mərkəzləri yaradılmış, institutlar açılmış və uzun illər professsor-müəllim heyəti həmin institutlarda fəaliyyət göstərmiş və indi də göstərirlər.

ADNA həmçinin Avropanın "TEMPUS" proqramının iştirakçısıdır. 1999-cu ildən başlayaraq ADNA Amerika proqramları əsasında ABŞ-ın Corciya Dövlət Universiteti ilə birlikdə iki ixtisas üzrə magistrlər hazırlamağa başlamışdır. İlk dəfə məzunlara Amerika nümunəli diplomlar verilmişdir.

ADNA-nın əməkdaşlarından bir çoxu qabaqcıl ölkələrin Elmlər Akademiyasının, fəxri, həqiqi və müxbir üzvləri seçilmişdir.1993-cü ildən başlayaraq azərbaycanlı tələbələr, magistrant və aspirant kimi ABŞ, Fransa, Türkiyə, İngiltərə, İtaliya, Almaniya və Rusiya ali məktəblərində təhsil almışlar.

Muxtarova, T. ADNA dünya təhsil sistemi ilə yanaşı addımlayan təhsil ocaqlarımızdandır /T.Muxtarova //İqtisadiyyat .-2011.- 23-29 sentyabr.- S.4.

95 illiyi

Azərbaycan Tarixi Muzeyi 1920



Milli Azərbaycan Tarixi Muzeyi Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi tədqiqat və mədəni-maarif müəssisəsidir. Muzey 1920-ci il iyun ayının 15-də "Doğma diyarın tədris muzeyi" adı ilə Azərbaycan SSR XMK-nın məktəbdənkənar işlər şöbəsində təzəcə təşkil olunmuş "Muzekskurs" yarımşöbəsinin nəzdində yaradılmışdır. Əsas bazasını AXC Parlamentinin ildönümü münasibətilə 1919-cu il dekabr ayının 7-də açılmış "İstiqlal" muzeyinin materialları təşkil edirdi. 1920-ci ilin iyul ayından həmin muzeyin şərəfinə "Doğma diyarın tədris muzeyi – İstiqlal", 1920-ci ilin oktyabrından 1936-cı ilin martınadək Azərbaycan SSR Dövlət Muzeyi adlandırılmışdır. Tarix Muzeyi 1920-ci ilin iyulundan məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895-1901-ci illərdə tikdirdiyi sarayda yerləşdirilmiş və ilk tamaşaçılarını 1921-ci ilin mayında qəbul etmişdir.

Yarandığı ilk illərdə muzeydə tarix, arxeologiya və etnoqrafiya, botanika və zoologiya, mineralogiya və geologiya, təsviri incəsənət və bədii sənət, xalq təhsili, köməkçi tədris müəssisələri şöbələri, eləcə də Azərbaycan Doğma Diyarın Tədqiqi Cəmiyyəti və Qədim abidələrin mühafizəsi komissiyası fəaliyyət göstərirdi. 1923-cü ildə yaradılan və muzeylə sıx əlaqədə fəaliyyət göstərən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti muzeyin tərkibindəki cəmiyyəti və komissiyanı özündə birləşdirdi. Sonrakı illərdə dövrün tələbinə uyğun olaraq muzeydə dəfələrlə struktur dəyişikliyi edildi.

1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin yenidən qurulması, tarix profilli yeni muzeyin yaradılması və onun Azərbaycan Tarixi Muzeyi adı ilə yenicə təşkil edilmiş SSRİ EA-nın Azərbaycan Filialına verilməsi ilə nəticələndi. Bu, keçmiş Dövlət Muzeyinin tərkibindən 1934-cü ildə çıxmış Teatr Muzeyindən başqa qeyri-tarix profilli digər sahələrin ayrılmasına və yeni muzeylərin (Təbiət Tarixi Muzeyi, İncəsənət Muzeyi, Din və Ateizm Tarixi Muzeyi, Ədəbiyyat Muzeyi və s.) yaranmasına səbəb oldu. 30-cu illərin sonu - 40-cı illərin əvvəllərində baş verən kütləvi repressiya və müharibə alimlərin, muzey işçilərinin sıralarını seyrəltdi. 1941-ci ildən bu vaxtadək müstəqil qurum olan Tarix Muzeyi SSRİ EA Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunda muzey şöbəsinə çevrildi. Azərbaycan Tarixi Muzeyi 1945-ci ildə yaradılmış Azərbaycan SSRİ EA-nın tərkibində eyni adla fəaliyyətə başladı.Muzey müharibə və sonrakı illərdə elmi tədqiqat işlərinə daha çox üstünlük verdi.

1953-cü ildə Tağıyev mülkü yenidən muzeyə qaytarıldı.

Muzeyin zəngin kolleksiyası müxtəlif illərdə nəşr edilmiş buklet, kataloq, albom və məqalələrin əsasını təşkil etmişdir. Muzey tərəfindən nəfis şəkildə nəşr edilmiş "Milli geyimlər", "Zərgərlik bəzəkləri", "Şərq silahları", "Mis məmulatı", "Xalçalar və xalça məmulatı", "Azərbaycan tikmələri", "Arxeoloji material", "Numizmatika", "Sualtı arxeologiya" adlı kitablar yüksək rəğbətlə qarşılanmışdır.

2005-ci ildən Azərbaycan Tarixi Muzeyində bərpa və yenidənqurma işləri aparılmış, 2005-ci ilin noyabr ayında Nazirlər Kabinetinin sərəncamı ilə muzeyə milli statusu verilmişdir. 2007-ci il dekabr ayının 28-də isə Milli Azərbaycan Tarixi Muzeyinin açılışı olmuşdur.

Ədəbiyyat

Azərbaycan Tarixi Muzeyi: [kitab-albom] /AMEA; mətnin müəl. və tərt. N.Vəlixanlı; tərc. L.Mircəfərova.- Bakı: Elm, 2004.-64 s.

Milli Azərbaycan Tarixi Muzeyi-2012 /təsisçi AMEA, Milli Azərbaycan Tarixi Muzeyi; red. hey.: N.Vəlixanlı (baş red.) [və b.].- Bakı: Elm, 2012.- 335 s.

Əlizadə, N. Azərbaycan Tarixi Muzeyi milli-mədəni dəyərlərimizin qoruyucusu və təbliğatçısı kimi /N.Əlizadə //Mədəni həyat.- 2013.- №4.- S.16-18.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azhistorymuseum.az

www.erevangala500.com

Azərbaycan Mədəniyyətinin Dostları Fondu 1995

20 illiyi

Azərbaycan Mədəniyyətinin Dostları Fondu - qeyri-hökumət xeyriyyə fondu 1995-ci ildə yaradılmışdır. Təşkilatın rəhbəri YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevadır. Fondun əsas məqsədi: milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanınması, Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin formalaşması məsələlərinin həyata keçirilməsindən ibarətdir. Mehriban xanım Əliyeva fondun işini 3 istiqamətə - mədəni tədbirlər, xeyriyyə aksiyaları, naşirlik – yönəltmişdir.

Fond Azərbaycan görkəmli incəsənət xadimlərinin - dahi Rəşid Behbudovun xatirəsinə, Müslüm Maqomayevin, Arif Məlikovun, Fidan və Xuraman Qasımova bacılarının şərəfinə yubiley gecələri təşkil etmiş, tədbirlərlə əlaqədar Rəşid Behbudov, Fidan və Xuraman Qasımova bacılarının həyat və yaradıcılığına həsr olunmuş "Azərbaycan-İrs" jurnalının xüsusi nömrələri çap olunmuş, Rəşid Behbudovun ifa etdiyi mahnılardan ibarət CD disk buraxılmış, Arif Məlikovun yaradıcılıq gecəsi və rəsmlərindən ibarət sərgi təşkil edilmişdir.

Fondun maliyyə dəstəyi ilə 1900-cü illərin əvvəllərində nəşr olunan "Molla Nəsrəddin" məcmuəsinin 1 və 2-ci cildləri yeni, nəfis şəkildə çapdan çıxmış, İncəsənət muzeyinin kataloqu, görkəmli şair Səməd Vurğunun xatirəsinə həsr olunmuş "Ellər Vurğunu", professor Səadət Abdullayevanın "Azərbaycan xalq musiqi alətləri" kitabları (Azərbaycan və rus dillərində), professor Əhməd İsazadənin "Azərbaycan xalq musiqisinin antologiyası" kitabının I-VII cildləri, Azərbaycanın dahi şair və mütəfəkkirləri – Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, İmadəddin Nəsimi, Mirzə Ələkbər Sabir və başqalarının əsərlərindən ibarət toplular, akademik Çingiz Qacarın "Qədim Şuşa" kitabı nəşr edilmişdir.

Fəaliyyət dövrü ərzində Fondun Azərbaycanda təşkil etdiyi xarici ölkə incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. tədbirlər beynəlxalq miqyaslı hadisələr olmuşdur. Dünya şöhrətli incəsənət xadimlərinin - həmyerlilərimiz maestro Mstislav Rostropoviç, ABŞ-ın Culyard Musiqi Akademiyasının professoru pianoçu Bella Davidoviç, Belfast simfonik orkestrinin Baş dirijoru, violinoçu Dmitri Sitkovetskinin, "Most-Vivaldi" kamera orkestrinin, Nadejda Pavlova və Vyaçeslav Qordeyev kimi balet ulduzlarının, İqor Moiseyevin rəhbərlik etdiyi Rus Dövlət rəqs ansamblının Bakıdakı çıxışları bu qəbildəndir. Bu istiqamətdə təşkil olunan tədbirlər arasında "Musiqinin Böyük İpək Yolu" Beynəlxalq Klassik Musiqi festivalı və SEBA (Seul-Bakı) Azərbaycan -Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası ilə birgə keçirilən Koreya Mədəniyyəti Günləri xüsusi qeyd olunmalıdır.

Azərbaycan muğamını dünya miqyasında təbliğ etmək və eyni zamanda, yaymaq, həmçinin bu ulu sənəti yaşadan musiqiçi və müğənnilərə

qayğı göstərmək Fondun qarşısında duran mühüm işlərdəndir. Bu istiqamətdə atılan addımlar arasında "Bakı Muğam Mərkəzi"nin yaradılması, nəfis, əhatəli, rəngarəng şəkildə tərtib edilmiş "Qarabağ xanəndələri" musiqili albomun buraxılması və onun dünyanın bir çox mötəbər incəsənət mərkəzlərində yayılması, 2005 və 2007-ci il Respublika muğam müsabiqələrinin keçirilməsi diqqətəlayiqdir.

Azərbaycan Mədəniyyətinin Dostları xeyriyyə fondunun təşəbbüsü ilə xüsusi aylıq təqaüd təsis olunmuşdur ki, müğənnilər, teatr xadimləri, rəssamlar, muğam ifaçıları bu təqaüdlə təmin edilir. Azərbaycan muğamını beynəlxalq miqyasda daha geniş təbliğ etmək məqsədi ilə Fond görkəmli muğam ifaçılarının, alimlərin, muğam ilə caz sənətinin sintezini yaradan musiqiçilərin xarici səfərlərini də təşkil etmişdir. Dünya şöhrətli muğam ifaçısı Alim Qasımovun Yaponiyanın Naqoya şəhərində EXPO-2005 sərgisindəki çıxışı, musiqişünas Sənubər Bağırovanın ABŞ-ın Massaçuset Universitetində elmi məruzələri, caz sənətinin mahir ifaçıları Salman Qəmbərov və Cəmil Əmirovun ABŞ-ın Çikaqo şəhərindəki konsertləri bu qəbildəndir.

AMDF daha bir neçə böyük layihənin təşkilatçısıdır. Bunlar arasında "Bakı payızı" Beynəlxalq festivalı, IX Şərq-Qərb Bakı beynəlxalq kino festivalı, "Reklam acgözləri gecəsi" - beynəlxalq reklam filmlərinin nümayişi, 2007-ci ildə artıq üçüncü dəfə keçirilən Beynəlxalq Bakı Caz Festivalı ənənəyə çevrilmişdir.

AMDF keçirdiyi mədəni tədbirlərin, təşkil etdiyi xeyriyyə aksiyalarının miqyasına, yüksək səviyyəsinə görə təkcə vətənimizdə deyil, dünyanın bir çox ölkəsində böyük diqqətə və qiymətə layiq görülmüş, beynəlxalq aləmdə nüfuz qazanmışdır.

Ə d ə b i y y a t

Hacıbəyli, Ü. Bədii və publisistik əsərlər /Ü.Hacıbəyli; burax. məs. Ə.Güləliyev; Heydər Əliyev Fondu; Azərbaycan Mədəniyyətinin Dostları Fondu.- Bakı: [Şərq-Qərb], 2008.- 543 s.

Üzeyir Hacıbəyli ensiklopediyası /E.Abbasova [və b.]; red. hey. E.Abbasova [və b.]; red.: S.Ağababayeva, T.Dadaşova; burax. məs. Ə.Güləliyev; Heydər Əliyev Fondu, Azərbaycan Mədəniyyətinin Dostları Fondu.- Bakı: [Şərq-Qərb], 2008.- 239 s.

Azərbaycan Mədəniyyətinin Dostları Fondu //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı: Şərq-Qərb, 2008.- S.25.

Bədəlov, Ə. Azərbaycan – UNESCO əlaqələri maddi və qeyri-maddi mədəni irsimizin qorunmasına mühüm töhfə verir //Xalq qəzeti.- 2013.- 9 dekabr.- S.3.

Qaraca, B. Xalqın muğam xəzinəsi: Müasir Azərbaycan - 20 /B.Qaraca //Azərbaycan.- 2011.- 14 iyun.- S.8.

Məmmədli, H. Mehriban xanım Əliyeva zəngin və çoxşaxəli fəaliyyəti ilə ölkəmizi dünyada layiqincə tanıdır //Yeni Azərbaycan.- 2013.- 24 avqust.- S.3.

Ömərov, V. Azərbaycan-Fransa mədəni əməkdaşlığının inkişafında ölkənin birinci xanımı Mehriban Əliyevanın rolu //Səs qəzeti.- 2013.- 18 sentyabr.-S.5.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.mehriban-aliyeva.org

www.files.preslib.az

www.heydar-aliyev-foundation.org

www.mugam.musigi-dunya.az

Əlifba göstəricisi

A

A. Babayev adına Naxçıvan Respublika Uşaq Kitabxanasının yaranması- ---------- 348
Abbasov Abdulla Əsgər oğlu (Abbas Abdulla)- - ---------- 122
Abbasov Akif Nurağa oğlunun (Akif Nurağaoğlu)- ---------- 122
Abbasov Əşrəf Cəlal oğlu- ---------- 59,69
Abbasov Əyyub Cəbrayıl oğlu- ---------- 344
Abbasov Həmid Məmmədəli oğlu (Həmid Abbas)- ---------- 260
Abbasov Mehdi Yusif oğlu- ----------6,12
Abbasov Namiq Rəşid oğlu- ----------34
Abbasov Vaqif Abbas oğlu- ---------- 315
Abbasov Zülfüqar Qulu oğlu- ---------- 121
Abbaszadə Nəzmiyyə Müzəffər qızı- -------- 182
Abdinov Cavad Şahvələd oğlu- ----------7, 22
Abdinov Əhməd Şahvələd oğlu- ---------- 123
Abdullayev Ağaxan Minəxan oğlu- -------- 33,40
Abdullayev Ağasəlim Sahib oğlu- ------- 260, 271
Abdullayev Bəhlul Ağabala oğlu (Bəhlul Abdulla) – ----------97, 109
Abdullayev Cəlal Mehdi oğlu- ---------- 314
Abdullayev Əlibaba Abdulla oğlu- -------- 59, 70
Abdullayev Ələvsət Zakir oğlu- ----------34
Abdullayev İsa Mədəd oğlu- ---------- 97, 111
Abdullayev Kamal Mehdi oğlunun (Kamal Abdulla)- ---------- 314, 331
Abdullayev Maşallah Babakişi oğlu- -- 121, 143
Abdullayev Tahir Abdulla oğlu- ---------- 207
Abdullayev Tərlan Səməd oğlu- ----------35
Abdullazadə Arif Əbdürrəhman oğlu- ---------97
“Açıq söz” qəzetinin nəşrə başlaması- ------- 348
Adıgözəlov Vasif Zülfüqar oğlu- ------- 182, 193
Adıgözəlov Rauf Zulfüqar oğlu- ---------- 292
Adıgözəlova - Polçayeva Qəmər Əbdülrəhim qızı- ----------98, 112
Adıgözəlzadə Zöhrab Əfrasiyab oğlu- -- 182,189
Ağabəyim Ağa İbrahimxəlil qızı Ağabacı- -- 344
Ağakişiyeva Zərnigar Fəti qızı- ---------- 293,297
Ağalarov Araz İskəndər oğlu- ---------- 293
Ağayev Eldar Əsgər oğlu- ---------- 243,253
Ağayev Əkbər Məmməd oğlu- ----------61
Ağayev Fərhad İslam oğlu- ---------- 208,218
Ağayev Həsən bəy Məşədi Hüseyn bəy oğlu- --- ---------- 346,359
Ağayev Novruz Ağagül oğlu- ---------- 347
Ağayev Rafiq İmanqulu oğlu (Rafiq Savalan)-312
Ağayev Telman Məmmədəli oğlu- ------ 262,284
Ağayev Zeydulla Abdulla oğlu ----------61
Ağazadə Fərhad Rasim oğlu ---------- 209
Ağazadə Nəzakət Həsən qızı ----------34
Ağdam rayonunun işğalı günü ---------- 184, 205
Ağstafa rayon Mərkəzləşmiş Kitabxana Sisteminin yaranması - ---------- 348
Axundov Bəhmən Yusif oğlu- ---------- 314
Axundov Süleyman Sani Rzaqulu bəy oğlu (Süleyman Sani Axundov)- ---------- 260, 266
Axundzadə Məhəmməd Mirzə Kərim oğlu- 122
Axundzadə Səkinə xanım Mirzə Heybət qızı-344
Alıcanov Rafiq Cəfər oğlu- ---------- 182,196
Alimov Gəray Fəzli oğlu (Gəray Fəzli)- ------ 292
Allahverdiyev Şamil İsmayıl oğlu- ---------- 161
Allahyarov Kamil Hüseyn oğlu- -------- 243, 255
Almaszadə Qəmər Hacağa qızı- ---------- 59,66
Andersen Hans Kristian ---------- 96,101
Aranlı-Məmməd ---------- 260
Aristofan- ---------- 345
Aslan Knyaz İlyas oğlu- ---------- 315, 337
Aslanov Aslan Məmməd oğlu- ---------- 208
Aslanov Həzi Əhəd oğlu- ----------6,16-17
Aslanov Niyazi Şərəfxan oğlu- --------- 313,326
Aslanov Səlvər Rza oğlu- ---------- 262
Aslanov Səyavuş Məmmədağa oğlu (Səyavuş Aslan) ---------- 242,250
Aslanov Şəkər Mirzə oğlu (Şəkər Aslan)-259,264
Ağdaş rayon Mərkəzləşmiş Kitabxana Sisteminin yaranması- ---------- 348
Atakişiyev Rafiq (Rauf) İsrafil oğlu- ---- 182,190
Avalov Elturan Vəli oğlu ---------- -207,214
Ayda-zadə Kamil Rəcəb oğlu ---------- 314

Azərbaycan Bayrağı Günü---------- 294,305
Azərbaycan Dövlət Kitab Palatasının yaranması----------35
Azərbaycan Dövlət Neft Akademiyasının əsaslı Kitabxanasının yaranması- ---------- 347
Azərbaycan Dövlət Neft Akademiyasının fəaliyyətə başlaması- ---------- 348, 368
Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) yaranması---------- -62, 87
Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətinin Qapalı səhmdar cəmiyyətə çevrilməsi----------98
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü---------- 209,234
Azərbaycan Hərbi Hava Qüvvələri Günü -----35
Azərbaycan Kinosu Günü ----------209-235
Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaranması- ----------348, 370-371
Azərbaycan Milli Arxiv İdarəsinin yaranması- ---------- 315, 339
Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsi- ----------7, 30
Azərbaycan Polisi Günü (02.07.1998)- ----- -184
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranması- ---------- 315
Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında Fərman- -------- 162
Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasının yaradılması- ---------- 348
Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının yaranması-- ---------- -347
Azərbaycan Tarixi Muzeyinin yaradılması (Bakıda)--- ---------- 348, 369
Azərbaycan Texniki Universitetinin (keçmiş Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu) yaradılması---------- 348
Azərbaycan Texniki Universitetinin Kitabxanasının yaranması- ---------- 348
Azərbaycanda dəmiryol nəqliyyatının əsasının qoyulması- ---------- 263
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü- ---------- 209, 235
Azərbaycanda ilk dəfə Bakıda konka fəhlə və qulluqçularının Hİ-nın yaradılması---------- 263
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü - ---------- 162
Azərbaycanda Prezident vəzifəsinin təsis olunması ---------- 124
Azərbaycanın XI Qırmızı Ordu tərəfindən işğalı günü ----------98,118
Azərbaycanın müstəqilliyinin Versal konfransında tanınması- ---------- 7
Azərbaycanlıların Soyqırımı Günü--- 62, 93-94

B

Babayev Adil Qafar oğlu ---------- -5, 9
Babayev Əjdər Xalıqverdi oğlu---------- 208,223
Babayev İlyas Atababa oğlu---------- 60,79
Babayev Mobil Rəşid oğlu- ---------- 313
Babayev Nazim Abbas oğlu---------- 34,43
Babayev Vasif Hacıağa oğlu- ---------- 242,251
Babək əl Xürrəmi- ---------- 345, 358
Bağırov Fikrət Bağır oğlu- ---------- 312
Bağırov Məmmədtağı Abbas oğlu---------- 207
Bağırov Müseyib Bağır oğlu- ---------- 121
Bağırzadə Məmmədbağır Məmmədəli oğlu---------- 182, 192
Bax İohan Sebestyan- ----------59
Baxşəliyev Vəli Baxşəli oğlu- ---------- 161, 174
Bakı funikulyorunun istifadəyə verilməsi -- -123
Bakıda azərbaycanlıların 1905-ci il soyqırımı-35
Bakıda 20 Yanvar abidə-kompleksinin açılışı-- 7
Bakıda Şərq xalqlarının I qurultayının keçirilməsi- ---------- 243
Bakıxanov Tofiq Əhmədxan oğlu------- 312, 320
Bakuvi Seyid Yəhya Cəlaləddin- ------- 346, 360
Bayramova (Bayramlı) Ofelya Əşrəf qızı- -- 314
Behbudov Qaraxan İmran oğlu- ---------- 292
Behbudov Rəşid Məcid oğlu- ---------- 312, 321
Bethoven Lüdviq Van- ---------- 312, 323
Beynəlxalq Azərbaycan Muğamı Günü------ 209
Beynəlxalq Ahıllar Günü--- ---------- 263, 286
Beynəlxalq Ailə Günü---------- 124
Beynəlxalq Ana Dili Günü- ---------- 35, 55
Beynəlxalq Əqli Mülkiyyət Günü- ----------98
Beynəlxalq Əlillər Günü---------- 315, 338
Beynəlxalq Gənclər Günü- ---------- 209, 236
Beynəlxalq Humanitar Yardım Günü--- ----- 209
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü-294,310
Beynəlxalq İnternet Təhlükəsizliyi Günü- ----35

Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü---
---------- 98, 117
Beynəlxalq Kulinariya Günü-- ---------- 263
Beynəlxalq Qadınlar Günü- ---------- 62
Beynəlxalq Lal-Kar Günü- ---------- 243
Beynəlxalq Mədəniyyət Günü ---------- 98
Beynəlxalq Musiqi Günü - ---------- 263
Beynəlxalq Muzeylər Günü ---------- -124
Beynəlxalq Müəllim Günü ---------- 263
Beynəlxalq Novruz Günü- ---------- 35,62
Beynəlxalq Olimpiya Günü- ---------- 162
Beynəlxalq Poeziya Günü- ---------- 62
Beynəlxalq Rəqs Günü---------- 98
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü- -----
---------- 123, 153
Beynəlxalq Sülh Günü- ---------- 243
Beynəlxalq Teatr Günü---------- 62
Beynəlxalq təqvim və saatın qəbul edilməsi- 315
Beynəlxalq Turizm Günü- ---------- 243
Beynəlxalq Uşaq Günü---------- 294
Bədəlbəyli Bədəl bəy Bəşir bəy oğlu- ------- 346
Bədəlbəyli Əsgər Xanhüseyn oğlu- ---------- 312
Bədən Tərbiyəsi və İdman Günü- ---------- 62
Bədirbəyli Leyla Ağalar qızı- ---------- 5, 11
Bədirzadə Məhərrəm Əlisəttar oğlu ---------- 5
Bəhmənli Vaqif---------- 120, 127
Bəhramov Tofiq Bəhram oğlu---------- --6
Biləsuvar rayon MK-nın yaranması----------348
Bilik Günü----------243
Birləşmiş Millətlər Təşkilatı Günü-------263, 289
BMT-nin qurulması---------- --162
Blok Aleksandr Aleksandroviç----------292
Bunin İvan Alekseyeviç---------- 260
Bülbüloğlu Polad----------33, 38
Bünyadzadə Ağababa Balağa oğlu- ---------- 182

C

Cabbarov Zeynal Əliabbas oğlu (Zeynal
Cabbarzadə)----------312, 318
Cabbarova Fatma Ağacabar qızı-- ---------- --293
Cavadov Natiq Hacı oğlu--- ---------- -61, 85
Cavanşirov Əfsər Bayram oğlu-- ---------- ---292
Cəbrayıl rayonunun işğalı günü ---- ----209, 237
Cəfərov Cəfər Hüseynqulu oğlu--- -------- ---183
Cəfərov Əkrəm Səftər oğlu (Əkrəm Cəfər)--122,145
Cəfərov İsgəndər Həsən oğlu ----------314
Cəfərov Vahid Əziz oğlu (Vahid Əziz)----292, 295
Cəfərpur İsmayıl Qəhrəman oğlu---------- 59
Cəfərzadə Əlisgəndər Hacıbaba oğlu ----------262
Cəfərzadə İshaq Məmmədrza oğlu ----------208
Cəlilov Maqsud Fərhad oğlu ---------- 122
Cəmaləddin Qara Yusif Barani ---------- 345
Cəmşidov (Cəmşid) Şamil Allahverdi oğlu -- 122,146

Ç

Çanaqqala döyüşü ---------- 62, 89-90
Çaykovski Pyotr İliç ---------- 121
Çexov Anton Pavloviç ---------- 5
Çobanov Şamoy Məhyəddin oğlu ---------- 6,14

D

Dadaşov Ağadadaş Hacıbala oğlu ---------- 207
Dadaşov Fəxrəddin Əlisahib oğlu -------- 242, 249
Dadaşov Sadiq Ələkbər oğlu ---------- 96,103
Daxili Qoşunlar Günü ---------- 62,88
Defo Daniel---------- ---345
Dövlət Qulluqçularının Peşə Bayramı ------- 162
Dövlət Müstəqilliyi Günü ---------- 263, 288
Dünbüli Heyran xanım Kərim xan qızı -344, 350
Dünya Azərbaycanlılarının Həmrəylik Günü------
---------- 315, 342
Dünya Bankının qurulması-- ---------- --315

E

Ekologiya və Təbii Sərvətlər Nazirliyi
Əməkdaşlarının Peşə Bayramı Günü--------- 124
Eminesku Mixay- ---------- 5
Esxil Aysxilos ---------- 345
Eyyubov Yaqub Abdulla oğlu- ---------- 263

Ə

Əbdülrəhimov Ramiz Həmid oğlu ---------- 160
Əbdürrəhmanov Fuad Həsən oğlu ----- 121, 131
Əbdürrəhmanov Nadir Qəmbər oğlu -------- 312
Əcəmi Əbubəkr oğlu Naxçıvani ---------- 345
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü - 294, 309
Əfəndiyev Asif Qasım oğlu (Asif Ata) ------ 243
Əfəndiyev Timuçin İlyas oğlu ---------- 183, 200
Əfəndiyeva İmruz Məmməd Sadıx qızı- 312,322

Əfəndizadə Muxtar İsmayıl oğlu ----------6,18
Əhməd Zəki Validi Toğan ---------- 313, 328
Əhmədli Sabir Məhəmməd oğlu ---- --- 182, 187
Əhmədov Əsəd Cəlal oğlu---------- 183, 198
Əhmədov Oruc Vəli oğlu ----------59
Əhmədov Teymur Əkbər oğlu ---------- 314, 332
Əhmədova Nuriyyə Əliağa qızı---------- 313
Əhmədova (Qayıbova) Saqibə İsmayıl qızı----243
Əkbərov Canəli Xanəli oğlu---------- 59, 67
Əkbərov Maarif Süleyman oğlu ---------- 208
Əkbərov Rövşən Telman oğlu---------- 161, 171
"Əkinçi" qəzetinin nəşrə başlaması---184, 204
Ələkbərov Ələsgər Hacağa oğlu ---------- 60, 73
Ələkbərov Əliheydər Əbdüləli oğlu----160, 168
Ələsgərov Süleyman Ağababa oğlu ---- 160, 166
Əlibəyli Xanımana Sabir qızı ----------96, 100
Əlibəyzadə Elməddin Məhəmməd oğlu - 293,302
Əlillərin hüquqlarının müdafiəsi Günü - 123,153
Əlirzayev Əli Qənbərəli oğlu ----------60
Əliyev Ağa Əliqəmə oğlu (Ağa Laçınlı) ---- 120
Əliyev Ağadadaş Mahmud oğlu ---------- 262
Əliyev Baba Balababa oğlu ---------- 345
Əliyev Dünyamalı Kərəm oğlu (Dünyamalı Kərəm) ---------- 344
Əliyev Etibar Böyükağa oğlu ---------- 183, 195
Əliyev Əmiraslan Rza oğlu---------- 208, 226
Əliyev Firuz Əliabbas oğlu---------- 160
Əliyev Fuad Yusif oğlu----------35
Əliyev İmamverdi Barat oğlu ---------- 261, 275
Əliyev Qəzənfər Yusif oğlu---------- 122
Əliyev Məmmədbağır Cavad oğlu ----------98
Əliyev Məstan Rəsul oğlu (Məstan Günər)---182
Əliyev Namiq Nəriman oğlu----- ---------- 184
Əliyev Rəşid Camal oğlu--- ---------- -260
Əliyev Seyfəddin Vəli oğlu ---------- 123, 150
Əliyev Telman Abbas oğlu ---------- 123, 151
Əmiraslanov Əli Ağamalı oğlu ---------- 347
Əmirov Əli Cabbar oğlu ---------- 61, 86
Əmirov Faiq İsfəndiyar oğlu ---------- 161, 173
Əmirov Məşədi Cəmil Kərbəlayi Əmiraslan oğlu ---------- 345, 355
Əsədov Ziyafəddin Həmid oğlu ---------- 161
Əsədullayeva Ümmülbanu (bəzi mənbələrdə Ümm-Əl-Banu) Mirzə qızı (Banin) ---- 344, 351
Əsgərova Gültəkin Məlik qızı---------- 293, 298
Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin yaradılması ---------- 348
Əzimzadə Əzim Aslan oğlu ---------- 120, 130
Əziz Nesin ---------- 312

F

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının yaranması ----------7, 27
Faşizm üzərində Qələbə Günü ---------- 124, 155
Feyzullayev Əkpər Əkbər oğlu ---------- 293
Fərzəliyev Şahin Fazil oğlu ----------60
Fətəliyev Əyyub Səfər oğlu---- ---------- 292
Füzuli rayonunun işğalı günü ---------- 209, 238

G

Gənclər Günü----------35
Gərrusi Həsənəli xan Məhəmmədsadıq oğlu-346
Gi de Mopassan ---------- 207
Ginnesin rekordlar kitabının nəşrə başlaması -209,239
Goranboy, Göygöl, Qazax, Şəmkir, Tovuz, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Astara, Cəlilabad, Lerik, Lənkəran, Sabirabad, Salyan, Ağdam, Şuşa, Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan, Şamaxı rayonlarının yaranması ---- 375
Gömrük İşçiləri Günü ----------7, 31
Gömrük-sərhəd nəzarətinin ləğv olunması haqqında Şengen razılaşmasının qüvvəyə minməsi ----------62
Gözəlova-Ağamirova Tamara Cəfər qızı ------33
Güləhmədova-Martınova Gülcahan Şüaulla qızı ---------- 160,167

H

Hacı Zeynalabdin ibn Axund İskəndər Şirvani -- ---------- 347,363
Hacıbaba Hacı Ələsgər oğlu ----------59
Hacıbəyli Üzeyir Əbdülhüseyn oğlu-242,246-247
Hacınski Məhəmməd Həsən Cəfərqulu oğlu - 60,78
Hacıyev Arif Allahyar oğlu----------61
Hacıyev Asif Abbas oğlu ----------97
Hacıyev Hümmət Ələkbər oğlu---------- 261
Hacıyev Maqsud İbrahim oğlu---------- 242
Hacıyev Şəmsəddin Hümmət oğlu ---------- 293
Hacıyev Telman Hacı oğlu---------- 160

Hacıyev Zülfü Saleh oğlu---------- 60
Hacızadə Əlibala Qüdrət oğlu---------- 207, 212
Haqverdiyev Əbdürrəhimbəy Əsəd bəy oğlu -120,125
Hasilova Xalidə Məmməd qızı---------- 96, 99
Haşımzadə Firudin Məmməd Əli oğlu- 314, 334
Hegel Georq Vilhelm Fridrix---------- 208
Herodot---------- 346
Heybətbəyov Haşım bəy Hacı bəy oğlu ----- 120
Heyət Cavad Mirzəli oğlu ---------- 123, 149
Həmzəyeva Zəroş Mirzəbağır qızı -------- 60, 72
Həsənli Hacı Sabir Hüseyn oğlu---------- 261
Həsənov Eldar İsfəndiyar oğlu --------- 313, 327
Həsənov Fərrux Həsən oğlu---------- 347
Həsənov Həsən Əziz oğlu ---------- 261, 278
Həsənov Kərim Hüseyn oğlu---------- 97
Həsənov Tabil Qasım oğlu---------- 183, 194
Həsənov Tahir Tofiq oğlu ---------- 34, 48
Həsənova Rəhilə Mirələsgər qızı ---------- 33
“Həyat” qəzetinin nəşrə başlaması ----- 162, 177
Hüseyni Əbülfəz Aslan oğlu ---------- 344
Hüseynov Dursun Yaqub oğlu ---------- 347
Hüseynov Elşad Eynulla oğlu---------- 261, 276
Hüseynov Əbdül Ənbiyə oğlu ---------- 260, 268
Hüseynov Hüseyn Əli Gülbala oğlu --------- 242
Hüseynov İsmayıl Abbas oğlu ---------- 262, 280
Hüseynov Qasım Zülfəli oğlu---------- 123
Hüseynov Mikayıl Ələsgər oğlu---------- 96, 104
Hüseynov Nəcəf Alı oğlu (Aşıq Nəcəf)------ 344
Hüseynov Rafael Baba oğlu---------- 209, 230
Hüseynov Rauf Rüstəm oğlu---------- 61
Hüseynov Rauf Vəli oğlu---------- 161
Hüseynov Tahir İsmayıl oğlu---------- 5
Hüseynov Teymur Səfər oğlu (Aşıq)--------- 344
Hüseynzadə Əbülqasım Nurməhəmməd oğlu-242
Hüseynzadə Əlipaşa Səbur Fərəculla oğlu ---- 347
Hüseynzadə Muxtar Hüseyn oğlu ---------- 61

X

Xankəndinin işğalı günü ---------- 315,341
Xanlarov Kamil Əli Abbas oğlu ---------- 59
Xeyirov Məmməd Bəy oğlu---------- 314
Xəlilov Aydın Cəbrayıl oğlu---------- 123
Xəlilov Əjdər Nəcəfqulu oğlu (Əjdər Xəlili) --- 7
Xəlilov Qulu Qasım oğlu ---------- 293, 303
Xəlilov Nüsrət Yusif oğlu---------- 123
Xəlilov Pənah İmran oğlu ---------- 183, 199
Xəlilzadə Flora Fətulla qızı---------- 209, 232
Xəndan Cəfər ---------- 122,147
Xocalı soyqırımı günü---------- 35, 56-57
Xocavənd rayonunun işğalı Günü ------ 263, 287
Xoyski Fətəli xan İsgəndər xan oğlu --- 293, 301
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü---------- 209
Xüsusi Təyinatlı Polis Dəstəsinin (OMON) dövlət çevrilişi---------- 62

İ

İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu-120
İbrahimov Aydın Qurban oğlu (Aydın Qurbanoğlu) ---------- 292
İbrahimov Elman İbrahim oğlu ---------- 98
İbrahimov İsmayıl Əli oğlu---------- 315, 336
İbrahimov Məmmədbağır Əli oğlu ---------- 347
İbrahimov Mənsum İsrafil oğlunun ---------- 260
İbrahimov Nazim Sadiq oğlu---------- 34
İbrahimov Sadiq Əli Abbas oğlu ---------- 313
İbrahimov Vaqif Əliyar oğlu (Vaqif İbrahim)-242
İbrahimov Zülfəli İmaməli oğlu ---------- 313
İmanov Muxtar Kazım oğlu---------- 120
İmanova Ağcaqız Kərbəlayi Dadaş qızı ----- 344
İnsan Alverinə Qarşı Mübarizə Günü -------- 123
İnsan Hüquqları Günü---------- 162
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü -62
İsgəndərov Adil Rza oğlu---------- 121, 134
İsgəndərov Famil İsgəndər oğlu -------- 121, 141
İsmayılov Xəlil İsmayıl oğlu ---------- 184, 202
İsmayılov Mahmud Əliabbas oğlu ----- 243, 254
İsmayılova Elmira Məhərrəm qızı---------- 293
İsmayılzadə Cəfər Balaəmi oğlu (Cəfər Rəmzi)----------96

J

Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü---243

K

Kamal Namiq Mustafa Asım Bəy oğlu ------ 312
Karagiçeva-Bretanitskaya Lyudmila --------- 207
Karlov Yevgeni Nikolayeviç ---------- 121, 144

Kazımov Ağakişi Şəmməd oğlu -------- 161, 169
Kazımov Aydın Ələsgər oğlu---------- 5
Kəlbəcər rayonunun işğalı günü ----------98, 115
Kənd Təssərüfatı işçilərinin peşə bayramı günü- 294
Kəngərli Ayaz Mahmud oğlu---------- 294
Kərimov Sabit Qəhrəman oğlu----------97, 110
Kərimov Yusif Abbas oğlu---------- 182, 185
Kitabi -Dədə Qorqud----------348, 364-365
“Kitabi-Dədə Qorqud” dastanının dünya elm aləminə tanıdılması---------- 348
Konstitusiya Günü---------- 294, 306
Kovalyov Yuri Petroviç ---------- 293, 299
Köçərli Firudin Qasım oğlu ---------- 314, 330
Kürəkçay müqaviləsinin imzalanması - 124, 156

Q

Qacar Sürəyya Sədrəddin qızı---------- 121, 132
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü---------- 294
Qafar Kəndli Hərisçi Əli oğlu---------- 260
Qafarzadə Əbdülxalıq Səfərəli oğlu (Əbdülxaliq Cənnəti) ---------- 344
Qaradağlı kəndinin işğal Günü---------- 35, 54
Qarakənd faciəsi ---------- 294, 308
Qarayev Abdulla İsmayıl oğlu ----------7, 25
Qarayev Əbülfəz Fərəc oğlu ----------98, 113
Qaryağdı Cəlal Məhərrəm oğlu--------- 182, 188
Qasımov Qasım Səfər oğlu ---------- 6
Qasımov İxtiyar Qasım oğlu ---------- 60, 77
Qasımov Nemət Abbasəli oğlu----------7, 26
Qasımova Ruhəngiz Nağı qızı ---------- 182
Qayıbov Hüseyn Əfəndi ---------- 346
Qayıbzadə Mirzə Hüseyn Molla Yusif oğlunun (Mirzə Hüseyn Qayıbzadə)---------- 122
Qazıyeva Sevil Həmzət qızı---------- 161
Qəbələ rayon MK-nın yaranması---------- 348
Qədimov Vəli Nurbala oğlu---------- 5
Qədiməliyev Arif Maasif oğlu ---------- 183, 197
Qədirov Fəxrəddin Əbülfət oğlu-------- 183, 201
Qəhrəmanov Nadir Fərrux oğlu---------- 123
Qəhrəmanov Vahid Pənah oğlu ---------- 313
Qəribov Adil Abdulxalıq oğlu---------- 61, 84
Qəmərlinski Əhməd --- ---------- 345, 357
Qəmküsar Əliqulu ---------- 120, 128
QİÇS-ə Qarşı Mübarizə Günü ---------- 315, 338
Qiyasbəyova Rəncur Şahnigar xanım Kazımağa qızı---------- 344
Qızıl Aypara Günü----------62
Qobustan rayonunun yaranması ----------98
Qocayev Fikrət Göyüş oğlu (Fikrət Qoca) - 207,211
Qriboyedov Aleksandr Sergeyeviç ---------- 5
Qrimm Yakob (Qrimm qardaşları) ---------- 5
Qubadlı rayonunun işğalı günü --------- 209, 240
Quliyev Abasqulu Məmməd oğlu ------ 294, 304
Quliyev Cavanşir Rəhim oğlu---------- 292
Quliyev Çərkəz Əli oğlu----------96
Quliyev Dilqəm Qasım oğlu ---------- 209
Quliyev Əbülfəz Aman oğlu----------61
Quliyev Nazim Qabil oğlu---------- 34, 44
Quliyev Vahid Həbibulla oğlu ---------- 243, 252
Quliyev Zabit Adil oğlu---------- 161, 172
Qurban bayramı---------- 243, 258
Qurbanov Novruz Əliyullah oğlu------- 161, 170
Qurbanov Şıxəli Qurban oğlu---------- 208, 228

L

Laçın rayonunun işğalı günü ---------- 124, 157

M

Mahmudbəyov Lətif bəy Əsəd bəy oğlu----- 347
Mahmudov Əvəz Cəlal oğlu (Əvəz Lələdağ)-242
Maqomayev Cəmaləddin Müslüm oğlu ----- 123
Maqomayev Əbdül Müslüm Məhəmməd oğlu-- ---------- 242, 248
Maqsudov Fərəməz Qəzənfər oğlu----------61
Manafov Fəxrəddin Manaf oğlu -------- 207, 215
Maniyev Muxtar Qəmbər oğlu----------96
Mann Tomas---------- 160
Mehbalıyev Səttar Suliddin oğlu ------- 261, 279
Mehdiyev Ağa Cəfər oğlu ---------- 345
Mehdiyev Şəfaət Fərhad oğlu---------- 314, 333
Mehmandarov Səməd bəy Sadıx bəy oğlu - 261,277
Məcidov Eldar Tofiq oğlu---------- 208, 224
Məhəmməd Əsəd bəy (Lev Nussimbaum Əsəd bəy) ---------- 344
Məhərrəmov Abel Məmmədəli oğlu --------7, 24
Məhərrəmov Məlik Məlik oğlu ---------- 208
Məhərrəmov Saleh Heydər oğlu ---------- 243
Məmmədəliyev Yusuf Heydər oğlu----314, 335
Məmmədhəsənov Rafiq Musa oğlu----243, 256

Məmmədov Altay Yusif oğlu (Altay Yusifoğlu) -- 122
Məmmədov Cahangir Rza oğlu---------- 243
Məmmədov Cavanşir Musa oğlu ---------- 261
Məmmədov Elşad Ramiz oğlu ---------- 34, 46
Məmmədov Ələkbər Əmir oğlu ---------- 122
Məmmədov Əli (Əli Səngərli) ---------- 120
Məmmədov Əli Hüseyn oğlu ---------- 208, 219
Məmmədov Əlibaba Balaəhməd oğlu-----33, 39
Məmmədov Gülağa Allahverdi oğlu --- 160, 163
Məmmədov Hacı Məmməd oğlu ---------96, 102
Məmmədov Havar Əmir oğlu---------- 262
Məmmədov Xanoğlan Sadiq oğlu --------- 34, 45
Məmmədov İsaq Mustafa oğlu---------- 60, 80
Məmmədov Məmməd Qəzənfər oğlu----------96
Məmmədov Natiq Bəşir oğlu ---------- 121, 140
Məmmədov Ramiz Mahmud oğlu----------35
Məmmədov Şamxal Əliməmməd oğlu ------ 262
Məmmədov Yaqub Məhəmməd oğlu -- 121, 133
Məmmədov Yaşar Əzizağa oğlu ---------- 209
Məmmədov Yəhya Cəfər oğlu ---------- 262, 283
Məmmədov Yusif Əbülfət oğlu ----------7, 23
Məmmədova Siddiqə Rza qızı ---------- 61, 83
Məmmədova Şəfiqə Haşım qızı---------- 60, 74
Məmmədova-Sarabsakaya Rəna Azər qızı-33, 41
Məmmədyarov Elmar Məhərrəm oğlu------- 183
Məmmədzadə Səyavuş İmran oğlu---------- 260
Mənsurov Bəhruz Qəhrəman oğlu--------- 60, 76
Miçurin İvan Vladimiroviç ---------- 262
Milli Arxiv İdarəsinin Elmi Məlumat Kitabxanasının yaranması ---------- 347
Milli Dirçəliş Günü---------- 294, 307
Milli Qurtuluş Günü ---------- 162, 178
Milli Mətbuat və Jurnalistika Günü ---------- 184
Milli Musiqi Günü---------- 243, 257
Milli Silahlı Qüvvələr Günü---------- 162, 180
Milli Teatr Günü ----------62
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü---------- 62, 92
Mirabov Rəşad Akif oğlu---------- 121, 136
Mirəhmədov Əziz Mirfeyzulla oğlu------- 34, 51
Mirələmov Hüseynbala Fazil oğlu ---------- 161
Mir-Qasımov Rüfət Mir-Əsədulla oğlu--------97
Mirzə Cabbar Əsgər oğlu Əsgərzadə Bağçaban (Cabbar Əsgərzadə) ---------- 120
Mirzə Ələkbər Sabir adına şəhər kitabxana klubun yaranması ---------- 263
Mirzə Qədim İrəvani ---------- 345, 354
Mirzəyev Baba Mahmud oğlu ---------- 292, 296
Mirzəyev Fərhad Əhmədəli oğlunun (Hacı Fərhad Mirzə) ---------- 34, 50
Mirzəyev Kərəm Ərşad oğlu ---------- 121, 142
Mirzəyeva Şüküfə Şamil qızı ---------- 314
Mirzəzadə Xəyyam Hadı oğlu ---------- 260, 270
“Mozalan” satirik kinojurnalının yaradılması--348
Möhləvi Səməd Məmməd oğlu ----------33
Mövsümov Mirağa Mirmövsüm oğlu-------- 346
Muxtarov Murtuza Muxtar oğlu -------- 346, 362
Muradxanova Mailə Balabəy qızı ------ 260, 267
Muradov Şahbaz Musa oğlu----------208 , 229
Musa Daşməhəmmədovun (Aybək) ---------- 5
Musabəyov Yusif Süleyman bəy oğlu------- 123
Musaxanlı Atababa Daşdəmir oğlu---------- 314
Musayev Səfiyar Bəylər oğlu ---------- 183
Mustafayev Çingiz Fuad oğlu---------- 208, 225
Mustafayev Xəlil Məmməd oğlu ----------97
Mustafayev İmam Daşdəmir oğlu --------- 35, 52
Mustafayev Rüstəm Məmmədhənifə oğlu---33, 37
Mustafazadə Vaqif Əziz oğlu ---------- 59, 68

N

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu---208, 227
Namazov Qara Mustafa oğlu---------- 122, 148
Narınc Xatun Cəfərova Narınc Əvəz qızı-345,352
Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ---------- 162
Neft ixrac edən ölkələrin təşkilatı - OPEK-in (The Organization of the Petroleum Exporting Countries) yaradılması Günü ---------- 243
Neftçala rayonunun yaranması----------35
Neftçilər Günü ---------- 243
Nemətov Zəfər Paşa oğlu ---------- 183, 194
Nəbiyev Bəkir Əhməd oğlu ---------- 209, 231
Nəcəfov Adil Məşədi Yusif oğlu----------34
Nəcəfov Fazil İmamverdi oğlu----------33
Nərimanbəyov Toğrul Fərman oğlu ---- 207, 213
“N.Nərimanov” və “Ulduz”metrostansiyaları arasında sərnişin qatarında dəhşətli yanğının baş verməsi ---------- 263
Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu-97,105-106
Nərimanova Nabat Məhəmməd qızı --------- 347

Nəsirov Vaqif İbad oğlu---------- 262, 282
Nəsirov Vəli Hüseynəli oğlu ---------- 314
Nizami adına Ədəbiyyat Muzeyinin Kitabxanasının (indiki Kitabxana və İnformasiya Mərkəzi) yaranması ---------- 348
Novruz bayramı (20-22.03) ---------- 62, 91
Novruzov Ramiz Qəvvam oğlu --------- 121, 135
Nuriyev Elnur Eyvaz oğlu ---------- 208, 222
Nurqələm Mikayılov ---------- 346
Nyu-Yorkda dünyada ilk metro fəaliyyətə başlayıb----------35

O

Ordubad rayonunun təşkili ---------- 348
Osmanlı Vəli Musa oğlu ---------- 122

P

Pənahova Amaliya Əliş qızı ---------- 160, 164
Pirimov Qurban Bəxşəli oğlu ---------- 261, 272
Prokurorluq İşçiləri Günü---------- 263

R

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı ---------- 315
Ramazan bayramı---------- 184, 203
Rasi-zadə Artur Tahir oğlu---------- 34, 49
Respublika Elmi Tibb Kitabxanasının yaranması----------348
Respublika Elmi-Texniki Kitabxanasının yaranması ---------- 348
Respublika Günü---------- 124, 158
Respublikada İctimai Televiziya yayıma başlamışdır---------- 209
Rəfili Mikayıl Həsən oğlu ---------- 97,108
Rəfiyev Faiq Qəzənfər oğlu ---------- 34, 47
Rəfiyev Hacı Məhəmmədhüseyn oğlu ------- 346
Rəhimov Rəhim Kərəm oğlu---------- 122
Rəhimov Süleyman Hüseyn oğlu---------- 59, 64
Rəhman Sabit ---------- 60, 65
Rüstəmov Əhməd Ədil bəy oğlu (Aşıq Əhməd) - 344
Rüstəmov Füzuli Salah oğlu ---------- 313, 325
Rüstəmov Hidayət Eldar oğlu---------- 208, 221
Rüstəmov Qədir Çərkəz oğlu----------292
Rüstəmov Məzahir İzzət oğlu ---------- 60, 75
Rüstəmov Musa İsmayıl oğlu ---------- 123, 152
Rüstəmzadə Rüstəm Bayraməli oğlu----------61
Rzaquliyev Cəbrayıl Manaf oğlu----------347
Rzaquluzadə Mikayıl Manaf oğlu -------- 59, 63
Rzayev Qasım Qara oğlu ---------- 121, 137
Rzayev Nazim Əsədulla oğlu ----------33
Rzayev Rəsul İbrahim oğlu (Rəsul Rza) -120, 126
Rzayev Səməndər Mənsim oğlu ----------5, 10

S

Sadıqov Fikrət Abbas oğlu (Fikrət Sadıq) --- 120
Sadıqov Nürəddin Sadiq oğlu ---------- 313
Salamzadə Oqtay Məmmədhəsən oğlu- 242, 244
Samuel Morze teleqrafının kəşfi ---------- -7
Sarıvəlli Osman ---------- 312, 316
Sereteli Akaki Rostomoviç ---------- 160
Seyid Cəfər Pişəvərinin başçılığı ilə Güney Azərbaycanda Milli Hökumətin yaradılması-315
Seyidbəyli Həsən Mehdi oğlu---------- 313, 324
Seyidov Mirəsgər Mirabdulla oğlu --------- 34,42
Seyidov Yəhya Qasım oğlu----------61
Seyidova İzzət Əli qızı ---------- 261
Seyidzadə Hüseyn Əli oğlu---------- 261,273
Səfərov Bəşir Səfər oğlu (Bəşir Səfəroğlu)-60, 71
Səfərov Sərdar Mədəd oğlu ---------- 208, 220
Səfərov Yaşar Abutalıb oğlu---------- 160
Səfərova Afaq Bəşir qızı ---------- 207,217
Səhiyyə İşçiləri Günü ---------- 162
Səlimova Cənnət Əlibəy qızı---------- 5
Səlimova Şövkət Şahbaz qızı ---------- 313
Səmədli Əli Qafur oğlu ---------- 242, 245
Səmədov Pərviz Əbdüləhəd oğlu ------- 121, 138
Səmədzadə Ziyad Əliabbas oğlu-------- 161, 175
Sənani Möhsün Sadıq oğlu ---------- 160, 165
Səttarov Məqsəd Məhəmmədəli oğlu -------- 346
Sərhəd Qoşunlarınının Peşə Bayramı Günü---------- 209, 236
Slesaryov Mixail Aleksandroviç-------- 121, 139
Sultanov Məlik bəy Qasım bəy oğlu --------- 347
Sultanov Məmmədağa Sultan oğlu ---------- 6
Sultanova (Musabəyova) Ayna Mahmud qızı-346
Süleymanov Nizami Məmməd oğlu---------- 262

Ş

Şabanov Əli Eyyub oğlu ---------- 122
Şahbazov Fəxrəddin İbrahim oğlu---------- 6, 15
Şaxtaxtinskaya Elmira Həbibulla qızı-- 261, 274
Şahtaxtinskaya Zəhra Mustafa qızı---------- 294
Şaxtaxtinski Həbibulla Baxşəli oğlu --------- 243
Şaxtaxtinski Toğrul Nemət oğlu ---------- 262
Şeyxzamanov Məmmədrza İsa oğlu --- 207, 216
Şəfiyeva Nərgiz Mahmud qızı ---------- 261
Şəki şəhər MK-nın yaranması---------- 347
Şərifov Azad Ağakərim oğlu ----------96
Şərifov Kamandar Kazım oğlu---------- 6
Şərifzadə Əziz Qurbanəli oğlu (Əziz Şərif)-61,82
Şıxlinski Əli Ağa İsmayıl Ağa oğlu ------97, 107
Şirəliyev Oqtay Kazım oğlu---------- 347
Şirəliyev Şulan İsmayıl oğlu ----------34
Şirvani Seyid Əzim---------- 182, 185
Şirvanşahlar sarayının tikilməsi ---348, 366-367
Şirye Vera Karlovna ---------- 6
Şoloxov Mixail Aleksandroviç---------- 120, 129
Şopen Friderik Frantsişek ----------33
Štraus İohan ---------- 260
Şuşa rayonunun işğalı Günü---------- 124, 154
Şükürov Sadiq Cəfər oğlu ---------- 314

T

Tağıyev Dilqəm Bəbir oğlu---------- 7
Tağıyev Əlikram Mirhəsən oğlu- ---------- 183
Tağıyeva Röya Seyfəddin qızı ---------- 6
Tağızadə Süleyman İsmayıl oğlu- ---------- 345
Tatlıyev Süleyman Bayram oğlu ---------- 34
Tarixi Abidələrin Mühafizəsi Günü ------98, 116
Televiziya və Radio İşçiləri Günü---------- 294
Topçubaşov Mirzə Cəfər Əlimərdanbəy oğlu-346,361
Topçubaşov Mustafa Ağabəy oğlu ------209,233
Topçubaşova Reyhan İbrahim qızı ------312,319
Tovuz rayon MK-nın yaranması---------- 347
Turxan Gənceyi ---------- 347
Türkman İskəndər bəy Münşi---------- 346
Tvardovski Aleksandr Trifonoviç ---------- 160
Tven Mark ---------- 292

U

Uşaqların Beynəlxalq Müdafiə Günü -------- 162
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü---------- 315

Ü

Ümumdünya Aviasiya və Kosmonavtika Günü-98
Ümumdünya Diabet Günü---------- 294
Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik" Günü ---------- 124
Ümumdünya Əməyin Mühafizəsi Günü-------98
Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü-162
Ümumdünya Gülüş Günü- ----------98, 114
Ümumdünya Hemofiliya Günü ----------98
Ümumdünya Xərçənglə Mübarizə Günü ------35
Ümumdünya İnformasiya Cəmiyyəti Günü- 124
Ümumdünya İstehlakçılar Günü----------62
Ümumdünya Qaçqınlar Günü---------- 162, 179
Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü-124
Ümumdünya Metrologiya Günü---------- 124
Ümumdünya Mülki Müdafiə Günü----------61
Ümumdünya Poçt Günü ---------- 263
Ümumdünya Sağlamlıq Günü ----------98
Ümumdünya Salam Günü ---------- 294
Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü---------- 263
Ümumdünya Tütünlə Mübarizə Günü ------- 124
Ümumdünya Yer Günü----------98, 116
Ümumdünya yoxsulluqla mübarizə Günü-- 263
Ümumxalq Hüzn Günü ----------7, 29
Ümumrusiya Müsəlmanlarının I Qurultayının keçirilməsi ---------- 209
Üzeyir bəy Hacıbəylinin xatirə ev-muzeyinin yaradılması---------- 348

V

Vahabzadə Bəxtiyar Mahmud oğlu----- 207, 210
Vahid Əliağa ---------- 260, 265
Vahid Poeziya Evinin yaradılması---------- 348
Verdiyeva Zemfira Nadir qızı ---------- 293
Vergilər Nazirliyinin yaradılması---------- 35, 53
Vəkilov İlyas Sultan oğlu----------60
Vəkilov Yusif Səməd oğlu---------- 312, 317
Vəlixanlı Nailə Məmmədəli qızı-------- 313, 329
Vəlixanova Fəridə Ağaəli qızı ---------- 262, 281
Vəzirov Firidun bəy Cəlal bəy oğlu----------97

Vəzirov Süleyman Azad oğlu ---------- 293, 300

Y

Yaqubov Zəlimxan Yusif oğlu (Zəlimxan Yaqub)-5,8
Yesenin Sergey Aleksandroviç----------260, 269
Yevlax rayonunun yaranması----------35
Yəhya ibn Əli Xətib Təbrizi----------344, 349
YUNESKO-nun yaranması Günü ----------294
Yunus Əmrə----------345, 353
Yusifli Xəlil Həmid oğlu----------183, 200
Yusifov Naiq Nəsir oğlu----------6, 13
Yusifov Rəşid Əliməmməd oğlu----------242
Yusifzadə Xoşbəxt Bağı oğlu ----------6,20
Yeni il----------7, 28

Z

Zeynalov Cahangir Məşədi Rza oğlu -- 345, 356
Zəngilan rayonunun işğalı Günü-------- 263, 290
Zərdab rayonunun yaranması ----------35
Zorge Rixard ---------- 261
Zülfüqarlı Cümşüd İsmayıl oğlu---------- 7
Zülfüqarov Cahangir Oqtay oğlu ---------- 261

İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.-Bakı, 2004-2005.
2.Azərbaycan XX əsrin informasiya məkanında: I və II cild.-Bakı, 2007.- 820 s.
3.Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.-404 s.
4.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C.1-2 .-Bakı, 2009-2010.
5.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi" .-Bakı, 2007.- 884 s.
6.Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1976-1986.
7.Azərbaycan tarixi günbəgün: kitab-təqvim.- Bakı, 2008.-368 s.
8.Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı.- Bakı, 2010.- 392 s.
9.Azərbaycanın elmi elitası-elmlər doktorları: məlumat kitabçası.- Bakı, 2011.- 320 s.
10.Azərbaycanın tanınmış xanımları=Famous ladies of Azerbaijan.-Bakı, 2002.- 270 s.
11.Cəfərov,T. Məktəblinin ədəbiyyat lüğəti.- Bakı, 2007.- 219 s.
12.Cəlil Məmmədquluzadə ensiklopediyası.- Bakı: Şərq Qərb, 2008.- 320 s.
13.Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar=Role models: Women daring to change.- Bakı, 2008.- 135 s.
14.Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət.- Bakı, 2006.- 267 s.
15.Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.-1056 s.
16.Əlizadə,Y.M. Azərbaycan efiri:tarix və müasirlik.- Bakı: Nurlan, 2006.- 184 s.
17.Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları .- Bakı, 2010.- 288 s.
18.Fəxri Xiyaban=The Honorary Cemetery.- Bakı, 2007.- 208 s.
19.Qarabağ:Yaddaş.-Bakı, 2010.-192 s.
20.Qocayev, Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- 152 s.
21.Mərdanov, M.Azərbaycan təhsil tarixi:3 cilddə.-Bakı, 2011.
22. Muğam ensiklopediyası.- Bakı, 2008.- 215 s.
23.Naxçıvan Ensiklopediyası.-Bakı, 2002.- 594 s
24.Nicat, Ə. Müdriklik məbədi /Əlisa Nicat.- Bakı, 2005.-1108 s.
25.Rəhimli, İ. Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005 - 864 s.
26.Rəhimli, İ. Üç əsrin yüz otuz ili.-Bakı: "Qapp-poliqraf" korporasiyası, 2003.-264 s.
27.Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- 252 s.
28.Şərif, A. XX əsr Azərbaycanın yaradıcı nəsilləri=Творческие династии Азербайджана в XX веке.- Bakı, 2007.-120 s. +120 s.
29.Üzeyir Hacıbəyli Ensiklopediyası.-Bakı: Şərq-Qərb, 2008.-239 s.
30.Varlıq: ensiklopedik toplu.- Bakı, 1998.- 283 s.
31.İnternet resursları

Mündəricat

Keçi (qoyun) ili 3

Yanvar 4-31

Qan yaddaşımız 36

Fevral 32-57

Mart 58-94

Aprel 95-118

May 119-158

İyun 159-180

İyul 181-205

Avqust 206-240

Sentyabr 241-258

Oktyabr 259-290

Noyabr 291-310

Dekabr 311-342

Əlavələr 343-371

Əlifba göstəricisi 372-381

Ədəbiyyat siyahısı 382

2015

Əlamətdar və tarixi günlər təqvimi

Nəşriyyat redaktoru:
Mehriban Cəfərova
Kompyuter yığımı:
N.Alışova
Kompyuter dizayneri:
İ.Zəkəryəyev

Ünvan:
AZ-1000 Bakı ş., Xaqani küç.57
E-mail: contact@anl.az
URL: www.anl.az

Sifariş №: 26
Çapa imzalanmışdır: 20.11.2014
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov

"Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş №409
Tel.: iş (012) 514 73 73
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru